
Müasir Azərbaycan Dövlətinin banisi,
Azərbaycanın ilk xalq müəllimi,
təhsilimizin daimi himayəçisi,
Azərbaycan xalqının Ümummilli Lideri
HEYDƏR ƏLİYEVİN
əziz xatirəsinə ithaf edirəm.

MİSİR MƏRDANOV

AZƏRBAYCAN TƏHSİL TARİXİ

Təhsil NƏŞRİYYAT POLİQRAFİYA MƏRKƏZİ
BAKI–2011



«Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır».

HEYDƏR ƏLİYEV



«Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir».

İLHAM ƏLİYEV

MİSİR MƏRDANOV

AZƏRBAYCAN TƏHSİL TARİXİ

III CİLD

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2011

Elmi redaktor: **Fərzəli Qədirov,**
Əməkdar müəllim

Redaktorlar: **Gülər Mehdiyeva**

Leyla İmaməliyeva,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Mərdanov M.
M54 Azərbaycan təhsil tarixi. III cild. ***(Müstəqillik illəri).*** Bakı, «Təhsil», 2011. 672 səh.

Oxuculara təqdim etdiyimiz «Azərbaycan təhsil tarixi» kitabının III cildində müstəqillik illərində Azərbaycanda milli təhsil sisteminin inkişafından bəhs olunur.

Kitabda Azərbaycanda təhsilin inkişaf tarixi şərti olaraq üç mərhələyə bölünmüşdür.

Birinci mərhələ 1991–1993-cü illəri əhatə edir. Bu mərhələ təhsil sisteminin tənəzzülü, sovet hakimiyyəti illərində qazanılmış nailiyyətlərdən, mütərəqqi ənənələrdən imtina edilməsi dövrü kimi xarakterizə olunur. Bu dövr həm də milli ideyaların təhsil sisteminə gətirilməsi ilə təhsil tarixinə düşmüşdür.

İkinci mərhələ 1993–2003-cü illəri əhatə edir. Bu mərhələdə sabitləşmə meyillərinin təhsilin inkişafına da nüfuz etməsi, milli təhsil quruculuğu sahəsində ilk addımların atılması, dövlətin təhsilə diqqətinin artması, mütərəqqi və inkişafyönümlü qərarların qəbul edilməsi, təhsilin keyfiyyətinə nəzarətin gücləndirməsi, beynəlxalq əlaqələrin intensivləşməsi, təhsilə investisiya qoyuluşuna başlanması dövrü kimi yadda qalmışdır.

Üçüncü mərhələ 2003-cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələni təhsil sistemində köklü islahatlar dövrü də adlandırmaq olar. Məhz həmin dövrdə təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişafyönümlü dövlət proqramı təsdiq olunmuş və uğurla həyata keçirilmişdir.

Kitabın ayrı-ayrı fəsillərində Azərbaycanda təhsilin təşəkkülü, məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və orta ixtisas təhsili pillələri üzrə inkişaf amilləri, habelə pedaqoji mətbuatın inkişaf tendensiyaları öz əksini tapmışdır.

Kitab tədqiqatçılar, müəllimlər, tələbələr və geniş pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

M $\frac{4301000000}{053}$ 2011

© Misir Mərdanov, 2011

ÖN SÖZ

Oxuculara təqdim etdiyimiz «Azərbaycan təhsil tarixi» kitabının III cildində müstəqillik illərində Azərbaycanda milli təhsil sisteminin təşəkkülü, təhsilin ayrı-ayrı pillələri üzrə inkişaf amilləri öz əksini tapmışdır.

«Azərbaycan təhsil tarixi»nin I və II cildləri üzərində işləyərkən hansı ciddi çətinliklərlə rastlaşdığımı həmin kitablarda bildirmişdim. O zaman düşünürdüm ki, müstəqillik dövründə təhsilin inkişaf mərhələləri gözlərimiz önündə və bizim yaxından iştirakımızla baş verdiyindən burada ciddi çətinliklərlə qarşılaşmayacağam. Amma bununla belə, müstəqillik dövrünün təhsil tarixini işləyərkən də özünəməxsus problemlərlə üzləşdim. Əgər qədim dövrdə tarixi materialların əldə edilməsində, sovet dövründə bununla bərabər, mövcud materialların sistemləşdirilməsində çətinliklərlə qarşılaşırdımsa, müstəqillik dövründə belə çətinliklərin olmayacağını güman edirdim.

Lakin, necə deyərlər, qələmi əlimə alıb ölkəmizin müstəqillik illərində təhsil tarixi üzərində işə başlayanda, bu dövrün də özünəməxsus problemləri ilə qarşılaşdım. Çətinliklərdən biri onunla bağlı idi ki, bu dövrdə təhsilin inkişafı sahəsində həyata keçirilən islahatlar, qəbul edilən qərarlar əvvəlki illərlə müqayisədə həm əhatə dairəsinə, həm də mahiyyəti və məzmununa görə həddindən artıq zəngin və irimiqyaslı idi.

Digər bir çətinlik mənbələrlə bağlı idi: əvvəlki dövrlərdə təhsillə bağlı müəyyən tədqiqatlar, tarixi əhəmiyyət kəsb edən mənbələr az da olsa, var idi. Müstəqillik dövründə isə belə tədqiqatlar və mənbələr hələ yeni yaranmağa başlamışdı, bu sahədə tədqiqatlar aparılmamışdı və sanballı əsərlər yox idi.

Müstəqilliyin 20 ili ərzində uzunsürən geniş mübahisə və müzakirələrdən sonra ölkədə milli təhsil sisteminin normativ-hüquqi bazası yaradıldı, 1992 və 2009-cu illərdə «Təhsil haqqında» qanunlar qəbul edildi, onların həyata keçirilmə mexanizmləri barədə hökumət tərəfindən çoxsaylı qərarlar qəbul olundu, milli təhsil sisteminin müasir tələblərə cavab verən məzmununun yaradılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı, yeni milli dərsliklər yaradıldı, təhsildə informasiya-kommunikasiya texnologiyalarının, müasir qiymətləndirmə sisteminin tətbiqi, idarəetmənin və maliyyələşmənin yeni modellərinin hazırlanması və tətbiqi, müəllim hazırlığı, əlavə təhsilin təşkili sahələrində böyük nailiyyətlər əldə olundu və s. Bütün bunları oxucunun nəzərinə necə və hansı həcmdə çatdırmaq barədə də müəllif kimi çox fikirləşdim.

Onu da qeyd edim ki, Azərbaycan təhsil tarixini yazmağa başlayanda onu oxuculara üç cilddə təqdim etməyi düşünmüşdüm: I cild – qədim dövrdən 1920-ci ilədək, II cild – sovet dövrü, III cild – müstəqillik illəri.

III cild üzərində işləyərkən məlum oldu ki, material olduqca genişdir və qərara gəldim ki, bu dövrün təhsil tarixini iki cilddə verim. III cilddə müstəqillik illərində məktəbəqədər təhsil, ümumi təhsil, məktəbdənkənar təhsil, ilk peşə-ixtisas təhsili və orta ixtisas təhsilinin, IV cilddə isə ali təhsil və ondan sonrakı təhsilin inkişafından bəhs edim.

Kitabın hazırlanması prosesinə müsbət təsir edən bir sıra amillər də var idi. Bir tərəfdən mən özüm və yaxın ətrafımda olan insanlar Azərbaycanın sovet təhsili sisteminin yetirmələri idik, onun müsbət və mənfi cəhətlərini yaxşı bilirdik. İkinci bir cəhət isə ondan ibarət idi ki, mən müstəqilliyin ilk illərində Azərbaycanda və onun təhsil sistemində mənfi və müsbət istiqamətlərdə atılan addımların bilavasitə içərisində idim. Bütün bu hadisələr, necə deyərlər, gözlərimin qarşısında baş vermişdi. Heç bir müsbət nəticə verməyən tələsik atılan addımların da, təkamül yolu ilə həyata keçirilən və uğurla nəticələnən hadisələrin də şahidi idim.

Müstəqilliyin ilk illərində milli təhsil quruculuğunda iştirak edən insanların bu mühüm işə münasibətləri də müxtəlif idi. Bəziləri düşünürdülər ki, indiyə qədər mövcud olmuş təhsil sistemindən tamamilə imtina edərək, yeni milli təhsil sistemi yaratmaq lazımdır. Digərləri düşünürdü ki, Azərbaycanda təhsil quruculuğu birbaşa Avropa təhsil sistemi əsasında həyata keçirilməlidir.

Üçüncü yanaşma tərəfdarları düşünürdülər ki, sovet dövründə təhsilin təşəkkülü sahəsində qazanılmış təcrübə və nailiyyətlər əsas götürülməklə, Azərbaycan xalqının milli dəyərləri, tarixi inkişaf meyilləri, adət-ənənələri nəzərə alınmaqla, beynəlxalq təcrübəyə və Avropa təhsil məkanına istinad edilməklə ölkəmizdə milli təhsil quruculuğu aparılmalıdır.

Ümummilli lider Heydər Əliyev bu yanaşmanın doğruluğunu çox sərrast ifadə etmişdi: «Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanılmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində – Qərbdə də, Şərqdə də əldə edilmiş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik».

Müstəqillik dövrünün təhsil tarixi əvvəlki dövrlərə nisbətən bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənirdi. İnkar etmək olmaz ki, bu gün ölkəmizdə fəaliyyət göstərən məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas, ali, eləcə də əlavə təhsil müəssisələrinin geniş şəbəkəsinin, güclü elmi-pedaqoji kadr potensialının bünövrəsi məhz sovet dövründə, təhsil sahəsində aparılan məqsədyönlü siyasət nəticəsində qoyulmuş və həyata keçirilən genişmiqyaslı təhsil quruculuğu işi gələcək inkişafın güclü təməlini qoymuşdur.

Həmin dövrdə Azərbaycanda məktəbəqədər təhsil müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları yeni inkişaf pilləsinə yüksəlmiş, bu istiqamətdə ardıcıl aparılan dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır.

Müstəqillik illərində Azərbaycanda təhsilin inkişaf tarixini şərti olaraq üç mərhələyə bölmək olar.

Birinci mərhələ 1991–1993-cü illəri əhatə edir. Bu mərhələ təhsil sisteminin tənəzzülü, sovet hakimiyyəti illərində qazanılmış nailiyyətlərdən, mütərəqqi ənənələrdən imtina edilməsi dövrü kimi xarakterizə olunur. Onu da qeyd etmək lazımdır ki, bu dövr həm də təhsil tarixinə milli ideyaların təhsil sisteminə gətirilməsi ilə düşmüşdür.

İkinci mərhələ 1993–2003-cü illəri əhatə edir. Bu mərhələdə sabitləşmə meyillərinin təhsilin inkişafına da nüfuz etməsi, milli təhsil quruculuğu sahəsində ilk addımların atılması, dövlətin təhsilə diqqətinin artması, mütərəqqi və inkişafyönümlü qərarların qəbul edilməsi, təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi, beynəlxalq əlaqələrin intensivləşməsi, təhsilə investisiya qoyuluşuna başlanması dövrü kimi yadda qalmışdır.

Üçüncü mərhələ 2003-cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələni təhsil sistemində köklü islahatlar dövrü də adlandırmaq olar. Məhz həmin dövrdə təhsil tariximizdə ilk dəfə olaraq 16 inkişafyönümlü dövlət proqramı təsdiq olunmuş və uğurla həyata keçirilməkdədir. Təhsilin ayrı-ayrı sahələrinin inkişafı üzrə real vəziyyətin təhlili əsasında hazırlanıb təsdiq edilmiş bu proqramların reallaşdırılması nəticəsində təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin reallaşdırılması, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, ilk peşə-ixtisas, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, de-institutlaşdırma və digər bu kimi sahələrdə əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Bu mərhələdə Azərbaycan yalnız regionun deyil, həm də Avropanın siyasi cəhətdən ən stabil ölkəsinə çevrilmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmış, iqtisadi inkişaf tempinə görə dünyada lider ölkələr sırasına daxil olmuşdur. Ölkəmizin iqtisadi qüdrətinin

artması təhsilə yönəldilən investisiyaların həcmini də əhəmiyyətli şəkildə artırmış, dövlət büdcəsindən təhsilə ayrılan xərclər 2003-cü ildəki 243 milyon manatdan 2011-ci ildə 1,5 milyard manata yüksəlmişdir. İnvestisiya xərcləri də 2004-cü ildəki 5 milyon manatdan 2011-ci ildə 273 milyon manata çatmışdır. Düşünürəm ki, bu mərhələni Azərbaycanda təhsilin inkişafının intibah dövrü adlandırsaq, heç də yanılmarıq.

Onu da qeyd edim ki, sovet dövrünün yetişdirmələri olan insanlar kimi çoxlarımız elə düşünürdük ki, müstəqillik əldə edən kimi, bütün problemlərimiz həll olunacaq, təhsilimizin keyfiyyəti yüksələcək və dünya təhsil sistemində ön yerlərdən birini tutacaq. Biz buna ürəkdən inanırdıq. Lakin hansı çətinliklərlə rastlaşacağımızı təsəvvür belə etmirdik.

Uzun illər həsrətlə gözlədiyimiz müstəqilliyin ilk illərində Azərbaycan çox ciddi sınaqlarla qarşılaşdı. Təhsil müəssisələrinin maddi-texniki bazası dağıdılmışdı, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırılmışdı, uşaqların icbari təhsilə cəlb olunması səviyyəsi aşağı düşmüşdü. Ən qabiliyyətli, bilikli, savadlı təhsil işçiləri, xüsusilə ali məktəblərin professorları dolamışıq dalınca Türkiyəyə, İrana, Rusiyaya və dünyanın digər ölkələrinə üz tutmuşdular. Xarici ölkələrlə təhsil sahəsində əlaqələr tamamilə kəsilmişdi. Ermənistanın torpaq iddiası üzərində qurulan təcavüzü, ölkədəki qeyri-sabitlik, Azərbaycan ərazilərinin işğal olunması, bütün sahələr kimi, təhsil sistemini də iflic vəziyyətinə salmışdı.

Dağlıq Qarabağ və ətraf rayonların işğalı nəticəsində 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar təhsil müəssisəsi, 11 peşə məktəbi, 9 orta ixtisas məktəbi, 1 ali məktəb (Xankəndi Pedaqoji İnstitutu), 3 ali məktəb filialı (Bakı Musiqi Akademiyasının Şuşa filialı, Azərbaycan Neft Akademiyasının Şuşa filialı, Gəncə Pedaqoji İnstitutunun Laçın filialı) dağıdılmış və «məcburi köçkün»ə çevrilmişdi. Ermənistanın silahlı qüvvələri tərəfindən ərazimizin 20%-nin işğalı ilə əlaqədar olaraq 1 milyondan çox azərbaycanlı, o cümlədən 175600 nəfər şagird və tələbə, 19400 təhsil işçisi, tədris müəssisələrində çalışan texniki işçi öz doğma ölkəsində didərgin salınmışdı. Həmin dövrdə qaçqın və məcburi köçkünlərin əksəriyyətinin təhsil müəssisələrinin tədris və yataqxana korpuslarında, uşaq bağçaları və məktəbdənkənar tərbiyə müəssisələrində məskunlaşması nəticəsində respublikada təhsil sisteminin ahəngi ciddi şəkildə pozulmuşdu. Ölkənin şəhər və rayonlarında 9 ali məktəb, 17 texnikum, 48 texniki peşə və 850-yə qədər ümumtəhsil məktəbinin tədris və yataqxana korpuslarında, 100-dən çox uşaq bağçasında 7500-dən çox qaçqın və məcburi köçkün ailəsi məskunlaşmışdı.

Bütün çətinliklərə baxmayaraq, dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan tarixində bütövlükdə təhsil sisteminin milli ənənələr və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi şərait və imkan yaranmışdı və bu imkandan istifadə etmək lazım idi.

1991–1992-ci illərdə təhsillə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdi. 25 dekabr 1991-ci ildə «Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsindən sonra Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı oldu. Qərarda 1992-ci ilin sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslərin yeni əlifba ilə keçirilməsi, orta məktəblərin yuxarı siniflərində, texniki peşə, orta ixtisas və ali məktəblərdə latın qrafikalı əlifbanı öyrədən fakültativ məşğələlərin təşkil edilməsi, bütün təhsil ocaqlarında müəllimlərin və digər işçilərin latın qrafikalı əlifbanı öyrənməsi üçün lektoriyaların yaradılması öz əksini tapdı. Eyni zamanda qərarda 1993-cü ildə orta, orta ixtisas və ali məktəb dərsliklərinin latın qrafikalı əlifba ilə çap edilməsi, orta məktəblərin ibtidai siniflərində latın qrafikalı əlifbanın öyrənilməsinə başlanması, təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın tətbiqinin başa çatdırılması nəzərdə tutulmuşdu.

Əlbəttə, xüsusi hazırlıq işi aparılmadan, nəşriyyat-poliqrafiya müəssisələrinin imkanları nəzərə alınmadan yeni qrafikaya keçilməsi xeyli çətinliklər də yaratdı. Azərbaycanın həyatında çoxsaylı taleyüklü problemləri həll etmiş Ümummilli lider Heydər Əliyev, 1991-ci ildə qəbul olunmuş, lakin həyata keçirilmə mexanizmi işlənməmiş bu məsələnin də həllinə nail oldu. Məhz Heydər Əliyevin Sərəncamı ilə 2000-ci

ildən ölkədə, o cümlədən təhsil sistemində latın qrafikasına tam keçid bərqərar oldu.

Həmin dövrdə milli təhsil quruculuğunun aparılması üçün təhsil qanunvericiliyinin yeniləşdirilməsinə ciddi ehtiyac yaranmışdı. İlk növbədə yeni təhsil qanunu qəbul edilməli idi. Ciddi müzakirələrdən sonra 7 oktyabr 1992-ci il tarixdə Azərbaycan Respublikasının Təhsil Qanunu qəbul edildi.

Qanunda bir sıra mütərəqqi müddəalar, o cümlədən dövlət təhsil müəssisələrində əlavə pullu təhsil qruplarının yaradılması, dövlət ali məktəb tələbələrinə təhsilini başa vurduqdan sonra beş il müddətinə ödəmək şərtilə kreditin verilməsi, orta təhsil pilləsində təlimin təmayüllər üzrə aparılması, ali təhsilin çoxpilləli sisteminə keçilməsi (bakalavriat, magistratura, doktorantura), ali məktəblərə muxtariyyət hüququnun verilməsi, qeyri-dövlət təlim-tərbiyə müəssisələrinin yaradılması, mütəxəssis hazırlığı aparmaq üçün ixtisaslara lisenziya verilməsi, ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyasının keçirilməsi, yeni tipli təhsil müəssisələrinin yaradılması, təhsil müəssisələri rəhbərlərinin seçki yolu ilə müəyyənləşdirilməsi, ümumtəhsil, peşə məktəblərində və peşə liseylərində həftəlik tarif stavkasının 12 saat (həmin dövrdə həftəlik dərs yükü 18 saat idi), ali və orta ixtisas məktəblərində professor-müəllim heyətinin illik dərs yükünün 450–500 saat (həmin dövrdə dərs yükü 720 saat idi) müəyyən edilməsi, pedaqoji işçilər üçün imtiyazların nəzərdə tutulması, təhsil fəaliyyəti sahəsində vergi güzəştlərinin tətbiq olunması və s. məsələlər təsbit olunmuşdu.

Lakin Qanunda əsas təhsil pilləsinin beş ildən dörd ilə endirilməsi, onbirillik icbari ümumi orta təhsildən səkkizillik icbari təhsilə keçid mahiyyət etibarilə ümumi təhsilin inkişafında geriyə doğru bir addım idi.

Sənəddə bir sıra müsbət və mütərəqqi cəhətlərin olmasına baxmayaraq, qanun hazırlanarkən mövcud reallıqlar, ölkənin sosial-iqtisadi durumu nəzərə alınmadığına görə bir çox məsələlərin qanuna daxil edilməsində tələsikliyə yol verilmişdi və təbii ki, sonradan həmin məsələlərin həyata keçirilməsi mümkün olmadı. Müstəqilliyin ilk illərində milli təhsil quruculuğu sahəsində müəyyən addımlar atılsa da, nəzərdə tutulan bir sıra mühüm məsələləri həll etmək mümkün olmadı.

Azərbaycan xalqının çağırışı ilə Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra vəziyyət tamamilə dəyişdi. 1994-cü il mayın 12-də atəşkəs elan edildi və ölkədə siyasi sabitliyin bərpası və iqtisadiyyatın dirçəlişi sahəsində uğurlu nailiyyətlərin təməli qoyuldu. Bütün bunlar təhsil sistemində nizam-intizamı, bu sahədə çalışan insanların sosial müdafiəsini xeyli yaxşılaşdırdı və təhsilin inkişafına öz təsirini göstərdi.

1995-ci ildən etibarən ölkədə siyasi sabitlik bərqərar oldu, ölkə iqtisadi cəhətdən ciddi uğurlar əldə etdi.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Bu, müstəqil ölkəmizin ilk Əsas Qanunu idi.

Konstitusiyanın «Təhsil hüququ» adlanan 42-ci maddəsində dövlətin təhsil siyasətinin əsas prinsipləri təsbit olundu:

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır;

II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir; təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir; maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir; dövlət minimum təhsil standartlarını müəyyən edir.

Artıq 1998-ci ildə ölkədə təhsil sahəsində yeni islahatların həyata keçirilməsi üçün şərait yaranmışdı. Bütün bunların məntiqi nəticəsi olaraq 1998-ci il martın 30-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» Sərəncam imzaladı. Sərəncama əsasən təhsil sahəsində islahatlar aparmaq üçün komissiya yaradıldı və mən həmin komissiyanın sədri təyin olundum. Komissiyanın tərkibinə nazirlər, komitə sədrləri və digər vəzifəli şəxslər daxil idi. Qarşıya qoyulan tapşırıqlardan biri də bu idi ki, Dünya Bankının Bakı ofisi ilə əlaqələr yaradılsın və islahatların həyata keçirilməsində Dünya Bankı Azərbaycana yardım göstərsin. Komissiya və onun yanında yaradılmış işçi qrupları təxminən bir il ərzində müstəqillik dövründə ilk dəfə olaraq «Azərbaycan Respublikasının təhsil sahəsində

İslahat Proqramı»nı hazırladı. Dəfələrlə müxtəlif səviyyələrdə, o cümlədən Heydər Əliyevin şəxsən özünün iştirakı ilə müzakirələr aparıldı və 1999-cu il iyunun 15-də Proqram Prezident tərəfindən təsdiq olundu. Burada təhsilin bütün pillələri, onların hər birinin mövcud vəziyyəti, problemlər, onların həlli istiqamətində mərhələlər üzrə həyata keçiriləcək tədbirlər öz əksini tapdı.

İslahat Proqramının əsas məqsədi məktəbəqədər, ümumi, texniki peşə, ali təhsil sahəsində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən normativ-hüquqi bazanı yaratmaq, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş, cəmiyyətin tələblərinə əsaslanan təhsil siyasətinin həyata keçirilməsi idi.

Proqrama əsasən Azərbaycanda təhsil islahatlarının 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu.

***I mərhələ** hazırlıq mərhələsi adlanırdı və 1999-cu ili əhatə edirdi. Bu mərhələdə vətəndaşların təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlər aparıldı.*

*Qısa müddətli perspektivi əhatə edən **II mərhələdə** (2000–2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi sabitliyinin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsi, genişmiqyaslı islahatların aparılması üçün təşkilati, hüquqi-normativ, kadr, maliyyə, maddi-texniki, elmi, tədris-metodiki və informasiya təminatının, yeni idarəetmə modelinin yaradılması istiqamətində əhəmiyyətli addımlar atıldı.*

***III mərhələ** 2004-cü ildən sonrakı dövrü əhatə edirdi və bu mərhələdə Proqramda nəzərdə tutulan bütün tədbirlər həyata keçirilməli idi.*

Azərbaycanda uğurlu islahatların aparılmasına Dünya Bankı ilə birgə həyata keçirilən layihələr əhəmiyyətli töhfə verdi. 1999-cu il iyunun 29-da Azərbaycan hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş» imzalandı və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edildi.

Dünya Bankının təsnifatına əsasən kredit mahiyyətcə öyrədici və innovasiya xarakteri daşıyırdı. Yəni bu kiçikhəcmli kreditin məqsədlərindən biri də Azərbaycanın təhsil sistemində Dünya Bankının qaydaları, prosedurları, təlimatları üzrə zəruri bilik və bacarıqlar formalaşdırmaq, müvafiq kadr hazırlığını təmin etmək, təhsil innovasiyalarını dəstəkləməkdən ibarət idi. Layihənin dəyəri 5,5 milyon ABŞ dolları təşkil etmişdi ki, bu məbləğin də 500 min dolları Azərbaycan hökumətinin payına düşürdü.

Birinci layihə uğurla başa çatdırıldıqdan sonra 2003–2007-ci illəri əhatə edən Təhsil Sektorunun İnkişafı Layihəsinin həyata keçirilməsi üçün Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən 18 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayrıldı. Azərbaycan Hökumətinin Layihədə iştirak payı 2,8 milyon ABŞ dolları təşkil edirdi. Donor təşkilat kimi Açıq Cəmiyyət İnstitutu (Azərbaycan) Layihəyə texniki yardım göstərmək məqsədilə 200 min ABŞ dolları məbləğində vəsait ayırmışdı.

Layihənin aşağıdakı istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulmuşdu: ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu (kurikulum islahatı, müəllim hazırlığı, dərsliklər və oxu materialları); səmərəlilik və maliyyə islahatları (maliyyələşdirmə və büdcə islahatları, rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, Məktəb Qrantı Proqramı); idarəetmə, planlaşdırma və monitorinq (şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemi, təhsilin idarəolunması üzrə məlumat sistemi (TİMS), idarəetmə və planlaşdırma imkanları); layihənin əlaqələndirilməsi və monitorinqi.

Bu layihə də uğurla başa çatdırıldıqdan sonra növbəti layihənin hazırlanması istiqamətində işlərə başlandı. Nəticədə Təhsil Sektorunun İnkişafı üzrə 2009–2014-cü illəri əhatə edən İkinci Layihə hazırlandı və təsdiq edildi. Layihə aşağıdakı məsələləri əhatə edirdi: ümumi təhsil üzrə kurikulumun tətbiqinə dəstək və kurikulum islahatlarının davam etdirilməsi (yeni tədris materiallarının hazırlanması və məktəb kitabxanalarının müasirləşdirilməsi); pedaqoji kadrların əlavə təhsil sisteminin müasirləşdirilməsi; təhsilin keyfiyyətinin yüksəldilməsində təhsilalanların qiymətləndirilməsindən istifadə; məktəbə hazırlığın inkişaf etdirilməsi; təhsil siyasətinin hazırlanması və

idarəolunması imkanlarının gücləndirilməsi (təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi, TİMS-in ölkə səviyyəsində həyata keçirilməsi və ondan istifadənin genişləndirilməsi, məktəb şəbəkəsinin rasionallaşdırılması və adambaşına maliyyələşdirmə islahatları, təhsil islahatlarına dair ictimaiyyətin məlumatlandırılması); layihənin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi.

Təqdim olunan kitabın I fəsli müstəqillik illərində təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil sahəsində görülmüş işlərdən, problemlərdən və qarşıda duran vəzifələrdən bəhs edir.

Məhz müstəqillik illərində məktəbəqədər təhsilin uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malik olması tədricən cəmiyyət tərəfindən qəbul edilməyə başlandı. Həyata keçirilən islahatlar nəticəsində ölkə üzrə 37 yeni uşaq bağçası tikilib istifadəyə verilmiş, 52 məktəbəqədər təhsil müəssisəsi əsaslı təmir edilmiş, 184 müəssisə müasir avadanlıqlarla təchiz olunmuşdur. Məktəbəqədər təhsilə bu cür münasibətin formalaşması nəticəsində ölkə üzrə bağçalara cəlb olunan uşaqların sayı 2009-cu ildəki 103 mindən 2011-ci ildə 113 minə yüksəlmiş, Bakı şəhərində bu göstərici sayı 26%-i ötmüşdür. Uşaq bağçaları üçün müasir tələblər səviyyəsində 190 adda təlim vəsaitləri hazırlanıb müəssisələrə çatdırılmışdır.

Hazırda Azərbaycanda 1660 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, həmin müəssisələrdə 113 mindən artıq uşaq tərbiyə və təhsil alır, 14 min pedaqoji işçi fəaliyyət göstərir. Məktəbəqədər təhsil müəssisələrində tədris-köməkçi və texniki heyətin sayı 16345 nəfər təşkil edir.

Müstəqillik illərində ölkədə 40-dək özəl məktəbəqədər təhsil müəssisəsi lisenziya almış və fəaliyyətə başlamışdır. Həmin müəssisələrdə 1700 uşağın tərbiyə və təlimi ilə 304 pedaqoji işçi məşğul olur.

Kitabın II fəsli təhsilin ən vacib pilləsi olan ümumi təhsilə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, müstəqillik illərində təhsilin bu pilləsi istiqamətində görülmüş işlər, əldə edilən nəticələr daha genişmiqyaslı olmuşdur. Həyata keçirilən islahatyönümlü tədbirlərin də böyük əksəriyyəti məhz ümumi təhsilin məzmununun yeniləşdirilməsinə və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəlmişdir. Azərbaycanda 2004-cü ildən başlanan məzmun dəyişiklikləri təlim-tədris prosesinin sistemli planlaşdırılmasını əks etdirən kurikulum islahatları adı altında aparılırdı.

Azərbaycan təhsili üçün yeni olan Milli Kurikulum sənədinin hazırlanmasında tanınmış alim-pedaqoqlar, təhsil mütəxəssisləri, metodistlər, məktəb rəhbərləri, müəllimlər yaxından iştirak edirdilər. Gərgin əmək sayəsində ərsəyə gətirilmiş «Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu) Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli qərarı ilə təsdiq olundu. Beləliklə də, ümumi təhsil sistemində «hafizə», «yaddaş» məktəbindən imtina edildi, «təfəkkür», «düşüncə» məktəbinə keçidin real əsası qoyuldu.

2007-ci ildə təlim Azərbaycan və digər dillərdə aparılan ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün yeni fənn kurikulumları və tədris planları təsdiq olundu. Tələbyönümlü, nəticəyönümlü, şəxsiyyətyönümlü və inteqrativ xarakter daşıyan yeni kurikulumların tətbiqi ilə əlaqədar xüsusi təlimçilər hazırlandı və həmin təlimçilərin köməyi ilə 2008/09, 2009/10, 2010/11, 2011/12-ci tədris illəri ərəfəsində ölkə üzrə I siniflərdə dərs deyən 35000 ibtidai sinif müəllimi öyrədici təlim kurslarından keçirildi. V–XI siniflər üçün də yeni kurikulumlar hazırlanıb müzakirələrdən keçirilərək 2011-ci ilin iyununda təsdiq olundu.

Bu dövrdə yeni dərslik siyasəti də uğurla həyata keçirilirdi. Məhz müstəqillik illərində ölkənin bütün ümumtəhsil məktəblərinin şagirdləri milli-mənəvi və bəşəri dəyərlərə uyğun, yüksək poliqrafik keyfiyyətlə hazırlanmış və çap olunmuş dərsliklərlə pulsuz təmin olunurdu.

2005-ci ildə qeyri-hökumət təşkilatlarının nümayəndələri də cəlb olunmaqla «Ümumi təhsil sistemində dərslik siyasəti» sənədi hazırlandı və Nazirlər Kabineti ilə razılaşdırıldıqdan sonra təsdiq edildi. Təhsil tarixində ilk dəfə olaraq Dərslikləri Qiymətləndirmə Şurası yaradıldı. Əsas yeniliklərdən biri də bu idi ki, yeni yaranan dərsliklər yalnız həmin Şura

tərəfindən ekspertizadan keçirilib müsbət qiymətləndirildiyi halda təsdiq olunur, nəşrinə və istifadəsinə razılıq verilirdi.

2003–2011-ci illərdə ümumi təhsil sistemində istifadə edilən 400 adda dərslik milli-mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda yenidən işlənərək, 40 milyondan çox tirajla çap edilmiş,yeni kurikulum tətbiq edilən I–IV siniflər üçün dərslik komplektləri (şagird üçün dərslik, iş dəftəri, müəllim üçün vəsait) hazırlanmışdır.

Müstəqilliyin bərpasından sonra ölkəmizdən kənarda yaşayan soydaşlarımızın dərsliklərlə təmin edilməsinə xüsusi diqqət yetirilməyə başlanmışdır. 1994-cü ildən etibarən Gürcüstanın təlim Azərbaycan dilində olan məktəbləri I–XI sinif dərslikləri və dərs ləvazimatları ilə təmin edilir. Dağıstanın Azərbaycan məktəblərinə və Amerika, Hollandiya, Macarıstan, İngiltərə, Kanada, Rusiya, Ukrayna, Belarus, Almaniya və Orta Asiya respublikalarında fəaliyyət göstərən «Bazar günü» məktəblərinə də hər il soydaşlarımız üçün dərslik və dərs vəsaitləri göndərilir.

Məktəb kitabxanaları əlavə oxu materialları – uşaq ensiklopediyaları, Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri ilə təmin edilmişdir. Heydər Əliyev Fondunun yaxından köməyi ilə ayrı-ayrı fənlər üzrə 140 adda 1,4 milyon nüsxə tədris-əyani vəsait hazırlanaraq məktəblərə verilmişdir. Eyni zamanda məktəblər 19 adda 351 min nüsxə xəritə ilə təmin edilmişdir.

2004-cü ildən ümumi təhsil sistemində yeni qiymətləndirmə mexanizminin hazırlanması və tətbiqi sahəsində işlərə başlanıldı. Dünya təcrübəsinə uyğun olaraq, ölkəmizdə məktəbdaxili, milli və beynəlxalq qiymətləndirməni əhatə edən yeni qiymətləndirmə sisteminə keçildi. 2005/06-cı tədris ilində təhsil tariximizdə ilk dəfə olaraq İmişli və Bakı şəhərinin Xətai rayonunun ümumtəhsil məktəblərində təhsil alan 6 min XI sinif şagirdi əhatə olunmaqla mərkəzləşdirilmiş buraxılış imtahanı keçirildi. Növbəti illərdə mərkəzləşdirilmiş buraxılış imtahanlarının miqyası daha da genişləndirildi və 2009/10-cu tədris ilində ölkənin bütün ümumtəhsil məktəblərinin IX və XI siniflərini əhatə etdi. Yeni qiymətləndirmə sisteminin tətbiqinin hüquqi və təşkilati əsasları 2009-cu ildə Azərbaycan Hökuməti tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası»nda öz əksini tapdı.

Ümumtəhsil məktəblərində buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsi müəllimlərin, şagirdlərin və valideynlərin məsuliyyətini artırdı, təhsilin keyfiyyət göstəricilərinin nisbətən yüksəlməsinə səbəb oldu. Eyni zamanda ümumi təhsil sistemində ilk dəfə olaraq milli və beynəlxalq qiymətləndirmə tədbirləri də həyata keçirildi.

Müstəqillik illərində istedadlı şagirdlərə dövlət qayğısı artırıldı, belə şagirdlər üçün təhsil müəssisələrinin şəbəkəsi genişləndirildi, müstəqilliyin ilk illərində ölkədə lisey və gimnaziyaların sayı 4 idisə, 2011-ci ildə belə təhsil müəssisələrinin sayı 75-ə çatdırıldı.

Müstəqil ölkəmizin 20 illik təhsil tarixində ilk dəfə olaraq 2010/11-ci tədris ilində təhsildə xüsusi nailiyyətlər qazanan 53 məzun qızıl və gümüş medallarla təltif olundu.

«Təhsil haqqında» Qanuna müvafiq olaraq 2011/12-ci tədris ilindən 5 məktəbdə tam orta təhsil səviyyəsində təmayüllər üzrə təlimə başlandı.

Ölkə Prezidenti tərəfindən təsdiq olunmuş və 2006–2010-cu illəri əhatə edən «İstedadlı uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı» uğurla həyata keçirildi.

Müstəqilliyin ilk illərindən Ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə özəl Azərbaycan–türk liseyləri fəaliyyətə başladı. Azərbaycan–türk liseylərinin şagirdləri öz nailiyyətləri ilə yalnız Azərbaycanda deyil, dünya və beynəlxalq səviyyəli bilik yarışlarında təhsil göstəriciləri ilə fərqləndilər. Xüsusi vurğulanmalıdır ki, ölkəmizdə fəaliyyət göstərən dövlət liseyləri də müstəqillik illərində böyük inkişaf yolu keçdi, hətta göstəricilərinə görə özəl Azərbaycan–türk liseylərini də qabaqladı. Müstəqilliyin yetirməsi olan Bakı Avropa Liseyi dünyanın hər hansı bir ümumi təhsil müəssisəsi ilə rəqabətdə qalib çıxacaq səviyyəyə çatdı. 2001-ci ildə yaranan ilk özəl ümumtəhsil məktəbi ilə bu sahədə özəl sektor fəaliyyətə başladı.

Azərbaycan məktəblilərinin dünya və beynəlxalq fənn olimpiadalarında iştirakı müstəqillik illərində

müntəzəm xarakter aldı. Belə yüksək səviyyəli bilik yarışlarında Azərbaycan məktəbliləri 18 qızıl, 38 gümüş, 71 bürünc medala layiq görülmüşlər. Medalların sayına görə Azərbaycan dünya ölkələri arasında ilk onluqdadır.

2005-ci ildən etibarən təhsil sistemində bilavasitə keyfiyyətin yüksəldilməsinə xidmət edən informasiya-kommunikasiya texnologiyaları (İKT) tətbiq edilməyə başlanıldı, ilk dəfə olaraq elektron tədris resursları təcrübəyə gətirildi.

Müstəqillik illərində ümumtəhsil məktəblərinin İKT ilə təminatı və təhsilin informasiyalaşdırılması sahəsində 2005–2007 və 2008–2013-cü illəri əhatə edən iki dövlət proqramı təsdiq edildi, onların həyata keçirilməsi nəticəsində ölkənin ümumtəhsil məktəblərində hər 20 şagirdə bir kompyuter nisbəti təmin olundu, halbuki 2004-cü ildə hər 1063 şagirdə 1 kompyuter düşürdü. Dövlət proqramları çərçivəsində indiyədək təhsil müəssisələrinə 33708 ədəd kompyuter, 2809 ədəd proyektor və noutbuk dəsti verilmişdir. «Bir şagirdə bir kompyuter» konsepsiyasının reallaşdırılması istiqamətində 2008–2011-ci illərdə ümumilikdə 4000 şagird netbukla təmin edilmişdir.

«Xalq kompyuteri» layihəsi çərçivəsində 9000 müəllim kompyuterlə təmin olunmuşdur. Təhsil müəssisələrinin inzibati, pedaqoji və texniki heyəti əhatə olunmaqla 75 min nəfər müvafiq treninqlərdən keçərək İKT bacarıqlarına yiyələnmişdir. 20 ümumi təhsil müəssisəsində «elektron məktəb» layihəsi həyata keçirilməyə başlanmışdır. 1000 məktəb genişzolaqlı sürətli İnternetlə təmin olunmuşdur. İnternetə qoşulmuş məktəblərin nisbəti 2004-cü ildəki 1,5%-dən 2011-ci ildə 22%-ə yüksəlmişdir.

Azərbaycan təhsil sistemində İKT-nin daha səmərəli tətbiqi məqsədilə İKT sahəsində dünyanın ən nüfuzlu və inkişaf etmiş şirkətləri ilə əməkdaşlıq əlaqələri yaradılmışdır.

Müstəqillik illərində məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində son dərəcə əhəmiyyətli işlər görüldü. Bu işlər 2002-ci ildə ölkə Prezidenti Heydər Əliyev tərəfindən təsdiq edilən və 2003–2007-ci illəri əhatə edən Dövlət Proqramından sonra daha sistemli şəkildə aparılmağa başlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti nəticəsində məktəb tikintisi geniş vüsət aldı. Yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, istilik sisteminin bərpası, ümumilikdə infrastrukturun yeniləşdirilməsi nəticəsində ölkə üzrə 1 milyon şagirdin (bütün şagirdlərin 80%-i) təlim şəraiti yaxşılaşdırıldı.

1998–2011-ci illərdə Azərbaycanda ümumilikdə bir növbədə 550 min şagird yerlik 2161 yeni məktəb binasının tikilməsi və əsaslı təmiri, 708 məktəbin müasir avadanlıqlarla, 384 məktəbin müasir kimya, daha 382 məktəbin fizika laboratoriyaları ilə təmin edilməsi, 700 məktəbin istilik sisteminin təmir və bərpa olunması təhsil tariximizdə ən əlamətdar hadisələrdəndir.

2004–2011-ci illərdə tikinti və təmir işləri üçün Nazirliyin təsərrüfathesablı Əsaslı Tikinti İdarəsinə dövlət büdcəsindən 543665,1 min manat vəsait ayrılmışdır. Həmin vəsait hesabına 121864 şagird yerlik 353 yeni məktəb, 1270 yerlik 11 yeni uşaq bağçası, 1 peşə tədris mərkəzi binası, 184 məktəb üçün 49880 şagird yerlik əlavə korpuslar inşa edilmiş, 176 məktəbdə, 50 uşaq bağçasında, 9 texniki-peşə məktəbində əsaslı təmir işləri aparılmışdır. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində ikinövbəli məktəblərin sayı 73%-dən 44%-ə, ikinci növbədə təhsil alan şagirdlərin sayı 34,5%-dən 21%-ə enmişdir.

Məktəblərin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri olmuşdur. Fondun təşəbbüsü ilə 2005–2011-ci illərdə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəb binası tikilib istifadəyə verilmiş, əsaslı təmir və bərpa olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir.

Hazırda ölkədə 4565 ümumtəhsil məktəbi fəaliyyət göstərir, həmin təhsil müəssisələrində 1,2 milyon şagird təhsil alır, 149 min müəllim çalışır. Bununla yanaşı, 17 özəl ümumtəhsil məktəbində 6441 şagirdin təhsili ilə 1144 müəllim məşğul olur. Ölkədə fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 66535 nəfər tədris-köməkçi və texniki işçi çalışır.

Müstəqillik illərində Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın işğal edilməsi, əhalinin

məcburi köçkün vəziyyətinə düşməsi ilə bağlı şagirdlərin sayında azalma müşahidə edilirdi. Lakin sevindirici haldır ki, son illərdə, xüsusilə I sinfə gedən şagirdlərin sayında stabilləşmə və artım meyilləri hiss olunur.

Müstəqillik illərində müəllimlərin və məktəblərin fəaliyyətinin stimullaşdırılması istiqamətində əhəmiyyətli addımlar atıldı. Ölkə Prezidenti tərəfindən «Ən yaxşı ümumtəhsil məktəbi və Ən yaxşı müəllim mükafatlarının təsis edilməsi haqqında» 2007-ci il 4 sentyabr tarixli Sərəncam imzalandı. Ölkənin təhsil tarixində ilk dəfə olaraq dövlət səviyyəsində «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» müsabiqələrinin keçirilməsi müəllim nüfuzunun yüksəldilməsinə ciddi təsir etdi, onları daha əzmlə işləməyə ruhlandırdı. Müsabiqədə iştirak edənlərin sayı ildən-ilə artdı. 2008–2011-ci illərdə qalib adını qazanmış 200 məktəbə və 400 müəllimə yüksək məbləğdə pul mükafatı verilməsi cəmiyyətdə çox böyük və əlamətdar hadisə kimi qiymətləndirildi. Bu müsabiqələr məktəblər və müəllimlər arasında sağlam rəqabəti, innovativ fəaliyyətə istiqamətlənmiş yaradıcılıq və təşəbbüskarlıq meyillərini gücləndirməklə nəticə etibarilə təhsilin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Hörmətli oxucuların diqqətinə onu da çatdırım ki, Azərbaycan təhsil tarixi kitabının II cildi üzərində işləyərkən sovet dövründə tikilmiş yeni uşaq bağçaları, ümumtəhsil məktəbləri, o dövrdə müxtəlif mükafatlarla təltif olunmuş təhsil işçiləri haqqında arxivlərdən sistemli və dəqiq məlumat əldə edə bilmədim. Müstəqillik illərində yuxarıda sadaladığım istiqamətlərdə görülən işlərin nəticələri göz qabağında olduğuna görə qərara gəldim ki, yeni tikilmiş və tikiləcək məktəblərin dəqiq ünvanlarını göstərməklə və ölkə Prezidentinin sərəncamı ilə son 4 ildə «İlin ən yaxşı məktəbi» və «İlin ən yaxşı müəllimi» adına layiq görülmüş müəllimlərin və məktəblərin siyahısını çox yer almasına baxmayaraq kitaba daxil edim.

Müstəqillik illərində Azərbaycanda təhsilə diqqət və qayğının parlaq təzahürüdür ki, elm və təhsilin inkişafındakı xidmətlərinə görə ümumilikdə 2555 nəfər təhsil işçisi yüksək dövlət təltiflərinə, fəxri adlara layiq görülmüşdür.

Təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində davamlı olaraq qərarlar verilmiş, onların orta aylıq əmək haqqı 2005-ci ildəki 66 manatdan 2011-ci ildə 272 manata çatmışdır.

2005–2009-cu illərdə ümumtəhsil məktəblərinin pedaqoji kadr təminatı üzrə Proqramın həyata keçirilməsi nəticəsində ümumilikdə 6179 müəllim stimullaşdırıcı tədbirlər tətbiq edilməklə respublikanın ucqar kənd məktəblərinə göndərilmiş, hələ sovet dövründən ciddi problem kimi mövcud olan ucqar kənd məktəblərinin müəllimlərə kəskin ehtiyacı ödənilmişdir. Hər il müəllimlərə ehtiyacın ödənilməsi məqsədilə 2010-cu ildən başlayaraq bu tədbirlər Nazirlər Kabinetinin qərarı ilə daimi xarakter almışdır.

Məhz müstəqillik illərində, 2008-ci ildən başlayaraq respublikanın ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu sahəsində beynəlxalq təcrübəyə uyğun yeni mexanizmlərin tətbiqinə başlanılmış, 2011-ci ildə ölkə səviyyəsini əhatə etmişdir. Bu mexanizmin üstünlüyü ondan ibarətdir ki, müəllimlərin seçilib yerləşdirilməsi informasiya-kommunikasiya texnologiyalarından (elektron ərizə, elektron imtahan, elektron yerləşdirmə) istifadə etməklə şəffaf və obyektiv həyata keçirilir, daha səriştəli, müasir kompetensiyalara malik kadrlar məktəblərə cəlb edilir.

Azərbaycanda təhsil sahəsində islahatların daha səmərəli aparılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində də taleyüklü addımlar atıldı. «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu 2009-cu ilin iyun ayında Milli Məclisdə qəbul edildi və həmin il iyunun 19-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olundu.

Yeni qəbul olunmuş qanunda icbari təhsilin müddətində dəyişiklik edildi. Ümumi orta təhsil səviyyəsinin, yəni IX sinfin icbari olması, ümumi təhsilin ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarət olması təsbit edildi.

Nəzərdə tutuldu ki, 2008/09-cu tədris ilində I sinfə qəbul edilən, yeni kurikuluma əsasən təhsilə başlayan şagirdlərə icbari təhsil tətbiq edilsin.

2006-cı ildən başlayaraq dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institutlaşdırma) və alternativ qayğı sahəsində beynəlxalq

təcrübə əsasında işlərə başlanıldı, bununla əlaqədar 2006–2015-ci illəri əhatə edən Dövlət Proqramı təsdiq edildi. Proqrama əsasən dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmləri yaradıldı və həyata keçirildi, xüsusi qayğıya ehtiyacı olan uşaqların kütləvi məktəblərdə və uşaq bağçalarında sağlam uşaqlarla birlikdə təhsil almasını, cəmiyyətə inteqrasiyasını təmin edən inklüziv təhsil təcrübəsi tətbiq edilməyə başlandı.

Danılmaz faktdır ki, qısa müddət ərzində Azərbaycanın bütün sahələrdə sürətli inkişafı ölkə Prezidenti cənab İlham Əliyevin yeni idarəetmə modeli sayəsində mümkün olmuşdur. Təsadüfi deyildir ki, dünyanın nüfuzlu ekspertləri və iqtisadçıları Azərbaycanın dinamik inkişafını məhz İlham Əliyevin ölkəni elmi tədqiqatlara və strateji təhlillərə əsaslanan proqramlarla idarəetmə modelinin nəticəsi kimi qiymətləndirirlər. Yeni idarəetmə modeli təhsil sistemində də müasir menecment mexanizmlərinin tətbiqini şərtləndirmiş və bu sahədə idarəetmə strukturunu yeniləşdirmişdir. Tam məsuliyyətlə demək olar ki, müstəqillik illərində təhsil sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunması, həm də təhsilin idarəolunması sisteminin təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır. Bununla əlaqədar, dünyanın 50-dək ölkəsində təhsilin idarəolunması təcrübəsi öyrənildi, beynəlxalq məsləhətçilərin iştirakı ilə geniş təhlil olundu, müvafiq struktur dəyişiklikləri ilə bağlı tədbirlər planı hazırlandı. Bu istiqamətdə aparılan islahatlar çərçivəsində Təhsil Nazirliyinin mərkəzi aparatında əhəmiyyətli struktur dəyişiklikləri edildi. Dünya Bankının yaxından dəstəyi ilə həyata keçirilən layihələr çərçivəsində Nazirliyin Aparatında Strateji təhlil və planlaşdırma, Monitorinq və qiymətləndirmə, Təhsilin idarəolunmasının məlumat sistemləri (2004-cü il), Akkreditasiya şöbələri (2010-cu il), Təhsil sənədlərinin tanınması (2006-cı il), Məktəbəqədər təhsil (2009-cu il), Əlavə təhsil sektorları (2010-cu il) yaradıldı. Bu yeni strukturların yaradılması müvafiq sahələrdə təhsil siyasəti və strategiyasının daha məqsədyönlü hazırlanması və çevik həyata keçirilməsinə zəmin yaratdı. Struktur dəyişiklikləri ilə yanaşı, Nazirliyin Aparatına və yerli təhsili idarəetmə orqanlarına işə qəbul qaydaları da əsaslı şəkildə dəyişdirildi.

Müstəqillik illərində Azərbaycan müəllimlərinin XI, XII və XIII qurultayları keçirildi, təhsilin inkişafı ilə əlaqədar mühüm qərarlar qəbul edildi. Kitabın II fəslində bütün bunlar barədə, həmçinin müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında ümumi təhsilin inkişafı və Azərbaycandan kənarda fəaliyyət göstərən, təlim Azərbaycan dilində olan məktəblər haqqında da ətraflı məlumat əldə etmək olar.

«Azərbaycan təhsil tarixi»nin III cildinin III fəsli təhsil sahəsində beynəlxalq əlaqələrə, həyata keçirilən beynəlxalq layihə və proqramlara həsr olunmuşdur.

Müstəqilliyin ilk illərində dünyanın bəzi ölkələri ilə təhsil sahəsində yaradılmış səmərəli əməkdaşlıq sonrakı dövrdə xeyli genişləndi, 30-dək dövlətlə təhsil əlaqələri yarandı. Bu əlaqələr digər ölkələrlə təcrübə mübadiləsinə və ümumilikdə ölkədə təhsilin inkişafına, dünya təcrübəsində istifadə olunan yeni texnologiyaların, təlim strategiyalarının, innovasiyaların tətbiqinə şərait yaradır, beynəlxalq proqram və layihələrin Azərbaycanda reallaşdırılmasına, eləcə də təhsil sektoruna investisiya cəlbinə imkan verirdi. Ölkəmizdə təhsilin inkişafı sahəsində ümumilikdə dünyanın 20-dən artıq beynəlxalq təşkilatı ilə birgə həyata keçirilən 70-dən çox layihə və proqram barədə kitabın III fəslində mümkün qədər ətraflı məlumat verməyə çalışmışam.

Kitabın IV fəsli məktəbdənkənar təhsil sahəsində həyata keçirilmiş tədbirlərə həsr olunmuşdur.

Müstəqillik illərində məktəbdənkənar təhsil müəssisələrində uşaq və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların maraq, meyil və bacarıqlarının, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi sahəsində bir sıra nailiyyətlər əldə edildi. Həmin müəssisələrin maddi-texniki bazası əsaslı şəkildə yeniləşdirildi.

Sevindirici haldır ki, idman və şahmat sahəsində Azərbaycan məktəbliləri dünya və beynəlxalq səviyyəli tədbirlərdə ən yüksək göstəricilərə nail olmuşlar. Məktəbdənkənar təhsil müəssisələrinin yetirmələri respublika və beynəlxalq yarışlarda ümumilikdə 1886

medal, o cümlədən Avropa, dünya birinciliyi və çempionatlarında 178 medal qazanmışlar. Dünyanın ən güclü 20 şahmatçısından 3-ü Azərbaycan şahmatçısı olmuş, ölkəmiz dünyanın ən güclü 10 şahmat ölkəsi arasında 5-ci yerə yüksəlmişdir.

Hazırda Təhsil Nazirliyi sistemində 380 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir, həmin müəssisələrdə uşaq yaradıcılığı, ekologiya, texniki yaradıcılıq, turizm, şahmat və idman bölmələrində 340 min məktəbli məşğul olur, 12443 dərnək fəaliyyət göstərir. Məktəbdənkənar təhsil müəssisələrində 1500 nəfərlik tədris-köməkçi heyət çalışır.

Kitabın V fəsli ilk peşə-ixtisas təhsili sahəsində görülmüş işlər, problemlər və bu sahənin inkişaf perspektivlərinə həsr olunmuşdur.

1997-ci ildən başlayaraq texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, təhsilin məzmununun təkmilləşdirilməsi, təlim metodları və texnologiyalarının yeniləşdirilməsi ilə bağlı bir sıra layihələr və tədbirlər həyata keçirilmişdi.

2007-ci ildə texniki peşə təhsilinin inkişaf perspektivlərini özündə əks etdirən və 2007–2012-ci illəri əhatə edən «Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı ölkə Prezidentinin Sərəncamı ilə təsdiq edildi. Proqramda texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, kurikulumların yeniləşdirilməsi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təkmilləşdirilməsi və digər məsələlər nəzərdə tutulmuşdu.

Dövlət Proqramı çərçivəsində 11 texniki peşə təhsili müəssisəsi əsaslı təmir edilmiş, 2 peşə-tədris mərkəzi yaradılmış, 14 müəssisə zəruri avadanlıqla təmin olunmuşdur. Son 20 ildə müxtəlif peşələr üzrə ilk dəfə olaraq 16 adda dərslik hazırlanmış, beynəlxalq təşkilatlarla birgə layihələrin icrasına başlanmışdır.

Dövlət Proqramının icrası peşə təhsili müəssisələrinə şagird axınını sürətləndirmiş, həmin pillədə təhsil alanların sayı 23 mindən 27 minədək yüksəlmişdir.

Hazırda Respublikada 113 ilk peşə-ixtisas təhsili müəssisəsi mövcuddur. Onlardan 6-sı işğal olunmuş ərazilərdə fəaliyyət göstərmiş və hazırda fəaliyyəti dayandırılmış peşə məktəbləridir. Fəaliyyət göstərən 107 ilk peşə-ixtisas təhsili müəssisəsindən 45-i peşə liseyi, 60-ı peşə məktəbi və 2-si peşə-tədris mərkəzidir. Respublikanın peşə məktəb və liseylərində 132 peşə üzrə 27803 şagird təhsil alır. Mühəndis-pedaqoji işçilərin sayı 3517 nəfərdir. Peşə təhsili müəssisələrində çalışan tədris-köməkçi və texniki heyət 1579 nəfər təşkil edir.

Kitabın VI fəsli müstəqillik illərində orta ixtisas təhsili sahəsində həyata keçirilən tədbirlərə həsr olunmuşdur.

2000-ci ildən orta ixtisas təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılmasına başlanmış, 2003-cü ildən təhsilin məzmununun təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirilmiş, 45 istiqamət 129 ixtisas üzrə mütəxəssis hazırlığının dövlət standartları hazırlanıb təsdiq edilmişdir.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi proqramları çərçivəsində ölkədə bir sıra yeni orta ixtisas təhsili müəssisəsi yaradılmışdır. Aparılan struktur dəyişiklikləri nəticəsində orta ixtisas məktəblərinin sayı azalsa da, tələbələrin sayı 1998-ci ilə nisbətən 2011-ci ildə 60%-dən çox artmışdır.

Orta ixtisas təhsili sisteminin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi, iqtisadiyyat və xidmət sahələrinin yüksək keyfiyyətli ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə 2010-cu ildə Nazirlər Kabinetinin qərarı ilə «2010–2013-cü illərdə orta ixtisas təhsili sistemində islahatlar üzrə tədbirlər Proqramı» təsdiq olunmuşdur. Proqrama əsasən kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması məqsədilə orta ixtisas təhsili müəssisələrinin statusu dəyişdirilmiş, kadr hazırlığının strukturu yeniləşdirilmiş, beynəlxalq təcrübəyə uyğun yeni ixtisas təsnifatı təsdiq edilmişdir.

Hazırda ölkədə 57 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Bu təhsil müəssisələrində 51681 tələbə təhsil alır, 7115 müəllim, 3320 nəfər yardımçı heyət çalışır. Ölkədə 1 özəl kollec fəaliyyət göstərir ki, burada da 1780 tələbə, 125 müəllim vardır.

Kitabın VII fəsli Azərbaycanda pedaqoji mətbuatın fəaliyyəti və inkişafına həsr olunmuşdur.

Müstəqilliyin ilk illərində bu sahənin diqqətdən kənarda qalması nəticəsində bir çox mətbu orqanın nəşri dayandırılmışdı. 1998-ci ildən başlayaraq pedaqoji mətbuata diqqət artırıldı. «Azərbaycan müəllimi» qəzeti, «Azərbaycan məktəbi», «Məktəbəqədər və ibtidai təhsil», «Azərbaycan dili və ədəbiyyatın tədrisi» jurnalları müntəzəm nəşr edildi. «Elektron təhsil», «Təhsil», «Sənətkar», «Kurikulum» jurnalları, «Təhsil və zaman», «Təhsil problemləri», «Bakı təhsili» qəzetləri yeni nəşrlər kimi fəaliyyətə başladı.

Onu da qeyd etməyi lazım bilirəm ki, ölkəmizdə informasiya cəmiyyətinin qurulmasının və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti 2011-ci il iyulun 11-də «2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın hazırlanması haqqında» Sərəncam imzalamışdır. Həmin sərəncama əsasən Milli Strategiya layihəsini hazırlamaq üçün Dövlət Komissiyası yaradılmışdır. Dövlət Komissiyası nəzdində yaradılmış İşçi qrupu tərəfindən hazırlanmış Milli Strategiya layihəsində ümumi təhsildə əhəmiyyətli islahatlara xidmət edəcək bəzi vacib məqamlar öz əksini tapmışdır:

1. Onillik icbari ümumi orta təhsil və ikiillik tam orta təhsil modelinə keçidi təmin etməklə onikiillik ümumi təhsil sisteminin yaradılması. Tam orta təhsil səviyyəsində təhsilin profillər üzrə qurulması.

2. Təhsil müəssisələrinin (proqramlarının) akkreditasiyası üzrə müstəqil sistemin yaradılması.

3. Təhsil müəssisələrinə idarəetmə, akademik, maliyyə və təşkilati muxtariyyətin verilməsi.

4. Qabaqcıl beynəlxalq təcrübə əsasında ümumi təhsil üzrə pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma (lisenziyalaşdırma) sisteminin yaradılması.

5. Müəllim hazırlığı sistemində internatura modelinin tətbiq edilməsi.

6. Ümumi təhsil müəssisələrinin şəbəkəsinin rasionallaşdırılması.

7. Təhsilə adekvat maliyyə resurslarının cəlb edilməsi, nəticəyönlü büdcə planlaşdırılması və maliyyələşdirmə mexanizmlərinin yaradılması.

8. Kompetensiya və nəticə əsaslı, diferensiallaşdırılmış əmək haqqı sisteminin yaradılması.

İnanıram ki, on illik bir dövrü əhatə edən bu strategiyanın həyata keçirilməsi Azərbaycan təhsilinin daha sürətli inkişafı üçün geniş imkanlar açacaqdır.

Müstəqillik illərində Azərbaycanda ali təhsildə və təhsillə bağlı olan digər sahələrdə də ciddi islahatlar həyata keçirilmiş və əhəmiyyətli uğurlar əldə edilmişdir. Bütün bunlar haqqında kitabın IV cildində bəhs olunacaqdır.

Sözümün sonunda bu cildin nəşrə hazırlanmasında mənə kömək edən hər kəsə öz minnətdarlığımı bildirirəm.

MİSİR MƏRDANOV

I FƏSİL

MƏKTƏBƏQƏDƏR TƏHSİL

Məktəbəqədər təhsil təhsilin ilk və vacib pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə və həyati bacarıqlara yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, şəxsiyyət kimi formalaşmasını, məktəb təliminə hazırlığını, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir.

Şəxsiyyətin təşəkkülü və gələcək siması məktəbəqədər dövrdə aparılan təlim-tərbiyə işlərindən çox asılıdır. Məşhur rus pedaqoqu Anton Semyonoviç Makarenko deyirdi ki, tərbiyənin bünövrəsi 5 yaşınadək qoyulur və siz 5 yaşınadək nə etmisinizsə, bu artıq bütün tərbiyə prosesinin 90%-ni təşkil edir. Ona görə də tam inamla demək olar ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Tədqiqatlar göstərir ki, bu yaş dövründə uşağın inkişafına xərclənən vəsait sonradan 7 dəfə artıq gəlir gətirir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə təhsil büdcəsinin xeyli hissəsi məktəbəqədər təhsilə ayrılır. Məsələn, Almaniya, Fransa, Danimarka kimi inkişaf etmiş ölkələrdə təhsil büdcəsinin 10–15%-i məktəbəqədər təhsil üçün nəzərdə tutulur. Azərbaycanda bu göstərici, təəssüf ki, hələlik 6,5% təşkil edir.

1.1. Məktəbəqədər təhsilin vəziyyəti

Ötən əsrin 80-ci illərinin sonundan ölkədə başlamış böhranlı vəziyyət müstəqilliyin ilk illərində daha da dərinləşdi. Bu illərdə təhsilin məktəbəqədər pilləsinə büdcədən ayırmalar azaldı, məktəbəqədər yaşlı uşaqların ictimai tərbiyə ilə əhatə olunması səviyyəsi kəskin şəkildə aşağı düşdü. Həmin dövrdə ölkə iqtisadiyyatının iflic vəziyyətinə düşməsi, əhali arasında kütləvi işsizlik və büdcə gəlirlərinin kəskin azalması, mövcud sosial-iqtisadi infrastrukturun dağılması məktəbəqədər təhsil sisteminin də səmərəliliyini nəzərəçarpacaq dərəcədə zəiflətdi.

Nəticədə 15 il ərzində Azərbaycanın müxtəlif bölgələrində Təhsil Nazirliyi və digər Nazirliklərin 85 məktəbəqədər təhsil müəssisəsi bağlandı ki, onların da 45-i Bakı şəhərinin payına düşürdü. Bundan əlavə, Naxçıvanda 82 müəssisə, Dövlət Neft Şirkətinin tabeliyində olan müəssisələrdən 20-si bağlanmış, respublika üzrə 72 məktəbəqədər təhsil müəssisəsi başqa məqsədlər üçün müxtəlif təşkilatlara verilmişdi. Digər tərəfdən Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində 242 məktəbəqədər

müəssisənin işğal bölgələrində qalması və dağıdılması da ölkədə məktəbəqədər təhsil müəssisələrinin sayının azalmasına səbəb oldu. Məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinə mane olan əsas səbəblərdən biri də Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20%-ni işğal etməsi nəticəsində 7998 nəfərdən ibarət 1768 qaçqın və məcburi köçkün ailəsinin ölkənin müxtəlif şəhər və rayonlarındakı 362 məktəbəqədər təhsil müəssisəsində məskunlaşması idi. Nəticədə müstəqillik illərində məktəbəqədər təhsil müəssisələrində uşaqların ictimai tərbiyəyə cəlb olunması səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşdü. Ona görə də həmin illərdə məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsində də azalma tendensiyası müşahidə edilirdi.

Dövlət məktəbəqədər təhsil müəssisələri haqqında məlumat (1990–2007-ci illər)

İllər	Məktəbəqədər təhsil müəssisələrinin sayı	Məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı
1990	2195	190600
1991	2185	180870
1992	2168	173080
1993	2099	165139
1994	2172	166194
1995	2006	147500
1996	1973	136700
1997	1918	125676
1998	1879	119488
1999	1854	116114
2000	1814	112280
2001	1790	111020
2002	1794	111352
2003	1784	111467
2004	1780	110891
2005	1761	110081
2006	1764	110017
2007	1760	109458

Əgər müstəqillik ərəfəsində – 1990-cı ildə ölkə üzrə 2195 məktəbəqədər təhsil müəssisəsində 190600 uşaq tərbiyə olunurdusa, bu göstərici 1991-ci ildən aşağı düşməyə başlamışdır. 2007-ci ildə 1760 müəssisədə 109458 nəfər uşaq tərbiyə alırdı.

Müstəqilliyin ilk illərində qəbul edilən «Təhsil Qanunu» (1992, 16 dekabr), ölkəmizin Uşaq Hüquqları Konvensiyasına qoşulması (1992), «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununun (1998) qəbulu məktəbəqədər təhsil sahəsində hüquqi-normativ bazanın yaradılmasına kömək etdi. Bu sənədlərin qəbulundan sonra məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən aşağıdakı hüquqi-normativ sənədlər və tədris-metodiki vəsaitlər hazırlandı.

1. «Məktəbəqədər tərbiyə müəssisələrinin pedaqoji şurası haqqında Əsasnamə» Təhsil Nazirliyinin 25.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir;

2. «Məktəbəqədər tərbiyə müəssisələrinin Valideyn Komitəsinin Nizamnaməsi» Təhsil Nazirliyinin 25.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir;

3. «Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələrinin nümunəvi Əsasnaməsi» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.01.1995-ci il tarixli qərarı ilə təsdiq edilmişdir;

4. «Əqli və ya fiziki inkişafı qüsurlu olan uşaqlar üçün xüsusi təyinatlı dövlət məktəbəqədər tərbiyə müəssisələrinin Əsasnaməsi» Nazirlər Kabinetinin 04.09.1995-ci il tarixli qərarı ilə təsdiq edilmişdir;

5. «Büdcədən maliyyələşdirilən məktəbəqədər uşaq müəssisələrinin nümunəvi ştatı haqqında» sənəd Azərbaycan Respublikası Nazirlər

Kabinetinin 29.05.1996-cı il tarixli qərarı ilə təsdiq edilmişdir;

6. «Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı» (1998-ci il) Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir;

7. «Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.03.2004-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

Bununla belə, məktəbəqədər təhsil sahəsində çatışmazlıqlar çox idi. «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı»nda (1999, 15 iyun) təhsilin digər pillələri ilə yanaşı, məktəbəqədər təhsil müəssisələrində tərbiyənin məzmunca yeniləşdirilməsi və tərbiyə proqramlarının, həmçinin «Milli Tərbiyə Proqramı»nın hazırlanması, adambaşına maliyyələşdirmə mexanizmlərinə keçilməsi nəzərdə tutulsa da, ölkənin iqtisadi durumu bu məsələlərin həllinə imkan vermirdi.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanı ümumilikdə təhsil sistemində irəliləyişə nail olmaq üçün dövlət tərəfindən görülən tədbirlərdən biri idi. Fərmana uyğun olaraq ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin, konsernlərinin, şirkətlərinin, birliklərinin və digər dövlət qurumlarının tabeliyində olan təlim-tərbiyə və təhsil müəssisələri (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tabeliyində olan təhsil müəssisələri istisna olmaqla) Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verildi.

Sonrakı illərdə Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət, həyata keçirilən məqsədyönlü neft strategiyası və bazar yönümlü islahatların dərinləşməsi ölkənin sosial-iqtisadi inkişafında dönüşün əldə olunmasına imkan verdi, xalqımızın maddi rifah halının get-gedə yaxşılaşdırılmasına şərait yaratdı. Bu illər ərzində, xüsusilə də XXI əsrin ilk illərindən iqtisadiyyatın dinamik inkişafı sosial sahələrə dövlət qayğısının gücləndirilməsi və bu sahələrə yönəldilən resursların önəmli artımı ilə müşayiət olunmuşdu.

Qeyd etmək lazımdır ki, 2003-cü ildən dövlət büdcəsindən məktəbəqədər təhsil sahəsinə ayrılan maliyyə vəsaitinin həcmi artırılmağa başladı. 2007 və 2008-ci illərdə bu artım daha nəzərəçarpan olmuşdur. 2007-ci ildə 2006-cı ilə nisbətən artım 43,5%, 2008-ci ildə 2007-ci ilə nisbətən 41,7% təşkil etmişdir. 2011-ci ildə dövlət büdcəsindən bu sahəyə ayrılan maliyyə vəsaiti 92 milyondan çox olmuşdur ki, bu da 2003-cü ilə nisbətən 5 dəfədən çox artım deməkdir.

Azərbaycan Respublikasında 2003–2011-ci illər üzrə dövlət büdcəsindən məktəbəqədər təhsilə ayrılan vəsait barədə məlumat

İllər	Məbləğ (manatla)	Artım (%-lə)
2003	18495173	
2004	21380796	15,6
2005	25514684	19,3
2006	32850692	28,8
2007	47149085	43,5
2008	66813098	41,7
2009	78646861	17,7
2010	83135633	5,7
2011	92653711	11,4

Hazırda Azərbaycan Respublikasında 113498 uşağı əhatə edən 1660 məktəbəqədər təhsil müəssisəsi, o cümlədən 525 uşaq bağçası, 1106 körpələr evi-uşaq bağçası, 24 körpələr evi, 5 məktəb-bağça fəaliyyət göstərir. 108088 uşağı əhatə edən 1576 müəssisə Təhsil Nazirliyi sistemində, 4-ü isə bilavasitə Təhsil Nazirliyinin tabeliyindədir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 4 məktəbəqədər xüsusi təhsil müəssisəsi, ümumi təyinatlı 13 müəssisədə 22 xüsusi təhsil qrupları və 5 sanatoriya tipli məktəbəqədər təhsil müəssisəsi mövcuddur.

Ölkədə müxtəlif nazirlik, şirkət, idarə və təşkilatların tabeliyində olan məktəbəqədər təhsil müəssisələri də vardır. Təhsil Nazirliyində bu sahənin fəaliyyətini tənzimləyən Məktəbəqədər təhsil sektoru fəaliyyət göstərir. Sektora hazırda Nərminə Alnağıyeva rəhbərlik edir.

2009-cu ildə 2008-ci ilə nisbətən məktəbəqədər təhsil müəssisələrinin sayı 1658-dən 1612-yə düşmüşdü. Bunun əsas səbəbi həmin ildə məktəbəqədər təhsil müəssisələrinin özəlləşdirilməsi və öz profili üzrə fəaliyyət göstərməməsi ilə bağlı idi. 2011-ci ildə isə təhsil müəssisələrinin sayının əvvəlki ilə nisbətən artmasının səbəbi bir sıra yeni məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətə başlaması və özəl təhsil müəssisələrinin sayının artması ilə bağlı idi.

Dövlət məktəbəqədər təhsil müəssisələri haqqında məlumat

İllər	Müəssisələrin sayı	Uşaqların sayı	Əhatə səviyyəsi	Pedaqoji işçilərin sayı
2008	1658	103902	16,4%	13765
2009	1612	103617	16,3%	13408
2010	1635	107954	16,5%	13469
2011	1660	113498	17,6%	14026

Özəl məktəbəqədər təhsil müəssisələri haqqında məlumat

İllər	Müəssisələrin sayı	Uşaqların sayı	Pedaqoji işçilərin sayı
2008	5	346	94
2009	5	275	124
2010	16	800	244
2011	37	1700	304

1.2. Məktəbəqədər təhsil sahəsində problemlər

Müstəqilliyin ilk illərində məktəbəqədər təhsil sisteminin vəziyyəti istər ölkənin mövcud iqtisadi inkişaf səviyyəsi, istərsə də sosial sahədə, o cümlədən əhalinin rifah halının yüksəldilməsində qarşıya qoyulan perspektiv məqsədlər baxımından qənaətbəxş hesab edilə bilməzdi.

Reallıq belədir ki, uzun müddət ərzində məktəbəqədər təhsil sistemində diqqətçəkən irəliləyişə nail olunmamış, bu sahənin inkişafına əngəl törədən problemlərin həllinə istiqamətlənmiş addımlar atılmamışdı. Mövcud olan təşkilati, hüquqi və iqtisadi mexanizmlər məktəbəqədər təhsil müəssisələrinin yeni şəraitə və bazar iqtisadiyyatının prinsiplərinə uyğun yetərincə səmərəli fəaliyyətini hələ ki, tam təmin edə bilmirdi.

Bir sıra inkişaf etmiş ölkələrdə 5 yaşlıların hamısı icbari olaraq məktəbə hazırlıq mərhələsini keçirlər. Ölkəmizdə isə bu vəzifəni yerinə yetirmək üçün mövcud uşaq bağçalarının imkanları heç də kifayət deyildir. Uşaq bağçaları ən yaxşı halda ölkə üzrə 5 yaşlıların yalnız

40–45%-ini qəbul edə bilər. Ölkədə uşaq bağçalarına getməyən bütün 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunması üçün mövcud infrastrukturla yanaşı, 61548 əlavə yer, yəni 3060 qrup açılmalıdır. Bunun üçün yeni məktəbəqədər təhsil müəssisəsi binaları inşa edilməli, mövcud müəssisələrin imkanları genişləndirilməli, eyni zamanda bu müəssisələrdə məskunlaşmış məcburi köçkünlər müvafiq yaşayış yerləri ilə təmin edilməlidirlər.

2011-ci ilin əvvəlinə ölkə üzrə məktəbəqədər müəssisələrə uşaqların cəlb edilməsi 17,6%, şəhər yerlərində 24,6%, kənd yerlərində isə cəmi 9,2 % təşkil edirdi ki, bu da müvafiq göstəricinin 60–90% təşkil etdiyi qabaqcıl ölkələrlə müqayisədə xeyli aşağıdır. Halbuki Finlandiyada məktəbəqədər yaşlı uşaqların 99%-i, Almaniyada 80%-i ictimai tərbiyə ilə əhatə olunmuşdur. Bir sıra MDB ölkələrində də uşaqların məktəbəqədər təhsil müəssisələrinə cəlb olunma səviyyəsi 30–50% təşkil edir. Sağlamlıq imkanları məhdud məktəbəqədər yaşlı uşaqların müvafiq xüsusi müəssisələrə cəlbolunması daha aşağı səviyyədədir. Ölkədə belə uşaqların sayı 6000-dən artıq olduğu halda, onların yalnız 500 nəfəri (8,3%) məktəbəqədər xüsusi təhsillə əhatə olunmuşdur. Bu müəssisələrdə təhsilin təşkili vəziyyətini və uşaqların məişət şəraitini daha da yaxşılaşdırmaq üçün «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikasının Qanunu (05 iyun 2001-ci il) qəbul edilmişdir.

Məktəbəqədər yaşlı uşaqların təhsilə zəif cəlb edilməsi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının valideynləri qane etməməsi və təlim-tərbiyə işinin tələb olunan səviyyədə qurulmaması, bəzi hallarda isə milli xüsusiyyətlərimizdən irəli gələrək uşaqların məhz ailədə tərbiyə olunmasına üstünlük verilməsi ilə bağlıdır. Bununla yanaşı, məktəbəqədər təhsilin inkişafına mane olan bir sıra obyektiv amillər də mövcuddur. Bu müəssisələrin 70%-i bağça üçün nəzərdə tutulmayan, təlim-tərbiyənin təşkili üçün minimum şəraiti belə olmayan binalarda yerləşir. Müstəqilliyin ilk 15 ili ərzində (1991–2006-cı illər) ölkədə yeni məktəbəqədər təhsil müəssisələri üçün binalar tikilməmişdir. Müəssisələrin 32%-ində məcburi köçkün ailələri yerləşdirilmişdir. Araşdırmalar göstərir ki, ölkənin yaşayış məntəqələrinin yalnız beşdə birində məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

Məktəbəqədər təhsil müəssisələri, sadəcə, işləyən valideynlərin uşaqlarının saxlanılması yeri deyildir. Bunlar, hər şeydən əvvəl, tərbiyə, təlim, inkişaf mərkəzləridir. Ona görə də uşaqların şəxsiyyətinin formalaşmasına, onlarda ilkin həyati bacarıqların yaranmasına yönəlmiş məzmunun müəyyənləşdirilməsi indiki halda diqqət yetiriləcək başlıca məsələlərdəndir. Lakin qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil üzrə mövcud təlim-tərbiyə proqramı (1998) müasir tələblərə cavab vermir. Əksər hallarda mövcud tərbiyə proqramı müvafiq maddi-tədris, metodik baza olmadığından yerinə yetirilmir, bu isə məktəbəqədər təhsilin müasir inkişaf tendensiyalarına uyğun gəlmir. Buna görə də məktəbəqədər təhsilin məzmunca təkmilləşdirilməsinə və yeniləşdirilməsinə ciddi ehtiyac özünü aşkar şəkildə büruzə verir. Məktəbəqədər təhsil sahəsində ən ciddi problemlərdən biri də pedaqoji heyətlə bağlıdır.

Narahatlıq doğuran haldır ki, hazırda uşaq bağçalarında fəaliyyət göstərən işçilərdən 2181 nəfəri ali ixtisas, 1167 nəfəri ali pedaqoji, 6367 nəfəri orta ixtisas, 1898 nəfəri orta ixtisas (pedaqoji), 1293 nəfəri tam orta, 36 nəfəri natamam ali, 1084 nəfəri qeyri-ixtisas təhsillidir. Göründüyü kimi, pedaqoji heyətin böyük bir hissəsi orta ixtisas, hətta orta təhsillilərdir. Belə bir vəziyyətin yaranması uzun müddət bu sahədə kadr təminatının rayon təhsil şöbələri tərəfindən həyata keçirilməsi ilə bağlıdır.

Məktəbəqədər təhsil müəssisələri üçün ixtisaslı kadrlar Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filialı, Naxçıvan Müəllimlər İnstitutu və 7 kollecdə hazırlanır. Qeyd etmək lazımdır ki, həmin müəssisələrdə kadr hazırlığının səviyyəsi heç də qaneedici deyildir. Bu müəssələri bitirən məzunlar, bir qayda olaraq, məktəbəqədər təhsilin təşkili sahəsində praktik bacarıqlara malik olmurlar.

Məktəbəqədər təhsil sahəsində mövcud olan əsas problemlərdən biri də müəssisələrin maliyyələşməsi ilə əlaqədardır. Uşaq bağçaları yerli icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilir. Bu təhsil pilləsinin inkişafı üçün ayrılan büdcə vəsaitlərinin azlığı bir problemdirsə, həmin maliyyə vəsaitlərinin istifadəsi daha ciddi problemdir. Uzun illərdir ki, bu sahəyə vəsait ayrılmasına baxmayaraq, uşaq bağçaları əsaslı təmir edilmir, avadanlıqlarla təchiz olunmur, ərzaqla təminatın vəziyyəti də qənaətbəxş deyildir. Əlbəttə, səbəblər müxtəlifdir. Səbəblərdən biri də odur ki, Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələrinin maliyyələşdirilməsi prosesində iştirak etmir və bu işə müdaxilə etmək imkanları da yoxdur.

Nazirlər Kabinetinin təsdiq etdiyi qida normalarına uyğun olaraq məktəbəqədər təhsil müəssisəsində 1 gün ərzində 1 uşağın qidalanması üçün maliyyə xərci 3 manat 94 qəpik təşkil etməlidir. Lakin faktiki ayrılan vəsait həmin normadan xeyli aşağıdır. Bakı şəhərində həmin vəsait 1 manat 59 qəpik, Xaçmaz rayonunda 1 manat 10 qəpik, Masallı rayonunda 93 qəpik, Qəbələ rayonunda 78 qəpik, Bərdə rayonunda 56 qəpik, Sumqayıt şəhərində 51 qəpik, Balakən rayonunda 48 qəpik, Zaqatala rayonunda 42 qəpik təşkil edir.

Məktəbəqədər təhsilin əhatə səviyyəsinin aşağı olmasının başlıca səbəblərindən biri də ölkənin yaşayış məntəqələrinin 75%-də uşaq baxçalarının olmaması və məktəbəqədər təhsil xidmətlərinin göstərilməməsidir. Quba rayonunun 153 yaşayış məntəqəsindən 143-də, Cəlilabad rayonunun 104 yaşayış məntəqəsindən 95-də, Şabran rayonunun 69 yaşayış məntəqəsindən 67-də, Yardımlı rayonunun 84 yaşayış məntəqəsindən 81-də, Gədəbəy rayonunun 109 yaşayış məntəqəsindən 102-də, Ağsu rayonunun 79 yaşayış məntəqəsindən 74-də məktəbəqədər təhsil müəssisəsi, ümumiyyətlə, yoxdur.

1.3. Məktəbəqədər təhsil sahəsində dünya təcrübəsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq

Son illərdə məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması, ümumilikdə məktəbəqədər təhsilin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təşkilatlarla

birgə müəyyən tədbirlər həyata keçirilmiş, müasir təlim texnologiyalarının tətbiqi sahəsində bir sıra məqsədyönlü işlər görülmüşdür. UNİCEF, UNESCO, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu (ACİ YF) – Azərbaycan, Ümumdünya Ərzaq Təşkilatı tərəfindən bir sıra layihələr həyata keçirilmişdir. Ölkənin 18 bölgəsində 51 məktəbəqədər təhsil müəssisəsində ACİ YF «Addım-Addım» təlim texnologiyasının tətbiqi üzrə müəyyən təcrübə toplanmış, 8 bölgədə treninq mərkəzləri yaradılmışdır.

Qaçqın və məcburi köçkün uşaqlarının yaşayışına, təhsilinə, tərbiyəsinə və s. məsələlərə kompleks yanaşma dövlət siyasətinin ana xəttini təşkil edirdi. Bu cür uşaqların təliminə və tərbiyəsinə sərf edilən xərclər yalnız dövlət büdcəsi tərəfindən deyil, həm də beynəlxalq humanitar təşkilatlar tərəfindən də ödənilirdi. Təşkilatlar imkan daxilində uşaq müəssisələrinə maliyyə vəsaiti ayırır, himayəyə ehtiyacı olan uşaqların normal tərbiyəsi və səmərəli təliminə yardımlar edirdi.

Təhsil Nazirliyinin UNİCEF-in Azərbaycandakı nümayəndəliyi ilə birgə respublikanın 14 rayonunda məcburi köçkün ailələrindən olan uşaqlar üçün təşkil etdiyi 33 Uşaq İnkişaf Mərkəzinin səmərəli fəaliyyəti uşaqların psixoloji reabilitasiyasında müsbət rol oynamışdır.

1997-ci ildə Azərbaycan Respublikasının hökuməti ilə «SOS–Kinderdorf International» arasındakı razılaşmaya əsasən bu təşkilatın Azərbaycanda da fəaliyyətinə qərar verilmişdir.

Respublikada himayəyə və qayğıya ehtiyacı olan yeni uşaq tərbiyə müəssisələri, uşaq evləri, internatlar, SOS Uşaq Kəndləri, uşaq cəmiyyətləri yaradılmışdır.

«SOS Uşaq Kəndləri – Azərbaycan» Assosiasiyası 28 sentyabr 1999-cu il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

SOS Uşaq Kəndi uşaqların cəmiyyətə etibarlı adaptasiyasını təmin edən bir körpüdür. Uşaqlar SOS Uşaq Kəndinə körpəlikdən qəbul edilir və hərtərəfli qayğı ilə təmin olunurlar.

Bakı SOS Uşaq Kəndinin tikintisi 2000-ci ilin sentyabr ayında sona çatdırılmış və buraya ilk uşaq 6 oktyabr 2000-ci ildə qəbul olunmuşdur. Bu tarix respublikamızda SOS Uşaq Kəndinin ad günü sayılır. SOS Uşaq Kəndinə ilk vaxtlar valideyn himayəsindən məhrum olmuş 104 uşaq qəbul edilmişdir.

SOS Uşaq Kəndində 14 ailə evi, 2002-ci ilin noyabr ayından isə 4 qruplu uşaq bağçası da fəaliyyət göstərir. Bu uşaq bağçasına Bakı SOS Uşaq Kəndində tərbiyə alan uşaqlarla yanaşı, ətraf ailələrdən olan uşaqlar da qəbul olunur.

Ötən müddət ərzində Assosiasiyanın maliyyələşməsi bütövlükdə «SOS–Kinderdorf International» tərəfindən həyata keçirilmiş, böyük həcmdə investisiya hesabına Bakıda və Gəncədə bütün infrastruktura malik SOS Uşaq Kəndləri salınmış, bir sıra sosial layihələr həyata keçirilmiş və hazırda da bu işlər davam etdirilir.

«SOS Uşaq Kəndləri – Azərbaycan» Assosiasiyası ölkədə aparılan sosial islahatlarda fəal iştirakçılardan biri kimi «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi «De-İnstitusionalizasiya və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)»nın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən yaradılmış Koordinasiya Şurasında təmsil olunur.





Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev SOS Uşaq Kəndinin açılışında. Oktyabr, 2000-ci il

Azərbaycan hökuməti Assosiasiyanın ölkənin sosial həyatında oynadığı rolu yüksək qiymətləndirərək 2008-ci ildən etibarən onun xərclərinin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi barədə qərar vermiş və bu xərclər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2008-ci ilə təsdiq olunmuş büdcəsində ayrıca sətirlə nəzərdə tutulmuşdur.

Respublika hökuməti və UNİCEF tərəfindən 2000–2004-cü illər üçün təsdiq edilmiş «Erkən uşaqlıq dövründə qayğı, inkişaf və valideynlərin təşəbbüskarlığının yaxşılaşdırılması» pilot layihəsi Bakı şəhərinin Nərimanov rayonundakı 183, Sumqayıt şəhərinin 47№-li körpələr evi-uşaq bağçasında və Xızı şəhər uşaq bağçasında uğurla həyata keçirilmişdir.

Təhsil Nazirliyi tərəfindən UNİCEF, UNESCO, Beynəlxalq Sülh Korpusu, Açıq Cəmiyyət İnstitutu, «Dünyaya Baxış» və digər təşkilatlarla sıx əməkdaşlığı şəraitində Bakı şəhərinin 11, 20, 80, 105, 257, Sumqayıt şəhərinin 30, 40, Mingəçevir şəhərinin 10, 16 və Yevlax rayonunun 2, 3, 4№-li məktəbəqədər təhsil müəssisələrində cəmi 12 uşaq bağçasında xüsusi qayğıya ehtiyacı olan 78 nəfər uşaq inklüziv təhsilə cəlb olunmuşdur.

1.4. Məktəbəqədər təhsil sahəsində həyata keçirilən tədbirlər və perspektivlər

Müstəqillik illərində məktəbəqədər təhsilin inkişafına təkan verən mühüm amillərdən biri 2009-cu ildə yeni «Təhsil haqqında» Qanunun qəbul edilməsi oldu. Bu Qanun məktəbəqədər təhsil pilləsinin yeni normativ-hüquqi sənədlərinin hazırlanması üçün zəmin yaratdı. Əvvəlki Qanundan fərqli olaraq, yeni Qanunda beşyaşlı uşaqların təhsilinin zəruriliyi təsbit edildi. Yeniliklərdən biri də ondan ibarət idi ki, məktəbəqədər təhsil uşağın valideynlərinin və ya digər qanuni nümayəndələrinin arzusu ilə həm uşaq bağçalarında, həm də ümumtəhsil müəssisələrinin müvafiq strukturlarında və ya ailədə həyata keçirilə bilərdi.

«Təhsil haqqında» Qanuna müvafiq olaraq Təhsil Nazirliyi tərəfindən məktəbəqədər təhsil sahəsində bir sıra yeni normativ-hüquqi sənədlər hazırlandı:

1. «Məktəbə hazırlığın təşkili Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.01.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

2. «Məktəbəqədər təhsilin dövlət standartları və proqramı» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16.07.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

Əlamətdar haldır ki, məhz müstəqillik illərində məktəbəqədər təhsil sahəsində dövlət sektoru ilə yanaşı, qeyri-dövlət sektorunun geniş şəbəkəsi də formalaşmağa başlamışdır. Hazırda ölkədə müvafiq qaydada lisenziya almış 37 özəl məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

Özəl məktəbəqədər təhsil müəssisələrindən Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin uşaq bağçası, «Şəkər bala», «XXI əsr» uşaq bağçalarının fəaliyyətini xüsusilə qeyd etmək olar. Bu müəssisələrdə yüksək səviyyədə yaradılmış maddi-texniki və tədris bazası, tərbiyəçilərin peşəkarlıq səviyyəsinin yüksək olması təlim-tərbiyə prosesinin keyfiyyətli təşkilinə müsbət təsirini göstərir. Uşaqlarla aparılan sağlamlaşdırıcı və inkişafetdirici tədbirlər özəl müəssisələrə gələn uşaqların sayını hər il artırır.






Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Bilgəh qəsəbəsi özəl «Şirin» uşaq bağçasında. 2007-ci il





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Binə qəsəbəsindəki özəl uşaq bağçasında. 2008-ci il





Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin uşaq bağçası (özəl). 2009-cu il





Bakı şəhəri Akademik Zərifə Əliyeva adına uşaq bağçası (özəl). 2009-cu il

2006-cı ilin əvvəllərində müvafiq dövlət orqanlarının apardıqları araşdırmalar nəticəsində müəyyən edildi ki, büdcədən maliyyələşdirilən bir sıra uşaq bağçalarında, səhiyyə, idman və mədəniyyət obyektlərində dövlət əmlakından səmərəli istifadə olunmur, xidmət səviyyəsi günün tələblərinə cavab vermir və bundan sonra onların dövlət büdcəsi vəsaiti hesabına saxlanılması məqsədəuyğun deyildir. Odur ki, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrinin inkişafını sürətləndirmək, bu sahələrdə əhaliyə göstərilən sosial xidmətlərin səviyyəsini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23 avqust 2006-cı il tarixli Sərəncamı ilə Təhsil Nazirliyi sistemində olan müəssisələrdən 240 məktəbəqədər təhsil müəssisəsi-körpələr evi və uşaq bağçaları profilini saxlamaq şərtilə özəlləşdirilməyə açıq elan edildi.

Azərbaycan Respublikası Prezidentinin 23 avqust 2006-cı il tarixli Sərəncamı ilə Təhsil Nazirliyi sistemində olan özəlləşdirilməyə açıq elan edilmiş müəssisələr

№	Şəhər və rayonlar üzrə	Müəssisələrin sayı
1.	Bakı şəhəri	113 müəssisə
2.	Abşeron rayonu	2 müəssisə
3.	Gəncə şəhəri	15 müəssisə
4.	Şirvan şəhəri	2 müəssisə
5.	Mingəçevir şəhəri	8 müəssisə
6.	Sumqayıt şəhəri	15 müəssisə
7.	Quba rayonu	2 müəssisə
8.	Masallı rayonu	2 müəssisə
9.	Ağstafa rayonu	2 müəssisə
10.	Qazax rayonu	1 müəssisə
11.	Salyan rayonu	2 müəssisə
12.	Sabirabad rayonu	2 müəssisə
13.	Astara rayonu	2 müəssisə
14.	Lerik rayonu	2 müəssisə
15.	Lənkəran rayonu	2 müəssisə
16.	Siyəzən rayonu	2 müəssisə
17.	Yardımlı rayonu	2 müəssisə
18.	Xaçmaz rayonu	2 müəssisə
19.	Kürdəmir rayonu	2 müəssisə
20.	Ağsu rayonu	2 müəssisə
21.	Tovuz rayonu	2 müəssisə
22.	Şəmkir rayonu	2 müəssisə
23.	Göygöl rayonu	2 müəssisə
24.	Neftçala rayonu	2 müəssisə
25.	İmişli rayonu	2 müəssisə
26.	Hacıqabul rayonu	1 müəssisə
27.	Ucar rayonu	2 müəssisə
28.	Şamaxı rayonu	2 müəssisə
29.	Göyçay rayonu	2 müəssisə
30.	Ağdaş rayonu	1 müəssisə
31.	Balakən rayonu	2 müəssisə
32.	Xızı rayonu	1 müəssisə
33.	Beyləqan rayonu	2 müəssisə
34.	Qəbələ rayonu	2 müəssisə
35.	Goranboy rayonu	2 müəssisə
36.	Ağcabədi rayonu	2 müəssisə
37.	İsmayıllı rayonu	2 müəssisə
38.	Qax rayonu	2 müəssisə
39.	Tərtər rayonu	1 müəssisə
40.	Daşkəsən rayonu	2 müəssisə
41.	Saatlı rayonu	2 müəssisə
42.	Gədəbəy rayonu	2 müəssisə
43.	Qusar rayonu	2 müəssisə
44.	Cəlilabad rayonu	2 müəssisə
45.	Şabran rayonu	2 müəssisə
46.	Şəki rayonu	2 müəssisə
47.	Yevlax rayonu	2 müəssisə
48.	Biləsuvar rayonu	2 müəssisə
49.	Zaqatala rayonu	2 müəssisə
50.	Samux rayonu	2 müəssisə
51.	Oğuz rayonu	2 müəssisə

Sonrakı illərdə həmin məktəbəqədər müəssisələrin özəlləşdirilməsi işi davam etdirildi. 2011-ci ilin ortalarında özəlləşdirilməyə açıq elan edilən müəssisələrdən 83 müəssisə, o cümlədən Bakı şəhərində 47 müəssisə özəlləşdirilmişdir. Həmin müəssisələrdən 11-i Təhsil Nazirliyinin lisenziyası əsasında profili üzrə fəaliyyət göstərir. 8 müəssisə fəaliyyətini lisenziyasız davam etdirir. 18 müəssisənin binasından müxtəlif qeyri-təhsil məqsədləri üçün istifadə edilir, 6 müəssisədə məcburi köçkün ailələri məskunlaşmışdır. 3 müəssisənin binası sökülmüşdür (yalnız birinin yerində yeni uşaq bağçası inşa edilmişdir), 37 müəssisə isə fəaliyyət göstərmir.

2006-cı ildə ölkə Prezidentinin sərəncamı ilə Bakıda vahid idarəetmə orqanı olan Bakı Şəhəri üzrə Təhsil İdarəsi yaradıldıqdan sonra Bakı şəhərinin təhsil sistemi Təhsil Nazirliyi tərəfindən maliyyələşdirilməyə başladı. Qısa bir müddət ərzində uşaq bağçalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, avadanlıqlarla təminatı sahəsində ciddi dönüş yarandı. Ərzaqla təminat qismən yaxşılaşdı. Bu, ilk növbədə, onunla bağlıdır ki, ayrılan maliyyə vəsaiti təyinatı üzrə və səmərəli xərclənir.

Həyata keçirilən tədbirlər nəticəsində Bakı şəhərində bağçalara cəlb olunmuş uşaqların sayı 8601 nəfər artmış, təhsilin bu pilləsi üzrə əhatə səviyyəsi 26%-i ötmüşdür.

«Təhsil haqqında» Qanunda 5 yaşlı uşaqların məktəbə hazırlığının zəruri hesab olunması cəmiyyətdə məktəbəqədər müəssisələrin ictimai statusunun yüksəldilməsinə əhəmiyyətli təsir göstərmişdir. Valideynlərin bu müəssisələrə marağı əvvəlki illərə nisbətən xeyli artmışdır. Məsələn, Bakı şəhərindəki uşaq bağçalarında 2010-cu ildə 7400 uşağı əhatə edən 335 məktəbə hazırlıq qrupu var idisə, 2011-ci ildə qrupların sayı 370, uşaqların sayı isə 9646 nəfər olmuşdur.

Məktəbəqədər təhsil müəssisələri şəbəkəsində mövcud olan nöqsan və çatışmazlıqların aradan qaldırılması, problemlərin səmərəli həlli, ölkəmizdə məktəbəqədər təhsilin günün tələbləri səviyyəsində qurulmasının təmin olunması məqsədilə kompleks məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün Təhsil Nazirliyində Dövlət Proqramı hazırlanmış, **Azərbaycan Respublikasının Prezidenti tərəfindən 12 aprel 2007-ci il tarixli Sərəncamla «Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı» (2007–2010-cu illər) təsdiq edilmişdir.** Sərəncamla Proqramın əlaqələndirici orqanı kimi Təhsil Nazirliyi müəyyənləşdirilmişdir. Proqramda müəssisələrin şəbəkəsinin optimallaşdırılması, idarəetmənin yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsi, təşkilati-hüquqi və iqtisadi mexanizmlərin bu müəssisələrin səmərəli fəaliyyətinə yönəldilməsi, məktəbəqədər təhsil xidmətlərinin əhalinin aztəminatlı təbəqəsi üçün əlçatan olması, kadr təminatının yaxşılaşdırılması, yeni kurikulumun hazırlanması, bütövlükdə məktəbəqədər təhsilin ictimai statusunun yüksəldilməsi önəmli vəzifələr kimi qarşıya qoyulmuş, ən başlıcası isə dünya təcrübəsinə uyğun olaraq 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunmasının zəruriliyi, məktəbəqədər təhsil haqqında ayrıca Qanunun qəbul edilməsi də nəzərdə tutulmuşdur. Bununla da müstəqil Azərbaycanın məktəbəqədər təhsil tarixində yeni mərhələnin təməli qoyulmuşdur.

Dövlət Proqramının əsas məqsədi ölkədə bütün əhali təbəqələri üçün əlçatan və müasir

tələblər səviyyəsində qurulmuş məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini təmin edə biləcək maddi-texniki, təşkilati-hüquqi və tədris-metodiki şərait yaratmaq və bu zəmində məktəbəqədər təhsil sisteminin yüksək sosial-iqtisadi səmərəliliyinə nail olmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün Proqramda aşağıdakı konkret **vəzifələrin reallaşdırılması** nəzərdə tutulmuşdur:

- Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi-texniki bazasının möhkəmləndirilməsi;
- Məktəbəqədər təhsil sistemində idarəetmənin müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla, ölkədə təşəkkül tapmış yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsi;
- Məktəbəqədər təhsil sistemində yetərli maliyyələşmə səviyyəsini və bu sahəyə yönəldilən resursların rasional istifadəsini təmin edən yeni iqtisadi münasibətlər modelinin formalaşdırılması;
- Məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə nail olunması, bütün sosial təbəqələr, o cümlədən aztəminatlı ailələr üçün müasir tələblərə uyğun məktəbəqədər təhsil xidmətlərinin əlçatan olmasının gerçəkləşdirilməsi;
- Məktəbəqədər təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli və psixoloji inkişafı, onların məktəbə hazırlığı baxımından beynəlxalq təhsil məkanında son mütərəqqi təcrübənin öyrənilməsi və tətbiq edilməsi;
- Məktəbəqədər təhsil sahəsinin peşəkar, səriştəli pedaqoji kadrlarla təmin olunması məqsədilə bu sahədə kadr siyasətinin günün tələblərinə uyğun qurulması;
- Məktəbəqədər təhsilin ictimai statusunun yüksəldilməsi, dövlət qayğısının daha da artırılması ilə yanaşı, vətəndaşların, qeyri-dövlət və ictimai qurumların, işgüzar dairələrin bu sahəyə diqqətinin artırılmasına nail olunması.

Proqramda məktəbəqədər təhsilin yeniləşdirilməsinin aşağıdakı prioritet istiqamətləri və onlara uyğun aparılacaq islahatların əhatə dairəsi müəyyənləşdirilmişdir:

1. Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində:

- Məktəbəqədər təhsil müəssisələrinin mövcud şəbəkəsinin optimallaşdırılması, səmərəlilik baxımından dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilməsi məqsədəuyğun hesab olunmayan məktəbəqədər təhsil müəssisələrinin Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 avqust tarixli Sərəncamına uyğun olaraq profili saxlanılmaqla özəlləşdirilməsi;
- Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının qabaqcıl standartlara uyğun inkişaf etdirilməsi və möhkəmləndirilməsi;
- Əhalinin məktəbəqədər təhsilə olan tələbatlarının ödənilməsində ehtiyac duyulan şəhər, kənd və qəsəbələrdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin yaradılması.

2. Məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi istiqamətində:

- Məktəbəqədər təhsil sisteminin idarə edilməsində mərkəzləşdirilmiş təsərrü-

fatçılığa və resursların yuxarıdan bölgüsünə əsaslanan inzibati-amirlikdən imtina edilməsi, ölkə üzrə vahid məktəbəqədər təhsil məkanında «tənzimləyici idarəetmə» üslubunun formalaşdırılması, bu məqsədlə normativ-hüquqi, iqtisadi və keyfiyyət tənzimlənməsinə əsaslanan dövlət idarəetmə mexanizmlərinin qurulması;

- Məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin səmərəli şəkildə formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi məqsədilə idarəetmənin müxtəlif pillələri (mərkəzi və yerli hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları (bələdiyyələr), məktəbəqədər təhsil müəssisələri) arasında vəzifə, məsuliyyət və səlahiyyətlərin optimal bölüşdürülməsi, idarəetmə üzrə fəaliyyətin sıx koordinasiyasına nail olunması;
- İctimai idarəetmə və nəzarət mexanizmlərindən daha geniş istifadə olunması, cəmiyyətin maraqlı qruplarının, valideynlərin (qəyyumlar və valideynlər şuraları vasitəsilə) məktəbəqədər təhsil müəssisələrinin idarəetmə fəaliyyətində yaxından iştirak etməsinin dəstəklənməsi.

*3. **Məktəbəqədər təhsildə yeni iqtisadi münasibətlər modelinin formalaşdırılması istiqamətində:***

- Məktəbəqədər təhsil sahəsində bazar münasibətlərinin və azad rəqabət prinsiplərinin təsir dairəsinin genişləndirilməsi, qeyri-dövlət mülkiyyət formalarına və sahibkar təşəbbüsünə əsaslanan müəssisələr şəbəkəsinin genişlənməsi üçün cəlbedici investisiya mühitinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi;
- Dövlət büdcəsindən maliyyələşən məktəbəqədər təhsil müəssisələrinin maliyyə-təsərrüfat müstəqilliyinin genişləndirilməsi və onlara xərclər smetasını müstəqil təsdiq etmək və dəyişdirmək hüquqlarının verilməsi istiqamətində tədbirlərin görülməsi;
- Məktəbəqədər təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşməsində subyektiv amillərin aradan qaldırılması, büdcədən ayrılan vəsaitlərin bir uşaq üçün normativ maliyyələşdirmə prinsipi ilə müəyyən olunması;
- Normativ maliyyələşdirmə şəraitində ölkənin ucqar rayonlarında və kəndlərində, həmçinin azsaylı yaşayış məntəqələrində yerləşən məktəbəqədər təhsil müəssisələrinin dayanıqlılığının təmin olunmasına istiqamətlənmiş xüsusi maliyyə dəstəyi mexanizmlərinin qurulması;
- Məktəbəqədər təhsil müəssisələri tərəfindən malların və xidmətlərin satınalmasında tender və müsabiqələr vasitəsilə seçimə əsaslanan şəffaf xərclənmə prosedurlarının tətbiqi, onların maliyyə fəaliyyətinə səmərəli ictimai (qəyyumlar və valideyn şuraları vasitəsilə) və dövlət nəzarət mexanizmlərinin qurulması;
- Məktəbəqədər təhsil müəssisələrində çoxmənbəli maliyyələşmə sxemlərinin tətbiq olunması, dövlət tərəfindən müəyyənləşdirilən və büdcədən maliyyələşdirilən əsas təhsil xidmətləri ilə

yanaşı, ödənişli, əlavə təhsil xidmətləri göstərilməsinin təşviqləndirilməsi;
- Məktəbəqədər təhsil xidmətlərinin valideynlərlə kontrakt (müqavilə) münasibətləri əsasında göstərilməsinin tətbiq olunması;
- Məktəbəqədər təhsil müəssisələri arasında dövlət büdcəsinin vəsaitləri uğrunda sağlam yarışma mühitinin yaradılması;
- Dövlət və qeyri-dövlət təhsil müəssisələrinin fəaliyyəti üçün bərabər şəraitin təmin olunması, tədricən vahid məktəbəqədər təhsil məkanının formalaşdırılması.

4. Məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi istiqamətində:
- Məktəbəqədər təhsil xidmətlərinə tələbatın təmin edilməsi baxımından ölkə üzrə orta göstəricilərə uyğun olmayan yaşayış ərazilərində dövlət vəsaitləri hesabına məktəbəqədər təhsil müəssisələrinin yaradılması, qeyri-dövlət mənbələrindən bu sahəyə investisiya qoyuluşunun mərkəzi və yerli hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları (bələdiyyələr) tərəfindən dəstəklənməsi;
- Məktəbəqədər təhsilin təşkilati diversifikasiyası vasitəsilə ictimai təlim-tərbiyənin müxtəlif sosial təbəqələr üçün əlçatan olmasının gerçəkləşdirilməsi;
- Məktəbəqədər təhsil müəssisələrində qısamüddətli və çevik vaxt cədvəli üzrə fəaliyyət göstərən yeni məktəbəqədər təhsil formalarının təşkili;
- İnklüziv təhsilə cəlb olunan məktəbəqədər təhsil müəssisələrinin işinin səmərəli qurulması;
- Məktəbəqədər təhsil müəssisələrinə getməyən uşaqların ailə şəraitində təlim keçmələri üçün valideynlərə tədris-metodiki köməklik göstərilməsi (mövcud uşaq bağçaları və orta məktəblər bazasında məktəbəqədər məsləhət-metodiki mərkəzlərin yaradılması, ailə şəraitində təlim alan uşaqlar üçün xüsusi proqram və vəsaitlərin işlənilməsi, valideynlər üçün seminar və treninqlərin təşkil olunması və s.);
- Bazar münasibətləri şəraitində müasir məktəbəqədər təhsil xidmətlərinin aztəminatlı ailələr üçün əlçatan olmasını təmin etmək məqsədilə ünvanlı dövlət sosial yardım sisteminin müvafiq istiqamətdə təkmilləşdirilməsi;
- Ödənişli məktəbəqədər təhsil xidmətlərinin ödənilməsi üzrə valideynlərə vergi güzəştləri mexanizmlərinin tətbiqi;
- Ölkə üzrə icbari məktəbəqədər təhsilin tətbiqi imkanlarının araşdırılması və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi;
- Məktəbəqədər təhsillə əhatə səviyyəsinin daha da yüksəldilməsi, bu sahədə beynəlxalq təcrübənin tətbiqi, müasir model və mexanizmlərin işlənib hazırlanması.

5. Məktəbəqədər təhsilin məzmunca yeniləşdirilməsi istiqamətində:
- Məktəbə hazırlıq baxımından uşaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji

inkişafı, dərketmə və nitq qabiliyyətinin yüksəldilməsi üzrə əsas tələbləri özündə birləşdirən, həmçinin pedaqoji prosesin humanistləşdirilməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə Milli Kurikulumun hazırlanması və müvafiq qaydada təsdiq olunması;

- Məktəbəqədər təhsil üzrə Milli Kurikuluma uyğun olaraq qabaqcıl beynəlxalq təcrübəyə əsaslanmaqla dövlət məktəbəqədər təhsil proqramının və variativ proqramların hazırlanması və tətbiq olunması;
- Məktəbəqədər xüsusi təhsil müəssisələri üçün proqramların hazırlanması və tətbiq olunması;
- Dövlət məktəbəqədər təhsil proqramı, həmçinin variativ və xüsusi proqramlara uyğun təlim vəsaitlərinin, digər dərs vəsaitlərinin və əyani vəsaitlərin hazırlanması, nəşr olunması, məktəbəqədər təhsil müəssisələrinin bu vəsaitlərlə sistematik təmin olunması;
- Məktəbəqədər təhsil sistemində qabaqcıl beynəlxalq təcrübə əsasında yeni təhsil texnologiyalarının tətbiqinin dəstəklənməsi;
- Məktəbəqədər təhsilin ölkədə vahid təhsil sisteminin digər pillələri ilə əlaqəsinin gücləndirilməsi və sıx inteqrasiyasının təmin olunması;
- Ölkədə məktəbəqədər təhsil üzrə monitorinq və qiymətləndirmə sisteminin yaradılması və tətbiq olunması.

*6. **Kadr siyasətinin təkmilləşdirilməsi istiqamətində:***

- Məktəbəqədər təhsil sisteminin pedaqoji kadrlara və digər mütəxəssislərə tələbatının proqnozlaşdırılması işinin müasir tələblərə uyğun qurulması;
- Yeni şəraitdə məktəbəqədər təhsil sistemi üçün kadr hazırlığının, ixtisasartırma təhsilinin təkmilləşdirilməsi, məktəbəqədər təhsil müəssisələri üçün menecerlərin və idarəetmə heyəti kadrlarının yetişdirilməsi işinin təşkil edilməsi;
- Məktəbəqədər təhsildə peşəkar, səriştəli pedaqoji kadrların üstünlük təşkil etməsinə nail olunması;
- Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji və digər işçilərin sosial statusunun və maddi rifah halının yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin görülməsi, onların iqtisadi cəhətdən həvəsləndirilməsində məktəbəqədər təhsil müəssisələrinin müstəqilliyinin əhəmiyyətli dərəcədə artırılması;
- Kənd yerlərində məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilərə maliyyə və sosial dəstək tədbirlərinin hazırlanması və tətbiq olunması;
- Kənd yerlərində və ucqar rayonlarda yerləşən məktəbəqədər təhsil müəssisələri üçün yerli əhali arasından kadr hazırlığını təmin etmək məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi.

*7. **Məktəbəqədər təhsilin ictimai statusunun qaldırılması istiqamətində:***

- Məktəbəqədər təhsilin problemlərinə ictimaiyyətin müxtəlif təbəqələrinin diqqətinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, kütləvi

informasiya vasitələrinin, qlobal İnternet şəbəkəsinin imkanlarından bu məqsədlə daha geniş istifadə olunması;
- Məktəbəqədər təhsil barədə statistik göstəricilər sisteminin beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi;
- Məktəbəqədər təhsil sisteminin mütəmadi monitorinqinin keçirilməsinə nail olunması, monitorinqin nəticələrinin kütləvi informasiya vasitələrində dərc olunması və ictimaiyyətə çatdırılması;
- Yaxşı nəticələr əldə etmiş məktəbəqədər təhsil müəssisələrinin qabaqcıl iş təcrübəsinin kütləvi informasiya vasitələri ilə geniş işıqlandırılması və yayılmasının dəstəklənməsi;
- Məktəbəqədər təhsil müəssisələri sistemində İnternetdən istifadənin dəstəklənməsi, İnternet saytlarının yaradılması.

«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı»nın yerinə yetirilməsindən gözlənilən əsas nəticələri aşağıdakı kimi xülasə etmək olar:
- Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazası möhkəmlənəcək, tədris-metodiki təminatı yeniləşdiriləcək;
- Məktəbəqədər təhsilin sosial-iqtisadi səmərəliliyi artacaq, məktəbəqədər təhsil müəssisələrinin maliyyə təminatının dayanıqlılığına imkan yaranacaq;
- Əhalinin məktəbəqədər təhsil xidmətlərinə tələbatı daha dolğun təmin ediləcək;
- Bütün əhali təbəqələri üçün müasir standartlara uyğun məktəbəqədər təhsil xidmətlərinin əlçatan olması təmin olunacaq;
- Məktəbəqədər təhsilin əhatə dairəsi genişlənəcək, məktəbəqədər təhsil müəssisələrinə cəlb edilən uşaqların sayı artacaq;
- Uşaqların təlim-tərbiyəsi, sağlamlığının qorunması, fiziki, intellektual və psixoloji inkişafı üçün əlverişli şərait yaradılacaq;
- Kadr təminatı yaxşılaşacaq, kadrların peşəkarlıq səviyyəsi yüksələcək;
- Məktəbəqədər təhsilin keyfiyyəti yüksələcəkdir.

Beləliklə, Dövlət Proqramının icrası qarşıdakı illərdə ölkədə məktəbəqədər təhsilin yeniləşdirilməsi sahəsində müasir tələblərə cavab verən yeni kurikulumun hazırlanmasına və tətbiqinə, kadr hazırlığı və ixtisasartırma üzrə mövcud kurikulumun təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsinin yüksəldilməsinə, müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsinə, bir uşaq üçün maliyyələşdirmə mexanizminə keçilməsinə, beşyaşlı uşaqların icbari məktəbəqədər təhsilə cəlb edilməsi üçün zəruri tədris-metodiki bazanın təşkilinə, nəhayət, alternativ məktəbəqədər təhsil müəssisələrinin yaradılmasına tam təminat verir.

Məktəbəqədər təhsilin maliyyələşdirilməsi sahəsində yeni mexanizmlərin tətbiq edilməsi, adambaşına maliyyələşmənin bu təhsil pilləsini də əhatə etməsi zəruri məsələ kimi qarşıda durur. Bunun üçün zəruri normativ-hüquqi baza yaradılmalıdır. «Təhsil haqqında» Azərbaycan

Respublikasının Qanunu belə mexanizmlərin tətbiqinə hüquqi əsas verir. Digər tərəfdən erkən yaş dövründə uşaqların inkişafı son dərəcə əhəmiyyətli məsələ olduğundan, bu sahəyə büdcə vəsaitləri ilə yanaşı, əlavə maliyyə mənbələrinin cəlb olunması da xüsusi aktuallıq kəsb edir. Beynəlxalq təcrübə göstərir ki, məktəbəqədər təhsil müəssisələrinin maliyyələşdirilməsində özəl strukturlar, sponsorlar fəal iştirak edirlər. Azərbaycanda da bu sahəyə diqqətin artırılması, əlavə maliyyə vəsaitlərinin cəlb olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

Ölkəmizdə məktəbəqədər təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri elan edildiyini nəzərə alaraq, dünyada erkən yaş dövründə uşaqların inkişaf strategiyalarına uyğun tədbirlərin həyata keçirilməsi təhsil sistemi qarşısında duran əsas vəzifələrdəndir. Məhz sadalanan vəzifələrin həyata keçirilməsi məqsədilə Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə çərçivəsində məktəbəqədər təhsil müəssisələri üçün yeni kurikulumun hazırlanması, qısamüddətli qruplarda məktəbə hazırlıq və valideynlərin maarifləndirilməsi proqramları həyata keçirilir.

«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Kurikulumu» (Proqramı) sənədinin layihəsi hazırlanıb ictimai müzakirəyə verilmişdir.

Beşyaşlıların məktəbə hazırlığı işinin tənzimlənməsi üzrə BP şirkətinin maliyyə dəstəyi ilə Şəmkir rayonunun seçilmiş uşaq bağçalarında «İcma nəzdində məktəbə hazırlıq qruplarının təşkili» layihəsi həyata keçirilir. Layihənin əsas məqsədi icma tipli məktəbəqədər təhsil xidməti modelinin qurulması və beşyaşlı uşaqların məktəbə hazırlıq səviyyəsini müəyyən etmək üçün diaqnostik qiymətləndirmə mexanizminin hazırlanmasından ibarətdir.

Azərbaycan iqtisadiyyatının sürətli inkişafı fərdi layihələr üzrə, müasir tələblərə uyğun, hər bir şəraiti olan uşaq bağçaları inşa etmək imkanı yaratmışdır. Hazırda Bakı şəhərində yeni tikilmiş məktəbəqədər təhsil müəssisələri sovet dövründə birtipli layihə üzrə inşa olunmuş müəssisələrdən əsaslı şəkildə fərqlənir. Yeni müəssisələr əlverişli tərbiyə, təlim və inkişaf mühitinə malik olmaqla yanaşı, bu müəssisələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqların tərbiyəsi və təlimi üçün də müvafiq şərait yaradılmışdır.

«Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı»nın icrasına 2008-ci ildə 5,8 milyon manat, 2009-cu ildə 6,1 milyon manat, 2010-cu ildə 6,9 milyon manat, 2011-ci ildə 9,1 milyon manat vəsait ayrılmışdır. Ümumilikdə isə son illərdə 37 yeni uşaq bağçası inşa edilmiş, 52 müəssisə əsaslı təmir olunmuş, 184 müəssisə müasir avadanlıqlarla təchiz olunmuşdur. 190 adda təlim vəsaiti hazırlanmış və təhsil müəssisələrinə çatdırılmışdır. Qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil müəssisələrinin tikintisi və təmiri sahəsində Heydər Əliyev Fondunun xüsusi xidmətləri olmuşdur.

Bundan başqa, «Məktəbəqədər təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin əsaslı təmirinin təmin edilməsi ilə əlaqədar əlavə tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2010-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan da 2 milyon manat məbləğində vəsait ayrılmışdır.

Təhsil Nazirliyinin Əsaslı tikinti idarəsi tərəfindən yeni inşa və əsaslı təmir olunan məktəbəqədər təhsil müəssisələrinin siyahısı (2006–2011-ci illər)

№	Məktəbəqədər təhsil müəssisəsinin adı
Yeni inşa edilmiş məktəbəqədər təhsil müəssisələri	
Bakı şəhəri	
Qaradağ rayonu	
1.	Lökbatan qəsəbəsində 333№-li körpələr evi-uşaq bağçası, 120 yerlik
2.	Korgöz qəsəbəsində 334№-li körpələr evi-uşaq bağçası, 55 yerlik
Səbail rayonu	
1.	20-ci sahədə 332№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
Binəqədi rayonu	
1.	Biləcəri qəsəbəsində 327№-li körpələr evi-uşaq bağçası, 200 yerlik
2.	Xocasən qəsəbəsində 328№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	28 May qəsəbəsində 329№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
Xətai rayonu	
1.	Əhmədli qəsəbəsində 335№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
Suraxanı rayonu	
1.	Bülbülə qəsəbəsində 330№-li körpələr evi-uşaq bağçası, 120 yerlik
2.	Zığ qəsəbəsində 331№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
Sabunçu rayonu	
1.	Kürdəxanı qəsəbəsində 336№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
2.	Nardaran qəsəbəsində 337№-li körpələr evi-uşaq bağçası, 55 yerlik
Abşeron rayonu	
1.	Qobu qəsəbəsində 11№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
2.	Qobu qəsəbəsində 16№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
3.	Fatmayı qəsəbəsində 8№-li körpələr evi-uşaq bağçası, 60 yerlik
4.	Novxanı qəsəbəsində 13№-li körpələr evi-uşaq bağçası, 80 yerlik
Beyləqan rayonu	
1.	Xocavənd rayonunun məcburi köçkünləri üçün salınmış qəsəbədə bir uşaq bağçası, 60 yerlik
Füzuli rayonu	
1.	Füzuli rayonunun məcburi köçkünləri üçün rayonun Zobucuq ərazisində salınmış Zobucuq–1, Zobucuq–2, Zobucuq–3, Zobucuq–4 qəsəbələrinin hər birində 60 yerlik bir uşaq bağçası
Ağdam rayonu	
1.	Quzanlı qəsəbəsində bir körpələr evi-uşaq bağçası, 120 yerlik
2.	Xındırıstan qəsəbəsində bir körpələr evi-uşaq bağçası, 100 yerlik

№	Məktəbəqədər təhsil müəssisəsinin adı
Ağcabədi rayonu	
1.	Xocavənd rayonunun məcburi köçkünləri üçün «Alman» qəsəbəsində 60 yerlik bir uşaq bağçası
2.	Laçın rayonundan olan məcburi köçkünlərin yaşadığı Taxta-Körpü qəsəbəsində hər biri 20 yerlik iki uşaq bağçası
Biləsuvar rayonu	
1.	Cəbrayıl rayonunun məcburi köçkünləri üçün salınmış 7, 8, 9, 10 və 11№-li qəsəbələrin hər birində 50 yerlik bir uşaq bağçası
Zaqatala rayonu	
1.	Mamrux kəndində bir uşaq bağçası, 40 yerlik
Goranboy rayonu	
1.	Qarqucaq kəndində bir uşaq bağçası, 40 yerlik
2.	Hazırəhmədli kəndində bir uşaq bağçası, 40 yerlik
3.	Kəlbəcər rayonundan olan məcburi köçkünlər üçün bir uşaq bağçası, 40 yerlik
Qəbələ rayonu	
1.	Yenikənd kəndində bir uşaq bağçası, 40 yerlik
Yevlax rayonu	
1.	Kəlbəcər rayonundan olan məcburi köçkünlər üçün bir uşaq bağçası, 40 yerlik
Samux rayonu	
1.	Samux şəhərində bir uşaq bağçası, 40 yerlik
Cəmi: 37 müəssisə	

Əsaslı təmir edilmiş məktəbəqədər təhsil müəssisələri	
Bakı şəhəri	
Qaradağ rayonu	
1.	20№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
Səbail rayonu	
1.	13№-li körpələr evi-uşaq bağçası, 55 yerlik
2.	33№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
3.	39№-li uşaq bağçası, 60 yerlik
4.	46№-li uşaq bağçası, 60 yerlik
5.	57№-li uşaq bağçası, 100 yerlik
6.	85№-li körpələr evi-uşaq bağçası, 95 yerlik
7.	130№-li uşaq bağçası, 60 yerlik
8.	136№-li körpələr evi-uşaq bağçası, 110 yerlik
Yasamal rayonu	
1.	11№-li körpələr evi-uşaq bağçası, 150 yerlik
2.	17№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	99№-li körpələr evi-uşaq bağçası, 150 yerlik
4.	121№-li körpələr evi-uşaq bağçası, 155 yerlik
5.	161№-li uşaq bağçası, 60 yerlik
Nəsimi rayonu	
1.	76№-li körpələr evi-uşaq bağçası, 195 yerlik
2.	127№-li körpələr evi-uşaq bağçası, 135 yerlik
3.	132№-li körpələr evi-uşaq bağçası, 155 yerlik
4.	162№-li körpələr evi-uşaq bağçası, 155 yerlik
Binəqədi rayonu	
1.	138№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	266№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	272№-li körpələr evi-uşaq bağçası, 135 yerlik
4.	296№-li uşaq bağçası, 80 yerlik

Nərimanov rayonu	
1.	42№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
2.	58№-li uşaq bağçası, 80 yerlik
3.	69№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
4.	183№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
5.	259№-li uşaq bağçası, 80 yerlik
6.	303№-li körpələr evi-uşaq.bağçası, 95 yerlik
Nizami rayonu	
1.	31№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	59№-li körpələr evi-uşaq bağçası, 20 yerlik
3.	175№-li körpələr evi-uşaq bağçası, 115 yerlik
Xətai rayonu	
1.	199№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	235№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	288№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
Suraxanı rayonu	
1.	203№-li uşaq bağçası, 95 yerlik
2.	338№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
Sabunçu rayonu	
1.	3№-li uşaq bağçası, 100 yerlik
Xəzər rayonu	
1.	51№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
2.	63№-li körpələr evi-uşaq bağçası, 80 yerlik
3.	78№-li körpələr evi-uşaq bağçası, 95 yerlik
4.	84№-li körpələr evi-uşaq bağçası, 100 yerlik
5.	212№-li uşaq bağçası, 60 yerlik
6.	214№-li uşaq bağçası, 60 yerlik
7.	218№-li körpələr evi-uşaq bağçası, 35 yerlik
Sumqayıt şəhəri	
1.	11№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	44№-li körpələr evi-uşaq bağçası, 220 yerlik


Abşeron rayonu	
1.	Xırdalan şəhər 17№-li uşaq bağçası, 220 yerlik
2.	Saray qəsəbə 14№-li uşaq bağçası, 100 yerlik
Şəki rayonu	
1.	Şəki şəhər 29№-li körpələr evi-uşaq bağçası, 40 yerlik
Lənkəran rayonu	
1.	Lənkəran şəhər 17№-li uşaq bağçası, 115 yerlik
Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələri	
1.	«Qərənfil» körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	Mingəçevir şəhər 16№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
Cəmi: 52 müəssisə	

Cari təmir işləri aparılan məktəbəqədər təhsil müəssisələri	
1.	Təhsil Nazirliyinin Eşitmə qabiliyyəti pozulmuş uşaqların Respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçası, 115 yerlik
Bakı şəhəri	
Qaradağ rayonu	
1.	15№-li körpələr evi-uşaq bağçası, 75 yerlik
2.	67№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	74№-li uşaq bağçası, 80 yerlik
Binəqədi rayonu	
1.	177№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	215№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
3.	234№-li körpələr evi-uşaq bağçası, 60 yerlik
Suraxanı rayonu	
1.	270№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
2.	279№-li körpələr evi-uşaq bağçası, 220 yerlik
Xəzər rayonu	
1.	213№-li körpələr evi-uşaq bağçası, 60 yerlik
2.	289№-li körpələr evi-uşaq bağçası, 110 yerlik
Cəmi: 11 müəssisə	





Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Xəzər rayonu, Şüvəlan qəsəbə 51№-li körpələr evi-uşaq bağçasında. 2006-cı il




Heydər Əliyev Fondunun dəstəyi ilə tikilmiş Qala qəsəbəsindəki 63№-li uşaq bağçası. 2008-ci il



Bakı şəhəri Xətai rayonu 335№-li körpələr evi-uşaq bağçası. 2009-cu il





Bakı şəhəri Suraxanı rayonu 331№-li körpələr evi-uşaq bağçası. 2009-cu il



Yardımlı rayonu Zərifə Əliyeva adına uşaq bağçası.
2005-ci il

Bakı şəhərinin və onun qəsəbələrinin inkişafının sürətləndirilməsi, burada yaşayan əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində görülmüş işləri davam etdirmək məqsədilə **4 may 2011-ci il tarixində «2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalandı.** Dövlət Proqramının icrası Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıldı.

Proqramda 137 məktəbəqədər təhsil müəssisəsinin əsaslı təmiri, 10 müəssisədə bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması, 14 yeni müəssisənin inşası nəzərdə tutulmuşdu.

Dövlət Proqramına əsasən 2011–2013-cü illərdə Bakı şəhərində əsaslı təmir ediləcək və yeni inşa olunacaq məktəbəqədər təhsil müəssisələrinin siyahısı aşağıdakı cədvəldə verilmişdir.

«2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində həyata keçiriləcək Tədbirlər Planı

№	Tədbirin adı	İcra müddəti	İcraçılar
Bakı şəhəri			
Binəqədi rayonu			
Əsaslı təmir			
1.	86№-li uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	90№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	291№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	297№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	151№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	153№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	158№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	159№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	211№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	274№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	294№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
12.	40№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
13.	141№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
14.	177№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
15.	193№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
16.	215№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
17.	238№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
18.	298№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 18 müəssisə			
Xəzər rayonu			
Əsaslı təmir			
1.	Buzovna qəs. 61№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	Mərdəkan qəs. 91№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	Mərdəkan qəs. 221№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	Buzovna qəs. 244№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	Binə qəs. 66№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti

6.	Buzovna qəsəbəsi 289№-li körpələr evi-uşaq bağçasının yeməkxana korpusu	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	Binə qəsəbəsi 317№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 7 müəssisə			
Yeni tikinti			
1.	Buzovna qəsəbəsi 289№-li körpələr evi-uşaq bağçasının əsas korpusu	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 1 müəssisə			
Xətai rayonu			
Əsaslı təmir			
1.	72№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	88№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	166№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	194№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	222№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	245№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	251№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	8№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	170№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	181№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	186№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
12.	200№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
13.	202№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
14.	207№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
15.	223№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
16.	236№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
17.	243№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
18.	250№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
19.	55№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
20.	205№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
21.	217№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
22.	232№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
23.	233№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
24.	240№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
25.	241№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
26.	255№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
27.	316№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 27 müəssisə			

Bərpa-gücləndirmə və əsaslı təmir			
1.	314№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 1 müəssisə			
Nizami rayonu			
Əsaslı təmir			
1.	110№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	309№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	103№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	154№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	172№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	190№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	113№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	129№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 8 müəssisə			
Qaradağ rayonu			
Əsaslı təmir			
1.	15№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	67№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	299№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	204№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	301№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 5 müəssisə			
Yeni tikinti			
1.	300№-li körpələr evi-uşaq bağçası üçün 120 yerlik yeni bina	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	326№-li körpələr evi-uşaq bağçası üçün 120 yerlik yeni bina	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	Qızıldaş qəsəbəsində 120 yerlik yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	Müşfiqabad qəsəbəsində 120 yerlik yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 4 müəssisə			
Nərimanov rayonu			
Əsaslı təmir			
1.	37№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	49№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	56№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti

4.	134№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	164№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	182№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	305№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	69№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	89№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	180№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	307№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
12.	64№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
13.	71№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
14.	80№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
15.	165№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
16.	168№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 16 müəssisə			
Nəsimi rayonu			
Əsaslı təmir			
1.	6№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	18№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	24№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	50№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	96№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	108№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	45№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	74№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	92№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	147№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	135№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
12.	156№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
13.	174№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 13 müəssisə			

Sabunçu rayonu			
Əsaslı təmir			
1.	192№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	226№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	227№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	281№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	310№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	198№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	247№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	282№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	7№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	195№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	230№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 11 müəssisə			
Bərpa-gücləndirmə və əsaslı təmir			
1.	107№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	109№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	319№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	321№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	105№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	191№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	167№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	320№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 8 müəssisə			
Yeni tikinti			
1.	Maştağa qəsəbəsinin Savalan yaşayış massivində 120 yerlik yeni uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	Bilgəh qəsəbəsinin Zəfəran sovxozunda 80 yerlik yeni uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	Zabrat qəsəbəsinin «Əncirlik» yaşayış sahəsində 120 yerlik yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 3 müəssisə			

Səbail rayonu			
Əsaslı təmir			
1.	47№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
2.	44№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
Cəmi: 2 müəssisə			
Yeni tikinti			
1.	Badamdar qəsəbəsində 120 yerlik yeni uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
Cəmi: 1 müəssisə			
Suraxanı rayonu			
Əsaslı təmir			
1.	19№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
2.	163№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
3.	268№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
4.	312№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
5.	313№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
6.	323№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
7.	5№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
8.	262№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
9.	273№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
10.	324№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
11.	263№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
12.	280№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
Cəmi: 12 müəssisə			
Yeni tikinti			
1.	Hövsan südçülük sovxozunda 120 yerlik yeni uşaq bağçası	2012	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
2.	Hövsan quşçuluq sovxozunda 80 yerlik yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
3.	Hövsan zeytunluq sovxozunda 120 yerlik yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi. Rayon İcra Hakimiyyəti
Cəmi: 3 müəssisə			

Yasamal rayonu			
Əsaslı təmir			
1.	10№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	12№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
3.	27№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
4.	36№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
5.	94№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
6.	201№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
7.	318№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
8.	325№-li körpələr evi-uşaq bağçası	2011	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
9.	21№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
10.	32№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
11.	34№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
12.	54№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
13.	60№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
14.	77№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
15.	184№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
16.	38№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
17.	68№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
18.	98№-li körpələr evi-uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 18 müəssisə			
Bərpa-gücləndirmə və əsaslı təmir			
1.	82№-li körpələr evi-uşaq bağçası	2012	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 1 müəssisə			
Yeni tikinti			
1.	99№-li körpələr evi-uşaq bağçası üçün 4 qruplu əlavə korpus	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
2.	Yeni Yasamal yaşayış massivində yeni uşaq bağçası	2013	Təhsil Nazirliyi, Rayon İcra Hakimiyyəti
Cəmi: 2 müəssisə			
Yekun			
Əsaslı təmir		**137 müəssisə**	
Bərpa-gücləndirmə və əsaslı təmir		**10 müəssisə**	
Yeni tikinti		**14 müəssisə**	

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.08.2011-ci il tarixli 241s№-li Sərəncamına əsasən 2011-ci ildə respublikanın şəhər və rayonlarında 41 məktəbəqədər təhsil müəssisəsində əsaslı təmir işlərinin aparılması və 1 yeni məktəbəqədər təhsil müəssisəsi binasının inşası nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 avqust tarixli 241 s №-li Sərəncamına əlavə

№	Rayonların (şəhərlərin) və obyektlərin adı	Ayrılan vəsaitin məbləği (min manatla)
	1	2
	Gəncə Şəhər İcra Hakimiyyəti	
1.	Gəncə şəhər 2№-li uşaq bağçasının əsaslı təmiri	400
	Mingəçevir Şəhər İcra Hakimiyyəti	
1.	Mingəçevir şəhər 1№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	300
	Naftalan Şəhər İcra Hakimiyyəti	
1.	Naftalan şəhərində qəza vəziyyətində olan V.Namazov adına bağçanın sökülüb yerində 280 yerlik körpələr evi-uşaq bağçasının tikintisi	570
	Sumqayıt Şəhər İcra Hakimiyyəti	
1.	Sumqayıt şəhər 45№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	560
	Şəki Şəhər İcra Hakimiyyəti	
1.	Şəki şəhər 22№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	400
	Şirvan Şəhər İcra Hakimiyyəti	
1.	Şirvan şəhər 1№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	300
	Abşeron Rayon İcra Hakimiyyəti	
1.	Abşeron rayonu, Xırdalan qəsəbəsi, 23№-li uşaq bağçasının əsaslı təmiri	360
	Ağdam Rayon İcra Hakimiyyəti	
1.	Ağdam rayonu, Birinci Yüzbaşılı kənd uşaq bağçasının əsaslı təmiri	140
	Ağdaş Rayon İcra Hakimiyyəti	
1.	Ağdaş şəhər 11№-li uşaq bağçasının əsaslı təmiri	200
	Ağstafa Rayon İcra Hakimiyyəti	
1.	Ağstafa şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	430

1		2
Astara Rayon İcra Hakimiyyəti		
1.	Astara şəhər 2№-li uşaq bağçasının əsaslı təmiri	420
Balakən Rayon İcra Hakimiyyəti		
1.	Balakən şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	320
2.	Balakən şəhər 3№-li uşaq bağçasının əsaslı təmiri	180
Bərdə Rayon İcra Hakimiyyəti		
1.	Bərdə şəhər 6№-li uşaq bağçasının əsaslı təmiri	240
Biləsuvar Rayon İcra Hakimiyyəti		
1.	Biləsuvar şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	250
Daşkəsən Rayon İcra Hakimiyyəti		
1.	Daşkəsən şəhər 2№-li uşaq bağçasının əsaslı təmiri	135
Şabran Rayon İcra Hakimiyyəti		
1.	Şabran şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	520
Füzuli Rayon İcra Hakimiyyəti		
1.	Füzuli rayonu, Kərimbəyli kənd uşaq bağçasının əsaslı təmiri	150
Gədəbəy Rayon İcra Hakimiyyəti		
1.	Gədəbəy rayonu, Slavyanka kənd uşaq bağçasının əsaslı təmiri	195
Göyçay Rayon İcra Hakimiyyəti		
1.	Göyçay şəhər 12№-li uşaq bağçasının əsaslı təmiri	200
Hacıqabul Rayon İcra Hakimiyyəti		
1.	Hacıqabul şəhər 2№-li «Gündüz» uşaq bağçasının əsaslı təmiri	250
Xaçmaz Rayon İcra Hakimiyyəti		
1.	Xaçmaz şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	195
Xızı Rayon İcra Hakimiyyəti		
1.	Altıağac qəsəbə uşaq bağçasının əsaslı təmiri	100

1		2
İmişli Rayon İcra Hakimiyyəti		
1.	İmişli şəhər 4№-li uşaq bağçasının əsaslı təmiri	150
Kürdəmir Rayon İcra Hakimiyyəti		
1.	Kürdəmir şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	195
Qax Rayon İcra Hakimiyyəti		
1.	Qax şəhər 3№-li uşaq bağçasının əsaslı təmiri	300
Qəbələ Rayon İcra Hakimiyyəti		
1.	Bum kənd uşaq bağçasının əsaslı təmiri	200
Qobustan Rayon İcra Hakimiyyəti		
1.	Qobustan şəhər 3№-li uşaq bağçasının əsaslı təmiri	110
Quba Rayon İcra Hakimiyyəti		
1.	Quba şəhər 1№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	200
QusarRayon İcra Hakimiyyəti		
1.	Qusar şəhər 3№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	200
Masallı Rayon İcra Hakimiyyəti		
1.	Masallı rayonu, Gəyəçöl kənd uşaq bağçasının əsaslı təmiri	400
Neftçala Rayon İcra Hakimiyyəti		
1.	Neftçala şəhər 2№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	280
Saatlı Rayon İcra Hakimiyyəti		
1.	Saatlı şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	560
Sabirabad Rayon İcra Hakimiyyəti		
1.	Sabirabad şəhər 2№-li uşaq bağçasının əsaslı təmiri	350
Salyan Rayon İcra Hakimiyyəti		
1.	Salyan şəhər 2№-li uşaq bağçasının əsaslı təmiri	110
Samux Rayon İcra Hakimiyyəti		
1.	Samux şəhər 1№-li uşaq bağçasının əsaslı təmiri	130

Siyəzən Rayon İcra Hakimiyyəti		
1.	Siyəzən şəhər 9№-li uşaq bağçasının əsaslı təmiri	250
Şamaxı Rayon İcra Hakimiyyəti		
1.	Şamaxı şəhər 1№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	250
Tərtər Rayon İcra Hakimiyyəti		
1.	Seydimli kənd körpələr evi-uşaq bağçasının əsaslı təmiri	450
Tovuz Rayon İcra Hakimiyyəti		
1.	Tovuz şəhər 2№-li körpələr evi-uşaq bağçasının əsaslı təmiri	250
Ucar Rayon İcra Hakimiyyəti		
1.	Ucar şəhər 3№-li uşaq bağçasının əsaslı təmiri	250
Yardımlı Rayon İcra Hakimiyyəti		
1.	Çayüzü kənd uşaq bağçasının əsaslı təmiri	150

Beləliklə, müstəqilliyin 20 ili ərzində ölkə həyatının bütün sahələrində olduğu kimi, təhsil sahəsində, o cümlədən onun ən vacib pillələrindən biri olan məktəbəqədər təhsil sahəsində tənəzzülün qarşısı alındı, stabillik bərqərar oldu, az da olsa inkişaf meyilləri özünü büruzə verdi, cəmiyyətdə bu sahəyə maraq və ehtiyac artdı, dövlətin diqqəti və qayğısı nəticəsində onun maddi-texniki bazası xeyli möhkəmləndi, müasir avadanlıqlarla təminatında əsaslı addımlar atıldı, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi öyrənildi, müvafiq beynəlxalq qurumlarla əlaqələr yaradıldı, nəticədə daha sürətli inkişafın əsası qoyuldu.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində büdcə gəlirlərinin sürətli artımı, ölkənin yüksək iqtisadi artım tempi, insan kapitalının inkişafına yönəlmiş siyasət məktəbəqədər təhsilin inkişafı üçün yeni, daha mütərəqqi ideyaların həyata keçirilməsinə şərait yaratdı. Prezidentin xüsusi Sərəncamı ilə 2011–2021-ci illəri əhatə edəcək yeni «Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya» hazırlanıb ölkə rəhbərliyinə təqdim edildi.

«2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya»nın həyata keçirilməsi mövcud problemlərin aradan qaldırılmasına şərait yaratmaqla məktəbəqədər təhsilin inkişafında ciddi dönüşə səbəb olacaqdır. Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazası daha da möhkəmlənəcək, tədris-metodiki təminatı yeniləşdiriləcək, məktəbəqədər təhsilin sosial-iqtisadi səmərəliliyi artacaq, maliyyə təminatının dayanıqlılığına imkan yaranacaq, əhalinin məktəbəqədər təhsil xidmətlərinə tələbatı daha dolğun təmin ediləcək, bütün əhali təbəqələri üçün müasir standartlara uyğun məktəbəqədər təhsil xidmətləri əlçatan olacaq, məktəbəqədər təhsilin əhatə dairəsi genişlənəcək, təhsil müəssisələrinə daha çox uşaq cəlb ediləcəkdir. Uşaqların təlim-tərbiyəsi, sağlamlığının qorunması, fiziki, intellektual və psixoloji inkişafı üçün əlverişli şərait yaradılacaq, kadr təminatı yaxşılaşacaq, kadrların peşəkarlıq səviyyəsi artacaq və bütün bunların nəticəsində məktəbəqədər təhsilin keyfiyyəti yüksələcəkdir.

II FƏSİL

ÜMUMİ TƏHSİLİN İNKİŞAFI

Hər hansı bir ölkədə təhsil sistemi formalaşmağa başladığı vaxtdan etibarən ilk növbədə ümumi təhsilin inkişafına ciddi diqqət yetirilir. Bu, səbəbsiz deyil. Çünki insanın şəxsiyyət kimi formalaşmasında, zəruri biliklərə və həyati bacarıqlara yiyələnməsində ümumi təhsil müstəsna rol oynayır. Ola bilər ki, insan həyatının sonrakı mərhələlərində digər təhsil pillələrinin imkanlarından istifadə etməsin, lakin hamı ümumi təhsilin icbari mərhələsini hökmən keçməlidir. Ona görə də bu mərhələnin yekununda vətəndaşa dövlət standartları səviyyəsində elə keyfiyyətli təhsil verilməlidir ki, o həmin bazadan istifadə edərək cəmiyyətdə öz yerini tapa bilsin, «artıq adam»a çevrilməsin. Bununla yanaşı, ümumi təhsil sonrakı pillələrdə təhsili davam etdirmək üçün möhkəm bünövrə missiyasını yerinə yetirir. Əks halda peşə-ixtisas təhsilinin səmərəliliyinin təmin olunmasından danışmağa belə dəyməz. Bu mənada təhsil sisteminin dayanıqlılığı ümumi təhsildən, onun keyfiyyətindən çox asılıdır.

Müstəqillik illəri Azərbaycanda ümumi təhsil sahəsində əhəmiyyətli islahatlar dövrü kimi xarakterizə edilir. İlk növbədə, 70 il ərzində mövcud olmuş kiril əlifbasından imtina edildi, latın qrafikalı əlifbaya keçildi.

Ümumi təhsil müəssisələrinin infrastrukturu əsaslı şəkildə yeniləşdirildi, qısa zaman ərzində 2000-dən çox yeni məktəb inşa edildi və ya əsaslı təmir olundu, müasir avadanlıqlarla təchiz edildi.

İKT-nin ümumi təhsil sisteminə tətbiqi sahəsində mühüm addımlar atıldı. Ən əhəmiyyətli addım ondan ibarət idi ki, ümumi təhsilin yeni konsepsiyası hazırlandı və təsdiq edildi, məzmun tam yeniləşdirildi, yeni kurikulumlar tətbiq edildi.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində yeni mexanizmlər tətbiq edilməyə başlandı, məktəbdaxili qiymətləndirmənin yeni sistemi yarandı, buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada keçirilməyə başlandı, milli və beynəlxalq qiymətləndirmə istiqamətində ilk addımlar atıldı.

Milli dərslik yaradıcılığı sahəsində əhəmiyyətli nailiyyətlər qazanıldı. Ümumi təhsil sistemində istifadə olunan bütün dərsliklər milli-mənəvi və ümumbəşəri dəyərlərə uyğun olaraq yenidən hazırlandı. Şagirdlərin dərsliklərlə pulsuz təminatı bərpa edildi. Yeni dərslik siyasəti işləndi, ilk dəfə olaraq şagird üçün dərslik, iş dəftəri və müəllim üçün vəsaitdən

ibarət olan dərslik komplektləri hazırlandı və tətbiq edildi.

Təhsil müəssisələrinin maliyyələşdirilməsi sahəsində yeni mexanizmlərə keçid məqsədilə adambaşına maliyyələşmə sahəsində müəyyən addımlar atıldı.

Təhsil qanunvericiliyinin yeniləşdirilməsi istiqamətində dövrün tələbinə uyğun olaraq, taleyüklü işlər görüldü. 1992-ci ildə müstəqil Azərbaycanın ilk Təhsil Qanunu qəbul edildi və keçid dövründə təhsilin inkişafına zəmin yaratdı.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Sərəncama əsasən «Azərbaycan Respublikasının Təhsil sahəsində islahat Proqramı» hazırlandı. Proqramda ümumi təhsilin məzmununun yeniləşdirilməsi, dərslik siyasətinin təkmilləşdirilməsi, kadr, maliyyə, maddi-texniki, tədris-metodiki və informasiya təminatı, yeni idarəetmə modelinin yaradılması və digər məsələlər öz əksini tapdı. İslahat proqramı 1999-cu il iyunun 15-də dövlət başçısının Sərəncamı ilə təsdiq edildi.

2009-cu ildə «Təhsil haqqında» Azərbaycan Respublikasının yeni qanunu qəbul edildi və ölkə təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyması qanunla təsbit olundu.

2011-ci ilin 11 iyulunda ölkə Prezidenti tərəfindən «2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya»nın hazırlanması haqqında Sərəncam imzalandı və həmin Sərəncama əsasən Milli Strategiya sənədi hazırlandı.

Qeyd etmək lazımdır ki, bütün bu məsələlər Azərbaycanın təhsil tarixində yeni və əlamətdar hadisələr idi.

2.1. Müstəqilliyin ilk illərində ümumi təhsilin təşkili

Dövlət müstəqilliyinin bərpası (18 oktyabr 1991-ci il) ilə Azərbaycan tarixində ikinci dəfə təhsil siyasətinin dəyişməsi və bütövlükdə təhsil sisteminin milli ənənələr və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi imkan yarandı.

Lakin müstəqillik ərəfəsində (1988–1991-ci illər) ümumi təhsildə başlanmış böhran müstəqilliyin ilk illərində (1991–1993-cü illər) daha da dərinləşdi. Bu dövrdə məktəb tikintisi tamamilə dayandı, respublika iqtisadiyyatında baş verən böhranlı proseslər nəticəsində ümumi təhsil müəssisələrinin maliyyələşməsi minimuma endi, məktəblərdən kadr axını başlandı, dərsliklərin şagirdlərə pulsuz verilməsi dayandırıldı, uşaqların icbari təhsilə cəlb olunması səviyyəsi aşağı endi.

XX əsrin 80-ci illərinin axırlarında Ermənistandakı soydaşlarımızın kütləvi deportasiyası başladı. Sovet ordusunun fəal köməyi nəticəsində 1988-ci ildə Ermənistandakı azərbaycanlılar son nəfərinə kimi öz əzəli ata-baba torpaqlarından qovuldular. 200 mindən artıq soydaşımız mənəvi repressiyanın qurbanı oldu. 48681 şagird, onların təlim-tərbiyəsi ilə məşğul olan 3992 müəllim el-obasını tərk etdi. Təlim Azərbaycan dilində aparılan 192 məktəb bağlandı. Həmin məktəblərin, həm də 300-dən yuxarı kəndin kitabxanası dağıdıldı, 100 minlərlə kitab yandırıldı, xalqın min illərlə qoruyub saxladığı maddi və mənəvi abidələr yerlə yeksan edildi *(bax: Rüstəmov Fərrux. Ermənistandakı Azərbaycan məktəbləri necə bağlandı. «Vətən səsi» qəzeti. 1994, №6)*.

Müstəqilliyin ilk illərində (1992–1993-cü illər) Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ və ətraf rayonları zəbt etməsi nəticəsində 616 ümumtəhsil məktəbi dağıdıldı, 97779 şagird, 12705 müəllim öz vətənində məcburi köçkünə, didərginə çevrildi *(bax: Развитие образования в Азербайджанской Республике. Национальный отчет Азербайджанской Республики. Баку, 2004. с.5).*

Erməni işğalçıları tərəfindən zəbt edilmiş və dağıdılmış ümumi təhsil müəssisələri haqqında məlumat

№	Rayonlar	Məktəblər		
		Sayı	Şagird	Pedaqoji işçi
1.	Zəngilan	65	5948	1104
2.	Ağdam	61	20412	2159
3.	Kəlbəcər	98	9747	1227
4.	Qubadlı	61	5414	1209
5.	Xocalı və Xocavənd	37	5001	510
6.	Şuşa	22	6447	567
7.	Cəbrayıl	71	11020	1686
8.	Füzuli	91	22804	2691
9.	Laçın	101	10432	1456
10.	Qazax	9	554	96
Cəmi:		**616**	**97779**	**12705**

Qaçqın və məcburi köçkünlərin əksəriyyətinin təhsil müəssisələrinin tədris və yataqxana korpuslarında, uşaq bağçaları və məktəbdənkənar tərbiyə müəssisələrində məskunlaşması nəticəsində respublikada təhsil sisteminin ahəngi ciddi şəkildə pozuldu. Ölkənin şəhər və rayonlarında 9 ali məktəb, 17 texnikum, 48 texniki peşə və 850-ə qədər ümumtəhsil məktəbinin tədris və yataqxana korpuslarında, 100-dən çox uşaq bağçasında 7500-dən çox məcburi köçkün ailəsi məskunlaşdı.

1991-ci ildə Nazirliyin strukturunda 2 baş idarə, 9 idarə və 21 şöbə mövcud idi. Eyni zamanda həmin dövrdə Nazirliyin nəzdində Dövlət müfəttişliyi fəaliyyət göstərirdi. Müstəqillik ərəfəsində və onun ilk illərində Azərbaycan Respublikasının təhsil naziri Rafiq Feyzullayev idi (1989–1992) *(bax. II cild, səh 104)*.

Müstəqilliyin ilk illəri Azərbaycanın ictimai-siyasi həyatında ən ağır illər idi. Sosialist təsərrüfatından yeni bazar münasibətlərinə keçid prosesi çoxlu problemlər yaratmışdı. Müharibə gedən bir ölkədə daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə getdikcə güclənirdi. Hərc-mərclik, xaos, parçalanma meyilləri bütün ölkəni bürümüşdü. Bu vəziyyət bütün sahələrdə olduğu kimi, təhsil sisteminə də ciddi təsirini göstərmişdi. Vaxtilə cəmiyyətdə böyük hörmət və nüfuza malik olan məktəbə, müəllimə münasibət dəyişmişdi. Ona görə də müstəqil dövlət quruculuğunda yaxından iştirak etməli olan təhsil, məktəb milli ruhlu kadrlar hazırlamaq, Vətənini sevən, onun mənafeyi ilə yaşayan vətəndaşlar tərbiyə etmək kimi tarixi vəzifənin öhdəsindən gəlmək üçün səfərbər oluna bilmirdi. Tələsik, düşünülməmiş tədbirlərin həyata keçirilməsi təhsilin məzmununda nəinki milli dəyərlərin bərpasına səbəb ola bilmirdi, əksinə, təhsildə mütərəqqi ənənələri tənəzzülə uğradırdı.

1990/91-ci tədris ilində Azərbaycanda 4268 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, onlardan 520-si ibtidai, 1148-i əsas, 2578-i orta məktəb idi. Eyni zamanda həmin dərs ilində 2 lisey, 2 gimnaziya, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 22 məktəb, bundan başqa 88 axşam (qiyabi) məktəbi fəaliyyət göstərirdi.

Dövlət gündüz ümumtəhsil məktəbləri haqqında məlumat

Tədris illəri	Məktəblərin sayı	O cümlədən:					Sağlamlıq imkanları məhdud uşaqlar üçün məktəblər	Şagirdlərin sayı
		ibtidai	əsas	orta	Onlardan:			
					liseylər	gimnaziyalar		
1990/91	4268	520	1148	2578	2	2	22	1349489
1991/92	4332	519	1082	2710	8	3	21	1375441
1992/93	4388	500	1035	2833	9	6	20	1401699

Qiyabi (axşam) ümumtəhsil məktəbləri, gündüz məktəblərinin nəzdində axşam sinifləri və qiyabi qruplar haqqında məlumat

Tədris illəri	Məktəblərin sayı	Şagirdlərin sayı
1990/91	88	28780
1991/92	88	30073
1992/93	85	30273

14 dekabr 1991-ci ildə Azərbaycan Respublikası Müəllimlər Şurasının Təsis Konfransı keçirildi. Konfransda Şuranın məqsəd və vəzifələri müəyyənləşdirildi və təşkilati məsələlər həll edildi. Bakı şəhəri Nərimanov rayonu 82№-li məktəbin direktoru Babaxan Muradov Azərbaycan Respublikası Müəllimlər Şurasının sədri seçildi. Şura müəllimlərin sosial müdafiəsi, o cümlədən onların əmək haqqının artırılması, ictimai nəqliyyatdan pulsuz istifadə və sair məsələlərlə bağlı fəal iş aparırdı.

1991/92-ci tədris ilindən Xalq Təhsili Nazirliyinin təşəbbüsü ilə «İlin ən yaxşı müəllimi» müsabiqəsi keçirilməyə başlandı. Müsabiqə qalibləri müəllimlərin Bakı şəhəri məktəblərində keçirdikləri bir açıq dərsin nəticəsinə görə müəyyənləşdirilirdi. Müsabiqə qaliblərinə Nazirlik tərəfindən döş nişanı və vəsiqə verilirdi.

Müstəqilliyin ilk tədris ilində Azərbaycanın ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirmə və buraxılış imtahanları aparılırdı. V–VIII və X siniflərdə pedaqoji şuranın qərarı ilə 2 fəndən imtahan aparılırdı. İmtahanlardan biri Nazirlik tərəfindən (coğrafiyadan şifahi) müəyyən edilir, digəri isə pedaqoji şuranın tövsiyəsi ilə seçilirdi. IX siniflərdə 4 fəndən imtahan keçirilirdi. Ana dili və cəbr (yazılı) Nazirlik tərəfindən müəyyən olunur, digər 2 imtahan isə pedaqoji şura tərəfindən tövsiyə edilirdi.

Xarici dili II sinifdən dərinləşdirilmiş proqramla öyrənən məktəblərdə, lisey və gimnaziyalarda əlavə olaraq xarici dildən şifahi imtahan da aparılırdı. XI sinfin şagirdləri 6 fəndən imtahan verirdilər: ədəbiyyat, cəbr və analizin başlanğıcı (yazılı), fizika, kimya, təlim Azərbaycan dilində aparılan məktəblərdə xarici dil, təlim qeyri-Azərbaycan dilində aparılan məktəblərdə Azərbaycan dili (şifahi). Xarici dil tədris olunmayan, təlim Azərbaycan dilində olan məktəblərdə rus dilindən (şifahi) imtahan keçirilirdi.

Göstərilən 5 fənn üzrə imtahanlar Nazirlik tərəfindən müəyyənləşdirilirdi. 1 fənn üzrə isə (tarix, Azərbaycan tarixi, həndəsə, informatika, biologiya, təlim qeyri-Azərbaycan dilində aparılan məktəblərdə xarici dil) imtahan məktəb pedaqoji şurasının qərarı ilə seçilirdi.

1991/92-ci tədris ilində Xalq Təhsili Nazirliyi yaranmış vəziyyəti nəzərə alaraq Ermənistanla və Qarabağın dağlıq hissəsi ilə həmsərhəd olan yaşayış yerlərində təhsil alan orta ümumtəhsil məktəbləri şagirdlərini sinifdən-sinfə keçirmə imtahanlarından azad etdi. Həmin şagirdlər illik qiymətlər əsasında sinifdən-sinfə keçirilirdilər.

1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan BMT-yə üzv qəbul olundu. Azərbaycanın müstəqillik tarixi üçün müstəsna əhəmiyyətə malik olan bu hadisə sonradan milli təhsil sisteminin inkişafı, beynəlxalq əməkdaşlıq və dünya təhsil məkanına inteqrasiya üçün unikal imkanlar açdı.

Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının elm, təhsil, din və mədəniyyət komissiyasının tövsiyəsi ilə Xalq Təhsili Nazirliyi Azərbaycanın təhsil konsepsiyasını hazırlamaq üçün ekspert-işçi qrupu yaratmışdı. Sənədin layihəsi üzərində iş 1992-ci ilin martında başa çatmışdı və Azərbaycan Respublikasının təhsil konsepsiyası layihəsi «Azərbaycan müəllimi» qəzetinin 13 mart 1992-ci il tarixli nömrəsində ümumxalq müzakirəsinə çıxarılmışdı. Konsepsiyada təhsil sisteminin başlıca vəzifəsi, prinsipləri, strukturu, təhsilin elmi-pedaqoji təminatı, iqtisadiyyatı, təhsilin sosial müdafiəsi, təhsil sisteminin beynəlxalq əlaqələri öz əksini tapmışdı.

Qeyd etmək lazımdır ki, konsepsiya layihəsi müzakirəyə çıxarılsa da, təhsil ictimaiyyəti və mütəxəssislər tərəfindən ciddi iradlara məruz qaldı və təsdiq olunmadı.

Müstəqilliyin ilk illərində ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərinə pulsuz səhər yeməyi verilməsi davam edirdi. Lakin çox keçmədi ki, Azərbaycan Respublikası Prezidentinin «Şəhərlərdə, şəhərtipli qəsəbələrdə və fəhlə qəsəbələrində yerləşən ümumtəhsil məktəblərinin I–IV siniflərinin şagirdlərinə pulsuz yemək verilməsi əvəzinə pul kompensasiyası tətbiq edilməsi haqqında» 31 mart 1992-ci il tarixli Fərmanı imzalandı. Fərmanda ərzaq məhsulları ehtiyatlarının məhdudluğu ilə əlaqədar olaraq, pulsuz səhər yeməyi əvəzinə şagirdlərin valideynlərinə ayda hər uşağa görə 45 manat məbləğində kompensasiya verilməsi nəzərdə tutuldu.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli Sərəncamı ilə **Firudin Ağası oğlu Cəlilov** Azərbaycan Respublikasının xalq təhsili naziri təyin edildi.

1992-ci ilin 9 oktyabrından Təhsil Nazirliyinin orqanı, həmin dövrdə yeganə pedaqoji mətbu orqan olan «Azərbaycan müəllimi» qəzeti maliyyə vəsaitinin ayrılmaması səbəbindən nəşrini dayandırdı. Qəzet rəhbərliyi ölkə Prezidentinə, Ali Sovetin sədrinə, maliyyə nazirinə müraciətlər etdi. 1993-cü il martın 6-da qəzet yenidən nəşr olunmağa başladı. Həmin dövrdə qəzetin baş redaktoru Məhəmməd Baharlı idi.



Firudin Cəlilov (1947)

Cəlilov Firudin Ağası oğlu Ermənistan SSR-in Qarabağlar rayonunun Qarabağlar kəndində anadan olmuşdur. Ermənistan SSR-in Vedi rayonunda səkkizillik məktəbi, Bakı şəhərində orta məktəbi (1966) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1972).

ADU-nun Azərbaycan dili kafedrasında laborant, müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmışdır (1972–1989). 1978-ci ildə namizədlik, 1989-cu ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

1990-cı ildə millət vəkili və Milli Məclisin Elm, təhsil və mədəniyyət komissiyasının sədri seçilmişdir.

1991–1992-ci illərdə xalq təhsili nazirinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifələrində çalışmışdır. 1992-ci ilin avqust ayından 1993-cü ilin sentyabr ayınadək Azərbaycan Respublikasının xalq təhsili naziri vəzifəsində işləmişdir.

300-dən çox elmi məqalə və 20-dən artıq kitabın müəllifidir.

Müstəqil Azərbaycanın ilk Təhsil Qanununun qəbul edilməsi. 7 oktyabr 1992-ci ildə yeni Təhsil Qanunu qəbul edildi. Qanunda bir sıra mütərəqqi müddəalar, o cümlədən dövlət təhsil müəssisələrində əlavə pullu təhsil qruplarının yaradılması, orta təhsil pilləsində təlimin təmayüllər üzrə aparılması, qeyri-dövlət təlim-tərbiyə müəssisələrinin, yeni tipli təhsil müəssisələrinin yaradılması, təhsil müəssisələri rəhbərlərinin seçki yolu ilə müəyyənləşdirilməsi, ümumtəhsil məktəblərində həftəlik tarif stavkasının 12 saat (əvvəllər 18 saat idi) müəyyən edilməsi, pedaqoji işçilər üçün imtiyazların nəzərdə tutulması, təhsil fəaliyyəti sahəsində vergi güzəştlərinin tətbiq olunması və s. məsələlər təsbit olunmuşdu.

Lakin Qanunda ümumi təhsilin strukturunda dəyişiklik edilməsi, əsas təhsil pilləsi müddətinin beş ildən dörd ilə endirilməsi (9 illikdən 8 illiyə), onbirillik icbari ümumi orta təhsildən səkkizillik icbari təhsilə keçid mahiyyət etibarilə ümumi təhsilin inkişafında geriyə doğru bir addım idi.

Ümumtəhsil məktəblərində pedaqoji işçilərin həftəlik tarif stavkasının 18 saatdan 12 saata endirilməsi, əslində, mütərəqqi addım idi və müəllimlərin dərs yükünün optimallaşdırılmasına, tədris prosesinə daha yaxşı hazırlaşmasına, öz peşəkarlıq səviyyəsinin artırılması imkanlarının genişləndirilməsinə, eyni zamanda mövcud qanunvericilik çərçivəsində dərs yükünün artırılması vasitəsilə onların sosial müdafiəsinə yönəlmişdi. Lakin bu mütərəqqi addım bir sıra yeni problemlərin yaranmasına gətirib çıxardı. Belə ki, məktəblərə kütləvi surətdə yeni müəllimlərin işə qəbuluna şərait yaradıldı. Əksər hallarda ixtisaslı kadrlar olmadığı üçün qeyri-ixtisaslı, hətta qeyri-pedaqoji təhsillilər də məktəblərdə müəllim işləməyə başladılar. Ölkədə müəllimlərin sayı sürətlə artdı, müəllim və şagirdlərin optimal say nisbəti pozuldu, müəllim-şagird nisbəti aşağı düşdü. Əgər 1991/92-ci tədris ilində ümumtəhsil məktəblərində 130 min müəllim fəaliyyət göstərirdisə, 1995/96-cı tədris ilində onların sayı 20 mindən çox artaraq 158 mini ötmüşdü.

Sənəddə bir sıra müsbət və mütərəqqi cəhətlərin olmasına baxmayaraq, qanun hazırlanarkən mövcud reallıqlar, ölkənin sosial-iqtisadi durumu nəzərə alınmadığına görə bir çox məsələlərin qanuna daxil edilməsində tələsikliyə yol verilmişdi və təbii ki, sonradan onların həyata keçirilməsi mümkün olmadı.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) yaradılması.

Orta məktəb məzunlarının, gənclərin sərbəst və düzgün peşə seçməsini, tələbələrin ali və orta ixtisas təhsili məktəblərinə qəbulunda obyektivliyi təmin etmək, mövcud neqativ halları aradan qaldırmaq məqsədilə qabaqcıl ölkələrin təcrübəsinə əsaslanaraq **Azərbaycan Respublikası Prezidentinin 21 iyul 1992-ci il tarixli 74№-li Fərmanı ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 66№-li Sərəncamı** ilə Nazirlər Kabineti yanında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mənim də daxil olduğum fərdi tərkibi təsdiq edildi. Məndən başqa tərkibə Əyyubov Vurğun Əliş oğlu (sədr), İmanov Kamran Sultan oğlu, Əliyev Tofiq Məmməd oğlu, Hüseynov Zakir Əşrəf oğlu, Cəlilov Bahadur Adil oğlu, İbrahimov İbrahim Məşədi Hilal oğlu daxil idi.

Azərbaycan Respublikası Prezidentinin 27 oktyabr 1992-ci il tarixli 283№-li Fərmanı ilə «Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) haqqında Əsasnamə» təsdiq edildi. 1992/93-cü tədris ilində TQDK müvafiq nazirliklər, idarələr, tədris müəssisələri və mütəxəssislərlə birlikdə ali və orta ixtisas məktəblərinə tələbə qəbulunu mütəşəkkil keçirmək üçün müəyyən işlər gördü, ilk qəbul keçirildi. Təəssüf ki, təşkilati işlər müəyyən vaxt apardığı üçün, qəbul prosesi nəzərdə tutulduğundan xeyli gec həyata keçirildi.

İlk qəbulda abituriyentlər ərizələrində ali və orta ixtisas təhsili pilləsinin yalnız beş ixtisasını göstərə bilərdilər. Ərizələrdəki məlumatları 20–30 nəfərdən ibarət xüsusi operatorlar qrupu 15–20 gün ərzində kompyuterə daxil edirdi. Cavab kartları Türkiyə Respublikasında çap edilir, imtahandan sonra onlar yenidən qardaş ölkəyə aparılıb optik oxu qurğusu vasitəsilə oxunur və ixtisaslar üzrə yerləşdirmə aparılırdı. Həmin il komissiyaya cəmi 5 ədəd IBM 286 kompyuteri alınmışdı. İmtahan üçün test tapşırıqları qapalı yerdə bilavasitə müəllimlər tərəfindən bir variantda tərtib edilirdi. Qeyd etmək lazımdır ki, test üsulu hazırlıqlı gənclərin ali təhsil müəssisələrinə qəbul olunmasına müsbət təsir göstərdi. Əhali yeni üsulu rəğbətlə qarşıladı. (TQDK-nın fəaliyyəti və inkişafı haqqında geniş məlumat çoxcildliyin IV cildində veriləcəkdir.)

Tədris planları. Müstəqilliyin ilk illərində tədris planları həm 3 illik, həm də 4 illik ibtidai təhsil təcrübəsini özündə cəmləşdirmişdi. Həmin illərin tədris planlarında V–VIII və X siniflərdə əmək praktikası nəzərdə tutulmuşdu ki, bu zaman şagirdlər tədris ili ərzində 10–20 gün bilavasitə istehsalat sahələrində iş prosesi ilə tanış olurdular.

Azərbaycan SSR-in orta ümumtəhsil məktəblərinin 1990/91-ci dərs ili üçün tədris planı

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı													
		3 illik ibtidai məktəb			4 illik ibtidai məktəb				V–XI siniflər						
		I	II	III	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
1.	Azərbaycan dili	12	10	9	8	9	9	9	5	4	4	3	2	–	–
2.	Ədəbiyyat	–	–	–	–	–	–	–	3	2	2	2	2	4	3
3.	Rus dili və ədəbiyyatı	3	5	5	2	3	4	4	4	4	4	4/3	3	2	2
4.	Riyaziyyat	6	6	6	4	5	5	5	6	6	6	6	6	4/5	4
5.	İnformatika və HT əsasları	–	–	–	–	–	–	–	–	–	–	–	–	1/2	2/1
6.	Tarix	–	–	–	–	–	–	–	2	2	2	2	3	4	3
7.	Azərbaycan tarixi	–	–	–	–	–	–	–	–	–	–	1	1	0/1	1/0

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı													
		3 illik ibtidai məktəb			4 illik ibtidai məktəb				V–XI siniflər						
		I	II	III	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
8.	Sovet dövlətinin əsasları və hüquq	–	–	–	–	–	–	–	–	–	–	–	1	–	–
9.	Etika və ailə həyatının psixologiyası	–	–	–	–	–	–	–	–	–	–	–	–	1	–
10.	İctimaiyyət	–	–	–	–	–	–	–	–	–	–	–	–	–	2
11.	Ətraf aləmlə tanışlıq	–	–	–	1	1	–	–	–	–	–	–	–	–	–
12.	Təbiətşünaslıq	–	1	1	–	–	1	1	1	–	–	–	–	–	–
13.	Coğrafiya	–	–	–	–	–	–	–	–	2	3	2/3	2	2/1	–
14.	Biologiya	–	–	–	–	–	–	–	–	2	2	2	2	1	1/2
15.	Fizika	–	–	–	–	–	–	–	–	–	2	2	3	4/3	4
16.	Astronomiya	–	–	–	–	–	–	–	–	–	–	–	–	–	1
17.	Kimya	–	–	–	–	–	–	–	–	–	–	3	3/2	2	2
18.	Rəsmxət	–	–	–	–	–	–	–	–	–	1	1	1	–	–
19.	Xarici dil	–	–	–	–	–	–	–	3	3	2	2	2	2	2
20.	Təsviri incəsənət	1	1	1	1	1	1	1	1	1	1	–	–	–	–
21.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1	1	1	1	–	–	–
22.	Bədən tərbiyəsi	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
23.	İbtidai hərbi hazırlıq	–	–	–	–	–	–	–	–	–	–	–	–	2	2
24.	Əmək və peşə təlimi	1	1	2	2	2	2	2	2	2	2	2	2	4	4
Yekun:		**26**	**27**	**27**	**21**	**24**	**25**	**25**	**30**	**31**	**34**	**35**	**34,5**	**35,5**	**34,5**
Şagirdlərlə fərdi iş, maraqlar üzrə dərnəklərin təşkili, ictimai-faydalı, məhsuldar əmək üçün vaxt (şəraitə uyğun olaraq)		–	1	1	–	1	1	1	2	2	2	3	3	4	4
Fakültativ məşğələlər		–	–	–	–	–	–	–	–	–	2	1	1/2	3/2	3/4
Əmək praktikası (günlərlə)		–	–	–	–	–	–	–	10	10	10	16	–	20	–

Qeyd: Kəsrlərin surətində göstərilən rəqəmlər təlim Azərbaycan dilində olan məktəblərə, məxrəcində göstərilən rəqəmlər isə təlim qeyri-Azərbaycan dilində olan məktəblərə aiddir.

Azərbaycan Respublikasının orta ümumtəhsil məktəblərinin
1991/92-ci dərs ili üçün tədris planı

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı													
		3 illik ibtidai məktəb			4 illik ibtidai məktəb				V–XI siniflər						
		I	II	III	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
1.	Azərbaycan dili	11	9	8	8	9	9	9	5	4	4	3	2	–	–
2.	Ədəbiyyat								3	2	2	2	2	4	3
3.	Rus dili	3	5	5	2	3	4	4	3	3	3	3	3	2	2
4.	Riyaziyyat	6	6	6	4	5	5	5	5	5	5	5	5	4	4
5.	İnformatika və HT əsasları								–	–	–	–	–	1/2	2/1
6.	Tarix								2	2	2	2	3	4	3
7.	Azərbaycan tarixi								–	–	–	1	1	0/1	1/0
8.	Sovet dövlətinin əsasları və hüquq								–	–	–	–	1	–	–
9.	Etika və ailə həyatının psixologiyası								–	–	–	–	–	1	–
10.	İctimaiyyət								–	–	–	–	–	–	2
11.	Təbiətşünaslıq	–	1	1	–	–	1	1	1	–	–	–	–	–	–
12.	Coğrafiya								–	2	3	3	2	2/1	–
13.	Biologiya								–	2	2	2	2	1	1/2
14.	Fizika								–	–	2	2	3	4/3	4
15.	Astronomiya								–	–	–	–	–	–	1
16.	Kimya								–	–	–	3	2	2	2
17.	Rəsmxət								–	–	1	1	–	–	–
18.	Xarici dil								4	3	3	2	2	2	2
19.	Təsviri incəsənət	2	2	2	2	2	2	2	1	1	1	–	–	–	–
20.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1	1	1	1	–	–	–
21.	Bədən tərbiyəsi	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
22.	Gənclərin çağırışaqədərki hazırlığı								–	–	–	–	–	2/1	2/3
23.	Əmək və peşə təlimi	1	1	2	2	2	2	2	2	2	2	2	2	2	2
Cəmi:		**26**	**27**	**27**	**21**	**24**	**26**	**26**	**29**	**29**	**33**	**34**	**32**	**32,5**	**33**
Şagirdlərlə fərdi iş, maraqlar üzrə dərnəklərin təşkili, ictimai-faydalı, məhsuldar əmək üçün vaxt (şəraitə uyğun olaraq)		–	1	1	–	1	1	1							
Fərdi və qrup məşğələləri									2	2	2	2	2	3	3
Fakültativ məşğələlər									–	–	2	2	2	2	2
Yekun:									**31**	**31**	**37**	**38**	**36**	**37,5**	**38**
Əmək praktikası (günlərlə)									10	10	10	16	–	20	–

1991/92-ci tədris ilində Xalq Təhsili Nazirliyinin əmri ilə ümumtəhsil məktəblərinin II, V və VI siniflərində tədris ili ərzində 22 saat olmaqla Mülki müdafiə fənninin tədrisinə başlandı. Xüsusi proqram təsdiq edildi, bu dərslərin dərs cədvəlinə daxil edilməklə sinif rəhbərləri tərəfindən aparılması nəzərdə tutuldu.

1992/93-cü tədris ilində tətbiq edilən tədris planlarında artıq bir sıra dəyişikliklər edilmişdi. Azərbaycan tarixi fənni VIII sinifdən deyil, V sinifdən tədris olunmağa başlanmış, Sovet dövlətinin əsasları və hüququ, Etika və ailə həyatının psixologiyası fənləri çıxarılmış, İctimaiyyət fənni İnsan və cəmiyyət fənnilə əvəz olunmuşdu.

Azərbaycan Respublikasının orta ümumtəhsil məktəblərinin
1992/93-cü dərs ili üçün tədris planı

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı													
		3 illik ibtidai məktəb			4 illik ibtidai məktəb				V–XI siniflər						
		I	II	III	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
1.	Azərbaycan dili	11	10	9	9	10	10	10	5	4	4	3	2	–	–
2.	Ədəbiyyat								3	2	2	2	3	4	3
3.	Rus dili	2	3	4	2	3	3	3	3	3	3	2	2	2	2
4.	Riyaziyyat	6	6	6	4	5	5	5	5	5	5	5	5	4	4
5.	İnformatika və HT əsasları								–	–	–	–	–	1/2	2/1
6.	Tarix								–	1/2	2/1	2	2	4	3
7.	Azərbaycan tarixi								2	1/0	1	1	1	0/1	1
8.	İnsan və cəmiyyət								–	–	–	1	1	1	2
9.	Təbiətşünaslıq	–	1	1	–	–	1	1	1	–	–	–	–	–	–
10.	Coğrafiya								–	2	3	3	3	2/1	–
11.	Biologiya								–	2	2	2	2	1	1/2
12.	Fizika								–	–	2	2	3	4/3	4
13.	Astronomiya								–	–	–	–	–	–	1
14.	Kimya								–	–	–	3	2	2	2
15.	Rəsmxət								–	–	1	1	–	–	–
16.	Xarici dil								4	3	3	2	2	2	2
17.	Təsviri incəsənət	2	2	2	1	1	1	1	1	1	1	–	–	–	–
18.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1	1	1	1	–	–	–
19.	Bədən tərbiyəsi	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
20.	Gənclərin çağırışaqədərki hazırlığı								–	–	–	–	–	2	2
21.	Əmək və peşə təlimi	2	2	2	2	2	2	2	2	2	2	2	2	2	2
Cəmi:		**26**	**27**	**27**	**21**	**24**	**26**	**26**	**29**	**29**	**33,5**	**34**	**32**	**33**	**33**
Şagirdlərlə fərdi iş, maraqlar üzrə dərnəklərin təşkili, ictimai-faydalı, məhsuldar əmək üçün vaxt (şəraitə uyğun olaraq)		–	1	1	–	1	1	1							
Fərdi və qrup məşğələləri									2	2	2	2	2	3	3
Fakültativ məşğələlər									–	–	2	2	2	2	2
Əmək praktikası (günlərlə)									10	10	10	16	–	20	–

Müstəqilliyin ilk aylarında (25 dekabr 1991-ci il) qəbul edilən «Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdi. Qanunun qüvvəyə minməsi barədə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarında 1992-ci ilin sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslərin yeni əlifba ilə keçirilməsi, orta məktəblərin yuxarı siniflərində latın qrafikalı əlifbanı öyrədən fakültativ məşğələlərin təşkil edilməsi, bütün təhsil ocaqlarında müəllimlərin və digər işçilərin latın qrafikalı əlifbanı öyrənməsi üçün lektoriyaların yaradılması öz əksini tapmışdı. Qərarda 1993-cü ildə orta məktəb dərsliklərinin latın qrafikalı əlifba ilə çap edilməsi, orta məktəblərin ibtidai siniflərində latın qrafikalı əlifbanın öyrənilməsinə başlanması, təhsil sisteminin bütün sahələri üzrə latın qrafikalı əlifbanın tətbiqinin başa çatdırılması da nəzərdə tutulmuşdu. Şübhəsiz, Qanunun qəbul edilməsi mahiyyət etibarilə mütərəqqi addım idi, lakin xüsusi hazırlıq aparılmadan 1992/93-cü tədris ilindən ümumtəhsil məktəblərində yeni əlifbanın tətbiqinə başlanması ümumi təhsil sisteminin tədris-metodik ədəbiyyatlarla təminatında ciddi problemlər yaratdı. Bu problemlərə baxmayaraq, xüsusən 1993-cü ildən ayrı-ayrı fənn proqramları və I–IV siniflər üzrə bütün dərsliklərin, eləcə də V–XI siniflər üzrə əsasən humanitar profilli «Azərbaycan dili», «Ədəbiyyat», «Rus dili», «Tarix», «İnsan və cəmiyyət», «Coğrafiya» və «Xarici dil» dərsliklərinin milli zəmində hazırlanması və nəşrinə başlanıldı.

Təhsil Nazirliyi yeni yaranmış dərsliklərin nəşri işinin daha çevik həyata keçirilməsi üçün Nazirlər Kabinetinə müraciət etdi və 1992-ci ilin dekabr ayında Respublika Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə «Öyrətmən» nəşriyyatı təsis edildi. Bu nəşriyyat milli dərsliklərin yaranmasında və nəşrində mühüm rol oynadı.

1993/94-cü ilin tədris planlarında bir sıra dəyişikliklər edildi. Həmin dərs ili üçün 23 variantda tədris planları hazırlandı.

Azərbaycan Respublikası orta ümumtəhsil məktəblərinin
1993/94-cü dərs ili üçün tədris planı

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı										
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
1.	Türk dili	9	10	10	10	5	4	4	3	2	2	1
2.	Ədəbiyyat	–	–	–	–	3	2	2	2	3	4	3
3.	Rus dili və ədəbiyyatı	2	2	3	3	3	3	3	2	2	2	1
4.	Riyaziyyat	4	5	5	5	5	5	5	5	5	4	4
5.	İnformatika	–	–	–	–	–	–	–	–	–	2	2
6.	Tarix	–	–	–	–	–	1/2	2/1	2	2	3	3
7.	Azərbaycan tarixi	–	–	–	–	2	1	1	1	1	1/2	2/1

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı										
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
8.	İnsan və cəmiyyət	–	–	–	–	–	–	–	2	1	1	1
9.	Təbiətşünaslıq	–	–	1	1	1	–	–	–	–	–	–
10.	Ətraf aləmlə tanışlıq	1	1	–	–	–	–	–	–	–	–	–
11.	Coğrafiya	–	–	–	–	–	2	3	3	3	2/1	1
12.	Biologiya-ekologiya	–	–	–	–	–	2	2	2	2	2	2
13.	Fizika	–	–	–	–	–	–	2	3/2	4	3/4	4
14.	Kimya	–	–	–	–	–	–	–	3	3	2	3
15.	Astronomiya	–	–	–	–	–	–	–	–	–	–	1
16.	Rəsmxət	–	–	–	–	–	–	–	–	1	1	1
17.	Xarici dil	–	–	–	–	4	3	3	2	2	2	2
18.	Təsviri incəsənət	1	1	1	1	1	1	1	1	–	–	–
19.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1	–	–	–
20.	Bədən tərbiyəsi	2	2	2	2	2	2	2	2	2	2	2
21.	Gənclərin çağırışaqədərki hazırlığı	–	–	–	–	–	–	–	–	–	2	2
22.	Əmək təlimi	2	2	2	2	2	2	2	2	–	1	2
Yekun:		**22**	**24**	**25**	**25**	**29**	**29,5**	**32,5**	**35,5**	**33**	**35,5**	**36,5**
Maraq üzrə kurs		1	1	1	1	3	3	4	5	5	5	5

Tədris planları təlim ləzgi, gürcü, rus dillərində aparılan məktəbləri, eləcə də ayrı-ayrı fənlər, o cümlədən şərq dilləri II sinifdən dərindən öyrədilən məktəb və sinifləri əhatə edirdi.

Təlim Azərbaycan dilində aparılan məktəblər üçün tədris planında Azərbaycan dili Türk dili adlandırıldı və bu fənnin tədrisinə ayrılan saatlar bəzi siniflərdə artırıldı. Rus dili və ədəbiyyatı fənninə ayrılan saatlar azaldıldı. V sinifdən tədris edilən Azərbaycan tarixi fənninə ayrılan saatlar artırıldı. Fakültativ məşğələlər və əmək praktikası tədris planından çıxarıldı, fərdi və qrup məşğələləri «maraq üzrə kurs» adlandırılmaqla ona ayrılan saatlar artırıldı.

Təhsil Nazirliyinin qərarı ilə 1992/93-cü tədris ilində üçillik təlim sistemi üzrə təhsil alanlar dərs ilinin sonunda V sinfə keçirildi. Bununla da üçillik ibtidai (onillik orta) təlim sisteminə son qoyuldu.

1993/94-cü tədris ilindən respublikanın təlim Azərbaycan dilində olan bütün məktəblərində dördillik ibtidai təhsil sisteminə keçilmiş, bununla da 11 illik orta ümumtəhsil sisteminin bünövrəsi qoyulmuşdu. Bu, üçillik ibtidai təlim sistemindən əsaslı şəkildə fərqli olan tədris planı, proqram və dərsliklərlə işləyən yeni sistem idi. Eyni zamanda həmin dərs ilində həm 6 yaşı, həm də 7 yaşı tamam olmuş şagirdlər I siniflərə qəbul edilmişdilər. Eyni və ya müxtəlif siniflərdə komplektləşdirilməsindən asılı olmayaraq təlimin məzmunu onlar üçün eyni idi.

Təlim rus dilində olan məktəblərin dördillik ibtidai təlim sisteminə keçidi 2 ildən sonra

başa çatdı. Ümumtəhsil məktəblərinin qismən yeniləşdirilmiş tədris planı isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01.06.1994-cü il tarixli əmri ilə təsdiq olunaraq 1994/95-ci tədris ilindən tətbiq edildi.

Azərbaycan Respublikası orta ümumtəhsil məktəblərinin 1994/95-ci dərs ili üçün tədris planı

№	Tədris fənləri	İbtidai təhsil				Əsas təhsil					Orta təhsil	
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
1.	Azərbaycan dili	9	10	10	10	5	4	4	3	2	2	1
2.	Ədəbiyyat	–	–	–	–	3	2	2	2	3	4	3
3.	Rus dili	2	3	3	3	3	3	3	2	2	2	2
4.	Riyaziyyat	4	5	5	5	5	5	5	5	5	4	4
5.	İnformatika və HT əsasları	–	–	–	–	–	–	–	–	–	2	2
6.	Tarix	–	–	–	–	–	1/2	2/1	2	2	3	3/2
7.	Azərbaycan tarixi	–	–	–	–	2	1	1	1	1	1/2	2/1
8.	İnsan və cəmiyyət	–	–	–	–	–	–	–	2	1	1	1
9.	Təbiətşünaslıq	–	–	1	1	1	–	–	–	–	–	–
10.	Ətraf aləmlə tanışlıq	1	1	–	–	–	–	–	–	–	–	–
11.	Coğrafiya	–	–	–	–	–	2	3	3	3	2/1	1
12.	Biologiya	–	–	–	–	–	2	2	2	2	2	2
13.	Fizika	–	–	–	–	–	–	2	3/2	4	3/4	4
14.	Astronomiya	–	–	–	–	–	–	–	–	–	–	1
15.	Kimya	–	–	–	–	–	–	–	3	3	2	2/3
16.	Rəsmxət	–	–	–	–	–	–	–	–	1	1	1
17.	Xarici dil	–	–	–	–	4	3	3	2	2	2	2
18.	Təsviri incəsənət	1	1	1	1	1	1	1	–	–	–	–
19.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1	–	–	–
20.	Bədən tərbiyəsi	2	2	2	2	2	2	2	2	2	2	2
21.	İHH	–	–	–	–	–	–	–	–	–	2	2
22.	Əmək təlimi	2	2	2	2	2	2	2	2	2	–	1
Yekun:		**22**	**25**	**25**	**25**	**29**	**29,5**	**32,5**	**34,5**	**35**	**35,5**	**35,5**
Maraq üzrə kurs		–	1	1	1	3	3	4	4	4	5	5

Bu tədris planı 1999/2000-ci dərs ilinədək, yeni bazis tədris planının tətbiqinə kimi, ümumtəhsil məktəblərində istifadə edildi. Həmin tədris planında əvvəlki tədris planlarından fərqli olaraq X–XI siniflərdə də Azərbaycan dili fənninin tədrisinə müvafiq yer ayrıldı. 1996/97-ci dərs ilindən isə tədris planına «Azərbaycan Respublikası Konstitusiyasının əsasları» (IX sinif) fənni daxil edildi. 1993–1998-ci illərdə həmin tədris planına uyğun olaraq, yeni fənn proqramları, dərslik və dərs vəsaitləri hazırlandı, nəşr edilərək məktəblərdə istifadəyə verildi.

Müstəqilliyin ilk illərində **məktəb tikintisi** sahəsində böhranlı vəziyyət hökm sürürdü. 1990-cı ildən 111 təhsil obyektində işlər dayandırılmışdı. 1991–1992-ci illərdə, demək olar ki, yeni məktəblər tikilməmişdi. 1993-cü ildə ölkədə 18464 şagird yerlik 37 məktəb binasının tikintisi nəzərdə tutulduğu halda, 13385 yerlik 31 məktəb binası tikilib istifadəyə verilmişdi. 1994-cü ildə isə 28 təhsil obyektində tikinti-quraşdırma işlərinin aparılması planlaşdırılmışdı.

Məktəblilərin yay istirahətinin təşkili istiqamətində də müəyyən tədbirlər həyata keçirilirdi. Maarif Nazirliyinin 4 iyun 1993-cü il tarixli əmri ilə Bakı şəhərinin 100 məktəbində şəhər tipli düşərgələr təşkil olunmuş, hər növbədə 9050 nəfər şagirdin istirahəti təmin edilmişdi.

Bu dövrdə təhsil sahəsində mütərəqqi amillərə qarşı neqativ münasibətin daha bir təzahürü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 1993-cü il tarixli qərarına əsasən 1992/93-cü tədris ilindən orta ümumtəhsil məktəbi məzunlarının qızıl medal və tərifnamə ilə təltif edilməsinin dayandırılması oldu. Eyni zamanda Maarif Nazirliyinin əmri ilə «Orta ümumtəhsil məktəbi məzunlarının gümüş medalla təltif edilməsi haqqında» Nazirliyin 24.09.1985-ci il tarixli əmri ləğv edildi və 1992/93-cü tədris ilindən orta məktəb məzunlarına «Təlimdə müvəffəqiyyətə görə» gümüş medal verilməsi də dayandırıldı. Səbəb kimi Təhsil Qanununda şagirdlərin medalla təltif olunması məsələsinin nəzərdə tutulmaması göstərilmişdi.



Tofiq Hacıyev (1936)

Hacıyev Tofiq İsmayıl oğlu Cəbrayıl rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1958). Namizədlik (1962) və doktorluq (1969) dissertasiyaları müdafiə etmişdir. 1962-ci ildən ali təhsil müəssisəsində pedaqoji fəaliyyətə başlamışdır.

Sovet Türkoloqlar Komitəsinin, SSRİ universitetləri ali filoloji elmi-metodik şurasının (1976–1983) üzvü olmuşdur. Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu – Türk Dil Qurumunun həqiqi üzvüdür (şərəf üyəsi – 1996).

Əməkdar elm xadimi fəxri adına (1999), Türk Cümhuriyyətinin «Ləyaqət nişanı» ordeninə (1998), Türk Cümhuriyyətinin «Türk dünyasına hizmet» ödülünə (2002) layiq görülmüşdür. Hazırda Bakı Dövlət Universitetinin Türkologiya kafedrasına rəhbərlik edir.

Ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin yazılmasında təşkilatçı və müəllif kimi iştirak etmişdir.

20 kitabın, 400-dən çox elmi məqalənin müəllifidir.

Tələsik atılan addımlardan biri də **1993-cü il mayın 18-də Respublika Prezidentinin Fərmanı ilə Xalq Təhsili Nazirliyinin bazasında iki nazirliyin – Maarif və Ali və Orta İxtisas Təhsili nazirliklərinin yaradılması oldu.** Maarif naziri vəzifəsinə o dövrdə Bakı Dövlət Universitetində kafedra müdiri işləyən professor **Tofiq Hacıyev**, ali və orta ixtisas təhsili naziri vəzifəsinə isə professor Firudin Cəlilov təyin edildi.

Yeni yaradılmış Maarif Nazirliyinin strukturu müəyyənləşdirilib təsdiq edilməmişdi. «Azərbaycan müəllimi» qəzetinin 3 avqust 1993-cü il tarixli nömrəsində Azad Müəllimlər Birliyi Baş Məclisinin sədri Fəxrəddin Əliyevin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Milli Məclisə müraciətində deyilirdi: «Maarif Nazirliyinin yaradılmasından iki aydan çox vaxt keçməsinə baxmayaraq, hələ də Nazirlər Kabineti tərəfindən onun strukturu müəyyənləşdirilib təsdiq olunmamışdır. Bu günə qədər nazir və birinci müavindən başqa heç kim əmrlə işə qəbul edilməmişdir».

Ümumi təhsildə mövcud olan çətinliklərin aradan qaldırılması işinə 1993-cü ilin ikinci yarısından başlandı. Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, ümumi təhsil sahəsində də müşahidə olunan tənəzzül meyillərinin aradan qaldırılmasına başlandı. Təhsilin inkişafına yönəlmiş real addımlar atıldı.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ümumi təhsildəki çətinliklərin aradan qaldırılması istiqamətində atılan addımlardan biri məcburi köçkün uşaqların, şagirdlərin və təhsil işçilərinin problemlərini həll etmək məqsədilə Təhsil Nazirliyinin mərkəzi aparatında işçi qrupunun yaradılması oldu.

İşçi qrupun təklifləri əsasında dünyada analoqu olmayan tarixi addım atıldı. Məcburi köçkün rayonların təhsil infrastrukturunun qorunub saxlanması məqsədilə məcburi köçkünlərin kompakt şəkildə məskunlaşdıqları yerlərdə 692 müstəqil məktəb yaradıldı. Bu məktəblərdə 86 mindən çox məcburi köçkün şagird təhsilə cəlb edildi, 12420 nəfər məcburi köçkün müəllim işlə təmin olundu. 30 min nəfərdən çox məcburi köçkün şagirdin məskunlaşdıqları şəhər və rayonların məktəblərində yerli şagirdlərlə birlikdə təhsil almalarına imkan yaradıldı. Məcburi köçkün düşmüş, lakin işlə təmin edilməyən müəllimlərə, yardımçı heyətə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 1994-cü ildən başlayaraq orta əmək haqqı miqdarında müavinət verilməsi təmin edildi.

1993-cü ilin sentyabrından yenidən Maarif və Ali və Orta İxtisas Təhsili nazirlikləri birləşdirilərək Azərbaycan Respublikası Təhsil Nazirliyi yaradıldı. Lidiya Rəsulova Azərbaycan Respublikasının təhsil naziri təyin edildi.



Lidiya Rəsulova
(1941)

Rəsulova Lidiya Xudat qızı Bakı şəhərində anadan olmuşdur. Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirmişdir (1965).

1956-cı ildə əmək fəaliyyətinə başlamış. 1963–1966-cı illərdə seçkili gənclər təşkilatında rəhbər vəzifələrdə çalışmışdır. Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdir müavini. Nəsimi Rayon Partiya Komitəsinin I katibi (1966–1981). Azərbaycan Həmkarlar İttifaqının sədri, eyni zamanda Azərbaycan KP MK-nın bürosunun üzvü kimi fəaliyyət göstərmişdir (1981–1988). Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri və Azərbaycan Dövlət Elm və Texnika Komitəsinin sədr müavini (1988–1993). Azərbaycan Respublikasının təhsil naziri (1993–1997) vəzifələrində çalışmışdır.

SSRİ Ali Sovetinin XI çağırış və Azərbaycan SSR Ali Sovetinin IX və X çağırışlarının deputatı olmuşdur. Müxtəlif orden və medallara layiq görülmüş. 1997-ci ildə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

2.2. Normativ-hüquqi bazanın yaradılması

Müstəqilliyin bərpasından və «Təhsil haqqında» Qanunun qəbulundan xeyli vaxt keçməsinə baxmayaraq, Qanunda nəzərdə tutulan bir çox məsələlər öz həllini tapmamışdı. Çünki bu məsələləri həyata keçirmək üçün normativ-hüquqi baza yox idi və məktəblərdə hələ də sovet təhsil sistemindən qalan normativ sənədlərə istinad olunurdu. Buna görə də, müstəqil Azərbaycanın ilk «Təhsil Qanunu»na uyğun olaraq 1993–1994-cü illərdə ümumi təhsilin normativ-hüquqi bazasının yaradılmasına başlandı. Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən Qanunun müddəalarının tələbləri baxımından ümumi təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən bir çox normativ-hüquqi sənədlər hazırlandı, təsdiq olundu və yerli təhsil orqanları və müəssisələrinə göndərilməsi təmin edildi. Həmin normativ-hüquqi sənədlər aşağıdakılardan ibarət idi:

Ümumtəhsil məktəbləri üzrə:

1. «Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi Əsasnaməsi». Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.03.1994-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

2. «Əsas və orta təhsil kursu üzrə eksternat qaydasında imtahanlara hazırlıq və onun keçirilməsi haqqında Təlimat». Təhsil Nazirliyinin 14.10.1993-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

3. «Gündüz ümumtəhsil məktəbləri bazasındakı axşam sinifləri və qiyabi qruplar haqqında Əsasnamə». Təhsil Nazirliyinin 28.07.1993-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

4. «Orta təhsil haqqında attestatların və əsas təhsil haqqında şəhadətnamələrin hazırlanması, saxlanılması, verilməsi, uçotu və doldurulması qaydaları haqqında Təlimat». Təhsil Nazirliyinin 25.10.1993-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

5. «Məktəblilərin fənn olimpiadaları haqqında Əsasnamə». Təhsil Nazirliyinin 11.01.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

6. «Əsas təhsil haqqında fərqlənmə şəhadətnaməsinin verilməsi barədə Təlimat». Təhsil Nazirliyinin 16.02.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

7. «Məktəb sənədlərinin aparılması və saxlanılması haqqında Təlimat». Təhsil Nazirliyinin 25.03.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

8. «Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində imtahanlar, şagirdlərin sinifdən-sinfə keçirilməsi və buraxılışı haqqında Təlimat». Təhsil Nazirliyinin 01.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

9. «Orta təhsil haqqında fərqlənmə attestatının verilməsinə dair Təlimat». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

10. «Ümumtəhsil məktəbinin Pedaqoji Şurası haqqında Əsasnamə». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

11. «Ümumtəhsil məktəbinin Valideyn Komitəsi barədə Əsasnamə». Təhsil Nazirliyinin 20.04.1994-cü il tarixli əmri ilə təsdiq edilmişdir.

12. «Rayon bölgüsü olan şəhər təhsil idarəsinin Əsasnaməsi». Təhsil Nazirliyinin 31.05.1995-ci il tarixli əmri ilə təsdiq edilmişdir.

13. «Günüuzadılmış məktəb və günüuzadılmış qrupların Əsasnaməsi». Təhsil Nazirliyinin 26.06.1995-ci il tarixli əmri ilə təsdiq edilmişdir.

İnternat tipli məktəblər üzrə:

1. «Ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaq və yeniyetmələr üçün xüsusi məktəblər haqqında Əsasnamə». Nazirlər Kabinetinin 26.01.1993-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

2. «Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi». Nazirlər Kabinetinin 05.05.1994-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

3. «Əqli və ya fiziki inkişafında qüsurlar olan uşaq və yeniyetmələr üçün xüsusi internat məktəblərin nümunəvi Əsasnaməsi». Nazirlər Kabinetinin 15.07.1994-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

4. «Uşaq evlərinin nümunəvi Əsasnaməsi». Nazirlər Kabinetinin 19.09.1994-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

5. «Tibbi-pedaqoji komissiyalar haqqında Əsasnamə». Təhsil və Səhiyyə Nazirlikləri tərəfindən (25.11.94 və 28.12.1994-cü il tarixlərdə) təsdiq edilmişdir.

21 aprel 1993-cü ildə Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında fəhlə və qulluqçuların əməyinin Vahid Tarif Cədvəli əsasında ödənilməsi haqqında» qərarı imzalandı. Qərarda nazirliklərə tapşırıldı ki, Nazirlər Kabinetinin 1992-ci il 31 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında rəhbər işçilərin və mütəxəssislərin attestasiyasının keçirilməsi qaydalarına dair nümunəvi Əsasnaməyə uyğun olaraq, bir ay müddətində müvafiq sahə əsasnamələri hazırlayıb təsdiq etsinlər. Yeni hazırlanmış sahə əsasnamələri tətbiq edilməklə attestasiya keçirsinlər. Vahid Tarif Cədvəlinin tətbiq olunmasından əvvəl ixtisas tələblərinə uyğun olaraq yenidən tarifləşdirilmə aparsınlar.

Qərarla vəzifələr üzrə əməyin ödənilməsi dərəcələri müəyyənləşdirildi (Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, IV kitab, səh. 525–534).

Qərara müvafiq olaraq 1994-cü ildə Təhsil Nazirliyi tərəfindən attestasiya qaydaları hazırlandı və Nazirliyin əmrinə əsasən müəllimlərin attestasiyası keçirildi. Attestasiyanın nəticələrini nəzərə almaqla onlara təhsilindən, pedaqoji təcrübəsindən, elmi dərəcəsindən, fəxri adından, dərslik və metodik tövsiyə müəllifi olmasından, iş təcrübəsinin öyrənilib yayılmasından asılı olaraq 8–15-ci ödəmə dərəcələri tətbiq edildi.

Attestasiyanın mütərəqqi cəhətlərindən biri bu idi ki, nəticələrə görə stajından asılı olmayaraq səriştəli müəllimlər yüksək ödəmə dərəcələri, hətta ali kateqoriya ala bilirdilər.

Nəzərdə tutulmuşdu ki, müəllimlərin attestasiyası hər 3 ildən bir keçirilsin. Lakin müəyyən səbəblərdən növbəti attestasiyanın keçirilməsi mümkün olmadı. Bu səbəbdən vaxtilə müəllimlərə verilmiş ödəmə dərəcələri onların pedaqoji təcrübəsi ilə uzlaşmadı və 2007-ci ildən müəllimlərə təhsilinə və pedaqoji təcrübəsinə görə ödəmə dərəcələri tətbiq edilməyə başlandı.

Vahid Tarif Cədvəlində büdcə sahələrinin əsas qulluqçu vəzifələri üzrə əməyin ödənilməsi dərəcələri

İşçilərin vəzifə və kateqoriyaları	Dərəcələr diapazonu
Xalq təhsili idarələrinin pedaqoji heyəti	–
Bütün ixtisaslardan olan müəllimlər, tərbiyəçi, konsertmeyster, metodist, istehsalat təlimi ustası, ali təhsil məktəblərinin professor-müəllim heyəti	8–18
Rəhbərlər	–
Xalq təhsili idarələri	–
Struktur bölmələrin rəhbərləri	8–12
Məktəbdənkənar, məktəbəqədər, məktəb, internat, uşaq evləri, lisey, gimnaziya, texniki peşə və orta ixtisas məktəbləri, ali məktəblər, kollec, tədris istehsalat kombinatları və s. direktorları (müdirləri)	10–16
Ali təhsil müəssisələri	–
Əsas struktur bölmələri rəhbərləri	14–18
Filialın direktoru	16–18
Rektor	17–19

Təhsil Nazirliyinin əmri ilə Ümumtəhsil məktəbinin pedaqoji şurası haqqında və Ümumtəhsil məktəb şurası haqqında əsasnamələr təsdiq edildi. Əsasnaməyə müvafiq olaraq, məktəb şurasının səlahiyyətləri müəyyən qədər genişləndirildi.

1993/94-cü tədris ilində təhsil sənədlərinin yeni nümunələri hazır olmadığından ümumtəhsil məktəblərinin IX və XI siniflərini bitirənlərə əsas təhsil haqqında şəhadətnamə və orta təhsil haqqında attestat əvəzinə təhsil sənədinə yazılacaq qiymətlər qeyd olunmaq şərtilə müvəqqəti arayışlar verildi. Sonradan həmin arayışlar təhsil sənədləri ilə əvəz olundu.

1993/94-cü tədris ilində Təhsil Nazirliyinin kollegiyasında «Azsaylı xalqların və etnik qrupların uşaqlarının məktəbə hazırlanması və ana dillərinin öyrənilməsi» məsələsi müzakirəyə çıxarılmışdı. Həmin dövrdə respublikanın 13 rayonunun 430-a yaxın ümumtəhsil məktəbində azsaylı xalqların və etnik qrupların 44 mindən artıq uşağı öz dilini, mədəniyyətini, tarixini, adət və ənənələrini öyrənirdi. Onlardan 24,5 min məktəbli talış, 15 minə yaxın ləzgi, 2,6 minə yaxın avar, 711 saxur, qalanları isə gürcü, udin, ingiloy, kürd, tat və yəhudi uşaqları idi. Bir sıra rayonların ümumtəhsil məktəblərində təlim Azərbaycan və rus dillərində aparılan məktəblərdə oxuyacaq azsaylı xalqların və etnik qrupların uşaqları üçün hazırlıq sinifləri təşkil edilmişdi.

1994-cü ildə təlimati sənədlərin hazırlanıb təsdiq edilməsi işi davam etdirildi. Təhsil Nazirliyinin əmrləri ilə «Tədris fənləri nəzəri və praktik cəhətdən dərindən öyrədilən siniflər haqqında təlimat», «Şagirdlər üçün qaydalar», «Ümumtəhsil məktəblərinin valideyn komitəsi barədə Əsasnamə» təsdiq edildi. Eyni zamanda «Ümumtəhsil məktəblərində maraq üzrə kursların təşkilinə dair təlimati məktub» təhsili idarəetmə orqanları və məktəblərə göndərildi.

Azərbaycan Respublikası Təhsil və Səhiyyə nazirliklərinin birgə əmri ilə 1994-cü ilin mayında «Ümumtəhsil məktəbi şagirdlərinin

sinifdən-sinfə keçirmə və buraxılış imtahanlarından azad edilməsi qaydası haqqında təlimat» və «Ümumtəhsil məktəblərində şagirdlərin keçid və buraxılış imtahanlarından azad edilməsinə əsas verən xəstəliklərin siyahısı» təsdiq edildi.

1994-cü ildə Nazirliyin əmri ilə «Orta təhsil haqqında fərqlənmə attestatının verilməsinə dair təlimat» təsdiq edildi və 1994/95-ci tədris ilindən fərqlənmə attestatlarının verilməsinə başlanması nəzərdə tutuldu. Təlimatda fərqlənmə attestatının bütün fənlərdən illik və yekun qiymətləri əla olan, fənn olimpiadaları, bu və ya digər yarış, sərgi və müsabiqələrdə fəal iştirak edən, məktəbin ictimai həyatında fərqlənən XI (XII) sinif şagirdlərinə verilməsi təsbit olundu.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.1994-cü il tarixli əmri və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin 05.05.1994-cü il tarixli qərarı ilə «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin işçiləri üçün yeni daxili əmək intizamı qaydaları» təsdiq edildi. Bu sənəd ümumi qaydaları – işçilərin işə qəbulu, başqa işə keçirilməsi və işdən azad edilməsi qaydası, işçilərin əsas vəzifələri, müdiriyyətin əsas vəzifələri, iş vaxtı və ondan istifadə edilməsi, işdə müvəffəqiyyətə görə məsuliyyəti müəyyənləşdirdi.

1994-cü ildə kadrların seçilib yerləşdirilməsi və onlarla işi yaxşılaşdırmaq, pedaqoji kadrların işə qəbulu, işdən azad edilməsi, kadr siyasətinin digər sahələrində mükəmməl sistem yaratmaq məqsədilə Nazirliyin 23 avqust 1994-cü il tarixli əmri ilə «Ümumtəhsil məktəblərində və internat tipli təlim-tərbiyə müəssisələrində pedaqoji kadrların işə qəbul edilməsi qaydaları» təsdiq edildi. Qaydalara əsasən pedaqoji kadrların işə qəbulunun müsabiqə əsasında aparılması məktəb direktorlarının səlahiyyətinə verildi.

«Təhsil Qanunu»na müvafiq olaraq 1994-cü ildə Təhsil Nazirliyinin əmri ilə «Ümumtəhsil və internat tipli məktəb direktorları seçkilərinin keçirilməsi qaydaları» təsdiq edildi. Qaydalarda nəzərdə tutulurdu ki, məktəb direktorları 5 il müddətinə (iki müddətdən artıq olmayaraq) gizli və ya açıq səsvermə yolu ilə seçilir. Vakant məktəb direktoru vəzifəsinə seçilmək üçün namizədləri onların yazılı razılığı ilə məktəbin pedaqoji kollektivi, ictimai təşkilatlar və yuxarı orqanlar irəli sürə bilər. Pedaqoji kollektivin hər bir üzvü də öz namizədliyini təqdim etmək hüququna malik idi. Direktor vəzifəsinə namizədlər sırasına azı 5 il pedaqoji iş stajı olan ən yaxşı müəllimlər, təhsil təşkilatçıları, metodistlər və ali pedaqoji təhsili olan digər təhsil işçiləri daxil ola bilərdi.

Bu qaydalara əsasən bir neçə məktəbdə direktor seçkisi həyata keçirilsə də, ümumilikdə yeni qayda ciddi problemlərlə müşayiət edildiyindən az sonra onun tətbiqi dayandırıldı.

1994-cü il avqustun 31-də Prezident Aparatında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin təhsil işçiləri ilə görüş keçirildi. Görüşdə təhsil naziri Lidiya Rəsulova geniş məruzə ilə çıxış etdi. O, çıxışında təhsil sahəsindəki mövcud problemlər, o cümlədən məktəb tikintisi, ümumi təhsilin strukturu sahəsində çətinliklər, təhsil sənədlərinin verilməsi, kadr hazırlığı və təminatı, təhsilin maliyyələşməsi, müəllimlərin əmək haqqının aşağı olması, əmək haqqının vaxtında verilməməsi, məktəblərin





Prezident Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin təhsil işçiləri ilə görüş.
Avqust, 1994-cü il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə, təhsil naziri Lidiya Rəsulova, Xalq rəssamı Ömər Eldarov, Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Asif Cahangirov və direktor Qalibə Budaqova 23№-li məktəbdə Milli Qəhrəman Tahir Həsənovun xatirə lövhəsinin açılışında. 3 sentyabr 1994-cü il

qızdırılması və sair sahələrdə problemlər barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev problemlərin həlli ilə əlaqədar xüsusi tədbirlər planının hazırlanmasını və təsdiq üçün təqdim edilməsini tapşırdı. O, görüşü yekunlaşdırarkən təhsilin inkişafı ilə əlaqədar proqram xarakterli vəzifələr müəyyənləşdirdi: «Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır.

Əsrin əvvəllərindən indiyə qədər xalqımızın həyatında təhsil, mədəniyyət, şüurun inkişafında böyük işlər görülüb, böyük nailiyyətlər əldə olunub. İndi respublikamızda xalqın bütün təbəqələrini əhatə edən yüksək təhsil, elm mövcuddur. Bunlar əsrin əvvəllərindən indiyədək yaşamış, yaratmış bütün nəsillərin fədakar əməyinin, xalqa xidmətinin nəticəsidir. Eyni zamanda bunlar Azərbaycanın müəllimlərinin xidmətlərinin nəticəsidir. Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir. Biz bu gün nə qədər çətin dövrdə yaşasaq da, həyatımızda nə qədər ağır proseslər getsə də, bu nailiyyətləri heç

vaxt unuda bilmərik, əksinə, biz bunları daim yadda saxlamalıyıq, çünki bunlar bizim milli sərvətimizdir. Xalqımızı bu yüksək təhsil, mədəniyyət səviyyəsinə çıxarmış Azərbaycan məktəbinə, müəllimlərinə dərin minnətdarlığımı bildirirəm və xalqın iradəsini ifadə edərək deyirəm ki, biz Azərbaycan məktəbi ilə, təhsili ilə, müəllimləri ilə fəxr edirik».

Heydər Əliyev həmin tarixi görüşdə təhsilin inkişaf istiqamətləri barədə strateji müddəalar irəli sürmüşdü:

– gənclər orta məktəblərdə yaxşı təhsil almalıdırlar, müəllimlər orta təhsilin keyfiyyətini yüksəyə qaldırmalıdırlar;
– milli ideologiyanın konsepsiyası hazırlanmalıdır, bu konsepsiya tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır;
– gənclərimiz orta məktəblərdə bütün fənlərdən yaxşı hazırlaşmalı, gələcəyin tələbləri baxımından inkişaf etmiş texnologiyaları mənimsəməli və ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini dünya standartları səviyyəsinə qaldırmaq üçün səy göstərməlidir;
– məktəblərdə Azərbaycan xalqının tarixinin, ədəbiyyatının, dilinin tədrisinə ciddi fikir verilməlidir;
– hər bir azərbaycanlı öz ana dilindən başqa bir çox dillər bilməlidir, orta məktəblərdə başqa dillərin öyrədilməsinə çox ciddi fikir verilməlidir;
– təhsili inkişaf etdirmək üçün dünya təcrübəsi öyrənilməli və mütərəqqi cəhətləri tətbiq edilməlidir.

Ölkə başçısının irəli sürdüyü müddəaların əsasında xalqın, millətin gələcəyi olan uşaqların təlim-tərbiyəsinin milli-mənəvi dəyərlərə söykənməsi əsas prinsip kimi dayanırdı. O, Bakı şəhər 23№-li məktəbdə Azərbaycanın Milli Qəhrəmanı Tahir Həsənovun xatirə lövhəsinin açılışındakı çıxışında da bu məsələni xüsusi vurğulamış, gənclərin vətən sevgisi ruhunda tərbiyə edilməsinin vacibliyini qeyd etmişdi.

1995-ci il fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təhsil işçiləri ilə növbəti görüşü oldu.

Görüşdə çıxış edənlər: Respublika Müəllimlər Şurasının sədri Babaxan Muradov, Respublika maliyyə naziri Fikrət Yusifov, Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Asif Cahangirov, Sumqayıt Şəhər Təhsil şöbəsinin müdiri Ofelya Babayeva, Bakı şəhəri 190, 229, 13№-li orta məktəblərin direktorları Sona Tağıyeva, Arnold Kostyukov, Nazim İsayev, Bakı şəhəri Xətai rayon təhsil şöbəsinin müdiri Vaqif Xəlilov, Sumqayıt şəhəri 15№-li orta məktəbin direktoru Arif Rəcəbov ümumi orta təhsilin vəziyyəti, mövcud problemlər və onları yaradan səbəblər barədə öz fikirlərini bildirib, problemlərin həlli yollarına dair təkliflərini söylədilər. Sonra Respublika Prezidenti Heydər Əliyev çıxış edərək müəllimlərin əməyini yüksək qiymətləndirdiyini, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması, dərsliklərin çap olunması üçün dövlət büdcəsindən müvafiq vəsaitlərin ayrılmasının zəruriliyini qeyd etdi.

1995-ci ilin aprel ayında Təhsil Nazirliyinin Kollegiya iclasında «Yeni tipli tədris müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi barədə» məsələ müzakirə olundu və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən 27 yeni tipli tədris müəssisəsinin fəaliyyətinin



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təhsil işçilərinin bir qrupu ilə növbəti görüşü. 12 fevral 1995-ci il

təkmilləşdirilməsinə dair qərar qəbul edildi. Qərarda yeni tipli tədris müəssisələri üçün tədris planlarının, proqramların, dərsliklərin və elmi-metodiki ədəbiyyatların hazırlanması və nəşri, bu müəssisələrə təşkilati-pedaqoji və elmi-metodiki kömək göstərilməsi, həmçinin bu tip müəssisələrin psixoloq ixtisaslı kadrlarla təmin edilməsi və psixoloji xidmətin yaradılmasına dair aidiyyəti idarələrə və şəxslərə tapşırıqlar verildi.

1995-ci ildə Təhsil Nazirliyinin əmri ilə «Rayon (şəhər) təhsil şöbəsi (idarəsi) haqqında Əsasnamə» təsdiq edildi. Əsasnamə ümumi müddəalar, təhsil şöbəsinin (idarəsinin) vəzifələri və funksiyaları, təhsil şöbəsinin (idarəsinin) hüquqları, rayon (şəhər) təhsil şöbəsinin (idarəsinin) idarə edilməsi kimi məsələləri əhatə edirdi.

1995-ci ildə Təhsil Nazirliyi tərəfindən bir sıra normativ-hüquqi sənədlər hazırlanıb təsdiq edildi ki, onlar təhsil sisteminin informasiyalaşdırılması, şagirdlərin orta təhsil pilləsinə qəbulu, günüuzadılmış qrupların işinin təşkili, pedaqoji kadrların ixtisasartırma və yenidənhazırlanma təhsili məsələlərini əhatə etdi.

Təlimin yeni informasiya texnologiyalarından istifadə etməklə təşkili məsələləri 1995-ci ildə diqqət mərkəzində idi. Respublikada təhsil sisteminin inkişaf etdirilməsinə dair 1 aprel 1995-ci il tarixində Təhsil Nazirliyində keçirilmiş müşavirənin müzakirəsinə çıxarılan əsas məsələlərdən biri də məhz təhsil sistemində informasiya texnologiyalarından istifadə idi. Qəbul olunmuş qərara əsasən Nazirlik tərəfindən «Respublikada təhsilin informatlaşdırılması haqqında» əmr verilmiş,

Təhsil Nazirliyi yanında «Təhsilin informatlaşdırılması» şurası yaradılmış, həmin şuranın Əsasnaməsi və 11 nəfərdən ibarət tərkibi təsdiq edilmişdi.

Şura üzvləri dövrün tələbi ilə əlaqədar informatika və EHM-in əsasları fənni üzrə mövcud məktəb proqramlarına əlavələr edilməklə yenidən işlənməsinin vacibliyini qeyd etmiş, bu məqsədlə BDU-nun kafedra müdiri professor Ramin Mahmudzadənin rəhbərliyi ilə komissiya yaratmışdılar.

1995-ci ilin aprel ayında keçirilmiş kollegiyada «Vahid tarif cədvəlinin tətbiqi ilə əlaqədar ümumtəhsil, internat tipli, texniki peşə məktəbləri, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri pedaqoji işçilərinin növbədənkənar attestasiyasının nəticələri barədə» məsələ də müzakirə edildi. Təhsil Nazirliyinin 28.09.1994-cü il tarixli əmrinə əsasən 1994-cü ilin sentyabr-dekabr aylarında Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil, internat tipli, texniki peşə məktəbləri, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri, pedaqoji və mühəndis-pedaqoji işçiləri növbədənkənar attestasiyadan keçirilmişdi. Attestasiya 6111 tədris-tərbiyə müəssisəsində 149716 nəfər (işləyənlərin 86,5%-i) arasında aparılmışdı. Kollegiya qərarında attestasiyanın nəticələri nəzərə alınaraq bu istiqamətdə işlərin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq idarə və təşkilatlara tapşırıqlar verildi.

Nazirliyin kollegiya iclasında «Azərbaycan Respublikası Təhsil Qanununun yerinə yetirilməsi ilə əlaqədar ümumtəhsil məktəbləri üçün yeni tədris planları, proqram və dərsliklərin hazırlanması, tətbiqi vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» məsələ müzakirə edilərkən tədris planları, proqram və dərsliklərin hazırlanması və onlardan istifadə edilməsində bir sıra nöqsanların və problemlərin də olduğu qeyd edildi. Bu problemlərin aradan qaldırılması üçün Azərbaycan ETPEİ-yə, Təhsil Problemləri üzrə Elmi-Metodik Mərkəzə və Nazirliyin müvafiq idarələrinə tapşırıqlar verildi.

1995-ci ilin aprel ayı ölkənin təhsil tarixində əhəmiyyətli bir hadisə ilə də yadda qaldı: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 29 aprel 1995-ci il tarixli Sərəncamı ilə Bakı şəhəri 190№-li məktəbin direktoru Sona Hənifə qızı Tağıyeva Azərbaycan maarifinin inkişafı sahəsində böyük xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif edildi. Prezident Heydər Əliyev bu münasibətlə Sona Tağıyevaya təbrik məktubu da göndərmişdi. Məktubda deyilirdi: «...Bir məktəbin kollektivinə yarım əsr rəhbərlik etmək ölkəmizdə nadir haldır. Respublikada maarifin təşkili işində bu müddət ərzində topladığınız zəngin təcrübə böyük bir məktəbdir...»

Bu, müstəqil Azərbaycanın orta məktəb müəlliminə verilən ən yüksək və birinci mükafat idi.

Təhsil Nazirliyi 1995-ci ilin sentyabr ayında Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin nümunəvi Əsasnaməsinin 16-cı maddəsini əsas götürərək «Əsas məktəb məzunlarının X siniflərə qəbulu üzrə tövsiyələr» hazırlayaraq yerli təhsili idarəetmə orqanlarına ünvanlamışdı. Həmin tövsiyələrdə qeyd edilirdi ki, «Əsas təhsil məcburidir. II pilləni başa vurmuş şagirdlər

müsabiqə yolu ilə III pilləyə qəbul edilə bilərlər. Müsabiqə qaydası məktəb nizamnaməsi ilə müəyyən edilir». Eyni zamanda tövsiyələrdə yeni tipli tədris müəssisələrində (liseylər, gimnaziyalar və s.) və təmayül sinifləri olan, xüsusilə X sinfə qəbul üçün daha çox şagird müraciət edən məktəblərdə müsabiqələrin daha ciddi aparılması, istedadlı uşaqların seçilməsinin təmin edilməsi də tövsiyə edilmişdi. 1995-ci ildə qəbul edilmiş Konstitusiyada icbari ümumi orta təhsil təsbit edildi. Bununla əlaqədar X siniflərə qəbul üçün keçirilən müsabiqə ləğv edildi və IX sinif şagirdləri birbaşa X sinfə keçirilməyə başladı.

1995-ci ilin oktyabrında «Günüuzadılmış məktəb və günüuzadılmış qrupların Əsasnaməsi» təsdiq edildi. Əsasnaməyə görə günüuzadılmış qruplar şagirdlərin hərtərəfli inkişafını təmin etmək və ailəyə kömək məqsədilə ümumtəhsil məktəblərinin bazasında I–VIII sinif şagirdlərindən təşkil edilirdi. Göstərilirdi ki, I–VIII sinif şagirdlərinin ən azı 90%-i günüuzadılmış qruplara cəlb olunduqda məktəb günüuzadılmış məktəb adlanır. Əsasnamədə, həmçinin günüuzadılmış qrupların açılma qaydası, komplektləşdirmə və rəhbərlik, işin təşkili və maliyyələşdirmə məsələləri öz əksini tapmışdı.

Azərbaycan Respublikası Təhsil Qanununun təhsil sistemində ictimai özünüidarə orqanları haqqında 34-cü maddəsinin tələblərini yerinə yetirmək məqsədilə 1995-ci ilin oktyabrında Təhsil Nazirliyi tərəfindən «Rayon (şəhər) təhsil şöbəsi Şurası haqqında təlimat» təsdiq edildi. Təlimat şuranın vəzifələri, işinin məzmunu, tərkibi, hüquqları və iş qaydası kimi məsələləri əhatə edirdi.

1995-ci ilin oktyabrında təhsil sistemində ixtisasartırma işini təkmilləşdirmək məqsədilə Təhsil Nazirliyi tərəfindən «Azərbaycan Respublikası təhsil sistemində kadrların ixtisasının artırılması qaydaları» təsdiq olundu. Həmin qaydalara əsasən nəzərdə tutulurdu ki, kadrların ixtisasının artırılması yerli tələbat – dövlət sifarişi və ayrı-ayrı şəxslərin arzuları əsasında müqavilə yolu ilə həyata keçirilir və ixtisasartırma ilə məşğul olan tədris müəssisələri bu işi müvafiq qaydada əvvəlcədən təsdiq olunmuş illik və beşillik plana uyğun təşkil edirlər. Bu qaydalarda ixtisasartırma kurslarının məzmunu, təşkili və kursu bitirənlərə vəsiqə və arayışların verilməsi məsələləri də əhatə olunmuşdu.

Azərbaycan Respublikası «Təhsil Qanunu»nun 25 və 31-ci maddələrini əsas tutaraq Təhsil Nazirliyinin 22.05.1995-ci il tarixli əmrinin icrasını təmin etmək məqsədilə «Təhsil Nazirliyi sistemində ixtisasartırma tədris müəssisələri kadrlarının attestasiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə» əmr verildi. Həmin əmrdə ixtisasartırma tədris müəssisələri kadrlarının attestasiyasına 1 dekabr 1995-ci il tarixdən başlanması və bir ay müddətində yekunlaşması nəzərdə tutulmuş, attestasiyanın Əsasnaməyə uyğun keçirilməsini təmin etmək, respublika üzrə attestasiyanın nəticələrini ümumiləşdirib müzakirəsini təşkil etmək Nazirliyin kadrlar idarəsinə tapşırılmışdı.

Bununla yanaşı, pedaqoji kadrların yenidən hazırlanması işini tənzimləmək

məqsədilə Təhsil Nazirliyi tərəfindən «Pedaqoji kadrların yenidən hazırlanması qaydaları» təsdiq edilmişdi. Bu sənəddə ümumi müddəalar; yenidənhazırlanma kurs tədbirlərinin planlaşdırılması və hazırlıq işlərinin aparılması; yekun sənədlərin hazırlanması və verilməsi üzrə qaydalar öz əksini tapmışdı.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Bu, müstəqil ölkəmizin ilk Əsas Qanunu idi. Konstitusiyada Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat sürməsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək bəyan edildi.

Konstitusiyanın «Təhsil hüququ» adlanan 42-ci maddəsində dövlətin təhsil siyasətinin əsas prinsipləri təsbit olundu:

I. hər bir vətəndaşın təhsil almaq hüququ vardır;

II. dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir; təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir; maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir; dövlət minimum təhsil standartlarını müəyyən edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06.11.1995-ci il tarixli Qərarına əsasən Təhsil Nazirliyinin nəzdində Təhsil qanunvericiliyinin icrasına və təhsilin dövlət standartlarına nəzarət idarəsi yaradıldı, Nazirliyin 25.12.1995-ci il tarixli əmri ilə həmin idarənin Əsasnaməsi təsdiq edildi. İdarənin yaradılmasında məqsəd təlim-tərbiyə müəssisələri tərəfindən təhsil qanunvericiliyi və təhsilin dövlət standartlarına tam əməl olunmasına nəzarət etməkdən ibarət idi.

Azərbaycan Respublikasının «Təhsil Qanunu»nun 49-cu maddəsinə uyğun olaraq Təhsil Nazirliyinin 06.03.1996-cı il tarixli əmri ilə «Azərbaycan Respublikasının təhsil sistemində olan metodiki xidmət rəhbərləri və metodistlərinin növbəti attestasiyasının keçirilməsi haqqında Əsasnamə» təsdiq olundu. Attestasiyanın keçirilməsində məqsəd metodiki xidmət rəhbərlərinin və metodistlərin iş keyfiyyətini yaxşılaşdırmaq, işin səmərəliliyini artırmaq, metodiki xidməti günün tələbləri səviyyəsinə yüksəltmək, vəzifə məsuliyyətini gücləndirmək, metodistlərin tərkibini respublikanın qabaqcıl və təcrübəli müəllimləri hesabına möhkəmləndirməkdən ibarət idi.

1996-cı il martın 26-da Bakı şəhərində Azərbaycan Respublikasında təhsilin əsas problemlərinə həsr olunmuş I ümumrespublika elmi-praktik konfransı keçirildi və konfransda ölkəmizdə təhsil quruculuğu, müstəqil dövlətimizin təhsil siyasətinin həyata keçirilməsi, təhsil sahəsində islahatların aparılması ilə bağlı problemlər müzakirə edildi.

Respublika konfransında ümumtəhsil məktəblərinin ixtisaslı pedaqoji kadrlarla təmin olunması, təhsil müəssisələrinin mövcud



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı şəhəri, Nərimanov rayonundakı 73№-li məktəbin açılış mərasimində. 1 sentyabr 1996-cı il

maddi-texniki və kadr potensialından səmərəli istifadə edilməsi və mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi, beynəlxalq əlaqələrin genişlənməsi şəraitində xarici dillərin və İKT-nin təhsil müəssisələrində tədrisinin yeni sisteminin işlənib hazırlanması və tətbiq edilməsi, təhsilin məzmununun yeniləşdirilməsi və tədris texnologiyasının təkmilləşdirilməsi, təhsilin elmi-metodik təminatının tam ödənilməsi, bazar iqtisadiyyatı şəraitində təhsil sisteminin maliyyələşdirilməsinin yeni sisteminin tətbiqi və s. barədə tövsiyə və təkliflər verildi.

Respublika Prezidenti Heydər Əliyev Azərbaycanın təhsil işçiləri qarşısında qoyduğu vəzifələrin icrası ilə yaxından maraqlanırdı. Yeni dərs ilinin başlanması və yeni məktəblərin açılması ilə bağlı tədbirlərdə Prezidentin iştirakı ənənə halını almışdı. O, bu tədbirlərdə hər dəfə proqram xarakterli çıxışlar edir, təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur, ictimaiyyəti təhsillə bağlı problemlərin həllində yaxından iştirak etməyə çağırırdı. 1 sentyabr 1996-cı il tarixdə Bilik günündə Bakı şəhərinin Böyük Şor yaşayış sahəsində yerləşən 73№-li orta məktəbin açılışındakı çıxışında da

Heydər Əliyev məktəbə, təhsilə qayğı və köməyin göstərilməsinin ümumxalq vəzifəsi olduğunu bir daha vurğulamışdı.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.10.1996-cı il tarixli əmri ilə «Azərbaycan Respublikasının təhsil sistemində psixoloji xidmət haqqında Əsasnamə» təsdiq edildi.

Əsasnamənin hazırlanmasında əsas məqsəd müasir məktəb şəraitində psixoloji biliklərin professional tətbiqi yollarını və metodlarını təkmilləşdirmək məqsədilə uşaq şəxsiyyətinin formalaşmasını və psixi inkişafının qanunauyğunluqlarını öyrənmək, praktik-psixoloji işi istiqamətləndirməkdən ibarət idi.

Təhsil sənədlərinin verilməsində də neqativ hallar mövcud idi. Bu kimi halların və və saxta təhsil sənədlərinin verilməsinin qarşısının alınması və bu işə nəzarətin gücləndirilməsi məqsədilə Təhsil Nazirliyinin 25.11.1996-cı il tarixli əmri ilə «Orta təhsil haqqında attestatların və əsas təhsil haqqında şəhadətnamələrin hazırlanması, saxlanması, verilməsi, uçotu və doldurulması Qaydası haqqında təlimat» təsdiq edildi.

1996-cı ilin dekabr ayında Təhsil Nazirliyinin Kollegiya iclasında «Azərbaycan Respublikası Konstitusiyasının tələbləri baxımından ümumtəhsil məktəblərində icbari ümumi orta təhsilin həyata keçirilməsi» barədə məsələ müzakirə edildi və yerli təhsili idarəetmə orqanlarına 6–17 yaşlı uşaqların dəqiq siyahısının müəyyənləşdirilməsi, onların təhsilə cəlbi üçün qanunvericilikdə müəyyənləşdirilmiş bütün imkanlardan istifadə edilməsi, axşam siniflərinin və qiyabi qrupların şəbəkəsinin təkmilləşdirilməsinə diqqətin artırılması, xəstə uşaqların təhsilə cəlbi, məktəbdən gedən şagirdlərin dəqiq uçotunun aparılması, onların gündəlik dərsə davamiyyətinə nəzarətin gücləndirilməsi barədə müvafiq qərar qəbul olundu.

Təhsilin bütün pillələrində metodik xidmətin vəziyyətinin yaxşılaşdırılması və təhsil sisteminə aid olan normativ sənədlərin təhsil müəssisələrinə operativ çatdırılması üçün pedaqoji mətbuatın fəaliyyətinin gücləndirilməsi məqsədilə Nazirlik tərəfindən «Təhsil sistemində pedaqoji mətbuatın fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında» 23.12.1996-cı il tarixli əmr imzalandı.

Əmrdə «Azərbaycan müəllimi» qəzetinin dövriliyinin 2 dəfə artırılması, 2 nömrədən bir rus dilində bir səhifəlik materialın verilməsi, «Azərbaycan məktəbi» jurnalının hər nömrəsi 8 çap vərəqi olmaqla ildə 6 nömrəsinin buraxılması, «Ana sözü» jurnalının «Azərbaycan dili və ədəbiyyat tədrisi» adlandırılması və müstəqil jurnal kimi ildə 6 çap vərəqi olmaqla 4 nömrəsinin buraxılması, «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsinin müstəqil olaraq Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında yenidən təsis edilməsi, ildə 4 nömrə və hər nömrəsi 6 çap vərəqi olmaqla nəşri, «Təhsil Nazirliyinin xəbərləri» məcmuəsinin təsis edilməsi, ildə 3 çap vərəqi olmaqla 4 nömrəsinin buraxılması nəzərdə tutulurdu.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Maliyyə Nazirlikləri ilə razılaşdırılaraq Təhsil Nazirliyi tərəfindən 16 dekabr 1996-cı il tarixdə təsdiq edilmiş təlimata əsasən 1997-ci il yanvar ayının 1-dən ümumtəhsil, peşə və orta ixtisas məktəblərin-

də çalışan işçilərə əlavə haqların (sinif rəhbərliyi, yazı işlərinin yoxlanması və digər məsələlərlə bağlı) ödənilməsinin yeni qaydası tətbiq olunmağa başlandı.

Təhsil Qanununa əsasən Təhsil Nazirliyinin 27.12.1996-cı il tarixli əmrinə, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 17.01.1997-ci il tarixli məktubuna uyğun olaraq «Ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri pedaqoji işçilərinin attestasiyasının keçirilməsi haqqında Əsasnamə» Təhsil Nazirliyinin əmri ilə təsdiq edildi və attestasiyanın keçirilməsi haqqında əmr verildi.

Təhsil Nazirliyinin 1997-ci ilin fevral ayında keçirilmiş kollegiya iclasında Azərbaycan Respublikasında türk liseylərinin və onların filiallarının fəaliyyəti barədə məsələ müzakirə edildi.

Dövlət müstəqilliyi əldə edildikdən sonra Azərbaycan Respublikası Konstitusiyasına, Təhsil Qanununa, Nazirlər Kabinetinin qərarına müvafiq olaraq, Azərbaycan və Türkiyə respublikaları Təhsil Nazirlikləri arasında bağlanmış müqavilələrə əsasən 1992-ci ildən başlayaraq, Türkiyə Respublikası Təhsil Nazirliyi xətti ilə Türk Anadolu Liseyi, Türk Dünyası Araşdırmaları Vəqfi xətti ilə Türk Dünyası Atatürk Liseyi, Türkiyə Dəyanət vəqfi ilə Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin nəzdində Türk Liseyi, Türkiyə Respublikası «ÇAĞ» Öyrətim İşlətmələri Anonim Şirkətinin xətti ilə Bakı Özəl Türk Liseyi və onun Sumqayıt və Mingəçevir şəhərlərində, Ağdaş, Quba və Lənkəran rayonlarında filialları, Sumqayıt Özəl Türk Liseyi, Türkiyənin «Zaman» qəzetinin vasitəçiliyi ilə Naxçıvan şəhərində Naxçıvan Türk Liseyi, onun Şərur və Ordubad rayon filialları yaradılmışdır. Türk liseyləri və onların filiallarında ümumilikdə ölkənin əksər bölgələrini təmsil edən 2000-dən artıq şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 386 (Türkiyə Respublikasından 207) müəllim və tərbiyəçi məşğul olurdu.

Kollegiyanın qərarına əsasən türk liseyləri və onların filiallarının fəaliyyətinin Azərbaycan Respublikası Konstitusiyası, «Təhsil Qanunu» və «Ümumtəhsil məktəblərinin nümunəvi əsasnaməsi»nə uyğun şəkildə qurulması, metodiki köməkliyin artırılması, dərslərin düzgün bölünməsinə tələbkarlığın gücləndirilməsi, pedaqoji kadrların seçilib yerləşdirilməsi, onların ixtisasartırma kurslarından və attestasiyadan keçirilməsi Azərbaycan Konstitusiyası, Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan tarixi və Azərbaycan coğrafiyası fənlərinin tədrisinə yerli müəllimlərin cəlb olunması, xaricdən mütəxəssis dəvət edilərkən Təhsil Nazirliyi ilə birlikdə müəyyən edilmiş normanın əsas götürülməsi, bu məqsədlə lisey və onların filiallarının nizamnamələrinə, pedaqoji kadr təminatı və onların fəaliyyətini tənzimləyən xüsusi bölmənin əlavə edilməsi barədə müvafiq qərar qəbul olundu.

Pedaqoji işçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasına Azərbaycan Respublikası Prezidentinin «Pedaqoji işçilərin, ahıl vətəndaşların sosial pensiyalarının, Çernobıl qəzası əlillərinin, I və II qrup əlillərin sosial müdafiəsi haqqında» 17 iyun 1997-ci il tarixli Fərmanının əhəmiyyətli təsiri oldu. Fərmana əsasən büdcədən maliyyələşdirilən idarə və təşkilatlarda çalışan pedaqoji işçilərin vəzifə maaşları 01.07.1997-ci il tarixdən 30% artırıldı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 iyul 1997-ci il tarixli Qərarı ilə «İxtisasartırma və kadrların yenidən hazırlanması müəssisələrinin nümunəvi Əsasnaməsi» təsdiq edildi. Qərarın icrası ilə əlaqədar Təhsil Nazirliyinin 04.08.1997-ci il tarixli əmri imzalandı.

Bu sənəd ixtisasartırma və yenidənhazırlanma sahəsində fəaliyyətin tənzimlənməsi üzrə ilk normativ-hüquqi sənəd kimi böyük əhəmiyyət daşıyırdı. Həmin dövrədək bu iş yalnız ayrı-ayrı əmrlərlə tənzimlənirdi. Əsasnamənin Hökumət tərəfindən təsdiqi ilə yenidənhazırlanma təhsili haqqında sənədin statusu müəyyənləşdirildi, bu sənədin müstəqil təhsil sənədi deyil, baza ali və ya orta ixtisas təhsili sənədi ilə birlikdə hüquqi qüvvəyə malik olması nəzərdə tutuldu. Bu, o deməkdir ki, hər hansı bir işə qəbul edilərkən yenidənhazırlanma təhsili haqqında diplom baza təhsili haqqında diplomla birlikdə təqdim edilməli idi.

1997/98-ci tədris ilində 130 min şagird I sinfə qəbul edilmişdi. Ümumtəhsil məktəblərində şagird kontingenti 1612537 nəfər təşkil edirdi və onların təlim-tərbiyəsi ilə 153318 müəllim məşğul olurdu.

1997-ci ilin sentyabr ayında «Azərbaycan Respublikasının ümumi orta təhsilinin dövlət təhsil standartları»nın layihəsi hazırlanaraq ictimaiyyətin geniş müzakirəsinə verildi.

1997/98-ci tədris ilində Təhsil Nazirliyi tərəfindən təhsil quruculuğu sahəsində aşağıdakı vəzifələr müəyyənləşdirilmişdi:

- təhsilin məzmunca yeniləşdirilməsi işinin sürətləndirilməsi, bu prosesin maliyyələşdirilməsinin yeni mexanizminə keçilməsi, dərsliklərin hazırlanması, nəşri və təminatında dönüş yaradılması məqsədilə tender-müsabiqə mexanizminin tətbiqi;
- təhsildə milli ideologiyanın tətbiqi yolları və konsepsiyasının işlənib hazırlanması, tarix, dil, ədəbiyyat, mədəniyyət və digər sahələrdə milli ideologiya prinsiplərinin düzgün müəyyənləşdirilməsinə nail olunması;
- təhsilin elmi-metodik və informasiya təminatının gücləndirilməsi, Nazirlikdə fəaliyyət göstərən elmi-metodik şuraların elmi-pedaqoji potensialından səmərəli istifadə etmək məqsədilə onların strukturu və məzmununun yeniləşdirilməsi;
- təhsilin üstün inkişafının, normativ-hüquqi bazasının, kadrların hazırlanması, ixtisasının artırılması və yenidənhazırlanmasının sistemli aparılmasının yeni inkişaf mərhələsinə keçilməsi;
- təhsilin strateji sahə kimi maliyyələşdirilməsində yeni mexanizmlərin tətbiq edilməsi;
- bir şagirdin hazırlanmasına sərf edilən maliyyə vəsaitinin müəyyən olunması;
- tədris müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi;
- təhsil sahəsində beynəlxalq əməkdaşlığın və qarşılıqlı əlaqələrin genişləndirilməsi;
- istedadlı uşaqların Konstitusiyada təsbit olunan hüquqlarının qorunması, onların üzə çıxarılması və inkişafına lazımi şəraitin yaradılması;
- idarəetmədə əks-mərkəzləşdirmə mexanizmlərinin tətbiqi, bu istiqamətdə xüsusi mexanizmlərin işlənməsi.



Misir Mərdanov (1946)

Mərdanov Misir Cumayıl oğlu Ermənistan SSR-in İcevan rayonunun Göyərçin kəndində anadan olmuşdur. ADU-nun mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş (1969). Gəncə Pedaqoji İnstitutunda baş laborant kimi əmək fəaliyyətinə başlamışdır. Namizədlik (1973), doktorluq (1989) dissertasiyası müdafiə etmişdir.

ADU-da müəllim, dekan müavini, dosent, qəbul komissiyası məsul katibinin müavini və məsul katibi (1972–1987), Azərbaycan Respublikasının Xalq Təhsili Nazirliyində Ali Təhsil İdarəsinin rəisi və təhsil nazirinin müavini (1989–1992), BDU-da tədris işləri üzrə prorektor (1992–1996), rektor (1997–1998) kimi məsul vəzifələrdə çalışmışdır. Azərbaycan Respublikasının təhsil naziri vəzifəsinə təyin olunmuşdur (1998). Əməkdar elm xadimi fəxri adına layiq görülmüş (1999), «Şöhrət» ordeni ilə təltif olunmuşdur (2006).

45-dən artıq kitabın, dərslik, dərs vəsaiti, monoqrafiya və 100-dən çox elmi məqalənin, «Azərbaycan təhsil tarixi» çoxcildliyinin müəllifidir.

Dərslik və dərs vəsaitlərinin hazırlanması işində ümummilli lider Heydər Əliyevin söylədiyi belə bir konseptual fikir, əslində, bu işlərə müəyyən istiqamət verdi: «Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaradılması xüsusi əhəmiyyət kəsb edir... İndi dərs alan uşaqlar, gənclər gərək mütləq bizim yeni dərsliklər əsasında oxusunlar...» (*1997-ci il sentyabrın 1-də Bakının Yasamal rayonundakı 18№-li məktəbdə keçirilən görüşdəki nitqindən*). Ümummilli liderin bu konseptual göstərişi əsasında yeni milli dərsliklərin yaradılması istiqamətində ciddi addımlar atılmağa başlandı. 1997/98-ci tədris ilində dövlət vəsaiti hesabına ibtidai siniflər üçün 26 adda, V–XI siniflər üçün 11 adda yeni dərslik hazırlandı və nəşr edilərək istifadəyə verildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə 1998-ci il martın 25-də mən Azərbaycan Respublikasının təhsil naziri vəzifəsinə təyin olundum.

Bu, «Təhsil millətin gələcəyidir» deyən Ümummilli liderimizin mənə nə qədər böyük etimad göstərməsinin bariz nümunəsi idi. Çünki məni bu yüksək, şərəfli, həm də çox məsuliyyətli vəzifəyə təyin etməklə o, əslində, millətin gələcəyini mənə etibar etmişdi. Vətən, Millət və Ümummilli liderimiz qarşısında bu etibarı qorumağa, böyük etimadı doğrultmağa borclu olduğumu heç zaman unutmamışam. Azərbaycan təhsilinə başçılıq etdiyim müddət ərzində o böyük insanın işıqlı ideyalarını həyata keçirmək üçün mümkün olan hər şeyi etməyə çalışmışam.

2.3. Azərbaycan müəllimlərinin XI qurultayı

1998-ci il sentyabrın 25-də Bakıda Respublika sarayında Azərbaycan müəllimlərinin növbəti qurultayı keçirildi. Bu, Azərbaycan müəllimlərinin sayca XI, ölkəmiz müstəqillik qazandıqdan sonra isə ilk qurultayı idi. Qurultayda 1995 nəfər nümayəndə iştirak edirdi. Yeri gəlmişkən, bir məsələyə toxunmaq istəyirəm. Qurultaya məruzənin hazırlanması məqsədilə məsləhətləşmələr aparıldı. Qurultay üçün məruzə hazırlamaq ölkənin nüfuzlu alimlərindən birinə həvalə edilmişdi. Lakin hazırlanmış məruzə məni qane etmədi.

Təhsil sahəsində təcrübəsi olan bir neçə nəfərlə məsləhətləşib, tamamilə yeni bir məruzə hazırlamaq qərarına gəldik. Tez-tez yığışıb məruzəyə daxil ediləcək məsələləri müzakirə edirdik. Nəticədə çox məzmunlu bir məruzə hazırlandı. Hətta qurultayda Prezident Heydər Əliyev məruzənin çox maraqlı olduğunu qeyd etmişdi.

Qurultayı giriş sözü ilə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə açdı. Qurultayda Respublikanın təhsil naziri olaraq mən də məruzə ilə çıxış edib müstəqil Azərbaycanda təhsil sahəsində aparılacaq islahatların əsas strateji istiqamətlərindən, milli təhsil quruculuğunun konseptual prinsiplərindən, təhsil sahəsində İslahat Proqramında nəzərdə tutulan islahatın mərhələlərindən və bu sahədə qarşıda duran vəzifələrdən danışdım.

Qurultayda Prezident Heydər Əliyev geniş və proqram xarakterli nitq söylədi, təhsil sahəsində beynəlxalq standartlara uyğun islahat prosesinin təkamül yolu ilə aparılmasına, təhsil sahəsində XX əsrdə qazanılmış mütərəqqi ənənələrin qorunub saxlanılmasına, təhsilin məzmununun milli və ümumbəşəri dəyərlər əsasında qurulmasına, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasına dair tövsiyə və tapşırıqlarını verdi.

Azərbaycan müəllimlərinin XI qurultayında ilk dəfə olaraq «Xalq müəllimi» fəxri adı təsis edildi və böyük maarifçi Heydər Əliyev bu ada layiq görüldü. İndi bu barədə yazarkən həmin əlamətdar hadisə ilə bağlı bir məsələni xatırladım.

Qurultaya hazırlıq ərəfəsində yerlərdən müxtəlif məzmunlu məktublar alırdıq. Məktubların bir çoxunda Heydər Əliyevə «Xalq müəllimi» adı verilməsi təklif olunurdu.

Mən bu təkliflər barədə Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadəyə danışdım və onunla məsləhətləşdik. Lakin qərar vermək bizim üçün çox çətin oldu. Çünki biz bilirdik ki, bir müddət əvvəl Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Heydər Əliyevə «Fəxri akademik» adı vermək barədə qərar qəbul etsə də, Heydər Əliyev bu fəxri adı qəbul etməkdən imtina edib. Ona görə də Fatma xanımla belə qərara gəldik ki, Heydər Əliyevə «Xalq müəllimi» adı verilməsi fikri qocaman təhsil işçisi, Bakı şəhəri 190№-li məktəbin direktoru Sona Tağıyevanın dilindən səslənsin. Elə də etdik. Sona xanım qurultayda bu təkliflə çıxış etdi və qurultay iştirakçılarının alqışları altında biz məmnuniyyətlə Heydər Əliyevə «Xalq müəllimi» fəxri adının diplomunu təqdim etdik.

Qurultayda Sumqayıt şəhəri Nizami Gəncəvi adına Texniki və təbiət elmləri liseyinin direktoru Minarə Tahirova, Kəlbəcər RTŞ-nin müdiri Məhəmməd Bağırov, Respublika Müəllimlər Şurasının sədri Babaxan Muradov, Xocalı şəhər 2№-li məktəbin müəllimi Sahibə Həsənova, Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Asif Cahangirov, Şəki şəhər 22№-li uşaq bağçasının müdiri Rəfiqə Əbdürrəhimova, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Ələkbər Quliyev, Gəncə şəhər Məhəmməd Hadi adına 10№-li orta məktəbin ibtidai sinif müəllimi Mətanət Seyidova, Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktor müavini professor Yəhya Kərimov çıxış etdilər.



Böyük maarifçi Heydər Əliyevə «Xalq müəllimi»
fəxri adının diplomunu təqdim edərkən. 25 sentyabr 1998-ci il



Sona Tağıyeva Heydər Əliyevi «Xalq müəllimi» fəxri adı alması münasibətilə təbrik edir





Heydər Əliyev Azərbaycan müəllimlərinin XI qurultayında sərgi ilə tanış olur

Bərdə şəhər 5№-li orta məktəbin direktor müavini Minayə Nəbbaqinin, Saatlı peşə liseyinin direktoru Rahim Əzizovun, Quba rayonu Əmrəki kənd orta məktəbinin müəllimi Möhübbət Mehrəliyevin, Bakı şəhəri 160№-li məktəbin direktoru Faina Ələkbərovanın, Bakı şəhəri Nəsimi RTŞ metodmərkəzinin direktoru Fərzəli Qədirovun, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadənin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru professor Bəhlul Ağayevin, Lənkəran RTŞ metodmərkəzinin direktoru Güloğlan Bağırovun çıxışları da maraqla qarşılandı.

Qurultayda Azərbaycan Respublikası Təhsil Şurasının tərkibi seçildi. Təhsil Şurasının tərkibi seçilərkən maraqlı bir hadisə baş verdi. Ölkə Prezidenti Heydər Əliyev söz alaraq təqdim edilən tərkibə öz etirazını bildirdi. Təhsil Şurasının tərkibinə hökumət üzvlərinin deyil, ayrı-ayrı bölgələrdən müəllimlərin seçilməsini təklif etdi və bu təklif qurultay nümayəndələri tərəfindən qəbul edildi. Respublikanın tanınmış ziyalısı professor Əjdər Ağayev Təhsil Şurasının sədri seçildi.

Qurultay Azərbaycan xalqına müraciət və müzakirə olunan məsələlərə dair qətnamə qəbul etdi. Azərbaycan müəllimlərinin qurultayı təhsil sahəsində aparılacaq islahatların əsas istiqamətlərini məqbul hesab etdi.

Azərbaycan müəllimlərinin
XI qurultayının qətnaməsindən
çıxarış

Müəllim adı xalqımız tərəfindən bütün zamanlarda uca tutulmuşdur. Azərbaycan xalqının mədəni, mənəvi inkişafında məktəbin və müqəddəs peşə sahibi olan müəllimlərin rolu misilsizdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müəllimlərin Ali Məclisinə göndərdiyi olduqca qiymətli fikirlərlə zəngin təbrik məktubunda göstərildiyi kimi, Azərbaycanda təhsil sistemi fasiləsiz olaraq yüz illər boyunca, mövcud şəraitə uyğun şəkildə fəaliyyət göstərmişdir. Təhsil formasından, təlim üsullarından asılı olmayaraq bütün hallarda məktəb və müəllim xalqın savadlanmasına, öz kökünə möhkəm tellərlə bağlanmasına, Vətənimizin səmasında elm ziyasının daim parlamasına xidmət etmişdir.

Bu gün Azərbaycanda təhsil sistemi tam yeni bir mühitdə fəaliyyət göstərir. Xalqımızın müstəqil dövlət quruculuğu yolunda ilk addımlar atdığı bir vaxtda yeni nəslin müstəqil və azad bir dövlətin vətəndaşları kimi yetişməsi son dərəcə aktual və mühüm bir məsələdir. Müstəqil dövlət quruculuğunun mühüm amillərindən biri olan milli təhsil sahəsində beynəlxalq standartlara uyğun fundamental islahatların aparılmasına təhsilimizin milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında qurulmasına geniş imkan yaradılmışdır.

Təhsil sahəsində əsaslı islahatların aparılmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyev bu ilin martında «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» Sərəncam imzalamışdır. Bu Sərəncamı ölkəmizdə milli təhsil quruculuğuna dövlət qayğısının yeni, parlaq təzahürü kimi qiymətləndirmək lazımdır.

Müstəqil Azərbaycan müəllimlərinin qurultayı təhsil quruculuğu sahəsində problemləri və qarşıda duran vəzifələri ətraflı müzakirə edərək aşağıdakı qətnamənin qəbulunu məqsədəuyğun hesab edir:

- Azərbaycanın Təhsil Şurası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə aşağıdakı istiqamətlərdə uzunmüddətli fəaliyyət proqramı formalaşdırıb həyata keçirsin:
  - Müstəqillik ideallarına milli və ümumbəşəri dəyərlərə, demokratik və dünyəvi prinsiplərə əsaslanan müasir təhsil sisteminin qurulması;
  - Azərbaycanda təhsilin üstün inkişaf etdirilən və strateji, ümummilli və ümumdövlət əhəmiyyətinə malik olan fəaliyyət sahəsinə çevrilməsinə dövlət təminatının təsbit edilməsi;
  - Təhsilin humanistləşdirilməsi, inteqrasiyası, diferensiallaşdırılması, fərdiləşdirilməsi, humanitarlaşdırılması, təhsilin məzmununun yeniləşdirilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi;
  - Azərbaycanda fəaliyyət göstərən bütün təhsil müəssisələrində ölkəmizin dövlət təhsil siyasətinin həyata keçirilməsinin təmin edilməsi;
  - Təhsilin idarə olunmasının dövlət-ictimai xarakterinin gücləndirilməsi;
  - Təhsilin maliyyələşdirilməsinin yeni mexanizminin hazırlanması;
  - Ümumtəhsil məktəblərində şagirdin şəxsiyyət kimi formalaşdırılmasının, onun təlim-tərbiyə prosesinin subyektinə çevrilməsinin başlıca vəzifə hesab edilməsinin, təlim-tərbiyənin uşağın, şagirdin meyil, maraq və potensial imkanları nəzərə alınmaqla təşkil olunmasının, milli-mənəvi tərbiyənin ön plana çəkilməsi;
  - Təhsilalanların və təhsilverənlərin sağlamlığının qorunması sahəsində təsirli tədbirlərin görülməsi;
  - Peşə məktəbləri, peşə liseyləri və orta ixtisas məktəblərinin fəaliyyətinin ölkənin sosial-iqtisadi perspektivləri nəzərə alınmaqla yenidən qurulması;
  - Azərbaycan dövlətinin strateji inkişafına uyğun olaraq ali təhsil sisteminin yenidən qurulması.
- Müstəqil Azərbaycan Respublikasında ilk dəfə olaraq keçirilən müəllimlər qurultayı ölkəmizin ictimai-siyasi və mədəni həyatında olduqca mühüm tarixi bir hadisə kimi qiymətləndirilməli, burada geniş müzakirələr nəticəsində qəbul olunmuş qərarlar yaxın illər ərzində respublikamızın təhsil-tərbiyə müəssisələrinin kollektivləri üçün fəaliyyət proqramı olmalıdır.
- Müəllimlər qurultayında qaldırılan məsələlər üzərində Təhsil Nazirliyi tərəfindən müvafiq dövlət orqanları ilə birgə geniş təhlil işi aparılmalı, qurultayın materialları bütün tədris-tərbiyə müəssisələrində dərindən öyrənilməli, ümumiləşdirmələr aparılmalı, konkret iş planları tərtib edilməlidir.
- Keçid dövrünün xüsusiyyətləri, ölkənin mövcud və real iqtisadi durumu ilə əlaqədar olaraq Azərbaycanın təhsil sisteminin idarə edilməsi və maliyyələşdirilməsində

beynəlxalq standartlara cavab verən yeni qaydaların, müasir mexanizmlərin tətbiq olunması kifayət qədər aktual və zəruridir. Azərbaycanın Təhsil Şurasına tapşırılır ki, təhsil sahəsinin müasir dövrün tələblərinə uyğun maliyyələşdirilməsi və idarə olunması ilə bağlı islahatlar Proqramını bir ay müddətinə hazırlayıb Təhsil İslahatları üzrə Dövlət Komissiyasında təsdiq etdirsin.

- Qurultay hesab edir ki, Azərbaycan Respublikasında təhsilin idarəetmə üsulları və maliyyələşməsi təkmilləşməklə yanaşı, ümumi təhsilin məzmunu yeni mahiyyət kəsb etməli, müəllim-şagird münasibətləri, ailə və məktəb əlaqələri, məktəbəqədər, peşə təhsili, orta ixtisas, ali məktəb və s. təhsilin ən qlobal problemləri üzrə konsepsiyalar hazırlanıb bütün təhsil müəssisələrinin, ali məktəblərin, elmi-pedaqoji institutların, elmi-tədqiqat kollektivlərinin müzakirəsinə verilməlidir. Ayrı-ayrı konsepsiyaların layihələri hazırlandıqca «Azərbaycan müəllimi» qəzetində dərc olunmalı və pedaqoji ictimaiyyətin müzakirəsinə verilməlidir.
- Xalqımızın milli dirçəlişində təhsilin böyük əhəmiyyəti əsas tutulmaqla Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin ki, yeni dövrün tələblərini nəzərə alaraq ən yaxın zamanda təhsil haqqında yeni və mükəmməl qanun layihəsi hazırlayıb ümumxalq müzakirəsinə versin.

Bakı şəhəri,
25 sentyabr 1998-ci il

2.4. Azərbaycanda təhsil islahatları

1998-ci ildə ölkədə təhsil sahəsində islahatların aparılması üçün əlverişli şərait yaranmışdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev məni təhsil naziri təyin edərkən ölkədə təhsilin inkişafı sahəsində bir sıra ciddi qərarların qəbul edilməsinin zəruri olduğunu bildirmişdi. Təhsil sahəsində «Azərbaycan Respublikasında İslahatlar üzrə Dövlət Komissiyası haqqında» Sərəncam həmin qərarlardan biri idi. 1998-ci il martın sonunda Prezidentin imzaladığı Sərəncama əsasən təhsil sahəsində islahatlar aparmaq üçün komissiya yaradıldı və mən komissiyanın sədri təyin olundum.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası haqqında»

S Ə R Ə N CA M I

Azərbaycan Respublikasının təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların aparılması, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Ümumdünya Bankının vəsait qoyuluşunu təmin etmək məqsədi ilə QƏRARA ALIRAM:

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahatların aparılmasını təşkil etmək məqsədilə aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

Dövlət komissiyasının sədri:

Misir Mərdanov – Azərbaycan Respublikasının təhsil naziri;

Dövlət komissiyası sədrinin müavini:

Namiq Nəsrullayev – Azərbaycan Respublikasının iqdisadiyyat naziri;

Dövlət komissiyasının üzvləri:

Rəfael Allahverdiyev – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı;

Fərəməz Maqsudov – Azərbaycan Elmlər Akademiyasının prezidenti;

Fikrət Yusifov – Azərbaycan Respublikasının maliyyə naziri;

Südabə Həsənova – Azərbaycan Respublikasının ədliyyə naziri;

Əli İnsanov – Azərbaycan Respublikasının səhiyyə naziri;

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının gənclər və idman naziri;

İsmayıl Sadıqov – Nazirlər Kabineti işlər idarəsinin elm, mədəniyyət, xalq təhsili və sosial problemlər şöbəsinin müdiri;

Elman Rüstəmov – Milli Bankın sədri;

Səttar Mehbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri;

Əvəz Ələkbərov – Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri;

Arif Vəliyev – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri;

Barat Nuriyev – Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsi sədrinin müavini

2. Dövlət komissiyasına tapşırılsın ki, Dünya Bankı ilə birlikdə təhsil sahəsində islahat proqramının hazırlanması üçün öz nəzdində işçi orqanı yaratsın və onun rəhbərini təyin etsin.

3. Nazirlər Kabineti bu sərəncamın icrası ilə bağlı məsələləri həll etsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 mart 1998-ci il

Sərəncamın icrası ilə əlaqədar Təhsil Nazirliyində 12 aprel 1998-ci il tarixli əmrlə işçi qrupu yaradıldı. İşçi qrupun tərkibinə Ali və orta ixtisas təhsili idarəsinin rəisi İlham Mustafayev, Kadrlar idarəsinin rəisi Rəhim Ağamalıyev, Ümumi təhsil və məktəbəqədər tərbiyə baş idarəsinin rəisi Arif Muradov, Ümumi təhsil şöbəsinin müdiri İsgəndər İsgəndərov, Dərslik, mətbuat və nəşriyyat şöbəsinin müdiri Əsgər Quliyev, Ali və orta ixtisas təhsili idarəsinin baş mütəxəssisi İlham Pirməmmədov daxil idi. Dövlət Komissiyasının nəzdində yaradılmış işçi orqan təhsil sahəsində islahat proqramını hazırlamaq üçün bütün qüvvələri səfərbər etdi.

Proqram hazırlanarkən təhsil sahəsində bu günə qədər qazanılmış nailiyyətlər, mütərəqqi ənənələr əsas götürülmüşdü. Biz, eyni zamanda çalışmışdıq ki, dünyanın inkişaf etmiş ölkələrinin təhsil sahəsində təcrübəsindən – ümumbəşəri dəyərlərdən də yararlanaq.

19 aprel 1999-cu ildə ölkə prezidenti Heydər Əliyevin iştirakı ilə Təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının iclası keçirildi. İclasda Heydər Əliyev çıxış edərək dedi: «Azərbaycanda təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir.

Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində – Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün



Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının iclaslarından birində. Aprel, 1998-ci il

müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik.

Bu fikirləri siz də burada söylədiniz və Dünya Bankının nümayəndələri də belə fikirdədirlər. Mən bunu məmnuniyyətlə dinlədim ki, Dünya Bankının nümayəndələri də Azərbaycanda indiyə qədər mövcud olan təhsil sisteminin müsbət cəhətlərini görür, bunları qiymətləndirirlər və bunlardan imtina etməyin tərəfdarı deyillər. Şübhəsiz ki, biz bütün beynəlxalq təşkilatların məsləhətlərinə çox diqqətlə yanaşmalıyıq. Xüsusən Dünya Bankı ilə ki, əməkdaşlıq edirik, onun verdiyi tövsiyələri, məsləhətləri çox diqqətlə qəbul etməliyik. Azərbaycanın reallığına, milli xüsusiyyətinə uyğun olan hər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizdə tətbiq etməliyik. Ancaq indiyə qədər mövcud olan təhsil sistemində əldə edilmiş müsbət nəticələri və bu günün, gələcəyin tələblərinə uyğun gələn hər şeyi saxlamalı və inkişaf etdirməliyik.

Mən belə anlayıram ki, indi bizdə təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın».

Azərbaycan rəhbərliyinin islahatları dəstəkləməsi, ölkəmizin təhsil sistemində islahatyönümlü işləri mövcud prosedurlara



Prezident Heydər Əliyevin iştirakı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının iclası. Aprel, 1999-cu il

uyğun həyata keçirən kadr potensialının formalaşması islahat layihəsinin hazırlanmasında real zəmin rolunu oynadı.

Tarixi həqiqət olaraq onu da qeyd etməyi vacib hesab edirəm ki, Dövlət Komissiyasının Təhsil Nazirliyində (o zaman Təhsil Nazirliyi Hökumət Evinin 7-ci mərtəbəsində yerləşirdi.) keçirdiyimiz çoxsaylı iclaslarında komissiya üzvləri Elman Rüstəmov, Əvəz Ələkbərov, Fərəməz Maqsudov daha fəal idilər, Əli İnsanov, Rəfael Allahverdiyev və Fikrət Yusifov isə bir dəfə də olsun bizim tədbirlərə qatılmadılar.

Dövlət komissiyası və onun nəzdində yaradılmış işçi qrupunun bu vacib məsələyə məsuliyyətli yanaşmasının və çoxsaylı görüşlərinin nəticəsində təxminən bir il ərzində «Təhsil sahəsində islahat Proqramı» hazırlandı və dövlət başçısına təqdim olundu.

1999-cu il iyunun 15-də «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olundu.

Proqramda Azərbaycanda təhsil islahatlarının 3 mərhələdə keçirilməsi nəzərdə tutulmuşdu. I mərhələ hazırlıq mərhələsi adlanırdı və 1999-cu ili əhatə edirdi. Bu mərhələdə vətəndaşların təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun

yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlər planlaşdırılmışdı.

Qısamüddətli perspektivi əhatə edən II mərhələdə (2000–2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi sabitliyinin təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsi, genişmiqyaslı islahatların aparılması üçün təşkilati, hüquqi-normativ, kadr, maliyyə, maddi-texniki, elmi, tədris-metodiki və informasiya təminatının, yeni idarəetmə modelinin yaradılması istiqamətində əhəmiyyətli addımlar atılması nəzərdə tutulurdu.

III mərhələ 2004-cü ildən sonrakı dövrü əhatə edirdi və bu mərhələdə Proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsi yolları göstərilmişdi.

İslahat Proqramında I mərhələdə 50, II mərhələdə 57, III mərhələdə 21 tədbir olmaqla bütövlükdə 128 tədbirin həyata keçirilməsi müəyyənləşdirilmişdi.

Təhsil sistemini müasir tələblər səviyyəsində qurmaq və inkişaf etdirmək üçün Proqramda islahatların aşağıdakı əsas prinsipləri müəyyənləşdirilmişdi:

- Təhsil sisteminin üstün inkişaf etdirilməli sahə olduğunu təsbit etməyə imkan verən etibarlı bazanın yaradılması, ölkə elminin və mədəniyyətinin inkişafı, demokratik vətəndaş cəmiyyətinin qurulması, modernləşdirilmiş istehsalat-mülkiyyət sistemi əsasında dayanıqlı iqtisadi artıma keçilməsi;
- demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə prinsiplərinə əsaslanaraq təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təhsil prosesinin əsas, bərabərhüquqlu subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən milli təhsil sisteminin yaradılması;
- mövcud təhsil sistemində toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla Azərbaycanın strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrin özünü doğrultmuş və elmi-pedaqoji ictimaiyyətin qəbul etdiyi təcrübəsindən istifadə olunması;
- idarəetmənin dövlət-ictimai xarakterdə həyata keçirilməsi, müəllimlərin və digər pedaqoji işçilərin fəaliyyəti üçün ən əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmin olunması, perspektivdə ictimai-dövlət idarəetmə modelinə keçilməsi;
- təhsil sisteminin yeni iqtisadi modelinin qurulması, resurs təminatının möhkəmləndirilməsi və onun optimallaşdırılması;
- islahatın humanitar xarakterli olması, onun insanların yaradıcı və keyfiyyətli fəaliyyətinin hərtərəfli açılmasına yönəldilməsi, islahatda şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsi;
- islahatın praktiki yönümlüyünü – dövlətin və cəmiyyətin malik olduğu vəsaitlə təmin oluna bilən məqsəd və tədbirlərin, yenilik və dəyişikliklərin həyata keçirilməsinə yönəldilməsi;

- təhsil sisteminin mütənasib inkişafının təmin edilməsi;
- təhsil sisteminin əhatə imkanlarının genişləndirilməsi, onun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi;
- təhsil sisteminin idarəetmə orqanlarının fəaliyyətinin respublikanın digər dövlət orqanları və qeyri-dövlət təşkilatlarının fəaliyyəti, eləcə də ölkənin iqtisadi mühiti ilə əlaqələndirilməsi, təhsil siyasətini həyata keçirən orqan və şəxslərin səlahiyyətlərinin Azərbaycan Respublikasının «Təhsil Qanunu»na və digər qanunvericilik aktlarına uyğun tənzimlənməsi.

Proqramda islahatların aşağıdakı strateji istiqamətlər üzrə aparılması müəyyənləşdirilmişdi:

– hüquqi-normativ bazanın yaradılması sahəsində;
– təhsil sisteminin strukturunda;
– təlim-tərbiyənin məzmununda;
– kadr hazırlığı və təminatında;
– təhsil sisteminin tədris, elmi-metodiki və informasiya təminatında;
– təhsil sisteminin idarə olunmasında;
– təhsil sisteminin maddi-texniki bazasında;
– təhsilin iqtisadiyyatında.

Qeyd olunan istiqamətlərlə bağlı İslahat Proqramında aşağıdakı tədbirlər müəyyənləşdirilmişdi:

– məktəbəqədər təhsil müəssisələrinin mövcud şəbəkəsinin təkmilləşdirilməsi, uşaqların erkən yaşdan inkişafını təmin edən yeni tipli müəssisələrin təşkil edilməsi;
– məktəbəqədər təhsil müəssisələri üçün milli tərbiyə proqramlarının hazırlanması;
– əqli və ya fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi müəssisələrin, psixi gərginliyə məruz qalmış qaçqın və məcburi köçkün uşaqlar üçün reabilitasiya mərkəzlərinin, xüsusi istedad və qabiliyyəti ilə fərqlənən uşaqlar üçün yeni tipli təhsil müəssisələrinin, o cümlədən təhsil sahələri üzrə fənn məktəblərinin, yeni profilə istiqamətləndirmə və qruplaşdırmaqla peşə-ixtisas təhsili müəssisələrinin bazasında yeni tipli elm-təhsil və elm-istehsalat komplekslərinin, müasir idarəetmə prinsiplərinin və funksiyalarının tətbiqi məqsədilə təhsil menecerlərinin hazırlanması mərkəzinin, əmək bazarının tələbatına uyğun olaraq orta ixtisaslı fəhlə və kiçik mütəxəssis kadrların səmərəliliyini təmin edə biləcək yeni tipli təhsil müəssisələri komplekslərinin yaradılması;
– məsafədən (distant) təhsil texnologiyaları da daxil olmaqla ixtisasartırma və yenidənhazırlanma təhsilinin yeni sisteminin qurulması;
– təhsilin bütün pillələri üzrə dövlət təhsil standartlarının, bunlara uyğun tədris planları və proqramları, dərslik və dərs vəsaitlərinin hazırlanması üçün təşkilati tədbirlərin görülməsi, dərsliklərin hazırlanması, nəşri və təhsil müəssisələrinin onlarla təminatı Proqramının hazırlanması;
– təhsilin bütün pillələri, xüsusən ümumtəhsil məktəbləri üçün Azərbaycanın

milli ideologiyasını özündə əks etdirən humanitar profilli dərsliklərin, xüsusən «Azərbaycan tarixi», «Azərbaycan ədəbiyyatı», «Azərbaycan dili», «Azərbaycan coğrafiyası» dərsliklərinin hazırlanması;
- təlim-tərbiyə prosesinin təhsilalanın meyil, maraq, istedad və qabiliyyəti əsasında qurulması, bu məqsədlə çoxvariantlı tədris plan və proqramlarının hazırlanması, tədricən inteqrativ təlimə keçid üçün real zəminin yaradılması;
- istedadlı uşaq, şagird və tələbələrin aşkara çıxarılması üçün xüsusi mexanizmin işlənməsi, onların təhsil aldığı müəssisələrdə fərdi tədris planları və proqramlarının tətbiqinə keçilməsi;
- milli tərbiyə Proqramının hazırlanması və mərhələlər üzrə həyata keçirilməsi, milli ideologiya komponentlərinin, xüsusən dövlətçilik atributlarının təlim-tərbiyə müəssisələrində təbliği və tədrisi işinin gücləndirilməsi;
- əmək bazarının dəyişən şəraitinə uyğunlaşmağa imkan verən, geniş profilli mütəxəssis hazırlığını təmin edən baza təhsil proqramları, eləcə də yeni ixtisas və ixtisaslaşma klassifikatorunun hazırlanması;
- təhsil müəssisələrinin kompyuterləşdirilməsi və mərkəzləşdirilmiş informasiya sistemləri proqramının işlənməsi, tətbiq olunması;
- monitorinq, yeni qiymətləndirmə modellərinə keçid, təhsilalanların biliklərinin qiymətləndirilməsi üçün yeni attestasiya sisteminin yaradılması;
- təhsil sisteminin pedaqoji kadrlara olan real tələbatının proqnozlaşdırılması;
- əmək bazarının tələbatı nəzərə alınmaqla mütəxəssis hazırlığının cari və perspektiv strukturunun və həcminin müəyyənləşdirilməsi;
- «Təhsilin təşkili və idarə olunması» ixtisası üzrə mütəxəssis – təhsil menecerlərinin hazırlığına başlanılması və bu istiqamətdə kadr hazırlığının ardıcıl inkişaf etdirilməsi;
- pedaqoji ali və orta ixtisas məktəblərində müəllim hazırlığının yeni modelinə keçilməsi;
- kadrların ixtisasının artırılması və yenidən hazırlanması təhsilində müqavilə mexanizmlərinin tətbiqi, «öyrədənlərin öyrədilməsi» proqramlarına üstünlük verilməsi;
- əlavə pedaqoji təhsil sisteminin yeni modelinin qurulması, diplomdansonrakı təhsil konsepsiyası, distant təhsil konsepsiyası, ixtisasartırma və yenidənhazırlanma təhsilinin təşkili modellərinin hazırlanması, təsdiqi və prosesə tətbiq edilməsi;
- pedaqoji kadrların attestasiyasının yeni müasir mexanizminin hazırlanması, təsdiqi, prosesə tətbiqi;
- təhsil sistemində beynəlxalq informasiya mübadiləsi mexanizminin tətbiqi, elmi-kütləvi kitabxanaların beynəlxalq informasiya kanallarına qoşulması üçün informasiya bazasının yaradılması, yeni standartların və islahatların həyata keçirilməsinə nəzarət etmək və qiymətləndirmək məqsədilə dövlət monitorinq sisteminin qurulması;

– yeni informasiya texnologiyalarının tətbiqi və istifadəsi, xüsusilə elmi və metodiki işlərin səmərəliliyinin artırılması, təhsil müəssisələrini bütövlükdə əhatə edən kompyuter şəbəkəsinin yaradılması, onun İnternetə çıxışının təmin edilməsi, vahid informasiya sisteminin təşkili, informasiya bankının yaradılması;
– təhsili idarəetmə orqanlarında informasiya mərkəzlərinin yaradılması;
– təhsil sisteminin informasiyalaşdırılması və kompyuterləşdirmə Proqramının hazırlanması;
– dərsliklərin müsabiqə əsasında hazırlanmasının təmin edilməsi, alternativ dərsliklərin yaradılmasını təmin edən mexanizmlərin tətbiqinə keçid;
– milli xüsusiyyətlər nəzərə alınmaqla pedaqogika və psixologiyanın, xüsusilə milli tərbiyənin aktual problemləri üzrə elmi-tədqiqat işlərinin istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə elmi araşdırmaların intensiv şəkildə aparılması;
– təhsil sisteminin idarə olunması sahəsində tədricən əksmərkəzləşmə mexanizmlərinə keçid, planlaşdırma, təşkiletmə, rəhbərlik, nəzarət, informasiya təminatı və s. kimi funksiyaları özündə əks etdirən müasir idarəetmə modellərinin tətbiqinə keçid;
– dövlət lisenziyalaşdırma, attestasiya və akkreditasiya sisteminin yaradılması və prosesə tətbiq olunması;
– təhsilin keyfiyyətinə dövlət nəzarətinin, eləcə də müasir qiymətləndirmə sisteminin yaradılması, monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi;
– təhsil müəssisələrinə mərhələlərlə muxtariyyət statusunun verilməsi;
– təhsil sisteminin bütün pillələrdən olan təlim-tərbiyə müəssisələri və ona xidmət sahələri üçün zəruri avadanlıq, əyani tədris vəsaitlərinin, təlimin texniki vasitələrinin nümunəvi siyahısının, uşaq, şagird və tələbələrin sağlamlığının qorunması, təlim-tərbiyə üçün təhlükəsiz şəraitin yaradılması, eləcə də sanitar-gigiyenaya dair müvafiq normativlərin hazırlanması;
– təhsilalanların sayına görə büdcədən maliyyələşmənin optimal həcminin müəyyənləşdirilməsi məqsədilə adambaşına maliyyələşmə normativlərinin müəyyən edilməsi və prosesə tətbiqi;
– ümumtəhsil məktəblərinin maliyyə ehtiyatlarını artırmasını, təşəbbüskarlığının stimullaşdırılmasını təmin edən yeni maliyyə mexanizminin yaradılması;
– təhsil müəssisələrində əmək haqqı fondunun dövlət büdcəsindən, qeyri-büdcə sferasında olan mənbələr və eləcə də mütəxəssis hazırlığı, tədris-metodiki, elmi-texniki məhsul və digər xidmətlərin reallaşdırılmasından əldə olunan vəsaitlər hesabına formalaşması və xərclənməsi mexanizminin yaradılması;
– təhsil sisteminin inkişafı məqsədilə investisiyanın cəlb olunması və investisiya fondunun təşkili Proqramının hazırlanması;

– təhsil sisteminin iştirakçılarının sosial müdafiəsi Proqramının hazırlanması;
– təhsilin İnkişaf Fondunun fəaliyyətinin gücləndirilməsi və genişləndirilməsi tədbirlərinin həyata keçirilməsi və s.

Təsdiq edilən İslahat Proqramının reallaşdırılması məqsədilə **1999-cu il iyunun 29-da Azərbaycan hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf üçün kredit haqqında Saziş» imzalandı və Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edildi.** Saziş imzalandığı vaxtdan etibarən Azərbaycanda təhsil islahatları Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilməyə başladı. Layihənin səmərəli idarə edilməsi məqsədilə Təhsil Nazirliyinin nəzdində Layihəni Əlaqələndirmə Qrupu (LƏQ) yaradıldı. (Qrupa 1999-cu ildə Elxan Əmirbəyov və İlham Əliyev, 2000-ci ildə Aqil Quluzadə, 2001–2005-ci illərdə Asif Cahangirov rəhbərlik etmişdir. 2005-ci ildən isə Qrupa Elvin Rüstəmov rəhbərlik edir – M.M.)

Bu kreditin əsas məqsədi Azərbaycanın təhsil sistemində Dünya Bankının qaydaları, prosedurları, təlimatları üzrə zəruri bilik və bacarıqlar formalaşdırmaq, müvafiq kadr hazırlığını təmin etmək, təhsil innovasiyalarını dəstəkləmək idi.

Kredit Sazişi çərçivəsində Təhsil İslahatı Layihəsinin hazırlanması üçün Dünya Bankı 295 min ABŞ dolları məbləğində Yaponiya hökumətinin qrantını ayırmışdı. Layihənin dəyəri 5,5 milyon ABŞ dolları təşkil etmişdi ki, bu məbləğin də 500 min dolları Azərbaycan hökumətinin payına düşürdü. Layihə üçün ayrılmış vəsaitin xərclənməsi cədvəlini oxucuların diqqətinə çatdırıram.

Dünya Bankının kredit vəsaitləri
(ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclənmişdir	Qalıq
1.	Təmir işləri	1154955	1152279	2676
2.	Məsləhətçi xidmətləri	1816792	1721073	95719
3.	Treninq	622577	616350	6227
4.	Mal-material xərcləri	1307273	1272810	34463
5.	Əməliyyat xərcləri	70860	64569	6291
Cəmi:		**4972457**	**4827081**	**145376**

Azərbaycan hökumətinin iştirak payı
(ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclənmişdir	Qalıq
1.	Təmir işləri	128544	127457	1087
2.	Məsləhətçi xidmətləri	–	–	–
3.	Treninq	–	–	–
4.	Mal-material xərcləri	321456	272850	48606
5.	Əməliyyat xərcləri	50000	46649	3351
Cəmi:		**500000**	**446956**	**53044**

Layihəyə ayrılmış ümumi vəsaitlərin xərc cədvəli (ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclən-mişdir	Qalıq
1.	Təmir işləri	1283499	1279736	3763
2.	Məsləhətçi xidmətləri	1816792	1721073	95719
3.	Treninq	622577	616350	6227
4.	Mal-material xərcləri	1628729	1545660	83069
5.	Əməliyyat xərcləri	120860	111217	9643
Cəmi:		**5472457**	**5274036**	**198421**

Layihəni həyata keçirmək üçün 27 pilot müəssisəsi müəyyən edilmişdi. Buraya Naxçıvan Muxtar Respublikasında 4, Bakı şəhərində 8, Gəncə şəhərində 3, Sumqayıt şəhərində 1, Lənkəran rayonunda 4 məktəb olmaqla ümumilikdə 20 pilot məktəbi, keçmiş Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutu və onun Lənkəran filialı, Naxçıvanda və Gəncədə yerləşən Müəllimlərin İxtisasartırma İnstitutları, Bakı Şəhər PKİAYH İnstitutu, keçmiş Təhsil Problemləri üzrə Elmi-Metodik Mərkəz və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu daxil edilmişdi.

Layihə iki istiqamətdə islahatların aparılması üzrə xüsusi yanaşmaları özündə əks etdirirdi:

– tədris planı və proqramları, tədris-metodiki təminat sahəsində islahatlar;
– müəllimlərin ixtisasartırması üzrə islahatlar.

İslahat sahəsində Təhsil Nazirliyinin uğurlu işlərindən biri ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı əsasında pilot məktəblərinin I–II və V–VI sinifləri üçün müasir tələblər səviyyəsində 9 adda yeni nəsil tədris proqramlarının hazırlanması və nəşr edilməsi oldu. Bu işə respublikanın tanınmış alim-pedaqoqları və metodistləri, qabaqcıl müəllimləri cəlb olunmuşdu. 2001/02-ci tədris ilindən başlayaraq pilot məktəblərində Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və informatika, tarix, ingilis dili (V və VI siniflər), musiqi, təsviri incəsənət (I–II, V–VI siniflər), Azərbaycan dili (təlim rus dilində olan məktəblərin I–II, V–VI sinifləri), rus dili və ədəbiyyatı (təlim rus dilində olan məktəblərin V–VI sinifləri) fənləri yeni proqramlar əsasında tədris olunmağa başlandı. Bu tədris proqramlarının tətbiqi ilə əlaqədar olaraq 900 müəllim və 252 metodist «öyrədənlərin öyrədəni» proqramı əsasında xüsusi təlim kurslarından keçirildi.

2001-ci ildən başlayaraq pilot məktəblərində təlim şəraitinin əsaslı şəkildə dəyişilməsinə, fəal və interaktiv təlim metodlarının dərs prosesinə tətbiqinə böyük diqqət verilirdi. Bu istiqamətdə 2000-ci ildə pilot məktəblərinin 204 ibtidai sinif müəllimi, 2001-ci ildə 527 nəfər V–VI siniflərdə dərs deyən fənn müəllimi və pilot ixtisasartırma institutlarının 110 nəfər metodisti müasir təlim metodları üzrə xüsusi kursların müdavimləri olmuşdular.

2003-cü ilin may-avqust aylarında isə pilot məktəblərinin 66 nəfər müəllimi və müvafiq RTŞ metodistləri, habelə ixtisasartırma institutlarının 62 nəfər metodisti «öyrədənlərin öyrədəni» proqramı əsasında 3 mərhələdə 104 saatlıq təlim kursu keçmiş və sertifikat almışdır. Həmin müəllim və metodistlər isə öz həmkarlarına fəal və interaktiv təlim

metodlarını öyrətmişlər. Hər bir pilot məktəbində müasir təlim metodlarının tətbiqi məsələlərinə həsr olunmuş xüsusi seminarlar təşkil olunurdu. Pilot müəssisələrinin müəllim və metodstlərinin, tanınmış alim-pedaqoqların iştirakı ilə belə seminarlar Bakı şəhərindəki 7, 18, 70, 82, 181, 275, 287№-li, Sumqayıt şəhərindəki 25№-li, Naxçıvan şəhərindəki 11№-li orta məktəblərdə və Şərur rayonundakı Aralıq kənd məktəbində keçirilmişdi.

İslahatların aparılması prosesində təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi Təhsil Nazirliyinin daim diqqət mərkəzində idi. Hələ təhsil islahatının başlanğıc mərhələsində beynəlxalq və milli məsləhətçilərin köməyi ilə 40-a yaxın xarici ölkənin təhsil sistemləri, orada tətbiq olunan təlim metodları, ayrı-ayrı mexanizmlər, idarəetmə modelləri öyrənilmişdi.

Müasir pedaqoji tendensiyalara uyğun olaraq, Azərbaycanın təhsil sisteminə yeni təcrübələrin tətbiqi məqsədilə müsabiqə yolu ilə seçilmiş üç nəfər təhsil mütəxəssisi Təhsil Nazirliyinin xüsusi təqaüdü ilə İngiltərənin Lids Universitetində və Kinqs Kollecində inteqrativ fənlər, riyaziyyat və təbiətşünaslıq, təhsildə qiymətləndirmə sahələrində magistr dərəcəsi üzrə təhsil almışdılar.

Bunlarla yanaşı, 2000-ci ilin mayında Təhsil Nazirliyinin 17 nəfər əməkdaşı Türkiyə Respublikasına ezam olunmuş, Nazirliyi və pilot müəssisələrini təmsil edən 10 nəfərdən ibarət nümayəndə heyəti 2001-ci ilin aprelində ABŞ-ın təhsil sistemi ilə yaxından tanış olmuş, ABŞ-ın 5 iri şəhərində 18 rəsmi görüş keçirmiş, 15 seminarda iştirak etmiş, 12 ümumtəhsil məktəbi və digər təhsil müəssisələrinin iş təcrübəsi ilə tanış olmuşdu. Həmin ilin iyulunda Nazirliyin və pilot müəssisələrinin 28 nəfər rəhbər işçisi «Cəmiyyətin demokratikləşdirilməsi şəraitində ümumtəhsil məktəbinin idarəolunmasının müasir metodları» mövzusunda İsraildə təşkil olunmuş təlim kursunun iştirakçısı olmuşdu.

2001-ci ilin iyununda ABŞ-ın Kolorado Universitetindən dəvət olunmuş mütəxəssislər «Sinif şəraitində uşağın inkişafı» və «Ucuz materiallardan istifadə etməklə təbiətşünaslıq fənninin əyani surətdə tədrisi» mövzusunda pilot məktəblərinin və ixtisasartırma institutlarının 100 nəfər müəllim və metodisti üçün xüsusi seminar keçirmişdi.

2002-ci ilin mayında Təhsil Nazirliyinin 8 nəfərdən ibarət nümayəndə heyəti Hollandiya və İngiltərənin təhsil sistemləri ilə yaxından tanış olmuş, hər iki ölkənin tədris proqramlarının, dərsliklərin və digər tədris materiallarının hazırlanması, təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi ilə məşğul olan 10 qurumun fəaliyyətini öyrənmiş, 2 universitet və 2 ümumtəhsil məktəbində olmuş, 21 seminarda iştirak etmişdi.

2002-ci ilin oktyabrında Almaniyadan olan təhsil mütəxəssisləri tərəfindən 80 nəfər rəhbər təhsil işçisi üçün «Təhsilin keyfiyyətinə müasir baxışlar», «Təhsil sisteminin monitorinqi və qiymətləndirilməsi», həmin ilin dekabrında isə Böyük Britaniya və ABŞ mütəxəssisləri tərəfindən Təhsil Nazirliyinin, ixtisasartırma institutlarının və pilot məktəblərinin rəhbərliyi və əməkdaşları üçün «Müəllim fəaliyyətinin qiymətləndirilməsi və peşəkarlıq səviyyəsinin inkişafı» mövzularına həsr olunmuş seminarlar keçirildi.



Təhsil Nazirliyini və pilot müəssisələrini təmsil edən nümayəndə heyəti ABŞ-da.
Aprel, 2001-ci il

2000–2002-ci illər ərzində beynəlxalq məsləhətçilər tərəfindən Azərbaycanda dərsliklə təminat, təhsil xərcləri və maliyyələşdirmə, valideynlərin və ictimaiyyətin məktəb həyatına cəlb olunması, müəllimlərin peşəkarlıq səviyyəsinin inkişafı, təhsil islahatı layihəsinin monitorinqi və qiymətləndirilməsi mövzuları üzrə xüsusi tədqiqatlar aparılmış, nəticədə müvafiq tövsiyələr hazırlanmışdı.

İslahatlar çərçivəsində pilot müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi də nəzərdə tutulmuşdu. 2000-ci ildə bütün pilot müəssisələrində, Təhsil Problemləri İnstitutunun binasında əsaslı təmir işləri aparılmış və bu məqsədlərə 1,28 milyon ABŞ dolları sərf olunmuş, Təhsil Nazirliyi və pilot müəssisələri üçün 982 min ABŞ dolları məbləğində kompyuter, surətçıxaran maşın və digər avadanlıq, habelə ofis mebeli alınmışdı.

2003-cü ilin iyulunda təhsil nazirinin müavinləri, Nazirliyin struktur bölmələrinin rəhbərləri daxil olmaqla 20 nəfərlik nümayəndə heyəti Beynəlxalq Əmək Təşkilatının İtaliyada yerləşən Treninq Mərkəzində «Təhsil islahatı layihəsinin idarə olunması» mövzusunda 2 həftəlik təlim kursundan keçmiş, həmin il sentyabrın 1-dən 14-dək 9 nəfər təhsil işçisi ümumi təhsil sistemində yeni kurikulumun hazırlanması məsələləri ilə əlaqədar Finlandiyada və İsveçdə tədris səfərlərində olmuşdu.

2000–2003-cü illərdə bütün pilot məktəbləri və institutları üçün 512 dəst kompyuter, 77 printer, 34 surətçıxaran maşın, 100 televizor, 216 stereomaqnitofon, 92 videomaqnitofon, 189 müxtəlif proyektor, o cümlədən multimedia proyektorları, 29 videokamera və digər audio-vizual avadanlıqlar alınmışdı. Bundan başqa, pilot müəssisələri 5950 dəst şagird masası, 470 ədəd yazı lövhəsi, akt zalı üçün 1897 kreslo və digər mebel avadanlığı ilə təchiz olunmuşdu. Beləliklə, Dünya Bankı tərəfindən ayrılmış 5 milyon ABŞ dollarından 97,08%, Azərbaycan hökumətinin 500 min ABŞ dolları məbləğində iştirak payından isə 89,39% vəsait xərclənmişdi.

Bir məqam da qeyd olunmalıdır ki, Layihənin Qiymətləndirməsi Sənədində 400 min ABŞ dolları məbləğində vəsait pilot məktəbləri üçün dərsliklərin alınması, 130 min ABŞ dolları isə müəllimlər üçün metodik vəsaitlərin hazırlanması və nəşri üçün nəzərdə tutulmuşdu. Lakin Layihənin Qiymətləndirməsi Sənədində bu məsələ dəqiq açıqlanmadığı üçün 2001-ci il ərzində Təhsil Nazirliyi və Dünya Bankı arasında bir sıra danışıqlar aparılmış, təkliflər verilmiş, yalnız 2002-ci ilin aprelində yaranmış problemin həlli istiqamətində müvafiq razılaşma əldə edilmişdi.

Razılaşmaya baxmayaraq, bu iki böyük həcmli tədbirin Kredit Sazişinin sonunadək, yəni 31 dekabr 2002-ci il tarixinədək başa çatdırılması mümkün olmadığından Azərbaycan hökumətinin razılığı əsasında Kredit Sazişinin 9 ay müddətinə uzadılması barədə Dünya Bankına müraciət edilmiş, 2002-ci il iyulun 16-da Dünya Bankı Kredit Sazişinin 2003-cü il sentyabrın 30-dək uzadılmasına razılıq vermişdi. Bundan sonra icra planına uyğun olaraq, pilot məktəblərinin V–VI sinifləri üçün yeni dərsliklərin, iş dəftərlərinin, müəllimlər üçün metodik vəsaitlərin hazırlanması üçün tender keçirilmişdir. Nəticədə Azərbaycanda ilk dəfə olaraq 2003-cü il

sentyabrın 1-dən pilot məktəblərinin V və VI sinif şagirdləri «Ədəbiyyat», təlim rus dilində olan məktəblərin şagirdləri isə «Rus dili», «Ədəbiyyat» fənləri üzrə dərslik komplektləri, iş dəftərləri, müəllimlər metodik vəsaitlərlə təmin olundu.

Tədris proqramlarının hazırlanması, şagird nailiyyətlərinin qiymətləndirilməsi və müəllimlərin ixtisasartırması üzrə 2003-cü ilin yanvar–fevral aylarında CİTO Qroup (Hollandiya) və EDC (ABŞ) şirkətləri məsləhətçi xidmətlərinə başladı. CİTO Qroup şirkəti Təhsil Problemləri İnstitutunun, ixtisasartırma institutlarının mütəxəssisləri və bir qrup qabaqcıl müəllim üçün (cəmi 62 nəfər) «Kurikulumun hazırlanması», «Şagird nailiyyətlərinin qiymətləndirilməsi və milli qiymətləndirmə» mövzularında 2003-cü ilin fevral–iyun aylarında seminarlar keçirdi. Həmin şirkətin köməyilə Bakı, Gəncə, Sumqayıt şəhərlərində və Lənkəran rayonunda yerləşən 8 pilot və 12 qeyri-pilot məktəblərində ilk dəfə olaraq 1600 nəfər V sinif şagirdi əhatə olunmaqla «Ana dili» və «Riyaziyyat» fənləri üzrə beynəlxalq standartlara cavab verən Milli qiymətləndirmə aparıldı.

Məsləhətçi xidmətləri göstərən digər təşkilat – ABŞ-ın EDC şirkəti «İxtisasartırma institutları üçün kurikulumun hazırlanması», «Fəal və interaktiv tədris-təlim metodları» mövzularında ixtisasartırma institutlarının 155 nəfər metodisti, TPİ-nin əməkdaşları və pilot məktəblərinin müəllimləri üçün məqsədli seminarlar keçirdi. Bu şirkətin köməyilə ilk dəfə olaraq 5 fənn əsasında ixtisasartırma institutları üçün 20 təlim kursunun kurikulumu hazırlanmışdı.


Heydər Əliyev Azərbaycanın təhsil sistemində aparılacaq islahatlara böyük ümidlər bəsləyir, bu sahədə görülən işlərə xüsusi diqqət və qayğı ilə yanaşırdı. O, 2000-ci ildə yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakının Nərimanov rayonundakı 82№-li məktəbdəki toplantıda demişdi: «Bu bayram bizim üçün ona görə əzizdir ki, biz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da təkmilləşdirməliyik. Ona görə də müəllimlər gərək yerlərində saymasınlar, nə qədər təcrübəli olsalar da, daim öz biliklərini artırsınlar. Çünki dünya çox dinamik inkişafdadır. Bu dinamik inkişaf dünyada sürətlə yeniliklər meydana çıxarır. Ona görə də təbiidir, müəllim 10, 15, 20 il bundan öncəki səviyyəsi ilə bizim bugünkü yüksək təhsilimizi təmin edə bilməz. Gərək müəllim öz üzərində daim işləsin, dünyanın texniki, elmi-tərəqqi nailiyyətlərindən xəbərdar olsun və onları tələbələrə, gənclərə, uşaqlara çatdırsın. Təhsil sahəsində bizim apardığımız islahatlar da məhz buna yönəldilibdir. Bilirsiniz ki, indi biz bu barədə Dünya Bankı ilə çox sıx əməkdaşlıq edirik, onların tövsiyələrindən istifadə edirik. Hətta onlar bizim məktəblərin bəzilərini himayəyə götürüblər.

20 pilot məktəbi yaradılıbdır, bu məktəblərə qayğı göstərirlər. Həmin məktəblərdən biri də bu gün buraya toplaşdığımız məktəb, sizin məktəbinizdir. Bilirəm ki, onlar məktəbin təmirinə də, başqa işlərə də yardım ediblər. Mən bunlara görə, Dünya Bankının, ümumiyyətlə, Azərbaycan məktəbinə, təhsilinə yardım göstərən müxtəlif beynəlxalq təşkilatların, ayrı-ayrı ölkələrin işini yüksək qiymətləndirirəm və onlara təşəkkürümü, minnətdarlığımı bildirirəm».




Prezident Heydər Əliyev Bakı şəhəri 82№-li məktəbdə. 1 sentyabr 2000-ci il





Prezident Heydər Əliyev Bakı şəhəri 82№-li məktəbdə. 1 sentyabr 2000-ci il





Prezident Heydər Əliyev Bakı şəhər 6№-li məktəb-liseydə. 1 sentyabr 2001-ci il
(sağda məktəbin o zamankı direktoru Ceyran Quliyeva, solda indiki direktor Gülşən Orucova)

Ölkə başçısı 1 sentyabr 2001-ci ildə yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə Bakı şəhəri 6№-li məktəb-liseydəki görüş nitqində də bu barədə danışaraq demişdi:

«İndi Azərbaycanın təhsil sistemi artıq tamam nizamlanıbdır. Təhsil sahəsində bizim son illər apardığımız islahatlar Azərbaycan məktəbinin, təhsilinin keyfiyyətini artırır və məktəblərdə, universitetlərdə müasir tələblərə uyğun təhsil verilir. Bunlar hamısı Azərbaycan xalqının sağlam, bilikli, yüksək ixtisasa malik olan gələcək nəsillərini hazırlayır».

Təhlil göstərir ki, 1993/94-cü tədris ilindən başlayaraq həm məktəblərin, həm şagirdlərin, həm də müəllimlərin sayında artma tendensiyası müşahidə edilmişdir. 1993/94-cü tədris ili ilə müqayisədə 2000/01-ci tədris ilində məktəblərin sayı 4447-dən 4561-ə, şagirdlərin sayı 1449435-dən 1689682-yə, müəllimlərin sayı isə 142640-dan 161492-yə yüksəlmişdir.

Respublika üzrə ümumtəhsil məktəbləri haqqında məlumat

Tədris ili	Ümumi təhsil məktəblərinin sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
1993/94	4447	1449435	142640
1994/95	4502	1486067	147420
1996/96	4494	1511413	152959
1996/97	4486	1553291	153512
1997/98	4519	1612537	153318
1998/99	4549	1651111	155086
1999/2000	4562	1664125	158172
2000/01	4561	1689682	161492

15 aprel 1993-cü ildə «Təhsil Qanunu»nun 15-ci maddəsinə istinad edilməklə Təhsil Nazirliyinin əmri imzalandı. Əmrdə 1993/94-cü tədris ilindən respublika üzrə axşam (qiyabi) məktəblərinin fəaliyyətinin dayandırılması, işləyən gənclərin təhsili ilə əlaqədar müvafiq siniflərin gündüz ümumtəhsil məktəbləri nəzdində açılması və bu siniflərin təşkilinə rəhbərlik və nəzarətin həmin məktəblərin rəhbərlərinə həvalə edilməsi nəzərdə tutuldu. Əmrin icrası ilə bağlı 1993/94-cü tədris ilində axşam məktəblərinin sayı 85-dən 21-ə endi.

Azərbaycan Respublikası Maarif Nazirliyinin 28 iyul 1993-cü il tarixli əmri ilə «Gündüz ümumtəhsil məktəbləri bazasındakı axşam sinifləri və qiyabi qruplar haqqında» Əsasnamə təsdiq edildi. Əsasnamədə axşam sinifləri və qiyabi qrupların quruluşu və fəaliyyətinin əsasları, eləcə də idarə olunması qaydaları təsbit edildi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 1993-cü il tarixli qərarına əsasən tərkibində axşam sinifləri və qiyabi qruplar olan gündüz ümumtəhsil məktəbləri üçün əlavə ştat və əmək haqqına faiz əlavəsi təsdiq edildi.

Lakin qeyd etmək lazımdır ki, əmrin icrası istiqamətində görülən işlər axıra çatdırılmadı. Axşam məktəbləri fəaliyyət göstərməkdə davam etməklə yanaşı, gündüz ümumtəhsil məktəbləri nəzdində zəruri ehtiyac olmadan çoxsaylı axşam sinifləri təşkil edildi ki, bu da sonradan ciddi problemlərin yaranmasına gətirib çıxardı. Bu vəziyyət 2002/03-cü tədris ilinə qədər davam etdi. Təhsil Nazirliyinin 15 avqust 2002-ci il tarixli əmri ilə 2002/03-cü tədris ilindən etibarən nəzdində axşam sinifləri və

ya qiyabi qruplar fəaliyyət göstərən bütün gündüz ümumtəhsil məktəblərində yeni axşam və qiyabi qrupların açılması dayandırıldı.

Hazırda respublikada 7 belə təhsil müəssisəsi vardır ki, bunlardan 5-i islah əmək koloniyalarında fəaliyyət göstərir, 2-si isə sağlamlıq imkanları məhdud olan şəxslər üçündür.

Qiyabi (axşam) ümumtəhsil məktəbləri, gündüz məktəblərinin nəzdində axşam siniflər və qiyabi qruplar haqqında məlumat

Tədris illəri	Məktəblərin sayı	Şagirdlərin sayı
1993/94	21	26345
1994/95	22	23879
1995/96	14	23713
1996/97	12	27611
1997/98	12	34065
1998/99	13	40077
1999/2000	13	40850
2000/01	13	35979
2001/02	13	27859
2002/03	13	17066
2003/04	12	9252
2004/05	9	2774
2005/06	9	2594
2006/07	9	2693
2007/08	7	2575
2008/09	7	2656
2009/10	7	2927
2010/11	7	2968


2.5. Təhsil sisteminin təkmilləşdirilməsi. Özəl ümumtəhsil sisteminin inkişafı


Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanı imzalandı.

Fərmana əsasən mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət səlahiyyətləri Azərbaycan Respublikasının Təhsil Nazirliyinə verildi. Eyni zamanda ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin, konsernlərinin, şirkətlərinin, birliklərinin və digər dövlət qurumlarının tabeliyində olan ümumtəhsil məktəbləri Təhsil Nazirliyinin tabeliyinə verildi.

Fərmanda Bakı Şəhər Baş Təhsil İdarəsinin ləğv edilməsi, respublikanın bütün şəhər və rayon təhsil şöbələrinin bilavasitə Təhsil Nazirliyinin tabeliyinə verilməsi, 2000-ci ildən başlayaraq hər il dövlət büdcəsinin layihəsi hazırlanarkən orada şəhər və rayon təhsil şöbələrinin maliyyələşdirilməsi üçün müəyyən edilən vəsaitin birbaşa Təhsil Nazirliyinə ayrılması nəzərdə tutulmuşdu. Lakin nəzərdə tutulan bu tədbirlər həyata keçirilmədi.

Qısa müddətdən sonra Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanına dəyişikliklər edilməsi barədə» 30 avqust 2000-ci il tarixli Fərmanı imzalandı və Nazirlər Kabinetinə Bakı şəhərində orta təhsil sisteminin idarə edilməsinin təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması tapşırıldı.





Prezident Heydər Əliyev Azərbaycanda ilk özəl orta təhsil müəssisəsinin açılışında. 1 sentyabr 2001-ci il



Xəzər Universitetinin nəzdində yaradılmış «Dünya» ümumtəhsil məktəbi



«Çağ» Öyrətim İşlətmələri Şirkətinin «Qafqaz» Azərbaycan–Türkiyə özəl gimnaziyası

Fərmana əsasən Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və Respublika Elmi-Metodik Mərkəzi bazasında Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu yaradıldı, İnstitutun yeni strukturu işləndi. Bakı Şəhər Baş Təhsil İdarəsi isə ləğv edilmədi və fəaliyyətini əvvəlki qaydada davam etdirdi. Hazırda həmin idarənin müdiri vəzifəsində Nailə Oqtay qızı Rzaquliyeva çalışır. (İdarəyə 2000-ci ilədək Asif Baxış oğlu Cahangirov, 2000–2004-cü illərdə Fərzəli Dövlət oğlu Qədirov, 2004–2006-cı illərdə isə Məhəbbət İsmayıl oğlu Qarabağlı rəhbərlik etmişdir. – M.M.)

Müstəqillik illərində təhsil sisteminin təkmilləşdirilməsi sahəsində mütərəqqi yeniliklərdən biri də özəl təhsil müəssisələrinin yaranması olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il sentyabrın 1-də Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışı mərasimində demişdi: «Son illər Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi-siyasi sistem yolu ilə gedərək, dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır. Biz dövlət olaraq bunu da edirik. Belə bir şəraitdə dövlət təhsil sistemi ilə yanaşı, Azərbaycanda özəl təhsil sistemi də yaranır. Bu, müasir dövrün tələbləridir. Biz bu hadisəni müsbət qiymətləndiririk».

Özəl ümumtəhsil məktəblərinin sayı 2002/03-cü tədris ilindəki 9-dan 2004/05-ci tədris ilində 11-ə, 2007/08-ci tədris ilində isə 17-yə yüksəldi. Bu məktəblər içərisində «Müasir Təhsil Kompleksi»nin nəzdindəki orta ümumtəhsil məktəbi, «Çağ» Öyrətim İşlətmələri Şirkətinin özəl türk liseyləri, «Odlar Yurdu» Universitetinin nəzdindəki orta ümumtəhsil məktəbi təhsil səviyyəsinə görə üstünlüyü ilə seçilirdi. 2010/11-ci tədris ilində Azərbaycanda fəaliyyət göstərən 17 özəl ümumtəhsil müəssisəsində 7400 nəfər şagird təhsil alırdı ki, onların təlim-tərbiyəsi ilə 1142 nəfər müəllim məşğul olurdu.

2011/12-ci tədris ilində ölkədə fəaliyyət göstərən özəl ümumtəhsil məktəbləri aşağıdakılardır:

1. «Odlar Yurdu» Universitetinin nəzdində ümumtəhsil məktəbi.
2. Qərb Universitetinin nəzdində ümumtəhsil məktəbi.
3. «Müasir Təhsil Kompleksi» nəzdində ümumtəhsil məktəbi.
4. «Ümumi Təhsil Mərkəzi – XXI əsr» Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində ümumtəhsil məktəbi.
5. Xəzər Universitetinin nəzdində ümumtəhsil məktəbi.
6. Beynəlxalq ümumtəhsil məktəbi.
7. Bakı özəl türk liseyi və filialları.
   - Bakı özəl türk liseyinin «Dədə Qorqud» filialı
   - Bakı özəl türk liseyinin Ağdaş filialı
   - Bakı özəl türk liseyinin Quba filialı
   - Bakı özəl türk liseyinin Şirvan filialı
   - Bakı özəl türk liseyinin Lənkəran filialı
   - Bakı özəl türk liseyinin Mingəçevir filialı
8. Gəncə Azərbaycan–Türkiyə özəl liseyi.
9. Şəki Azərbaycan–Türkiyə özəl liseyi.
10. Sumqayıt özəl türk liseyi.
11. «Qafqaz» Azərbaycan–Türkiyə özəl gimnaziyası.

12. «Xabad Or Avner» tədris kompleksinin nəzdində ümumtəhsil məktəbi.
13. «GÜNAR» MMC-nin nəzdində ümumtəhsil məktəbi.
14. «UNİSER» MMC-nin nəzdində ümumi orta məktəb.
15. «Tusi» müəssisəsinin nəzdində ümumi orta məktəb.
16. «Təlim» firmasının nəzdində ümumi orta məktəb.
17. Sumqayıt orta ixtisas kollecinin nəzdində gimnaziya.

Özəl ümumtəhsil məktəbləri haqqında məlumat

İllər	Müəssisələrin sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
2002/03	9	3373	492
2003/04	11	4228	658
2004/05	11	4510	705
2005/06	12	5049	818
2006/07	13	6047	915
2007/08	17	6841	1123
2008/09	17	7162	1152
2009/10	17	7128	1138
2010/11	17	6441	1142
2011/12	17	6441	1144

2.6. Təhsil Sektorunun İnkişafı Layihəsi

Azərbaycanın dövlət başçısının 8 noyabr 2001-ci il tarixli Sərəncamına əsasən II Təhsil İslahatı Layihəsinin hazırlanması üçün Azərbaycan hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında razılıq əldə olundu. Təhsil Sektorunun İnkişafı Layihəsinin hazırlanması, eləcə də Kredit sazişinin qüvvəyə minməsi üçün Azərbaycan hökuməti qarşısında qoyulmuş qüvvəyəminmə şərtlərinin yerinə yetirilməsi məqsədilə Dünya Bankı 483 min ABŞ dolları məbləğində Yaponiya hökumətinin qrantını ayırdı.

Tədqiqatların nəticələrinə və 10 illik strategiyaya uyğun olaraq 2003–2007-ci illəri əhatə edən Təhsil Sektorunun İnkişafı Layihəsinə dair zəruri sənədlər hazırlandı. Proqram və onun birinci mərhələsi üzrə 2003-cü ilin aprelində ABŞ-da, Vaşinqton şəhərində Dünya Bankı və Azərbaycan hökumətinin nümayəndə heyəti arasında yekun danışıqlar aparıldı və Razılaşma Protokolu imzalandı.

On illik strategiyanın əsas məqsədi ümumi təhsilin keyfiyyətinin yüksəldilməsini təmin etməkdən ibarət idi və onun üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu:

Birinci mərhələ – 2003–2007-ci illər;

İkinci mərhələ – 2007–2010-cu illər;

Üçüncü mərhələ – 2010–2013-cü illər.

Birinci mərhələnin, yəni 2003–2007-ci illəri əhatə edən Təhsil Sektorunun İnkişafı Layihəsinin həyata keçirilməsi üçün Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən 18 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayrıldı. Azərbaycan hökumətinin Layihədəki iştirak payı 2,8 milyon ABŞ dolları təşkil edirdi. Donor təşkilat kimi Açıq Cəmiyyət İnstitutunun (Azərbaycan) Layihəyə texniki yardım göstərmək məqsədilə təxminən 200 min ABŞ dolları məbləğində vəsait qoyuluşu da nəzərdə tutulmuşdu. İslahatlar aşağıdakı istiqamətlərdə həyata keçirilməli idi:

I Komponent: Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu.

1.1. Kurikulum islahatı;

1.2. Müəllim hazırlığı;

1.3. Dərsliklər və oxu materialları.

II Komponent: Səmərəlilik və maliyyə islahatları.

2.1. Maliyyələşdirmə və büdcə islahatları;

2.2. Rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi.

III Komponent: Məktəb Qrantı Proqramı.

IV Komponent: İdarəetmə, Planlaşdırma və Monitorinq.

4.1. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemi;

4.2. Təhsilin İdarəolunmasının Məlumat Sistemləri (TİMS);

4.3. İdarəetmə və planlaşdırma imkanları.

V Komponent: Layihənin Əlaqələndirilməsi və Monitorinqi.

2003-cü ildən başlayaraq təhsil islahatları çərçivəsində eksperimentlərin aparılması, yeniliklərin və innovasiyaların tətbiqi məqsədilə bir sıra məktəblər, lisey və gimnaziyalar Təhsil Nazirliyinin birbaşa tabeliyinə verildi. İlkin mərhələdə Yasamal rayonu Bakı Avropa Liseyi, Səbail rayonu 6№-li məktəb, Nəsimi rayonu 41№-li məktəb, Nərimanov rayonu 66 və 77№-li məktəblər Nazirliyin birbaşa tabeliyinə verilməklə buradan maliyyələşməyə başlandı.

Bakı Avropa Liseyinin maddi-texniki və tədris bazası əsaslı şəkildə yeniləşdirildi, onunla eyni ərazidə yerləşən Yasamal rayonu 199№-li məktəbin binası da lisey üçün ayrıldı. Liseydə yalnız infrastruktur dəyişiklikləri deyil, həm də məzmun dəyişiklikləri baş verdi. Burada xüsusi təhsil modelinin tətbiqi daha da genişləndirildi.

Səbail rayonu 6№-li məktəbin bazasında «İntellekt» məktəb-liseyi təşkil edildi. Təhsil müəssisəsinin yeni tədris planları təsdiq edildi, burada riyaziyyat və informatika fənləri təmayül fənləri kimi tədris edilməyə başlandı.

Təhsil Sektorunun İnkişafı Layihəsinin həyata keçirildiyi 2003–2008-ci illərdə Azərbaycanda təhsilin inkişafı sahəsində son dərəcə əhəmiyyətli nailiyyətlər əldə olundu, islahatlar davamlı xarakter aldı.

Ölkənin təhsil tarixində ilk dəfə olaraq yeni Milli Kurikulum – milli təhsil konsepsiyası sənədi hazırlandı. Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş bu sənəd əsasında ibtidai siniflər və ayrı-ayrı fənlər üzrə kurikulumların hazırlanaraq 2008/09-cu tədris ilindən tətbiq edilməsi nəzərdə tutulurdu. Bununla yanaşı, bu dövrdə dünya təcrübəsinə uyğun olaraq, ümumtəhsil sahəsində şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə tam yeni bir sistem tətbiq edildi. Mövcud müəllim hazırlığı sistemində köklü dəyişikliklər aparıldı və yeni kurikulumlar əsasında müəllim hazırlığına başlanıldı.

2005-ci ildən etibarən təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən İKT tətbiq edilməyə başlanıldı. Məhz bu dövrdə Azərbaycanın bütün ümumtəhsil məktəbləri kompyuterləşdirildi ilk dəfə olaraq elektron tədris resursları təcrübəyə gətirildi. Hazırda təlim prosesində və idarəetmədə İKT geniş tətbiq olunmaqdadır.

Bu dövrdə ən əhəmiyyətli məqamlardan biri də yeni dərslik siyasətinin həyata keçirilməsi idi. Ölkənin bütün ümumtəhsil məktəblərinin şagirdləri milli-mənəvi və bəşəri dəyərlərə uyğun, yüksək poliqrafik keyfiyyətlə hazırlanmış və çap olunmuş dərsliklərlə pulsuz təmin olunurdu.



Bakı Avropa Liseyi. 2010-cu il



«Tərəqqi» liseyi (Bakı şəhərinin keçmiş 66№-li məktəbi)



«Ankara məktəbi» məktəb-liseyi (Bakı şəhərinin keçmiş 77№-li məktəbi)

Ölkənin təhsil müəssisələrinin maddi-texniki bazası hiss olunacaq dərəcədə möhkəmləndi. Son on ildə 2000-dən çox yeni müasirtipli məktəb binası tikildi və ya əsaslı təmir edildi. Məktəblərin avadanlıq və əyani vəsaitlə təminatında irəliyə doğru ciddi addımlar atıldı. Xüsusi qeyd etmək istəyirəm ki, Dünya Bankının ekspertləri növbəti layihəyə keçid şərtləri kimi müəyyənləşdirilmiş bütün məsələlərin həll edildiyini yüksək qiymətləndirdilər.

Ümumilikdə, Təhsil Sektorunun İnkişafı Layihəsinə ayrılmış vəsaitlər 31 avqust 2008-ci il tarixi vəziyyətinə aşağıdakı kimi xərclənmişdi.

Dünya Bankının kredit vəsaitləri (ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclənmişdir	Qalıq
1.	Təmir işləri	10606336	10415952	190384
2.	Mal-material xərcləri	4302040	3317534	984506
3.	Məsləhətçi xidmətləri və audit	3356320	2923373	432947
4.	Treninq və tədris səfərləri	971526	791154	180372
5.	Məktəb Qrantı Proqramı	667924	634333	33591
6.	Əməliyyat xərcləri	133585	132204	1381
Cəmi:		**20037731**	**18214550**	**1823181**

Azərbaycan hökumətinin iştirak payı (ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclənmişdir	Qalıq
1.	Təmir işləri	12051336	11836533	214803
2.	Mal-material xərcləri	4897040	3906497	990543
3.	Məsləhətçi xidmətləri və audit	3986320	3492637	493683
4.	Treninq və tədris səfərləri	971526	791154	180372
5.	Məktəb Qrantı Proqramı	827924	792916	35008
6.	Əməliyyat xərcləri	203585	195633	7952
Cəmi:		**22937731**	**21015370**	**1922361**

Layihəyə ayrılmış ümumi vəsaitlərin xərc cədvəli (ABŞ dolları ilə)

№	Kateqoriya	Ayrılmışdır	Xərclənmişdir	Qalıq
1.	Təmir işləri	1445000	1420581	24419
2.	Mal-material xərcləri	595000	5880963	6037
3.	Məsləhətçi xidmətləri və audit	630000	569264	60736
4.	Treninq və tədris səfərləri	–	–	–
5.	Məktəb Qrantı Proqramı	160000	158583	1417
6.	Əməliyyat xərcləri	70000	63429	6571
Cəmi:		**2900000**	**8092820**	**99180**

Təhsil Nazirliyinin islahatlar sahəsində uğurlu fəaliyyətini və TSİL çərçivəsində yeni kurikulumlar, şagird nailiyyətlərinin qiymətləndirilməsi, adambaşına maliyyələşmə mexanizmi və müəllim hazırlığı üzrə yeni konsepsiya və strategiyanın tətbiqi sahəsində tədbirlərin gücləndirilməsini və bu istiqamətdə islahatların davam etdirilməsi zərurətini nəzərə alaraq, Dünya Bankı 2009–2014-cü illərdə yeni Layihənin həyata keçirilməsini təklif etdi.

Proqrama Uyğunlaşdırılmış Kredit çərçivəsində birinci layihənin (Təhsil Sektorunun İnkişafı Layihəsi) davamı olaraq İkinci Layihənin maliyyələşdirilməsi məqsədilə Dünya Bankı tərəfindən kreditin ayrılması üçün Azərbaycan hökumətinin nümayəndə heyəti ilə Dünya Bankı arasında 1–3 mart 2008-ci il tarixlərində aparılan danışıqlar uğurla başa çatdırıldı. Danışıqların nəticəsi olaraq, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında protokol imzalandı və Layihə Dünya Bankının direktorlar şurası tərəfindən 2008-ci ilin aprel ayında təsdiq edildi.

2008-ci ilin sentyabrında Azərbaycanla Dünya Bankı arasında 2-ci Kredit sazişi imzalandı.

Layihəyə ayrılmış 45,4 milyon ABŞ dolları məbləğində vəsaitin 25,0 milyonu Dünya Bankının krediti, 20,4 milyon ABŞ dolları isə Azərbaycan hökumətinin layihədəki iştirak payı idi.



Azərbaycan hökuməti və Dünya Bankı arasında 2-ci Kredit Sazişinin imzalanması. Sağda: Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Qreqori Yedjeyçak. Sentyabr, 2008-ci il

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin əsas məqsədi ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yüksəldilməsi və ümumi təhsilə ayrılmış xərclərin səmərəliliyinin artırılmasından ibarət idi. Layihə 2009–2014-cü illəri əhatə edir və aşağıdakı komponent və alt komponentlərdən ibarətdir:

Komponent 1. Ümumi təhsil üzrə kurikulumun icrasına və digər kurikulum islahatlarına dəstək.

1.1. Kurikulum islahatının davam etdirilməsi və kurikulumun tətbiqinə dəstək. (Alt komponentin koordinatoru Nazirliyin Kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri Aydın Əhmədovdur.)

Əsas vəzifələr:

- V–XI sinif kurikulumlarının təsdiqi və tətbiqi.
- Ümumtəhsil kurikulumlarının mənimsənilməsinə dəstək.
- Məktəbəqədər təhsil kurikulumunun hazırlanması.
- İlk peşə-ixtisas təhsili üzrə yeni peşə-ixtisas klassifikatorunun və seçilmiş ixtisaslar üzrə yeni kurikulumların hazırlanması.

1.2. Yeni tədris materiallarının hazırlanması, məktəb kitabxanalarının müasirləşdirilməsi (Alt komponentin koordinatoru Nazirliyin Dərslik və nəşriyyat şöbəsinin müdiri Faiq Şahbazlıdır).

Əsas vəzifələr:

- Məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi.
- Mövcud tədris və təlim materiallarının birbaşa müqavilə əsasında satınalınması və məktəb kitabxanalarına çatdırılması.
- Yeni kurikulumun tətbiqi ilə bağlı əlavə tədris materiallarının hazırlanması və internet portalında yerləşdirilməsi.

Komponent 2. Pedaqoji kadrların əlavə təhsil sisteminin müasirləşdirilməsi. (Komponentin koordinatoru Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin Əlavə təhsil sektorunun müdiri Zöhrab Kəlbəliyevdir.)

Əsas vəzifələr:

- Əlavə təhsil müəssisələrinin təmiri, onların mebel və İKT avadanlıqları ilə təchizi.
- Yeni ümumtəhsil kurikulumlarının tətbiqi ilə bağlı əlavə təhsil tədbirlərinin həyata keçirilməsi.
- Əlavə təhsil üzrə xidmətlərin təklifində alternativliyin yaradılması.
- Əlavə təhsil sistemində distant təhsilin tətbiqi.
- Yeni məktəbəqədər təhsil kurikulumlarının tətbiqi ilə bağlı əlavə təhsil tədbirlərinin yerinə yetirilməsi.

Komponent 3. Təhsilin idarəolunmasında təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi nəticələrindən istifadə. (Komponentin koordinatoru Nazirliyin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyevadır.)

Əsas vəzifələr:

- PISA–2009, PISA–2012 və TIMSS–2011 şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramlarında iştirak.
- Şagird nailiyyətlərinin milli qiymətləndirilməsi.
- Ümumtəhsil sistemində buraxılış imtahanları nəticəsində təhsil sənədlərinin verilməsi sisteminin təkmilləşdirilməsi.

- Yeni məktəbdaxili qiymətləndirmə sisteminin hazırlanması və sınaqdan keçirilməsi.

Komponent 4. Məktəbə hazırlığın inkişaf etdirilməsi. (Komponentin koordinatoru Nazirliyin Məktəbəqədər təhsil sektorunun müdiri Nərminə Alnağıyevadır.)

Əsas vəzifələr:

- Qısamüddətli qruplarda məktəbə hazırlıq proqramının və valideynlərin maarifləndirilməsi proqramının Xətai, Xızı, Quba, Şamaxı, Lənkəran və Füzuli rayonlarında pilot olaraq sınaqdan keçirilməsi.
- Qısamüddətli qruplarda məktəbə hazırlıq proqramının və valideynlərin maarifləndirilməsi proqramının sınaq nəticələrinin təhlili və təhsil siyasətində nəzərə alınması.

Komponent 5. Təhsil siyasətinin hazırlanması və idarəolunması imkanlarının gücləndirilməsi.

5.1. Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi. (Alt komponentin koordinatoru Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri Fərzəli Qədirovdur.)

Əsas vəzifələr:

- Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi məqsədilə struktur dəyişikliklərinin davam etdirilməsi.
- Müəllimlərin işə qəbulu (fəaliyyətinin lisenziyalaşdırılması) və fəaliyyətinin qiymətləndirilməsi qaydalarının təkmilləşdirilməsi.
- Təhsil sistemində strateji planlaşdırmanın və yeni hesabatvermə sisteminin tətbiqi.
- İdarəetmə üzrə mütəxəssislərin hazırlanması strategiyasının işlənilməsi.
- Rəhbər təhsil işçilərinin idarəetmə bacarıqlarının artırılması.

5.2. TİMS-in ölkə səviyyəsində həyata keçirilməsi və ondan istifadənin genişləndirilməsi. (Alt komponentin koordinatoru Nazirliyin təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsinin müdiri İsmayıl Sadıqovdur.)

Əsas vəzifələr:

- Mövcud TİMS-in yeni platformaya keçirilməsi.
- TİMS modullarının artırılması və sistemin təkmilləşdirilməsi.
- TİMS şəbəkəsinin qurulması.
- Təhsil Nazirliyi və rayon (şəhər) təhsil şöbələrində TİMS-in qurulması və istifadəçilərin hazırlığı.
- TİMS-in idarəetmə strukturunun təkmilləşdirilməsi.
- Məktəb idarəetmə məlumat sisteminin qurulması.

5.3. Məktəb şəbəkəsinin rasionallaşdırılması, adambaşına maliyyələşdirmə islahatları. (Alt komponentin koordinatoru Nazirliyin Iqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyevdir.)

Əsas vəzifələr:

- Məktəb şəbəkəsinin rasionallaşdırılması qaydasının müəyyənləşdirilməsi.
- Ölkə üzrə məktəb şəbəkəsinin rasionallaşdırılması üzrə müvafiq proqramın hazırlanması.
- Ölkə üzrə məktəb şəbəkəsinin rasionallaşdırılması üzrə müvafiq proqramın icrasına dəstək.

- Adambaşına maliyyələşmə üzrə aparılan islahatların qiymətləndirilməsi.

5.4. Təhsil islahatlarına dair ictimaiyyətin məlumatlandırılması. (Alt komponentin koordinatoru Nazirliyin İctimaiyyətlə əlaqə şöbəsinin müdiri Bayram Hüseynzadədir.)

Əsas vəzifələr:

- TSİL çərçivəsində aparılan islahatlar barədə ictimaiyyətin məlumatlandırılması.
- TSİL çərçivəsində aparılan islahatlar haqqında ictimaiyyətin xüsusi tədbirlər vasitəsilə məlumatlandırılması üçün «Xəzər» və «İctimai Televiziya» kanalları ilə birbaşa müqavilələrin bağlanılması.
- Təhsil Nazirliyi daxilində və xaricində KİV-lə məşğul olan mütəxəssislərin ixtisasının artırılması və maarifləndirilməsi.
- TSİL çərçivəsində mətbuatda dərc olunan yazıların, telekanallarda verilən süjetlərin monitorinqinin aparılması.

Komponent 6. Layihənin Əlaqələndirilməsi, Monitorinqi və Qiymətləndirilməsi. (Komponentin koordinatoru LƏQ-in direktoru Elvin Rüstəmovdur.)

Əsas vəzifələr:

- Layihənin əlaqələndirilməsi.
- Layihənin monitorinqi və qiymətləndirilməsi.
- Layihə üzrə satınalmaların Dünya Bankının qaydalarına uyğun təşkili.
- Layihənin maliyyə idarəetməsi.

Təhsil Nazirliyi və Dünya Bankının Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009–2014-cü illər) milli koordinatoru nazir müavini İsgəndər İsgəndərov idi.

Layihə çərçivəsində görüləcək işlərin səmərəsini yüksəltmək məqsədilə ikinci mərhələdə də məktəblərin lisey və gimnaziyalara çevrilməsi işi davam etdirildi. Nəsimi rayonu 41№-li məktəbin bazasında Elitar gimnaziya yaradıldı. Bu tədris müəssisəsinin də yeni tədris planları təsdiq edildi. 2009-cu ildə ölkə Prezidentinin Sərəncamına əsasən gimnaziyanın binası əsaslı təmir və bərpa edildi.

Nərimanov rayonu 66№-li məktəbin bazasında «Tərəqqi» liseyi yaradıldı. Liseyin yeni tədris planları hazırlandı. İnfrastruktur əsaslı şəkildə yeniləşdirildi. Nərimanov rayonu 77№-li məktəbin bazasında isə «Ankara məktəbi» məktəb-liseyi təşkil edildi. 2008-ci ildə təhsil müəssisəsinin binası əsaslı təmir edildi, müasir avadanlıqlarla təchiz olundu. 2008/09-cu tədris ilinin ilk günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılış mərasimi oldu.

Sonrakı mərhələdə isə Nizami rayonu 289№-li «Zəngi» liseyi və Səbail rayonu 132 və 134№-li məktəblər Təhsil Nazirliyinin birbaşa tabeliyinə verildi. Həmin məktəblərin bazasında 132–134№-li təhsil kompleksi yaradıldı.

Haşiyə çıxaraq oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, bu məktəblərin yerləşdiyi bina tarixi binadır. Onun tikintisi 1881-ci ildə başlamış, 1886-cı ildə başa çatmışdır. Həmin ildə Müqəddəs Nina məktəbi bu binaya köçmüş (bu məktəb 1861-ci ildə yaradılmışdı) və 1918-ci ilədək bu adla fəaliyyət göstərmişdir. Gimnaziya tipli bu təhsil ocağında çox məhdud sayda azərbaycanlı qızlar da oxuyurdular. Azərbaycan təhsilinin inkişafında böyük xidmətləri olan ziyalı qadınlarımız Məryəm Bayraməlibəyova, Ayna Sultanova, Sara Vəzirzadə, Yaxşıxanım Mahmudova,



Prezident İlham Əliyev Bakı şəhəri 6№-li məktəbin açılışında öz müəllimləri ilə görüşərkən. 15 sentyabr 2011-ci il. Soldan: müəllimlər Emma Kazımova, Lyudmila Franseva və məktəbin direktoru Gülşən Orucova

Sona Axundova və başqaları Müqəddəs Nina məktəbini əla qiymətlərlə bitirmişdilər. 1937-ci ilədək bu binada bir beynəlmiləl məktəb fəaliyyət göstərmiş, 1937-ci ildən 132№-li (Azərbaycan) və 134№-li (rus) olmaqla iki məktəb kimi fəaliyyətini davam etdirmişdir.

2009/10-cu tədris ilində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi Sərəncamı ilə məktəblərin binasında əsaslı təmir və yenidənqurma işləri aparılmış, burada beynəlxalq standartlara uyğun təhsil almaq üçün hər çür şərait yaradılmışdır. Ən müasir kompyuterlərlə təchiz olunmuş informatika otaqları, linqafon kabinetləri, hər cür tədris vəsaitlərilə təchiz olunmuş fənn kabinetləri, laboratoriyalar, idman zalları, emalatxanalar şagirdlərin ixtiyarına verilmişdir. Binanın möhtəşəm gözəlliyi şəhərə xüsusi yaraşıq verir.

2010-cu ildə ölkə Prezidentinin sərəncamına əsasən Səbail rayonu 6№-li məktəbin bazasında təşkil edilmiş «İntellekt» məktəb-liseyin binasının yerində müasir standartlara uyğun yeni kompleksin inşasına başlanıldı. Yeni binanın tədris sahəsi 2 dəfəyədək artırıldı. Müasir tələblərə cavab verən fənn kabinetləri, idman, akt zalı, yeməkxana, məktəbin tarixini əks etdirən muzey yaradıldı. 2011-ci il sentyabrın 15-də Prezident İlham Əliyevin iştirakı ilə məktəb binasının açılışı oldu və bina istifadəyə verildi.



Bakı şəhəri 6№-li məktəbin yeni binası



Bakı şəhəri Elitar gimnaziyanın binası əsaslı təmirdən sonra



Bakı şəhəri «Ankara məktəbi» məktəb-liseyinin binası əsaslı təmirdən sonra




Bakı şəhəri 132–134№-li təhsil kompleksinin binası əsaslı təmirdən sonra



Bakı şəhəri Nərimanov rayonunda yeni inşa edilmiş 325№-li məktəbin binası



Naxçıvan şəhəri Heydər Əliyev adına məktəbin binası



Bakı şəhəri Akademik Zərifə Əliyeva adına məktəbin binası

2.7. Təhsil Sektorunun İnkişafı üzrə Layihə çərçivəsində ümumi təhsil sistemində maliyyə islahatları

Dünyanın inkişaf etmiş ölkələrində təhsil müəssisələrinin maliyyələşdirilməsi daim diqqət mərkəzində olmuş, dövlət tərəfindən ayrılan vəsaitlərdən daha səmərəli istifadə yolları axtarılmışdır. Eyni zamanda təhsilə yönəldilən vəsaitlərin keyfiyyətlə bilavasitə bağlılığı və onun yüksəldilməsinə təsirləri də daim iqtisadi tədqiqatların mövzusu olmuşdur. Adambaşına maliyyələşmə ideyası ilk dəfə ötən əsrin 50-ci illərində Amerika alimi Milton Fridmen tərəfindən irəli sürülmüşdür. Bu ideya 3 məqsəd daşımışdır:

1. Ümumi təhsil sistemində rəqabət mühitinin yaradılması, məktəblərdə inkişaf proseslərinin və innovasiyaların stimullaşdırılması;
2. Məktəbin müstəqilliyinin artırılması;
3. Məktəbə ayrılmış büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması.

Sonradan dünyanın əksər ölkələri məktəblərdə adambaşına maliyyələşmə mexanizminin tətbiqi istiqamətində tədbirlər həyata keçirmişlər. Kanadada 1980-ci illərin ortalarından, Böyük Britaniya və İsveçdə 1988-ci ildən, ABŞ, Avstraliya, Niderland, Yeni Zelandiya və Bolqarıstanda 1990-cı ildən, Finlandiyada 1993-cü ildən, Polşada 1994-cü ildən, İslandiyada 1995-ci ildən, Litvada 2002-ci ildən, Gürcüstanda 2005-ci ildən ümumi təhsil sistemində adambaşına maliyyələşmə (vauçer) mexanizminə keçilmişdir. Hazırda dünyanın, demək olar ki, bütün inkişaf etmiş ölkələrində bu sistem tətbiq edilməkdədir. 2005-ci ildən Rusiya Federasiyasında Dünya Bankının layihəsi çərçivəsində bir neçə vilayətdə, Tacikistanda 5 rayonda yeni maliyyə mexanizminin tətbiqinə başlanmışdır.

Azərbaycanda Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı üzrə Layihə (2003–2008-ci illər) çərçivəsində ümumi təhsil sistemində maliyyə islahatlarına 2003-cü ildən başlanmışdır.

İslahatların məqsədi məktəb büdcəsinin bir şagirdə ayrılan maliyyələşdirmə prinsipi əsasında formalaşması mexanizminin tətbiqi və bu prinsip əsasında məktəbə ayrılmış büdcə vəsaitlərinin idarə olunmasında məktəblərə müstəqilliyin verilməsindən ibarət idi. İlkin mərhələdə islahatlara hazırlıq və beynəlxalq təcrübənin öyrənilməsi nəzərdə tutulmuşdu. Bu məqsədlə büdcə islahatlarına hazırlıq üzrə müvafiq işlərin görülməsi ilə bağlı Təhsil və Maliyyə Nazirliklərinin nümayəndələrindən ibarət işçi qrupu yaradıldı. İslahatların həyata keçirilməsinə texniki yardım göstərmək üçün beynəlxalq və milli məsləhətçilər seçilib işə cəlb olunmuşdular.

Məktəblərə maliyyə müstəqilliyinin verilməsi məqsədilə Maliyyə Nazirliyi ilə əldə edilən razılaşmaya uyğun olaraq, 2005-ci ildən etibarən 3 pilot rayonunda 59 məktəbə (Ucar rayonunda 20, Şirvan şəhərində 14, İsmayıllı rayonunda 25) ayrıca xəzinə-hesab kitabları açılmışdı və məktəblərə mühasib ştatları verilmişdi. Pilot məktəblərinə Şirvan şəhəri üzrə 14 mühasib ştatı (7 vahid təhsil şöbəsinin mərkəzləşdirilmiş mühasibatlığının ştatları hesabına, 7 vahid əlavə), İsmayıllı rayonu üzrə 25 mühasib ştatı (3 vahid təhsil şöbəsinin mərkəzləşdirilmiş mühasibatlığının ştatları hesabına, 22 vahid əlavə) və Ucar rayonu üzrə 20 mühasib ştatı (4 vahid təhsil şöbəsinin mərkəzləşdirilmiş

mühasibatlığının ştatları hesabına, 16 vahid əlavə) ayrıldı.

Beynəlxalq təcrübə ilə tanışlıq məqsədilə Təhsil və Maliyyə nazirliklərinin əməkdaşlarından ibarət nümayəndə heyəti Böyük Britaniyada tədris səfərində olmuş və məktəblərin maliyyələşdirilməsi, məktəb büdcələrinin adambaşına maliyyələşdirmə prinsipi əsasında tərtibi və adambaşına maliyyələşdirmə mexanizmlərinin tətbiqi ilə əyani şəkildə tanış olmuşdular.

Yeni maliyyələşmə mexanizminin tətbiqinə başlanmazdan əvvəl Təhsil Nazirliyi beynəlxalq ekspertlərlə birlikdə ciddi araşdırmalar aparmış, adambaşına maliyyələşmə düsturunu müəyyən etmiş. Maliyyə Nazirliyi ilə çoxsaylı müzakirələr aparmışdı. Eksperimentə 2007-ci ildən başlanıldı. Düsturda büdcənin tərtibi zamanı şagirdlərin sayı, məktəbin hər sinifdə həftəlik tədris yükü (stavka) norması, illik orta əmək haqqı xərci, fərdi təhsil alan şagirdlərin sayı və fərdi təhsil üzrə tədris yükü (stavka) norması, qeyri-pedaqoji işçilər üçün bir şagirdə ayrılan illik xərc norması, qeyri-əmək haqqı xərc maddələri üzrə adambaşına illik xərc normalarının cəmi, sabit məbləğ (bir şagirdə ayrılan xərc normalarına daxil edilməyən xərclər) parametrləri nəzərə alınmışdı.

Pilot rayonlarının maliyyə müstəqilliyi verilmiş ümumtəhsil məktəbləri üçün Məktəb Şurası haqqında Əsasnamə hazırlanmış və Nazirliyin müvafiq əmri ilə təsdiq olunmuşdu. Məktəb şuralarının işi gücləndirilmiş, məktəb büdcəsinin formalaşması, idarəolunması və məktəbin maliyyə vəsaitinin xərclənməsində şuraların rolu artırılmışdı. Əsasnamə ilə Məktəb Şurasının idarəetmə proseslərində fəal iştirakına şərait yaradılmış, Məktəb Şurası qərarların qəbul edilməsində həlledici səs hüququ qazanmışdı.

Bu məsələ ilə bağlı mübahisə və müzakirələr iki ilə yaxın davam etdi. Aparılan işlərin nəticəsi olaraq pilot rayonlarının maliyyə müstəqilliyi verilmiş 59 ümumtəhsil məktəbinin maliyyələşdirilməsinin bir şagirdə ayrılan maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Təhsil Sektorunun İnkişafı Layihəsinin Maliyyələşdirmə və büdcə islahatları alt komponentinin icrası haqqında» 22 fevral 2007-ci il tarixli qərarı verildi.

Qərarın icrası ilə bağlı pilot rayonların maliyyə müstəqilliyi verilmiş ümumtəhsil məktəblərinin direktorları, məktəblərin baş mühasibləri, məktəb şuralarının sədrləri və üzvləri, rayon (şəhər) təhsil şöbələrinin əməkdaşları üçün Şirvan şəhərində, İsmayıllı və Ucar rayonlarında məktəb büdcəsinin bir şagirdə ayrılan maliyyələşdirmə prinsipi əsasında hazırlanması, məktəbin maliyyəsinin idarə edilməsində məktəb şuralarının rolu, məktəbin xərclər smetasının hazırlanması, məktəb büdcəsinin məktəbin strateji planı ilə əlaqələndirilməsi və məktəb şurası tərəfindən məktəbin büdcəsinin təhlil edilməsi və qiymətləndirilməsi mövzularında seminarlar keçirildi. Nazirlər Kabinetinin qərarına uyğun olaraq, pilot rayonlarının maliyyə müstəqilliyi verilmiş 59 ümumtəhsil məktəbinin 2007 və 2008-ci il üçün büdcələri bir şagirdə ayrılan maliyyələşdirmə prinsipi əsasında hazırlanmışdı.

Bu məsələyə aydınlıq gətirmək məqsədilə eyni məktəbin 2006-cı ildə ənənəvi qayda ilə, 2007-ci ildə isə adambaşına maliyyələşdirmə düsturu əsasında tərtib edilmiş büdcəsini təqdim etmək yerinə düşər.

Şirvan şəhər 18№-li məktəbin büdcəsi
(manatla)

№	Təsnifat		2006-cı ilin mövcud smetası	2007-ci il üçün məktəbə düsturla ayrılmış büdcənin tərtibi (şagird sayı 1474 nəfər)
1.	211100	Ştatda olan işçilərin əmək haqqı	173000	173000
2.	211400	Əməyin ödənişi üzrə nəzərdə tutulan artım		
3.	212100	Dövlət Sosial Müdafiə Fonduna ayırmalar	39226	39226
4.	221100	Dəftərxana və təsərrüfat xərcləri	700	4500
5.	221200	Mətbəə xərcləri		3000
6.	221310	İdarənin digər xərcləri		3000
7.	221320	Cari təmir		7000
8.	222000	Ezamiyyə xərcləri	600	
9.	222110	Ölkədaxili ezamiyyə: gündəlik yemək xərci		1200
10.	222120	Ölkədaxili ezamiyyə: mehmanxana (mənzil) və yol xərcləri		2200
11.	222210	Xarici ezamiyyə: gündəlik yemək xərci		1500
12.	222220	Xarici ezamiyyə: mehmanxana (mənzil) və yol xərcləri		3500
13.	223100	Yanacaq və sürtkü materiallarının alınması		
14.	223200	Digər nəqliyyat xidmətləri		2000
15.	224100	Elektrik enerjisi haqqının ödənilməsi	1500	3000
16.	224200	Qaz haqqının ödənilməsi	900	300
17.	224300	Su haqqının ödənilməsi	900	3500
18.	224400	İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi	1400	500
19.	224500	Kanalizasiya xidmətləri haqqının ödənilməsi	350	1850
20.	224600	Digər kommunal xidmətləri haqqının ödənilməsi	200	500
21.	224700	Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər		
22.	224810	Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi	90	300
23.	224820	Beynəlxalq telefon danışıq haqlarının ödənilməsi		200

24.	224910	Poçt xidmətləri haqqının ödənilməsi		300
25.	224920	İnternet xidmət haqqının ödənilməsi		400
26.	225200	Yataq ləvazimatları və xüsusi geyimlərin alınması	300	2750
27.	225300	Ərzaq məhsullarının alınması		
28.	225411	İnventarın alınması	3500	7000
29.	225412	Avadanlığın alınması		8000
30.	225413	Digər alışlar və xidmətlər		
31.	271100	Təqaüdlər	100	
32.	274300	İş qabiliyyətini müvəqqəti itirməyə görə müavinətlər	300	
33.	274830	Digər müavinətlər və transferlər	650	
34.	282100	Sair xərclər	2000	6000
35.	282230	Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri		
36.	282300	Bank xərcləri	350	472
37.	311210	Nəqliyyat vasitələri		
Cəmi:			**226066**	**275198**

Cədvəldən göründüyü kimi, bu məktəbin 2006-cı il büdcəsi 226066 manat, yəni bir şagird üçün 153.37 manat təşkil etmişdir. Məktəbin büdcəsi düsturla hesablanmaqla isə bu məbləğ 2007-ci ildə 275198 manat, yəni bir şagird üçün 186.70 manat təşkil etmişdir. Beləliklə, düsturun tətbiqi məktəbə adekvat vəsaitin verilməsinə şərait yaratmaqla təhsilin keyfiyyətinin yüksəldilməsi üçün əlavə imkanlar yaradır. Təhlil göstərmişdir ki, maliyyə müstəqilliyi şəraitində bu məktəb bəzi maddələrdən əldə olunan qənaəti və düsturun əlavə etdiyi vəsaiti aşağıdakı qaydada daha səmərəli xərcləyə bilir.

2006-cı ildə məktəbin mövcud smetasında dəftərxana və təsərrüfat xərcləri üçün 700 manat vəsait nəzərdə tutulmuşdur, mətbəə xərclərinə isə vəsait ayrılmamışdır. Həmin vəsaitin məktəbin ehtiyaclarını ödəmək üçün az olduğu nəzərə alınaraq, 2007-ci ildə dəftərxana (təsərrüfat) və mətbəə xərcləri məqsədilə 7500 (4500+3000) manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Həmin vəsaitin müxtəlif tədbirlərin keçirilməsinə, monitorinqlərin aparılmasına, materialların çap edilməsinə, əyani vəsaitlər və didaktik materialların alınmasına yönəldilməsi nəzərdə tutulmuşdur.

2006-cı ildə bütün ezamiyyə xərcləri üçün ayrılmış 600 manat əvəzinə 2007-ci ildə tələbatın 8400 manat olduğu müəyyənləşdirilmişdir. Bu vəsait məktəblərarası, ölkədaxili və ölkələrarası əməkdaşlığı təmin etmək, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə ezamiyyələrin təşkilinə imkan verir.

İKT proqramına müvafiq olaraq məktəbdə 2 kompyuter sinfinin yaradılması ilə bağlı elektrik enerjisinə tələbatın xeyli artması ehtimalını nəzərə alaraq, məktəbin smetasında 2006-cı il üçün nəzərdə tutulan 1500 manat əvəzinə 2007-ci ildə tələbat 3000 manat müəyyənləşdirilmişdir.

Məktəbə qaz haqqının ödənilməsi üçün 2006-cı ilin smetasında 900 manat, istilik sistemi xərclərini ödəmək üçün 1400 manat ayrılmışdır. Araşdırma göstərmişdir ki, məktəbin istilik sisteminin normal işləməsi üçün həmin vəsait kifayət etmir. Lakin 2006-cı ildə məktəbə, ümumiyyətlə, qaz verilmədiyi üçün həmin vəsaitdən istifadə edilməmişdir. Həmin ildə məktəbin səlahiyyəti olsaydı, bu vəsaiti digər məqsədlər üçün səmərəli istifadə edərdi.

Məktəbin 2006-cı il smetasında su haqqının ödənilməsi üçün ayrılmış 900 manat məktəbin tələbatını ödəmir. Məktəbin ehtiyaclarının real ödənilməsi üçün 2007-ci ildə bu vəsait 3500 manat hesablanmışdır.

Telefon xərclərini ödəmək üçün 2006-cı il smetasında məktəbə 90 manat vəsait ayrılmışdır. Bu vəsait məktəbin 2 telefon nömrəsinin abunə haqqının ödənilməsi üçün ancaq çatır. Halbuki normal fəaliyyət üçün şəhərlərarası danışıq xərclərinə, İnternet xidmətlərinin ödənilməsinə ciddi ehtiyac vardır. Bununla əlaqədar 2007-ci ildə ölkədaxili telefon danışıqları üçün 300, beynəlxalq danışıqlar üçün 200, İnternet xidmətləri üçün 400 manat nəzərdə tutulmuşdur.

2006-cı ilin smetasında bərk inventar və avadanlıq üçün 3500 manat ayrılmışdır. Məktəbdə laboratoriya və digər avadanlıqlara, kitabxananın zənginləşdirilməsinə böyük ehtiyac olduğu üçün 2007-ci ildə müvafiq maddələrdə 15000 manat vəsait nəzərdə tutulmuşdur. Bu dəyişikliklər məktəbdə əlverişli təlim mühitinin formalaşmasına şərait yaradır, məktəbin kənar müdaxilələrdən asılılığını azaldır, neqativ hallara son qoyur. Onu da qeyd etmək lazımdır ki, mövcud maliyyələşmə sistemində ümumtəhsil məktəblərinə ayrılan büdcənin 20%-i istifadə edilməmiş qalır və ilin sonunda dövlət büdcəsinə silinir. Yeni maliyyələşmə mexanizminə əsasən isə nəzərdə tutulmuş büdcə real ehtiyaclara əsaslandığına görə tam xərclənir.

Qeyd edilənlərdən aydın olur ki, mövcud maliyyələşdirilmədən fərqli olaraq adambaşına maliyyələşdirmə bir sıra üstünlüklərə malikdir:

- məktəblərin maliyyələşməsi sahəsində subyektivlik halları aradan qaldırılır. Hazırda məktəblərin maliyyələşməsi ötən ilin büdcəsinə istinadən aparılır. Yeni sistemdə isə maliyyələşmə mövcud imkanlar çərçivəsində məktəbin ehtiyaclarının daha real nəzərə alınmasına imkan verən vahid düstur əsasında müəyyənləşdirilir;
- büdcənin tərtibində məktəb rəhbərliyinin iştirakı təmin edilir. Nəzərdə tutulan maliyyə vəsaitinin məktəblərin ehtiyaclarına daha səmərəli yönəldilməsi imkanı yaranır. Təhsilin keyfiyyətinə bilavasitə təsir edən müəllimlərin ixtisasartırmasının daha səmərəli təşkilinə, onların xaricdə treninq və seminarlara cəlbinə, təlim materiallarının alınması, innovasiyaların tətbiqi və digər inkişafetdirici tədbirlərə vəsaitin yönəldilməsi mümkün olur;

- büdcə vəsaitindən səmərəli istifadə mümkün olur. Belə ki, zərurət yarandığı hallarda hər hansı bir xərc maddəsi üzrə istifadə edilməyən vəsaitin digər ehtiyaclara yönəldilməsi üçün məktəbə səlahiyyət verilir;
- yeni maliyyələşmə mexanizminin tətbiqinin sonrakı mərhələsində maliyyənin (vauçerin) təhsilalanla birlikdə hərəkəti məktəblər arasında güclü rəqabət mühiti yaradır ki, bu da nəticədə keyfiyyətin yüksəldilməsinə gətirib çıxarır;
- büdcədənkənar vəsaitlərin məktəbə cəlbinə və şəffaf istifadə edilməsinə şərait yaradılır. Məktəbin xəzinə hesabı olduğu üçün, büdcədənkənar vəsaitlər üçün də xəzinədə hesab açmaq imkanı əldə edilir.

Məsələnin vacibliyi nəzərə alınaraq, 2007-ci ilin dekabrında yeni maliyyələşmə mexanizminin tətbiqi vəziyyətinin monitorinqi aparılmış və Nazirliyin kollegiya iclasında müzakirə edilmişdir. Müəyyən edilmişdir ki, eksperimentin uğurla aparılmasına bir sıra amillər, o cümlədən qanunvericilik bazasının təkmil olmaması, məktəblərə kifayət qədər müstəqilliyin verilməməsi mane olur. Monitorinq onu da göstərmişdir ki, yeni maliyyələşmə mexanizminin tətbiq edildiyi məktəblərdə büdcə düsturla hesablansa da, zəruri ehtiyac nəzərə alınaraq və qənaət hesabına vəsaitin bir maddədən digərinə keçirilməsinə imkan yaradılmadı. Baxmayaraq ki, Nazirlər Kabinetinin qərarı ilə ayrılmış büdcə vəsaitinin iqtisadi təsnifatın xərc yarımmaddələri arasında bölüşdürülməsi və il ərzində zərurət yarandığı, həmçinin ilin sonunda qənaət olunduğu hallarda xərc yarımmaddələri arasında müvafiq yerdəyişmələrin aparılması səlahiyyəti pilot rayonlarının maliyyə müstəqilliyi verilmiş ümumtəhsil məktəblərinə verilmişdi.

Eyni zamanda yeni maliyyələşmə mexanizminə keçid zamanı müşahidə olunan problemlərin həlli yollarının müəyyənləşdirilməsi məqsədilə Təhsil Nazirliyi, UNESCO-nun Təhsilin Planlaşdırılması İnstitutu və Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi tərəfindən 2008-ci ilin iyun ayında «Məktəblərin maliyyə formulası: ehtiyaclara görə maliyyələşmə, ədalətlilik, şəffaflıq və cavabdehlik» mövzusunda yay məktəbi təşkil edildi. Məqsəd QHT, media və təhsil ictimaiyyəti cəlb edilməklə yeni maliyyələşmə mexanizmi barədə maarifləndirmə kampaniyasının aparılması, maliyyə islahatları istiqamətində problemlərin araşdırılması üçün maraqlı tərəflər arasında dialoqun qurulması, bu sahədə beynəlxalq təcrübənin müzakirəsi idi.

Yay məktəbinin təşkili prosesində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə əlaqədar səciyyəvi problemlər aşkar edildi. Araşdırmalar göstərdi ki, idarəetmə sahəsində problemlər məktəb şuralarının kifayət qədər fəal olmaması, mühasibat işlərinin lazımi səviyyədə təşkil edilməməsi, direktorların yeni məsuliyyətə alışmaması, məktəblərin idarə edilməsinə yersiz müdaxilələr və onların müstəqilliyinin süni surətdə məhdudlaşdırılmasından ibarət idi.

Düsturun tətbiqi ilə əlaqədar yaranan problemlər, əsasən, həvəsləndirmənin nəzərə alınmaması, bir sıra hallarda məktəb büdcəsinin azaldılmasına gətirib çıxarması, inklüzivliyin gözlənilməməsi və s. amillərlə bağlı idi.

Hüquqi problemlər isə pilot məktəblərinin maliyyə müstəqilliyi ilə bağlı qərarla büdcə haqqında qanun arasında ziddiyyətin olması ilə müşayiət olunurdu.

Təhsil Nazirliyi sadalanan və digər manеələrin aradan qaldırılması məqsədilə Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (2009–2014) çərçivəsində yerinə yetiriləcək əsas vəzifələrdən biri kimi başlanmış maliyyə islahatlarının qiymətləndirilməsi və Hökumətə tövsiyələrin hazırlanmasını müəyyənləşdirmişdir.

Eyni zamanda 2005–2007-ci illərdə Ucar, İsmayıllı rayonları və Şirvan şəhərinin pilot məktəblərində «Məktəb qrantı proqramı» həyata keçirilmişdir. Proqramın məqsədi məktəblərə əlavə maliyyə vəsaiti verməklə onlarda innovasiyaların tətbiqi istiqamətində maliyyənin idarə edilməsi üçün lazımi bacarıqların formalaşdırılması olmuşdur. Proqram üç mərhələdə həyata keçirilmiş və hər biri 5000 ABŞ dolları olmaqla ümumilikdə 865 min ABŞ dolları həcmində 173 qrant layihəsi həyata keçirilmişdir. Maliyyə müstəqilliyi verilmiş 59 məktəbin hamısı qrant proqramı müsabiqəsində uğur qazanmış və qrant vəsaitlərini özləri idarə etmişlər. Onu da qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən 3 rayonun 59 məktəbində adambaşına maliyyələşmə mexanizminin və məktəb qrantı proqramının həyata keçirilməsi istiqamətində aparılan işlərin nəticəsidir ki, hər 3 rayonda təhsilin səviyyəsi digər rayonlarla müqayisədə xeyli yüksəkdir. Çox təəssüf ki, müxtəlif səbəblər üzündən bu islahatları davam etdirmək və respublikanın bütün məktəblərinə tətbiq etmək mümkün olmadı və necə deyərlər, böyük arzu ilə başladığımız iş yarımçıq qaldı. 2011-ci ildə ümumi təhsil sistemində adambaşına maliyyələşmə mexanizminin tətbiqinin davam etdirilməsi ilə əlaqədar müvafiq sənədlər hazırlanıb Nazirlər Kabinetinə təqdim edildi. Nəticədə, onu da qeyd edim ki, ölkənin bütün təhsil müəssisələrində dünyanın inkişaf etmiş ölkələrində çoxdan tətbiq edilən, təhsilə ayrılan maliyyə resurslarından daha səmərəli istifadəyə və bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən adambaşına maliyyələşmə (vauçer) sisteminə keçid bu gün ən mühüm vəzifə kimi qarşıda durur.

2.8. Dərslik hazırlığı. Bazis tədris planının tətbiq edilməsi

Azərbaycan təhsilində dərslik yaradıcılığı sahəsində ən böyük nailiyyətlər məhz müstəqillik illərində əldə edilmişdir. Həmin dövrdə Təhsil Nazirliyinin dərslik hazırlığı sahəsindəki fəaliyyətini şərti olaraq üç mərhələyə ayırmaq olar.

1991–1998-ci illəri əhatə edən **I mərhələ** daha çox latın qrafikalı əlifbaya keçid, dövrün siyasi ab-havasına uyğun çətinliklər və bundan irəli gələn sistemsizliyin aradan qaldırılması ilə müşayiət olunur. Onu da qeyd etmək lazımdır ki, 1991-ci ildən ölkədə latın qrafikasına keçilməsi barədə qərar qəbul edilməsinə baxmayaraq, bu işə sistemli şəkildə yalnız ümumtəhsil məktəblərində başlanmışdı.

Azərbaycanın həyatında çoxsaylı taleyüklü problemləri həll etmiş ümummilli lider Heydər Əliyev, 1991-ci ildə qəbul olunmuş, lakin həyata keçirilmə mexanizmi təsdiq edilməmiş bu məsələnin də həllini reallaşdırdı. Heydər Əliyevin Sərəncamı ilə 2000-ci ildən ölkədə,

o cümlədən təhsil sistemində latın qrafikasına tam keçid bərqərar oldu.

Digər çətinlik isə hökumətin 18 may 1992-ci il tarixli qərarı ilə «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında» Nazirlər Kabinetinin 1978-ci il tarixli qərarının ləğv edilməsi ilə bağlı idi.

Respublikada siyasi-iqtisadi sabitlik formalaşdıqca dərsliklərin məzmunca yeniləşdirilməsi istiqamətində müəyyən işlər görülürdü. Lakin ölkənin mövcud iqtisadi vəziyyəti, yeni dərsliklərin hazırlanması sahəsində təcrübə və səriştənin olmaması səbəbindən müstəqilliyin ilk illərində daha çox sovet dövründə hazırlanmış dərsliklərdən istifadə olunurdu. Bununla belə, həmin illərdə hazırlanmış tarix və ədəbiyyat dərsliklərində sovet dövründəkindən fərqli olaraq milli və ümumbəşəri dəyərlərə üstünlük verilir, köhnə siyasi ideologiyadan imtina edilirdi. Çünki sovet dövrünün tarix dərsliklərində Azərbaycan və ümumtürk tarixi, eləcə də ədəbiyyatı obyektiv işıqlandırılmır, türk-islam mədəniyyəti ilə bağlı verilən məlumatlar tarixi reallıqları düzgün əks etdirmirdi.

Dərsliyin məktəb üçün strateji əhəmiyyətini dərindən bilən ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Nazirlər Kabinetinin 25 avqust 1994-cü il tarixli qərarı ilə 1995/96-cı tədris ilindən etibarən hər il ibtidai sinif dərslikləri dövlət vəsaiti hesabına çap edilib şagirdlərə pulsuz verilməyə başlandı.

1993/94-cü tədris ilindən ümumi təhsilin məzmununda aparılan dəyişikliklərə uyğun olaraq, milli dərsliklərin tamamilə yenidən hazırlanması işinə başlanıldı. V–XI siniflər üzrə 63 adda dərslik çap edildi. İbtidai siniflər üzrə dərsliklərin yeniləşdirilməsi istiqamətində də müəyyən işlər görüldü.

1994/95-ci tədris ilində I–XI siniflər üçün 77 adda dərslik çap edilmişdi. Lakin yeni hazırlanan dərsliklər əvvəlkilərə nisbətən xeyli təkmilləşdirilsə də, hələ də tələblərə tam cavab vermirdi: uzun illər sovet təsirindən xilas ola bilmirdi, müstəqilliyin hələ çətinliklə formalaşan və möhkəmlənən ideoloji istiqamətləri az-az görünürdü, poliqrafik keyfiyyət aşağı səviyyədə idi. Buna görə də əvvəlki illərdə çap olunmuş dərsliklər istifadə edilməklə yanaşı, bu işin keyfiyyətinin yaxşılaşdırılması sahəsində axtarışlar da davam etdirilirdi.

1995/96-cı tədris ilində I–IV siniflər üçün 21 adda, 1996/97-ci tədris ilində 22 adda dərslik çap edildi.

1998/99-cu tədris ilində ümumtəhsil məktəbləri üçün 24 adda ibtidai sinif dərsliyi dövlət vəsaiti hesabına çap olunaraq şagirdlərin istifadəsinə verilmişdi. Bununla yanaşı, həmin tədris ilində V–XI siniflər üçün 15 adda yeni dərslik nəşr edilmişdi.

Ümumi təhsil sahəsində əsaslı islahatların həyata keçirilməsinə 1999/2000-ci tədris ilindən başlandı. Bu dərs ilində ölkəmizdə 1623000 şagirdi əhatə edən 4549 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu təlim-tərbiyə ocaqlarında 161000 müəllim (80,1%-i ali təhsilli) çalışırdı.

Həmin dərs ili ərəfəsində İslahat Proqramını hazırlayan Dövlət Komissiyasının müəyyənləşdirdiyi mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən «Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları – bazis tədris planı» işlənib hazırlandı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin

26 aprel 1999-cu il tarixli qərarı ilə təsdiq edildi. Standartların əsasında yeni işçi tədris planları hazırlandı. Yeni tədris planının tətbiqinə 1999/2000-ci tədris ilində ümumtəhsil məktəblərinin I, V, X siniflərindən – hər pillənin ilk sinfindən başlandı.

Beləliklə də, dərslik hazırlığı sahəsində **II mərhələyə** start verildi. Bu mərhələ tədris planları və proqramlarının, dərs vəsaitləri və digər tədris-metodik ədəbiyyatların məzmunca yeniləşdirilməsi, müasir standartlara cavab verən yeni nəsil dərsliklərin hazırlanması, nəşri və ümumtəhsil məktəblərinin bu dərsliklərlə dövlət vəsaiti hesabına fasiləsiz təmin edilməsi ilə bağlı genişmiqyaslı tədbirlərlə səciyyələnirdi.

Qeyd etmək lazımdır ki, həmin dövrdə dövlət nəşriyyatlarının fəaliyyətinin zəifləməsi, özəl nəşriyyatların isə hələ kifayət qədər inkişaf etməməsi dərslik nəşrində ciddi çətinliklər yaradırdı. Kağız qıtlığı, poliqrafik keyfiyyətin aşağı olması və digər amillər görülən işlərin effektinə mənfi təsirini göstərirdi.


1999/2000-ci tədris ilindən dövlət vəsaiti hesabına nəşr edilən ibtidai sinif dərsliklərinin nəşrinin yeni qaydada, yəni Azərbaycan Respublikası Prezidentinin 07.04.1997-ci il tarixli Fərmanına uyğun olaraq tender yolu ilə həyata keçirilməsinə başlanıldı və həmin il I–IV siniflər üçün 21 adda dərslik çap olunaraq şagirdlərin istifadəsinə verildi. Dərsliklərin nəşrində tenderin tətbiqi bu sahədə mövcud olan inhisarın aradan qaldırılması, dövlət vəsaitinə qənaət edilməsi, ən başlıcası isə dərsliklərin poliqrafik keyfiyyətinin yaxşılaşdırılması istiqamətində irəliyə doğru mühüm addım idi.


1999-cu ildən başlayaraq ümumi təhsilin dövlət standartlarına uyğun olaraq yeni tədris planlarına tam keçidə qədər proqramların yenidən işlənilməsinə və əsaslı dəyişikliklər edilməsinə zəruri ehtiyac yarandığından bütün fənlər üzrə Təhsil Nazirliyində orta məktəb müəllimləri və tanınmış mütəxəssislərdən ibarət işçi qrupları yaradıldı və bu qruplar ümumtəhsil məktəblərinin V–XI siniflərinin mövcud fənn proqramlarını məzmunca əhəmiyyətli dərəcədə təkmilləşdirdi. I–IV siniflər üçün proqramlar isə yeniləşdirildi. Bu, bir də ona görə zəruri idi ki, 1999-cu ilə qədər ümumtəhsil məktəbləri 1993/94-cü illərdə çap olunmuş tədris proqramları ilə işləyirdi.


Beləliklə, 1999-cu ildə I sinif proqramları çap olunaraq yerlərə çatdırıldı. Həmçinin ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün «Azərbaycan dili», «Riyaziyyat», «Coğrafiya», «Rus dili», VII–XI sinifləri üçün «Fizika» və «Astronomiya», VIII–XI sinifləri üçün «Kimya», «Azərbaycan tarixi», «Ümumi tarix» və X–XI sinifləri üçün «Azərbaycan tarixi» proqramları hazırlandı.

Azərbaycan məktəblərində təkmilləşdirilmiş proqramların tətbiqi üzrə aparılan birillik iş təcrübəsi göstərdi ki, həmin proqramlar ümumilikdə müsbət qarşılansa da, bəzi nöqsanlar hələ də qalmaqdadır. Belə ki, proqramlarda təhsilin məzmunu lüzumsuz materiallarla yüklənilməklə xeyli ağırlaşdırılmış, şagirdlərin yaş xüsusiyyətləri tam nəzərə alınmamış, pedaqoji və metodik prinsiplərə əməl olunmamışdı. 2000-ci ildə ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün xarici dil (ingilis, fransız və alman), «Azərbaycan tarixi» və «Ümumi tarix», X–XI siniflər üçün «Rus dili» proqramları yenidən işlənilərək çap edildi və məktəblərin istifadəsinə verildi.













Dərslik islahatının II mərhələsində çap olunmuş dərsliklərdən nümunələr













Dərslik islahatının II mərhələsində çap olunmuş dərsliklərdən nümunələr













Dərslik islahatının II mərhələsində çap olunmuş dərsliklərdən nümunələr









Dərslik islahatının II mərhələsində çap olunmuş dərsliklərdən nümunələr

Bütün fənlər üzrə proqramların işlənməsinə ümumtəhsil məktəblərinin qabaqcıl müəllimləri cəlb edildi. Proqramlar yenidən işlənildi və bu proqramlar əsasında dərslik və dərs vəsaitlərinin yeniləşdirilməsinə, yeni nəsil dərsliklərin hazırlanılmasına başlanıldı.

2000-ci ildə 13 adda, 2001-ci ildə isə 27 adda ibtidai sinif dərsliyi dövlət vəsaiti hesabına nəşr olunaraq məktəblilərin istifadəsinə verildi.

Dövlət başçısı Heydər Əliyevin tapşırığına əsasən Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli Sərəncamı ilə respublikanın ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün milli təhsilin tələblərinə cavab verən yeni dərsliklərin çap olunması nəzərdə tutuldu. Həmin Sərəncama müvafiq olaraq 2000-ci və 2001-ci illərin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Təhsil Nazirliyinə 2 il müddətinə qaytarılması şərti ilə güzəştli kredit ayrıldı.

Heydər Əliyev hələ 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında görüşü zamanı milli tariximizin yazılması və tədrisi sahəsində qarşıda duran vəzifələrdən danışarkən, «İlk növbədə Azərbaycanın XIX–XX əsrlər tarixi yazılmalıdır» tapşırığını vermişdi. Bu tapşırığı ümumtəhsil məktəblərində ümumi və Azərbaycan tarixi dərsliklərinin hazırlanması baxımından həyata keçirmək məqsədilə Təhsil Nazirliyində aparıcı tarixçi alimlər və təcrübəli müəllimlərdən ibarət işçi qrupu yaradıldı və qısa müddətdə milli ideologiya və müstəqil dövlətçilik prinsiplərinə cavab verən, XIX–XX əsrlər tariximizi əhatə edən «Azərbaycan tarixi» (X və XI sinif) dərslikləri hazırlanaraq məktəblərə çatdırıldı.

2001-ci ildə VI–IX siniflər üçün «Qədim dünya tarixi», «Orta əsrlər tarixi» və «Yeni tarix» kimi dərsliklər hazırlanaraq çap olundu. Bu dərsliklərdə ümumdünya tarixi, xüsusən türk-islam dünyası xalqlarının tarixi və mədəniyyəti müasir tələblər və milli dövlətçilik prinsipləri əsasında işıqlandırılırdı.

Dərslik islahatının II mərhələsindəki ən mühüm yeniliklərdən biri də fizika, riyaziyyat, kimya, biologiya fənləri üzrə yeni milli dərsliklərin hazırlanması və nəşri idi.

Bununla yanaşı, 2001-ci ildə ümumtəhsil məktəblərinin V sinfi üçün «Riyaziyyat», VIII–XI sinifləri üçün «Kimya» (təkmilləşdirilmiş) proqramları çap olundu. Bundan əlavə, həmin illərdə Dünya Bankı ilə birgə aparılan islahatlar çərçivəsində inkişaf etmiş xarici ölkələrin dərslik hazırlığı təcrübəsi öyrənilərək təhlil olundu və müasir tələblərə cavab verən dərsliklərin tətbiqi prinsipləri müəyyənləşdirildi. Həmin prinsiplər əsasında V–XI siniflər üçün humanitar fənlər üzrə dərsliklər də yeniləşdirildi.

Təlim rus dilində olan ümumtəhsil məktəblərini daha mükəmməl dərsliklərlə təmin etmək məqsədilə 2001-ci ildə ilk dəfə olaraq azərbaycanlı müəlliflər tərəfindən tərtib edilmiş və çap olunmuş V və VI siniflər üçün «Литература», IX–XI siniflər üçün «Азербайджанская литература» dərslikləri və «Хрестоматия по Азербайджанской литературе» dərs vəsaitlərində şagirdlər rus yazıçıları ilə yanaşı, klassik və müasir Azərbaycan yazıçılarının yaradıcılığı ilə də tanış olmaq imkanı qazandılar. Həmçinin həmin il «Azərbaycan tarixi» (V–IX siniflər) dərsliklərinin elektron variantı da hazırlandı.

2002-ci ildə ümumtəhsil məktəblərinin I–IV sinif proqramları, V–XI siniflər üçün «Coğrafiya», VI–XI siniflər üçün «Biologiya»,

VII– XI siniflər üçün «Fizika» və «Astronomiya», VIII–XI siniflər üçün «Kimya» proqramları əsaslı şəkildə təkmilləşdirilərək yenidən çap olundu.

Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2002-ci il tarixli Fərmanları «Azərbaycan dili» və «Ədəbiyyat» dərsliklərinə yenidən baxılması zərurətini doğurdu. Çünki bu dərsliklər 1993-cü ildə tərtib edilmiş və 1999-cu ildə təkmilləşdirilmiş proqramlar əsasında yazılmışdı və təbii ki, bir sıra çatışmazlıq və nöqsanları var idı. İlk növbədə görkəmli alimlər və qabaqcıl orta məktəb müəllimlərinin iştirakı ilə «Azərbaycan dili» və «Ədəbiyyat» proqramları yaradıldı (2002-ci il) və bunun əsasında yeni dərsliklərin hazırlanmasına başlanıldı. Həmin il yeni «Riyaziyyat» proqramı da hazırlandı.

Dərslik nəşrində inhisarçılığı aradan qaldırmaq və dərsliklərin poliqrafik keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Dövlət Satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2002-ci ildə ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün (Azərbaycan bölməsi) 20 adda dərslik açıq tender yolu ilə çap olunub məktəblərə çatdırıldı.

Həmin dövrdə təhsilin özəyini təşkil edən ümumtəhsil müəssisələri şəbəkəsi inkişaf etdi, ümumi təhsilin dövlət standartları və bazis tədris planı hazırlanaraq tətbiq edildi, ümumi təhsilin məzmunca milli və ümumbəşəri dəyərlər zəminində yeniləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Yeni tədris planına tam keçid prosesi 2002/03-cü tədris ilində başa çatdırıldı.

Ümumi orta təhsilin məzmununun yeniləşdirilməsi sahəsində ilk addım atıldı. Ümumi orta təhsilin dövlət standartları – bazis tədris planı orta təhsil proqramları məzmununun mütləq minimumunu, tədris yükünün maksimum həcmini, şagirdlərin və məzunların (buraxılış sinif şagirdlərinin) hazırlıq səviyyəsinə verilən tələbləri müəyyən etməklə ibtidai, əsas və orta ümumi təhsilə şamil edildi. Bu standartlar mahiyyətcə BMT-nin «Uşaq Hüquqları Konvensiyası»nın müddəaları və təhsil sahəsində beynəlxalq sənədlər nəzərə alınmaqla Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiya ilə müəyyən edilmiş icbari ümumi təhsil almalarına xidmət edirdi.

Azərbaycan Respublikası ümumtəhsil müəssisələrinin bazis tədris planı

Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı										
	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI
Azərbaycan dili dövlət dili kimi	2	2	2	3	3	3	3	2	2	2	2
Dillər və ədəbiyyat	8/10	9/11	8/10	7/10	9/11	6/9	6/9	6/8	5/7	5/7	4/6
Riyaziyyat və informatika	4	4	4	4	5	5	5	5	5	4	4
İctimai fənlər	–	–	–	–	2	2	2	4	6	4	4

Təbiət fənləri	–		2	2	2	4	6	7	7	5	6
İncəsənət	2	2	2	2	2	2	2	1	–	–	–
Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı	2	2	2	2	2	2	2	2	2	4	4
Əmək hazırlığı və texnologiya	2	2	2	2	2	2	2	2	1	–	–
Cəmi:	**20/ 22**	**21/ 23**	**22/ 24**	**22/ 25**	**27/ 29**	**26/ 29**	**28/ 31**	**29/ 31**	**28/ 30**	**24/ 26**	**24/ 26**
Seçmə fənn (fənlər)	–	–	–	–	2	2	3	3	4	8	10
Şagirdlərin məcburi maksimum dərs yükü	20/ 22	21/ 23	22/ 24	22/ 25	29/ 31	28/ 31	31/ 34	32/ 34	32/ 34	32/ 34	34/ 36
Fakültativ, fərdi və qrup məşğələləri	2	2	2	2	4	4	4	4	4	4	4

Ümumi orta təhsilin dövlət standartları mütərəqqi dünyagörüşünə malik və soykökünə bağlı olan şəxsiyyət formalaşdıran, təhsilin məzmunu və nəticələrinə verilən tələbləri uzlaşdıran, ümumi orta təhsil sistemi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyən, cəmiyyət və dövlət tərəfindən şagirdlərin sağlamlığının mühafizəsinə təminat verən normalar və müddəaları özündə ehtiva edirdi.

Ümumi orta təhsilin dövlət standartları təhsilalma formalarından və təhsil müəssisələrinin növlərindən asılı olmayaraq şagirdlərin və məzunların təhsil səviyyəsinin obyektiv qiymətləndirilməsinin əsasını təşkil edirdi. Ümumi orta təhsilin dövlət standartları şəxsiyyətin aşağıdakı hüquqlarının təmin edilməsinə imkan yaradırdı:

- Ümumi orta təhsilin məzmunu və nəticələrinə verilən dövlət tələbləri haqqında tam və düzgün məlumatların alınması;
- Müasir ictimai tələbatlara uyğun mükəmməl və keyfiyyətli təhsil;
- Şagirdlərin təhsilalma imkanlarının müxtəlifliyi;
- Sosial, psixoloji və fiziki sağlamlığın mühafizəsi;
- Sosial, psixoloji və xüsusi pedaqoji köməyə ehtiyacı olanlara fərdi yanaşma və s.

Ümumi orta təhsilin dövlət standartları şəxsiyyət və cəmiyyətin inkişafını təmin edən, cəmiyyətin müasir tələbatlarına və ölkə mədəniyyətinin ənənələrinə cavab verən təhsilin inkişafına xidmət edirdi.

Ümumi orta təhsilin dövlət standartları dövlətin aşağıdakı tələbatlarının həyata keçirilməsinə yönəlmişdi:

- Təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsi;
- Bazar iqtisadiyyatına keçid şəraitində gənc nəslin həyata və əməyə, fasiləsiz ümumi və peşə təhsilinə hazırlanması və vətəndaşların özünütəhsili üçün əsas yaradan təhsil proqramları sisteminin formalaşması;
- Sosial-iqtisadi fərqlər şəraitində təhsil sisteminin adaptasiya imkanlarının yüksəldilməsi;
- Səlahiyyətlərin dövlət və yerli (bələdiyyə) təhsili idarəetmə orqanları, ictimai təşkilatlar və təhsil prosesinin digər subyektləri arasında düzgün bölüşdürülməsi yolu ilə ümumi orta

təhsilin idarə edilməsinin demokratikləşdirilməsi.

Bazis tədris planı təhsil müəssisəsinin növündən asılı olaraq ümumi təhsilin səviyyələrini, siniflər üzrə respublika və məktəb komponentlərinin öyrənilməsinə ayrılmış tədris vaxtının bölünməsini və təlimin müddətini müəyyən edirdi. Bazis tədris planı tədris yükünün yaş və fizioloji-gigiyenik normativləri əsasında işlənib hazırlanmışdı.

Ümumi orta təhsilin dövlət standartları – bazis tədris planının dövlət komponenti müvafiq olaraq ibtidai, əsas və orta təhsili həyata keçirən bütün təhsil müəssisələri üçün məcburi idi, məktəb komponenti isə yerli xüsusiyyətləri əks etdirməyə imkan yaradırdı.

Şagirdlərin bir təhsil müəssisəsindən digərinə keçirilməsi zamanı bu standartın məktəb komponentindəki fərqlər köçürülməyə etiraz üçün səbəb ola bilməzdi. Təhsil haqqında sənədlərdə şagirdin aralıq attestasiyadan keçdiyi bütün tədris fənləri göstərilirdi.

Bazis tədris planı əsasında variativ tədris planları, proqramları və dərsliklər yaradılması nəzərdə tutulurdu. Şagirdlərin orta təhsil pilləsində aldıqları minimum biliklər onların peşə-ixtisas təhsili müəssisələrində təhsillərini davam etdirmək imkanını təmin edirdi.

Şagirdlərin və məzunların hazırlıq səviyyəsinə verilən minimal tələblər tədris materialının mənimsənilmə səviyyəsini müəyyənləşdirirdi. Şagirdlərin tədris yükünün tənzimlənməsi məqsədilə ümumi orta təhsilin dövlət təhsil standartları şagirdlər tərəfindən ibtidai, əsas və ümumi orta təhsil alınması zamanı maksimal tədris yükünün normativlərini müəyyən edirdi.

Bazis tədris planının əvvəllər istifadə edilən tədris planlarından əsas fərqi onda idi ki, yeni tədris planı 2 komponentdən – dövlət (invariativ) və məktəb (variativ) komponentindən ibarət idi. İlk dəfə olaraq tədris planında fənlər təhsil sahələri üzrə qruplaşdırılmış, şagirdlərin maraq, meyil və qabiliyyətlərinin inkişafına şərait yaratmaq məqsədilə V–XI siniflərdə seçmə fənlərə müvafiq saatlar (cəmi 32 saat) ayrılmışdı. Şagirdlərin (I–XI siniflər) məcburi maksimum dərs yükü 330 saatdan 271 saata endirilmiş, onların sinifdənxaric vaxtlarda maraqlarına uyğun bu və ya digər elm, incəsənət, ədəbiyyat və s. sahələr üzrə daha dərin və ətraflı biliklər almalarına imkan yaratmaq məqsədilə fakültativ, fərdi və qrup məşğələlərinə ayrılan vaxt 31 saatdan 36 saatadək artırılmışdı.

«Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları» təsdiq edilənədək təlim Azərbaycan dilində olan məktəblərdə rus dili I–XI siniflərdə müstəqil fənn kimi tədris edilirdi.

1999/2000-ci tədris ilindən etibarən I, V, X siniflərdə rus dili xarici dil kimi valideynlərin arzusuna əsasən digər siniflərdə isə əvvəlki illərdə tədris olunduğu nəzərə alınaraq fakültativlərə ayrılan saatlar hesabına tədris edilirdi. Rus dilinin müstəqil fənn kimi tədrisi 2008/09-cu tədris ilində başa çatdı, beləliklə, bütün siniflərdə rus dili xarici dil kimi tədris olunmağa başladı.

Mövcud tədris planına əsasən rus dili xarici dil kimi seçildikdə onun tədrisinə I–IV siniflərdə 1 saat, V siniflərdə 4 saat, VI–VIII siniflərdə

3 saat, IX–XI siniflərdə 2 saat olmaqla cəmi 23 saat vaxt ayrılır.

2011-ci ildə ölkənin 18 (0,4%) ümumtəhsil məktəbində təlim yalnız rus dilində aparılır, həmin məktəblərdə 5878 şagird təhsil alır. 337 məktəbdə (7%) təlim Azərbaycan və rus dillərində aparılır. Bu məktəblərin rus bölmələrində 99656 şagird təhsil alır. Beləliklə, respublikada 355 məktəbdə (məktəblərin ümumi sayının 8%-i) rus dilində təlim aparılır ki, onlarda da 105534 şagird rus dilində təhsil alır. Bu isə ümumtəhsil məktəblərində təhsil alan 1317513 şagirdin 8,0%-ni təşkil edir.

Müqayisə üçün qeyd edək ki, 1988/89-cu tədris ilində təlim yalnız rus dilində olan məktəblərin sayı 163, orada təhsil alanların sayı 117204 nəfər, təlim Azərbaycan və rus dilində aparılan məktəblərin sayı 325, orada rus dilində təhsil alanların sayı 123565 nəfər olmuşdur. Beləliklə, 488 məktəbdə 240769 şagird rus dilində təhsil almışdır.

1998/99-cu tədris ilində isə təlim yalnız rus dilində olan məktəblərin sayı 35, orada təhsil alanlar 9659 nəfər, təlim Azərbaycan və rus dilində aparılan məktəblərin sayı 387, orada rus dilində təhsil alanların sayı 99774 nəfər olmuşdur. Beləliklə, 426 məktəbdə 109433 şagird rus dilində təhsil almışdır.

Bu dövrdə təlim Azərbaycan dilində aparılan məktəblərdə 214914 şagird (13%) rus dilini xarici dil kimi öyrənirdi.

Ölkənin ümumtəhsil məktəblərində təlim rus və Azərbaycan dillərində aparılan siniflərdə 11600 nəfər rus dili müəllimi fəaliyyət göstərirdi. Onlardan 1745 nəfəri təlim rus dilində olan məktəblərdə, 9855 nəfəri isə təlim Azərbaycan dilində aparılan məktəblərdə çalışırdı. Müqayisə üçün qeyd edək ki, 1998/99-cu tədris ilində rus dili müəllimlərinin ümumi sayı 16971 nəfər olmuşdu. Müvafiq olaraq 3080 nəfər təlim rus dilində, 13891 nəfər təlim Azərbaycan dilində olan məktəblərdə işləyirdi.

Təlim Azərbaycan dilində olan məktəblərdə bazis tədris planına keçidlə əlaqədar rus dili müəllimləri ilə bağlı Təhsil Nazirliyi tərəfindən məqsədyönlü iş aparıldı. Belə ki, bu istiqamətdə əsas tədbirlərdən biri rus dili müəllimlərinin yenidənhazırlanma təhsilinə cəlb olunması oldu, xeyli sayda müəllim öz ixtisasını dəyişərək uyğun ixtisaslar seçdi və müəllim kimi fəaliyyətlərini davam etdirməyə başladı.

Bu istiqamətdə digər addım isə fakültativ məşğələ saatları hesabına rus dili müəllimlərinin dərs yükü ilə təmin edilməsi oldu. Beləliklə, yeni bazis tədris planına keçidlə əlaqədar rus dili müəllimləri ilə bağlı problem Təhsil Nazirliyi tərəfindən həll edildi.

2.9. Azərbaycan müəllimlərinin XII qurultayı

«Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nın icra vəziyyəti, islahatın I və II mərhələləri üzrə milli təhsil quruculuğunun əsas istiqamətləri və yekunları, təhsil sahəsində qazanılmış uğurlar, mövcud problemlər, onların həlli yolları Azərbaycan müəllimlərinin XII qurultayında geniş müzakirə edildi. Bu, mənim təhsil naziri kimi iştirak etdiyim ikinci qurultay idi. Qurultay 2003-cü il oktyabrın 4-də Bakıda Respublika Sarayında keçirildi. Qurultayda 1857 nümayəndə iştirak edirdi.



Azərbaycan müəllimlərinin XII qurultayının açılışı



Azərbaycan müəllimlərinin XII qurultayının açılışı. Sağda Naxçıvan şəhər 4№-li orta məktəbin direktoru Elmira Qasımova, solda Ağdam rayon Eyyuboğlu kənd orta məktəbinin ingilis dili müəllimi Sara Hacıyeva

Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qurultaya təbrik məktubunu oxudu. Sonra qurultayın ünvanına bir sıra xarici ölkələrdən və beynəlxalq təşkilatlardan – ABŞ, Türkiyə, Rusiya, Almaniya, Misir, Səudiyyə Ərəbistanı, BMT, UNİCEF və digər təşkilatlardan daxil olmuş təbrik məktubları oxundu.

Mən qurultayda çıxış edib təhsilimizin qayğılarından, müəllimlərin XI qurultayından keçən müddətdə «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nın, təhsilin müxtəlif pillələrinə dair təsdiq olunmuş inkişaf proqramlarının icra vəziyyətindən, ölkədə aparılan milli təhsil quruculuğu işlərindən, qazanılan uğurlardan danışdım. Mövcud problemlər və onların aradan qaldırılması üçün görülən tədbirlər, qarşıda duran vəzifələr haqqında geniş məruzə etdim.

Mənim məruzəm ətrafında Naxçıvan MR təhsil naziri Həmzə Cəfərov, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının sədri Şahlar Əsgərov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Təhsil islahatı Layihəsinin İcra Qrupunun direktoru Asif Cahangirov, Ağdam rayonu 32№-li məcburi köçkün məktəbinin müəllimi Leyla Quliyeva, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vaqif Abbasov, Quba Rayon Təhsil Şöbəsinin müdiri Süleyman Aslanov, Gəncə şəhər Mirzə Ələkbər Sabir adına 5№-li orta məktəbin direktoru Firudin Nadirov, Respublika Təhsil Şurasının sədri professor Əjdər Ağayev, Bakı şəhəri Sabunçu rayonu 187№-li orta məktəbin direktoru, Respublikanın əməkdar müəllimi Səyyarə Zeynalova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Mirzəli Murquzov, Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdiri Vidadi Bağırov, Bakı şəhəri Nizami rayonu 175№-li «Şənlik» körpələr evi-uşaq bağçasının müdiri Zemfira Əsədova, Təhsil Problemləri İnstitutunun direktoru professor Abdulla Mehrabov, İsmayıllı Rayon Təhsil Şöbəsinin müdiri Fərman Bağırov, Lənkəran şəhər xarici dillər təmayüllü internat məktəbin direktoru Mənsur Ağayev, Salyan şəhər Əliağa Kürçaylı adına 7№-li orta məktəbin ali kateqoriyalı kimya-biologiya müəllimi Gülşən Piriyeva çıxış etdilər.

Qurultay Azərbaycan xalqına müraciət, müzakirə olunan məsələlər barədə qətnamə qəbul etdi. Qətnamədə aşağıdakı məsələlər qeyd edilmişdi:

- Qurultay ölkənin ictimai-siyasi və mədəni həyatında mühüm hadisə kimi qiymətləndirilsin və onun qərarlarının gələcək illər ərzində respublikanın təhsil müəssisələri tərəfindən fəaliyyət proqramı kimi ardıcıl şəkildə icrasına nail olunsun.
- Son beş il ərzində təhsil sahəsində görülmüş işlər, aparılan islahatlar və perspektiv fəaliyyət barədə qurultaya təqdim olunan hesabat bəyənilsin və nəzərə alınsın.
- «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» çərçivəsində gələcək illər üçün nəzərdə tutulmuş strateji fəaliyyət istiqamətlərindəki işlərin həyata keçirilməsinin sürətləndirilməsi aidiyyəti qurumlara tövsiyə olunsun.

- Son illərdə təhsildə həyata keçirilmiş islahatları, təşəkkül tapmış gerçəklikləri, Azərbaycanın dünya təhsil sisteminə inteqrasiyasını, beynəlxalq qurumların, o cümlədən UNESCO-nun müasir təhsillə bağlı sənədlərini nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, təhsil haqqında yeni qanunun qəbul edilməsinin zəruriliyini nəzərə alsın.

Bakı şəhəri,
04 oktyabr 2003-cü il

2.10. Ümumi təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi. Təhsil Nazirliyində struktur dəyişiklikləri

Ümumi təhsil müəssisələrində iş rejiminin səmərəli tənzimlənməsi istiqamətində Azərbayan Respublikası Prezidenti tərəfindən «Azərbaycan Respublikasında «Bilik günü»nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında» 21 avqust 2004-cü il tarixli Fərman imzalandı. Həmin Fərmanda ölkənin təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edən fəaliyyət sisteminin qurulması ilə əlaqədar bu müəssisələrdəki mövcud iş rejiminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində dərslərin hər il sentyabrın 15-dən başlanması, 15 sentyabrın «Bilik günü» elan edilməsi, 2004/05-ci tədris ilindən respublikanın ümumtəhsil məktəblərinin I–IV siniflərində beşgünlük tədris həftəsinin tətbiq olunması qərara alındı. Fərmanın icrası ilə bağlı Təhsil Nazirliyinin 03.09.2004-cü il tarixli əmri ilə ümumi təhsil müəssisələri üçün aşağıdakı iş rejimi müəyyən edildi:

- Respublikanın bütün ümumtəhsil məktəblərində dərs məşğələlərinin, bir qayda olaraq, sentyabrın 15-də başlayıb mayın 31-də başa çatdırılması;
- Dərs ilinin 2 yarımilə bölünməsi (I yarımil – 15 sentyabr – 29 dekabr; II yarımil – 06 yanvar – 31 may);
- Şagirdlərin bilik, bacarıq və vərdişlərinin yarımilliklər üzrə qiymətləndirilməsi mexanizminə keçilməsi;
- Dərs ili müddətində aşağıdakı tətil günlərinin müəyyən edilməsi: payız tətili – 12–17 noyabr (6 gün), qış tətili – 30 dekabr – 05 yanvar (7 gün), yaz tətili – 16–23 mart (8 gün), I sinif şagirdləri üçün 6 günlük (12–17 fevral) əlavə tətil.
- 2004/05-ci tədris ilindən ümumtəhsil məktəblərinin I–IV siniflərində beşgünlük iş həftəsinə keçilməsi;
- Beşgünlük tədris həftəsi daxilində şagirdlərin sağlamlığının qorunması və səmərəli təlim şəraiti yaradılması məqsədilə müəssisədaxili iş rejiminin xüsusiyyətləri nəzərə alınmaq şərtilə ümumtəhsil məktəblərinin bütün I siniflərində dərslərin 8^{50}-də başlanması;
- 2004/05-ci tədris ilində ümumtəhsil məktəblərinin bütün siniflərində ilk dərsin şagirdlərin yaş və bilik səviyyəsi nəzərə alınmaqla Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunması;
- Ümumtəhsil məktəblərində hər il 15 sentyabr «Bilik günü»nün yüksək

səviyyədə qeyd olunması üçün müvafiq tədbirlərin hazırlanıb həyata keçirilməsi.

Təhsil Nazirliyinin «Ümumtəhsil məktəblərində beşgünlük tədris həftəsinə keçilməsi barədə» 03.08.2005-ci il tarixli əmri ilə 2005/06-cı tədris ilində respublikanın bir növbədə tədris aparılan ümumtəhsil məktəblərinin I–XI, habelə digər məktəblərin I–V siniflərinin beşgünlük tədris həftəsinə keçirilməsi qərara alındı. Bu iş mərhələlərlə davam etdirilməkdədir.

2003–2010-cu illərdə təhsilin idarə olunması sahəsində əsaslı islahatlara başlanıldı. İlk növbədə Təhsil Nazirliyinin mərkəzi aparatında əhəmiyyətli struktur dəyişiklikləri aparıldı, təhsilin idarə olunması sahəsində bir sıra zəruri addımlar atıldı, Nazirliyin mərkəzi aparatının idarəetmə potensialı xeyli gücləndirildi. Bununla əlaqədar, dünyanın 50-dək ölkəsində təhsilin idarə olunması təcrübəsi öyrənildi, beynəlxalq məsləhətçilərin iştirakı ilə geniş təhlil olundu, müvafiq struktur dəyişiklikləri ilə bağlı tədbirlər planı hazırlandı. Nəticədə Dünya Bankının yaxından dəstəyi ilə həyata keçirilən layihələr çərçivəsində Nazirliyin mərkəzi aparatında strateji təhlil və planlaşdırma, Monitorinq və qiymətləndirmə, Təhsilin idarəolunmasının məlumat sistemləri (2004-cü il), Akkreditasiya şöbələri (2010-cu il), Təhsil sənədlərinin tanınması (2006-cı il), Məktəbəqədər təhsil (2009-cu il), Əlavə təhsil (2010-cu il) sektorları yaradıldı. Yeni strukturların yaradılması müvafiq sahələrdə təhsil siyasəti və strategiyasının daha məqsədyönlü hazırlanması və çevik həyata keçirilməsinə zəmin yaratdı.

Təhsil Nazirliyində yaradılmış bu struktur bölmələr bir sıra yeni funksiyaları həyata keçirməklə yanaşı, əvvəllər müxtəlif struktur bölmələr arasında parçalanmış vacib funksiyaların vahid mərkəzdə cəmləşməsinə zəmin yaratdı.

Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi təhsil siyasəti və strategiyasını müəyyənləşdirir, prioritetləri nəzərə almaqla inkişaf proqramları hazırlayır, təhsil sistemi ilə bağlı məlumatları təhlil edir və müvafiq təkliflər irəli sürür, təhsil sistemində strateji planlaşdırmanı və hesabatverməni həyata keçirir, vahid inkişaf strategiyasının və kadr siyasətinin formalaşdırılmasında iştirak edir, təhsili idarəetmə orqanları və təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyin yerinə yetirilməsinə təşkilati-metodik rəhbərliyi həyata keçirir.

Monitorinq və qiymətləndirmə şöbəsi dəqiq qiymətləndirmə standartları əsasında hazırlanmış beynəlxalq (ölkədə təhsilin səviyyəsinin müxtəlif aspektlərdə ölçülməsi və digər ölkələrlə müqayisəli təhlilinə imkan verən və beynəlxalq təşkilatlar tərəfindən aparılan qiymətləndirmə), milli (təhsildə proqnozlaşdırma və perspektivləri, təhsil siyasətini müəyyənləşdirmək üçün təhsilin vəziyyəti haqqında müvafiq məlumat toplamaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri və təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək məqsədilə 4–5 ildən bir təhsilin bir pilləsindən digərinə keçid zamanı aparılan qiymətləndirmə) və məktəbdaxili (diaqnostik, formativ, summativ) qiymətləndirmə sisteminin ümumtəhsil məktəblərində həyata keçirilməsi, müasir qiymətləndirmə metodlarından istifadə edilərək şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi, qiymətləndirmə nəticələrinin

təhlili, təhsil müəssisələrinin fəaliyyətinin monitorinqi, təhsilin bütün pillələri və səviyyələrində keyfiyyətin idarəedilməsi və digər bu kimi funksiyaları yerinə yetirir.

Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi təhsil sistemində bütün pillələr və səviyyələr üzrə məlumat bazasını formalaşdırır və daim yeniləşməsini təmin edir, müvafiq hesabatlar hazırlayır, təhsil müəssisələrinə TİMS-lə bağlı təşkilati-pedaqoji və metodik köməklik göstərilməsini, təhsilin inkişafı sahəsində proqnozlaşdırmanın aparılmasını, milli təhsil resurslarının formalaşdırılmasını və inkişaf etdirilməsini təmin edir.

Akkreditasiya şöbəsi təhsil prosesinin təşkilinin, təhsil infrastrukturunun və maddi-texniki bazanın, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının qəbul olunmuş dövlət standartlarına uyğunluğunu müəyyən etmək məqsədilə təhsil müəssisələrini akkreditə edir və onun statusunun müəyyən edilməsi üzrə, eləcə də yeni yaradılan təhsil müəssisələrinin fəaliyyətinə lisenziya verilməsi ilə bağlı təhlillər aparır və təkliflər hazırlayır.

Bunlarla yanaşı, Nazirliyin nəzdində Əsaslı tikinti (2004-cü il), Təhsilin informasiyalaşdırılması (2008-ci il), De-institutlaşdırma və uşaq müdafiə sistemləri idarələrinin (2010-cu il) yaradılması ölkə səviyyəsində adıçəkilən istiqamətlərdə proqramların daha səmərəli idarə olunması imkanlarını genişləndirdi. Əsaslı tikinti idarəsinin rəisi Allahverdi Dəmirov, Təhsilin informasiyalaşdırılması idarəsinin rəisi Samir Məmmədov, De-institutlaşdırma və uşaq müdafiə sistemləri idarəsinin rəisi Məlahət Hacıyevadır.

Struktur dəyişiklikləri ilə yanaşı, Nazirliyin mərkəzi aparatına və yerli təhsili idarəetmə orqanlarına işə qəbul qaydaları da əsaslı şəkildə dəyişdirildi.

Azərbaycan Respublikası Prezidentinin 21.07.2000-ci il tarixli Fərmanı ilə «Dövlət qulluğu haqqında» Qanun təsdiq edildi. Onun tətbiqinə 01.09.2003-cü il tarixindən başlandı. Bu onunla bağlı idi ki, həmin müddət ərzində Qanunun tətbiq mexanizmləri işlənməyə başlanmış, ilk növbədə 2001-ci ildə Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılmışdı. Eyni zamanda Qanuna bir sıra əlavə və düzəlişlər edilmişdi. Dövlət qulluğu sahəsində islahatları sürətləndirmək məqsədilə ölkə Prezidentinin Fərmanı ilə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdı.

Qanuna əsasən Təhsil Nazirliyi sistemində Nazirliyin mərkəzi aparatının əməkdaşları, yerli təhsili idarəetmə orqanlarında (rayon, şəhər təhsil şöbələrində) müdir, müdir müavini, məsləhətçi və baş mühasib vəzifələri dövlət qulluğu vəzifəsi siyahısına daxil edildi.

2006-cı ildən başlayaraq dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilməyə başlandı. Qanuna müvafiq olaraq Nazirliyin şöbə müdiri vəzifəsi istisna olmaqla, Təhsil Nazirliyi sistemindəki inzibati vəzifələrin 6–9-cu təsnifatı üzrə vakansiyalar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir. Elan verildikdən sonra namizədlər sənədlərini həmin Komissiyaya təqdim edirlər.

Müsabiqə 2 mərhələdə təşkil edilir. Birinci mərhələdə namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada test imtahanından və müsahibədən keçirlər. Hər iki mərhələdə

keçid balı (imtahan üçün 70–80-dən yüksək, müsahibədə 16-dan yüksək bal) toplayanlar Təhsil Nazirliyinə təqdim edilirlər. Təhsil Nazirliyində nazirin sədrliyi ilə yaradılmış müvafiq komissiya tərəfindən həmin namizədlərlə yekun müsahibə aparılır.

Nazirliyin mərkəzi aparatında 16 şöbə, 8 sektor fəaliyyət göstərir. Mərkəzi aparatda 147 nəfər təcrübəli mütəxəssis çalışır ki, onlardan 4 nəfəri elmlər doktoru, 23 nəfəri isə fəlsəfə doktorudur.

Beləliklə, Nazirliyin strukturu, fəaliyyətinin təşkili və təhsil sisteminin idarəolunması sahəsində əvvəlki illərlə müqayisədə ciddi dəyişikliklər baş verdi. Bu dəyişiklikləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Nazirliyin strukturu əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, strateji təhlil və planlaşdırma, monitorinq və qiymətləndirmə, məlumat sistemləri, akkreditasiya, əlavə təhsil kimi vacib sahələrlə bağlı funksional strukturlar yaradılmışdır. Belə strukturların yaradılması təhsil sahəsində aparılan islahatların səmərə və keyfiyyətinə əsaslı təsir göstərməklə yanaşı, vahid təhsil siyasətinin işlənməsi və həyata keçirilməsinə öz töhfəsini vermişdir.

2. Nazirliyin Mərkəzi aparatında kadr tərkibinin keyfiyyətcə yeniləşdirilməsi istiqamətində ciddi addımlar atılmış, Dövlət Qulluğu Məsələləri Komissiyası tərəfindən böyük rəqabət şəraitində keçirilən müsabiqə nəticəsində Nazirliyə gənc, perspektivli və xarici dilləri bilən mütəxəssislər işə götürülmüşdür.

3. Nazirliyin Mərkəzi aparatında çalışan əməkdaşların 90%-i ölkədə və xaricdə təşkil olunan treninqlərdə, seminarlarda, stajkeçmə tədbirlərində iştirak etmiş, xaricdə magistratura təhsili almış və öz bacarıqlarını təkmilləşdirmişdir.

4. Nazirlik tərəfindən strateji təhlillər əsasında 20-dək dövlət proqramı hazırlanmış, ölkə Prezidenti və Hökumət tərəfindən təsdiq edilmiş və həyata keçirilməkdədir. Proqramlarla idarəetmə Təhsil Nazirliyinin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir etmiş, yeni yanaşmaların tətbiqinə şərait yaratmışdır. Tarixən Təhsil Nazirliyi heç bir proqram reallaşdırmadığı halda, qısa müddət ərzində təhlillərin aparılması, proqramların hazırlanması və həyata keçirilməsi sahəsində zəngin təcrübə toplanmış, bu təcrübə sonradan ölkəmizin digər dövlət strukturları, nazirlikləri üçün nümunə rolunu oynamışdır.

5. Əvvəllər Təhsil Nazirliyinin fəaliyyəti, əsasən yuxarı təşkilatlardan daxil olan direktiv sənədlərin icrası, yoxlama xarakterli tədbirlərin həyata keçirilməsi, vətəndaşların müraciətlərinə baxılması məsələləri ilə məhdudlaşırdısa, hazırda bu qurumun fəaliyyəti daha çox təhsil sektorunun bütün sahələri üzrə vahid dövlət siyasətinin həyata keçirilməsi, məqsədli proqramların hazırlanması və reallaşdırılması, keyfiyyətə nəzarətin müasir modellərinin tətbiqi, davamlı inkişaf və insan kapitalının formalaşdırılması və digər bu kimi əhəmiyyətli məsələlərə yönəlmişdir.

6. Əvvəllər Təhsil Nazirliyi yalnız birbaşa onun tabeliyində olan müəssisələr üçün nəzərdə tutulan maliyyəni idarə edirdisə, hazırda bütün ölkəni əhatə edən irimiqyaslı investisiya layihələrini, dövlət proqramlarını, əvvəlkindən yüz dəfələrlə artıq maliyyə vəsaitini idarə edir ki, bu da Nazirlik üçün tamamilə yeni funksiyalar, təcrübə və məsuliyyət deməkdir.

7. Əvvəlki dövrlərdə Nazirliyin fəaliyyətində əsas yerlərdən birini tutan yoxlamalar əvəzinə, keyfiyyətə nəzarətin müasir mexanizmi olan monitorinq sistemi tətbiq edilməyə başlanmışdır.

Monitorinq müasir idarəetmə sistemində ən mühüm sahələrdən biridir. Təhsil sahəsində monitorinqin məqsədi təlimin məzmununun təkmilləşdirilməsi, təhsil alanlara nəyin və necə, hansı təlim metodlarından istifadə etməklə öyrədilməsinin müəyyənləşdirilməsi, dövlət standartlarının mənimsənilməsi səviyyəsinin aşkara çıxarılması, nəticələrin qiymətləndirilməsi və onlara uyğun olaraq müvafiq tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Strateji planlaşdırma təhsilin keyfiyyətinin idarə olunması sistemində ən başlıca tələblərdən biri olduğundan bu istiqamətdə tədbirlərə xüsusi diqqət yetirilirdi. Təhsil tarixində ilk dəfə olaraq 2007–2009-cu illəri əhatə edən üçillik strateji plan hazırlandı. Sonralar bu iş davam etdirildi və 2010–2011-ci illəri əhatə edən yeni strateji plan işləndi. Nazirliyin strateji planları əsasında rayon təhsil şöbələri tərəfindən də strateji planlar hazırlandı və tətbiq edilməyə başlandı.

Ölkəmizdə təhsilin idarəolunması sahəsində ən mühüm addımlardan biri Azərbaycan Respublikası Prezidentinin 31 mart 2006-cı il tarixli Sərəncamı oldu. Sərəncamın icrası ilə bağlı Nazirlər Kabinetinin 28 iyun 2006-cı il tarixli Qərarı ilə Təhsil Nazirliyinin yeni strukturu təsdiq edildi. Həmin qərarla Bakı şəhərində təhsili idarəetmənin təkmilləşdirilməsi məqsədilə Qaradağ, Səbail, Nəsimi, Yasamal, Binəqədi, Nərimanov, Nizami, Xətai, Sabunçu, Suraxanı, Əzizbəyov rayon təhsil şöbələri ləğv edildi və Təhsil Nazirliyinin birbaşa tabeliyində vahid idarəetmə orqanı – Bakı şəhəri üzrə Təhsil İdarəsi yaradıldı. Mərkəzi aparatında 110, Metodik Kabinetdə 115, Mərkəzləşdirilmiş mühasibatlıqda 250 ştat olmaqla İdarənin yeni ştat cədvəli təsdiq edildi.

İlkin təhlillər göstərdi ki, yeni qurumun yaradılması şəhər təhsilinə ayrılan büdcə vəsaitindən daha səmərəli istifadə etməyə şərait yaratmış, yeni qurum birbaşa Təhsil Nazirliyinin tabeliyində olduğuna görə təhsil müəssisələrinə əsassız müdaxilələr azalmış, çevik idarəetmə nəticəsində son illər ərzində Bakı şəhərinin ümumtəhsil məktəblərinin keyfiyyət göstəriciləri xeyli artmışdır. 2008-ci ildə ali məktəblərə qəbul faizi 2006-cı ildəki 34,7%-dən 39,22%-ə, 300-dən çox bal toplayanlar 32,40%-dən 40,12%-ə, əlaçı məzunlardan 500–700 bal toplayanlar 41,70%-dən 72,0%-ə, 600-dən yuxarı bal toplayanların sayı isə 452-dən 702-yə yüksəlmişdi.

İdarəetmənin bütün səviyyələrdə təkmilləşdirilməsi tədbirləri davam etdirildi. Məktəb direktorlarının təyinatı Təhsil Nazirliyinin uçot nomenklaturasına daxil edildi. Bununla əlaqədar yeni qaydalar hazırlandı və tətbiq olundu. Vakant məktəb direktoru vəzifəsinə RTŞ-lər tərəfindən təqdim edilən namizədlərin ilk mərhələdə sənədləri araşdırılır, təlimati sənədlərə uyğunluğu müəyyənləşdirilir. Bu mərhələdən keçənlər İKT üzrə treninqlərə cəlb edilir. Bu mərhələdən də uğurla keçənlər idarəetmə və təhsil qanunvericiliyi üzrə imtahan verirlər. Bütün mərhələlərdən uğurla keçən namizədlər müsahibədən sonra Təhsil Nazirliyinin rəsmi razılığı əsasında RTŞ-lər tərəfindən direktor təyin edilirdilər. 2009-cu ildə

«Təhsil haqqında» yeni Qanun qəbul edildikdən sonra qanuna müvafiq olaraq bütün təhsil müəssisələrinin (ali təhsil müəssisələri istisna olmaqla). o cümlədən ümumtəhsil məktəblərinin direktorlarının təyinatı Təhsil Nazirliyinin nomenklaturasına daxil edildi və məktəb direktorları birbaşa Təhsil Nazirliyi tərəfindən təyin edilməyə başlandı. Bu yenilik daha səriştəli və bacarıqlı kadrların məktəblərə rəhbər təyin edilməsinə zəmin yaratmışdır. Eyni zamanda təhsilin inkişaf tendensiyaları nəzərə alınaraq məktəb direktorlarına verilən tələblər də yeniləşdirildi. Bu tələbləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Məktəb direktoru mütləq pedaqoji təhsilli və ən azı 5 il pedaqoji staja malik olmalıdır.
- İxtisası üzrə yüksək biliyə və peşəkarlığa malik olmalıdır.
- İdarəetmə sahəsində lazımi səviyyədə peşə hazırlığı, bilik, bacarıq və vərdişləri olmalıdır.
- Məsələlərin təkbaşına və kollegial həllinin əlaqələndirilməsində yüksək şəxsi məsuliyyət nümayiş etdirməlidir.
- Kollektivdə işgüzar və kollegiallıq əsasında düzgün qarşılıqlı münasibətlər formalaşdırmağı bacarmalıdır.
- Ünsiyyət mədəniyyətinə malik olmalı, kollektivdə sağlam mənəvi-psixoloji iqlim formalaşdırmalıdır.
- Tabeliyində olan işçilərin hər birini şəxsi keyfiyyətlərinə uyğun və vəzifələrinə münasib işlərlə təmin etməlidir.
- Müəssisənin fəaliyyətinin müntəzəm monitorinqinin aparılması əsasında onun perspektiv inkişaf strategiyasını müəyyənləşdirməlidir.
- Kadrları şəxsi, işgüzar keyfiyyətlərinə görə seçməli, onların peşəkarlıq keyfiyyətlərini obyektiv qiymətləndirməlidir.
- Qarşıya çıxa biləcək problemlərin düzgün, optimal və operativ həllinə səy göstərməli, qəbul olunmuş qərarların icrasını müntəzəm nəzarətdə saxlamalıdır.
- Məktəbin fəaliyyətinin strateji planlaşdırılmasını və icrasını təmin etməlidir.
- Ətrafda baş verən hadisələrin analitik təhlilini aparmağı və bunun əsasında məntiqi nəticələr çıxarmağı bacarmalıdır.
- Təhsildə aparılan islahatlar və təhsilin inkişaf perspektivləri barədə geniş məlumata malik olmalıdır.
- Məzmun islahatları, fənn kurikulumları ilə yaxından tanış olmalı, onu dərk etməli, bu sənədlərin mahiyyətinin kollektivə və valideynlərə çatdırılmasını təmin etməlidir.
- Təhsili şəxsiyyətyönümlü, nəticəyönümlü və tələbyönümlü prinsiplər əsasında qurmaqla, şagirdlərin pedaqoji prosesin mərkəzində olmasını, onlara zəruri həyati bacarıqların aşılanmasını təmin etməlidir.
- Təlimin səmərəli təşkilini və onun qiymətləndirilməsinin müasir texnologiyalarını bilməli, yeni qiymətləndirmə sistemi, xüsusilə məktəbdaxili qiymətləndirmə haqqında biliklərə malik olmalıdır.

- Təlim prosesində və idarəetmədə müasir informasiya və kommunikasiya texnologiyalarından mükəmməl istifadəni təmin etməlidir.
- Normativ-hüquqi qaydaları, əmək qanunvericiliyinin əsaslarını bilməlidir və bunlara gündəlik fəaliyyətində riayət etməlidir.
- Fəaliyyəti planlaşdırmağı, təhlil etməyi, ümumiləşdirməyi və müasir hesabatverməni bacarmalıdır.
- Məktəbdə sağlam və təhlükəsiz mühitin, hüquqi məkanın yaradılmasını təmin etməlidir.
- Daim təhsilin, məktəbin, müəllimin nüfuzunun yüksəlməsinə səy göstərməli, müsbət ictimai rəyin formalaşdırılmasına nail olmalıdır.
- İctimaiyyətdə məktəbə və kollektivə inam formalaşdırmalı, fəaliyyətin bütün sahələri üzrə şəffaflığı təmin etməlidir.
- Müəllimlərin hər biri haqqında ətraflı və dəqiq informasiyaya malik olmalıdır.
- Hər bir müəllimin fəaliyyətini dərs ilinin yekununda qiymətləndirməli və nəticəsini müəllimə bildirməlidir.
- Səmərəli fəaliyyəti ilə fərqlənən işçilərin mütəmadi rəğbətləndirilməsi üzrə tədbirlər görməlidir.
- Hər bir müəllimin peşəkar inkişafı, təkmilləşdirilməsi və ixtisasının artırılması üzrə proqram hazırlayıb həyata keçirməlidir.
- Hər bir şagird barədə məlumatlı olmalı, onlarla sıx münasibətlər yaratmalı, məktəbin fəaliyyətinin təşkilində onların rəy və təkliflərini nəzərə almalıdır.
- Maliyyələşmə sahəsində bacarıqlara, iqtisadi biliklərə malik olmalı, dövlət tərəfindən ayrılan və digər mənbələrdən daxil olan vəsaitlərdən səmərəli istifadəni təmin etməlidir.
- Dərsliklərin təhlilini təşkil etməli, onların təkmilləşdirilməsi və dərslik siyasətinə dair təkliflərin hazırlanmasını, dərslik fondundan düzgün istifadəni təmin etməlidir.
- İstedadlı uşaqların aşkar edilməsi və onların inkişafı sahəsində proqramlar hazırlayıb həyata keçirməlidir.
- Məktəbdə təhsilin inklüzivliyinə maksimum şərait yaratmalıdır.
- Məktəb idarəetmə orqanlarının fəaliyyətini təşkil etməli və təhsil siyasətinə uyğun düzgün istiqamətləndirməlidir.
- Valideynlərlə işləməyi bacarmalı, onların idarəetmə prosesinə cəlb olunmasını təmin etməli, onlarla fərdi və kütləvi müzakirə və görüşlər keçirməli, valideyn birlikləri, assosiasiyaları ilə işgüzar əlaqələr yaratmalıdır.
- Digər dövlət müəssisələri və ictimai təşkilatlarla birgə iş təşkil etməlidir.
- Ölkədə və dünyada təhsil sahəsindəki tendensiyalarla, tətbiq edilən innovasiyalarla tanış olmalıdır.
- Məktəbin, müəllimlərin və şagirdlərin beynəlxalq layihə və proqramlarda iştirakını təmin etməlidir.
- Yüksək etik davranış mədəniyyətinə malik olmalı, mədəniyyəti, davranışı, xarici görünüşü ilə başqalarına nümunə olmalıdır.

- Saf mənəviyyata və nümunəvi əxlaqa malik olmalıdır.
- Liderlik keyfiyyətlərinə malik olmalı, kollektivi ümumi missiya ətrafında birləşdirməyi bacarmalı, komanda formalaşdırmalı, onları öz arxasınca apara bilməlidir.
- Özünə və tabeliyində olanlara yüksək tələbkarlıqla yanaşmalı, tənqid və özünütənqidi düzgün qarşılamalı, öz hüquqlarını qorumağı bacarmalı, başqalarının hüquqlarına hörmət etməlidir.
- Şəxsi intizam və icra mədəniyyətinə malik olmalıdır.
- Mətbuatı, o cümlədən pedaqoji mətbuatı müntəzəm izləməli, ümumi erudisiyaya, müasir dünyagörüşə və intellektual səviyyəyə malik olmalıdır.
- Milli-mənəvi keyfiyyətlərə malik olmalı və onu qiymətləndirməyi bacarmalıdır.
- Düşündüklərini şifahi nitqdə və yazıda məntiqli, dəqiq və düzgün ifadə etməyi bacarmalıdır.
- Təmkinli, ədalətli, diqqətli və nəzakətli olmalı, işçilərlə münasibətdə tolerantlığa, həssaslığa və tələbkarlığa riayət etməlidir.

Bütün bunlarla yanaşı, məktəblərin idarə edilməsi sahəsində davamlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutuldu:

- İdarəetmə üzrə mütəxəssis hazırlığının konsepsiya və strategiyasının hazırlanması.
- Təhsil meneceri hazırlığı üzrə kurikulumun işlənməsi və seçilmiş pilot ali məktəblərdə eksperimentdən keçirilməsi.
- Səriştəli direktor müavinləri arasından ehtiyat kadrların formalaşdırılması sisteminin yaradılması.
- Perspektivli müəllimlərin idarəetmə təlimlərinə cəlb edilməklə direktor müavini vəzifəsinə irəli çəkilməsi.
- Məktəblərin fəaliyyətinin qiymətləndirilməsi və reytinq cədvəlinin tərtib olunması üzrə mexanizmlərin işlənməsi.
- Məktəb direktorlarının fəaliyyətinin qiymətləndirilməsi üçün peşə standartlarının işlənməsi, qiymətləndirmənin həyata keçirilməsi, peşəkar inkişaf üçün təkliflərin hazırlanması.
- Məktəb direktorları üçün idarəetmə mövzuları üzrə treninq proqram və materiallarının hazırlanması, treninqlərin təşkili və keçirilməsi.
- Məktəb direktorlarının əlavə təhsili üzrə müasir proqramların işlənməsi, akkreditasiyadan keçirilərək tətbiq edilməsi.

2011-ci ilin sentyabr ayında ölkə başçısının Sərəncamı ilə Təhsil Nazirliyində ciddi kadr dəyişiklikləri aparıldı. 1999-cu ildən təhsil nazirinin müavini vəzifəsində işləyən İsgəndər İsgəndərov, Elmar Qasımov və 2002-ci ildən nazir müavini vəzifəsinə təyin olunmuş İradə Hüseynova Respublika Prezidentinin 14.09.2011-ci il tarixli Sərəncamı ilə işdən azad edildilər, elə həmin tarixli digər Sərəncamı ilə Nazirliyin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Qulu Novruzov nazir müavini təyin edildi.

Hazırda Nazirliyin Aparatının rəhbəri İlham Pirməmmədovdur. Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri Fərzəli Qədirov, Kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri Aydın

Əhmədov, Ali və orta ixtisas təhsili şöbəsinin müdiri İlham Mustafayev, İqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyev, Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri Təranə Hacıyeva, Təhsilin idarə olunmasının məlumat sistemləri şöbəsinin müdiri İsmayıl Sadıqov, Elm şöbəsinin müdiri Gültəkin Hüseynova, İlk peşə-ixtisas təhsili şöbəsinin müdiri Namiq Məmmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Tamilla Əliyeva, Dərslik və nəşriyyat şöbəsinin müdiri Faiq Şahbazlı, Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri Ağababa İbrahimov, Akkreditasiya şöbəsinin müdiri Həbib Zərbəliyev, Xüsusi şöbənin müdiri Mircəfər Nəbiyev, Ümumi şöbənin müdiri Xəyyam Fərəcov, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bayram Hüseynzadədir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 mart 2007-ci il tarixli Qərarı ilə Təhsil Nazirliyi Kollegiyasının tərkibi təsdiq edilmişdi.

Təhsil naziri Misir Mərdanov kollegiyanın sədri, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev, nazir müavinləri İsgəndər İsgəndərov, Elmar Qasımov, İradə Hüseynova, Nazirliyin Aparatının rəhbəri İlham Pirməmmədov, şöbə müdiri Fərzəli Qədirov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov, Azərbaycan Dövlət Neft Akademiyasının rektoru Siyavuş Qarayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Yusif Məmmədov, Təhsil Problemləri İnstitutunun rektoru Abdulla Mehrabov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Nailə Rzaquliyeva kollegiyanın üzvləri idi.

2011-ci ildə Nazirlər Kabinetinin qərarı ilə nazir müavini Qulu Novruzov kollegiya üzvü təyin edildi, nazir müavinləri İsgəndər İsgəndərov, Elmar Qasımov və İradə Hüseynova kollegiya üzvlüyündən azad edildilər.

Azərbaycanda təhsil siyasətinin formalaşmasında, təhsillə bağlı mühüm qərarların qəbul edilməsində və təhsil sisteminin idarə edilməsində Təhsil Nazirliyi ilə yanaşı, daha yüksək instansiyalar olan dövlət strukturlarının da böyük rolu vardır. Belə strukturlardan biri Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyadır. Bu Komissiya Azərbaycan Respublikası Prezidentinin 30 may 2005-ci il tarixli Sərəncamı ilə yaradılmışdır. Təhsil üzrə Komissiyaya yarandığı vaxtdan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri **Ramiz Mehdiyev** başçılıq edir.



Ramiz Mehdiyev
(1938)

Mehdiyev Ramiz Ənvər oğlu Bakı şəhərində anadan olmuşdur. Bakı Dənizçilik məktəbini (1957), ADU-nun tarix fakültəsini bitirmişdir (1965). Naxçıvan vilayət komsomol komitəsinin ikinci katibi (1965–1967), ADU-nun Elmi kommunizm kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışmışdır (1972–1974). Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdiri (1976–1978), 26 Bakı komissarı rayon komitəsinin 1-ci katibi (1978–1980). Azərbaycan KP MK-da şöbə müdiri, katib (1981–1988), AMEA İctimai-siyasi tədqiqatlar və informasiya institutunda şöbə müdiri (1988–1994), Prezident Aparatında şöbə müdiri (1994). Prezident Aparatının rəhbəri (1995) vəzifələrində işləmişdir. Namizədlik (1972) və doktorluq (1993) dissertasiyaları müdafiə etmişdir. 2009-cu ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. Həqiqi Dövlət müşaviridir. Nyu-York EA-nın (2001) üzvü, AMEA-nın həqiqi üzvüdür (2007). «İstiqlal» ordeni ilə təltif olunmuşdur (2008).

Heydər Əliyev irsinin araşdırılması, dövlət quruculuğu və fəlsəfə ilə bağlı çoxlu sayda kitab və məqalənin müəllifidir.

Sonrakı illərdə Sərəncama bir sıra dəyişiklik və əlavələr olundu. 2011-ci ildə Respublika Prezidentinin Sərəncamı ilə Komissiyanın yeni tərkibi təsdiq edildi.

Komissiya təhsilin inkişafı üzrə strateji fəaliyyət istiqamətlərini müəyyənləşdirir, təhsil sahəsində mühüm qərarlar qəbul edir və vəzifələri müəyyənləşdirir, xaricdə təhsil üzrə Dövlət proqramının icrası sahəsində məsələləri tənzimləyir. 2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarət edir, kadr hazırlığı üzrə dövlət sifarişini təsdiq edir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA TƏHSİL ÜZRƏ KOMİSSİYANIN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

(Çıxarış)

1. Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Komissiyanın sədri:

Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

Komissiyanın üzvləri:

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini;

Mahmud Kərimov – Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti;

Fatma Abdullazadə – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri;

Misir Mərdanov – Azərbaycan Respublikasının təhsil naziri;

Fikrət Məmmədov – Azərbaycan Respublikasının ədliyyə naziri;

Şahin Mustafayev – Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri;

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri;

Azad Rəhimov – Azərbaycan Respublikasının gənclər və idman naziri;

Məleykə Abbaszadə – Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 fevral 2011-ci il

1993-cü ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri üzrə şöbəsinə **Fatma Abdullazadə** rəhbərlik edir. Humanitar siyasət məsələləri üzrə şöbənin müdir müavini vəzifəsində uzun illər Tariyel Həsənov işləmişdir. Hazırda isə həmin vəzifədə Məhərrəm Əhmədov çalışır.

Azərbaycan Respublikası Baş nazirinin müavini **Elçin Əfəndiyev** Nazirlər Kabinetində təhsil məsələlərinə rəhbərlik edir.

Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin müdiri **İsmayıl Sadıqovdur.**



Fatma Abdullazadə
(1948)

Abdullazadə Fatma Hüseyn qızı Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetini və Moskva İctimai Elmlər Akademiyasını bitirmişdir. ADU-nun Funksiyalar nəzəriyyəsi kafedrasında baş laborant (1971), Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, baş elmi işçi (1974–1985), Azərbaycan KP MK-nın Elm və tədris müəssisələri şöbəsində təlimatçı (1985), Azərbaycan SSR Elmlər Akademiyasının partiya komitəsinin katibi (1985–1987), Azərbaycan KP MK-nın Elm və tədris müəssisələri şöbəsində müdir müavini (1987–1990), Azərbaycan Dövlət Neft Akademiyasında dosent (1989–1993), Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri (1993–2005) vəzifələrində işləmişdir. Namizədlik (1981) və doktorluq (1992) dissertasiyaları müdafiə etmişdir. Hazırda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri vəzifəsində çalışır. 1-ci dərəcə dövlət müşaviridir.

Şöhrət ordeni ilə təltif olunmuşdur.

Şöbə müdirinin müavini vəzifəsində isə Qurban Əmirov işləyir.

Azərbaycan Respublikası Milli Məclisində təhsil qanunvericiliyi ilə bağlı məsələlərə Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Ziyat qızı Abbasova rəhbərlik edir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, təhsil ictimai dəstəksiz inkişaf edə bilməz. Çünki ictimaiyyət təhsil prosesinin təşkili və idarəolunmasında fəal iştirak edir. Eyni zamanda beynəlxalq təcrübədə ictimaiyyətin rəyi təhsilin keyfiyyəti barədə etibarlı qiymət kimi qəbul edilir.

Ölkəmizdə son vaxtlaradək müəyyən səbəblərdən ictimaiyyətin təhsil prosesində iştirakı özünü yalnız tənqidi rəylərin irəli sürülməsində, təhsildə neqativ halların və problemlərin qabardılmasında, nailiyyətlərin arxa plana keçirilməsində büruzə verirdi. Təhsilə dəstək, problemlərin həllində iştirak, obyektiv ictimai rəy formalaşdırmaq kimi vacib məsələlər isə kölgədə qalırdı. Təqdirəlayiq haldır ki, son vaxtlar ictimai rəydə müsbət dəyişikliklər baş verməkdədir. Bunun əsas səbəblərindən biri təhsilin dövlətin siyasətində prioritet təşkil etməsidir. Digər səbəb isə ictimai qurumlarla, təşkilatlarla işin səmərəli təşkilidir. Bununla belə təhsilə ictimai dəstəyin təmin edilməsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi həmişə diqqət mərkəzində olmalıdır. Təhsilin əhəmiyyəti, ölkədə təhsilin prioritet rolu barədə məlumatların ictimaiyyətə çatdırılması; müvafiq inkişaf proqramları, əldə edilən nailiyyətlər barədə ictimaiyyətə ətraflı məlumatın çatdırılması; digər mərkəzi



Elçin Əfəndiyev
(1943)

Əfəndiyev Elçin İlyas oğlu Bakı şəhərində anadan olmuşdur. ADU-nun filologiya fakültəsini (1965), Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını (1968) bitirmişdir. Namizədlik (1970) və doktorluq (1998) dissertasiyaları müdafiə etmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. Hazırda Azərbaycan Respublikası Baş nazirinin müavini, eyni zamanda Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyəti – «Vətən» Cəmiyyətinin sədri vəzifələrində çalışır. Bakı Dövlət Universitetinin professorudur. Bir sıra Dövlət Komissiyalarının sədri, Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyanın, həmçinin nüfuzlu Azərbaycan və beynəlxalq ədəbi, ictimai qurumlarının üzvüdür. Dünyanın müxtəlif dillərində 100-ə yaxın kitabı nəşr olunmuşdur. Kitablarının ümumi tirajı 5 milyondan çoxdur.

Əməkdar incəsənət xadimi, xalq yazıçısıdır.

Şərəf nişanı, Xalqlar dostluğu və İstiqlal ordenləri ilə təltif olunmuşdur.



İsmayıl Sadıqov
(1941)

Sadıqov İsmayıl Rza oğlu Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1962). Həmin institutda laborant, baş laborant, assistent, baş müəllim, dosent və kafedra müdiri vəzifələrində işləmişdir (1962–1983). Azərbaycan Respublikası Nazirlər Sovetinin şöbə müdiri (1983) təyin edilmişdir. Namizədlik (1970) və doktorluq (1984) dissertasiyaları müdafiə etmişdir. Beynəlxalq Mühəndislər Akademiyasının müxbir üzvü (1994), həqiqi üzvü (1997). Azərbaycan Mühəndislik Akademiyasının akademiki (2006) seçilmişdir.

60-dan çox elmi əsərin müəllifidir. AMEA-nın Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının və Şura Bürosunun üzvüdür.

2-ci dərəcə dövlət müşaviri ixtisas dərəcəsinə (2010). Əməkdar dövlət qulluqçusu fəxri adına layiq görülmüş (2006), 1-ci dərəcəli Vətənə xidmətə görə ordeni ilə təltif olunmuşdur (2011). Hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsində çalışır.

icra hakimiyyəti orqanları tərəfindən təhsil sahəsində həyata keçirilən tədbirlər barədə maarifləndirmə işinin aparılması; təhsil sahəsindəki mövcud problemlər barədə məlumatların verilməsi, həmin problemlərə həsr olunmuş diskussiyaların təşkili; yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə səmərəli əməkdaşlıq sisteminin yaradılması, ictimai rəyin formalaşdırılması prosesində onların imkanlarından, KİV-lərin, müasir informasiya texnologiyalarının imkanlarından səmərəli istifadə edilməsi və s. tədbirlər bu qəbildəndir.

Təhsil işçilərinin hər il keçirilən Respublika konfransları təhsili idarəetmə orqanları, təhsil müəssisələri və təhsil ictimaiyyəti üçün əhəmiyyətli hadisəyə çevrilir. Çünki məhz bu konfranslar təhsilin yaxın perspektivdə inkişaf istiqamətlərini müəyyənləşdirməklə yerlərdə keçiriləcək konfranslar üçün mayak rolunu oynayır.

Hələ sovet dövründən ümumi təhsil sahəsində rəhbər təhsil işçilərinin konfransları keçirilirdi və hər dərs ili ərəfəsində avqust ayında keçirildiyi üçün həmin konfranslar avqust konfransları adlandırılırdı. Konfransların məqsədi ötən dərs ilində qazanılmış nailiyyətlərin təhsil işçilərinə və ictimaiyyətə çatdırılması, həll edilməsi vacib olan problemlərin müzakirəsi və yeni dərs ilində qarşıda duran vəzifələrin diqqətə çatdırılması idi.

Respublika konfransı keçirildikdən sonra isə hər bir rayonda, şəhərdə təhsil işçilərinin konfransları keçirilirdi. Bu konfranslara Təhsil Nazirliyi tərəfindən nümayəndələr göndərilirdi. Yerlərdə avqust konfransları iki gün keçirilirdi. Birinci gün plenar iclas olurdu. Plenar iclasda rayon, şəhər icra hakimiyyəti başçısının təhsilin vəziyyəti ilə əlaqədar məruzəsi dinlənilirdi və məruzə ətrafında çıxışlar olurdu. Plenar iclasda rayonun, şəhərin bütün dövlət strukturlarının rəhbərləri, o cümlədən hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edirdilər. İkinci gün isə hər bir fənn üzrə bölmə iclasları keçirilirdi. Ən yaxşı müəllimlər, metodistlər bu iclaslarda müəllimlərə yeni dərs ilində fənn üzrə proqramlardakı yeniliklər və qarşıda duran vəzifələri şərh edirdilər.

Konfranslara metodik kömək göstərilməsi məqsədilə Təhsil Problemləri İnstitutu tərəfindən hər dərs ili ərəfəsində «Tövsiyələr» hazırlanırdı və yerli təhsili idarəetmə orqanlarına göndərilirdi.





Təhsil işçilərinin Respublika Konfransı. Tribunada Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev. 2005-ci il

Müstəqilliyin ilk illərində rəhbər təhsil işçilərinin respublika konfransları keçirilmirdi. Konfranslar yalnız rayon, şəhər səviyyəsində təşkil edilirdi. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında «Bilik günü»nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında» 21.08.2004-cü il tarixli Fərmanı ilə təhsil müəssisələrində dərslərin sentyabrın 15-də başlanması təsbit edildi. Bundan sonra təhsil işçilərinin konfransları hər il sentyabr ayında keçirilməyə başlandı və sentyabr konfransları adlandırıldı.

2005-ci ildən başlayaraq təhsil işçilərinin konfranslarının keçirilməsi ənənəsi bərpa olundu və bu konfransların statusu xeyli yüksəldi. Əhəmiyyətli yeniliklərdən biri də bu idi ki, artıq konfranslar yalnız ümumi təhsili deyil, təhsilin bütün pillələrini əhatə edirdi.

2005/06-cı dərs ilində Təhsil Nazirliyi tərəfindən Rəhbər təhsil işçilərinin konfransı Musiqili Komediya Teatrının binasında təşkil edildi. Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev məruzə ilə çıxış etdi və təhsil sektorunun ayrı-ayrı sahələri üzrə tənqidi qeydlərini bildirdi.

2007-ci il sentyabrın 5-də «2006/07-ci dərs ilinin yekunları və qarşıda duran vəzifələr» mövzusunda Rəhbər təhsil işçilərinin II konfransı keçirildi. Konfransda mənim məruzəm dinlənildi. Yeniliklərdən biri bu oldu ki, ilk dəfə olaraq mənim məruzəm görüntülərlə, slaydlarla müşayiət olundu.

2008-ci ildən başlayaraq sonrakı illərdə Rəhbər təhsil işçilərinin konfranslarının formatı daha da təkmilləşdirildi, iştirakçıların əhatə dairəsi xeyli genişləndi. «Gülüstan» sarayında keçirilən həmin konfranslarda bütün ali, orta ixtisas təhsili müəssisələrinin rəhbərləri, rayon, şəhər təhsil şöbələrinin müdirləri, seçmə yolla texniki-peşə, orta ixtisas və ümumtəhsil məktəblərinin direktorları, ilin ən yaxşı 50 məktəbi və 100 müəllimi iştirak edirdilər. Prezident Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin nümayəndələrinin konfranslarda iştirakı da ənənə halını almışdı. Mənim məruzələrim artıq təqdimat şəklində həyata keçirilirdi. Çıxışlar da təqdimat formasında edilirdi. Ən əhəmiyyətli cəhətlərdən biri də bu idi ki, əsas təqdimat hərtərəfli təhlillərə əsaslanırdı və təhsil sektorunun bütün sahələrini əhatə edirdi. Bu konfranslarda Azərbaycanda təhsil sahəsində həyata keçirilən islahatlar və onların nəticələri barədə məlumatlar verilirdi. Eyni zamanda hər bir təhsil pilləsi üzrə qarşıda duran konkret vəzifələr təhsili idarəetmə orqanlarının rəhbərlərinə çatdırılırdı. Bir sıra hallarda konfrans materialları çap edilib iştirakçılara paylanırdı və sonradan kitablar şəklində nəşr edilir, Nazirliyin internet saytında yerləşdirilirdi. 2008/09, 2009/10 və 2010/11-ci tədris illərində də təhsil işçilərinin respublika konfransları yüksək səviyyədə keçirilmişdir.

2.11. Azərbaycan müəllimlərinin XIII qurultayı

Azərbaycan müəllimlərinin 2003-cü ilin sentyabrında keçirilmiş XII qurultayından ötən müddət ərzində ölkədə aparılan təhsil islahatlarının gedişi, təhsilin inkişafı üzrə əldə olunmuş nailiyyətlər barədə Azərbaycan ictimaiyyətinə

geniş məlumat vermək və milli təhsil quruculuğu sahəsində qarşıda duran vəzifələri və mövcud problemləri müzakirə edib müvafiq qərarlar qəbul etmək məqsədilə 22 sentyabr 2008-ci ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan müəllimlərinin XIII qurultayı keçirildi.

Qurultayda 836 nümayəndə, eyni zamanda Prezident Aparatının məsul işçiləri, Hökumət nümayəndələri, Milli Məclisin daimi komissiya sədrləri və üzvləri, ayrı-ayrı dövlət qurumlarının rəhbər işçiləri, xarici ölkələrin səfirləri, beynəlxalq və qeyri-hökumət təşkilatlarını təmsil edən 120 nəfər qonaq iştirak edirdi.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxudu. Mən, Azərbaycan Respublikasının təhsil naziri kimi hesabat məruzəsi etdim. Məruzədə 2003–2008-ci illərdə Azərbaycanda təhsilin



Azərbaycan müəllimlərinin XIII qurultayının açılışı. 22 sentyabr 2008-ci il



Azərbaycan müəllimlərinin XIII qurultayı. Soldan: Bakı şəhər 23№-li məktəbin direktoru İradə Rəhimli və Şuşa şəhər 1№-li məktəbin müəllimi Məlahət Babayeva, tribunada Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə.
22 sentyabr 2008-ci il

davamlı inkişafı, təhsilin cəmiyyətin inkişafında rolu, hər bir təhsil pilləsi üzrə inkişaf göstəriciləri, həyata keçirilən 14 dövlət proqramı çərçivəsində görülən işlər, aparılan islahatlar və onların nəticələri öz əksini tapmışdı.

Məruzə ətrafında Naxçıvan MR təhsil naziri Piri Nağıyev, Milli Məclisin Elm və təhsil daimi komissiyasının sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Şəmsəddin Hacıyev, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, professor Seyfəddin Qəndilov, Seyid Cəfər Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının ibtidai sinif müəllimi Aybəniz İbrahimova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqoji fakültəsinin dekanı, professor Fərrux Rüstəmov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Nailə Rzaquliyeva çıxış etdilər.

Bakı şəhər 12№-li peşə liseyinin direktoru Şərif Hacıyevin, Bakı şəhəri 332№-li uşaq bağçasının müdiri Lalə Qəmbərovanın, Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, professor Nurlana Əliyevanın, Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdiri Vidadi Bağırovun, Bakı şəhər 18№-li məktəbin Valideyn-Müəllim Assosiasiyasının sədri Azər Hətəmovun, Azərbaycan Uşaq Hüquqları Alyansının sədri Nabil Seyidovun, Bakı şəhəri Heydər Əliyev

adına liseyin direktoru Fikrət Xəlilovun, Bakı Avropa Liseyinin müəllimi Xumar Əhmədbəylinin, Şəmkir rayonu Zəyəm Cırdaxan kənd 1№-li orta məktəbin müəllimi Ruslan İbrahimovun, Zaqatala Humanitar fənlər gimnaziyasının müəllimi Bahar İsmayılovanın, Lənkəran şəhər 4№-li məktəbin direktoru Yeganə Əsgərovanın, Gəncə şəhər 22№-li orta məktəbin ibtidai sinif müəllimi Afaq Əliyevanın, Bakı şəhər 12№-li İxtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin direktoru Elçin Mehdizadənin çıxışları da maraqla dinlənildi.

Qurultay Azərbaycan xalqına müraciət və qətnamə qəbul etdi. Qətnamədə aşağıdakı məsələlər öz əksini tapmışdı:

- Məktəbəqədər təhsil müəssisələrində uşaqların erkən yaş dövründən əqli, fiziki və mədəni inkişafına hərtərəfli şəraitin yaradılması, kompyuter və xarici dil təlimi də daxil edilməklə məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsi və bütün ailələrə əlçatan olması üçün beynəlxalq təcrübədə sınaqdan çıxmış qısamüddətli, habelə ailə tipli məktəbəqədər təhsil xidmətlərinin tətbiq olunması, 5 yaşlıların hamılıqla məktəbə hazırlığının təmin olunması üçün zəruri tədbirlərin həyata keçirilməsi.
- Ümumi təhsil sistemində infrastrukturun getdikcə daha da yaxşılaşdırılması.
- Əsas və orta təhsil pillələri üçün yeni fənn kurikulumlarının hazırlanması və təsdiqi. Həmin kurikulumlarla işləyəcək müəllimlərin xüsusi təlim kurslarından keçirilməsi.
- İbtidai təhsil pilləsində mərhələlərlə yeni kurikulumların tətbiqi vəziyyətinin monitorinqinin aparılması, nəticədən asılı olaraq müvafiq korrektə və təkmilləşdirmə işlərinin həyata keçirilməsi.
- Ümumtəhsil məktəblərində xarici dillərin intensiv və səmərəli öyrədilməsi üçün müasir təlim strategiyalarının tətbiqi, bu sahədə aparılan eksperimentlərin genişləndirilməsi.
- Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə (2009–2014-cü illər) çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icra mexanizmlərinin hazırlanması və həyata keçirilməsi.
- Dərslik və dərslik komplektlərinin yaradılması istiqamətində işlərin ardıcıl davam etdirilməsi. Dərsliklərin qiymətləndirilməsi təcrübəsinin daha da təkmilləşdirilməsi, bu məqsədlə beynəlxalq təcrübədən səmərəli istifadə olunması.
- Məktəb kitabxanalarının dərslik fondunun daim yeniləşdirilməsi, tədris-metodik və bədii ədəbiyyat, uşaq ensiklopediyaları və digər ensiklopedik vəsaitlər, elektron tədris resursları ilə müntəzəm zənginləşdirilməsi.
- İnkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmaqla gündəlik cari qiymətləndirmə formasından tədricən imtina edərək şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi mexanizminin tətbiqi üzrə zəruri tədbirlərin həyata keçirilməsi.
- Şagird nailiyyətlərinin yekun qiymətləndirilməsində mərkəzləşdirilmiş buraxılış imtahanı formasının əhatə dairəsinin genişləndirilməsi və tədricən ölkənin bütün məktəblərində tətbiq olunması.

- Ümumi təhsil sistemində baş verən dəyişiklikləri və kurikulumların keyfiyyətini dəyərləndirmək məqsədilə müəyyən olunmuş müddətlərdə ibtidai, əsas və orta təhsil pillələrində milli qiymətləndirmənin aparılması üçün müvafiq model və mexanizmlərin hazırlanıb tətbiq edilməsi.
- İstedadlı uşaq və gənclərin aşkara çıxarılması və inkişafı üzrə iş sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi.
- Bütövlükdə təhsil sisteminin informasiyalaşdırılması ilə bağlı dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin ardıcıl və vaxtında həyata keçirilməsi üçün çevik icra mexanizmlərinin yaradılması və tətbiqi.
- Adambaşına maliyyələşmə sahəsində aparılan eksperimentlərin coğrafiyasının genişləndirilməsi, vauçer sisteminə keçidlə bağlı təkliflərin hazırlanması.
- Məktəb şəbəkəsinin rasionallaşdırılması ilə bağlı aparılan təhlillərin nəticələrinə görə təkliflərin hazırlanması.
- Pedaqoji kadrların seçilib yerləşdirilməsi və müəllim fəaliyyətinin lisenziyalaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilib tətbiq edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi.
- Respublikanın ucqar yaşayış məntəqələrindəki ümumtəhsil məktəblərində pedaqoji kadr təminatının monitorinqinin aparılması və nəticələr əsasında müvafiq dövlət proqramının hazırlanıb təqdim olunması.
- Dövlət Proqramına əsasən texniki-peşə təhsili sisteminin təkmilləşdirilməsi və müəssisələrin fəaliyyətinin yaxşılaşdırılması sahəsində zəruri tədbirlərin görülməsi.
- Regionların tələbatına görə müvafiq kadr və müəllim hazırlığı sahəsində orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin monitorinqinin aparılması və təkliflərin hazırlanması.
- Ali təhsil sistemində normativ-hüquqi bazanın və təhsilin məzmununun yeniləşdirilməsi, infrastrukturun müasir tələblərə uyğun qurulması, kadr hazırlığının təkmilləşdirilməsi, elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi, müasir maliyyələşdirmə mexanizmlərinin tətbiqi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi.
- Təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, birgə layihə və proqramların reallaşdırılması üzrə həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması.

2.12. Ümumi təhsil sistemində məzmun islahatları.

Dərslik islahatının üçüncü mərhələsi

Azərbaycan hökumətinin təhsil siyasətinə uyğun olaraq 2003-cü ildən başlayaraq mərhələlərlə ümumtəhsil məktəblərinin V–XI sinif dərsliklərinin də dövlət vəsaiti hesabına nəşr edilməsi Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş «2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun

azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı» əsasında həyata keçirilirdi. Proqramın icrası ilə bağlı Nazirlər Kabinetinin 20 avqust 2003-cü il tarixli Sərəncamına uyğun olaraq 2003/04-cü tədris ilində 97 adda (o cümlədən I–IV sinif şagirdləri üçün 31 adda, V sinif şagirdləri üçün 13 adda və VI–XI siniflərdə oxuyan qaçqın və məcburi köçkün şagirdlər üçün 53 adda) dərslik dövlət vəsaiti hesabına çap olunub şagirdlərin istifadəsinə verildi.

2004-cü ildə təlim qeyri-Azərbaycan dilində olan məktəblərin I–XI sinifləri üçün «Azərbaycan dili» və «İnformatika» proqramları təsdiq olundu. Ümumtəhsil məktəb proqramlarının hazırlanmasında görkəmli alimlər Yaqub Mahmudov, İsaq Məmmədov («Tarix»), Yusif Seyidov («Azərbaycan dili»), Məmməd Yaqubov («Riyaziyyat»), Mirzəli Murquzov («Fizika»), Vaqif Abbasov («Kimya»), Müseyib Müseyibov («Coğrafiya»), Məcnun Babayev («Biologiya»), Nizami Cəfərov və Pənah Xəlilov («Ədəbiyyat»), Ramin Mahmudzadə («İnformatika»), Əjdər Ağayev («İnsan və cəmiyyət») və Vidadi Xəlilovun («Musiqi və nəğmə») rəhbərlik etdiyi işçi qruplarında tanınmış ali və orta məktəb müəllimləri yaxından iştirak etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2004-cü il tarixli Sərəncamına uyğun olaraq «2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın icrasını təmin etmək məqsədilə dövlət ümumtəhsil məktəblərinin I–XI sinif şagirdlərinin dövlət vəsaiti hesabına dərsliklərlə təmin olunması işini tənzimləmək üçün hazırlanan «Dərsliklərin nəşri, çapı və paylanması qaydaları» 8 dekabr 2004-cü il tarixli Şəhadətnamə ilə Ədliyyə Nazirliyində qeydiyyata alındı. 2004/05-ci tədris ilində dövlət vəsaiti hesabına 35 adda («Əlifba» və VI–VII siniflər üçün 34 adda) dərslik çap edildi, respublikanın I–VII sinif şagirdləri və eləcə də I–XI siniflərdə oxuyan qaçqın və məcburi köçkün şagirdlər dərsliklərlə təmin olundu.

2005-ci ildə ümumtəhsil məktəblərinin VIII–XI sinifləri üçün «İnsan və cəmiyyət» proqramı çap olundu. Həmin il V–XI siniflər üzrə seçmə fənlər də nəzərə alınmaqla proqramlar müvafiq olaraq iki variantda hazırlanmışdı ki, bu da müəllimlərin işini xeyli asanlaşdırırdı.

2005/06-cı tədris ilinə Dövlət Proqramına uyğun olaraq ümumtəhsil məktəblərinin I–XI sinifləri üçün dövlət vəsaiti hesabına 117 adda dərslik çap olundu. Beləliklə, «2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»na müvafiq olaraq 2005/06-cı tədris ilində ümumtəhsil məktəblərinin I–XI sinif şagirdlərinin dövlət vəsaiti hesabına dərsliklərlə təminatı uğurla başa çatdırıldı. Azərbaycan postsovet məkanında orta məktəb şagirdlərinin dövlət vəsaiti hesabına dərsliklərlə təminatını reallaşdıran yeganə ölkə oldu.

Biz yeni dərslik siyasətini hazırlayarkən dünya təcrübəsinə istinad etdik. Dünya təcrübəsi göstərir ki, hər bir sinif üzrə dərsliklər hər il şagirdlərin sayı qədər çap olunmur. Bu, keçmiş Sovetlər Birliyinin təcrübəsində də belə idi. Hər tədris ilinin sonunda şagirdlər dərsliklərı məktəbin kitabxana fonduna təhvil verir, kitabxanalarda dərsliklərin dəqiq qeydiyyatı

aparılır və şagirdlər fondda olan dərsliklərlə təmin edilirlər. Biz də bu təcrübədən istifadə edərək ölkəmizdə dərslik hazırlığı və şagirdlərin dərsliklə təminatı sahəsində mövcud olan bir sıra problemlərin aradan qaldırılmasına nail olduq.

Lakin dərslik hazırlığı sahəsində uğurlarla yanaşı, bir sıra problemlər də müşahidə olunurdu. İctimaiyyəti və mütəxəssisləri narahat edən məsələlərdən biri bu idi ki, bir sıra dərsliklər həddən artıq yüklənmişdi, şagirdlərin yaş xüsusiyyətlərinə uyğun deyildi. Tədris planında həftədə bir və ya iki saat tədrisi nəzərdə tutulan fənnin dərsliyi 300–400 səhifədən ibarət idi.

Aparılmış monitorinqlər göstərirdi ki, dərsliklərin məzmunu ağırdır, bir çox hallarda müəlliflər və nəşriyyatlar daha çox məlumatın dərsliyə daxil edilməsinə səy göstərir, şagirdlərin yaş xüsusiyyətlərini və potensial imkanlarını nəzərə almırlar.

Nəticədə belə bir qərar qəbul edildi ki, tədris planında fənnə ayrılan saatlara uyğun həcm müəyyənləşdirilsin və müəlliflərə tövsiyə edilsin. Bundan sonra bir sıra dərslik müəllifləri bu tövsiyələrə uyğun olaraq təkmilləşdirmə işləri apardılar. Beləliklə, 2001-ci illə müqayisədə 2005/06-cı tədris ilində istifadə olunan VIII sinif «Orta əsrlər tarixi» dərsliyinin həcmi 22,5 çap vərəqindən 10,5-ə, IX sinif «Yeni tarix» 20-dən 8-ə, X sinif «Yeni tarix» və XI sinif «Ən yeni tarix» 26-dan 9-a, X sinif «Azərbaycan tarixi» 28-dən 15-ə, XI sinif «Azərbaycan tarixi» 22-dən 15-ə, IX sinif «Coğrafiya» 18,5-dən 10-a, IX sinif «Ədəbiyyat» 24-dən 16-ya, X sinif «Ədəbiyyat» 27-dən 12-yə, XI sinif «Ədəbiyyat» 23-dən 12-yə, V sinif «Riyaziyyat» 21-dən 17-yə, VIII sinif «Cəbr» 19-dan 15-ə, IX sinif «Cəbr» 20-dən 15-ə, V sinif «İngilis dili» 21,5 çap vərəqindən 16 çap vərəqinə endirildi.

Digər bir problem ondan ibarət idi ki, dərsliklərin müəllifləri əsasən ali məktəblərdə çalışan alimlərdən ibarət idi. Onlar ümumtəhsil məktəblərinin müəllimlərinin, şagirdlərinin problemlərini kifayət qədər bilmirdilər. Bu problemi qismən də olsa aradan qaldırmaq məqsədilə orta məktəblərdə çalışan qabaqcıl müəllimlərin dərslik hazırlığı prosesinə cəlb edilməsi qərara alındı.

Ümumtəhsil məktəb müəllimlərinin dərslik hazırlığına cəlb edilməsi ilk vaxtlar böyük müqavimətlə qarşılandı. Uzun müddət dərslik müəllifi olan və bu sahədə monopoliya yaradanlar müəllimlərin bu işin öhdəsindən gələ bilməyəcəkləri barədə rəy formalaşdırmağa başladılar. Lakin zaman göstərdi ki, bilavasitə məktəblərdə fənni tədris edən, dərsliklə işləyən müəllimlər peşəkar dərslik müəllifi ola bilərlər.

Beləliklə, V–XI siniflər üçün «Riyaziyyat», «Cəbr», «Həndəsə», VII sinif üçün «Coğrafiya», VIII–X siniflər üçün «İnformatika», X sinif üçün «Fizika», VIII–XI siniflər üçün «İnsan və cəmiyyət», VII–XI siniflər üçün «Rus dili», IX–X siniflər üçün «İngilis dili», VII–XI siniflər üçün «Azərbaycan tarixi», «Orta əsrlər tarixi», «Yeni tarix», VII, X–XI siniflər üçün «Ədəbiyyat», VIII–IX siniflər üçün «Azərbaycan dili» dərsliklərinin müəllifləri həm də orta məktəb müəllimləri oldu. Dərslik hazırlığı prosesində orta məktəb müəllimlərinin iştirakı son nəticədə dərsliklərin keyfiyyətinin yüksəldilməsinə, məzmundakı xətaların minimuma endirilməsinə gətirib çıxardı.

Təhsil Nazirliyi hər il nəşri planlaşdırılmış dərsliklərin üzərində işləmək üçün işçi qrupları yaradılması ilə yeni bir ənənənin əsasını qoydu. İşçi qruplarının tərkibinə ayrı-ayrı fənlər üzrə ən yaxşı müəllimlər cəlb olunur və bu qrup tərəfindən dərsliklər ciddi təhlil edilir, onların rəy və təklifləri əsasında müəlliflərlə birlikdə düzəlişlər aparılırdı. Eyni zamanda bu prosesdə iştirak edən müəllimlər rəsmi rəyçilər kimi çıxış edirdilər.

Digər tərəfdən nəşrə hazırlanarkən dərsliklər bilavasitə onlarla tədris aparan müəllimlərlə birlikdə müzakirə olunur, müəllimlərin təklifləri və tövsiyələri dinlənilirdi. Sonradan həmin təklif və tövsiyələr də dərsliklərin yeni nəşrlərində nəzərə alınırdı.

Təhsil Nazirliyi bütün bu illər ərzində ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanması işinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görərək irəliləyişlər əldə etsə də, bununla kifayətlənməmiş, paralel olaraq bu sahədə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsini öyrənmiş, təhlil etmiş, düşünülmüş siyasət hazırlamışdı. Əlbəttə, bu siyasətin reallaşdırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi, müəyyən normativ sənədlərin yaradılması vacib idi.

2005-ci ildə qeyri-hökumət təşkilatlarının nümayəndələri də cəlb olunmaqla «Ümumi təhsil sistemində dərslik siyasəti» sənədi hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti ilə razılaşdırıldıqdan sonra Nazirliyin 23.01.2006-cı il tarixli əmri ilə təsdiq edildi. «Ümumi təhsil sistemində dərslik siyasəti» sənədində bu siyasətin əsas prinsipləri, dərsliklərin məzmununa verilən əsas tələblər, dərsliklərin dili, Dərslikləri Qiymətləndirmə Şurası, yeni dərsliklərin yaradılması, təsdiqi və nəşri, müəllif və nəşriyyatların hüquqları, dərsliklərin alınması və şagirdlərə çatdırılması, dərslik fondu, elektron dərsliklər, dərslik siyasətinin həyata keçirilməsində Təhsil Nazirliyinin funksiyaları, təhsil orqanları və məktəblərin vəzifələri öz əksini tapmışdı. Əsas yeniliklərdən biri də bu idi ki, yeni yaranan dərsliklər yalnız Dərslikləri Qiymətləndirmə Şurası tərəfindən ekspertizadan keçirilib müsbət qiymətləndirildiyi halda, Nazirliyin əmri ilə təsdiq olunurdu. Sənədə əsasən «Dərslikləri Qiymətləndirmə Şurasının Əsasnaməsi», «Dərsliklərin qiymətləndirilməsi meyarları», «Yeni dərsliklərin yaradılması qaydaları» və «Dərsliklərin texnoloji və gigiyenik standartları» sənədləri hazırlanmış, Təhsil Nazirliyinin müvafiq əmrləri ilə təsdiq edilmişdi. Ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı işlərinin icrasına Nazirliyin Dərslik və nəşriyyat şöbəsinin müdiri Faiq Şahbazlı rəhbərlik edirdi.

Hər hansı bir təhsil səviyyəsində (pilləsində) uğurlu nəticənin əldə olunması, heç şübhəsiz, həmin pillə üzrə təhsilin məzmununun nə dərəcədə optimal və məqsədyönlü müəyyənləşdirilməsindən birbaşa asılıdır. İctimai tələb, cəmiyyətin inkişaf perspektivləri bütün dövrlərdə təhsilin məzmunu ilə bağlı vəzifələrin dəqiqləşdirilməsində əsas amil olmuşdur.

İnkişaf etmiş ölkələrin təcrübəsində ümumi təhsilin məzmununa, onun müntəzəm surətdə yeniləşdirilməsi və təkmilləşdirilməsi, zəruri biliklərin mənimsənilməsi ilə yanaşı, təhsilalanlarda həyati bacarıq və vərdişlərin formalaşmasına daha çox diqqət yetirilir. Çünki sonrakı təhsil mərhələləri ümumi təhsilin nəticələri

üzərində qurulur. İnsan gələcək həyat fəaliyyətini təmin edən ayrı-ayrı sahələr üzrə müəyyən biliklərə, bacarıq və vərdişlərə məhz orta məktəbdə yiyələnir. Bu mənada ümumi təhsil vətəndaşın sonrakı inkişafı üçün bünövrə rolunu oynayır.

2002-ci ildə Təhsil Nazirliyi və Dünya Bankının ekspertləri tərəfindən aparılan birgə tədqiqatlar mövcud tədris proqramları ilə bağlı əsas problemləri aşkar etmişdi. **Birinci problem** məzmunun nəticəyönümlü deyil, təklifyönümlü olması idi. Yəni tədris proqramları mövzuların siyahısından və mətnlərdən ibarət idi, qiymətləndirmə standartları və üsulları barədə heç bir məlumat verilmirdi. Qiymətləndirmə məzmunun tərkib hissəsi sayılmırdı. Nəticədə şagirdin hansı bilik və bacarıqları əldə edəcəyi müəyyən deyildi.

İkinci problem məzmunun nəzəri və mücərrəd olması, həyati bacarıqlara əsaslanmaması və nəticə etibarilə şəxsiyyətyönümlü olmaması idi. Məzmun faktoloji xarakter daşıyırdı, məlumatların yadda saxlanması bacarığına üstünlük verilirdi. Bu da şagirdləri əzbərçiliyə sövq edirdi, onların təfəkkür və düşüncə qabiliyyətini inkişaf etdirmirdi. Əlbəttə, bilik inkişafın hərəkətverici qüvvəsidir, lakin şagirdə məhz o biliklər aşılanmalıdır ki, gələcək həyatında ona lazım olsun. Əgər verilən biliklərin təcrübi və tətbiqi əhəmiyyəti yoxdursa, onun səmərəsindən danışmağa dəyməz. Müasir dövrün tələbi budur ki, təlimin məzmunu tərifl ərin, düsturların, tarixi gün və hadisələrin əzbərlənməsindən, nəzəri materialların mənimsənilməsindən daha çox, şagirdlərdə yaradıcı düşünmə, müstəqil öyrənmə və qərarqəbuletmə, təşəbbüskarlıq, tətbiq və tədqiqatçılıq bacarıqlarının, iradi keyfiyyətlərin formalaşmasına yönəlməlidir.

Üçüncü problem məzmunda şaquli və üfüqi inteqrasiyanın olmaması idi. Məzmunda siniflərarası və fənlərarası bağlılıq zəif idi, asandan daha çətinə keçid və bir-biri ilə bağlı olan mövzuların inteqrasiyası təmin edilmirdi.

Ona görə də həyata keçirilən islahatyönümlü tədbirlərin böyük əksəriyyəti məhz ümumi təhsilin məzmununun yeniləşdirilməsinə və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasına yönəlmişdi. Əsas məqsəd şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud «yaddaş məktəbi»ndən «təfəkkür və düşüncə məktəbi»nə keçmək və bu əsasda ümumi təhsilin müasir modelini qurmaqdan ibarət idi.

Azərbaycanda 2004-cü ildən başlanan məzmun dəyişiklikləri təlim-tədris prosesinin sistemli planlaşdırılmasını əks etdirən kurikulum islahatları adı altında aparılırdı.

Milli Kurikulum sənədinin hazırlanmasında tanınmış alim-pedaqoqlar, təhsil mütəxəssisləri, metodistlər, məktəb rəhbərləri, müəllimlər yaxından iştirak edirdilər. Bu sənəd formalaşdırılarkən xeyli sorğu keçirilmiş, ictimaiyyətin təhsil ehtiyacları, dünya təcrübəsi nəzərə alınmışdı. Gərgin əmək sayəsində ərsəyə gətirilmiş bu sənəd Azərbaycan hökumətinə təqdim olundu və ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, fənn kurikulumlarının strukturunu, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin

qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri əhatə edən «Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu) Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli qərarı ilə təsdiq olundu. Beləliklə də, ümumi təhsil sistemində «hafizə», «yaddaş» məktəbindən «təfəkkür», «düşüncə» məktəbinə keçidin real əsası qoyuldu.

Sonrakı mərhələdə həmin konseptual sənədin müddəaları əsas tutulmaqla fənn kurikulumlarının hazırlanmasına başlandı. Bu məqsədlə Təhsil Nazirliyinin 8 fevral 2007-ci il tarixli əmri ilə fənn kurikulumlarını hazırlamaq üçün 389 nəfərdən ibarət 23 işçi qrupu yaradıldı. Qrupların tərkibinə nüfuzlu alim və metodistlər, orta məktəb müəllimləri daxil edildi. İşçi qruplarına AMEA-nın həqiqi üzvləri Telman Əliyev (informatika), Urxan Ələkbərov (biologiya), Bəkir Nəbiyev (ədəbiyyat), Vasim Məmmədəliyev (ərəb dili), Akif Hacıyev (riyaziyyat), AMEA-nın müxbir üzvləri Nizami Cəfərov (ana dili), Vaqif Abbasov (kimya), Yaqub Mahmudov (tarix), elmlər doktorları, professorlar Mirzəli Murquzov (fizika), Sabir Mirzəyev (riyaziyyat), Müseyib Müseyibov (coğrafiya), Ağacan Əbiyev (fiziki tərbiyə), Fəxrəddin Veysəlov (alman dili) və başqa görkəmli alimlər rəhbərlik edirdilər. İşçi qruplarının, beynəlxalq və milli məsləhətçilərin, digər mütəxəssislərin səyi ilə hazırlanan fənn kurikulumlarının layihələri mətbuatda dərc olundu, yerlərdə çoxsaylı müzakirələr keçirildi. Yerlərdən alınmış rəy və təkliflər əsasında kurikulum layihələri təkmilləşdirildi və yekun variant hazırlandı.

Fənn kurikulumlarında məzmun istiqamətləri, onun mahiyyətinin açıqlanması xüsusi yer tutur. Əgər Milli Kurikulumda hər fənnə aid təlim nəticələri təhsil səviyyələri çərçivəsində müəyyənləşdirilmişdisə, fənn kurikulumlarında hər bir sinif üzrə ayrıca təsbit edilmişdir.

Fənlərin məzmununun vahid bir istiqamətdə deyil, ümumi məqsədə xidmət edən ayrı-ayrı məzmun xətləri üzərində qurulması fənn kurikulumlarının diqqətçəkən cəhətlərindən biridir. Məzmun xətləri hər bir fənn üzrə şagirdlərin əldə edəcəyi təlim nəticələrini, bilik və bacarıqları daha aydın təsəvvür etmək və onları sistemləşdirmək məqsədi daşıyır. Məzmun xətlərinin səciyyəvi xüsusiyyəti həm də onların dəyişkən olmaması, sabit qalmasındadır. Yəni bunlar konkret fənn üzrə təlim kursunu əvvəldən axıra qədər müşayiət edir. Başqa sözlə, onları böyük standartlar da adlandırmaq olar. Məsələn, ana dili təlimi üçün 4 məzmun xətti – dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları; riyaziyyat təlimi üçün 5 məzmun xətti – ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmələr, statistika və ehtimal məzmun xətləri təyin olunmuşdur. Kurikulumlarda hər bir məzmun xəttinin müvafiq təhsil səviyyələri daxilində məqsəd və vəzifələri əsaslandırılıb ümumi təlim nəticələri verilmiş, onların əsasında da konkret siniflər üzrə əsas və alt-standartlar formalaşdırılmışdır. Əsas standartlar da ümumi nəticələri əks etdirdiyindən, bir qayda olaraq, dəyişməz qalır. Təlim nəticələri işlənib hazırlanarkən «şagirdlər nələri bilməlidir» yox, «nələri bacarmalıdır» tələbi əsas tutulmuşdur. Belə yanaşma heç də təlim prosesinin vacib elementlərindən olan

nəzəri biliklərin rolunun azaldılması demək deyildir. Bilik bütün dövrlərdə inkişafın hərəkətverici qüvvəsi olmuşdur. Lakin o biliklər faydalı hesab edilir ki, insan bunlarsız ötüşə bilmir, real həyatda tətbiq edilir, insanda zəruri bacarıqların formalaşmasına xidmət edir.

Təhsil Nazirliyinin 23 iyul 2007-ci il tarixli əmri ilə respublikanın təlim Azərbaycan və digər dillərdə aparılan ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün yeni fənn kurikulumları və tədris planları təsdiq olundu. Təsdiq edilmiş fənn kurikulumlarında hər bir sinif üzrə təlim nəticələri, məzmun və qiymətləndirmə standartları, müvafiq təlim strategiyaları əhatə olunmuşdu.

Fənn kurikulumlarının didaktik əsasını nəticəyönümlülük, tələbyönümlülük və şəxsiyyətyönümlülük prinsipləri təşkil edir.

- **nəticəyönümlülük** – təhsil səviyyələri, siniflər və fənlər üzrə əldə olunacaq təlim nəticələrinin əvvəlcədən müəyyən edilməsini;
- **tələbyönümlülük** – təlim məqsədlərinin cəmiyyətin, dövlətin və fərdin tələbatına cavab verməsini;
- **şəxsiyyətyönümlülük** – hər bir təhsilalana meyil, maraq və qabiliyyəti nəzərə alınmaqla zəruri həyati bacarıq və vərdişlərin aşılanmasını nəzərdə tutur.

Kurikulumların tətbiqi sahəsində öyrədici xarakterli tədbirlərin həyata keçirilməsi zərurətini nəzərə alaraq Azərbaycan Müəllimlər İnstitutunun bazasında 2007-ci ilin yanvarından rayon (şəhər) təhsil şöbələri metodkabinetlərinin ana dili və riyaziyyat fənləri üzrə metodistləri üçün bir həftəlik xüsusi təlim kursu təşkil olundu. Eyni zamanda 2008/09-cu tədris ilində I sinifdə dərs deyəcək müəllimlərin 399 (324 Azərbaycan, 75 rus bölməsi üzrə) nəfəri Təhsil Nazirliyinin 25 sentyabr 2007-ci il tarixli əmri ilə Azərbaycan Müəllimlər İnstitutunda 10 günlük, 17 avqust 2007-ci il tarixli əmri ilə isə 36 nəfəri Naxçıvan Müəllimlər İnstitutunda bir həftəlik öyrədici təlim kurslarından keçərək sertifikat aldı. Hazırlanmış təlimçilər vasitəsilə 2008/09, 2010/11 və 2011/12-ci tədris illəri ərəfəsində ölkə üzrə I sinfə dərs deyəcək 35 minədək müəllim öyrədici təlim kurslarından keçirildi.

2011/12-ci tədris ilində ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün tədris planı

№	Fənnin adı	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı			
		I	II	III	IV
1.	Ana dili	9	10	10	10
2.	Xarici dil	1	1	1	1
3.	Riyaziyyat	4	4	4	4
4.	İnformatika	1	1	1	1
5.	Həyat bilgisi	1	1	2	2
6.	Texnologiya	1	1	2	2
7.	Fiziki tərbiyə	2	2	2	2
8.	Təsviri incəsənət	1	1	1	1
9.	Musiqi	1	1	1	1
Cəmi:		**21**	**22**	**24**	**24**
Dərsdənkənar məşğələlər		2	2	2	2
Yekun:		**23**	**24**	**26**	**26**

Ümumtəhsil məktəblərinin 2011/12-ci dərs ili üçün tədris planı

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı							Cəmi
		V	VI	VII	VIII	IX	X	XI	
1.	**Dillər və ədəbiyyat** Azərbaycan dili	5	4	4	3	2	2	2	**22**
	Ədəbiyyat	3	2	2	2	3	3	2	**17**
	Xarici dil	4	3	3	3	2	2	2	**19**
2.	**Riyaziyyat və informatika** Riyaziyyat	5	5						**10**
	Cəbr			3	3	3			**9**
	Cəbr və analizin başlanğıcı						2	2	**4**
	Həndəsə			2	2	2	1	1	**8**
	İnformatika						1	1	**2**
3.	**İctimai fənlər** Tarix		1	1	1	1	1	1	**6**
	Azərbaycan tarixi	2	1	1	2/1	1	2	2	**11,5**
	İnsan və cəmiyyət				1	1	1	1	**4**
	İqtisadi və sosial coğrafiya				0/1	2			**2,5**
	Azərbaycan Respublikasının Konstitusiyası					1			**1**
	İqtisadiyyatın əsasları					1	1	1	**3**
4.	**Təbiət fənləri** Həyat bilgisi								**0**
	Təbiətşünaslıq	2							**2**
	Fizika			2	2	3	2	2	**11**
	Astronomiya							1	**1**
	Kimya				2	2	2	2	**8**
	Biologiya		2	2	2	2	1	2	**11**
	Fiziki coğrafiya		2	2	1		1	2	**8**
5.	**Əmək hazırlığı və texnologiya** Əmək hazırlığı	2	2	2	1				**7**
	Rəsmxət					1	1		**2**
6.	**Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı** Fiziki tərbiyə	2	2	2	2	2	2	2	**14**
	Gənclərin çağırışaqədərki hazırlığı						2	2	**4**
7.	**İncəsənət** Təsviri incəsənət	1	1	1					**3**
	Musiqi və nəğmə	1	1	1	1				**4**
Cəmi:		**27**	**26**	**28**	**29**	**30**	**27**	**27**	**194**
Seçmə fənlər:			2	3	3	4	8	10	30
Şagirdlərin məcburi maksimum dərs yükü		27	28	31	32	34	35	37	224
Fakültativ, fərdi və qrup məşğələləri		4	4	4	4	2	1	1	20

Yeni kurikulumun tətbiqi ilə əlaqədar I sinifdən başlayaraq şagirdlər ingilis dili və informatika fənlərini öyrənməyə başladılar.

Təhsil Nazirliyi UNİCEF-in Azərbaycandakı nümayəndəliyi ilə birgə 23 pilot məktəbin seçmə yolla müəyyənləşdirilmiş ibtidai sinif müəllimləri və Kurikulum Mərkəzinin bir qrup əməkdaşı üçün 2 mərhələdə fəal təlim üzrə 10 günlük treninq keçirdi. Həmin treninqlərdə təlimin yeni forma və üsulları açıqlandı, iştirakçıların fəal təlimin təşkili ilə bağlı peşəkarlığının yüksəldilməsi istiqamətində iş aparıldı.

Bakı, Sumqayıt şəhərlərində, respublikanın digər bölgələrində yeni fənn kurikulumlarının öyrənilməsinə həsr olunmuş zona konfransları və seminarlar, Kurikulum Mərkəzində «Kurikulum islahatı: problemlər, vəzifələr», «Təhsildə inteqrasiya», «Təlim strategiyaları», «Kurikulum» pedaqoji anlayış kimi», «İbtidai təhsil kurikulumunun xüsusiyyətləri», «Əsas və orta təhsil kurikulumlarının xüsusiyyətləri», «Yeni fənn kurikulumları və təlim strategiyaları», «Taksonomiyalardan dərslərə» mövzularında ibtidai sinif müəllimləri və məktəb rəhbərlərinin, metodistlərin iştirakı ilə müzakirələr keçirildi.

Kurikulum hazırlığı, tətbiqi və idarəolunması üzrə məsələlərlə ətraflı tanış olmaq, bu sahədə dünya təcrübəsini öyrənmək məqsədilə 2007-ci ilin aprelində Kanadaya 2 həftəlik tədris səfəri təşkil olundu.

«Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)» əsasında hazırlanmış fənn kurikulumlarının tətbiqi ilə bağlı maarifləndirmə tədbirlərinin səmərəliliyini yüksəltmək, müəllimlərə metodik köməyi gücləndirmək, ümumi təhsilin məzmununun təkmilləşdirilməsi istiqamətində elmi-tədqiqat işlərini genişləndirmək və bu sahədə qabaqcıl təcrübə nümunələrinin yayılmasını təmin etmək məqsədilə 2008-ci ildən «Kurikulum» jurnalı təsis edildi.

Dövrün, zamanın tələblərinə görə müasir dünya təcrübəsi əsas tutulmaqla ümumi təhsilin yeni konsepsiyasının işlənib hazırlanması, məqsəd və vəzifələrin yeni təfəkkür baxımından formalaşdırılması, fənlərin məzmununun konseptual müddəalarının müəyyənləşdirilməsi və fənn kurikulumlarının yaranması, məzmunda standart məfhumunun reallığa çevrilməsi mühüm nailiyyətlər idi. Ümumi təhsil sistemində məzmun islahatlarına Nazirliyin Kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri Aydın Əhmədov rəhbərlik edirdi.

«Ümumi təhsil sistemində dərslik siyasəti» sənədindən irəli gələn tələblərə görə, dərsliklər əvvəlki kimi subyektiv mülahizələrə əsasən formal deyil, təsdiq olunmuş konkret meyarlara əsasən qiymətləndirilir. Bu yanaşma dərslik müəllifliyi sahəsində inhisarçılığın aradan qaldırılmasına, müsabiqəyə təqdim olunan dərsliklərin seçiminin obyektiv aparılmasına imkan yaratmaqla yanaşı, onların fənn kurikulumlarına uyğunluğunu təmin edir.

Ümumi təhsil sistemində dərslik siyasətinin qəbul olunması və kurikulumların tələblərinə uyğun yeni nəsil dərsliklərin hazırlanması prosesinə start verilməsi ilə, faktiki olaraq, dərslik islahatı sahəsində **üçüncü mərhələnin** əsası qoyuldu.

İslahatların nəticəsi olaraq mütərəqqi dünya təcrübəsi nəzərə alınmaqla ümumi təhsilin məzmununda təklifyönümlülükdən tələbyönümlülüyə keçilməsi, şəxsiyyətyönümlülük, inteqrativlik istiqamətlərinin gücləndirilməsi, məzmunun əvvəlcədən müəyyən edilmiş nəticələrin (standartların) reallaşdırılmasına yönəldilməsi və bunlarla əlaqədar təlim prosesində «müəllim-şagird» münasibətlərinin, təlim strategiyalarının mahiyyətcə dəyişməsi dərslik hazırlığı məsələlərinə də yeni yanaşma formalaşdırmışdı. Bütün bunlar dərslik yaradıcılığı sahəsində III mərhələni şərtləndirən əsas amillər kimi özünü büruzə verirdi. Ona görə də bu mərhələdə dərslik komplektlərinin tərtibi onları hazırlayacaq müəllif qruplarından xüsusi hazırlıq tələb edirdi. Yeni dərsliklər müəllim üçün metodik vəsait və şagirdlər üçün iş dəftəri ilə birlikdə komplekt şəklində nəşr edilirdi. Bu, dərslik hazırlığına tamamilə yeni yanaşma idi.

Dərsliklərin məzmununa gəldikdə, demək lazımdır ki, ənənəvi dərsliklər öz xarakterinə görə daha çox informasiya mənbəyi kimi qəbul edilir və bu xususiyyət onların əsas mahiyyəti hesab olunur. Əlbəttə, dərslik hazırlığında elmilik prinsipinin gözlənilməsi vacib şərtlərdən biridir. Lakin bugünkü informasiya bolluğu şəraitində dərsliklər, təbii ki, onları əks etdirmək ağırlığını öz üzərinə götürə bilməz. İndiki şəraitdə dərsliklər müxtəlif çeşidli informasiyalardan ən zərurilərini seçmək və səmərəli istifadə etmək, onların əsasında meyil və marağa görə yeni məlumatlar əldə etmək sahəsində şagirdlər üçün istiqamətverici vəsaitə çevrilməlidir. Dərsliklərdə müvafiq elm sahəsinin nailiyyətləri şagirdlərin yaş, qavrama səviyyəsinə uyğun öz əksini tapmalıdır. O elmi materiallar faydalı hesab olunur ki, bilavasitə şagirdlərdə idraki bacarıqların, xüsusilə də, tətbiqi bacarıqların formalaşmasına xidmət edir. Belə olduğu halda, şagirdin təlimə marağı yüksəlir, tədris prosesində onun fəaliyyətinin motivləşdirilməsi (fəallığı təmin edən halların nəzərdə tutulması) və stimullaşdırılması təmin olunur. Heç şübhəsiz, təlim zamanı şagirdlərin fəaliyyətini motivləşdirmədən və stimullaşdırmadan yüksək keyfiyyətə nail olmaq qeyri-mümkündür.

Müasir dünya təcrübəsi göstərir ki, dərslik yaradıcılığında iki mühüm cəhətə xüsusi diqqət yetirilir. Bunlardan birincisi, dərsliklərdəki təlim tapşırıqlarının şagirdlərin yaş səviyyəsinə uyğun daha çox oyun elementləri, maraqlı fakt və hadisələr üzərində qurulması, ikincisi isə bu tapşırıqların şagirdlərin idrak fəallığının, təfəkkürü və dünyagörüşünün gücləndirilməsinə yönəldilməsidir.

Şagird üçün iş dəftəri mənimsənilən biliklərin tətbiqi, bacarıqların formalaşdırılması, kurikulumla müəyyən edilmiş nəticələrə nail olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

2010–2011-ci illərdə Təhsil Nazirliyinin keçirdiyi müsabiqə-tenderdə ayrı-ayrı dərsliklər üzrə qalib gəlmiş 10 nəşriyyat 127 adda dərslik hazırlamışdır. Təkcə ibtidai siniflər üzrə 8 nəşriyyat kurikuluma uyğun olmaqla 40 adda dərslik və müəllim üçün vəsait hazırlamışdır. 2011/12-ci tədris ili üçün isə 103 adda yeni dərslik nəşr edilmişdir.

Müəllim üçün vəsait isə müəllimlərdə motivasiya yaratmaqla yanaşı, onların yaradıcılıq

və təşəbbüskarlığını artırmalı, hər bir dərsə daha fərdi yanaşmasına imkan verməli, tədris prosesini daha səmərəli və maraqlı qurmasına kömək etməli idi.

Yeni dərslik siyasətinə uyğun olaraq hazırlanmış dərslik komplekti təhsil prosesinin əsas iştirakçıları olan valideynlər üçün də böyük əhəmiyyətə malik idi. Çünki dərsliklərin komplekt şəklində qəbul edilməsi ilə dərsliyin yeni bir funksiyası – müəllim-şagird-valideyn pedaqoji əməkdaşlığının, birliyinin təmin olunmasında başlıca rol oynayan əlaqələndirici funksiyası meydana çıxdı. Belə ki, əgər əvvəllər valideynlər öz mülahizələrinə görə və bacarıqları çərçivəsində övladlarının təlimində iştirak edirdilərsə, indi onların bu prosesdə iştirakı daha ardıcıl, məqsədyönlü və sistemli ola bilərdi.

Bütün bunlarla yanaşı, müasir dərsliklər müəyyən olunmuş gigiyenik tələblərə uyğun hazırlanmalı, fəal təlim üçün əlverişli imkanlar yaratmalıdır.

Vacib cəhətlərdən biri yeni nəsil dərsliklərinin inteqrativ xarakterdə hazırlanmasının təmin olunmasıdır. İnteqrativlik təhsilin məzmun komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə üzvi əlaqələndirilməsidir. İnteqrasiya konkret bir hadisə, anlayış və məfhum haqqında şagirdlərdə daha geniş təsəvvürlər yaradılmasına, onların mahiyyətinin dərindən dərk edilməsinə və möhkəmləndirilməsinə, bilik və bacarıqların sistemli mənimsədilməsinə hərtərəfli imkanlar açır, şagirdlərdə müqayisələr aparmaqla ümumiləşdirmə bacarıqlarının formalaşmasına, tədqiqatçılıq meyillərinin güclənməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Hər hansı bacarıq yalnız bir fənn vasitəsilə aşılana bilməz. Konkret bacarığın mənimsədilməsində hər bir fənn öz məzmun imkanları daxilində iştirak edir. Bu fikri əsaslandırmaq üçün diqqətə çatdırım ki, müasir kurikulumlarda standartlar elə müəyyən olunmuşdur ki, onların hamısı əsas məqsədləri ilə yanaşı, bu və ya digər dərəcədə şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasına da lazımi səviyyədə xidmət göstərir. Çünki bütün fənn kurikulumlarında şagirdlərin «izahetmə», «şərhetmə», «təqdimetmə» bacarıqlarının inkişafını nəzərdə tutan standartlar vardır.

Dərslik siyasəti sənədi və onun əlavələrinin təsdiqi böyük bir işin başlanğıcı idi. Əlbəttə, ilk vaxtlar dərsliklərin qiymətləndirilməsinin şəffaf və dəqiq aparılması təcrübəsi yox idi və bu işin öyrənilməsi çox vacib idi. Məhz bu məqsədlə qabaqcıl dünya ölkələrinin bu istiqamətdə təcrübələri araşdırıldı. Dərslikləri qiymətləndirmə mexanizmi sahəsində təcrübəsi olan Türkiyə Respublikasında qiymətləndirmənin öyrənilməsi məqsədilə bu ölkəyə tədris səfərləri təşkil edildi. Onu da qeyd etmək lazımdır ki, tədris səfərləri dərslikləri qiymətləndirmə sahəsində praktik bacarıqların əldə edilməsində, bu sahədə çalışanların səriştələrinin artırılmasında müstəsna rol oynadı. Məhz bu təcrübə sonradan Dərslikləri Qiymətləndirmə Şurasının ciddi qərarlar qəbul etməsinə zəmin yaratdı.

2008/09-cu tədris ilindən ümumtəhsil məktəblərinin I siniflərində yeni kurikulum əsasında hazırlanmış dərslik komplektlərinin tətbiqinə başlanılması nəzərdə tutuldu. Bu məqsədlə mətbuatda açıq tender elanı verildi. Bütövlükdə 13 adda dərslik, 21 adda müəllim üçün metodik vəsait və şagirdlər üçün 15 adda iş

dəftəri hazırlanmalı idi. Yeni qaydalara görə dərslik və müəllimlər üçün vəsaitlər dövlət vəsaiti hesabına nəşr olunaraq məktəblərə verilməli, iş dəftərləri isə nəşriyyatların maliyyə vəsaiti hesabına çap olunmaqla satışa çıxarılmalı idi.

Yeni dərslik siyasətinə uyğun olaraq 2008/09-cu tədris ilindən I siniflərdə kurikulumun tətbiqi ilə əlaqədar, qaydalara uyğun olaraq bütün yeni dərslik komplektləri dövlət hesabına nəşr edildi. Şagirdlər üçün dərsliklər 105% çap olundu. Belə bir mexanizm yarandı ki, ümumtəhsil məktəbləri üçün dərsliklərin ilk nəşri mövcud şagird kontingentinin 105%-i həcmində, növbəti 3–4 ildə isə tələbat nəzərə alınmaqla hər il şagird kontingentinin 15–30%-i həcmində çap olunur.

Ümumtəhsil məktəbləri, şagird kontingenti və müəllimlər haqqında məlumat

İllər	Müəssisələrin sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
2003/04	4565	1689176	169398
2004/05	4553	1634341	169565
2005/06	4559	1586222	171788
2006/07	4538	1537273	160363
2007/08	4562	1490152	160543
2008/09	4557	1431515	161488
2009/10	4546	1367888	161299
2010/11	4539	1327532	160605
2011/12	4565	1284442	149933


Ümumtəhsil məktəblərinin I sinfinə qəbul olunan şagirdlər haqqında məlumat


İllər	I sinif şagirdlərinin sayı
2003/04	136801
2004/05	125742
2005/06	123599
2006/07	116958
2007/08	117921
2008/09	119600
2009/10	118581
2010/11	120844
2011/12	124000

Təhlil göstərir ki, son 10 ildə ümumi təhsil müəssisələrinin sayında artma və azalma tendensiyaları bir-birini əvəz etmişdir. 2001/02-ci tədris ilində həmin müəssisələrin sayı 4551 olmuşdusa, 2003/04-cü tədris ilində 4565-ə yüksəlmiş, sonrakı illərdə yenidən azalma tendensiyası davam etmiş və 2011/12-ci tədris ilində vəziyyət sabitləşmişdir.

Şagird kontingentinin sayında müvəqqəti artım müşahidə olunsa da, sonrakı illərdə azalma tendensiyası üstünlük təşkil etmişdir. 2001/02-ci tədris ilində şagirdlərin sayı 1,6 milyondan 2002/03-cü tədris ilində 1,7 milyona çatmışdır. Qeyd etmək lazımdır ki, həmin tədris ilində şagirdlərin sayı müstəqillik tarixinə ən yüksək göstərici kimi düşmüşdür.



















































Kurikulum üzrə I–IV siniflər üçün hazırlanmış dərslik komplektləri

2003/04-cü tədris ilindən başlayaraq şagirdlərin sayı azalmağa başlamış. 2011/12-ci tədris ilində 1,2 milyon nəfər təşkil etmiş, şagirdlərin sayında 2002/03-cü tədris ili ilə müqayisədə 424186 nəfər azalma müşahidə olunmuşdur.

Qeyd olunmalıdır ki, I sinif dərslik komplektlərinin hazırlanması ilk sınaq idi. Kurikulumun yeniliyi, müəllif və nəşriyyatlar üçün dərslik komplektlərinin hazırlanmasının yeniliyi, qiymətləndirmə üzrə ekspertlərin bu sahədə təcrübəsizliyi narahatlıq yaradırdı. Lakin Nazirliyin bütün bu işlərə ciddi və bir qədər soyuqqanlı münasibəti, cəmiyyətdə tamamilə yeni ovqat, yeni münasibət formalaşdırırdı. Qiymətləndirmənin nəticələri cəmiyyətə bir növ mesaj verdi ki, yeni meyarlar, yeni yanaşmalar müəlliflərə yox, şagirdlərə, onların şəxsiyyət kimi yetişmələrinə, uğurlu nəticələrinə hesablanır.

Ekspert qrupları dərslikləri qiymətləndirərkən tam obyektiv, müstəqil qərarlar qəbul etməyə çalışırdılar. Bu prosesdə bacarıqlı müəlliflər meydana çıxdı. Bununla belə, I sinif dərslik komplektlərinin qiymətləndirilməsindən və istifadəsindən keçən bir il müddətində aparılan monitorinq və müzakirələr gələcək işlərimizə korrektələr edilməsini, təcrübənin daha da artırılmasının vacibliyini göstərdi. Odur ki, böyük bir heyətdən ibarət işçi qrupu yenidən Türkiyə və Litvada olaraq həmin respublikaların qiymətləndirmə və ümumiyyətlə, dərslik hazırlığı təcrübəsini öyrəndi, ekspertlər üçün treninq və seminarlar keçirdi və onları daha da maarifləndirdi. Bu təcrübə II sinif dərsliklərinin qiymətləndirilməsində özünü qabarıq şəkildə göstərdi.

2008/09-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin I və III–XI sinifləri üçün 102 adda, 2009/10-cu tədris ilində II və V–XI sinifləri üçün 87 adda dərslik dövlət hesabına nəşr edilib şagirdlərin istifadəsinə verildi. Həmin dərs illərində I–III siniflər üzrə müəllim üçün vəsaitlər də büdcə vəsaiti hesabına çap edilərək məktəblərə çatdırıldı.

Ölkənin ümumi təhsil sistemində dərslik siyasəti, əlbəttə, ilk növbədə Təhsil Nazirliyi, onun müvafiq strukturları, müəlliflər qrupu və nəşriyyatlar tərəfindən həyata keçirilirdi. Burada əsas məqsəd məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələnən, vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirmək idi. Bu məqsədlərə nail olmaq üçün dərsliklərlə yanaşı, digər əlavə vasitələrə – dərs vəsaitlərinə, əlavə oxu materiallarına, xəritələrə, digər əyani vəsaitlərə ehtiyac duyulurdu.

2006-cı ildə Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində 18 adda 846 min nüsxə «Uşaq ensiklopediyası» çap olunub, ümumtəhsil məktəb kitabxanalarına paylanılmışdı. Bundan əlavə, ümumtəhsil məktəblərinin ciddi ehtiyacı nəzərə alınaraq 19 adda 351595 ədəd xəritə çap edilərək məktəblərə verildi. Bu xəritələrin məktəblərə paylanması ilə tədris xəritələri ilə təminat əsasən ödənilmişdi.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci

il tarixli Sərəncamına əsasən məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına diqqət artırıldı.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 2004-cü il 12 yanvar və «2005–2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında» 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq, 2004–2008-ci illərdə klassik və müasir Azərbaycan və dünya ədəbiyyatının ümumi sayı 9 milyon nüsxədən artıq olan ədəbi nümunələri nəfis şəkildə nəşr edilib, ölkə kitabxanalarına, o cümlədən məktəb kitabxanalarına hədiyyə edilmişdi. Məktəb kitabxanalarına verilmiş bu əsərlər hesabına şagirdlərin sinifdənxaric oxu üzrə ehtiyacları ödənilirdi.

2008-ci ildə Heydər Əliyev Fondunun və Təhsil Nazirliyinin birgə layihəsi əsasında hazırlanmış 15 fənn üzrə 140 adda 1,4 milyon nüsxə tədris vəsaiti çap olunmuş, ümumtəhsil məktəblərinin istifadəsinə verilmişdi.

Müstəqillik illərində ölkəmizdən kənarda yaşayan soydaşlarımızın dilimizi, tariximizi, ədəbiyyatımızı öyrənməsi qayğısı da daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Bu illər ərzində həm qonşu respublikalarda, həm də digər xarici ölkələrdə yaşayan həmvətənlərimizin dərsliklərlə təmin edilməsinə xüsusi diqqət yetirilirdi. 1994-cü ildən etibarən Gürcüstanın təlim Azərbaycan dilində olan məktəbləri dərsliklər və dərs vəsaitləri ilə təmin edilir. (Bu barədə ətraflı məlumat kitabın 2.23-cü paraqrafında verilmişdir.)

2.13. Yeni qiymətləndirmə sisteminin yaradılması

SSRİ-nin süqutundan sonra bir sıra post-sovet ölkələrində ümumtəhsil məktəblərində qiymətləndirmə üçün fərqli şkalalar tətbiq edilməyə başlanmışdı. Azərbaycanda da bu istiqamətdə eksperimentlər aparılmış, qiymətləndirmədə «9» ballıq sistemin tətbiqini məktəblərdə sınaqdan keçirmək məqsədilə 2001/02-ci tədris ilindən İsmayıllı və Bakı şəhərinin Nərimanov rayonlarında başlanan eksperimentlər sonradan Gəncə, Şəki, Quba və Lənkəran rayonlarının məktəblərini də əhatə etmişdi. «9» bal sistemi ilə qiymətləndirmədə «1» və «2» mənfi, digər bütün ballar isə müsbət qiymət hesab olunurdu. «9» bal sistemi «5» ballıq şkala ilə müqayisədə belə ifadə olunurdu: 1 və 2– «1»; 3– «2»; 4 və 5 – «3»; 6 və 7 – «4»; 8 və 9 – «5». Lakin lazımi nəticə vermədiyinə görə uzun müddət aparılan bu eksperiment 2008-ci ildən dayandırıldı. Bu, bir daha göstərdi ki, hansı qiymət şkalasından istifadə edilirsə-edilsin, mövcud qiymətləndirmə sistemi şagirdlərin inkişafını sistemli şəkildə izləməyə imkan vermir, şagirdin nailiyyətləri keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirilir.

Odur ki, «5» ballıq qiymət şkalası saxlanılmaqla yeni prinsiplərə söykənən qiymətləndirmə sisteminin yaradılması ideyası ətrafında elmi və pedaqoji araşdırmalar aparılmağa başlandı. Bu sahədə aparılan islahatların məqsədi təhsilin keyfiyyətini yüksəltmək, onun inkişafını cəmiyyətin ehtiyac və tələblərinə yönəltmək olduğu üçün yalnız təhsilin məzmununa deyil, həm də onun

keyfiyyətini müəyyən edən vasitələrə yenidən baxmaq, dövrün tələblərinə cavab verən qiymətləndirmə sistemi yaratmaq idi.

Yeni qiymətləndirmə sisteminə keçid böyük və gərgin iş tələb edirdi. Odur ki, ilk növbədə ənənəvi qiymətləndirmə fəaliyyəti dərindən təhlil edildi, nəticələr müzakirə olundu və yeniliklər mərhələ-mərhələ tətbiq edilməyə başladı.

1992-ci ildən etibarən Azərbaycanda ali məktəblərə tələbə qəbulunun mərkəzləşdirilmiş qaydada test üsulu ilə aparılması ümumtəhsil məktəblərində də şagirdlərin yekun attestasiyasının uyğun model əsasında həyata keçirilməsini zəruri etmişdi. Ona görə də ictimai rəy öyrənildikdən sonra ümumtəhsil məktəblərində də buraxılış imtahanlarının test tapşırıqları vasitəsilə aparılması məqsədəuyğun hesab olundu.

1999/2000-ci tədris ilindən başlayaraq XI siniflərdə 4 fənn üzrə buraxılış imtahanlarının Təhsil Nazirliyi tərəfindən hazırlanmış test sualları əsasında keçirilməsinə başlandı. Lakin imtahan mərkəzləşdirilmiş şəkildə deyil, hər bir məktəbdə təşkil edilir, Nazirlik tərəfindən müəyyənləşdirilmiş meyarlar əsasında məktəbin müəllimləri tərəfindən qiymətləndirmə aparılırdı. XI siniflərdə digər 3 fənn üzrə imtahanlar isə ənənəvi qaydada, şifahi və ya yazılı formada təşkil edilirdi. Hər tədris ilində test sualları əsasında keçirilən imtahanda 4 fəndən üçü dəyişmir, biri isə yenisi ilə əvəz olunurdu.

Dövrünə görə imtahanların bu qaydada aparılması mühüm yenilik idi. Baxmayaraq ki, sonrakı bir neçə ilin yekunlarına görə test tapşırıqları əsasında imtahanların bu qaydada hər bir məktəbdə keçirilməsi gözlənilən nəticələri vermədi, lakin o zamanlar həmin addım atılmasaydı, sonradan uğurla tətbiq edilən mərkəzləşdirilmiş buraxılış imtahanı modelinə keçmək daha çətin olardı.

Müstəqillik illərində şagirdlərin sinifdənsinfə keçirilmə imtahanları ilə bağlı yanaşmalar da dəyişdi. Belə ki, həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində tədris ilinin sonunda ümumtəhsil məktəblərinin buraxılış olmayan siniflərində V sinifdən başlayaraq müəyyən fənlər üzrə imtahanlar keçirilirdi. Lakin aparılan müşahidələr göstərirdi ki, bir sıra hallarda məktəblərdə həmin imtahanlardan proqram materiallarının mənimsənilməsi səviyyəsinin müəyyənləşdirilməsi üçün deyil, şagirdlərin cəzalandırılması vasitəsi kimi istifadə olunur. Bununla əlaqədar olaraq 2003/04-cü tədris ilindən ümumtəhsil məktəblərində sinifdən-sinfə keçirilmə imtahanları dayandırıldı, yalnız lisey və gimnaziyalarda tədris ilinin sonunda müəyyən yoxlamaların aparılmasına icazə verildi.

Ümumtəhsil məktəblərində gündəlik qiymətləndirmə isə həmin dövrdə əvvəlki qaydada davam etdirilir, «5» ballıq şkala və buna müvafiq meyarlar tətbiq olunurdu. Əlbəttə, şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində ümumi qaydalardan müəyyən istisnalar da mövcud idi.

Xüsusi təhsil modeli tətbiq edilən Bakı Avropa Liseyində 100 ballıq qiymətləndirmə sistemi tətbiq edilirdi və hazırda da tətbiq olunmaqdadır. Bu sistemdə 0–44 bal – «qeyri-kafi», 45–64 bal – «kafi», 65–84 bal – «yaxşı», 85–100 bal – «əla» nəticə kimi nəzərdə tutulur. Şagirdlərin bilik, bacarıq və vərdişlərinin

ümumiləşdirilmiş qiymətlərinin çıxarılması, təlim nəticələrinin tamlığını və obyektivliyini təmin etmək üçün ümumiləşdirilmiş qiymətin bir hissəsini təşkil edən mükafatlandırıcı bal – «bonus»dan da istifadə olunur. Aparılan təhlillər göstərir ki, 100 ballıq qiymət bilik, bacarıq və vərdişlərin daha diferensial qiymətləndirilməsinə zəmin yaradır. Eyni zamanda bu qiymətləndirmə şkalası şagirdin idraki inkişafının qiymətləndirilməsinə də imkan verir. Bunun üçün vaxtaşırı şagirdlərin bilik səviyyəsini müəyyənləşdirən ranq üzrə qiymətləndirmə keçirilir (reytinqin müəyyənləşdirilməsi), yekun qiymətləndirmə əsasında şagirdlər müvəffəqiyyətinə görə reytinq üzrə düzülür.

Təhsil siyasətində qiymətləndirmənin prioritet rolu nəzərə alınaraq 2004-cü ildə Təhsil Nazirliyində institusional dəyişikliklər edildi və Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsi yaradıldı. Şöbənin əsas məqsədi ümumi təhsil sistemində yeni qiymətləndirmə mexanizminin hazırlanması və tətbiqi idi. 2008-ci ildən Monitorinq və qiymətləndirmə şöbəsi ümumtəhsil məktəblərində məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmələrin həyata keçirilməsi funksiyasını yerinə yetirir. Hazırda ümumi təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi islahatlarına Nazirliyin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri, filologiya elmləri doktoru Təranə Hacıyeva rəhbərlik edir.

Həmin vaxtdan «şagird nailiyyətlərinin qiymətləndirilməsi» pedaqoji anlayış kimi təhsil leksikonuna daxil oldu və qiymətləndirməyə yanaşmalar dəyişməyə başladı.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinə yeni yanaşma 2006-cı ildə hökumət tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)» sənədində öz əksini tapdı. Həmin sənəddə şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunmuş, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və nəticə etibarilə onun yüksəlməsinə xidmət etməsi xüsusi vurğulanmışdı.

İlk olaraq, 2006/07-ci tədris ilində pilot kimi müəyyənləşdirilən 4 məktəbdə (Bakı şəhəri 6№-li məktəb, Elitar gimnaziya, Sumqayıt şəhər 18№-li və Abşeron rayonu Novxanı kənd məktəbi) cari qiymətləndirmədən imtina olunaraq yeni məktəbdaxili qiymətləndirmə modeli tətbiq edildi. Bu eksperiment V, VI və VIII siniflərdə Azərbaycan dili və riyaziyyat fənlərini əhatə edirdi. Eksperimentin səmərəliliyinin təmin edilməsi məqsədilə göstərilən siniflərdə dərs deyən fənn müəllimləri təlimlərdən keçirildi, xüsusi formada sinif jurnalları tərtib olundu. Eksperimentin nəticələri sonrakı mərhələlərdə məktəbdaxili mexanizmlərin hazırlanmasında faydalı oldu.

Azərbaycanda «qiymətləndirmə» son vaxtlara qədər yalnız təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edilirdi. Lakin dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Ənənəvi qiymətləndirmə məzmunun tərkib hissəsi sayılmadığından, həmişə müəllimin subyektiv mülahizələrinə əsaslanırdı, şagirdlərdə təlimə marağı artırmaq əvəzinə, əksinə, azaldır, onların inkişafını sistemli şəkildə izləməyə imkan vermirdi və bu

da, bir qayda olaraq, şagirdləri qiymət almaq xatirinə oxumağa sövq edirdi. Bu qiymətləndirmə sistemi şagirdlərin nailiyyətini keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirirdi. Eyni zamanda qiymətləndirmənin yalnız məktəbdaxili formasının həyata keçirilməsi, milli və beynəlxalq qiymətləndirmənin tətbiq edilməməsi məktəblərin reytinqinin formalaşmasına, milli səviyyədə təhlillərə imkan vermirdi və respublikada təhsilin keyfiyyəti barədə etibarlı informasiya əldə etmək mümkün olmurdu.

13 yanvar 2009-cu ildə Nazirlər Kabineti tərəfindən «Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası» təsdiq olundu. Konsepsiyada **məktəbdaxili** qiymətləndirmə növləri, eləcə də **milli** və **beynəlxalq** qiymətləndirmə öz əksini tapdı. Məktəbdaxili qiymətləndirmənin tərkib hissəsi olan **diaqnostik qiymətləndirmə** konkret bir mərhələdə təhsilalanın nailiyyətlərinin səviyyəsini müəyyən etmək üçün aparılır. Diaqnostik qiymətləndirmə şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasını təmin edir, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumatlar almağa imkan yaradır. Bu qiymətləndirmə növünü ilkin səviyyənin qiymətləndirilməsi də adlandırırlar.

Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini, şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir, onların təlim ehtiyaclarının öyrənilməsinə lazımi şərait yaradır.

Summativ qiymətləndirmə təhsilin hər hansı bir mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Bu qiymətləndirmə məzmun standartlarının mənimsənilmə səviyyəsinin etibarlı göstəricisidir.

Təhsilalanların təlim fəaliyyətlərinin, milli və beynəlxalq qiymətləndirilməsi təhsilin inkişafı haqqında məlumatların toplanmasında böyük rol oynayır. Yeni qiymətləndirmə siyasətində milli qiymətləndirmənin möhkəm yer tutması müstəqillik illərində Azərbaycan təhsilinin inkişaf etmiş ölkələrin təhsil sistemlərinə məqsədyönlü inteqrasiyasının nəticəsi idi. Keçmiş sovetlər birliyində əsas və orta təhsil pilləsi üzrə şagird nailiyyətlərinin ölkə üzrə qiymətləndirilməsi aparılsa da, bu, nəticələrə görə təhlillər aparıb təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı inkişafyönümlü tədbirlərin müəyyənləşdirilməsinə deyil, yalnız şagirdlərin bir pillədən digərinə keçirilməsinə və təhsil sənədi almasına xidmət edirdi.

Qiymətləndirmə Konsepsiyasında Milli qiymətləndirmənin məqsədləri aşağıdakı kimi təsbit olunmuşdur:

- şagirdlərin təlim nəticələrində zəif və güclü tərəfləri aşkar etməklə, ümumi mənimsəmə səviyyəsini və onun dinamikasını müəyyənləşdirmək;
- şagirdlərin təlim nəticələrinə təsir edən mümkün amilləri təsvir etmək və nəticələr arasındakı fərqləri müqayisə etmək üçün şagirdlərin, onların

ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənmək;
- ölkədə təhsil siyasətini müəyyənləşdirmək üçün təhsilin vəziyyəti haqqında müvafiq məlumat toplamaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri və təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;
- şagirdin təlim nəticələrinin və irəliləyişlərinin dəyərləndirilməsi vasitəsilə təhsilin dövlət standartlarının monitorinqini aparmaq, təhsil sisteminin məqsədlərinin müvafiqliyini və səmərəliliyini tənzimləmək, sistemin təsir dairəsini genişləndirmək;
- təhsil siyasətini müəyyən edənlərin cavabdehlik səviyyəsini artırmaq;
- ölkədə təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiyyət tərəfindən geniş müzakirəsini təşkil etmək.

Milli qiymətləndirmə sahəsində ilk tədqiqat hələ 2003-cü ildə pilot layihə kimi ölkənin 20 məktəbində 1885 nəfər V sinif şagirdləri ilə aparılmışdı. Bu tədqiqatın məqsədi şagird nailiyyətlərinin milli qiymətləndirilməsi sistemini formalaşdırmaq və fənn kurikulumlarının yaradılması üçün təkliflər hazırlamaqdan ibarət idi. Tədqiqat zamanı V sinif şagirdlərinin ana dilindən oxu, riyaziyyatdan isə natural ədədlər bölməsi üzrə nailiyyətləri haqqında məlumat toplanmış, şagirdlər və onların müəllimləri ilə anket sorğusu aparılmışdı. Tədqiqat göstərmişdi ki, cəlb olunmuş şagirdlərin 74,8%-i oxuduğundan nəticə çıxarmağı, 74%-i mətndəki bir hadisənin digərini yaratması səbəbini izah etməyi, 59,9 %-i mətnin məzmununu ümumiləşdirməyi, 32%-i mətnin ibrətamiz təsirini duymağı, 17%-i mətnin ayrı-ayrı hissələri və mətnin hissələri ilə ümumi məzmun arasında əlaqəni fərqləndirməyi, 16%-i fikrini mətndəki hadisələrlə əsaslandırmağı bacarır. Riyaziyyatdan «ədədlər» bəhsi üzrə şagirdlərin 46,5%-i, «ədədlər üzərində əməllər» bəhsi üzrə 42%-i test suallarına düzgün cavab vermişdi.

Növbəti Milli qiymətləndirmə tədqiqatı 2006-cı ildə keçirildi. Bu tədqiqatda 70 məktəbin 4095 nəfər IV və IX sinif şagirdləri iştirak etdi. Tədqiqatda ana dili və riyaziyyat fənləri əhatə olunmaqla şagirdlərin oxuduğunu anlamaq, problemi həll etmək, təhlil etmək və nəticə çıxarmaq bacarıqları haqqında toplanmış məlumatlar fənn kurikulumlarının (məzmun standartlarının) hazırlanmasında məlumat mənbəyi kimi istifadə olunmaq üçün nəzərdə tutulmuşdu. IV sinif üzrə tədqiqata cəlb olunmuş 2014 nəfər şagirdin 58,9%-i ana dilindən, 72%-i riyaziyyatdan sualları düzgün cavablandırmışdı. IX sinif üzrə isə 2081 nəfər şagirdin 56%-i ana dilindən, 48,5%-i riyaziyyatdan suallara düzgün cavab vermişdi.

Kənar amillərin təhsilə təsirini müəyyənləşdirmək üçün şagirdlərlə və onların müəllimləri ilə anket sorğusu keçirildi. Əldə edilmiş məlumatlar təhlil edildikdən sonra nəticələr təhsili idarə edənlərin nəzərinə çatdırıldı və ailə – məktəb əlaqələrinin gücləndirilməsinə xüsusi diqqət yetirilməsi qərara alındı.

2009-cu ildə keçirilən Milli qymətləndirmə tədqiqatının ümumi məqsədi əvvəlkilərdən fərqlənmirdi. Xüsusi məqsədlər isə aşağıdakılar idi:

1. 2009-cu ildə ənənəvi fənn proqramları əsasında təhsil alan IV sinif şagirdlərinin

nəticələrini 2013-cü ildə keçiriləcək Milli qiymətləndirmə nəticələri ilə müqayisə etmək üçün bazanın yaradılması (2013-cü ildə ibtidai təhsil səviyyəsini bitirəcək şagirdlər fənn kurikulumları əsasında təhsil alırlar).

2. 2012-ci ildən başlayaraq Dünya Bankı tərəfindən kitabxanaları təkmilləşdiriləcək məktəblərin şagirdlərinin təlim nəticələrini ötən illərlə müqayisə edə bilmək imkanını yaratmaq.

2009-cu il Milli qiymətləndirmə tədqiqatı respublikanın 216 məktəbində IV və IX sinif şagirdləri ilə ana dili və riyaziyat fənləri üzrə keçirildi. Tədqiqat imtahanında iştirak edən 11822 nəfər şagird, 216 məktəb direktoru, həmin şagirdlərə dərs deyən 600 nəfər ibtidai sinif, ana dili və riyaziyyat müəllimi, 2000 nəfərdən çox valideyn anket sorğusuna cavab verdi.

Bu tədqiqat zamanı məlum oldu ki, IV sinif üzrə 6041 nəfər şagirdin 64,9%-i ana dilindən, 75%-i riyaziyyatdan sualları düzgün cavablandırmışdır. IX sinif üzrə 5781 nəfər şagirdin 54%-i ana dilindən, 46,6%-i riyaziyyatdan suallara düzgün cavab vermişdir.

2011-ci ilin may ayında 200 məktəbdə IX sinif şagirdləri ilə Azərbaycan dili, riyaziyyat, informatika fənləri üzrə Milli qiymətləndirmə tədqiqatı keçirildi. Tədqiqata 6482 nəfər şagird və 1200 nəfər Azərbaycan dili, riyaziyyat, informatika müəllimi cəlb olundu.

2011-ci il Milli qiymətləndirmə tədqiqatının əsas mərhələsinin xüsusi məqsədləri IX sinif şagirdlərinin sosial savadının yoxlanılması, ölkədə informatika fənninin tədrisi vəziyyətinin öyrənilməsi və Dünya Bankının layihəsi üzrə kitabxanası təkmilləşdirmək üçün seçilmiş məktəblərlə ölkənin digər məktəblərinin şagirdlərinin nailiyyətlərinin müqayisə edilməsi idi.

2012-ci ildə seçim ilə müəyyən edilmiş məktəblərdə IV sinif şagirdləri ilə Azərbaycan dili və riyaziyyat fənləri üzrə Milli qiymətləndirmə tədqiqatı keçiriləcəkdir. 2013-cü ildə isə yeni fənn kurikulumları ilə təhsil alan ölkə üzrə bütün IV sinif şagirdlərinin Milli qiymətləndirmə tədqiqatına cəlb edilməsi nəzərdə tutulur. Keçiriləcək bu qiymətləndirmə həm də məzmunca kurikulumun qiymətləndirilməsi sayılacaqdır.

Milli qiymətləndirmə ölkə səviyyəsində təhsilalanların nailiyyətlərinin səviyyəsini müəyyənləşdirməyə əsas verirsə, **beynəlxalq qiymətləndirmə** konkret bir ölkədə təhsil səviyyəsinin digər ölkələrlə müqayisəli təhlilini aparmağa imkan verir. Məhz beynəlxalq qiymətləndirmənin nəticələri fəaliyyətə müqayisəli şəkildə nəzər yetirməyə, problemləri müəyyənləşdirməyə, perspektivləri dəqiqləşdirməyə etibarlı zəmin yaradır. Bu mənada ölkəmizin beynəlxalq qiymətləndirmə proqramlarına qoşulması ciddi əhəmiyyət kəsb edirdi və təhsilin inkişafına təkanverici amil hesab olunurdu. Beynəlxalq qiymətləndirmədə əsas məqsədləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- ölkədə təhsilin vəziyyəti haqqında müvafiq məlumat əldə etmək, beynəlxalq səviyyəli müqayisələr aparmaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri, təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;
- təhsilin məzmununun müəyyənləşdirilməsi və nəticəyönümlü yeni kurikulumun hazırlanması üçün əsas təlim

məqsədlərini təyin etmək, kompetensiyalara əsaslanan yanaşmanın məqsədəuyğunluğu istiqamətində tədqiqatlar aparmaq, gözlənilən və nail olunan təlim nəticələrini müqayisə etmək;
- pedaqoji ölçmə nəzəriyyəsinin gündəlik təcrübədə istifadə olunan nəzəri və praktiki məsələlərini öyrənmək;
- müasir qiymətləndirmə vasitələrinin hazırlanmasını, nəticələrin təhlili üsullarını və hesabatlar hazırlanması qaydalarını öyrənmək;
- ölkədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin qurulması istiqamətində ümumi orta təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiyyət tərəfindən geniş müzakirəsini təşkil etmək.

Azərbaycan üç beynəlxalq qiymətləndirmə proqramına (PISA, TIMSS, PIRLS) qoşulmuşdur. Ölkəmizdə 15 yaşlı şagirdlərin oxu, riyaziyyat və təbiət fənləri üzrə bacarıqlarının səviyyəsini müəyyənləşdirən, 3–4 ildən bir aparılan PISA proqramının iki layihəsində iştirak etmişdir. 2006-cı ildə Azərbaycanda 72 ümumtəhsil məktəbinin 6500 şagirdi əhatə olunmaqla beynəlxalq qiymətləndirmə (PISA–2006) keçirilmiş, nəticələr 2008-ci ildə elan olunmuşdur. Azərbaycan şagirdləri riyaziyyatdan nəzəri biliklər üzrə reytinq cədvəlində 57 ölkə arasında 4-cü yeri tutmuş, təbiət fənləri və oxu bacarıqları üzrə isə zəif nəticələr göstərmişdilər. Belə nəticənin səbəblərindən biri onunla bağlı idi ki, Azərbaycanda beynəlxalq qiymətləndirmə ilk dəfə keçirilirdi, şagirdlərin bu sahədə bacarıqları kifayət qədər deyildi.

2009-cu ilin aprel–may aylarında Respublikanın 162 məktəbinin 15 yaşlı 4716 şagirdi əhatə olunmaqla «PISA–2009» proqramının əsas mərhələsi keçirildi. Bu qiymətləndirmənin nəticələri əvvəlki tədqiqatın nəticələrindən keyfiyyət baxımından, demək olar ki, fərqlənmirdi. Azərbaycan məktəbliləri oxu və təbiət fənləri üzrə zəif nəticə göstərsələr də, riyaziyyatdan əvvəlki kimi yüksək nailiyyət nümayiş etdirmişlər.

Yeni qiymətləndirmə sisteminin yaradılması ilə bağlı aktual məsələlər çox olsa da, bütün ictimaiyyəti daha çox buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılması maraqlandırırdı. Bu addımı atarkən 2000-ci ildən etibarən buraxılış imtahanlarının test tapşırıqları əsasında keçirilməsi təcrübəsi də nəzərə alınmışdı. Əlbəttə, bu prosesə bütün ölkə üzrə birdən-birə keçmək mümkün olmazdı, bu ideyanın səmərəliliyinə, optimallığına əmin olmaq üçün 2005/06-cı tədris ilində İmişli və Bakı şəhərinin Xətai rayonlarının ümumtəhsil məktəblərində təhsil alan 6 min XI sinif şagirdi əhatə olunmaqla mərkəzləşdirilmiş imtahan keçirildi. Təhsil tariximizdə ilk dəfə keçirilən bu imtahanlara ciddi hazırlıq görüldü: Nazirliyin əməkdaşları hər iki rayonun məktəblərində müəllimlərlə, şagirdlərlə və valideynlərlə izahat işləri apardılar. Buraxılış imtahanına hazırlığı təmin etmək məqsədilə üç dəfə sınaq yoxlama imtahanları aparılıb nəticələr müzakirə edildi. Mərkəzləşdirilmiş imtahanın nəticələrinin qiymətləndirilməsi üçün meyarlar hazırlanıb təsdiq edildi.

Bu prosesdə bir problem də aradan qaldırıldı. Qaydalara əsasən şagirdlərin yekun

qiymətləri çıxarılarkən yalnız illik və imtahan qiyməti nəzərə alınırdı. Yeni mexanizm isə yekun qiymət hesablanarkən illik və imtahan qiymətləri ilə yanaşı, sınaq yoxlamalarının nəticələri və əvvəlki sinifdəki illik qiymətin də nəzərə alınmasına imkan verirdi. Yekun qiymətin bu düsturla hesablanması bilavasitə şagirdin mənafeyinə xidmət etməklə məktəbin, müəllimin və şagirdin yalnız son sinifdə deyil, əvvəlki siniflərdə də məsuliyyətini xeyli artırırdı.

Növbəti illərdə mərkəzləşdirilmiş buraxılış imtahanlarının miqyası daha da genişləndirildi. 2006/07-ci tədris ilində İmişli və Bakı şəhərinin Xətai rayonları ilə yanaşı, Bakı şəhərinin Səbail rayonu və Sumqayıt şəhərinin məktəblərində də XI siniflərdə buraxılış imtahanları mərkəzləşmiş qaydada aparıldı. Əhəmiyyətli nəticələrdən biri bu oldu ki, imtahanın əhatə etdiyi 13 min XI sinif şagirdindən yalnız 11830 nəfəri imtahana buraxıldı, 1170 şagird illik qeyri-kafi qiymətlər aldığı üçün imtahana buraxılmadı. İmtahanda iştirak edən şagirdlərin isə 1081 nəfəri, yəni təxminən 10%-i müvafiq standartlara uyğun bilik nümayiş etdirə bilmədiyinə görə attestat almadı.

Araşdırmalar göstərdi ki, mərkəzləşdirilmiş imtahan formasının tətbiqi, ənənəvi sistemdən fərqli olaraq, bir sıra üstünlüklərə malikdir. İmtahanlar, bir qayda olaraq, bir gündə neytral mərkəzlərdə keçirilir, nəticələr texniki vasitələrlə yoxlanılır və qısa zamanda elan edilməklə subyektivlik minimuma endirilir. Odur ki, mərkəzləşdirilmiş imtahan forması ictimaiyyətin, ilk növbədə valideynlərin məktəbə münasibətini dəyişdirir, məktəbin və müəllimin nüfuzunu yüksəldir, şagirdlərin təlimə marağını və motivasiyasını artırırdı. Məhz bu səbəblərdən mərkəzləşdirilmiş imtahan sisteminin coğrafiyası növbəti illərdə daha da genişləndirildi. 2007/08-ci tədris ilində 9 rayon və şəhər üzrə 52 min şagird əhatə olundu. Nəticələrin təhlili göstərdi ki, imtahana buraxılmış 50761 şagirddən 49398 nəfəri (97,3%) imtahanda iştirak etmiş, 1363 nəfər isə iştirak etməmişdir. İmtahan verənlərdən 46571 nəfər (94,2%) attestat almış, 2827 nəfər (5,7%) qeyri-kafi qiymətlər aldığına görə attestat almamışdır. Ümumilikdə isə mərkəzləşdirilmiş imtahana buraxılanlardan attestat almayanların sayı 4190 nəfər (8,2%) olmuşdur.

Təhlillər göstərirdi ki, mərkəzləşdirilmiş imtahan sisteminin tətbiqi ilkin bəhrələrini verir, artıq bir sıra nailiyyətlər də müşahidə olunurdu. 2007/08-ci tədris ilində mərkəzləşdirilmiş buraxılış imtahanının əhatə etdiyi məktəbləri 227 nəfər əla qiymətlərlə bitirmiş, onlardan 4 nəfər ali məktəblərə qəbul imtahanlarında iştirak etməmiş, 104 nəfər 600–700 bal, 64 nəfər 500–600 bal, 30 nəfər 400–500 bal, 16 nəfər 300–400 bal toplayaraq ali məktəblərə qəbul olunmuşdu. Beləliklə, imtahanda iştirak edən 223 nəfərdən 214 nəfər (96%) orta məktəbdə aldıqları qiymətləri ali məktəbə qəbul zamanı doğrultmuşdu ki, bu da attestat qiymətlərinin obyektivliyinin göstəricisi idi.

Eyni zamanda Nazirlik tərəfindən keçirilən mərkəzləşdirilmiş imtahanın əhatə etdiyi məktəbləri «kafi» qiymətlərlə bitirənlərin ali məktəblərə qəbul imtahanlarında nəticələri də təhlil edilmişdi. Məlum olmuşdu ki,

2184 nəfər bu kateqoriyadan olan məzundan yalnız 747 nəfəri (34,2%) ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş, onlardan 509 nəfəri 0–100 bal nəticə göstərmişdi. 747 nəfərdən 692 nəfəri (92,6%) 0–200 intervalında bal toplamışdı ki, bu da onların attestat qiymətlərinə uyğun idi.

Təhsil tariximizdə ilk dəfə olaraq 2008/09-cu tədris ilində respublikanın bütün ümumtəhsil məktəbləri və peşə liseylərində orta təhsil kursu üzrə buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada keçirildi. Ümumtəhsil müəssisələrinin 99627 nəfər XI sinif şagirdindən 96646 nəfəri (97,01%) buraxılış imtahanlarında iştirak etdi, onlardan 78321-i (78,61%) orta təhsil haqqında attestat aldı.

2009/10-cu tədris ilində XI siniflərlə yanaşı, ümumtəhsil məktəblərinin IX siniflərində də buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada uğurla həyata keçirildi.

Aşağıdakı cədvəldə 2010/11-ci tədris ilində IX və XI siniflərdə buraxılış imtahanlarının nəticələri haqqında məlumat verilmişdir.

2010/2011-ci tədris ilində ümumtəhsil məktəblərinin IX və XI siniflərində mərkəzləşdirilmiş buraxılış imtahanları


İmtahanların nəticələri					
Sinif	Şagirdlərin sayı	İmtahanda iştirak edənlər		Müvəffəq olanlar	
		sayı	%	sayı	%
XI	90833	87610	96,45	74848	82,01
IX	133056	125648	94,43	110907	83,35

Məzunların attestat qiymətləri və qəbul imtahanlarındakı nəticələrinin 2005 və 2008-ci illər üzrə təhlili də keyfiyyət göstəricilərinin artmasını göstərirdi.


2005-ci ildə ali məktəblərə qəbul imtahanı iştirakçılarının 37%-i 0–100 intervalında bal toplamışdısa, 2008-ci ildə bu göstərici 33%-ə enmişdi. Müqayisə edilən illərin məzunları arasında isə həmin intervalda bal toplayanlar 33%-dən 26%-ə enmişdi. Əgər 2005-ci ildə ali məktəblərə qəbul imtahanı iştirakçıları arasında 500–700 bal toplayanlar 17% təşkil etmişdisə, 2008-ci ildə bu göstərici 20% olmuşdu. Əlaçı məzunlar arasında isə 500–700 bal toplayanlar 22%-dən 41%-ə, 600-dən çox bal toplayanların sayı 2 dəfədən çox artaraq 766-dan 1582 nəfərə yüksəlmişdi. İmtahan iştirakçıları arasında 300-dən yuxarı bal toplayanlar 2004-cü ildəki 22,84%-dən 2008-ci ildə 31,68%-dək artmış, 6 nəfər şagird 700 bal toplamışdı.

Sonrakı illərdə orta məktəb məzunlarının ali məktəblərə qəbul imtahanlarında göstərdikləri nəticələr ilbəil yaxşılaşmaqda davam etmişdir. Orta bal göstəricisi, 300-dən və 600-dən çox bal toplayan abituriyentlərin artım dinamikası yüksəlmişdir.


Qəbul imtahanlarında 500–700 bal toplayan abituriyentlər (həmin illərin məzunları)




600-dən çox bal toplayan abituriyentlərin dinamikası




Qəbul imtahanlarında balların paylanması (həmin illərin məzunları) 2004-cü il




Qəbul imtahanlarında 500–700 bal toplayan əlaçı abituriyentlər (həmin illərin məzunları)




Qəbul imtahanlarında balların paylanması (həmin illərin məzunları) 2011-ci il




Qəbul imtahanlarında 300–500 bal toplayan abituriyentlər (həmin illərin məzunları)




Orta bal göstəriciləri (həmin illərin məzunları)






Tam orta təhsil səviyyəsi üzrə 2009/10 və 2010/11-ci tədris illəri nəticələrinin müqayisəli təhlili


2010-cu ildə TQDK tərəfindən ali məktəblərə qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə abituriyentlərin düzgün cavablarının təhlili aparılmış və əvvəlki illərlə müqayisə edilmişdi. Təhlil göstərirdi ki, 2000 və 2005-ci illərə nisbətən 2010-cu ildə bütün fənlər üzrə düzgün cavabların faizi kəskin şəkildə artmışdır. Aşağıda TQDK-nın təhlillərinin nəticələri təqdim edilmişdir.



Regionları təmsil edən abituriyentlərin orta statistik ballarının paylanma xəritəsi




2000-ci ilin məzunları




2010-cu ilin məzunları

Regionları təmsil edən orta statistik abituriyentlərin «Ana dili» fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi




2000-ci ilin məzunları




2010-cu ilin məzunları

Regionları təmsil edən orta statistik abituriyentlərin Riyaziyyat fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi




2000-ci ilin məzunları




2010-cu ilin məzunları


Regionları təmsil edən orta statistik abituriyentlərin Fizika fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi



Regionları təmsil edən orta statistik abituriyentlərin Kimya fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi




2000-ci ilin məzunları




2010-cu ilin məzunları


Regionları təmsil edən orta statistik abituriyentlərin Biologiya fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi



Regionları təmsil edən orta statistik abituriyentlərin Tarix fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi




2000-ci ilin məzunları



2010-cu ilin məzunları


Regionları təmsil edən orta statistik abituriyentlərin Coğrafiya fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi




2000-ci ilin məzunları

2010-cu ilin məzunları

Regionları təmsil edən orta statistik abituriyentlərin İngilis dili fənni üzrə düzgün cavablarının (faizlə) paylanma xəritəsi



Abituriyentlərin attestat qiymətlərinə görə qəbul imtahanlarında topladıqları balların paylanması (2004-cü ilin məzunları)



Abituriyentlərin attestat qiymətlərinə görə qəbul imtahanlarında topladıqları balların paylanması (2011-ci ilin məzunları)

2.14. İstedadlı şagirdlərlə iş

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra istedadlı uşaq və gənclərə diqqət və qayğı xeyli artırıldı və bu məsələ təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi.

1993–1994-cü illərdə istedadlı uşaqların aşkara çıxarılması və onların qabiliyyətinin daha da inkişaf etdirilməsi istiqamətində yeni tipli tədris müəssisələrinin yaradılması və bu məktəblərdə təlim-tərbiyə prosesinin təşkili vəziyyəti Xalq Təhsili Nazirliyi tərəfindən müzakirəyə çıxarılmışdı. İki il ərzində ölkədə 18 yeni tipli tədris müəssisəsi təşkil edilmişdi ki, onlardan 9-u lisey, 6-sı gimnaziya, qalanları isə müxtəlif tipli (müəllif məktəbləri, təbiət elmləri məktəbi, intellekt məktəbi) məktəblər idi.

Yeni tipli məktəblərin yaradılması prosesinə alimlər də qoşulmuşdu. Akademik Azad Mirzəcanzadənin rəhbərliyi altında Həbib bəy Mahmudbəyov adına texniki-humanitar elmlər liseyinin (direktor Binyamin Əliyev) çoxvariantlı tədris plan və proqramları hazırlanmışdı. Bu səbəbdən liseyin şagirdləri yüksək nəticələr nümayiş etdirirdilər. Şagirdlər üçün xüsusi təqaüdlər təyin edilmişdi. Azad Mirzəcanzadənin şəxsi vəsaiti hesabına təsis edilmiş Mirzəcanzadə adına təqaüdlər də verilirdi. Fəxri direktoru Respublika Elmlər Akademiyasının vitse-prezidenti Urxan Ələkbərov olan Nizami Gəncəvi adına Sumqayıt şəhər texniki elmlər liseyində (direktor Minarə Tahirova) istedadlı şagirdlərin inkişafı üçün əlverişli şərait yaradılmışdı.

Yeni tipli tədris müəssisələrinə respublikamızın tanınmış alimləri, akademiklər Fərəməz Maqsudov, Maqsud Əliyev, Bəkir Nəbiyev, Akademiyanın müxbir üzvləri Mahmud İsmayılov, Ramiz Rizayev, professor Mustafa Salahov cəlb edilmişdi və onlar bu sahədə səmərəli fəaliyyət göstərirdilər.

«Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 iyun 1996-cı il tarixli Fərmanı ilə istedadlı gənclər üçün «Qızıl kitab», habelə 1997-ci il 12 sentyabr tarixli Fərmanı ilə xüsusi təqaüdlər təsis olundu. Ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticələr göstərmiş tələbələrə hər il Prezident təqaüdünün verilməsi də respublikamızda istedad potensialının inkişafına güclü təsir göstərmişdir. Azərbaycan Respublikası Prezidentinin 1990-cı il 15 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nda istedadlı şagird və tələbələrin aşkara çıxarılması və inkişafının təmin olunması ilə bağlı məsələlər ön plana çəkilmişdi. Nazirlər Kabinetinin 1999-cu il 26 aprel tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları»nda şagirdlərin istedad və qabiliyyətinin üzə çıxarılmasına şərait yaradan tədbirlər nəzərdə tutulmuşdu. Respublika Prezidentinin 2005-ci il 30 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Gəncliyi Dövlət Proqramı»nda (2006–2010-cu illər) istedadlı uşaq və gənclərə dövlət qayğısı geniş əks olunmuş, Proqrama bu sahədə dövlət siyasətini əsaslandıran müddəalar daxil edilmişdir.

Təhsil Nazirliyinin 19.07.1999-cu il tarixli «İstedadlı uşaq və şagirdlərlə aparılan işlərin daha da yaxşılaşdırılması tədbirləri haqqında» və 18.09.2000-ci il tarixli «İstedadlı şagirdlərin

aşkara çıxarılması tədbirləri haqqında» əmrlərindən irəli gələn tələblərə müvafiq olaraq istedadlı uşaqlarla iş sahəsində əhəmiyyətli addımlar atılmışdır.

Lisey və gimnaziyalarda təhsilin məzmununu müasir tələblərə uyğunlaşdırmaq məqsədilə yeni tədris plan və proqramları hazırlanaraq tətbiq edilməyə başlanmış, pedaqoji kadr heyətinin tərkibi ilbəil yaxşılaşdırılmışdır. 1999-cu ildən qüvvəyə minən ümumi orta təhsilin dövlət standartları çərçivəsində təsdiq olunmuş ümumtəhsil proqramlarının Bazis tədris planında seçmə fənlərə ayrıca saatların verilməsi də istedad potensialının aşkara çıxarılıb formalaşmasına, həmin uşaq və gənclərlə iş sisteminin təkmilləşdirilməsinə müəyyən dərəcədə müsbət təsir göstərmişdir.

Ümumi təhsilin dövlət və cəmiyyət qarşısında ən mühüm vəzifələrindən biri də ayrı-ayrı sahələr üzrə istedadlı, xüsusi qabiliyyəti ilə fərqlənən şagirdlərin vaxtında aşkara çıxarılması və onların davamlı inkişafı üçün lazımi şəraitin yaradılmasıdır. İstedadlı insanlar hər bir ölkənin əvəzolunmaz intellektual sərvətidir, həmçinin ölkənin təhsil səviyyəsinin real göstəricisidir. **Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006–2010)»** keyfiyyətli təhsil uğrunda sağlam rəqabətin gücləndirilməsinə ciddi təkan verdi.

Dövlət Proqramında mövcud vəziyyətin və perspektivlərin hərtərəfli təhlilinə əsaslanan aşağıdakı fəaliyyət istiqamətləri öz əksini tapmışdır:

- istedadlı uşaq və gənclər haqqında məlumat bankının, internet portalının yaradılması, toplanmış məlumatların təhlili, məlumatların ilbəil yeniləşdirilməsi;
- istedadlı uşaq və gənclərin aşkara çıxarılması yolları barədə qabaqcıl təcrübələrin öyrənilməsi, ümumiləşdirilməsi və onların yaradıcılıqla tətbiqi üzrə tədbirlərin həyata keçirilməsi;
- istedadlı uşaq və gənclərlə iş sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi, psixoloji xidmət kadrlarının hazırlanması istiqamətində çevik sistemin yaradılması;
- istedadlı uşaq və gənclərin təhsil aldıqları yeni tipli təhsil müəssisələrinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi və yeniləşdirilməsi, bu müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi;
- istedadlı uşaq və gənclər üçün yeni tipli təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi, həmin müəssisələrlə ali məktəblərin işgüzar əlaqələrinin yaradılması;
- istedadlı uşaq və gənclərin müxtəlif səviyyələrdə rəğbətləndirilməsi üçün zəruri tədbirlərin görülməsi;
- olimpiada hərəkatının gücləndirilməsi;
- istedadlı uşaq və gənclərlə işin aktual məsələlərinə həsr olunmuş ədəbiyyatın, habelə nümunəvi test toplularının, olimpiada tapşırıqlarının hazırlanıb çap edilməsi;
- ümumtəhsil məktəblərinin pedaqoji işçiləri üçün istedadlı uşaq və gənclərlə fəaliyyətin xarakterik xüsusiyyətlərinə həsr olunmuş ixtisasartırma tədbirlərinin həyata keçirilməsi və s.

2006–2010-cu illərdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm addımlar atıldı. İstedadlı şagirdlərin potensial imkanlarının müəyyən edilməsində, tədqiqatçılıq qabiliyyətlərinin üzə çıxarılması və formalaşdırılmasında, onların gələcək inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsində mühüm rolunu nəzərə alaraq, AMEA ilə birgə «Kiçik Akademiya»nın Əsasnaməsi hazırlanıb təsdiq edilmişdir. Həmin Əsasnaməyə uyğun olaraq, 2007–2008-ci illərdə respublikanın şəhər və rayonlarında «Kiçik Akademiya»lar təsis edilmişdir. Bununla yanaşı, «İstedad» jurnalı da nəşrə başlamışdır.

Dövlət Proqramına uyğun olaraq ümumtəhsil məktəblərinin müəllimləri üçün istedadlı uşaq və gənclərlə fəaliyyətin xarakterik xüsusiyyətlərinə həsr edilmiş ixtisasartırma tədbirləri həyata keçirilmişdir. Ümumtəhsil məktəblərində istedadlı uşaqlarla işləyən 6375 fənn müəllimi 2007–2010-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunda ixtisasartırma kurslarına cəlb edilmişdir.


Dövlət Proqramının icrası müddətində Azərbaycan Müəllimlər İnstitutunda, Naxçıvan Müəllimlər İnstitutunda, AMİ-nin Quba filialında 100 nəfərdən artıq pedaqoji işçinin məktəb psixoloqu ixtisası üzrə yenidənhazırlanma təhsili alması təmin olunmuşdur.


İstedadlı uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişaf etdirilməsi ilə bağlı Qazaxıstan Respublikasının iş təcrübəsi öyrənilmiş və orada nəşr edilən «Психологическая диагностика одаренных детей» və «Психологическое сопровождение детей» kitabları Azərbaycan dilinə tərcümə edilərək 2008-ci ildə 1500 tirajla çap olunub yerlərə paylanılmışdır.

İstedadlı uşaq və gənclər üçün ayrı-ayrı fənlər üzrə nümunəvi olimpiada tapşırıqlarının, test toplularının hazırlanıb çap olunması məqsədilə müsabiqə elan edilmiş, «Riyaziyyatdan olimpiada iştirakçıları üçün 200 variant» (müəlliflər Rafiq Quliyev, Fuad Qarayev) 2008-ci ildə 1500 tirajla, «Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi» (müəllif Elxan Bəylərov) 2008 və 2010-cu illərdə 3000 tirajla, «Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar. I kitab» (müəlliflər Misir Mərdanov, Sabir Mirzəyev, Eminağa Məmmədov) 2009-cu ildə 3500 tirajla, «Kimyadan olimpiada məsələləri» (müəlliflər Mütəllim Abbasov, Talıb Mahmudov, Nasim Abışov, Zakir Zeynalov, Sara Abbaszadə) 2009-cu ildə 3000 tirajla, «Elementar riyaziyyatın əlavə fəsilləri və olimpiadalar. II kitab» (müəlliflər Misir Mərdanov, Sabir Mirzəyev, Eminağa Məmmədov) 2010-cu ildə 10000 tirajla çap olunmuş və məktəblərə paylanılmışdır.

Dövlət Proqramına əsasən ölkədə olimpiada hərəkatının gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Uzun illər ərzində ayrı-ayrı fənlər üzrə keçirilən olimpiadaların daha sistemli təşkili üçün yerlərdə olimpiadalara hazırlıq mərkəzləri yaradılmışdır. Bu işə alimlər, qabaqcıl müəllimlər və metodistlər cəlb edilmişlər. 2007/08-ci tədris ilindən etibarən Respublika Fənn Olimpiadalarında 1-ci yeri tutmuş 11-ci sinif şagirdləri buraxılış imtahanlarından azad edilirlər.

2010/11-ci tədris ilində də məktəblilərin fənn olimpiadalarını yüksək səviyyədə keçirmək, bu işi daha da təkmilləşdirmək, istedadlı şagirdləri üzə çıxarmaq, onların yaradıcılıq potensiallarını inkişaf etdirmək sahəsində məqsədyönlü işlər görüldü.









Proqram çərçivəsində istedadlı uşaqlar üçün nəşr olunmuş vəsaitlərdən nümunələr

Fənn olimpiadaları mövcud qaydalara uyğun olaraq, 3 mərhələdə təşkil olunmuşdu: 1-ci rayon (şəhər) mərhələsi, 2-ci rayon (şəhər) mərhələsi və Respublika mərhələsi. Respublika üzrə 347052 nəfər IX–XI sinif şagirdindən 29322 nəfəri (8,4%) 1-ci turda, 11123 nəfəri (3,2%) 2-ci turda, 1132 nəfəri (0,3%) Respublika turunda iştirak etmişdir.

Dövlət Proqramına əsasən 2011-ci ildə keçirilmiş seçim turunun nəticələri

№	Fənlər	İştirakçıların sayı	Qaliblərin sayı				
			Cəmi	I	II	III	IV
1.	Azərbaycan dili və ədəbiyyat	233	91 (39%)	4	9	12	66
2.	Azərbaycan tarixi	214	53 (24,8%)	3	8	11	31
3.	Riyaziyyat	168	58 (34,5%)	4	7	12	35
4.	Fizika	121	31 (25,6%)	4	2	8	17
5.	Kimya	143	56 (39,4%)	7	8	11	30
6.	Biologiya	216	85 (39,4%)	4	3	6	72
7.	İnformatika	38	17 (44,7%)	4	3	5	5
Cəmi:		**1133**	**391 (34,5%)**	**30**	**40**	**65**	**256**

Proqramda nəzərdə tutulduğu kimi, regionlarda istedadlı şagirdlərin təhsilinin daha səmərəli təşkili məqsədilə lisey və gimnaziyaların yaradılması sahəsində mühüm addımlar atılmışdır.

2007-ci ildə Ağdaş rayonu Maqsud Şeyxzadə adına şəhər internat məktəbinin bazasında Texniki, humanitar və təbiət fənləri təmayüllü gimnaziya, Şamaxı rayonu internat məktəbinin bazasında texniki, humanitar və təbiət fənləri təmayüllü lisey, Göygöl rayonunda Texniki və təbiət fənləri təmayüllü liseylər yaradılmışdır.

2008-ci ildə Quba şəhəri 2, 4, Salyan şəhəri 1, 7, Ağcabədi şəhəri 3, Astara rayonu Pensər kənd 2, Ağsu şəhəri 1, Samux rayonu Nəbiağalı qəsəbə 1, Qarayeri qəsəbə 1, Tərtər şəhəri 2, Abşeron rayonu Xırdalan şəhəri 3, Cəlilabad şəhəri 1, 8, Ucar şəhəri 1№-li, Bərdə rayonu Akademik Zərifə Əliyeva adına, Xaçmaz şəhər 8, Xudat şəhər 4, İmişli şəhər 1 və 5, Zərdab şəhər 1, Ağdam şəhər 14, Sabirabad şəhər 2, Kürdəmir şəhər 2, Şirvan şəhər 18, Şəmkir şəhər Məhəmməd Füzuli adına orta, Tovuz şəhər Tusi adına və Qovlar qəsəbə orta, Şabran şəhər 2, Lerik şəhər 1, Hacıqabul şəhər 8№-li, Yardımlı şəhər 1№-li tam orta məktəblərində lisey sinifləri təşkil edilmiş, Qazax şəhərində Humanitar və təbiət fənləri təmayüllü, Beyləqan şəhərində Təbiət və humanitar fənlər təmayüllü, Oğuz şəhərində Texniki və humanitar fənlər təmayüllü liseylər yaradılmışdır.

2009-cu ildə Lənkəran şəhəri xarici dillər təmayüllü internat məktəbinin bazasında Xarici dillər təmayüllü gimnaziya, Füzuli rayonu Mir Mehdi Xəzani adına musiqi təmayüllü internat məktəbinin bazasında Musiqi təmayüllü gimnaziya, Biləsuvar rayonu internat məktəbinin bazasında Texniki fənlər təmayüllü lisey yaradılmışdır.

Proqram çərçivəsində Gəncə, Mingəçevir, Sumqayıt, Şirvan şəhərləri və Quba, Ağdaş, Şəki, Lənkəran rayonlarının seçilmiş 8 məktəbinin bazasında istedadlı şagirdlər üçün lisey sinifləri təşkil edilmişdir.

Müstəqillik illərində istedadlı şagirdlər üçün təhsil müəssisələrinin şəbəkəsi genişləndirildi. Müstəqilliyin ilk ilində (1990/91-ci tədris ili)

ölkədə lisey və gimnaziyaların sayı 4 idisə, 2011-ci ildə onların sayı 75-ə, həmin müəssisələrdə təhsil alan şagirdlərin sayı 47173-ə çatdı.

Lisey və gimnaziyalar haqqında məlumat

Tədris illəri	Gimnaziyaların sayı	Şagirdlərin sayı	Liseylərin sayı	Şagirdlərin sayı
2000/01	7	3826	33	13208
2001/02	8	3536	36	18475
2002/03	6	5657	41	20053
2003/04	6	5858	43	21696
2004/05	6	6153	47	23080
2005/06	6	6287	51	25391
2006/07	6	6331	47	26626
2007/08	8	7120	50	26957
2008/09	10	8300	58	31543
2009/10	13	9417	60	34501
2010/11	13	9570	62	37603

Lisey və gimnaziyaları ümumtəhsil məktəblərindən fərqləndirən əsas cəhətlərdən biri bu idi ki, onlar xüsusi tədris planları əsasında fəaliyyət göstərirdilər. Tədris planlarında təmayül fənlərinə ayrılan saatların həcmi artırılır, bir sıra əlavə fənlər daxil edilirdi. Hər il lisey və gimnaziyaların tədris planları Təhsil Nazirliyi tərəfindən baxılır və təsdiq edilirdi.

Eyni zamanda həmin təhsil müəssisələrinə qəbul qaydaları da ümumtəhsil məktəblərindən fərqli idi. Lisey və gimnaziyalara qəbul üçün müsabiqə elan edilirdi. Müraciət edən şagirdlərlə xüsusi yoxlamalar təşkil edilirdi. Yalnız bu yoxlamalardan müvəffəqiyyətlə çıxan şagirdlər təhsil müəssisələrinə qəbul olunurdular. Bakı Avropa Liseyinə müraciət edənlərin sayı daha çox olurdu. Burada xüsusi qəbul metodologiyası tətbiq edilirdi. Şagirdlərin məktəbə hazırlığı ilə yanaşı, psixometrik, diaqnostik və intellekt testləri vasitəsilə onların qabiliyyət və istedadı da aşkara çıxarılırdı. Haşiyə çıxaraq onu da qeyd edim ki, Avropa Liseyinə qəbul o qədər ciddi aparılırdı ki, bəzən məndən xahiş edirdilər ki, qəbula kömək edim. Lakin bütün hallarda liseyə qəbulun yeganə meyarının bacarıq, qabiliyyət və istedad olduğunu bildirirdim.

2008/09-cu tədris ilindən istedadlı şagirdlər üçün Bakı şəhərində Akademik Zərifə Əliyeva adına məktəb fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəbin açılış mərasimində iştirak etmişdir.

Bu məktəb öz modelinə görə Azərbaycanda yeganə təhsil müəssisəsidir. Məktəbdə IX–XI siniflər fəaliyyət göstərir. Məktəbə şagirdlər IX sinifdən xüsusi metodika ilə seçilir. Buraya müəllimlər də ciddi müsabiqə əsasında işə qəbul edilirlər. Məktəbi fərqləndirən cəhətlərdən biri də budur ki, burada müəllimlər həm dövlət büdcəsi hesabına əmək haqqı, həm də Azərbaycan Dövlət Neft Şirkətinin vəsaiti hesabına əmək haqqına əlavələr alırlar.

Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, liseyin məzunları həm ölkənin, həm də dünyanın aparıcı ali təhsil müəssisələrinə yüksək göstəricilərlə qəbul olunurlar.

«Təhsil haqqında» Qanuna müvafiq olaraq 2011/12-ci tədris ilindən eksperiment şəklində 6 məktəbin X siniflərində (Bakı Avropa Liseyi, Akademik Zərifə Əliyeva adına məktəb, 6№-li məktəb, Elitar gimnaziya, Fizika-riyaziyyat

və informatika təmayüllü lisey, özəl XXI əsr məktəbi) profillər üzrə təlimə başlandı. Bu təcrübə də ilk dəfə idi ki, ölkəmizdə tətbiq olunurdu. İşə başlamazdan əvvəl məktəb rəhbərləri, müəllimlər və Nazirliyin aidiyyəti struktur bölmə rəhbərləri olmaqla xeyli müzakirələr apardıq. Müzakirələri məktəb səviyyəsində müəllimlərlə, şagirdlərlə, onların valideynləri ilə davam etdirdik. Nəticədə profillər üzrə tədris planlarını hazırladıq. Eksperimentə cəlb olunmuş məktəblərin profil fənlər üzrə ən təcrübəli və peşəkar müəllimlərinə tədris proqramlarının hazırlanması tapşırığını verdik.

Qısa müddət ərzində proqramlar hazırlandı və müzakirələrdən sonra təsdiq edildi. Profillər üzrə təlim aparılan siniflər şagirdlərin seçimi əsasında komplektləşdirildi və həmin siniflərdə işləyəcək müəllimlər müəyyənləşdirildi.

Riyaziyyat-texniki təmayüllü siniflərin tədris planı (X sinif)

№	Fənlər	Həftəlik dərs saatları
1.	Ana dili	4
2.	Xarici dil	4
3.	Riyaziyyat	10
4.	İnformatika	2
5.	Fizika	5
6.	Kimya	4
7.	Azərbaycan tarixi	1
8.	Fiziki tərbiyə	2
9.	Gənclərin çağırışaqədərki hazırlığı	1
Cəmi:		**33**
Dərsdənkənar məşğələlər		3
Yekun:		**36**

Riyaziyyat-iqtisadiyyat təmayüllü siniflərin tədris planı (X sinif)

№	Fənlər	Həftəlik dərs saatları
1.	Ana dili	4
2.	Xarici dil	4
3.	Riyaziyyat	10
4.	İnformatika	2
5.	Azərbaycan tarixi	4
6.	Coğrafiya	5
7.	İqtisadiyyata giriş	1
8.	Fiziki tərbiyə	2
9.	Gənclərin çağırışaqədərki hazırlığı	1
Cəmi:		**33**
Dərsdənkənar məşğələlər		3
Yekun:		**36**

Humanitar fənlər təmayüllü siniflərin tədris planı (X sinif)

№	Fənlər	Həftəlik dərs saatları
1.	Ana dili	5
2.	Ədəbiyyat	5
3.	Xarici dil	7
4.	Azərbaycan tarixi	4
5.	Ümumi tarix	3
6.	Riyaziyyat	4
7.	İnformatika	2
8.	Fiziki tərbiyə	2
9.	Gənclərin çağırışaqədərki hazırlığı	1
Cəmi:		**33**
Dərsdənkənar məşğələlər		3
Yekun:		**36**

Təbiət fənləri təmayüllü siniflərin tədris planı (X sinif)

№	Fənlər	Həftəlik dərs saatları
1.	Ana dili	4
2.	Xarici dil	3
3.	Riyaziyyat	4
4.	İnformatika	2
5.	Fizika	4
6.	Kimya	6
7.	Biologiya	6
8.	Azərbaycan tarixi	1
9.	Fiziki tərbiyə	2
10.	Gənclərin çağırışaqədərki hazırlığı	1
Cəmi:		**33**
Dərsdənkənar məşğələlər		3
Yekun:		**36**

Müstəqillik illərində istedadlı uşaqların təhsilinin təşkili ilə əlaqədar maraqlı bir təcrübə də meydana gəlmişdi. Bir sıra lisey və gimnaziyalar Təhsil Nazirliyinin balansına verilir və onun birbaşa tabeliyində fəaliyyət göstərirdi. Həmin təhsil müəssisələrinin idarə edilməsi də tabelikdə olan digər müəssisələrdən əsaslı şəkildə fərqlənirdi. Təhsil Nazirliyi lisey və gimnaziyalara idarəetmə müstəqilliyi verir, qərarların qəbul edilməsində onların rəylərini və təkliflərini maksimum dərəcədə nəzərə alır. Belə yanaşma həmin təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsinə, daha böyük nailiyyətlərin əldə edilməsinə bilavasitə təsir edir. Bakı Avropa Liseyi, 6№-li məktəb-lisey, Elitar gimnaziya, «Ankara məktəbi» məktəb-liseyi, «Tərəqqi» liseyi, «Zəngi» liseyi, 132–134№-li təhsil kompleksi, Texniki-humanitar təmayüllü lisey müxtəlif illərdə Təhsil Nazirliyinin birbaşa tabeliyinə verilmişdir.

2008-ci ildən başlayaraq fizika, riyaziyyat, kimya və biologiya fənləri üzrə VIII–X sinif şagirdləri arasında istedadlı şagirdlərin müəyyənləşdirilməsi məqsədilə məktəb, rayon və respublika mərhələlərini əhatə edən seçimlərin aparılmasına başlandı. Bu işin aparılmasında məqsəd ölkə üzrə «İstedad bankı»nın yaradılması idi. Eyni zamanda hər il ən yüksək nəticə göstərmiş 50 nəfər istedadlı uşaq üçün Bakı şəhərində yay düşərgəsi təşkil edilirdi.

Dövlət Proqramı çərçivəsində lisey və gimnaziyaların maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində müəyyən işlər görüldü.

2006-cı ildə bilavasitə Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika, Kimya-biologiya təmayüllü liseylərdə, Səttar Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyada və İlyas Əfəndiyev adına Elitar gimnaziyada əsaslı təmir işləri aparılmış, 1190000 manat vəsait xərclənmişdir.

2007-ci ildə yeni tipli ümumi təhsil müəssisələrinin əsaslı təmir və bərpasına 3,5 milyon manat vəsait ayrılmışdır. Yasamal rayonu 20№-li məktəb-liseydə əsaslı təmir-bərpa işləri, Xətai rayonu 287№-li «Zəkalar», Sumqayıt şəhər Texniki və təbiət elmləri, İngilis dili təmayüllü «Təfəkkür», Mingəçevir şəhər Təbiət-riyaziyyat və humanitar fənlər təmayüllü, Masallı rayonu «Dəfinə», Balakən rayonu Texniki-humanitar təmayüllü liseylərin tədris korpusları əsaslı təmir olunmuşdur.

2008-ci ildə Seyid Cəfər Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının və Mingəçevir şəhəri Təbiət-riyaziyyat təmayüllü liseyin istilik sistemləri, Ağstafa rayonu Texniki və humanitar təmayüllü liseyin istilik sistemi, Quba rayonu Texniki təmayüllü liseyin istilik sistemi, dam örtüyü və sinif otaqları əsaslı təmir olunmuş, bu işlərin görülməsi üçün 500000 manat vəsait xərclənmişdir.

Dövlət Proqramına əsasən 2007–2008-ci illərdə 544100 manat məbləğində inventar və avadanlıqlar alınaraq lisey və gimnaziyalara verilmişdir.

Müstəqillik illərində Azərbaycan məktəbliləri dünya və beynəlxalq səviyyəli bilik yarışlarında və olimpiadalarda müntəzəm olaraq iştirak etməyə başladılar. Bu sahədə aparılan işlər öz bəhrəsini verdi. 1996–2011-ci illərdə Azərbaycan məktəbliləri fizika, informatika, kimya, riyaziyyat və biologiya fənləri üzrə keçirilən dünya və beynəlxalq fənn olimpiadalarında **18 qızıl, 38 gümüş və 71 bürünc olmaqla ümumilikdə 127 medal** qazanmışlar. Bu nəticələr göstərir ki, əhalisinin sayının az olmasına baxmayaraq, medalların sayına görə Azərbaycan dünya ölkələri arasında ilk onluqda yerləşir.

2008-ci ildən Nazirliyin əmri ilə dünya fənn olimpiadaları iştirakçılarının dərs məşğələlərindən azad edilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycan məktəblilərinin dünya və beynəlxalq səviyyəli fənn olimpiadalarında iştirakı və yüksək nəticələr əldə etməsi belə tipli bilik yarışlarının Azərbaycanda təşkilinə zəmin yaratdı və bir çox mötəbər beynəlxalq yarışların



Kimya üzrə 44-cü Beynəlxalq Mendeleyev Olimpiadası. Bakı, may, 2010-cu il



Tailandda keçirilən Beynəlxalq İnformatika Olimpiadasının bürünc medalçısı,
Vaterloo Universitetinin (Kanada) I kurs tələbəsi Azad Salahlı mükafat alarkən. 2011-ci il

ölkəmizin paytaxtı Bakı şəhərində keçirilməsi ənənə halını aldı. 2009-cu ilin 3–10 dekabr tarixlərində Bakı şəhərində Heydər Əliyev Fondu, İJSO (International Junior Science Olympiad), Azərbaycan Milli Elmlər Akademiyasının, Təhsil Nazirliyinin dəstəyi ilə 15 yaşlı yeniyetmələr arasında fizika, kimya və biologiya fənləri üzrə keçirilmiş olimpiadada 49 ölkədən 600-dən çox şagird iştirak etmişdi. Olimpiadada iştirak edən 12 azərbaycanlı məktəblidən 2-si gümüş, 7-si isə bürünc medal qazanmışdı.

2010-cu ilin mayında Bakı şəhərində kimya üzrə 44-cü Beynəlxalq Mendeleyev Olimpiadası keçirildi. Dünyanın 14 ölkəsindən gələn şagirdlərin iştirak etdiyi Olimpiadada azərbaycanlı şagirdlər 1 qızıl, 3 bürünc medal qazandılar. Həmin şagirdlərin Mixayil Vasilyeviç Lomonosov adına Moskva Dövlət Universitetinə imtahansız qəbul olunması barədə qərar qəbul edildi.

Hər il olduğu kimi, 2010-cu ildə də ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibətilə 20.04.2010-cu il tarixdə inşa yazı müsabiqəsinin respublika mərhələsi keçirildi. Qaliblərin inşa yazılarından ibarət «Heydər Əliyev məktəblilərin gözü ilə» adlı kitab nəşr edildi. İnşa yazı müsabiqəsinin qaliblərindən 18 nəfəri Heydər Əliyev Fondu tərəfindən Fransa, Belçika, Almaniya və Hollandiya dövlətlərinə səyahətə göndərildi.

2011-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə keçirilən «Heydər Əliyev məktəblilərin gözü ilə» mövzusunda inşa müsabiqəsinin yekunları ilə əlaqədar «Gülüstan» sarayında mərasim keçirildi. Müsabiqədə 3 nəfər məktəbli 1-ci yerə, 4 nəfər 2-ci yerə, 6 nəfər 3-cü yerə layiq görüldü, 65 nəfər həvəsləndirici mükafat aldı.

Hələ sovet dövründən Azərbaycanda istedadlı uşaqlar üçün internat tipli lisey və gimnaziyalar fəaliyyət göstərirdi. Həmin təhsil müəssisələrində respublikanın bütün regionlarından istedadlı uşaqlar təhsil alırdılar. Təhsil Nazirliyinin birbaşa tabeliyində olan bu lisey və gimnaziyalar fəaliyyət göstərdikləri illər ərzində bir sıra uğurlu nəticələr əldə etmişlər. Azərbaycanın təhsil tarixində xüsusi yeri olan həmin lisey və gimnaziyalar barədə qısa da olsa məlumat vermək yerinə düşər.

Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyası strukturuna və profilinə görə ölkədə yeganə təhsil müəssisəsidir. Burada şagirdlərə həm incəsənətin müxtəlif sahələri üzrə bacarıqlar aşılanır, həm də ümumi təhsil verilir. Bu təhsil müəssisəsinin tədris planı da xüsusi olaraq tərtib edilir və ümumtəhsil məktəblərinin tədris planlarından əsaslı şəkildə fərqlənir. Gimnaziyanın tədris planına ümumtəhsil fənləri ilə yanaşı, incəsənət sahələri üzrə fənlər də daxil edilir. Xüsusi statusu olan bu təhsil müəssisəsinə şagirdlərin qəbulu zamanı məhz müvafiq incəsənət sahələri üzrə profillər əsas götürülür.

2010/11-ci tədris ilində gimnaziyada 49 sinifdə 1132 şagird təhsil alırdı, 495 müəllim fəaliyyət göstərirdi.

Respublika İncəsənət Gimnaziyasının 2010/11-ci dərs ili üçün təmayül üzrə tədris planı (fortepiano bölməsi)

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
1.	Əsas alət (ixtisas)	2	2	2	2	2	2	2	2	2	2	2	**22**
2.	Solfecio	2	2	2	2	2	2	2	2	2	2	2	**22**
3.	Elementar musiqi nəzəriyyəsi								1				**1**
4.	Harmoniya									2	2	2	**6**
5.	Musiqi ədəbiyyatı				1	2	2	2	3	3	3	2	**18**
6.	Xor						1	1	1	1	1	1	**6**
7.	Azərbaycan ladları										1	2	**3**
8.	Müşayiət									1	1	1	**3**
9.	Ansambl		1	1	1	1	1	1	1	1	1		**9**
Cəmi:		4	5	5	6	8	8	8	10	12	13	11	**90**
Fakültativ, fərdi və qrup məşğələləri													
1.	Kompozisiya										2	2	**4**
2.	Dirijorluq										1	1	**2**

Fizika-riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyi ölkədə fizika və riyaziyyat fənlərinin dərinləşdirilmiş proqramlarla tədrisi sahəsində böyük uğurlar əldə etmiş, ölkəmizdə və onun hüdudlarından kənarda dəqiq elmlər sahəsində çoxsaylı mütəxəssislərin yetişdirilməsində mühüm rol oynamışdır. Bu təhsil müəssisəsinə şagirdlər 7-ci sinifdən müsabiqə yolu ilə qəbul olunurlar. Liseyin tədris planında profillər üzrə fənlərin tədrisinə daha çox vaxt ayrılır, seçmə

fənlərə ayrılan saatlar da profil fənlərin tədrisinə yönəldilir, həmçinin elektiv kurslar tətbiq edilir. Tədris planındakı A – məcburi dərs yükünü, B – seçmə fənlərə, C – elektiv kurslara ayrılan tədris yükünü göstərir. Lisey orta məktəb şagirdləri arasında keçirilən riyaziyyat və fizika fənləri üzrə olimpiadalarda böyük uğurlar əldə etmişdir. 2005–2010-cu illərdə lisey şagirdlərindən 9 nəfər I, 10 nəfər II, 12 nəfər III yerə layiq görülmüşdür.

Lisey məzunlarının ali məktəblərə qəbul göstəriciləri həmişə yüksək olur. Son 5 ildə məzunlardan 9 nəfəri Prezident təqaüdünə layiq görülmüşdur.

2010-cu ildə liseyin bir şagirdi II ixtisas qrupuna qəbul imtahanında ən yüksək nəticə göstərərək 700 bal toplamışdır.

2010/11-ci tədris ilində liseydə 24 sinifdə 722 şagird təhsil alır, 74 müəllim fəaliyyət göstərirdi.

Fizika-riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyinin 2010/11-ci dərs ili üçün tədris planı

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı														
		VII			VIII			IX			X			XI		
		A	B	C	A	B	C	A	B	C	A	B	C	A	B	C
1.	**Dillər və ədəbiyyat**															
	Azərbaycan dili	4			3			2			2			2		
	Ədəbiyyat	2			2			3			3			2		
	Xarici dil	3	1		3			2			2	1		2	1	
2.	**Riyaziyyat və informatika**															
	Cəbr	3	1		3	2	1	3	2							
	Cəbr və analizin başlanğıcı										2	3	1	2	3	
	Həndəsə	2	1		2			2	1		1	1		1	1	
	İnformatika (praktiki məşğələlər)	2			1		1		1	1	1	1		1	1	
3.	**İctimai fənlər**															
	Tarix	1			1			1			1			1		
	Azərbaycan tarixi	1			2/1			2			2			2		
	İnsan və cəmiyyət				1			1			1			1		
	İqtisadi və sosial coğrafiya				1/1			2								
	Azərbaycan Respublikasının Konstitusiyası							1								
	İqtisadiyyatın əsasları							1			1			1		
4.	**Təbiət fənləri**															
	Fizika	2		1	2	1		3			2	1	1	1	3	
	Astronomiya													1		
	Kimya				2			2			1			2		
	Biologiya	2			2			2			1			1		
	Fiziki coğrafiya	2			1						1	1		1	1	
5.	**Əmək hazırlığı və texnologiya**															
	Rəsmxət				1			1								
6.	**Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı**															
	Fiziki tərbiyə	2			2			2			2			2		
	Gənclərin çağırışaqədərki hazırlığı										2			2		
7.	**İncəsənət**															
	Təsviri incəsənət	1														
	Musiqi və nəğmə	1			1											
Şagirdlərin məcburi maksimum dərs yükü			32			47			35			35			35	
Dərsdənkənar, fakültativ, fərdi və qrup məşğələləri				3			2			1			1			3

Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya. 1992-ci ildə Xalq Təhsili Nazirliyinin əmrinə əsasən «Ərəb-ingilis dili təmayüllü Respublika internat məktəbi» Xarici Dillər Təmayüllü Gimnaziya adlandırılmışdır. Gimnaziyanın tədis planını ümumtəhsil məktəblərinin tədris planından fərqləndirən bir sıra xüsusiyyətlər vardır. Gimnaziyada xarici dillərin tədrisinə ayrılan vaxt iki dəfə artırılmışdır. Əmək hazırlığı yalnız 3-cü sinifdə tədris edilir. Rəsmxət fənninin tədrisinə ümumiyyətlə vaxt ayrılmır.

2010/11-ci tədris ilində gimnaziyada 40 sinifdə 1149 şagird təhsil alırdı. Onların təlim-tərbiyəsi ilə yüksək elmi potensiala malik 83 nəfərlik pedaqoji kollektiv məşğul olurdu.

Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın 2010/11-ci dərs ili üçün tədris planı

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatların miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
1.	**Dillər və ədəbiyyat** Azərbaycan dili	9	10	10	10	5	4	4	3	2	3	3	**63**
	Ədəbiyyat					3	2	2	2	3	3	3	**18**
	Xarici dil (ərəb, ingilis, fransız, rus)	4	4	4	4	9	9	9	9	8	9	9	**78**
2.	**Riyaziyyat və informatika** Riyaziyyat	4	4	4	4	5	5						**26**
	Cəbr							3	3	3			**9**
	Cəbr və analizin başlanğıcı										2	2	**4**
	Həndəsə							2	2	2	1	1	**8**
	İnformatika	1	1	1		1	1	1	1	1	1	1	**10**
3.	**İctimai fənlər** Tarix						1	1	1	1	1	1	**6**
	Azərbaycan tarixi					2	1	1	2/1	2	2	2	**12.5**
	İnsan və cəmiyyət								1	1	1	1	**4**
	İqtisadi və sosial coğrafiya								1	2			**3**
	Azərbaycan Respublikasının Konstitusiyası									1			**1**
	İqtisadiyyatın əsasları									1	1	1	**3**
4.	**Təbiət fənləri** Həyat bilgisi	1	1	2	2								**6**
	Təbiətşünaslıq					2							**2**
	Fizika							2	2	3	2	2	**11**
	Astronomiya											1	**1**
	Kimya								2	2	1	2	**7**
	Biologiya						2	2	2	2	1	2	**11**
	Fiziki coğrafiya						2	3	1		2	2	**10**
5.	**Əmək hazırlığı və texnologiya** Əmək hazırlığı (texnologiya)			1									**1**
	Rəsmxət												**–**
6.	**Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı** Fiziki tərbiyə	2	2	2	2	2	2	2	2	2	2	2	**22**
	Gənclərin çağırışaqədərki hazırlığı										2	2	**4**
7.	**İncəsənət** Təsviri incəsənət	1	1	1	1	1							**5**
	Musiqi və nəğmə	1	1	1	1	1							**5**
Şagirdlərin məcburi maksimum dərs yükü		**23**	**24**	**26**	**24**	**31**	**29**	**32**	**34,5**	**36**	**34**	**37**	**330,5**
Dərsdənkənar, fakültativ, fərdi və qrup məşğələləri							**3**	**3**	**2**		**2**	**1**	**11**

Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziya. Xalq Təhsili Nazirliyinin 18 iyun 1992-ci il tarixli əmrinə müvafiq olaraq 1992/93-cü tədris ilində xarici dillərin tədrisində qazanılmış müsbət nəticələri, lazımi tədris bazasının yaradılmasını, müvafiq kadr heyətinin formalaşdığını nəzərə alaraq 3№-li fars təmayüllü internat məktəbin bazasında gimnaziya yaradılmış, təhsil müəssisəsi Humanitar Təmayüllü Xarici Dillər Gimnaziyası adlandırılmışdır. Təhsil Nazirliyinin 07.06.2000-ci il tarixli əmrinə müvafiq olaraq 2000/01-ci tədris ilində Gimnaziya Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü əsas internat məktəbi adlandırılmışdır. Təhsil Nazirliyinin 23.09.2008-ci il tarixli əmri ilə Xarici Dillər təmayüllü əsas internat məktəbinin bazasında Xarici Dillər Təmayüllü orta internat tipli Gimnaziya yaradılmışdır. 2011-ci ildə internat tipli status götürülmüş, təhsil müəssisəsi Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziya adlandırılmışdır. Gimnaziyada ərəb, fars, ingilis dilləri dərinləşdirilmiş proqram üzrə tədris olunur. 2010/11-ci tədris ilində gimnaziyada 41 sinifdə 1050 şagird təhsil almış, 63 müəllim fəaliyyət göstərmişdir.

Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziyanın
2010/11-ci dərs ili üçün tədris planı

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
1.	**Dillər və ədəbiyyat** Azərbaycan dili	9	10	10	10	5	4	4	3	2	2	2	**61**
	Ədəbiyyat					3	2	2	2	3	3	3	**18**
	Xarici dil (ingilis dili)	2	2	3	3	5	5	3	5	5	5	5	**43**
	Ərəb dili (fars dili)							2	2	2	2	2	**10**
	Rus dili					2	2						**4**
2.	**Riyaziyyat və informatika** Riyaziyyat	4	4	4	4	5	5						**26**
	Cəbr							3	3	3			**9**
	Cəbr və analizin başlanğıcı										2	3	**5**
	Həndəsə							2	2	2	1	1	**8**
	İnformatika		1	1		1	1	1	1	1	2	2	**11**

№	Təhsil sahələri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
3.	**İctimai fənlər**												
	Tarix						1	1	1	1	1	1	6
	Azərbaycan tarixi					2	1	1	2/1	2	2	2	12,5
	İnsan və cəmiyyət								1	1	1	1	4
	İqtisadi və sosial coğrafiya								0/1	2			2,5
	Azərbaycan Respublikasının Konstitusiyası									1			1
	İqtisadiyyatın əsasları									1	1	1	3
4.	**Təbiət fənləri**												
	Həyat bilgisi	1	1	2	2								6
	Təbiətşünaslıq					2							2
	Fizika							2	2	3	2	2	11
	Astronomiya											1	1
	Kimya							2	2	2	2	2	10
	Biologiya						2	2	2	2	2	2	12
	Fiziki coğrafiya						2	2	1		2	2	9
5.	**Əmək hazırlığı və texnologiya**												
	Əmək hazırlığı (texnologiya)	1	1	1	1	1	2	2	1				10
	Rəsmxət								1	1			2
6.	**Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı**												
	Fiziki tərbiyə	2	2	2	2	2	2	2	2	2	2	2	22
	Gənclərin çağırışaqədərki hazırlığı										2	2	4
7.	İncəsənət Təsviri incəsənət	1	1	1	1	1	1	1					7
	Musiqi və nəğmə	1	1	1	1	1	1	1	1				8
Şagirdlərin məcburi maksimum dərs yükü		**21**	**23**	**25**	**27**	**28**	**27**	**29**	**32**	**34**	**30**	**32**	**308**
Dərsdənkənar, fakültativ, fərdi və qrup məşğələləri		**1**	**1**	**1**		**4**	**4**	**4**	**4**	**2**	**3**	**3**	**27**

Kimya-biologiya Təmayüllü Respublika Liseyi uzun müddət Nəriman Nərimanov adına Tibb İnstitutunun baza məktəbi olmuş və 1991-ci ildən lisey statusu almışdır. Son illərdə liseyin maddi-texniki bazası əhəmiyyətli şəkildə möhkəmləndirilmiş, burada əsaslı təmir işləri aparılmış, müasir İKT kabinetləri, kimya və biologiya laboratoriyaları yaradılmış, təhsil müəssisəsi digər zəruri avadanlıqlarla təchiz edilmişdir. Liseyə şagirdlər 8-ci sinifdən qəbul edilir. Tədris planında profil fənlər olan kimya və biologiyanın tədrisinə daha çox vaxt ayrılır. Həmin fənlər xüsusi proqramlar vasitəsilə tədris olunur. 2010/11-ci tədris ilində liseydə 23 sinifdə 538 şagird təhsil almış, 57 müəllim fəaliyyət göstərmişdir.

Kimya-biologiya Təmayüllü Respublika Liseyinin
2010/11-ci dərs ili üçün tədris planı

№	Fənlər	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı				Cəmi
		VIII	IX	X	XI	
1.	Azərbaycan dili	3	2	2	2	**9**
2.	Ədəbiyyat	2	3	3	2	**10**
3.	İngilis dili	4	3	3	3	**13**
4.	Cəbr	3	3			**6**
5.	Cəbr və analizin başlanğıcı			2	2	**4**
6.	Həndəsə	2	2	1	1	**6**
7.	Tarix	1	1	1	1	**4**
8.	Azərbaycan tarixi	2/1	2	2	2	**8,5**
9.	İnsan və cəmiyyət	1	1	1	1	**4**
10.	İqtisadi və sosial coğrafiya	0/1	2			**2,5**
11.	Azərbaycan Respublikasının Konstitusiyası		1			**1**
12.	İqtisadiyyatın əsasları		1	1	1	**3**
13.	Astronomiya				1	**1**
14.	İnformatika	1	1	1+1	1+1	**6**
15.	Fizika	2	3	2	1+2	**10**
16.	Kimya	2+2	2+2	1+4	2+3	**18**
17.	Biologiya	2+2	2+2	1+4	1+4	**18**
18.	Fiziki coğrafiya	1		1	1	**3**
19.	Rəsmxət	1	1			**2**
20.	Fiziki tərbiyə	2	2	2	1	**7**
21.	Gənclərin çağırışaqədərki hazırlığı			2	2	**4**
Şagirdlərin məcburi maksimum dərs yükü		33	36	35	35	**139**
Fakültativ, fərdi və qrup məşğələləri		2		1	2	**5**

Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası. 1991-ci ildə Seyid Cəfər Pişəvəri adına fars dili təmayüllü internat məktəbin bazasında Seyid Cəfər Pişəvəri adına Humanitar Fənlər Gimnaziyası yaradılmışdır.

Gimnaziyanın tədris planında humanitar fənlərin tədrisinə daha çox vaxt ayrılmışdır və həmin fənlər dərinləşdirilmiş proqramlarla tədris edilir. 2008-ci ilə qədər gimnaziyada xarici dil kimi fars dili tədris edilmişdir. 2008/09-cu tədris ilindən isə burada ingilis dilinin intensiv tədrisi layihəsinə başlanmışdır. 2010/11-ci tədris ilində gimnaziyada 43 sinifdə 1237 şagird təhsil almış, 104 nəfər müəllim fəaliyyət göstərmişdir.

Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının 2010/11-ci dərs ili üçün tədris planı

№	Tədris fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
1.	Riyaziyyat	4	4	4	4	5	4						25
2.	Cəbr							3	3	3			9
3.	Cəbr və analizin başlanğıcı										2	2	4
4.	Həndəsə							2	2	2	1	1	8
5.	İnformatika	1	1	1		2	2	2	2	2	1	1	15
6.	Azərbaycan Respublikasının Konstitusiyası									1			1
7.	İqtisadiyyatın əsasları									1	1	1	3
8.	Həyat bilgisi	1	1	2	1								5
9.	Təbiətşünaslıq					2							2
10.	Fizika							2	2	2	2	2	10
11.	Astronomiya											1	1
12.	Kimya								2	2	1	2	7
13.	Biologiya						2	2	2	1 / 2	1	1	9,5
14.	Fiziki coğrafiya						2	2	1		2	2	9
15.	Rəsmxət								1	1			2
16.	Əmək hazırlığı (texnologiya)	1	1	2	1	1	1	1	1				9
17.	Təsviri incəsənət	1	1	1	1	1	1						6
18.	Musiqi və nəğmə	1	1	1	1	1	1	1					7
19.	Fiziki tərbiyə	2	2	2	2	2	2	2	2	2	2	2	22
20.	Gənclərin çağırışaqədərki hazırlığı										2	2	4
CƏMİ:		11	11	13	10	14	15	17	18	17,5	15	17	158,5

Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının
2010/11-ci dərs ili üçün təmayül fənlərinin tədris planı

№	Təmayül fənləri	Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı											Cəmi
		I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	
1.	Azərbaycan dili	9	10	10	10	5	4	4	3	2	2	2	**61**
2.	Ədəbiyyat					3	2	2	2	3	3	2	**17**
3.	Xarici dil (fars və ingilis)	3	3	3	4	4	3	3	3	2	2	2	**32**
4.	Azərbaycan tarixi					2	1	1	2/1	2	2	2	**11,5**
5.	Tarix						1	1	1	1	1	1	**6**
6.	İnsan və cəmiyyət								1	1	1	1	**4**
7.	İqtisadi və sosial coğrafiya								1	2			**3**
CƏMİ:		**12**	**13**	**13**	**14**	**14**	**11**	**11**	**12,5**	**13**	**11**	**10**	**134,5**
YEKUN:		**23**	**24**	**26**	**24**	**28**	**26**	**28**	**30,5**	**30,5**	**26**	**27**	**293**
Şagirdlərin məcburi maksimum dərs yükü		23	29	32	29	27	26	28	29	30	25	25	303
Dərsdənkənar, fakültativ, fərdi və qrup məşğələləri						1	1	1	2	1	2	2	10

Təhsil Nazirliyinin birbaşa tabeliyində olan lisey və gimnaziyalar haqqında məlumat (2004–2007-ci illər)

№	Lisey və gimnaziyalar	2004/05-ci tədris ili					2005/06-cı tədris ili					2006/07-ci tədris ili				
		şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti	şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti	şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti
1.	Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası	1244	41	30,3	119	10,5	1306	41	31,9	121	10,8	1339	43	31,1	123	10.9
2.	Respublika İncəsənət Gimnaziyası	1428	50	28,6	470	3,0	1438	52	27,7	529	2,7	1444	52	27,8	513	2,8
3.	Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya	1100	36	30,6	84	13,1	1194	40	29,9	89	13,4	1170	40	29,3	89	13,1
4.	Fizika-riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyi	778	22	35,4	78	10,0	868	23	37,7	82	10,6	893	24	37,2	92	9,7
5.	Kimya-biologiya Təmayüllü Respublika Liseyi	704	23	30,6	64	11,0	684	23	29,7	84	8,1	717	23	31,2	72	10,0
6.	Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziya	614	24	25	58	10,5	785	30	26	64	12,3	875	32	27,3	63	13,9

Təhsil Nazirliyinin birbaşa tabeliyində olan lisey və gimnaziyalar haqqında məlumat (2007–2009-cu illər)

№	Lisey və gimnaziyalar	2007/08-ci tədris ili					2008/09-cu tədris ili				
		şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti	şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti
1.	Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası	1343	43	31,2	112	12,0	1311	42	31,2	104	12,6
2.	Respublika İncəsənət Gimnaziyası	1272	53	24,0	546	2,3	1200	52	23,1	497	2,4
3.	Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya	1194	40	29,9	86	13,9	1161	40	29,0	83	14.0
4.	Fizika-riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyi	830	24	34,6	79	10,5	823	24	34,3	79	10,4
5.	Kimya-biologiya Təmayüllü Respublika Liseyi	677	23	29,4	65	10,4	683	23	29,7	66	10,3
6.	Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziya	898	33	27,2	55	16,3	964	36	26,8	59	16,3

Təhsil Nazirliyinin tabeliyində olan lisey və gimnaziyalar haqqında məlumat (2009–2011-ci illər)

№	Lisey və gimnaziyalar	2009/10-cu tədris ili					2010/11-ci tədris ili				
		şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti	şagirdlərin sayı	siniflərin sayı	orta sıxlıq	müəllimlərin sayı	müəllim-şagird nisbəti
1.	Seyid Cəfər Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası	1258	41	30,7	105	12,0	1237	43	28,8	104	11,9
2.	Respublika İncəsənət Gimnaziyası	1165	51	22,8	512	2,3	1132	49	23,1	495	2,3
3.	Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziya	1143	40	28,6	83	13,8	1149	40	28,7	83	13,1
4.	Fizika-riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyi	768	24	32,0	80	9,6	722	24	30,1	74	9,8
5.	Kimya-biologiya Təmayüllü Respublika Liseyi	611	23	26,6	58	10,5	538	23	23,4	57	9,4
6.	Süleyman Rüstəm adına Xarici Dillər Təmayüllü Gimnaziya	1021	40	25,5	63	16,2	1050	41	25,6	63	16,7

Müstəqilliyin ilk illərindən ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə özəl Azərbaycan–türk liseyləri fəaliyyətə başladı. Azərbaycan–türk liseylərinin şagirdləri öz nailiyyətləri ilə yalnız Azərbaycanda deyil, dünyada şöhrət qazandılar, dünya və beynəlxalq səviyyəli bilik yarışlarında təhsil göstəriciləri ilə fərqləndilər.

«Çağ» Öyrətim İşlətmələri Şirkətinin Azərbaycanda fəaliyyəti, onun bu günə kimi keçdiyi yol ölkə ictimaiyyətinin daim diqqət mərkəzində olmuşdur.

Beynəlxalq fənn olimpiadalarında Azərbaycanı layiqincə təmsil edən və ölkəmizə ilk medalları qazandıran da məhz «Çağ» liseylərinin şagirdləri olmuşdur. Həmin təhsil müəssisələrinin müxtəlif bilik yarışlarından Azərbaycana gətirdiyi medalların sayı 200-ə yaxındır. Onların iştirak etdikləri olimpiadaların coğrafiyası isə hər il daha da genişlənir. Bu şagirdlər 40-a yaxın ölkədə Azərbaycanı təmsil etmiş və qələbələr qazanmışlar. Artıq inkişaf etmiş ölkələrdən gələn nümayəndələr də bu beynəlxalq yarışlarda Azərbaycandan olan iştirakçılara ciddi rəqib kimi baxırlar.

«Çağ» Öyrətim İşlətmələri Şirkəti nəzdində olan 12 liseyin təhsilin müasir standartlara uyğunlaşdırılmasında və dünya təhsil sisteminə inteqrasiya olunmasında, azərbaycanlı gənclərin yetişdirilməsində əhəmiyyətli rolu olmuşdur. Şirkətin təhsil müəssisələri Azərbaycana yeni təhsil modeli gətirməklə yanaşı, təlim prosesində ən müasir texnologiyaların tətbiqi sahəsində də nümunə olmuşdur. Şirkətin ümumtəhsil məktəbləri məzunları dünyanın 30-dan çox ölkəsində ən nüfuzlu universitetlərdə təhsil alır, təhsil aldıqları xarici ölkələrdə Azərbaycanı ləyaqətlə təmsil edirlər. Eyni zamanda Azərbaycanın ali məktəblərinə qəbul zamanı, bir qayda olaraq, həmin məzunlar yüksək nəticələr nümayiş etdirirlər. Bu məzunlar Azərbaycanın dövlət strukturlarında, beynəlxalq təşkilatlarda, ölkəmizin səfirliklərində yüksək vəzifələr tutmaqla yanaşı, dünyanın nüfuzlu universitetlərində də böyük uğurla fəaliyyət göstərirlər.

«Çağ» Öyrətim İşlətmələri Şirkəti Azərbaycanın təhsil həyatında bir çox yeniliklər etmişdir. Məsələn, şirkətin liseyləri ilk dəfə Azərbaycanda yeni formada Bilik Bayramı, bilik sərgiləri keçirmiş, bu tədbirlərə digər nazirlik, idarə və təşkilatları cəlb etmişlər. Həmin sərgilər təkcə Azərbaycanla məhdudlaşmamış, beynəlxalq miqyas almış və 2008-ci ildə ilk dəfə 16 xarici ölkənin iştirakı ilə Beynəlxalq fənn olimpiadasına çevrilmişdir.


Bu məktəblər Azərbaycan Respublikası Təhsil Nazirliyinin verdiyi xüsusi icazə – lisenziya əsasında fəaliyyət göstərir. Şirkət bütün müəssisələri üçün əlverişli şərait yaratmış, Qubada yeni lisey binası, Lənkəranda hazırlıq kursu binası, Abşeronda universitet kompleksi inşa etmişdir. Ölkəmizin paytaxtında Bakı Özəl Türk Liseyi üçün yeni kompleks inşa edilmişdir. Gəncədə, Şamaxıda, Zaqatalada, Qaxda, Mingəçevirdə, Şirvanda, bir sözlə, bu müəssisələr üçün ayrılan hər bir binada əsaslı təmir və yenidənqurma işləri aparılmış, bütün müəssisələr ən son model elektron tədris vəsaitləri ilə təmin edilmiş və bu tədris vəsaitləri müntəzəm olaraq yenilənmişdir.



Prezident Heydər Əliyev
«Çağ» Öyrətim İşlətmələri Şirkətinin
rəhbərləri ilə.
Soldan: Ənvər Özərən, Məsud Ata.
2002-ci il



Prezident Heydər Əliyev «Çağ» Öyrətim İşlətmələri Şirkətinin nümayəndələrini qəbul edərkən.
Sağdan: Azərbaycan–Türkiyə Özəl Liseyləri Baş idarəsinin rəisi Turan Öztoprak, Dr. Əli Bayram. 1998-ci il



Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev «Çağ» Öyrətim İşlətmələri Şirkətinin tədbirində. Soldan: şirkətin rəhbəri Adəm Öcal, təhsil naziri Lidiya Rəsulova. 1997-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Çağ» Öyrətim İşlətmələri Şirkətinin nümayəndələrini qəbul edərkən. Soldan: şirkətin rəhbəri Ənvər Özərən. 2006-cı il

«Çağ» Öyrətim İşlətmələri Şirkətinə ilk illərdə Adəm Öcal rəhbərlik etmişdi. Hazırda isə şirkətin rəhbəri Ənvər Özərəndir. Müxtəlif illərdə Azərbaycan–Türkiyə Özəl liseylərinə Nəcmi Aydın, Turan Öztoprak, Məsud Ata, Özkan Ərsoy, Hüseyn Özkan, Hızır Dişli, Yusif Arabaçı, Murad Çapan, Adəm Önal rəhbərlik etmişdir.

1992/93-cü tədris ilində Bakı Dövlət Universiteti ilə Türkiyə Dəyanət Vəqfi arasında imzalanmış protokola əsasən 1994-cü ildən Bakı Dövlət Universitetində **Türkiyə Dəyanət Vəqfi tərəfindən maliyyələşdirilən ümumtəhsil məktəbi** – lisey fəaliyyətə başladı və qısa müddətdə Azərbaycanın ən nümunəvi təhsil ocaqlarından birinə çevrildi.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, bu liseyin yaradılmasında mənim də xidmətim olmuşdur. Həmin vaxt mən BDU-nun tədris işləri üzrə prorektoru vəzifəsində çalışırdım. Liseyin əsas qurucusu isə türk dünyasında böyük nüfuz sahibi olan Türkiyə Dəyanət Vəqfinin keçmiş rəhbəri bir neçə dəfə Böyük Millət Məclisinin üzvü seçilmiş, İslam ensiklopediyası çoxcildliyinin yaradıcısı professor Təyyar Altıkulacdır. O zaman bu liseyi yaradarkən Təyyar bəylə əlimizi Qurana basıb and içmişdik ki, onun fəaliyyətinə müdaxilə etməyəcəyik.

Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində 718 sagird təhsil alır. Hər ilin elmi-statistik təhlillərinə görə lisey həm respublika məktəbləri, həm də türk liseyləri arasında qabaqcıl yerləri tutur. Hər il liseyin məzunları 100% ali məktəblərə qəbul olunur, onların ən azı 40%-i qəbul imtahanlarında 600-dən çox bal toplayır. 2011-ci ildə 64 məzunun hamısı ali məktəbə daxil olub. İmtahana girən məzunlardan 29 nəfəri 600-dən yuxarı bal toplayıb. Bu, 48% deməkdir. Həmin il ilk dəfə ölkə üzrə medala layiq görülən 53 nəfər orta məktəb məzunundan 8 nəfəri (7 qızıl və 1 gümüş medalçı) Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunudur. Məzunlar arasında ABŞ, Türkiyə, Rusiya, Ukraynanın universitetlərində ali təhsil alanlar var ki, bu da liseydə təhsilin keyfiyyətinin yüksək olmasından xəbər verir. Respublikamızda uğurla həyata keçirilən təhsil islahatları Azərbaycan–türk özəl liseylərinin fəaliyyətinə də öz təsirin göstərmiş, islahatların verdiyi imkanlardan istifadə etməklə liseylərin fəaliyyətini yüksək səviyyədə qurmaq mümkün olmuşdur. Uğurların əsas səbəblərindən biri liseylərin yuxarı siniflərində profilli təlimin tətbiqidir. Hər sinif üçün xüsusi tədris planı hazırlanmaqla təlim şagirdlərin maraq və meyilləri üzərində qurulur. Əldə edilmiş nailiyyətlərin digər bir səbəbi isə liseyə şagird və müəllim qəbulu zamanı obyektivliyin və şəffaflığın təmin olunmasıdır.

1994-cü ildə ölkəmizdə daha iki Azərbaycan–türk liseyi fəaliyyət göstərirdi. Onlardan biri dövlət müəssisəsi olan **Bakı Türk Anadolu liseyi** idi. Bu təhsil müəssisəsi 1994/95-ci tədris ilindən Bakı şəhəri 174№-li məktəbdə fəaliyyətə başlamış, 2000-ci ilədək məktəblə paralel işləmişdir. 2000-ci ildən 174№li məktəbin şagirdləri və müəllimləri digər məktəblərə köçürülmüşdür.

Digər lisey isə **Türk Dünyası Araşdırmalar Vəqfinin özəl Bakı Atatürk liseyi** idi. Lisey 1992-ci ildə Bakı şəhəri 8№-li məktəbdə fəaliyyətə başlamış, bir neçə aydan sonra şəhərin 133№-li məktəbinə köçürülmüşdü. Bu liseyin də ölkəmizin ümumi təhsil sistemində özünəməxsus təcrübəsi vardır.

2.15. Təhsil sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi

XX əsrin sonu, XXI əsrin əvvəlləri həyatın bütün sahələrinin informasiyalaşması, informasiya cəmiyyətinin yaranması ilə səciyyələnirdi. Bu şəraitdə təhsil sistemi də, əsrlər boyu olduğu kimi, bəşəriyyətin yeni inkişaf mərhələsinin tələblərinə cavab verən insanlar yetişdirməli idi. Məhz təhsil sisteminin zamanın tələblərinə uyğun təkmilləşdirilməsi rəqabətə davamlı insan resursları formalaşdırmağa imkan verə bilərdi.

İnformasiya cəmiyyətində insan resurslarına yanaşma cəmiyyətin əvvəlki inkişaf mərhələlərindən xeyli fərqlənir. Belə bir cəmiyyətdə istehsalın əsas məhsulu informasiya və bacarıqlar olur. Bu mərhələdə qlobal informasiya məkanı yaranır və fərdlər, təşkilatlar, hökumətlər yeni müstəvidə münasibətlər qururlar. Həmin münasibətlərdə informasiya-kommunikasiya texnologiyaları mərkəzi yer tutur. Təsadüfi deyil ki, informasiya cəmiyyəti üzrə ümumdünya sammitlərində (Cenevrə, 2003-cü il və Tunis, 2005-ci il) qəbul edilmiş sənədlərdə ölkələr qarşısında müəyyənləşdirilmiş vəzifələr sırasında təhsilə də xüsusi diqqət yetirilirdi. Həmin sənədlərdə 2015-ci ilə kimi dünyanın bütün məktəblərinin internetə çıxış əldə etməsi nəzərdə tutulmuşdur.

Bu mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas tələblərindən biri də təhsil pilləsindən asılı olmayaraq, bütün təhsilalanlarda informasiya texnologiyalarından istifadə vərdişləri formalaşdırmaq idi.

Bu vəzifənin həyata keçirilməsi yetişməkdə olan gənc nəslin real həyati proseslərdə intellektual fəaliyyət imkanlarını artırmağa şərait yaradırdı. Tədqiqatlar göstərirdi ki, kütləvi İKT savadlılığının təmin olunmasının ölkəyə verdiyi fayda istənilən sənaye yeniliyinin verdiyi faydadan bir neçə dəfə artıqdır.

İnformasiya cəmiyyətində İKT bacarıqları insan inkişafı indekslərindən biri kimi qiymətləndirilir. Bu amil UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakı şəhərində 2008-ci ilin mayında «Dünyada savadlılığın dəstəklənməsi» mövzusunda keçirilən UNESCO-nun regional konfransında da geniş müzakirə olunan məsələlərdən biri idi. Konfransda qeyd edildi ki, 1990-cı ildən başlayaraq İnternetin inkişafı savadlılıq anlamının daha geniş kontekstdə irəli sürülməsinə səbəb olmuşdur. Həmin vaxtdan savadlılıq, həm də kompyuterdən, İnternetdən istifadə etmək (kompyuter savadlılığı, informasiya savadlılığı, multimedia savadlılığı) bacarığı kimi qiymətləndirilməyə başlanmışdır.

Təhsil sistemində İKT-dən istifadə bir sıra məsələlərin birgə həllini tələb edən kompleks problem idi. Bu problemin optimal həlli isə İKT vasitələrinin imkanlarından səmərəli istifadə yollarının təhlilini aparmağı tələb edirdi. Təhsil sahəsinin informasiyalaşdırılması keçici bir mərhələ olmayıb, inkişafın tələbinə çevrilmişdi.

Tədris prosesində İKT-dən istifadənin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, burada kompyuter təkcə müəllim əməyini yüngülləşdirən, onu daha səmərəli edən bir vasitə olmayıb, həm də bir öyrənmə obyektidir.

Son dövrlər informasiya texnologiyalarının inkişafı və İnternetin yaranması tədris prosesində yeni imkanlar açmışdır. Müasir kompyuter texnologiyaları yalnız fənlərin tədrisi prosesinə yeni keyfiyyətlər gətirməkdən başqa, həm də ümumilikdə təhsil sisteminin idarə olunmasında əvəzolunmaz rol oynayır. Bu dövrdə təhsil sistemində İKT-dən istifadənin aşağıdakı istiqamətləri müəyyənləşdirilmişdi:

1. İKT – öyrənmə obyekti kimi: burada nəzərdə tutulurdu ki, təhsilalanlar zəruri İKT biliklərinə və bacarıqlarına malik olmalıdırlar.

2. İKT – tədris prosesində bir vasitə kimi: yəni yeni nəsil elektron tədris vəsaitlərindən, multimedia və interaktiv alətlərdən istifadə etməklə bütün fənlər üzrə tədrisin keyfiyyəti yüksəlir.

3. İKT – təhsilin idarə olunmasında bir vasitə kimi: bu istiqamət çərçivəsində məlumat bazaları və şəbəkə texnologiyalarının yaradılması vasitəsilə təhsilin daha çevik və effektiv yollarla idarə edilməsinə imkan yaradılır.

4. İKT – təhsil tədqiqatlarında, pedaqoji araşdırmalarda bir vasitə kimi: bununla əlaqədar şəxsiyyətyönümlü tədris mühitinin yaradılması istiqamətində İKT-nin geniş istifadəsini nəzərdə tutan tədris metodikaları hazırlanır, yeni təlim texnologiyaları tətbiq edilir.

Ötən əsrin 90-cı illərindən başlayaraq ümumtəhsil məktəblərində informatika fənninin tədrisində çoxvariantlı proqramlardan istifadəyə üstünlük verilirdi. 1991-ci ildə «İnformatikanın və hesablama texnikasının əsasları» kursu üzrə üç proqram təsdiq edilmişdi.

Andrey Yerşov və Vadim Monaxovun tərtib etdikləri eyniadlı dərsliklər və müəllim üçün vəsaitlər 1985–1987-ci illərdə Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmişdi. Müstəqilliyin ilk illərinədək həmin dərsliklərdən istifadə edilirdi. 1993-cü ildə professorlar Rafiq Əliyev, Telman Əliyev və Mustafa Salahlının hazırladıqları «İnformatika və hesablama texnikasının əsasları» dərsliyi nəşr olunmuşdu və orta məktəblərdə istifadə edilirdi. 1997-ci ildə informatika üzrə ilk yeni proqram hazırlanmış və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdi.

Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı»nda «...yeni təhsil texnologiyasının əsas komponentlərindən biri olan multimedia, monitorinq və s. sistemlərin yaradılması məqsədilə təhsil müəssisələrinin kompyuterləşdirilməsi və mərkəzləşdirilmiş informasiya sistemləri proqramını hazırlamaq və təbliğ etmək» nəzərdə tutulurdu.

Ümummilli lider Heydər Əliyev Azərbaycanda bütün sahələrin inkişafına diqqət yetirdiyi kimi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin dövlət siyasətində prioritet istiqamətə çevrilməsinə də zəmin yaratmışdı. Belə ki, 2003-cü ilin fevral ayında «Azərbaycan Respublikasının inkişafı naminə İKT üzrə Milli Strategiya (2003–2012-ci illər)» qəbul olunmuş və 10 il ərzində bu sahədə görüləcək işlərin ümumi istiqamətləri müəyyənləşdirilmişdi. İKT üzrə Milli Strategiyaya uyğun olaraq, Birləşmiş Millətlər

Təşkilatının (BMT) İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində islahatların aparılmasına başlanmışdı. Sonralar İKT üzrə qanunvericilik bazasının genişləndirilməsi istiqamətində Prezident fərman və sərəncamları ilə aşağıdakı normativ-hüquqi sənədlər qəbul edildi:

«Elektron rəqəmli imza haqqında» Azərbaycan Respublikasının Qanunu;

«Elektron sənəd haqqında» Azərbaycan Respublikasının Qanunu;

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanunu;

«Telekommunikasiya haqqında» Azərbaycan Respublikasının Qanunu;

«Universal telekommunikasiya xidmətlərinin təsnifatının təşkili və göstərilməsi şərtlərinin (tələblərinin) təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu;

«İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ilin dekabrında Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitində «qara qızılı insan qızılına çevirək» bəyanatı Azərbaycanda biliyə əsaslanan iqtisadiyyatın qurulması kursunu müəyyənləşdirdi. Bununla əlaqədar İKT sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə ölkə Prezidentinin Fərmanı ilə 20 fevral 2004-cü ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yaradıldı. **Ölkədə İKT sahəsinin sürətli inkişafına nail olunması üçün «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005–2008-ci illər üçün Dövlət Proqramı» («Elektron Azərbaycan»)» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edildi.**

«Elektron Azərbaycan» Dövlət Proqramına uyğun olaraq respublikanın rabitə və informasiya texnologiyaları şəbəkəsində geniş rekonstruksiya və modernləşdirmə işləri aparıldı. Respublikanın transmissiya şəbəkəsi tam rəqəmləşdirildi, kommutasiya şəbəkəsinin elektronlaşdırılması işləri sürətləndirildi. Buna uyğun olaraq, milli rabitə şəbəkəsinin idarəetmə sistemi təkmilləşdirildi, İKT sahəsinə kommersiya qurumlarının cəlb olunmasına, yerli istehsal və xidmətlərin inkişafına, xüsusən regionlarda belə xidmətlərin təşkilinə, həmçinin ixracat potensialının gücləndirilməsinə dair stimullaşdırıcı tədbirlər həyata keçirildi.

Ölkə səviyyəsində İKT sahəsində intensiv işlərin aparılması şəraitində Təhsil Nazirliyi də digər əlaqədar təşkilatlarla birlikdə təhsil sisteminin informasiyalaşdırılması istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdu. Bunlar əsasən aşağıdakılar idi:

- öyrədici multimedia sistemlərinin hazırlanmasına başlanılması;
- İnternetə qoşulan məktəblərin şəbəkəsinin genişləndirilməsi;
- təhsilin idarə edilməsinin məlumat sisteminin, informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində tətbiqi üzrə hazırlıq işlərinin gücləndirilməsi.

Lakin təəssüf ki, 80-ci illərin sonlarından başlayan məlum hadisələr, yenicə müstəqillik qazanmış respublikamızın müharibəyə cəlb

olunması, iqtisadi problemlər və s. ümumtəhsil məktəblərinin kompyuterləşdirilməsi prosesini təxminən 15 il ləngitdi. 2005-ci ilə qədər respublikamızın 1634341 nəfər şagird kontingenti olan 4553 ümumtəhsil məktəbində cəmi 1570 müasir kompyuter var idi, hər 1063 şagirdə 1 kompyuter düşürdü. Bakı şəhərində belə, məktəblərin 80%-də müasir kompyuterlər yox idi. Ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təchizatı, ixtisaslı pedaqoji kadrlarla təminatı sahəsində öz həllini gözləyən ciddi problemlər mövcud idi. Bu problemlərin bir qismi aşağıdakılardan ibarət idi:

- ümumtəhsil məktəblərində olan 9000-ə yaxın kompyuter avadanlığının böyük əksəriyyətinin köhnəlib istifadə üçün yararsız vəziyyətə düşməsi;
- məktəblərdə təlim xarakterli proqram təminatının olmaması;
- ümumi təhsilin dövlət standartlarında «İnformatika və hesablama texnikasının əsasları» fənninin tədrisinin yalnız X və XI siniflərdə nəzərdə tutulması;
- məktəblərin İnternet şəbəkəsinə qoşulmasında vahid koordinasiya sisteminin olmaması;
- uzun illər ərzində ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı üçün maliyyə vəsaitinin ayrılmaması;
- ümumtəhsil məktəbləri üçün informasiya və kommunikasiya texnologiyaları sahəsində ixtisaslı pedaqoji, həmçinin köməkçi (laborant) kadrların hazırlanmasına lazımi diqqətin yetirilməməsi.

Azərbaycan Respublikası Prezidentinin 21 avqust 2004-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)» bu istiqamətdə atılmış ən əhəmiyyətli addım oldu. Proqramda 3 ildə ölkənin məktəblərinin kompyuter və digər informasiya-kommunikasiya avadanlıqları ilə təchiz edilməsi, hər 33 şagirdə (V–XI siniflərdə) bir kompyuter nisbətinin reallaşdırılması nəzərdə tutulmuşdu.

Proqram elektron dərsliklərin, elektron kitabxanaların, rəqəmli tədris resurslarının işlənib hazırlanması, yayılması və tətbiqi, təhsil sisteminin informasiya infrastrukturunun formalaşdırılması, informasiya texnologiyalarına əsaslanmaqla təhsilin müasir məzmununun işlənib hazırlanması, informasiyalaşdırma prosesinin elmi-metodiki təminatı, şagirdlər üçün məsafədən təhsil xidmətinin, təhsil portalının və saytlarının yaradılması, Azərbaycan dilində olan tədris nəşrlərində və elmi-metodik nəşrlərdə İKT sahəsi üzrə müasir terminologiyanın hazırlanması və s. məsələləri əhatə edirdi.


İKT-nin insanların həyat və fəaliyyətinə geniş nüfuz etdiyi bir dövrdə məktəblərin İKT ilə təminatının əhəmiyyəti ölkə Prezidenti İlham Əliyev tərəfindən dəqiq ifadə olunmuşdu: «İndi kompyuterləşmə proqramı həyata keçirilir. Bütün məktəblərdə kompyuter sinifləri yaradılacaqdır və əminəm ki, təhsil sahəsində ciddi irəliləyiş olacaqdır. Qarşıya belə bir vəzifə qoyulubdur ki, bütün məktəblərdə kompyuter sinifləri yaradılsın və uşaqlar bilavasitə İnternetə çıxış əldə etsinlər, dünyada gedən

proseslərlə tanış olsunlar. Azərbaycan dünya birliyinə inteqrasiya siyasətini aparır və dünyada gedən bütün hadisələr, yeniliklər, yaranan yeni texnologiyalar – bunların hamısı İnternet, kompyuter vasitəsilə bizim uşaqlarımızın ixtiyarında olmalıdır».

Proqramın üç istiqamətdə həyata keçirilməsi qərara alındı. Birinci istiqamət təhsil müəssisələrinin İKT avadanlığı ilə təminatı ilə bağlı idi. İkinci istiqamət müəllimlər üçün treninqlərin keçirilməsi, üçüncü istiqamət isə tədris resurslarının yaradılması və proqram təminatını əhatə edirdi.

Proqrama əsasən 2005–2007-ci illərdə 3693 məktəb 31677 kompyuter, 1103 noutbuk+proyektor dəsti, 2059 UPS, 2060 çap qurğusu və digər İKT avadanlığı, 28661 kompyuter masası, 23346 stul ilə təchiz olundu, məktəblərdə 1722 kompyuter sinfi yaradıldı. Beləliklə, 2007-ci ilin sonuna ümumtəhsil məktəblərinin V–XI siniflərində hər 29 şagirdə 1 kompyuter nisbəti təmin edildi. Eyni zamanda ümumtəhsil məktəblərinə ilk mərhələdə 5 min nəfər laborant ştatı verildi.

2005–2007-ci illərdə məktəblərin və kompyuterlərin say nisbəti



Ölkəmizin təhsil tarixində ilk dəfə olaraq fənlər üzrə elektron tədris materialları və əyani vəsaitlər hazırlanıb məktəblərə çatdırıldı.

Elektron tədris vəsaitləri

№	Fənn	Elektron vəsait		Plakat		Metodik vəsait		Test kitabları	
		neçə adda	neçə nüsxə	neçə adda	neçə nüsxə	neçə adda	neçə nüsxə	neçə adda	neçə nüsxə
1.	Azərbaycan tarixi	20	37900	90	170550	4	7580	14	26530
2.	Kimya	8	15160	64	121280	4	7580	8	15160
3.	Biologiya	12	22740	90	170550	8	15160	6	11370
4.	Fizika	3	10200	25	85000	3	10200	–	–

Azərbaycan tarixi fənni üzrə 20 adda 37900 nüsxə elektron vəsait, 90 adda 170550 nüsxə plakat, 4 adda 7580 nüsxə metodik vəsait, 14 adda 26530 nüsxə test kitabı, kimya fənni üzrə 8 adda 15160 nüsxə elektron vəsait, 64 adda 121280 nüsxə plakat, 4 adda 7580 nüsxə metodik vəsait, 14 adda 26530 nüsxə test kitabı, biologiya fənni üzrə 12 adda 22740 nüsxə elektron vəsait, 90 adda 170550 nüsxə plakat, 8 adda 15160 nüsxə metodik vəsait, 6 adda 11370 nüsxə test kitabı, fizika fənni üzrə 3 adda 10200 nüsxə elektron vəsait, 25 adda 85000 nüsxə plakat, 3 adda 10200 nüsxə metodik vəsait hazırlanıb məktəblərə verildi.

Elektron tədris resurslarının hazırlanması prosesində ciddi çətinliklər meydana çıxdı.

Proqramın həyata keçirildiyi birinci ildə bir sıra təşkilatlara ümumtəhsil məktəbləri üçün müxtəlif fənlər üzrə elektron tədris vəsaitlərinin hazırlanması ilə bağlı müraciət olunmuşdu. Lakin respublikada belə bir təcrübə olmadığından həmin il heç bir təşkilat tərəfindən belə vəsaitlər hazırlana bilmədi, bu məqsədlə ayrılan pul vəsaiti hökumətin qərarı ilə İKT avadanlığının alınmasına yönəldildi.

Adi tədris materiallarından (kitablardan) fərqli olaraq, elektron tədris resursları (və ya şəbəkə məlumat resursları) müasir texnikanın nailiyyətlərini, bütün tədris proqramını və keçilən mövzuya aid digər əlavə materialları, tədris metodikasını, dizayn və bədii keyfiyyəti özündə cəmləşdirən mürəkkəb bir məhsul idi. Adi kitablarla müqayisədə elektron tədris materiallarının yaradılması və istifadəsi üçün proqram-texniki kompleks – mətn, səsləndirmə, musiqi, foto, video, qrafika, animasiya və s. işlərin yerinə yetirilməsi tələb olunurdu.

Mövcud çətinliklərə baxmayaraq, bu istiqamətdə Nazirliyin səyləri davam etdirildi, müxtəlif təşkilatlar tərəfindən ayrı-ayrı fənlər üzrə hazırlanmış audiovizual elektron vəsaitlərin nümunələri Təhsil Nazirliyinə təqdim olundu. Həmin vəsaitlərin tədris proqramlarına uyğunluğunu və multimedia sistemlərinin tələblərinə cavab verib-vermədiyini müəyyənləşdirmək məqsədilə 2006-cı ilin mayında Təhsil Nazirliyində bu sahədə tanınmış alim və mütəxəssislərdən ibarət Ekspert Komissiyası yaradıldı. Eyni zamanda Nazirlikdə «Elektron tədris nəşrləri və resurslarının ekspertizası və onlara Təhsil Nazirliyinin qrifinin verilməsi qaydaları haqqında Müvəqqəti Əsasnamə» və «Elektron tədris nəşrləri və resurslarının kompleks ekspertizası və onların keyfiyyətinin qiymətləndirilməsi meyarları» hazırlanaraq təsdiq olundu. Nəşriyyatlar tərəfindən Nazirliyə təqdim olunmuş nümunələr Ekspert Komissiyası tərəfindən texniki, məzmun və dizayn-erqonomika ekspertizasından keçərək müsbət qiymətləndirildi.

Eyni zamanda tədris vəsaitlərindən istifadə qaydalarına dair metodik tövsiyələr hazırlandı və nəfis şəkildə çap olundu. Multimedia resurslarına əlavə olaraq hazırlanmış əyani tədris vəsaitləri müəllim və şagirdlər üçün qiymətli məlumat mənbəyi oldı. Bunlarla yanaşı, müəllimlərin istifadəsi üçün multimedia tədris vəsaitlərində əks olunan testlərin mətni və onların cavabları da ayrıca kitabça şəklində nəşr olundu.

Təhsil müəssisələrinə İKT avadanlığının verilməsi ilə yanaşı, əsas məsələ tədris prosesində və idarəetmədə bu avadanlıqlardan və elektron tədris resurslarından səmərəli istifadə edə bilən müəllim və rəhbər heyətin hazırlanması idi.

Müəllimlərlə ilk treninqlərə Bakı Elm və Tədris Mərkəzində başlandı və 300 nəfər informatika müəllimi treninqlərə cəlb edildi. Treninqlərin sonunda onlar imtahan verib beynəlxalq dərəcəli sertifikatlar aldılar. Sonradan bu müəllimlər «öyrədənlərin öyrədəni» kimi digər müəllimlərin də hazırlanmasında mühüm rol oynadılar. Bununla yanaşı, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin maliyyə dəstəyi ilə AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun mütəxəssisləri

tərəfindən aparılan treninqlərdə 200-dən artıq informatika müəllimi lazımi bilik və bacarıqlara yiyələndi. Növbəti mərhələdə ayrı-ayrı fənn müəllimləri üçün treninqlər «Mədəd–Azərbaycan» şirkəti tərəfindən həyata keçirilməyə başladı.

Ümumilikdə, 2005–2008-ci illərdə Proqram çərçivəsində beynəlxalq təşkilatlarla birlikdə ümumtəhsil məktəblərinin 20 min nəfərlik müəllim heyəti müvafiq treninqlərdən keçərək İKT bacarıqlarına yiyələndi. Məktəb direktorları və onların müavinlərinin müvafiq bacarıqlara yiyələnməsi məqsədilə proqram hazırlanmışdı və treninqlər həyata keçirilirdi. Yeni işə qəbul edilən məktəb direktorları üçün İKT-dən istifadə əsas şərtlərdən biri kimi müəyyənləşdirilmişdi.

Həmin dövrdə bütün bunlarla yanaşı, İKT-nin təlim prosesinə tətbiqi istiqamətində də bir sıra əhəmiyyətli addımlar atıldı. Hələ 2004–2005-ci dərs ili üçün hazırlanmış tədris planlarında İnformatikanın 1-ci sinifdən başlayaraq tədrisinə keçildi. I–XI siniflər üçün yeni proqram təsdiq edildi. Sonradan kurikulum islahatı çərçivəsində hazırlanmış və 2006-cı ildə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş «Ümumi orta təhsilin Konsepsiyası (Milli Kurikulumu)» sənədində İnformatika fənninin I–XI siniflərdə tədrisi nəzərdə tutuldu, onun məqsəd və vəzifələri, təlim nəticələri müasir tələblər baxımından işləndi.

2008/09-cu tədris ilindən ölkənin ümumtəhsil məktəblərinin I siniflərində yeni fənn kurikulumlarının tətbiqi ilə əlaqədar informatika fənni üzrə də yeni dərslik komplektləri hazırlandı və məktəblərə verildi. 2009/10, 2010/11 və 2011/12-ci tədris illərində II–IV siniflərdə yeni dərslik komplektləri tətbiq edilməyə başladı. Eyni zamanda V–XI siniflər üçün yeni məzmunda İnformatika dərslikləri hazırlandı və şagirdlərin istifadəsinə verildi.

Qısa müddət ərzində İKT-nin tətbiqi sahəsində əldə edilmiş nailiyyətlərlə yanaşı, aparılmış monitorinqlər nəticəsində bir sıra problemlər də aşkar edildi. Təhsil Nazirliyinin 31 oktyabr 2007-ci il tarixli əmrinə əsasən Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun bir sıra ümumtəhsil məktəblərinin Dövlət Proqramı çərçivəsində İKT ilə təmin olunması və onların tədris prosesində istifadəsi vəziyyətinin öyrənilməsi məqsədilə monitorinq aparıldı. Bu işə 57 nəfərdən ibarət İşçi qrupu cəlb edilmişdi. Monitorinq Bakı şəhəri üzrə 304, Sumqayıt şəhəri üzrə 47 və Abşeron rayonu üzrə 5 məktəb olmaqla ümumilikdə 356 məktəbi əhatə etmişdi.

Monitorinqin nəticələri göstərdi ki, bəzi məktəblərdə İKT avadanlıqları quraşdırılmamış saxlanılır və onlardan istifadə olunmur. Digər hallarda isə lokal şəbəkənin olmaması təlim prosesində İKT-dən səmərəli istifadəyə mane olurdu. Monitorinq onu da aşkar etdi ki, böyük əmək və vəsait sərf edilməklə hazırlanmış elektron tədris resurslarından məktəblərdə istifadə vəziyyəti qənaətbəxş deyildir. Bu vəziyyət bir sıra amillərlə bağlı idi. İlk növbədə, hətta treninqdən keçmiş bəzi müəllimlər İKT bacarıqlarına tam yiyələnmədiyindən elektron tədris resurslarından istifadə edə bilmirdilər. Məktəb rəhbərləri təlim prosesində elektron resursların əhəmiyyətini kifayət qədər dərk etmədiklərindən və özləri İKT-dən istifadə bacarıqlarına malik olmadıqlarından bu sahəyə diqqət yetirmirdilər. Daha bir problem

kompyuterlərdə istifadə edilən əməliyyat sistemi ilə bağlı idi və bu səbəbdən elektron tədris resurslarından istifadə etməkdə çətinliklər yaranırdı.

Təhlil onu da göstərdi ki, İnformatika fənninin bütün siniflərdə tədris edilməsi ilə əlaqədar ixtisaslı müəllimlərə ehtiyac kəskin şəkildə artmışdır.

Monitorinqin nəticələri Təhsil Nazirliyinin Kollegiya iclasında bütün aidiyyəti orqan və qurumların nümayəndələrinin iştirakı ilə geniş müzakirə edildi. Aşkar olunan problemlərin aradan qaldırılması istiqamətində Kollegiya qərarında bütün fənn kurikulumlarında İKT-dən istifadənin zəruri şərt kimi nəzərə alınması, kompyuter siniflərinin fasiləsiz olaraq tədris prosesində istifadə olunması, məktəblərin İnternetə çıxışının təmin olunması üzrə tədbirlərin həyata keçirilməsi, texniki aspektlər üzrə standartların hazırlanması, əməliyyat sistemi üçün alınmış lisenziyaların yeniləşdirilməsi, məktəblərə verilmiş elektron tədris resurslarından müvafiq fənlərin tədrisində maksimum səmərəli istifadəyə nail olunması öz əksini tapdı. Məktəblərdə informatika fənni üzrə kadr təminatının təhlil olunması və müvafiq təkliflərin hazırlanması, məktəb rəhbərləri və pedaqoji kadrlar üçün İKT sahəsində treninqlərin daha səmərəli təşkil edilməsi, treninqlərin əhatə dairəsinin genişləndirilməsi, zəruri hallarda təkrar treninqlərin keçirilməsi, İKT-nin tətbiqi üzrə müsbət təcrübələrin təbliğ edilməsi, yaradıcı və İKT sahəsində uğur qazanmış müəllimlər üçün stimullaşdırıcı tədbirlərin tətbiq edilməsi də həlli vacib məsələ kimi qarşıya qoyuldu.

Fənn müəllimlərinin çatışmaması probleminin aradan qaldırılması istiqamətində Təhsil Nazirliyi yenidənhazırlanma qaydalarında müəyyən dəyişiklik etmək məcburiyyətində qaldı və intensiv kadr hazırlığına başladı.

Daha bir addım isə təhsilin idarə olunmasında İKT-nin tətbiqi idi ki, bu da idarəetmənin daha çevik və səmərəli təşkilinə zəmin yaradırdı. Məhz bu səbəbdən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı Layihəsinin (2003–2008-ci illər) əsas komponentlərindən biri də Təhsil Nazirliyində **Təhsilin idarəolunmasının məlumat sistemlərinin** (TİMS) yaradılması oldu. Belə bir sistemin qurulmasında əsas məqsəd təhsil sistemi haqqında əhatəli, etibarlı informasiya bazasının formalaşdırılması, məlumatların təhlili vasitəsilə monitorinq sisteminin yaradılması, məlumatlar əsasında təhsil siyasəti, strategiyası, fəaliyyət və inkişaf planlarının hazırlanması və beləliklə, çevik idarəetməyə nail olunması idi. TİMS Təhsil Nazirliyi və yerli təhsil orqanları səviyyələrində təşkil edildi. İşlərin səmərəli təşkili üçün Nazirlikdə ayrıca qurum – Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsi, o cümlədən Bakı Şəhəri üzrə Təhsil İdarəsində müvafiq sektor yaradıldı.

İlkin mərhələdə məlumat bazası yerlərdən anket formasında toplanan və məktəb hesabatlarına daxil olan informasiyalar əsasında formalaşdırılırdısa, sonradan məlumat bazasının bilavasitə yerlərdə (məktəblərdə, təhsil şöbələrində) formalaşdırılması üçün İKT avadanlıqları və kadrlarla bağlı məsələlər öz həllini tapdı. Bunları nəzərə alaraq, TİMS proqram təminatının yeni modulları –


«TİMS-məktəb» və «TİMS-təhsil şöbəsi» yaradıldı, proqram təminatı ilə işləmək qaydaları rayon təhsil şöbələri və məktəblərdən müəyyən olunmuş nümayəndələrə öyrədildi. Nəticədə TİMS bazasına 1,4 milyon şagird və 210 minədək pedaqoji heyət (müəllim və digər işçilər) haqqında məlumat daxil edildi.


Təhsil sistemində İKT-nin tətbiqi məsələlərinin tənzimlənməsi, koordinasiyası və bu prosesin səmərəli idarə olunması da çox aktual məsələ kimi qarşıda dururdu. Çıxış yolu kimi Təhsil Nazirliyində 2005–2007-ci illəri əhatə edən İKT üzrə Dövlət Proqramının idarə olunması üzrə işçi qrupu yaradıldı. Lakin təcrübə göstərdi ki, işçi qrupunun imkanları ilə Dövlət Proqramında nəzərdə tutulan vəzifələrin həllinə nail olmaq və təhsilin informasiyalaşdırılması sahəsində qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək mümkün deyil. Bu səbəbdən Təhsil Nazirliyi nəzdində müvafiq idarənin yaradılması ilə əlaqədar Azərbaycan hökuməti qarşısında vəsatət qaldırıldı. Nazirlər Kabinetinin qərarı ilə 2008-ci ildə 28 ştatdan ibarət «Təhsil sisteminin informasiyalaşdırılması idarəsi» yaradıldı. İdarə təhsilin informasiyalaşdırılması məsələlərini həll etməklə yanaşı, texniki xidmət funksiyalarını da yerinə yetirməyə başladı.

Təhsil Nazirliyinin mərkəzi aparatında da idarəetmə prosesində İKT-nin imkanlarından geniş istifadə edilirdi. Belə ki, mərkəzi aparatda güclü server quraşdırılmış, burada çalışan 147 əməkdaşın hər biri kompyuter və digər İKT avadanlığı ilə təmin olunmuş, bütün kompyuterlər sürətli İnternet şəbəkəsinə qoşulmuşdu. İnternetə giriş xüsusi filtr vasitəsilə tənzimlənirdi. Eyni zamanda Nazirlikdə daxili şəbəkə qurulmuşdu ki, bu da informasiyaların qəbulu və ötürülməsi imkanlarını xeyli genişləndirmişdi. Mərkəzi aparatdakı beş konfrans zalı multimedia sistemi ilə təmin olunmuşdu. 2009-cu ilin iyunundan Nazirliyin mərkəzi aparatına giriş-çıxış və qeydiyyat elektron sistemlə idarə olunmağa başlandı.


İKT-nin təhsilin keyfiyyətinin idarə olunmasında tətbiqi də mühüm məsələlərdən idi. Təhsil Nazirliyi 2005-ci ildən başlayaraq bu istiqamətdə müəyyən addımlar atmışdı. XI siniflərdə mərkəzləşdirilmiş buraxılış imtahanlarının nəticələrinin emalı məqsədilə 3 ədəd OMR 300 optik oxu qurğusu alınmış və 2006-cı ildən istifadə edilməyə başlanmışdı. Mərkəzləşdirilmiş buraxılış imtahanlarının əhatə dairəsinin genişləndirilməsi və ölkənin bütün orta məktəblərini əhatə etməsi ilə əlaqədar 2007-ci ildə daha 2 ədəd OMR 300, 2009-cu ildə isə 3 ədəd OMR 3000 optik oxu qurğusu alındı.


2006–2007-ci illərdə şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesində yeni texnologiyaların tətbiq olunması Təhsil Nazirliyi üçün ilk təcrübə idi və bu səbəbdən bir sıra çətinliklər də meydana çıxırdı. Optik oxu qurğuları üçün proqram təminatı Nazirliyin mütəxəssisləri tərəfindən hazırlandığından kifayət qədər təkmil deyildi və bu səbəbdən imtahanların nəticələrinin emalı prosesində bəzi problemlər yaranırdı. Ona görə də Nazirliyin Monitorinq və qiymətləndirmə şöbəsinin əməkdaşları 2008-ci ilin mayında Almaniyada tədris səfərində oldular və qurğulardan istifadə, onların proqram təminatı ilə bağlı zəruri bacarıqlara yiyələndilər.






Müəllimlərin İKT bacarıqlarının artırılması.
Təlimlərin dinamikası







Müəllimlərin İKT bacarıqlarının artırılması.
Təlimlərin dinamikası




Təhsil sistemində İKT infrastrukturunun inkişafı




Azərbaycan təhsil şəbəkəsi



Azərbaycan təhsil şəbəkəsi





Azərbaycan təhsil şəbəkəsi

İKT-nin tətbiqi nəticəsində yüz minlərlə şagirdin buraxılış imtahanlarının nəticələri bir gün ərzində emal edilir və elan olunur. Bununla yanaşı, proqram təminatı nəticələrin təhlil edilməsinə və hesabatların tərtibinə də imkan verir. Bu hesabatlarda hər bir şagirdin nəticələri, məktəb, rayon-şəhər, ölkə üzrə nəticələr və reytinqlər, düzgün və səhv cavablar üzrə göstəricilər və s. öz əksini tapır. Son nəticədə isə məlumatların operativ əldə edilməsi idarəetməni daha səmərəli edir və çevik qərar qəbul etməyə şərait yaradır.

İmtahanların nəticələri Nazirliyin İnternet saytında yerləşdirilir, hər bir şagird, onun valideyni nəticələrlə tanış olmaq imkanı əldə edir. 2009/10-cu tədris ilindən başlayaraq imtahanı müvəffəqiyyətlə vermiş hər bir şagirdin təhsil sənədinin nömrəsi də nəticələrlə birlikdə elan edilir.

Azərbaycan təhsil sistemində İKT-nin daha səmərəli tətbiqi məqsədilə Təhsil Nazirliyi İKT sahəsində dünyanın ən nüfuzlu və inkişaf etmiş şirkətləri ilə əməkdaşlıq əlaqələri yaratmışdır. Həmin şirkətlərdən Microsoft, Intel, HP, CISCO Systems və digərlərini misal göstərmək olar. Bu şirkətlərlə əməkdaşlıq iki istiqamətdə həyata keçirilirdi. İlk növbədə dünyada İKT-nin tətbiqi sahəsində şirkətlərin zəngin təcrübəsinə istinad edilir, problemlərin həlli ilə əlaqədar onlarla məsləhətləşmələr aparılırdı. Digər tərəfdən isə həmin şirkətlərin hər biri ilə birgə layihələr reallaşdırılırdı.

2006-cı ildə Təhsil Nazirliyi ilə Microsoft şirkəti arasında «Təhsil sistemində müasir informasiya texnologiyalarının inkişafı sahəsində əməkdaşlıq haqqında» Anlaşma Memorandumu imzalandı. Memoranduma əsasən Microsoft şirkəti ilə «Təhsildə partnyorluq» təşəbbüsünün inkişafı üçün əməkdaşlıq çərçivəsi və şərtləri müəyyənləşdirildi. Memorandum çərçivəsində nəzərdə tutulan tədbirlər həyata keçirildi.

Təhsil Nazirliyi ilə Intel şirkəti arasında 2006-cı ildə əməkdaşlıq haqqında Memorandum imzalanmış, 2006–2010-cu illərdə təlim materialları Azərbaycan dilinə tərcümə edilmiş və adaptasiya olunub çap edilmiş, ekspertlər və 100 nəfər təlimçi hazırlanmışdı.

2007–2008-ci illərdə Azərbaycanda ümumtəhsil məktəblərinin 3750 nəfər müəllimi və pedaqoji ali təhsil ocaqlarının 2950 nəfər tələbəsi olmaqla ümumilikdə 6700 nəfər Intel şirkətinin «Gələcək üçün təhsil» proqramının məzunu olmuşdu. Həmin proqram 45 məktəbi, 1 kolleci, 3 universiteti və Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunu əhatə etmişdi. İki tədris ili ərzində Bakı, Sumqayıt, Lənkəran və Zaqatalada 650-dək təlim keçirilmişdi.

Intel şirkətinin reallaşdırdığı ən maraqlı təşəbbüslərdən biri «Bir şagird – bir kompyuter» layihəsi idi. Bu layihənin məqsədi təhsil müəssisələrində elektron tədris mühitinin yaradılmasından ibarət idi. Azərbaycan təhsilin informasiyalaşdırılması və təhsil prosesində informasiya texnologiyalarının tətbiqi səviyyəsinə görə, hələlik, orta göstəricilərə malik olduğundan «Bir şagird – bir kompyuter» tədris modeli Azərbaycanda həmin problemin həll edilməsinə istiqamətlənmişdi.

Təhsil Nazirliyi ilə CISCO Systems şirkəti arasında 1 fevral 2006-cı ildə Təhsil sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu

imzalanmış, Memorandum çərçivəsində 2006-cı ildə Bakı və Sumqayıtın kompyuterlə təmin olunmuş 218 məktəbi İnternet şəbəkəsinə qoşulmuşdu. CISCO şirkəti tərəfindən «Hər bir şagirdin XXI əsr həyatına hazırlanması» adlı maraqlı bir konsepsiya həyata keçirilirdi. Bu konsepsiyada yeni tədris paradiqması təklif olunurdu.

Azərbaycanda uğurla fəaliyyət göstərən təşkilatlardan biri də ABŞ-ın Proyekt Harmoni təşkilatı idi. Təşkilat Azərbaycanda müəllim və şagirdlər üçün bir sıra proqramlar həyata keçirirdi. Proyekt Harmoni təşkilatının «Əlaqələndirmə və mübadilə proqramı»nın əsas məqsədi ondan ibarət idi ki, məktəblərdə yaradılan İnternet Kompyuter Mərkəzləri (İKM) vasitəsilə İnternet texnologiyaları tədris prosesinə inteqrasiya edilməklə təhsilin keyfiyyətinin yüksəlməsinə dəstək versin. Eyni zamanda İKM-in əsas funksiyalarından biri də ondan ibarət idi ki, yerləşdiyi məktəbin ərazisində yaşayan icma nümayəndələrinin İKT bacarıqlarına yiyələnməsini və İnternetə çıxışını təmin etsin.



Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi.
Məlumat və Resurs Mərkəzi

Layihə ölkənin 18 regionunu və 71 məktəbini, o cümlədən Bakı şəhərində 21, Gəncə şəhərində 7, Mingəçevir şəhərində 4, Lənkəran rayonunda 7, Şəki rayonunda 2, Sumqayıt şəhərində 5, Bərdə rayonunda 2, Quba rayonunda 3, Salyan rayonunda 2, Şirvan şəhərində 2, Kürdəmir rayonunda 1, Şamaxı rayonunda 3, Naftalan şəhərində 1, Naxçıvanda 4, Göyçay rayonunda 2, Yevlax rayonunda 2, İsmayıllı rayonunda 2, Masallı rayonunda 1 məktəbi əhatə etmişdi. Həmin məktəblərdəki kompyuter mərkəzləri ümumilikdə 700-dək kompyuter və digər İKT avadanlığı ilə təmin olunmuşdu. Hər bir məktəbin kompyuter mərkəzinə İKT sahəsində bacarıqları olan 2 nəfər müəllim məsul şəxs kimi təyin olunmuşdu və onlara Proyekt Harmoni təşkilatı tərəfindən əmək haqqı verilirdi.

Təhlil göstərirdi ki, kompyuter texnologiyalarının tədrisdə tətbiqi sahəsində Layihənin əhatə etdiyi məktəblər əhəmiyyətli nailiyyətlər əldə etmişlər. Bu məktəblərdə İnternetdən resurs mənbəyi kimi istifadə olunur, şagirdlər həm ölkənin digər məktəbləri ilə fənn layihələrində birgə iştirak edir, həm də beynəlxalq layihələrdə Azərbaycanı layiqincə təmsil edirlər.

İnternet Kompyuter Mərkəzlərinin davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə layihəyə cəlb olunmuş məktəblər üçün maliyyə hesabı açılmışdı, daxil olan vəsait hesabına Mərkəzin fəaliyyəti təmin edilirdi. Məhz Nazirliyin səyləri və həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində İnternet Kompyuter Mərkəzlərindən səmərəli istifadəyə nail olunmuşdu.

Proyekt Harmoni təşkilatının layihə çərçivəsində həyata keçirdiyi ən mühüm işlərdən biri də təhsil portalının yaradılması idi. Azərbaycanda belə təhsil portallarının olmadığı bir dövrdə bu çox əhəmiyyətli bir addım idi. Ən əhəmiyyətlisi odur ki, bu portal məhz müəllimlər tərəfindən resurslarla təmin edilirdi.

Proyekt Harmoni təşkilatının həyata keçirdiyi proqrama əsasən hər bir pilot layihə beynəlxalq təşkilatların dəstəyi və maliyyə yardımı ilə müəyyən müddət ərzində həyata keçirilirdi, sonra isə Təhsil Nazirliyi, təhsili idarəetmə orqanları və məktəblər bu layihələrin davamlılığını təmin etməli idi. Proyekt Harmoni təşkilatının «Əlaqələndirmə və mübadilə proqramı» 2007-ci ildə pilot layihə müddətini başa çatdırdı və layihə Təhsil Nazirliyi tərəfindən idarə edilməyə başlandı, həmin iş bu gün də davam etdirilir.

Beynəlxalq təşkilatlarla ölkə daxilində əməkdaşlıqla yanaşı, informasiya kommunikasiya texnologiyalarının təhsildə sistemli tətbiqini həyata keçirmək məqsədilə bir sıra inkişaf etmiş ölkələrin təcrübəsi də öyrənilirdi. Helwett Packard (HP) şirkətinin maliyyə dəstəyi ilə 5–8 iyun 2006-cı il tarixlərdə Təhsil Nazirliyinin nümayəndə heyəti Böyük Britaniyanın Belfast şəhərində «Elektron təlim sahəsində innovasiyalar» mövzusunda keçirilən beynəlxalq seminarda iştirak etmiş, Niderlandda məktəblərin Kennisnet şəbəkəsi ilə yaxından tanış olmuşdu. Bundan əlavə, Təhsil Nazirliyinin nümayəndə heyəti Avstraliya və İsveçdə də səfərdə olmuş, həmin ölkələrin təcrübəsini öyrənmişdi. Beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycana informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqi üçün ən optimal strategiyanın formalaşmasına imkan vermişdi.



«Bir şagird – bir kompyuter» konsepsiyasının reallaşdırılması

2007-ci ildən başlayaraq beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilən uğurlu layihələrdən biri də «Elektron məktəb» layihəsi idi. Layihə Bakı şəhəri 6, 7, 8, 20, 23, 60, 134 (132–134№-li təhsil kompleksi), 160, Zərifə Əliyeva adına məktəb olmaqla 10 məktəbdə başlanmış, sonradan həmin məktəblərin sayı 20-yə çatdırılmışdır. Bu məktəblərdə İP-telefoniya, video-zəng sistemi tətbiq olundu. Layihənin əsas məqsədi təhsilin inkişafı və müasirləşdirilməsi, məktəbin idarə edilməsi prosesində və tədrisdə informasiya texnologiyalarının geniş istifadəsinin təmin olunması idi. Nəzərdə tutulurdu ki, bu layihə məktəbdə çevik idarəetməyə, valideyn-məktəb əlaqələrinin möhkəmlənməsinə, şagirdlərin dərsə davamiyyətinə nəzarətə, məktəblərarası elektron əlaqələrin genişlənməsinə, şagirdlərin nailiyyətləri barədə məlumatlandırmaya zəmin yaradacaq.

Layihə çərçivəsində məktəblərə İKT avadanlığı verilmiş, lokal şəbəkə yaradılmış, proqram təminatı məsələləri həll edilmiş, müəllimlərin İKT bacarıqlarına yiyələnməsi sahəsində tədbirlər həyata keçirilmişdi.

Layihə tətbiq olunan müəssisələrdə həm məktəb, həm də məktəbdənkənar tədris resursları müəllimlərə və şagirdlərə açıq olur, onlar xüsusi multimedia tədris məzmununa yönəldilmiş rəqəmsal materiallardan, tədris planına müvafiq onlayn kitabxanalardan istifadə edə bilirlər. Bu isə valideynlərə təhsil

proseslərində daha fəal iştirak etmək imkanı verir. Məktəbin bütün müəllimləri sinif otağında əlavə resurs kimi hazırlanmış proqram təminatı alətlərindən istifadə etmək imkanı əldə edir, dərslərini daha səmərəli planlaşdırırlar, yaradıcı müəllimlər tədris resurslarını təkmilləşdirə, yaxud yeni resurslar yarada bilirlər. Müəllimlər İKT-dən testlərin keçirilməsi və nailiyyətlərin qiymətləndirilməsi prosesində istifadə edə bilir, şagirdlər isə özlərini qiymətləndirmək imkanı əldə edirlər.

Elektron məktəb layihəsi iştirakçılarının fikirləri belə idi ki, müəllimlər yeni bacarıqlar əldə edir, daim yeni ideya və metodlar axtarışında olur. Pedaqoji prosesdə müəllimin rolu dəyişir, o, daha çox bələdçi rolunu oynayır, fəal-interaktiv təlimə üstünlük verir, əyani vəsaitlərdən geniş istifadə edir, dərsləri daha maraqlı qurur, bu səbəbdən şagirdlərin təlimə marağı artır, təlim materialı daha yaxşı mənimsənilir, məktəbin səmərəli idarə edilməsi asanlaşır, nəticədə təhsilin keyfiyyəti yüksəlir.

Bunlarla yanaşı, təhsildə İKT-nin müstəsna rolu nəzərə alınaraq bir sıra vəzifələrin həyata keçirilməsi də qarşıda dururdu:

- İdarəetmə sahəsində İKT-nin tətbiqi imkanlarının genişləndirilməsi;
- İKT sahəsində idarəetmə orqanları işçiləri, təhsil müəssisələri rəhbərləri və fənn müəllimlərinin ixtisasının artırılmasının müntəzəm təşkili;
- İxtisasartırma kurikulumunun məzmununa İKT üzrə kursun daxil edilməsi;
- Kütləvi informasiya vasitələrində İKT-nin tədris prosesində tətbiqinə dair elmi-kütləvi verilişlər və rubrikaların açılması;
- Müəllim və şagirdlərin informasiya və kommunikasiya texnologiyaları üzrə biliklərinin monitorinqi mexanizminin hazırlanması;
- Təhsil sahəsində informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair dərsliklər, dərs vəsaitləri və metodiki göstərişlərin hazırlanması işinin davam etdirilməsi;
- Yeni nəsil elektron dərsliklərin hazırlanması, ekspertizası, yayılması və tətbiqi mexanizminin işlənməsi;
- İnformasiya və kommunikasiya texnologiyaları üzrə modul təhsil komponentlərinin hazırlanması, ixtisasartırmada müvafiq modullardan istifadə mexanizminin işlənməsi;
- Regionlarda mövcud və ya yeni yaradılacaq informasiya mərkəzlərinin nəzdində informatika müəllimləri üçün təlimlər apara biləcək ixtisaslı mütəxəssislərin hazırlanması;
- Respublikanın hər bir rayonu üzrə baza məktəblərinin müəyyən olunması, bu məktəblərdə əlavə kompyuter siniflərinin yaradılması və rayonun informatika müəllimlərinin bilik səviyyələrinin artırılması üçün bu məktəblərdə səyyar kursların təşkili;
- Ümumtəhsil məktəblərinin İnternetə çıxışının təmin olunması istiqamətində görülən işlərin davam etdirilməsi;
- «Elektron məktəb» pilot layihəsinin həyata keçirilməsi;
- Respublika üzrə ümumtəhsil məktəblərinin korporativ şəbəkəsinin yaradılması, «Data mərkəzi»n imkanlarından

istifadə edilməsi, təhsillə bağlı milli resursların yaradılması;

- Yeni texnologiyaların (WiMAX və s.) dünyada tətbiqi təcrübəsinin öyrənilməsi və təhsil sistemində bu texnologiyaların tətbiqi imkanlarının araşdırılması;
- Müəllimlərin noutbuklarla təmin olunması üçün proqramın hazırlanması;
- Elektrik təchizatında problem olan məktəblərdə kəsintisiz elektrik akkumlyatoru olan noutbuklardan istifadə olunması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- İKT-nin tətbiqi ilə bağlı hüquqi-normativ bazanın yaradılması;
- «Təhsildə İKT» ümumrespublika forumunun keçirilməsi;
- Məktəblərin vahid məlumat bazasının yaradılması, bu bazada hər bir şagird haqqında, onun davamiyyəti, bilik səviyyəsi, nailiyyətləri və sair barədə informasiyaların toplanması və emal edilməsi;
- Məktəblər arasında İKT/multimedia yarışlarının keçirilməsi.

Təhsilin informasiyalaşdırılması istiqamətində görülmüş işlərin sistemli olaraq davam etdirilməsi və təhsil sistemində İKT-nin tətbiqinin daha yüksək mərhələdə inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 iyun tarixli Sərəncamı ilə «2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı» təsdiq edildi. Proqramın əsas məqsədi təhsilin bütün pillələrində müasir informasiya və kommunikasiya texnologiyalarının səmərəli tətbiqi və istifadəsi ilə vahid təhsil mühitinin formalaşdırılması və bu zəmində əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi, habelə Azərbaycanın təhsil sisteminin dünya təhsil məkanına inteqrasiyası üçün şəraitin yaradılması idi.

Bu məqsədlərə nail olmaq üçün Proqramda bir sıra vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulurdu.

1. Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi. Dövlət Proqramı çərçivəsində təhsil müəssisələrinin informasiya-kommunikasiya üzrə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompyuter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqlarla təminat işinin yaxşılaşdırılması, bundan əlavə təhsil müəssisələrində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi, bu məqsədlə müəssisələrarası əlaqə və əməkdaşlığın inkişaf etdirilməsi, təhsil müəssisələrinin korporativ şəbəkə infrastrukturunun, habelə şəbəkə infrastrukturunun idarəetmə və nəzarət sisteminin yaradılması, İntranet xidmətlərinin işlənilməsi və İnternet şəbəkəsinə çıxışın təmin olunması bu vəzifə çərçivəsində həll edilməli idi.

2. Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi. Bu istiqamətdə bütün fənlər üzrə müasir elektron elmi-metodiki vəsaitlər kompleksinin işlənilməsi və yayılması, elektron təhsil (e-Learning) resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyası, ölkə daxilində distant təhsilin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata

keçirilməsi, təhsildə İKT-nin tətbiqi üzrə məlumat və resurs mərkəzinin, vahid təhsil portalının yaradılması, təhsildə dünya informasiya resurslarından səmərəli istifadənin təşkili, interaktiv tədris imkanlarından daha geniş istifadə olunması nəzərdə tutulmuşdu.

3. Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması. Proqrama əsasən təhsil sahəsinin idarə olunmasında və tənzimlənməsində vahid informasiya infrastrukturunun yaradılması, təhsilin idarə edilməsində informasiya sistemləri və texnologiyalarının səmərəli tətbiqinin təmin edilməsi, təhsilin idarə olunmasının məlumat sistemlərinin (TİMS) inkişaf etdirilməsi, «elektron hökumət» prinsiplərinin tətbiqinin genişləndirilməsi, təhsilin idarə olunması funksiyalarını yerinə yetirən orqanların İKT avadanlığı və müvafiq proqram vasitələri ilə təmin olunması kimi məqsədlər bu vəzifə çərçivəsində həll olunmalı idi.

4. Kadr potensialının gücləndirilməsi. Təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə heyətinin İKT üzrə savadlılığının artırılmasına yönəldilmiş kompleks tədbirlərin həyata keçirilməsi, yeni metod və texnologiyalar vasitəsilə pedaqoji heyətin hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, regionlarda, xüsusilə də kənd yerlərində təhsil müəssisələrinin İKT üzrə kadr təminatının yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi, yaradıcı və innovativ müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün motivasiya sisteminin yaradılması nəzərdə tutulmuşdu.

5. İKT vasitələrinin təhsildə tətbiqi məsələləri ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi. Bu istiqamət üzrə fəaliyyət informasiya-kommunikasiya texnologiyalarının təhsil sistemində istifadəsi və tətbiqi ilə bağlı mövcud qanunvericilik aktlarının, normativ-hüquqi sənədlərin monitorinqinin aparılması, təhsilin idarəedilməsi və tədris prosesinin informasiyalaşdırılması sahəsində zəruri normativ və standartların işlənilməsi və həyata keçirilməsini nəzərdə tuturdu.

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilirdi:


- təhsil müəssisələrinin İKT avadanlığı ilə təminat göstəriciləri köklü şəkildə yaxşılaşdırılacaq, bütün təhsil müəssisələrində hər bir şagirdə düşən kompyuter nisbəti ən azı 20:1-ə çatdırılacaq;
- bütün fənlər üzrə elektron tədris və metodiki resurslar yaradılacaq;
- bütün fənlər üzrə tədris planlarında və kurikulumlarda İKT-dən istifadə əks etdiriləcək;
- ümumtəhsil müəssisələrinin yeni nəsil rəqəmsal tədris resurslarından istifadə imkanları yaranacaq, proqram resurslarından səmərəli istifadə olunacaq;
- yeni təlim formaları (distant təhsil daxil olmaqla) tətbiq və istifadə olunacaq;
- bütün təhsil müəssisələrini əhatə edən ölkədaxili korporativ və yüksək sürətli İnternet şəbəkəsinə çıxış imkanı təmin ediləcək;
- cəmiyyətin təhsil sistemində mövcud proseslərə cəlb edilməsi və maarifləndirilməsi üçün vahid təhsil portalı yaradılacaq;

- İKT-nin təhsilin idarəedilməsinə səmərəli inteqrasiyası təmin ediləcək, təhsilin idarə olunmasının və monitorinqinin effektivliyi artırılacaq;
- təhsil prosesinin idarə edilməsi üçün təhsil müəssisələri avtomatlaşdırılmış iş yerləri ilə təchiz olunacaq;
- təhsil sisteminin pedaqoji və inzibati-idarəetmə kadrlarının İKT üzrə bilik və bacarıqları yüksələcək, yerli ekspert potensialı gücləndiriləcək;
- bütün təhsil pillələri üzrə məzunların sosial, peşə və mədəni həyatında İKT üzrə uzun illər istifadə edəcəyi bilik və bacarıqlar qazanılacaq;
- innovativ və yaradıcı müəllimlər dəstəklənəcək;
- əhalinin bütün təbəqələri üçün keyfiyyətli və İKT əsaslı tədris proqramı ilə təhsil almaq imkanları təmin olunacaq;
- İKT-nin təhsil sisteminə inteqrasiyası sahəsində hüquqi-normativ, metodiki sənədlərin bazası formalaşacaq.

2008–2009-cu illərdə Proqram çərçivəsində görülmüş işlər 2009-cu ilin iyununda «Gülüstan» sarayında keçirilən geniş konfransda ictimaiyyətə təqdim edildi.

«Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005–2007-ci illər)» çərçivəsində təhsil müəssisələrində kompyuter avadanlığı quraşdırılsa da, onlardan effektiv istifadə üçün infrastruktur yox idi. Məhz buna görə Proqram çərçivəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yardımı ilə, BMT İnkişaf Proqramının AzNET layihəsinin bazasında yaradılmış Azərbaycan Təhsil Şəbəkəsinin (AZEDUNET) əsas məqsədi ölkənin bütün təhsil ocaqlarını vahid yüksək sürətli İntranet şəbəkəsi çərçivəsində birləşdirməkdən ibarət idi. Vahid təhsil şəbəkəsinin mövcudluğu ölkə miqyasında təhsil ocaqları arasında yüksək sürətli məlumat mübadiləsini təmin etməyə imkan verməklə, həm də milli elektron təhsil şəbəkələrinin inkişafının sürətlənməsinə, həmçinin tədrislə bağlı materiallara çıxışın sadələşdirilməsinə zəmin yaradırdı.

Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008–2012-ci illər)



Həmçinin qeyd etmək lazımdır ki, «Elektron məktəb» layihəsi çərçivəsində Bakının 20 məktəbi, Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsi fiberoptik kabel vasitəsilə Azərbaycan təhsil şəbəkəsinə qoşulmuş, bununla da yüksək sürətli İnternetə və Nazirliyin Məlumat və Resurs Mərkəzinə çıxış təmin olunmuşdu. Ölkənin 1000 ümumtəhsil məktəbinin Azərbaycan təhsil şəbəkəsinə qoşulması prosesi artıq başa çatmışdı.

Dövlət Proqramı çərçivəsində yaradılmış Məlumat və Resurs Mərkəzi (Data Mərkəz) Azərbaycanda təhsil sektorunun informasiyalaşdırılmasında əhəmiyyətli yer tuturdu. Əgər Azərbaycan Təhsil Şəbəkəsi müasir təhsilin «qan-damar sistemi» idisə, Məlumat və Resurs Mərkəzi onun «beyni» idi. Dünyanın aparıcı şirkətlərinin təqdim etdiyi müasir texnologiyaların tətbiqi ilə yaradılan Məlumat və Resurs Mərkəzinin funksiyaları olduqca geniş idi və ən müasir texnoloji standartlara cavab verirdi. Azərbaycan təhsil şəbəkəsində İnternetə «giriş və çıxış nöqtəsi» olmaqla yanaşı, Mərkəz, həmçinin təhsilə aid informasiya resurslarının toplandığı yer idi. Mərkəzdə xüsusi təhlükəsizlik süzgəci qurulmuş, bütün avadanlıqların 24 saat və ehtiyat rejimdə işləməsi üçün hər cür texniki imkanlar yaradılmışdı. Məlumat və Resurs Mərkəzinin başlıca funksiyalarından biri də uşaqlar üçün istifadə olunması məsləhət görülməyən veb-resurslara daxilolmanın qarşısını almaq idi.

Mərkəzin yaradılmasında ULTRA şirkəti və AZEDUNET təşkilatı iştirak etmişdi. Intel, HP, Microsoft, CISCO şirkətlərinin Azərbaycanda rəsmi tərəfdaşı olan ULTRA şirkəti tərəfindən Mərkəzdə avadanlıqlar qurulmuş, təhlükəsizlik sistemi yaradılmışdı. Burada Azərbaycan təhsil şəbəkəsinin verilənlər bazasını yerləşdirmək üçün ən müasir Intel platformalı dörd nüvəli serverlər quraşdırılmışdı. Məlumat və Resurs Mərkəzində quraşdırılmış serverlər eyni anda milyonlarla əməliyyatı həyata keçirmək gücünə malik idi. Bundan əlavə, Mərkəzdə Azərbaycanda yeni olan fiziki təhlükəsizlik sistemləri quraşdırılmışdı ki, bu da toplanılacaq məlumatlara kənar müdaxilələrin qarşısını alırdı.

Quraşdırılmış avadanlıqlar bir çox funksiyaları yerinə yetirməyə imkan verirdi. Məktəblərdəki bütün kompyuterlər birbaşa mərkəzdən idarə olunurdu ki, bu da kompyuterlərə texniki xidmətin səviyyəsini əhəmiyyətli dərəcədə artırırdı. Mərkəzdə quraşdırılmış texnologiya onun konfrans zalından Azərbaycan təhsil şəbəkəsinə qoşulmuş bütün müəssisələrə eyni zamanda müşahidələr və ya açıq dərslər keçirməyə imkan yaradırdı.

Mərkəzdə, həmçinin elektron tədris resursları yerləşdirilmişdi. Bu resurslar İKT-nin təhsildə tətbiqini daha effektiv etməklə yanaşı, tədrisin keyfiyyətini yüksəltməyə imkan verirdi. Mərkəzin serverində Azərbaycan məktəblərinin elektron xəritəsi yerləşdirilmişdi. İnternetdə ictimaiyyət üçün açıq olan bu resurs vasitəsilə məktəblər haqqında bütün zəruri məlumatları əldə etmək mümkün idi.

Dövlət Proqramı çərçivəsində təhsil portalı (www.edu.az) yaradılmışdı. Portaldan müəllimlər, şagirdlər, tələbələr və valideynlər yararlanırdı. Hər bir istifadəçi qrupu üçün xüsusi interfeys və funksionallar nəzərdə tutulmuşdu. Bu onlara konkret qrup üçün nəzərdə tutulmuş məlumatlardan və xidmətlərdən rahat və operativ istifadə etməyə imkan yaradırdı. Portalda, həmçinin müxtəlif elektron tədris resursları yerləşdirilmişdi. Bu tədris resursları həm mərkəzləşdirilmiş formada Təhsil Nazirliyi tərəfindən, həm də müəllimlər və metodistlər tərəfindən yerləşdirilirdi.

Təhsil Portalı öz funksionallığına görə dünyanın analoji aparıcı elektron təhsil

platformalarına tam uyğun idi və onun funksionalları az bir zamanda hər bir müəllimin yaxın köməkçisinə çevrilmişdi. Portal vasitəsilə ucqar bir kəndin müəllimi Bakının hər hansı bir aparıcı müəlliminin elektron tədris resurslarından yararlana bilirdi. Bu mənada portal tədrisdə informasiyalaşdırmanın nailiyyətlərindən tam istifadə etmək üçün real və praktik vasitə idi.

Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılmasında əsas məsuliyyət müəllimlərin üzərinə düşürdü. Bütün məktəblər kompyuterlərlə təmin edilsə də, təhsil şəbəkəsi, ən müasir elektron tədris vəsaitləri yaradılsa da, bütün bu vasitələrdən istifadə edə bilən müəllimlər lazım idi. Buna görə İKT-ni tətbiq etməyi bacaran müəllim təhsil sisteminin informasiyalaşdırılmasının «ürəyi» hesab edilirdi. Yeni texnologiyalar vasitəsilə müəllimlər tədris metodlarını daha da təkmilləşdirmək imkanı əldə etməklə Azərbaycan üçün «XXI əsr bacarıqları»na malik yeni nəsil yetişdirə bilərdilər.

Müəllimlərlə aparılan təlimlərin əsas məqsədi onlara texnologiyalardan səmərəli istifadə etməyi, müasir təlim metodlarına yiyələnməyi və bu metodları öz dərslərində tətbiq etməyi öyrətmək idi. Müəllimlər üçün təlimlərin ilkin mərhələsində bu sahədə təcrübəsi olan ölkələrdən mütəxəssislər dəvət olundu, təlimlərin keçirilməsi üçün 200-ə yaxın təlimçi heyəti hazırlandı.

Proqram çərçivəsində keçirilən treninqlərin əsas məqsədi müəllimlərə gündəlik pedaqoji fəaliyyətdə kompyuterdən, proqram təminatından, müxtəlif multimedia avadanlıqlarından istifadə etməklə tədrisi daha effektiv qurmağı öyrətmək idi. Təqdirəlayiq hal idi ki, 2009-cu ilin martında Vyanada keçirilən İnnovativ müəllimlərin Avropa Forumunda ilk dəfə iştirak edən Azərbaycan müəllimlərinin layihələri 60 layihə arasında ilk onluğa daxil olmuşdu. Həmin Forumda əldə edilmiş razılığa əsasən 2009/10-cu tədris ilində Azərbaycanın təqdim etdiyi layihələr Bolqarıstan və Xorvatiyanın ümumtəhsil məktəblərində istifadə edilirdi.

Dövlət Proqramı çərçivəsində həyata keçirilən «Elektron məktəb» pilot layihəsində iştirak edən 20 məktəbin bütün müəllimləri İKT-nin tədrisdə tətbiqi üzrə daha təkmil biliklərə yiyələnmişdilər. Sonrakı mərhələdə Azərbaycan Təhsil Şəbəkəsinə qoşulan 1000 məktəbin müəllimləri də xüsusi treninqlərdən keçirildilər.

Proqram çərçivəsində təhsil sistemində ilk dəfə olaraq müəllimlərin motivasiyası kimi əhəmiyyətli bir məsələyə xüsusi diqqət yetirilirdi. İlk növbədə müəllimlərin müxtəlif müsabiqələrdə iştirakına şərait yaradılırdı. Bakı şəhəri 204№-li məktəbin müəllimi Almaz Həsrət Intel şirkətinin «Gələcək üçün təhsil» beynəlxalq müsabiqəsi çərçivəsində 300 müəllim arasında I yerə layiq görülmüşdü. Microsoft şirkəti ilə birgə «İnnovativ müəllimlər» müsabiqəsinin qalibləri ölkəmizi Avropada keçirilən final mərhələsində ilk dəfə təmsil etmiş və yaxşı nəticələr göstərmişdilər. Eyni zamanda ölkə Prezidentinin sərəncamı ilə keçirilən «Ən yaxşı müəllim» müsabiqəsinin iştirakçıları arasında informatika müəllimləri üstünlük təşkil edirdi, qaliblər sırasında da onların adlarına tez-tez rast gəlmək olurdu. Müəllimləri informasiya

texnologiyalarından daha çox istifadəyə cəlb etmək üçün digər layihələr də həyata keçirilirdi. Bunlar sırasında Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, HP və Microsoft şirkətlərinin birgə həyata keçirdiyi «Xalq kompyuteri» layihəsi mərkəzi yer tuturdu. Layihə çərçivəsində HP şirkətinin mini-noutları, noutbukları və stolüstü kompyuterləri təqdim olunurdu. Bu, Təhsil Nazirliyi və Microsoft şirkəti arasında imzalanmış Məktəb Sazişi çərçivəsində həyata keçirilirdi. 2010–2011-ci illərdə 9 min müəllim «Xalq kompyuteri» layihəsi çərçivəsində kompyuter almışdı.

Azərbaycanda «bir şagird – bir kompyuter» konsepsiyasının reallaşdırılması istiqamətində şagirdlərə 2009–2010-cu illərdə Microsoft şirkəti tərəfindən 1000, Təhsil Nazirliyi tərəfindən 3000 olmaqla ümumilikdə 4000 netbuk verildi.

Azərbaycan məktəbliləri arasında informasiya texnologiyalarına marağı artırmaq və bu istiqamətdə kadr potensialını gücləndirmək məqsədilə Təhsil Nazirliyi tərəfindən məqsədyönlü iş aparılırdı. İnformasiya texnologiyalarının təhsil prosesinə tətbiqini genişləndirmək, şagird və müəllimləri IKT-nin geniş tətbiq olunması işinə cəlb etmək, eləcə də istedadlı gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək naminə müxtəlif müsabiqələrin keçirilməsi təcrübəsindən də istifadə edilirdi. Təhsil Nazirliyinin təşəbbüsü ilə 2009-cu ildən etibarən «Gənc kompyuter istedadları» I Respublika müsabiqəsi «Təqdimat», «Veb-sayt», «Kompyuter proqramları», «Animasiya» nominasiyaları üzrə keçirilirdi. Əlavə olaraq «Ən orijinal layihə» və «Ən gənc iştirakçı» nominasiyaları da müəyyənləşdirilmişdi.

Şagirdlər üçün stimullaşdırıcı fəaliyyətlərdən biri də ilk dəfə olaraq Bakı şəhər Akademik Zərifə Əliyeva adına məktəbdə «Yay kompyuter düşərgəsi»nin təşkil edilməsi idi. Yay kompyuter düşərgəsi Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Microsoft şirkəti və İNFOMAS qeyri-hökumət təşkilatının birgə fəaliyyəti nəticəsində təşkil olunmuşdu. Düşərgənin rəhbəri İKT sahəsində tanınmış alim və müəllim Ramin Mahmudzadə idi. Yay kompyuter düşərgəsində 7–10-cu sinifləri təmsil edən 75 məktəbli iştirak etmişdi. Düşərgənin yaradılmasında əsas məqsəd gənc nəslin informasiya-kommunikasiya texnologiyaları sahəsindəki biliklərinin inkişaf etdirilməsi, onlara informatikanın riyazi əsaslarını öyrənmək və informatika sahəsində tədqiqat aparmaq marağının aşılanması, istedadlı gənclərin aşkar olunması və bacarıqlarının inkişafı idi. Burada məktəblilərə məşğələləri təcrübəli informatika müəllimləri, həmçinin proqramlaşdırma üzrə peşəkar mütəxəssislər keçirdilər. Bundan əlavə, British Council təşkilatının təlimçiləri tərəfindən məktəblilər üçün ingilis dili məşğələləri təşkil edilmişdi.

2011-ci ildə təhsil sisteminin informasiyalaşdırılması Proqramı çərçivəsində nəzərdə tutulan işlər davam etdirildi. Təhsil müəssisələrinin İKT avadanlığı ilə təminatı nəticəsində hər 20 şagirdə 1 kompyuter nisbəti təmin edildi. İKT üzrə təlimlərdən keçmiş pedaqoji heyətin sayı 75 min nəfərə çatdırıldı. «Elektron məktəb» layihəsinə qoşulmuş 20 məktəbdə nəzərdə tutulan işlər davam etdirildi.

İKT-nin təhsil sistemində tətbiqi nəticəsində ümumilikdə təhsil prosesi keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu, təlimin daha səmərəli yolları və vasitələrinin tətbiqinə şərait yaratmaqdan başqa, təhsilalanlar üçün əlavə bilik mənbələrinin, təhsil resurslarının istifadəsi üçün də geniş imkanlar açdı. İKT-nin tətbiqi müəllimlərin təşəbbüskarlığına və yaradıcılığına müsbət təsir etməklə onların peşəkarlığının yüksəlməsinə də səbəb oldu. Bu işin davamı olaraq 24 noyabr 2011-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları»nın və «Elektron xidmət növlərinin Siyahısı»nın təsdiq edilməsi haqqında qərarı imzalandı. Qərarda aşağıdakı sahələrin elektron xidmət növlərinə aid edilməsi və bu sahədə tədbirlərin görülməsi Təhsil Nazirliyinə tapşırıldı:

- Respublikada fəaliyyət göstərən bütün növ təhsil müəssisələri haqqında məlumat əldə edilməsi.
- Respublikada fəaliyyət göstərən bütün növ təhsil müəssisələrinə qəbul qaydaları haqqında məlumat əldə edilməsi.
- Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu üçün e-ərizələrin qəbulu.
- Tam və ümumi orta təhsil məktəblərinə şagirdlərin qəbulu üçün e-ərizələrin qəbulu.
- Şagirdlərin təhsildə qazandıqları cari nailiyyətləri əks etdirən məlumatların əldə edilməsi.
- Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili, milli və beynəlxalq qiymətləndirilməsi barədə məlumatların əldə edilməsi.
- Tam və ümumi orta təhsil pilləsi üzrə sınaq və yekun buraxılış imtahanların nəticələri barədə məlumat əldə edilməsi.
- Ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üçün e-ərizələrin qəbulu və imtahan nəticələri haqqında məlumatların əldə edilməsi.
- «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» üzrə e-müraciət.
- Təhsil müəssisələrində təhsil alanların təhsil müəssisələrini dəyişmək qaydaları barədə məlumat əldə edilməsi.
- De-institutlaşma və uşaqların müdafiəsi barədə məlumat əldə edilməsi.

2.16. Təhsil haqqında yeni Qanunun qəbul edilməsi

Azərbaycanda təhsil sahəsində islahatların daha səmərəli aparılması qanunvericilik bazasının təkmilləşdirilməsi, təhsil haqqında yeni qanunun qəbul edilməsindən birbaşa asılı idi. Yeni qanunun tezliklə qəbul edilməsini şərtləndirən bir sıra amillər mövcud idi. Əvvəlki Qanunun qəbul edilməsindən 20 ilə yaxın vaxt keçmişdi. Bu müddət ərzində Azərbaycanda və dünyada dinamik inkişaf tendensiyaları, o cümlədən təhsil sahəsində əsaslı dəyişikliklər özünü büruzə vermişdi. Ötən müddət ərzində Azərbaycan keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş, Avropa və dünya təhsil məkanına inteqrasiya istiqamətində mühüm addımlar atılmışdı. Bütün bu proseslər təhsil qanunvericiliyində, ən vacibi isə «Təhsil haqqında» yeni Qanunda öz əksini tapmalı idi. Qəbul ediləcək yeni Qanun ölkəmizdə təhsil



«Təhsil haqqında» Qanunun Milli Məclisdə müzakirəsi. Dekabr, 2007

siyasəti və strategiyasının əsas istiqamətlərini əks etdirməklə yanaşı, ilk növbədə, xalqımıza, Azərbaycanda təhsilin inkişafına xidmət etməli, milli təhsil sisteminin dünya, Avropa təhsil sisteminə inteqrasiyasını təmin etməli idi.

Təhsil sahəsində müasir inkişaf tendensiyalarının nəzərə alınmasının vacibliyini şərtləndirən əsas amillərdən biri də bu idi ki, «Təhsil haqqında» Qanun bu gün üçün deyil, uzun müddət üçün qəbul edilirdi. Bununla əlaqədar qəbul ediləcək yeni Qanunda bu gün və yaxın gələcəkdə həyata keçirilməsi mümkün olmayan, lakin perspektivdə qaçılmaz olan müddəalar da nəzərə alınmalı idi.

Milli Məclisin Elm və təhsil daimi Komissiyasının rəhbərliyi yeni Qanun layihəsinin hazırlanmasına kömək edilməsi barədə Təhsil Nazirliyinə müraciət etmişdi. Nazirliyin bu sahədə təcrübəsi olan bir neçə əməkdaşı bu prosesə cəlb olundu. Komissiyanın işçi qrupu tərəfindən hazırlanmış Qanun layihəsinin ilkin variantı Təhsil Nazirliyində təhlil olundu və Nazirliyin təklifləri Komissiyaya təqdim edildi. Məhz bu səmərəli əməkdaşlığın nəticəsində Təhsil Nazirliyinin təkliflərinin böyük əksəriyyətinin nəzərə alındığı Qanun layihəsi Milli Məclisin müzakirəsinə çıxarıldı.

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanunu uzun müddətdən sonra, 2009-cu ilin iyun ayında Milli Məclisdə qəbul edildi və həmin il iyunun 19-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olundu. 5 sentyabr 2009-cu il tarixdə isə Azərbaycan Respublikasının Prezidenti «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Fərman imzaladı.

Qanunda vətəndaşların təhsil hüququnun dövlət təminatı aşağıdakı kimi təsbit olundu:

- Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.
- Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.
- Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.
- Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.
- Dövlət əmək bazarının tələblərinə uyğun olaraq təhsil müəssisələrinə ixtisaslı kadr hazırlığı üçün dövlət sifarişləri verir və məzunların müvafiq işlə təmin olunmasına şərait yaradır.
- Dövlət maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır.
- Dövlət milli təhsil ənənələrinin qorunmasına, inkişafına və innovasiyaların tətbiqinə təminat verir.
- Dövlət xaricdə yaşayan azərbaycanlıların təhsili ilə bağlı xüsusi layihələr və proqramlar həyata keçirir.

Qanunda beşyaşlıların məktəbə hazırlığının zəruriliyi, hər təhsil pilləsinə qəbul zamanı məzunların əvvəlki təhsil pilləsindəki nəticələrinin nəzərə alınması, icbari ümumi orta təhsilin müddətinin on bir ildən doqquz ilə endirilməsi, ixtisasartırma təhsilinin nəticələrinin stimullaşdırılması, yaş senzinin müəyyənləşdirilməsi, təhsil müəssisələrinin maliyyələşdirilməsinin hər təhsilalana düşən xərc normaları nəzərə alınmaqla həyata keçirilməsi, dünya fənn olimpiadaları, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müvafiq ixtisaslar üzrə ali məktəblərə müsabiqədənkənar qəbul olunması, ali təhsilin üçpilləli strukturu və digər yeni məsələlər öz əksini tapmışdı.

Yeni qanunda ilk dəfə olaraq təhsilin keyfiyyət səviyyəsinin müəyyən edilməsi və qiymətləndirilməsinin əsas amilləri də öz əksini tapdı:

- Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları,

abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

- Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.
- Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir.

Qanunun icrasının təmin olunması məqsədilə Təhsil Nazirliyi tərəfindən 40-dək adda normativ sənəd hazırlanaraq Nazirlər Kabinetinə təqdim edildi və müzakirələrdən sonra təsdiq olundu. Bu sənədlər arasında ümumi orta təhsillə bağlı aşağıdakı sənədlər də var idi:

1. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltif olunması Qaydasının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 14.01.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

2. Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydasının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

3. Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında. Nazirlər Kabinetinin 14.04.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

4. Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydalarının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

5. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarının (kurikulumlarının) təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 03.06.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

6. Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddətinin təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 04.06.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

7. Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyədən digər səviyyəyə keçid Qaydalarının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 22.06.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

8. Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların siyahısının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 25.06.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

9. Formal təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 06.08.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

10. Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydasının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 06.09.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

11. Təhsil müəssisələrinin işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında. Nazirlər Kabinetinin 24.11.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

12. Təhsil müəssisəsində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normalarının təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 25.11.2010-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

13. Ümumtəhsil məktəbinin nümunəvi Nizamnaməsinin təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 13.01.2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

14. Təhsildə xüsusi nailiyyətlərə görə qızıl və gümüş medalların təsvirinin təsdiq edilməsi haqqında. Nazirlər Kabinetinin 14.04.2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

«Təhsil haqqında» Qanunun icrası ilə əlaqədar Təhsil Nazirliyi tərəfindən də bir sıra normativ-hüquqi sənədlər hazırlanıb təsdiq edildi:

1. Ümumtəhsil məktəbinin birinci sinfinə uşaqların vaxtından əvvəl qəbulu qaydalarının təsdiq edilməsi haqqında. Nazirliyin 16.06.2010-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

2. Ümumi orta təhsil səviyyəsində icbariliyin təsdiq edilməsi haqqında. Nazirliyin 30.08.2010-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

3. Ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası haqqında Əsasnamənin təsdiq edilməsi haqqında. Nazirliyin 19.11.2010-cu il tarixli əmri ilə təsdiq edilmişdir.

Qanunda ümumi təhsil pilləsinin səviyyələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– ibtidai təhsil;
– ümumi orta təhsil;
– tam orta təhsil.

Ümumi təhsil maddəsində aşağıdakı məsələlər öz əksini tapmışdı:

– Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.
– Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan vətəndaş təfəkküründün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.
– Ümumi təhsil müvafiq təhsil proqramları əsasında həyata keçirilir.
– Azərbaycan Respublikasında ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarətdir.
– Ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, bir səviyyəsindən digər səviyyəsinə keçid qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.
– Ümumi təhsil ümumtəhsil məktəblərində, xüsusi təmayüllü təhsil müəssisələrində, gimnaziyalarda, liseylərdə, ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrində, habelə ali təhsil müəssisələrinin tabeliyində yaradılan məktəblərdə həyata keçirilə bilər.
– Ümumi təhsil sistemində təhsilalanların fiziki inkişafını təmin etmək və müxtəlif yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədi ilə məktəbdənkənar təhsil proqramları tətbiq olunur.

- Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qızıl və ya gümüş medalla təltif olunur.
- İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.
- İbtidai təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.
- Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlanır.
- Valideynlərin və ya uşaqların digər qanuni nümayəndələrinin arzusu ilə təhsil müəssisəsi xüsusi istedadlı uşaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edə bilər.
- Ümumi orta təhsilin məqsədi təhsilalanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.
- Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir.
- Ümumi orta təhsil müvafiq təhsil proqramına əsasən həyata keçirilir.
- Ümumi orta təhsil səviyyəsində yekun qiymətləndirmə aparılır və təhsili başa vuran təhsilalanlara müvafiq dövlət sənədi verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə və səviyyədə davam etdirilməsi üçün əsas sayılır.
- Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.
- Tam orta təhsil ümumi təhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində tam orta təhsil pulsuzdur.
- Tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.
- Tam orta təhsil umumi təhsilin sonuncu səviyyəsini təşkil edir və bu səviyyədə təhsilalanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticələrinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd – attestat verilir.

– Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.

«Təhsil haqqında» Qanuna əsasən icbari təhsilin müddəti dəyişdirildi. Ümumi orta təhsil səviyyəsinin (IX sinfin) icbari olması təsbit edildi. 2008/09-cu tədris ilində yeni kurikulum üzrə təhsilə başlayan I sinif şagirdlərinə icbari təhsil tətbiq olundu.

«Təhsil haqqında» Qanunda təhsilin pillələri və səviyyələri arasında qarşılıqlı əlaqə və varisliyin təmin olunması məsələsi öz əksini tapmışdı.

Aparılan təhlillər göstərirdi ki, bu sahədə müəyyən problemlər mövcuddur və onların həll edilməsi qarşıda duran vəzifələrdən biri idi. İbtidai təhsildən ümumi orta təhsilə keçiddə ciddi problem müşahidə olunmurdu. Bu səviyyəni uğurla başa vuran şagirdlər maneəsiz növbəti səviyyədə təhsillərini davam etdirirlər. Statistika göstərir ki, hər tədris ilində təxminən 150 min şagird ibtidai təhsildən ümumi orta təhsilə keçir.

Bir sıra ölkələrdə ibtidai təhsil səviyyəsindən növbəti səviyyəyə keçiddə şagirdin növbəti səviyyədə hansı profil üzrə təhsil alacağını müəyyənləşdirmək üçün xüsusi imtahanlar təşkil edilir.

Ölkəmizdə ümumi orta təhsil səviyyəsini hər tədris ilində təxminən 145 min şagird bitirir. Onlardan 7%-i texniki peşə məktəblərinə və peşə liseylərinə, 8%-i orta ixtisas məktəblərinə qəbul olunur. Ümumi orta təhsil səviyyəsini bitirənlərdən 76%-i növbəti səviyyədə təhsillərini davam etdirir.

Ümumi orta təhsil səviyyəsindən tam orta təhsil səviyyəsinə keçiddə xeyli sayda şagirdin təhsildən yayınması Təhsil Nazirliyini ciddi narahat edirdi. Bununla əlaqədar məktəb rəhbərlərinə, yerli təhsil orqanlarına hər bir şagirdin təhsildən yayınma səbəblərinin araşdırılması və müvafiq tədbirlərin görülməsi barədə tapşırıqlar verilmişdi. 2010/11-ci tədris ilindən IX siniflərdə buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada aparılması həm şagirdlərin davamiyyətinə müsbət təsir göstərdi, həm də təhsildən yayınma hallarının qarşısını xeyli aldı. Eyni zamanda bu təhsil səviyyəsinin sonunda mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi tam orta təhsil pilləsində təhsilin təmayüllər üzrə təşkilinə də öz töhfəsini verdi.

Narahatlıq doğuran bir hal da ondan ibarətdir ki, ümumi orta təhsil səviyyəsini bitirən məzunlar qabiliyyətindən, bacarığından, potensial imkanlarından asılı olmayaraq, kütləvi şəkildə təhsillərini tam orta təhsil səviyyəsində davam etdirməyə səy göstərirlər. Lakin təhlil göstərir ki, heç də həmin şagirdlərin hamısı sonradan ali təhsil pilləsində təhsillərini davam etdirmirlər. Texniki peşə məktəblərinə gedənlər isə cəmi məzunların 7%-ini təşkil edir. Bu səbəbdən Azərbaycanda da beynəlxalq təcrübəyə əsaslanaraq, ümumi orta təhsil səviyyəsini bitirən məzunların 40–50%-nin məhz texniki peşə məktəblərinə və peşə liseylərinə yönəldilməsi, ümumi təhsil müəssisələrində peşəyönümü işinin səmərəli təşkili, şagirdlərin gələcəkdə məhz hansı səviyyədə və ya pillədə təhsillərini davam etdirməsi imkanları barədə diaqnostik qiymətləndirmələrin aparılması vacib məsələlər kimi qarşıda dururdu.

Narahatlıq doğuran digər bir hal da ondan ibarətdir ki, ümumi orta təhsil səviyyəsinin son sinfində (IX sinifdə) keçirilən mərkəzləşmiş imtahanlarda şagirdlərin 10–15%-i qeyri-kafi

qiymət alaraq təhsildən kənarda qalır. Tam orta təhsil səviyyəsi ümumi təhsilin son pilləsidir. Bu səviyyədə təhsilalanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir və məzunlara attestat verilir. Tam orta təhsil səviyyəsini hər tədris ilində təxminən 110–120 min şagird bitirir. Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş test imtahanına keçidə qədər, demək olar ki, həmin şagirdlərin hamısı attestat alırdılar. Hazırda isə məzunların təxminən 10–15%-i tam orta təhsil səviyyəsini lazımi nailiyyətlərlə başa vura bilmədiklərinə görə attestat ala bilmirlər.

Təhlil göstərir ki, hər il ümumi təhsil pilləsini bitirənlərin təxminən 60%-i ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinə qəbul planının məhdud olması səbəbindən heç bir peşəyə yiyələnmədən əmək bazarına qədəm qoyur. Bununla əlaqədar müvafiq maddi-texniki baza, kadr təminatı həyata keçirildikdən sonra və keyfiyyətə xələl gətirməmək şərtilə yaxın gələcəkdə ali təhsil müəssisələrinə qəbul planı artırılmalı, ümumi təhsil pilləsi məzunlarının ali təhsil alma imkanları genişləndirilməlidir. Digər tərəfdən isə texniki peşə məktəblərinin şəbəkəsi genişləndirilməli və məzunların əksər hissəsinin məhz həmin pillədə təhsillərini davam etdirməsinə imkan yaradılmalıdır.

Əsas narahatlıq doğuran məsələlərdən biri də bir təhsil pilləsindən digərinə keçiddə təhsilalanların nailiyyətlərinin nəzərə alınmamasıdır. Azərbaycanda ali təhsil müəssisələrinə qəbul zamanı orta məktəbin nəticələri, yəni şagirdlərin 11 illik təhsilinin yekunu olan attestat balı, ümumiyyətlə, nəzərə alınmır. Təhlil göstərir ki, bu hal ümumi orta təhsilin keyfiyyətinə mənfi təsir etməklə, məktəbin və müəllimin statusunun aşağı düşməsinə gətirib çıxarır. Eyni zamanda şagirdləri və müəllimləri keyfiyyətli orta təhsilə stimullaşdırmanın qarşısını alır.

Müqayisələr göstərir ki, dünyada ali təhsil müəssisələrinə qəbulun əsas parametri məhz orta məktəbin nəticələridir. ABŞ təcrübəsini misal gətirək. Həmin ölkədə ali təhsil müəssisəsinə qəbul imtahanı tələb olunan balın yalnız 30%-ini toplamağa imkan verir. Digər 70% isə məhz məktəbin nəticələri, yəni şagirdin orta məktəb göstəriciləri, məktəbin şagird haqqında rəyi, şagirdin maraq və qabiliyyəti və s. nəzərə alınmaqla formalaşır.

Təhsil Nazirliyi uzun müddət nailiyyətlərin növbəti pillədə nəzərə alınması istiqamətində təşəbbüslər göstərmiş, təkliflər irəli sürmüş və bu istiqamətdə məsələnin müəyyən müsbət həllinə nail olmuşdur. İlk növbədə XI siniflərdə mərkəzləşdirilmiş imtahanlar tətbiq edildikdən sonra şagirdlərin yekun qiymətinin çıxarılmasında həm X sinif, həm də XI sinifdə il ərzində əldə etdikləri nailiyyətlərin nəzərə alınması təmin edilmişdir.

İnanıram ki, son illərdə XI sinif şagirdlərinin mərkəzləşdirilmiş şəkildə test imahanları verməsi, bu imtahanların nəticələrinin tədricən qəbul imtahanlarının nəticələri ilə uyğunlaşması yaxın gələcəkdə iki imtahanın bir imtahanla əvəz olunmasına və təhsilin keyfiyyətinin yaxşılaşmasına səbəb olacaqdır.

«Təhsil haqqında» yeni Qanunun qəbul edilməsi və onun icrası istiqamətində təhsil qanunvericiliyinin əsaslı şəkildə yeniləşdirilməsi, ölkədə təhsil islahatlarının daha səmərəli aparılmasına, Azərbaycan təhsilinin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına zəmin yaratmaqla gələcək inkişafın təkanverici qüvvəsinə çevrildi.

2.17. Pedaqoji kadr təminatı və müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi

2004-cü ildə Təhsil Nazirliyi tərəfindən ölkənin bütün ümumtəhsil məktəblərində pedaqoji kadr təminatının monitorinqi aparıldı. Nəticələr təhlil edildi və müəyyən olundu ki, ucqar kənd məktəblərində 7 min nəfərədək pedaqoji kadra ehtiyac vardır. Bu problemin həlli məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 2004-cü il 22 avqustda «Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Bu qərarın icrası ilə bağlı Təhsil Nazirliyi tərəfindən **«2005–2009-cu illər üçün ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı»** hazırlandı və hökumətə təqdim edildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 noyabr tarixli Sərəncamı ilə Proqram təsdiq edildi.

Həmin dövrdə respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində ən ciddi problem təlim-tərbiyə müəssisələrinin pedaqoji kadrlarla təminatı ilə əlaqədar idi. Ölkənin 4553 ümumtəhsil məktəbindən 2128-də (46,8%) müxtəlif pedaqoji ixtisaslı kadrlara real tələbat var idi. Təhlillər göstərirdi ki, respublikanın ümumtəhsil məktəbləri şəbəkəsində 6774 nəfər müxtəlif pedaqoji ixtisaslı kadrlara tələbat mövcuddur, o cümlədən 842 (12,4%) Azərbaycan dili və ədəbiyyatı, 803 nəfər (11,9%) xarici dil, 680 nəfər (10,0%) tarix, 631 nəfər (9,3%) coğrafiya, 562 nəfər (8,3%) kimya, 505 nəfər (7,5%) riyaziyyat, 479 nəfər (7,1%) bədən tərbiyəsi və digər ixtisaslar üzrə kadrlara daha çox tələbatın olduğu müəyyən edilmişdi. Pedaqoji kadrlara olan tələbatın 8,4‰-i (571 nəfər) şəhər məktəblərinin, 91,6‰-i (6203 nəfər) isə kənd məktəblərinin payına düşürdü.

Kadr çatışmazlığı səbəbindən respublikanın 469 məktəbində xarici dil tədris edilmirdi və şagirdlər faktiki olaraq həmin fəndən biliklərə yiyələnmək imkanından tamamilə məhrum olmuşdu.

Respublikanın 1748 məktəbində 14 fənn üzrə 54 min saatdan çox dərs yükü 4956 nəfər qeyri-ixtisaslı kadrlar tərəfindən tədris olunurdu.

Göstərilən çatışmazlıqları aradan qaldırmaq məqsədilə İnkişaf Proqramında 5 il üçün 5 strateji fəaliyyət istiqaməti müəyyənləşdirilmişdi.

I istiqamət: Dövlət ali və orta ixtisas məktəblərini bitirmiş, rayon mərkəzlərindən 20 km-dək məsafədə yerləşən məktəblərə göndəriş almış və dərhal əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün həvəsləndirmə tədbirləri. Bu istiqamət üzrə aşağıdakı həvəsləndirmə tədbirləri nəzərdə tutulmuşdu: yolxərci, əmlakın daşınması, ilkin yaşayış şəraitinin yaradılması üçün stavka həcmində aylıq əmək haqqının 1 misli məbləğində birdəfəlik yardım; 3 il müddətində kommunal xidmətləri üçün ayda şərti maliyyə vahidinin 10 misli məbləğində kompensasiya ödəmələri; həmin kontingentin pulsuz olaraq tədris edəcəkləri fənn üzrə lazımi dərslik, dərs vəsaiti, tədris plan-proqramları ilə təmin olunması; mənzil-məişət şəraitinin yaradılması; torpaq sahələrinin ayrılması; güzəştli kreditlərin verilməsi.

II istiqamət: Rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən məktəblərdə işləmək üçün göndərilən gənc mütəxəssislər üçün həvəsləndirmə tədbirləri. Bu istiqamət üzrə I istiqamətdə göstərilən həvəsləndirmə tədbirləri və bundan əlavə 3 il müddətində hər ay şərti maliyyə vahidinin 20 misli miqdarında əmək haqqına əlavə.

Qeyd etmək lazımdır ki, hər iki istiqamət üzrə həvəsləndirmə tədbirləri hər il 1308 nəfər üçün nəzərdə tutulmuşdu. Bu tədbirlər 2004-cü ilin sentyabrından dövlət sifarişinə uyğun əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən mütəxəssislərə şamil olunurdu.

III istiqamət: 5 ilə qədər pedaqoji stajı olan qeyri-ixtisaslı kadr korpusunun yenidənhazırlanma təhsilinə cəlb edilməsi. Bu zərurət onunla bağlı idi ki, vaxtilə orta ixtisas məktəblərini bitirmiş və ibtidai siniflərdə ingilis dili müəllimi ixtisasına yiyələnmiş müəllimlər məktəblərdə işləyirdilər. Yuxarı siniflərdə işləmək üçün onlara əlavə təhsil vermək lazım idi. Proqramın bu istiqaməti üzrə pedaqoji kadr çatışmazlığı səbəbindən məktəblərdə işləyən 1924 qeyri-ixtisas fənlərini tədris edən müəllimlərin 5 il ərzində yenidənhazırlanma təhsilinə cəlb olunması nəzərdə tutulmuşdu.

IV istiqamət: Xarici dil üzrə «kiçik mütəxəssis» statuslu müəllimlərin xüsusi təlimə cəlb edilməsi. Bu istiqamət üzrə 1225 nəfər xarici dil üzrə «kiçik mütəxəssis» statuslu müəllimin xüsusi təlimə cəlb edilməsi nəzərdə tutulmuşdu.

V istiqamət: Pedaqoji stajı 5 ildən artıq olan qeyri-ixtisas fənnindən dərs aparan müəllimlərin ixtisasartırma təhsilinə cəlb edilməsi. Bu istiqamət üzrə isə 3035 nəfərin ixtisasartırma təhsilinə cəlb edilməsi planlaşdırılmışdı.

Bütün bunlar həm pedaqoji kadr təminatının yaxşılaşdırılmasına, eləcə də kadrların keyfiyyət göstəricilərinin və peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət etməli idi.

Proqrama əsasən ölkəmizin məktəblərində kadr çatışmazlığı problemi uğurla aradan qaldırıldı. Ümumilikdə 6179 nəfər müəllim stimullaşdırıcı tədbirlər tətbiq edilməklə Respublikanın ehtiyacı olan ucqar kənd məktəblərinə göndərildi.

Proqram çərçivəsində əsasən İmişli, Saatlı, Xaçmaz, Qusar, Sabirabad, Quba, Kürdəmir, Lerik, Yardımlı və Gədəbəy rayonlarına daha çox pedaqoji kadr göndərilmişdi.

Kadr təminatı üzrə aparılan təhlillərdən aydın olur ki, daha çox xarici dil, kimya, coğrafiya, tarix, fiziki tərbiyə, riyaziyyat, informatika, Azərbaycan dili və ədəbiyyatı müəllimlərinə ehtiyac var idi. Baxmayaraq ki, Proqram başa çatmışdı, ucqar kənd məktəblərinin kadr təminatı qismən həll olunmuşdu, lakin bu problemin birdəfəlik həll edilməsi mümkün deyildi. Ona görə ki, bir tərəfdən bu ehtiyac ödənir, digər tərəfdən yaranırdı. Bununla əlaqədar, Təhsil Nazirliyi «Təhsil haqqında» Qanuna istinad edərək təkliflər hazırladı və Nazirlər Kabinetinin «Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında» 14.04.2010-cu il tarixli qərarı imzalandı. Qərara əsasən Təhsil Nazirliyinə tapşırıldı ki, hər il ölkənin ucqar kənd məktəblərində pedaqoji kadrlara olan

ehtiyacı müəyyənləşdirməli və Maliyyə Nazirliyinə təqdim etməlidir.

Müəllimlər üçün stimullaşdırıcı tədbirlər daha da gücləndirildi və aşağıdakı sahələri əhatə etdi:

- Kənd rayonlarında yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan gənc mütəxəssislərə 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün ayda 40 manat məbləğində kompensasiya verilməsi;
- yerli icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrlə birlikdə onların yaşayış sahələrinə ehtiyaclarının ödənilməsi;
- daimi məskunlaşmaq üçün torpaq sahələrinin ayrılmasına və ipoteka kreditlərinin verilməsinə köməklik göstərilməsi;
- Rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan müəllimlərin aylıq əmək haqqına 3 il müddətində ayda 70 manat əlavənin ödənilməsi;
- Yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əmək haqqının 2 (iki) misli həcmində, birdəfəlik yardımın ödənilməsi.

Həmin qərara əsasən, 2010/11 və 2011/12-ci tədris illərində ucqar kənd məktəblərindəki vakant yerlərə stimullaşdırıcı tədbirlər tətbiq edilməklə 1600 nəfər gənc mütəxəssis göndərildi.

Ölkədə ümumi təhsil məktəblərinin pedaqoji kadrla təminatı kimi vacib bir sahəni əhatə edən bu Proqramın icrasına Nazirliyin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin müdiri Fərzəli Qədirov rəhbərlik edirdi.

Bunlarla yanaşı, müəllimlərlə bağlı bir sıra ciddi problemlər də özünü büruzə verirdi. Problemlərdən biri ümumtəhsil məktəblərində fəaliyyət göstərən 25 min müəllimin, yəni bütün müəllimlərin 15%-nin pensiya yaşında olması idi. Aparılan təhlillər göstərirdi ki, həmin müəllimlərin əksəriyyəti öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilmirlər, yeniliklərı və innovasiyaları mənimsəməkdə çətinlik çəkirlər. Bununla əlaqədar, onların fəaliyyətinin məktəb rəhbərləri, RTŞ-lər tərəfindən fərdi şəkildə öyrənilməsi və nəticədən asılı olaraq müvafiq qərarların qəbul edilməsi vacib məsələlərdən idi. «Azərbaycan Respublikası Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanun 2011-ci il mayın 17-də təsdiq edildi. Həmin Qanun bu problemin həlli istiqamətində atılmış mühüm addım oldu. Qanunda nəzərdə tutulmuşdu ki, işçi 65 yaşına çatdıqda onunla bağlanmış əmək müqaviləsinə xitam verilir. Təhsil Nazirliyinin 2011-ci il 15 iyun tarixli əmrinə əsasən Qanunun icrasına başlanıldı. 65 və daha çox yaşı olduğu üçün təhsil müəssisələrində çalışan 10106 nəfər müəllim, 300 nəfər məktəb rəhbəri, 72 nəfər uşaq bağçası müdiri, 31 nəfər məktəbdənkənar təhsil müəssisəsinin rəhbəri ilə əmək müqaviləsinə xitam verildi. Bununla yanaşı, Qanunda nəzərdə tutulduğu kimi, yaşı 65-ə çatmış bir sıra təhsil işçiləri ilə əmək müqaviləsi daha 1 il uzadıldı. Əmək müqaviləsinin uzadılması üçün əsas meyarlar müəyyənləşdirildi: intizam tənbehinin olmaması, dövlət təltiflərinin olması, peşəkarlığı, səriştəliliyi ilə fərqlənməsi, ucqar kənd məktəblərində ixtisas üzrə yeganə müəllim olması və onu əvəz etməyin mümkün olmaması, səhhətinin fəaliyyətinə imkan verməsi və s.

Nazirlər Kabinetinin «Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında xüsusi xidmətlərin meyarları»nın təsdiq edilməsi haqqında 31 oktyabr 2011-ci il tarixli qərarı 70 yaşına çatmış təhsil işçilərinə şamil edildi.

Məktəblərdə işləyən müəllimlərin keyfiyyət tərkibinin yaxşılaşdırılması, onların fəaliyyətinin qiymətləndirilməsi yolları daim Təhsil Nazirliyini düşündürürdü. Mövcud qaydalara görə hər 5 ildən bir keçirilməli olan attestasiya 1994-cü ildən keçirilmirdi.

Digər vacib məqamlardan biri müəllimlərin öz peşələrinə bağlılığı, müəllimlik keyfiyyətlərinin hansı səviyyədə olması idi. Dövr tələb edirdi ki, müəllim öz ixtisasını dərindən bilməklə, pedaqoji, psixoloji, metodik hazırlığa malik olmaqla yanaşı, peşəsinin vurğunu olmalı, onu sevməli, uşaqlara qayğı ilə yanaşmalı, onları başa düşməli, hər birinə fərdi yanaşmağı bacarmalı, problemlərini, qayğılarını öyrənməli, münasibətləri əməkdaşlıq səviyyəsində qurmalı, davranışı, geyimi, yerişi, duruşu ilə nümunə olmalıdır.

Müasir dövrdə pedaqoji prosesə yanaşmada əsas paradiqmalar dəyişdiyindən müəllim-şagird münasibətləri də buna uyğunlaşdırılmalı idi. Şagirdin obyektdən subyektə doğru inkişafı, ona şəxsiyyət kimi yanaşılmasını, bütün təlim prosesinin şagirdin maraqları, qabiliyyəti üzərində qurulmasını, onun fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını tələb edirdi. Bu gün müəllim qarşısında dərsdə susan, yalnız sual verdikdə cavab verən, heç bir təşəbbüskarlıq göstərməyən dünənki müti şagirddən tamamilə fərqli bir şagird dayanır. İndi şagird müəllimlə əməkdaşlıq edir, öz fikir və mülahizələrini sərbəst bildirir, rəy söyləyir, fərqli yanaşma nümayiş etdirə bilir, hətta müəyyən məsələlərdə müəllimlə razılaşmaya da bilir. Müəllim-şagird münasibətləri qurularkən nəzərə alınmalıdır ki, müasir dövrdə müəllim yeganə bilik, informasiya mənbəyi deyildir, şagirdlərin əlində İnternet, kifayət qədər elektron resurslar, digər vasitələr mövcuddur. Şagird hər an yeni informasiya əldə etmək imkanına malikdir.

Müəllimlərin heç də hamısı müəllim-şagird münasibətlərini yuxarıda qeyd edilən tələblər əsasında qura bilmirlər. Təsadüfən müəllimlik peşəsinə gələn, yalnız diplomuna görə müəllim sayılan, şagirdi şəxsiyyət kimi qəbul etməyən, onlarla münasibəti təzyiqlər, avtoritarlıq üzərində quran, davranışı ilə nümunə olmayan müəllimlər də mövcuddur.

Cəmiyyət müəllimə borclu olduğu kimi, müəllim də cəmiyyət qarşısında öz məsuliyyətini hiss etməlidir. Əsl müəllim üçün vətənpərvərlik meyarı millətin gələcəyi olan savadlı, müasir dünyagörüşünə malik, milli-mənəvi dəyərlərə sadiq vətəndaşların yetişdirilməsi işinə bütün imkan və bacarığını sərf etməsidir. Nahaq yerə demirlər ki, hər öyrədən müəllim deyil, o kəs müəllimdir ki, ondan öyrənirlər, onun yanına öyrənməyə gedirlər. Həm də o müəllim yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər.

Müəllim peşəsi ilə məşğul olanların hamısının yuxarıda sadalanan keyfiyyətlərə malik olmamasının əsas səbəblərindən biri müəllim olmaq istəyənlərin seçim mexanizminin təkmil olmamasıdır. Ali məktəblərə sənəd verənlərin

bir çoxu ixtisas seçimi zamanı pedaqoji ixtisasları siyahının sonunda göstərməyə çalışırlar. Digər ixtisaslar üzrə kifayət qədər bal toplamadıqda pedaqoji ixtisaslara qəbul edilirlər. Digər tərəfdən də müəllimlik ixtisaslarını seçənlərə heç bir başqa meyar tətbiq olunmur, yalnız imtahanda əldə etdiyi nəticə əsas meyar hesab olunur. Ali məktəblərin pedaqoji ixtisaslarına sənəd verənlərin heç də hamısı müəllim üçün zəruri olan keyfiyyətlərə malik deyil. Pedaqoji sahəni təsadüfən seçən, qəlbən, ruhən deyil, yalnız diplomuna görə müəllim olanlar da az deyildir. Bu amillər göstərir ki, pedaqoji profilli ixtisaslara qəbul qaydaları təkmilləşdirilməlidir. Çünki uzun illər ali məktəblərin pedaqoji fakültələrinin məzunları sırasından zəif oxuyanların təyinatla məktəblərə göndərilməsi ümumi təhsilin inkişafına mənfi təsir edən amillərdən olmuşdur.

Dünyada belə bir qayda da mövcuddur ki, ali təhsil müəssisələrini bitirən və müəllimlik diplomu alan şəxslər məktəblərdə işləmək üçün imtahan verərək xüsusi lisenziya alırlar. Yəni təsdiq olunur ki, pedaqoji ixtisasa yiyələnmiş şəxs müəllimlik keyfiyyətlərinə malikdir. Bu məsələ müzakirə olunarkən bəziləri ali məktəbləri bitirərək diplom almış şəxslərin yenidən sınaqdan keçirilməsini qəbul etmək istəmirdilər. Lakin təcrübə göstərirdi ki, ali məktəbi bitirib müəllim diplomu almış hər bir şəxs müəllim ola bilmir. Elə bu səbəbdəndir ki, pedaqoji profilli ixtisasları bitirmiş məzunların yalnız 30%-i məktəblərdə fəaliyyət göstərmək üçün müraciət edirdi. Bu mənada müəllim fəaliyyətinin reqlamentləşdirilməsi ilə əlaqədar dünya təcrübəsində istifadə edilən müasir yanaşmalar ölkəmizdə də tətbiq edilməli idi.

Ən ciddi problemlərdən biri də məhz müəllimlərin ilkin hazırlığı ilə bağlı idi. Azərbaycanda müəllim hazırlığı 22 ali (10 dövlət, 12 özəl) və 23 orta ixtisas təhsili müəssisəsində aparılır. Təhlillər göstərirdi ki, yenicə ali məktəbi bitirib ümumtəhsil məktəblərində fəaliyyətə başlayan müəllimlərin hazırlıq səviyyəsi nə şagirdləri, nə valideynləri, nə də məktəb rəhbərlərini qane edir. Ali məktəbi bitirən məzun məktəbə müəllim kimi gəlməli, ilk gündən pedaqoji prosesi idarə etməyi bacarmalı olduğu halda, bir çox məzunlar müəllimliyi məktəbdə öyrənməyi düşünürdülər. Əslində isə ilkin müəllim bacarıqları ali məktəblərdə mənimsənilməli, təcrübə və kamilləşmə isə orta məktəblərdə qazanılmalıdır.

Təhsil Nazirliyi tərəfindən aparılan təhlillər göstərmişdir ki, yerlərdə kadr siyasətinin düzgün aparılmaması nəticəsində 2003–2007-ci illərdə şagirdlərin sayı 265513 nəfər azaldığı halda, müəllimlərin sayı 3602 nəfər artmış, müəllim-şagird nisbəti 9,9-dan 8,3-ə enmişdir. Nazirlikdə bu məsələ çox ciddi araşdırılmış, müəllimlərin seçilməsi və işə təyin olunması sahəsində dünyada sınaqdan keçirilmiş mexanizmlərin tətbiqi istiqamətində bir sıra addımlar atılmışdır.

Müəllimlərin seçilməsi və yerləşdirilməsi Nazirlik tərəfindən nəzarətə götürüldü. Təhlil göstərdi ki, 2008/09-cu tədris ilində yerli təhsil orqanları tərəfindən Nazirliyə təqdim olunmuş 4000 vakansiyadan yalnız 1850-si əsaslıdır və həmin dərs ilində vakant yerlərin sayına uyğun müəllimlərin işə qəbuluna razılıq verildi. Müqayisə üçün 2007/08-ci tədris ilində bütün rayon və şəhərlər üzrə 4654 müəllim işə qəbul olunmuşdusa,

2008/09-cu tədris ilində kadr təminatı proqramı da daxil olmaqla 1829 müəllim işə götürüldü.

Müəllimlərin işə qəbulu sahəsində yeni mexanizmin tətbiqini zəruri edən əsas səbəblərdən biri də təhsil müəssisələrinə xeyli sayda saxta sənədlərlə işə qəbul edilənlərin olması idi. Milli Təhlükəsizlik Nazirliyindən Təhsil Nazirliyinə daxil olan məlumata əsasən Zaqatala rayonunda aparılan araşdırma nəticəsində yüzlərlə müəllimin saxta təhsil sənədləri ilə işlədiyi aşkar olundu. Sonradan bu araşdırmalar Balakən, Qax və məcburi köçkün rayonlarında, daha sonra isə ölkənin bütün şəhər və rayonlarında aparıldı. Ümumilikdə 58970 nəfər müəllimin təhsil sənədləri ekspertizadan keçirildi, nəticədə 455 nəfər müəllimin saxta təhsil sənədləri ilə, 260 nəfərin lisenziyası olmayan müəssisələrin diplomu ilə, 468 nəfərin xarici ölkələrin ali məktəblərinin nostrifikasiyadan keçməyən təhsil sənədləri ilə, 116 nəfərin özəl ali təhsil müəssisələrinin arayışı ilə, 54 nəfərin müxtəlif kursların vəsiqələri ilə işlədiyi aşkar edildi.

Monitorinqin nəticələri göstərdi ki, ümumi təhsil məktəblərində saxta sənədlərlə, lisenziya olmadan qeyri-qanuni fəaliyyət göstərmiş təhsil müəssisələrini bitirən çoxlu sayda müəllim işləyir. Həmin müəllimlərin əksəriyyəti 15 ildən çox fəaliyyət göstərmişdi. Onların işdən azad edilməsi müəyyən problemlər yaratdı. Nazirlikdə bu məsələ müzakirə edilərkən qərara gəldik ki, saxta təhsil sənədləri ilə işləmiş müəllimlər işdən azad edilsinlər, lisenziyası olmadan fəaliyyət göstərmiş təhsil müəssisələrini bitirən müəllimlərlə bağlı ciddi araşdırmalar aparılsın və ədalətli qərar qəbul edilsin. Xarici ölkələrdə təhsil almış və təhsil sənədləri nostrifikasiya olunmamış müəllimlərə müvafiq sənədləri Təhsil Nazirliyinə təqdim etməyə imkan yaradılsın.

Görülən tədbirlər nəticəsində son 10 ildə ilk dəfə olaraq müəllimlərin sayının artma tendensiyası dayandı, azalma müşahidə olunmağa başladı. Pedaqoji kadrların sayı 2005/06-cı tədris ilindəki 171 mindən 2008/09-cu tədris ilində 161 min nəfərə, 2011/12-ci tədris ilində 149 min nəfərə endi.

Bu istiqamətdə pedaqoji kadr təminatı vəziyyətinin monitorinqinin aparılması vacib vəzifələrdən idi. İlkin mərhələdə məktəblərdə vakant yerlərin dəqiq müəyyənləşdirilməsi, sənədlərin Nazirlikdə qəbulu, ekspertizanın aparılması və müsahibədən sonra müəllimlərin müvafiq məktəblərə göndərilməsi qərara alındı.

Dünyanın bir çox ölkələrində müəllimlərin işə qəbuluna çox ciddi əhəmiyyət verildiyindən prosesdə vahid imtahan sistemi tətbiq olunur. Bu səriştəli, bacarıqlı kadrların məktəbə gəlməsinə, müəllim-şagird nisbətinin optimal tənzimlənməsinə, müəllimlərin ehtiyac olan təhsil müəssisələrində yerləşdirilməsinə gətirib çıxarır. Bu istiqamətdə növbəti addım müəllimlərin işə qəbulu prosesində vahid imtahan mexanizminin tətbiqi oldu.

2009/10-cu tədris ilində Bakı şəhərinin ümumtəhsil məktəblərində vakant müəllim yerlərinə işə qəbul elektron vasitələr tətbiq edilməklə təşkil edildi, sənəd vermiş müəllimlərlə imtahan keçirildi, 4 min müəllim arasından 500 vakant yerə müəllimlər seçildi. 2011/12-ci tədris ilində isə ölkə üzrə müəllimlərin işə qəbulu qaydaları daha da təkmilləşdirildi və mərkəzləşdirilmiş müsabiqə vasitəsilə

aparıldı. Həmin tədris ilində ölkənin ümumi təhsil məktəblərində 2177 vakant yer müəyyənləşdirilmişdi. Vakant yerlər elan edildikdən sonra həmin yerləri tutmaq üçün 9342 nəfər müəllim elektron ərizə ilə müraciət etdi. Müsabiqə 3 mərhələdə təşkil edilmişdi. 1-ci mərhələdə müəllimlərin elektron ərizələrindəki göstəricilər kompyuter proqramı vasitəsi ilə qiymətləndirilirdi. 2-ci mərhələdə müəllimlər kompyuter arxasında elektron imtahan verirdi və bu iki mərhələnin nəticələrinə əsasən kompyuter proqramı vasitəsi ilə müəllimlər elektron ərizələrində göstərdikləri məktəblərdən birinə yerləşdirilirdi. 3-cü mərhələdə isə işə qəbul olunmuş müəllimlərlə müsahibə aparılır və onların təqdim etdiyi sənədlər ekspertizadan keçirilirdi. Yeni mexanizm bir sıra üstünlüklərə malik idi: elektron vasitələr tətbiq edilirdi, şəffaflıq və obyektivlik təmin olunurdu, imtahanın sonunda hər bir müəllim öz nəticələrini bilərək imtahan otağını tərk edirdi, qiymətləndirmə insan amili olmadan proqram vasitəsi ilə aparılırdı, vakant yerlərə yerləşdirmə proqram təminatı vasitəsi ilə aparılırdı və həmin anda müsabiqənin nəticələri haqda məlumat hər bir müəllimin elektron səhifəsinə göndərilirdi. Əsas üstünlük isə ondan ibarət idi ki, müsabiqədə 10000 nəfərədək müəllimin iştirak etməsinə və onların yalnız 11%-nin işə qəbul olunmasına baxmayaraq, müsabiqənin nəticələrindən şikayət edən olmamışdı. O da qeyd olunmalıdır ki, müsabiqə nəticələrinin təhlili əsasında müəllim hazırlığı ilə məşğul olan ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinə də qiymət verilirdi.

Eyni zamanda dünya təcrübəsi də öyrənilirdi. Müvafiq meyarlar hazırlamaqla işləyən müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların inkişafı üçün proqramların tərtib edilməsi, pedaqoji fəaliyyəti tənzimləyən reqlamentləşdirici sənədlərin təkmilləşdirilməsi istiqamətində də tədbirlər görülürdü. Proqramın tətbiq edildiyi vaxtdan pedaqoji kadrlara tələbat ilbəil azaldı.

Pedaqoji kadrlara olan ehtiyac

İllər	2005/06	2006/07	2007/08	2008/09	2009/10	2010/11	2011/12
nəfər	6643	5558	4716	3979	2457	2300	2161

Bütün bunlarla yanaşı, müəllim fəaliyyəti ilə əlaqədar qarşıda bir sıra vacib məsələlər də dururdu. Onlardan biri müəllimlərin ixtisas dərəcələri üzrə təsnifatına dair qaydaların hazırlanması idi ki, bu da dünyanın bir çox ölkələrində tətbiq edilir. Yəni müəllim müəyyən təcrübə əldə etdikdən sonra daha yüksək ixtisas dərəcəsi əldə edir ki, bu da müvafiq stimullaşdırıcı tədbirlərlə, yəni əmək haqqının artımı və karyera inkişafı ilə müşayiət olunur.

Pedaqoji ali təhsil müəssisələrini bitirən məzunların induksiya dövrünü (sınaq müddətini) başa vurduqdan sonra tam hüquqlu müəllim statusu almaları, habelə işləyən müəllimlərin sertifikatlaşdırılması mexanizminin tətbiqi də qarşıda duran vəzifələrdəndir.

Müasir dövrdə müəllimlərə verilən tələblər dəyişdiyindən «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununda təhsilverənlərin vəzifələri də müasir tələblərə uyğunlaşdırılaraq aşağıdakı şəkildə müəyyənləşdirildi:

– təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
– təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
– təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
– şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hisləri aşılamaq;
– pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
– təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;
– uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
– ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər, sinifdənkənar və məktəbdənkənar tədbirlər keçirmək;
– qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;
– qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Təhsil cəmiyyətin vacib tərkib hissəsi olduğundan, cəmiyyətdə baş verən bütün proseslər son nəticədə təhsil sahəsinə də öz təsirini göstərir. Cəmiyyətin inkişafı təhsilin inkişafını şərtləndirir və onu əsas amilə çevirir. Tez-tez mənə Azərbaycanda təhsilin səviyyəsi barədə suallar verirlər, bu barədə mətbuatda çoxsaylı yazılar dərc olunur. Həmin suallara qısaca belə cavab verirəm ki, cəmiyyətimiz inkişaf etdikcə təhsilimizin səviyyəsi də ona uyğun dəyişir, inkişaf edir. Ona görə də təhsil sahəsində uğur qazanmaq, təhsilimizin dünya təhsil sisteminə daha sürətlə inteqrasiyasına nail olmaq üçün bütövlükdə cəmiyyətdə yeniləşmə, demokratikləşmə, inkişaf meyilləri olmalıdır. İnkarolunmaz faktdır ki, Azərbaycanda təhsilin inkişafı üçün əsas məsuliyyət təhsil işçilərinin, müəllimlərin, təhsili idarəetmə orqanlarının, ilk növbədə Təhsil Nazirliyinin üzərinə düşür. Bu da təbiidir. Lakin yalnız onların səyləri ilə ölkədə təhsil sahəsində ciddi inkişafa nail olmaq mümkün deyildir. Dünyada olduğu kimi, təhsili inkişaf etdirmək üçün cəmiyyətin hər bir üzvü öz səlahiyyəti, qabiliyyəti, potensial imkanları çərçivəsində çalışmalı, milli mənafedən çıxış edərək vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir.

Yeri gəlmişkən, son zamanlar tez-tez təkrar etdiyim ibrətamiz bir məsələni diqqətə çatdırmaq istəyirəm. Artıq 10 ildən çoxdur ki, Dünya Bankının dəstəyi ilə təhsilin ayrı-ayrı sahələrində islahatlar aparırıq və bu baxımdan tez-tez xarici ölkələrdə təlim kurslarında olur, beynəlxalq ekspertlərlə görüşür, müzakirələr keçiririk. Həmin ekspertlərdən biri – ixtisasca riyaziyyatçı olan finlandiyalı professorla görüşümü xüsusi qeyd etmək istəyirəm. Hamıya məlumdur ki, Finlandiya təbii sərvətləri zəngin olmayan, əhalisi nisbətən az olan bir ölkədir, lakin göstəricilərinə görə dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil edilmişdir və



Finlandiyada rəsmi səfərdə olarkən. İyun, 2011-ci il

beynəlxalq hesabatlarda da bu ölkə ilə bağlı sürətli inkişaf tendensiyaları öz əksini tapmışdır. Həmin ekspertdən Finlandiyanın inkişafının əsas səbəblərini soruşduqda, o, bir az düşünərək dedi ki, bunun birinci səbəbi təhsildir. Başqa səbəblərlə maraqlandıqda o, yenə bir az düşünüb ikinci səbəbin də, üçüncü səbəbin də təhsil olduğunu təkrar-təkrar vurğuladı. Həmin anda müqəddəs Qurani-Kərimdə öz əksini tapmış, «insan anadan olandan son mənzilədək oxumalıdır» kəlamını xatırladım. Yəni, doğrudan da, təhsil cəmiyyətin inkişafında əsas, həlledici amillərdən biridir. Elə ona görə də təsadüfi deyil ki, Finlandiya təhsilin səviyyəsinə görə dünyada birinci yerdədir.

Finlandiyanın inkişaf fenomeni ilə bağlı fikrimi davam etdirərək bir məsələni də qeyd etmək istəyirəm. Beş milyondan bir qədər çox əhalisi olan Finlandiyanın «Nokia» şirkətinin bir ildə ölkəyə verdiyi gəlir 300 milyondan çox əhalisi olan bütün islam dünyasının, neftdən gələn gəlirləri istisna olmaqla, ümumi gəlirindən bir neçə dəfə çoxdur. Kiçik bir ölkə olan Finlandiya bir şirkətlə dünyaya meydan oxuyur. Bu, son zamanlar tədqiqatçıların və ekspertlərin daha çox istinad etdikləri biliyə, elmə əsaslanan iqtisadiyyata, insan kapitalının formalaşmasına ən parlaq nümunədir.

2011-ci il iyun ayının axırlarında Finlandiyaya rəsmi səfər etdim. Biz orada ümumtəhsil məktəblərində, uşaq bağçalarında vəziyyətlə tanış olduq. Məktəblərdə sinif otaqları tədris üçün əlverişli mühit yaradan xüsusi layihələrlə tikilmişdir. Şagirdlərə gündə üç dəfə pulsuz

yemək verilir. Bağçalarda da əlverişli təlim-tərbiyə şəraiti yaradılmışdır. Uşaqların 90%-dən çoxu məktəbə bağçadan gəlir. Təbii ki, bu da onların təhsilinin keyfiyyətinə əhəmiyyətli təsir göstərir.

Finlandiyada müəllim nüfuzu barədə isə ayrıca danışmağa dəyər. Bu ölkədə ali məktəbə qəbulda ən yüksək keçid balı pedaqoji ixtisaslardadır. Müəllim peşəsi ən nüfuzlu peşə sayılır. Ali məktəbi bitirib pedaqoji fəaliyyətə başlayan gənc müəllimin əmək haqqı 2500 avro civarındadır. Sonrakı illərdə iş stajının artması ilə əmək haqqı 4000 avroya qədər yüksəlir.

Müəllim peşəsinin nə qədər çətin və məsuliyyətli olduğunu təkrar etməyə lüzum yoxdur. Uşaqların təlim-tərbiyəsi, ölkənin gələcəyi etibar edilən və sözün hər mənasında bu etibarı doğrultmağa qadir olan insan ən böyük hörmətə, sayğıya və ən yüksək mükafata layiqdir.

Məlumdur ki, müəllimlərin davamlı olaraq peşəkarlıq səviyyəsinin inkişafı, fənlərin tədrisi sahəsində yeniliklərlə tanış olması, tədris metodikasının təkmilləşdirilməsi, onların ixtisasartırma ehtiyaclarının müəyyənləşdirilməsi, ümumi təhsil sistemində metodik xidmətin təşkili rayon təhsil şöbələri nəzdində olan metodiki kabinetlər tərəfindən həyata keçirilməlidir. Mövcud Əsasnamədə də metodik kabinetlər qarşısında xeyli vəzifələr müəyyənləşdirilmişdir:

– Pedaqoji kadrlarla aparılan metodiki işləri istiqamətləndirir, onların təkmilləşdirilməsi, ixtisasının artırılması və yenidən hazırlanması işini təşkil edir.

– Dayaq məntəqələrinin işini təşkil edir, bu prosesə fənlər üzrə ən qabaqcıl müəllimləri cəlb edir, müəllimlərin pedaqoji, psixoloji və metodik sahələr üzrə ehtiyaclarını öyrənir, onların tələbatlarına uyğun təkmilləşdirmə və ixtisasartırma prosesinə hazırlıq işlərini aparır, müvafiq təkliflər hazırlayır, ixtisasartırma təhsili müəssisələri ilə birlikdə proqramların tərtibində iştirak edir, müəllimlərin ixtisasartırma kurslarında iştirakını tənzimləyir.

– İxtisasartırma kurslarından sonra pedaqoji kadrların fəaliyyətini müşahidə edir, qiymətləndirir və metodik kömək istiqamətində təkliflər hazırlayır.

– Kurslararası dövrdə pedaqoji kadrların özünütəhsil və inkişafı üzrə tədbirlər görür, müvafiq metodik məsləhətlərin verilməsini təmin edir.

– Həm özləri, həm də pedaqoji kadrlar tərəfindən kurikulumların, yeni pedaqoji texnologiyaların, müasir təlim metodları və strategiyalarının öyrənilməsi və tətbiqi işini təşkil edir, bu istiqamətdə müəllimlərlə seminarlar və treninqlər keçirir.

– Təlim-tərbiyə işlərinin keyfiyyətinin yaxşılaşdırılması, yeni pedaqoji texnologiyaların, müasir təlim metodları və strategiyalarının öyrənilməsi və yaradıcılıqla tətbiqi sahəsində məktəb və metodbirləşmə rəhbərlərinin, müəllimlərin işini istiqamətləndirir, onlara metodik kömək göstərir.

– Müəllimlərlə aparılacaq metodik işlərin məzmununa, forma və üsullarına dair məktəb və metodbirləşmə rəhbərlərini təlimatlandırır.

– Fənlərin tədrisi metodikasının təkmilləşdirilməsi, yeniliklərin və nailiyyətlərin öyrənilməsi və pedaqoji prosesdə tətbiqi sahəsində müəllimlərin fəaliyyətini istiqamətləndirir.

– Müəllimlərin dərslərinin dinlənilməsini və müzakirəsini təşkil edir, onların peşəkarlıq

səviyyəsinin artırılması və inkişafı, ixtisasartırma təhsilinə cəlbi barədə təkliflər hazırlayır.

– Fənlər üzrə proqram materiallarının yerinə yetirilməsi vəziyyətini öyrənir, bu istiqamətdə müəllimlərə və metodbirləşmə rəhbərlərinə metodik köməyi həyata keçirir.

– Yeni proqram, dərslik və dərs vəsaitlərinin müzakirəsini, müəlliflərlə görüşləri təşkil edir, onların tətbiqi üzrə təklif və tövsiyələrin hazırlanmasını təmin edir.

– Təhsil müəssisələrində psixoloji xidmətin təşkili, istedadlı uşaqların aşkar edilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin təşkili sahəsində məktəb rəhbərlərinə və pedaqoji kollektivlərə metodik kömək göstərir.

– Yeni qiymətləndirmə sisteminin tətbiqi ilə əlaqədar məktəb rəhbərləri və müəllimlərlə təlim seminarları keçirir, müntəzəm olaraq müəllimlərə metodik kömək göstərir.

– Pedaqoji kadrları və ictimaiyyəti tədris sahəsindəki ən yeni nailiyyətlər və qabaqcıl pedaqoji təcrübələrlə tanış etmək məqsədilə mühazirələr, qrup və fərdi məsləhətlər, sərgilər, disputlar, seminarlar, «dəyirmi masa»lar təşkil edir.

– Mütəmadi olaraq qabaqcıl pedaqoji təcrübələri öyrənir, ümumiləşdirir və yayılmasını təmin edir.

– Gənc müəllimlərlə iş üzrə xüsusi plan tərtib edir, onların inkişafı və təcrübə mübadiləsi sahəsində müntəzəm iş aparır.

– Təhsil müəssisələrində metodik işin vəziyyətini, şagirdlərin nailiyyətlərinin səviyyəsini, həmçinin tərbiyə işinin təşkili vəziyyətini öyrənir, Metodşurada və RTŞ şurasında müzakirəsini təşkil edir.

– Pedaqoji kadrların ehtiyac və tələbatlarının diaqnostikasını aparır, müvafiq təklif və tövsiyələr hazırlayır.

– Tərbiyə işinin səmərəli təşkilinə metodik kömək göstərir, pedaqoji kollektivlərdə milli-mənəvi dəyərlərin, dövlət rəmzlərinin təbliği işini təşkil edir.

– Təhsil müəssisələri ilə birlikdə müxtəlif bilik yarışları, müsabiqələr, olimpiadalar və digər tədbirləri təşkil edir.

– Tədris metodikasının təkmilləşdirilməsi, innovasiyaların tətbiqi, yeni pedaqoji texnologiyalardan istifadə və digər sahələrdə metodik tövsiyələr və tədris vəsaitləri hazırlayır.

– Təhsil işçilərinin konfranslarının bölmə iclaslarının təşkili, fənlər üzrə metodik tövsiyələrin hazırlanması və hesabatların hazırlanması ilə bağlı tədbirlər həyata keçirir.

– Metodistlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində məqsədyönlü iş aparır, onların vaxtaşırı «öyrədənlərin öyrədəni» təlimlərinə cəlb edilməsi, respublika və beynəlxalq səviyyəli treninqlərdə iştirakının təmin edilməsi, mütəmadi olaraq pedaqoji mətbuatda yazılarla çıxış etməsi istiqamətində tədbirləri həyata keçirir.

Qeyd etmək lazımdır ki, son illərdə ümumi təhsil müəssisələrinə metodik xidmətin təşkili, xüsusilə yeni kurikulumla işləyəcək ibtidai sinif müəllimlərinin treninqlərə cəlb olunması, təlimati seminarların təşkili, dayaq məntəqələrinin işinin istiqamətləndirilməsi, pedaqoji innovasiyalar və onların tətbiqinə dair tövsiyələrin hazırlanması, məktəblərdə monitorinqlərin keçirilməsi, istedadlı şagirdlərin aşkara çıxarılması, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və tətbiqi, yeni dərsliklərin müzakirəsi və s. bu kimi məsələlərlə bağlı bir sıra

rayon və şəhər təhsil şöbələrinin metodiki kabinetləri tərəfindən müəyyən işlər görülmüşdür.

Bununla yanaşı, son illərdə metodik xidmətin lazımi səviyyədə təşkil edilməməsi, Əsasnamə ilə müəyyənləşdirilmiş vəzifələrin yerinə yetirilməməsi barədə müxtəlif məlumatlar alırdım, yerlərdə bilavasitə ümumtəhsil məktəblərində müəllimlərlə ünsiyyətdə olarkən bu sahədə bir sıra problemlərin olduğu barədə mülahizələr də irəli sürülürdü. Məhz bununla əlaqədar Təhsil Nazirliyində mütəxəssislərin iştirakı ilə müşavirə keçirdik və qərara gəldik ki, işçi qrupu yaradaq, ölkədə metodik xidmətin təşkili vəziyyətini öyrənək. Yaradılmış işçi qrupu bütün təhsil şöbələrində metodik xidmətin təşkili sahəsində mövcud vəziyyəti öyrəndi, problemlər aşkar edildi, metodik xidmətin təkmilləşdirilməsi üzrə təkliflər hazırlandı, bu məsələ təhsil tarixində ilk dəfə olaraq Nazirliyin kollegiya iclasında müzakirəyə çıxarıldı.

Bir vacib məsələni də qeyd edim ki, vaxtilə ölkəmizdə metodik xidmətə ümumi rəhbərliyi və bu sahədə aparılan işləri əlaqələndirən Respublika Elmi-metodik Mərkəzi fəaliyyət göstərmişdir. 2000-ci ildə təhsil sisteminin təkmilləşdirilməsi tədbirləri həyata keçirilərkən həmin Mərkəzin və Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Təhsil Problemləri İnstitutu yaradılmışdır. Lakin təəssüf ki, metodik xidmətə ümumi rəhbərlik funksiyası həmin İnstitutun əsas fəaliyyət istiqamətinə çevrilməmişdir. Bu səbəbdən hazırda ölkə səviyyəsində metodik xidmətin təşkili və əlaqələndirilməsi məsələləri lazımi səviyyədə yerinə yetirilmir.

Hazırda respublikanın 73 şəhər və rayonunda təhsil şöbələrinin (idarələrinin) nəzdində metodiki kabinetlər, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində isə metodik mərkəz fəaliyyət göstərir. Bu metodiki kabinet və mərkəzlərdə 870 ştat vahidi vardır ki, onlardan 723-ü metodist, 147-si texniki işçi ştatlarıdır. Metodiki xidmət strukturlarında 723 nəfər metodist çalışır.

Fənlər və sahələr üzrə əhatə baxımından təhlil göstərir ki, metodiki kabinetlərdə Azərbaycan dili və ədəbiyyatı fənni üzrə 90, rus dili və ədəbiyyatı və ingilis dillərinin hər biri üzrə 40, fransız dili üzrə 9, ərəb dili üzrə 1, riyaziyyat üzrə 75, informatika üzrə 39, tarix üzrə 73, coğrafiya üzrə 40, kimya üzrə 36, biologiya üzrə 31, fizika üzrə 40, rəsmxət və əmək hazırlığı üzrə 20, gənclərin çağırışaqədərki hazırlığı üzrə 37, fiziki tərbiyə üzrə 33, musiqi və təsviri incəsənət üzrə 4, ibtidai təhsil üzrə 78, məktəbəqədər tərbiyə üzrə 49, tərbiyə işləri üzrə 7, psixoloji xidmət üzrə 6, kitabxana işi üzrə 15 nəfər metodist fəaliyyət göstərir.

Etiraf etmək lazımdır ki, müəllim kimi fəaliyyət göstərməyən, bilavasitə məktəbdə pedaqoji prosesdə iştirak etməyən, müəllimin hansı qayğılarla yaşadığını və işlədiyini, hansı problemlərlə üzləşdiyini bilməyən metodist uğurlu nəticələr əldə edə bilməz. Belə metodistlər müəllimlərə məsləhət vermək, onları istiqamətləndirmək, innovasiyaların mənimsənilməsində onlara kömək etmək missiyasını da layiqincə yerinə yetirə bilməz, müəllimlərin etibarını qazana bilməzlər. Bu baxımdan monitorinqin nəticələrinə görə pedaqoji proseslə bilavasitə bağlı olmayan metodistlərin müəllim kimi fəaliyyət göstərməsinə şərait yaradılması yerli təhsili idarəetmə orqanlarına tövsiyə edilmişdi.

Aparılmış monitorinqlər onu da göstərdi ki, metodik kabinetlərin fəaliyyətinin planlaşdırılması sahəsində nöqsanlara yol verilir. Bir çox metodiki kabinetlərin fəaliyyət planlarında hələ də yoxlama xarakterli tədbirlər nəzərdə tutulur, gözlənilən nəticələr əvvəlcədən müəyyənləşdirilmir, icra barədə hesabatlar hazırlanıb təqdim edilmir. Metodik xidmətin əsasını təşkil edən pedaqoji kadrların ixtisasının artırılması, dayaq məntəqələrinin fəaliyyətinin təşkili, fənn kurikulumlarının, yeni qiymətləndirmə mexanizminin tətbiqi ilə bağlı məsələlər fəaliyyət planlarında öz əksini tapmır.

Metodik xidmətin səmərəli təşkilinə mane olan amillərdən biri də ümumtəhsil məktəblərində fəaliyyət göstərən fənn metodbirləşmələrinin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil edilməməsi idi. Etiraf etmək lazımdır ki, müəyyən istisnalar olmaqla metodbirləşmələr formal fəaliyyət göstərir, məktəb səviyyəsində müəllimlərin metodik hazırlığının yüksəldilməsi, metodik xidmətin təşkili, dərslərin müşahidəsi və tövsiyələrin verilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilmirdi. Bunun əsas səbəblərindən biri isə metodik kabinetlərin məktəb metodbirləşmələrinin fəaliyyətinə kömək göstərməməsi, metodik tövsiyələr və vəsaitlərin hazırlanmasına diqqət yetirməməsi ilə bağlı idi. Digər səbəb isə metodbirləşmə rəhbərlərinin fəaliyyətinin stimullaşdırılmamasında idi. Metodbirləşmələrin fəaliyyətinin qənaətbəxş olmamasının nəticəsidir ki, məktəb və rayon metodşuraları da formal fəaliyyət göstərir, metodik xidmətin səmərəli təşkili, innovasiyaların tətbiqi ilə bağlı məsələləri müzakirəyə çıxarmırdı.

2000-ci ildə Təhsil Nazirliyinin «Dayaq məntəqələrinin şəbəkəsinin yaradılması barədə» əmrinə uyğun olaraq respublikada ayrı-ayrı ixtisaslar üzrə 3000-ə yaxın «dayaq məntəqəsi» yaradılmış, onların əsas fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, digər reqlamentləşdirici sənədlər hazırlanıb yerli təhsili idarəetmə orqanlarına göndərilmişdi.

Metodik xidmət sahəsində mövcud olan nöqsanların aradan qaldırılması və bu sahədə islahatların aparılması hazırda xüsusi aktuallıq kəsb etmişdir. Hazırda ölkəmizdə ümumi təhsilin məzmunu, şagird nailiyyətlərinin qiymətləndirilməsi, dərslik siyasəti, yeni təlim strategiyalarının tətbiqi sahəsində köklü islahatlar aparılır. Bununla əlaqədar metodik işin məzmunu və formalarının təkmilləşdirilməsi, rayon təhsil şöbəsi metodik kabinetlərinin fəaliyyətinin daha səmərəli təşkili, metodistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və bacarıqlarının artırılması, metodik xidmətin təşkilində müasir metodologiya və mexanizmlərin tətbiq edilməsi sahəsində ciddi tədbirlərin həyata keçirilməsi zəruri əhəmiyyət daşıyır.

Əlbəttə, metodik xidmətin təkmilləşdirilməsi üçün dünya təcrübəsinin öyrənilməsi, bu sahədə dünyada gedən prosesləri, müsbət nailiyyətləri və tendensiyaları öyrənmək vacib idi. Bu məqsədlə ABŞ, Böyük Britaniya, Almaniya, Hollandiya, Türkiyə, Finlandiya, Rumıniya, Rusiya, Litva və başqa ölkələrin metodik xidmətin təşkili sahəsində təcrübəsi öyrənilmişdir. Metodik xidməti sistemli şəkildə həyata keçirmək üçün ABŞ-da, Avstraliyada kurikulum departamentləri, Hollandiyada kurikulum və qiymətləndirmə mərkəzləri, Türkiyədə təlim və tərbiyə qurumları, Litvada təhsilin inkişaf

mərkəzləri, Gürcüstanda resurs mərkəzləri ölkə və yerli səviyyələrdə metodik xidmətin təmin olunmasına yönəldilmişdir. Təcrübə göstərir ki, həmin ölkələrdə metodik xidmətlə məşğul olan qurumlar, eyni zamanda idarəetmə sahəsində digər fəaliyyətlərlə də məşğul olurlar.

Litvada təhsil islahatları aparılarkən əvvəllər mövcud olmuş təhsil şöbələri yanında fəaliyyət göstərən metodkabinetlər yeni yaradılmış təhsil departamentləri ilə birləşdirilmişdir. Gürcüstanda təhsil şöbələri və onun nəzdində olan metodkabinetlərin əvəzinə metodik xidməti də həyata keçirən resurs mərkəzləri yaradılmışdır. Rusiya, Belarus, Ukrayna və Orta Asiya respublikalarında isə təhsil şöbələri yanında metodik mərkəzlər fəaliyyət göstərməkdədir. Bütün hallarda metodik xidmətin tam təmin olunması və təkmilləşdirilməsi zəruri əhəmiyyət daşıyan vacib məsələ kimi diqqət mərkəzindədir.

92.	Daşkəsən şəhər Nəsimi adına 1№-li 640 şagird yerlik orta məktəb
93.	Samux rayonu, Ağasıbəyli kənd 340 şagird yerlik orta məktəb

94.	Tərtər rayonu, Sarov kənd 480 şagird yerlik orta məktəb
95.	Ağcabədi şəhər 1№-li orta məktəb
96.	Şəki şəhər qarışıq tipli 148 şagird yerlik məktəb
97.	S.C.Pişəvəri adına 1200 şagird yerlik humanitar fənlər gimnaziyası
98.	Bakı şəhəri, Nəsimi rayonu 990 şagird yerlik texniki humanitar təmayüllü liseyi
99.	Ağstafa rayonu 224 şagird yerlik texniki humanitar lisey
100.	Quba rayonu 168 şagird yerlik texniki təmayüllü lisey
2009	
Yeni tikilmiş məktəblər	
1.	Astara rayonu, Rinə kəndində 360 şagird yerlik orta məktəb
2.	Oğuz rayonu, Böyük Söyüdlü kəndində 360 şagird yerlik orta məktəb
3.	Masallı rayonu, Banbaşı kəndində 480 şagird yerlik orta məktəb
4.	Qax rayonu, Almalı kəndində 480 şagird yerlik orta məktəb
5.	Ağcabədi rayonu, Avşar kənd 480 şagird yerlik orta məktəb
6.	Astara rayonu, Pəlikəş kəndində 220 şagird yerlik orta məktəb
7.	Şəmkir rayonu, İrmaşlı kənd 1№-li 360 şagird yerlik orta məktəb
8.	Ağdaş rayonu, Yuxarı Ləki kənd məktəbi üçün 360 şagird yerlik orta məktəb
9.	Ağdaş rayonu, Qaradeyin kəndində orta məktəb üçün 360 şagird yerlik orta məktəb
10.	Astara rayonu, Qapıçıməhlə kənd 180 şagird yerlik əsas məktəb
11.	Balakən rayonu, Peçəqar kənd 80 şagird yerlik ibtidai məktəb
12.	Qobustan rayonu, Xilmilli kənd 360 şagird yerlik orta məktəb
13.	Sabirabad rayonu, Bala Həşimxanlı kənd 480 şagird yerlik orta məktəb
14.	Masallı rayonu, Sığdaş kənd 480 şagird yerlik orta məktəb
15.	Lənkəran rayonu, Rvo kənd 360 şagird yerlik orta məktəb
16.	İsmayıllı rayonu, Güdəyli kənd 180 şagird yerlik əsas məktəb

17.	Bərdə rayonu, Qaradırnaq kənd 480 şagird yerlik orta məktəb
18.	Lerik rayonu, Çayrud kənd 220 şagird yerlik orta məktəb
19.	Şəmkir rayonu, Xanalılar kənd 480 şagird yerlik orta məktəb
20.	Zərdab rayonu, Əlicanlı kənd 360 şagird yerlik orta məktəb
21.	Kürdəmir rayonu, Şüşün kənd 220 şagird yerlik orta məktəb
22.	Ağcabədi rayonu, Gələbədin kənd 360 şagird yerlik orta məktəb
23.	Xaçmaz rayonu, Nərəcan kənd 480 şagird yerlik orta məktəb
24.	Zaqatala rayonu, Paşan kənd 220 şagird yerlik orta məktəb
25.	Gəncə şəhər 13№-li 960 şagird yerlik orta məktəb
26.	Saatlı rayonu, Yeni Novruzlu kənd 360 şagird yerlik orta məktəb
27.	Şamaxı şəhər 3№-li 640 şagird yerlik məktəb
28.	Hacıqabul rayonu, Qarasu kənd 640 şagird yerlik məktəb
29.	Xaçmaz şəhər 4№-li 640 şagird yerlik orta məktəb
30.	Astara rayonu, Vavada kənd 80 şagird yerlik ibtidai məktəb
31.	Dəvəçi (Şabran) rayonu, Düzbilici kənd 80 şagird yerlik ibtidai məktəb
Yeni tikilmiş əlavə sinif otaqları	
1.	Şamaxı şəhər 2№-li məktəb üçün 600 şagird yerlik 30 əlavə sinif otağı
2.	Şamaxı şəhərində qəza vəziyyətində olan 1№-li məktəb binasında gücləndirmə, əsaslı təmir işləri və 15 əlavə sinif otağı
3.	Dəvəçi (Şabran) şəhər 4№-li orta məktəb üçün 520 şagird yerlik əlavə sinif otağı
4.	Bakı şəhəri, Yasamal rayonu 167№-li məktəb üçün 440 şagird yerlik 22 əlavə sinif otağı
Əsaslı təmir edilmiş məktəblər	
1.	Dəvəçi (Şabran) rayonu, Gəndob kənd 640 şagird yerlik orta məktəb
2.	Sabirabad şəhər 4№-li 640 şagird yerlik orta məktəb
3.	Astara rayonu, Kijəbə qəsəbə 640 şagird yerlik orta məktəb
4.	Ağstafa şəhər 2№-li 650 şagird yerlik orta məktəb

5.	Ağstafa rayonu, Dağ Kəsəmən kənd 1176 şagird yerlik 1№-li orta məktəb
6.	Saatlı rayonu, Qıraqlı kənd 1176 şagird yerlik orta məktəb
7.	Zaqatala rayonu, Əliabad kənd 1№-li 1176 şagird yerlik orta məktəb
8.	Qusar rayonu, Hil kənd 840 şagird yerlik orta məktəb
9.	Bakı şəhəri, Əzizbəyov rayonu yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün respublika yardımçı internat məktəb
10.	Bakı şəhəri, Nizami rayonu, 145№-li 960 şagird yerlik orta məktəb
11.	Bakı şəhəri, Suraxanı rayonu, 278№-li 960 şagird yerlik orta məktəb
12.	Bakı şəhəri, Nərimanov rayonu, 304№-li 400 şagird yerlik orta məktəb
13.	Mingəçevir şəhər 700 şagird yerlik təbiət-riyaziyyat və humanitar təmayüllü lisey
14.	Bakı şəhəri, Nəsimi rayonu, 42№-li məktəbin əsaslı təmiri, idman və akt zallarının yenidən bərpası
15.	Bakı şəhəri, Səbail rayonu, 41№-li məktəbdə bərpa-gücləndirmə işləri
16.	Bakı şəhəri, Səbail rayonu, 163№-li məktəbdə bərpa-gücləndirmə işləri
17.	Beyləqan rayonu, Birinci Şahsevən kənd 2№-li məktəbdə bərpa-gücləndirmə işləri
2010	
Yeni tikilmiş məktəblər	
1.	Bakı şəhəri, Nərimanov rayonu 1000 şagird yerlik orta məktəb
2.	İsmayıllı şəhərində 480 şagird yerlik peşə məktəbi
3.	Yardımlı rayonu, Arus kəndində 360 şagird yerlik orta məktəb binası
4.	Ağstafa rayonu, Qıraq Kəsəmən kənd 360 şagird yerlik orta məktəb binası
5.	Ağsu rayonu, Kalva kənd 220 şagird yerlik orta məktəb
6.	Ağdaş rayonu, Gürcuva kənd 180 şagird yerlik əsas məktəb binası
7.	Goranboy rayonu, Rus Borisi kənd 180 şagird yerlik əsas məktəb
8.	Şəmkir rayonu, Zəyəm Cırdaxan kənd 1№-li 960 şagird yerlik orta məktəb
9.	Tərtər rayonu, Sarıcalı kənd 1№-li 220 şagird yerlik orta məktəb
10.	İsmayıllı rayonu, Qaraqaya kənd 180 şagird yerlik əsas məktəb

11.	Yevlax rayonu, Cırdaxan kənd 180 şagird yerlik əsas məktəb
12.	Masallı şəhər, Digah qəsəbə 4№-li 640 şagird yerlik orta məktəb
13.	Biləsuvar rayonu, İsmətli kənd 640 şagird yerlik orta məktəb
14.	Saatlı rayonu, Kamallı kənd 180 şagird yerlik əsas məktəb
15.	Balakən rayonu, Acılıqbinə kənd 180 şagird yerlik əsas məktəb
16.	Zərdab rayonu, Şıxbağı kənd 180 şagird yerlik əsas məktəb
17.	Şəki rayonu, Birinci Biləcik kənd 220 şagird yerlik orta məktəb
18.	İmişli rayonu, Nurulu kənd 180 şagird yerlik əsas məktəb
19.	Gədəbəy rayonu, Arıqıran kənd 360 şagird yerlik orta məktəb
20.	Gəncə şəhəri, 38№-li 480 şagird yerlik orta məktəb
21.	Mingəçevir şəhəri, Uçxoz yaşayış sahəsində 5№-li 220 şagird yerlik orta məktəb
22.	Qazax rayonu, I Şıxlı kənd M.Həsənov adına 640 şagird yerlik orta məktəb
23.	Masallı rayonu, Qədirli kənd 480 şagird yerlik orta məktəb
24.	Tovuz rayonu, Yanıxlı kənd A.Hüseynov adına 360 şagird yerlik orta məktəb
25.	Yevlax şəhər 1№-li 480 şagird yerlik məktəb
26.	Tərtər rayonu, Azadqaraqoyunlu kənd 80 şagird yerlik ibtidai məktəb
Yeni tikilmiş əlavə sinif otaqları	
1.	Bakı şəhəri, Binəqədi rayonu Sulutəpə qəsəbəsindəki 217№-li orta məktəb üçün 840 şagird yerlik 42 əlavə sinif otağı
Əsaslı təmir edilmiş məktəblər	
1.	Bakı şəhəri, Səbail rayonu 163№-li məktəbdə bərpa-gücləndirmə
2.	Şabran rayonu, Gəndob kəndi 640 şagird yerlik orta məktəb
3.	Sabirabad şəhər 4№-li 640 şagird yerlik orta məktəb
4.	Astara rayonu, Kijəbə qəsəbə 640 şagird yerlik orta məktəb
5.	Ağstafa şəhər 2№-li 650 şagird yerlik orta məktəb
6.	Ağstafa rayonu, Dağ Kəsəmən kənd 1176 şagird yerlik 1№-li orta məktəb

7.	Saatlı rayonu, Qıraqlı kənd 1176 şagird yerlik orta məktəb
8.	Zaqatala rayonu, Əliabad kənd 1№-li 1176 şagird yerlik orta məktəb
9.	Qusar rayonu, Hil kənd 840 şagird yerlik orta məktəb
10.	Bakı şəhəri, Nizami rayonu 145№-li 960 şagird yerlik orta məktəb
11.	Bakı şəhəri, Suraxanı rayonu 278№-li 1960 şagird yerlik orta məktəb
12.	Bakı şəhəri, Nərimanov rayonu 304№-li 400 şagird yerlik orta məktəb
2011	
Yeni tikilmiş məktəblər	
1.	Ağcabədi rayonu, Mehrablı kənd 220 şagird yerlik orta məktəb
2.	Bərdə rayonu, İkinci Hacıalı kənd 220 şagird yerlik orta məktəb
3.	Bərdə rayonu, Şahvəlilər kənd 2№-li 220 şagird yerlik orta məktəb
4.	Göygöl rayonu, Yeni Qızılca kənd 360 şagird yerlik orta məktəb
5.	Qobustan rayonu, Təklə kənd 220 şagird yerlik əsas məktəb
6.	Qusar rayonu, Böyük Muruq kənd 180 şagird yerlik əsas məktəb
7.	Neftçala rayonu, Astanlı kənd 220 şagird yerlik orta məktəb
8.	Şəki rayonu, Baş Kəldək kənd 180 şagird yerlik əsas məktəb
9.	Şəmkir rayonu, Qapanlı kənd 480 şagird yerlik orta məktəb
10.	Lənkəran rayonu, Osaküçə kənd 220 şagird yerlik orta məktəb
11.	Lerik rayonu, Hamarmeşə kənd 220 şagird yerlik orta məktəb
12.	Masallı rayonu, Yolağac kənd 180 şagird yerlik əsas məktəb
13.	Masallı rayonu, Hüseynhacılı kənd 180 şagird yerlik əsas məktəb
14.	Göyçay rayonu, Şıxbəy kənd 180 şagird yerlik əsas məktəb
15.	Goranboy rayonu, Tatarlı kənd məktəbi üçün 360 şagird yerlik orta məktəb
16.	Oğuz rayonu, Calud kənd 220 şagird yerlik orta məktəb
17.	Cəlilabad rayonu, Gülməmmədli kənd 1№-li 360 şagird yerlik orta məktəb

18.	Zaqatala rayonu, Aşağı Çardaqlar kənd 220 şagird yerlik orta məktəb
19.	Kürdəmir şəhər 3№-li 640 şagird yerlik orta məktəb
20.	Ucar şəhər 4№-li məktəb üçün 360 şagird yerlik orta məktəb
21.	İmişli rayonu, Şahverdili kənd 220 şagird yerlik orta məktəb
22.	Balakən rayonu, Katex kənd 2№-li 220 şagird yerlik orta məktəb
23.	Şabran rayonu, Vələsli kənd 180 şagird yerlik əsas məktəb
24.	Qax rayonu, Qıpçaq kənd 180 şagird yerlik əsas məktəb
25.	Qazax rayonu, Kommuna kənd 180 şagird yerlik əsas məktəb
26.	Tərtər rayonu, Seydimli kənd orta məktəbi üçün 160 şagird yerlik yeni korpus
27.	Lerik rayonu, Veri kənd 180 şagird yerlik əsas məktəb
28.	Lənkəran rayonu, Şovu kənd 220 şagird yerlik orta məktəb
29.	Xaçmaz rayonu, Gödəkli kənd 220 şagird yerlik orta məktəb
30.	Goranboy rayonu, Səmədabad kənd 220 şagird yerlik orta məktəb
31.	İsmayıllı rayonu, Soltankənd kənd 180 şagird yerlik əsas məktəb
32.	Balakən rayonu, Qazbölük kənd 180 şagird yerlik əsas məktəb
33.	Qəbələ rayonu, İmamlı kənd 80 şagird yerlik əsas məktəb
34.	Siyəzən rayonu, Məşrif kənd 180 şagird yerlik əsas məktəb
35.	Abşeron rayonu, Qobustan kənd 180 şagird yerlik əsas məktəb
36.	Göygöl rayonu, Zurnabad kənd 220 şagird yerlik orta məktəb
37.	Ucar şəhəri, 3№-li 220 şagird yerlik orta məktəb
38.	Qobustan rayonu, Cəngi kənd 180 şagird yerlik əsas məktəb
39.	Goranboy rayonu, Şadılı kənd 180 şagird yerlik əsas məktəb
40.	Ağstafa rayonu, Tatlı kənd 220 şagird yerlik orta məktəbi
41.	Astara rayonu, Toradi kənd 180 şagird yerlik əsas məktəb
42.	Quba rayonu, Mirzəqışlaq kənd 180 şagird yerlik əsas məktəb

43.	Tovuz rayonu, İsakənd kənd 180 şagird yerlik əsas məktəb
44.	Salyan rayonu, Düzənlik kənd 180 şagird yerlik əsas məktəb
45.	Samux rayonu, Lüksemburq kənd 180 şagird yerlik əsas məktəb
46.	Bakı şəhər, Xəzər rayonu 16№-li internat məktəbində 10 uşaq üçün qrup evi
47.	Beyləqan şəhər 3№-li 360 şagird yerlik məktəb
Yeni tikilmiş əlavə sinif otaqları	
1.	Lənkəran şəhər 4№-li məktəb lisey üçün 560 şagird yerlik 28 əlavə sinif otağı
Əsaslı təmir edilmiş məktəblər	
1.	Bakı şəhəri T.İsmayılov adına 6№-li məktəb-lisey
2.	Ağcabədi rayonu, Avşar kənd orta məktəbində bərpa-gücləndirmə
3.	Bakı şəhəri, Qaradağ rayonu 195№-li orta məktəbdə bərpa-gücləndirmə
4.	Gəncə şəhəri, 45№-li orta məktəbdə bərpa-gücləndirmə
5.	Şabran rayonu, Aygünlü kənd orta məktəbində bərpa-gücləndirmə
6.	Bakı şəhəri, Xəzər rayonu 183№-li orta məktəb
7.	Ağsu şəhəri 3№-li orta məktəb
8.	Sumqayıt şəhəri 22№-li orta məktəb
9.	Daşkəsən rayonu, Yuxarı Daşkəsən qəsəbə orta məktəbi
10.	Biləsuvar rayonu, Əliabad kənd orta məktəbi
11.	Zaqatala rayonu, Muxax kənd 1№-li orta məktəb
12.	Göyçay şəhəri, 3№-li orta məktəb
13.	Ağdaş rayonu, Aşağı Nemətabad kənd əsas məktəbi

Azərbaycan Respublikası Prezidentinin 04.05.2011-ci il tarixli Sərəncamı ilə «2011–2013-cü illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Bu Proqrama uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 avqust 2011-ci il tarixli 241s №-li Sərəncamına əsasən respublikanın şəhər və rayonlarında 85 yeni məktəb binasının tikintisi, 3 məktəb üçün əlavə korpusların inşası və 14 məktəbdə bərpa-gücləndirmə işlərinin aparılması nəzərdə tutulmuşdur. Nazirlər Kabinetinin sərəncamında göstərildi ki, obyektlərdə tikinti, bərpa-gücləndirmə və əsaslı təmir işlərinə təxirəsalınmadan başlanılmasının və ilin sonunadək nəzərdə tutulmuş proqramın icrasının təmin edilməsinin vacibliyini nəzərə alaraq, müstəsna hal kimi, bu sərəncamın əlavəsində göstərilən obyektlər üzrə layihə və tikinti işlərinin sifarişçi təşkilatlar tərəfindən müvafiq sahədə təcrübəsi olan podratçı təşkilatlarla danışıqlar əsasında seçilən təşkilatlarla birbaşa müqavilələrlə yerinə yetirilməsinə icazə verilsin.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 12 avqust tarixli 241s №-li
Sərəncamına əlavə

2011-ci ildə respublikanın şəhər və rayonlarında tikinti, bərpa-gücləndirmə və əsaslı təmir işləri aparılan məktəblərin siyahısı

Rayonların (şəhərlərin) adı		Ayrılan vəsaitin məbləği (min manat)	İstifadəyə verilən güc
1		2	3
Gəncə Şəhər İcra Hakimiyyəti			
1.	30№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	1100	–
2.	43№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	527	–
3.	32№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri və əlavə tədris korpusunun tikintisi	530	–
Lənkəran Şəhər İcra Hakimiyyəti			
1.	Hirkan qəsəbə 489 şagird yerlik tam orta məktəbinin tikintisi	400	–
2.	Xarxatan kənd tam orta məktəbinin tikintisi	400	–
Mingəçevir Şəhər İcra Hakimiyyəti			
1.	6№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	810	–
2.	11№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	400	–
Şəki Şəhər İcra Hakimiyyəti			
1.	Çələbixan qəsəbə 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
2.	Aşağı Layski kənd tam orta məktəbinin tikintisi	300	–
Şirvan Şəhər İcra Hakimiyyəti			
1.	Şirvan şəhər 12№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	980	–
Yevlax Şəhər İcra Hakimiyyəti			
1.	Salamabad kənd tam orta məktəbinin tikintisi	500	–
Ağdaş Rayon İcra Hakimiyyəti			
1.	Qəribli kənd 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
2.	Şordəhnə kənd tam orta məktəbinin tikintisi	500	–
3.	Ovçulu kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
Ağcabədi Rayon İcra Hakimiyyəti			
1.	Qaraxanlı kənd 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
2.	Şərəfxanlı kənd tam orta məktəbinin tikintisi	400	–
3.	Aran kənd Muğanlı ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik

1		2	3
Ağsu Rayon İcra Hakimiyyəti			
1.	Nəmirli kənd 80 şagird yerlik ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Astara Rayon İcra Hakimiyyəti			
1.	Rüdəkənar kənd 180 şagird yerlik ümumi orta məktəbinin tikintisi	961	180 şagird yerlik
2.	Suparibağ kənd tam orta məktəbinin tikintisi	500	–
Balakən Rayon İcra Hakimiyyəti			
1.	Katex kənd 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
2.	Qullar kənd 3№-li ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Beyləqan Rayon İcra Hakimiyyəti			
1.	Əmirzeyidli kənd 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
Biləsuvar Rayon İcra Hakimiyyəti			
1.	Zəhmətabad kənd tam orta məktəbinin idman zalında bərpa-gücləndirmə işləri	150	–
Cəlilabad Rayon İcra Hakimiyyəti			
1.	Şəhər 6№-li ümumi orta məktəbinin tikintisi	500	–
2.	Sabirabad kənd 1№-li tam orta məktəbinin tikintisi	500	–
Daşkəsən Rayon İcra Hakimiyyəti			
1.	Bayan kənd 80 şagird yerlik ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
2.	Daşkəsən qəsəbə tam orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Şabran Rayon İcra Hakimiyyəti			
1.	Çuxurazəmi kənd 80 şagird yerlik ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Füzuli Rayon İcra Hakimiyyəti			
1.	Gecəgözlü kənd 80 şagird yerlik tam orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Gədəbəy Rayon İcra Hakimiyyəti			
1.	Qoşabulaq kənd 1№-li 180 şagird yerlik tam orta məktəbinin tikintisi	961	180 şagird yerlik
Goranboy Rayon İcra Hakimiyyəti			
1.	Qızılhacılı qəsəbə 2№-li 360 şagird yerlik tam orta məktəbinin tikintisi	300	–
2.	Nərimanlı kənd tam orta məktəbinin tikintisi	500	–
Göyçay Rayon İcra Hakimiyyəti			
1.	Çərəkə kənd 2№-li 360 şagird yerlik tam orta məktəbinin tikintisi	300	–
Göygöl Rayon İcra Hakimiyyəti			
1.	Quşqara kənd tam orta məktəbinin tikintisi	300	–

1		2	3
Hacıqabul Rayon İcra Hakimiyyəti			
1.	Kolanı kənd tam orta məktəbində bərpa-gücləndirmə işləri və əlavə tədris korpusunun tikintisi	720	60 şagird yerlik
2.	Tağılı kənd tam orta məktəbinin tikintisi	298	80 şagird yerlik
3.	Rəncbər kənd tam orta məktəbində bərpa-gücləndirmə işləri və əlavə tədris korpusunun tikintisi	500	–
Xaçmaz Rayon İcra Hakimiyyəti			
1.	Uzunoba kənd tam orta məktəbinin tikintisi	500	–
Xızı Rayon İcra Hakimiyyəti			
1.	Fındığan kənd orta məktəbində bərpa-gücləndirmə işləri	540	–
İmişli Rayon İcra Hakimiyyəti			
1.	Ağaməmmədli kənd 180 şagird yerlik tam orta məktəbinin tikintisi	500	–
2.	Bəcirəvan kənd tam orta məktəbinin tikintisi	300	–
İsmayıllı Rayon İcra Hakimiyyəti			
1.	Talış kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
2.	Çəndahar kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Kürdəmir Rayon İcra Hakimiyyəti			
1.	Qarasaqqal kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Xırdapay kənd tam orta məktəbinin tikintisi	500	–
Qazax Rayon İcra Hakimiyyəti			
1.	Qazax şəhər 4№-li tam orta məktəbinin tikintisi	300	–
2.	Qazax şəhər ümumi orta məktəbində bərpa-gücləndirmə işləri və əlavə 80 şagird yerlik tədris korpusunun tikintisi	450	80 şagird yerlik
3.	Aslanbəyli kənd tam orta məktəbinin tikintisi	500	–
4.	Canalı kənd tam orta məktəbinin tikintisi	500	–
5.	Qazaxbəyli kənd tam orta məktəbinin tikintisi	500	–
Qəbələ Rayon İcra Hakimiyyəti			
1.	Topbağ kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Qobustan Rayon İcra Hakimiyyəti			
1.	Cəm-cəmli kənd tam orta məktəbinin tikintisi	500	–

1		2	3
Quba Rayon İcra Hakimiyyəti			
1.	Möhüc kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Talabı kənd ibtidai məktəbinin tikintisi	310	80 şagird yerlik
3.	İkinci Nügədi kənd 3№-li tam orta məktəbinin tikintisi	400	–
4.	İspik kənd tam orta məktəbinin tikintisi	500	–
Qusar Rayon İcra Hakimiyyəti			
1.	Əniq kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Urvaoba kənd tam orta məktəbinin tikintisi	500	–
3.	Cağarqışlaq kənd tam orta məktəbinin tikintisi	500	–
4.	Ləvərqışlaq kənd ümumi orta məktəbinin tikintisi	500	–
5.	Əcəxur kənd tam orta məktəbinin tikintisi	310	80 şagird yerlik
6.	Yuxarı Qələnxur kənd tam orta məktəbinin tikintisi	500	–
Lerik Rayon İcra Hakimiyyəti			
1.	Dəstər kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
2.	Davaradibi kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
3.	Barzavu kənd ümumi orta məktəbinin tikintisi	500	–
4.	Aran kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
5.	Züvüc kənd tam orta məktəbinin tikintisi	500	–
6.	Ləkər kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
Masallı Rayon İcra Hakimiyyəti			
1.	Köcəkli kənd tam orta məktəbinin tikintisi	300	–
2.	Ərəb kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
3.	Dəmirçi kənd ümumi orta məktəbinin tikintisi	500	–
Oğuz Rayon İcra Hakimiyyəti			
1.	Filfilli kənd tam orta məktəbinin tikintisi	500	–
Saatlı Rayon İcra Hakimiyyəti			
1.	Sarıcalar kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
2.	Şəhər 2№-li ümumi orta məktəbinin tikintisi	500	–
3.	Mircəlal kənd tam orta məktəbində bərpa-gücləndirmə işləri	500	–
Sabirabad Rayon İcra Hakimiyyəti			
1.	Şəhər 5№-li tam orta məktəbində bərpa-gücləndirmə işləri	500	–

1		2	3
Salyan Rayon İcra Hakimiyyəti			
1.	Yolüstü kənd tam orta məktəbinin tikintisi	300	–
Samux Rayon İcra Hakimiyyəti			
1.	Poylu kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Salahlı kənd tam orta məktəbinin tikintisi	500	–
Siyəzən Rayon İcra Hakimiyyəti			
1.	Gilgilçay qəsəbə tam orta məktəbinin tikintisi	500	–
Şamaxı Rayon İcra Hakimiyyəti			
1.	Qonaqkənd kənd tam orta məktəbinin tikintisi	298	80 şagird yerlik
2.	Həmyəli kənd tam orta məktəbinin tikintisi	500	
Şəmkir Rayon İcra Hakimiyyəti			
1.	Şeidlər kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Düyərli kənd 2№-li tam orta məktəbinin bərpa-gücləndirmə işləri və qəzalı korpusların sökülərək, yerində yeni tədris korpusunun tikintisi	500	–
Tərtər Rayon İcra Hakimiyyəti			
1.	Kəngərli kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Balakəngərli kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Tovuz Rayon İcra Hakimiyyəti			
1.	N.Tusi adına şəhər tam orta məktəbinin tikintisi	500	–
2.	Aşağı Öysüzlü kənd tam orta məktəbinin tikintisi	300	–
3.	Qazqulu kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
4.	Məşədivəllər kənd tam orta məktəbinin tikintisi	500	–
Ucar Rayon İcra Hakimiyyəti			
1.	Ucar şəhər 5№-li tam orta məktəbinin tikintisi	500	–
Yardımlı Rayon İcra Hakimiyyəti			
1.	Ostair kənd tam orta məktəbinin tikintisi	500	–
2.	Alçabulaq kənd tam orta məktəbinin tikintisi	500	–
3.	Şəfəqli kənd tam orta məktəbinin tikintisi	500	–
4.	Güğavar kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
5.	Gendərə kənd ümumi orta məktəbinin tikintisi	310	80 şagird yerlik
Zaqatala Rayon İcra Hakimiyyəti			
1.	Muxax kənd 3№-li ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik
Zərdab Rayon İcra Hakimiyyəti			
1.	Lələağacı kənd ümumi orta məktəbinin tikintisi	298	80 şagird yerlik

2.20. Ümumtəhsil məktəblərinin avadanlıqlarla təchizatı

Müstəqillik illərində ümumi təhsil sistemində ən ciddi problemlərdən biri də mövcud ümumtəhsil məktəblərinin avadanlıqlarla təchizatı ilə bağlı idi. 2005-ci ilə qədər məktəblərin avadanlıqlarla təchizatı da yerli büdcə vəsaiti hesabına həyata keçirilirdi. Aparılmış monitorinqlər və nəticələrin təhlili bu sahədə də vəziyyətin qənaətbəxş olmadığını göstərirdi.

Təhsil Nazirliyinin müvafiq qurumları tərəfindən aparılan təhlillər göstərdi ki, avadanlıq baxımından respublikanın ümumtəhsil məktəblərində şagird masası, sinif lövhəsi, müəllim masası və stuluna daha çox ehtiyac yaranmışdır. Həmin avadanlıqlarla təchizat yerli təhsil şöbələri tərəfindən həyata keçirilirdi. Adı çəkilən avadanlıqlar standartlara uyğun olmadığından tez sıradan çıxır və təhsilin keyfiyyətinə mənfi təsir göstərirdi. Yaxşı xatırlayıram, bu problemlə bağlı çox ciddi araşdırmalar apardıq, Bakıdakı türk liseylərinin avadanlıqları ilə tanış olduq. Hətta Baş nazir Artur Rasi-zadə də bu məsələnin həllinə maraq göstərirdi. Nəticədə, uzun sürən mübahisələrdən sonra bu avadanlıqların standartları müəyyənləşdirildi, ölkə məktəblərinin həmin avadanlıqlara ehtiyacı öyrənildi, Təhsil Nazirliyi tərəfindən «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqla təmin olunmasına dair İnkişaf Proqramı (2005–2009-cu illər)» hazırlandı və Nazirlər Kabinetinin qərarı ilə təsdiq olundu. Proqramın reallaşdırılmasına 2005-ci ildən başlandı. İlk dəfə olaraq mərkəzləşdirilmiş vəsait hesabına Təhsil Nazirliyi tərəfindən ümumtəhsil məktəblərinə yüksək keyfiyyətli avadanlıqlar – şagird masası, yazı lövhəsi, müəllim masası və müəllim stulu verilməyə başlandı. Yeni tikilən və əsaslı təmir edilən məktəblərdən əlavə, Proqrama əsasən 826 məktəb müasir avadanlıqlarla təchiz edildi.

2005–2011-ci illərdə ümumtəhsil məktəblərinin avadanlıqlarla təminatı barədə məlumat


Avadanlığın adı	İllər üzrə verilən avadanlığın sayı							Cəmi
	2005	2006	2007	2008	2009	2010	2011	
Şagird masası	17500	56599	65000	68157	27414	27414	12957	**275041**
Yazı lövhəsi	1500	4880	5000	6520	2315	2315	1080	**23610**
Müəllim masası	1700	6104	7000	8180	4313	4313	2095	**33705**
Müəllim stulu	2600	7594	8000	11377	7662	7662	3750	**48645**


Təhlil göstərirdi ki, 5 illik Proqramın başa çatmasına baxmayaraq, məktəblərin avadanlıqlarla təminatı sahəsində işlərin davam etdirilməsi zəruridir. Bu istiqamətdə 2010–2015-ci illəri əhatə edən yeni proqramın hazırlanması və həyata keçirilməsi barədə qərar qəbul edildi. Eyni zamanda aşkar olundu ki, respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 40,4%-də fizika kabineti, 55,4%-də kimya kabineti, 55,9%-də biologiya kabineti yoxdur. Məktəblərin maddi-tədris bazasının bütövlükdə müasir tələblər səviyyəsinə çatdırılması məqsədilə onların təlim keyfiyyətinə əhəmiyyətli













Ümumtəhsil məktəblərinə verilmiş avadanlıqlar

dərəcədə təsir göstərən tədris laboratoriyaları ilə təmin olunması üçün müvafiq dövlət proqramının qəbul edilməsi zərurəti nəzərə alınaraq, 2009-cu ildə Azərbaycanda müstəqillik illərində ilk dəfə olaraq 119 məktəb müasir kimya və 119 məktəb fizika laboratoriyaları ilə təmin edildi. Bu istiqamətdə müvafiq Proqram hazırlandı. Proqram çərçivəsində 2010-cu ildə 115 məktəb kimya, 114 məktəb fizika, 2011-ci ildə 150 məktəb kimya, 149 məktəb fizika laboratoriyaları ilə təmin edildi.

Ümumtəhsil məktəblərinin istiliklə təminatı sahəsində mövcud olan problemlərin aradan qaldırılması ilə əlaqədar 2007-ci ildən etibarən Təhsil Nazirliyi tərəfindən proqram həyata keçirilməyə başlanmışdı. İlk növbədə Bakı şəhərinin bütün məktəblərində istilik sisteminin vəziyyəti araşdırılmış, hər bir məktəbdə problem və onun aradan qaldırılması üçün görüləcək tədbirlər, tələb olunan maliyyə vəsaiti əhatə olunmaqla proqram hazırlanmışdı. Eyni zamanda bu məsələ Bakı şəhərinin bütün məktəb rəhbərlərinin iştirakı ilə Nazirliyin Kollegiya iclasında geniş müzakirə olunmuşdu.

Təhsil Nazirliyi və Azəristiliktəchizat Açıq Tipli Səhmdar Cəmiyyətinin birgə proqramlarına əsasən 2007–2009-cu illərdə ölkə üzrə istilik sistemi bərpa edilmiş məktəblərin sayı 700-ə çatmışdı. 2007-ci ildə 250, 2008-ci ildə 350, 2009-cu ildə isə 100 məktəbin istilik sistemi əsaslı təmir olunmuşdu. Bu illər ərzində Bakı şəhərinin 301 ümumtəhsil məktəbinin istilik sistemi əsaslı təmir və bərpa olunmuşdu ki, bu da paytaxtda məktəblərin qızdırılması sahəsində problemlərin tam həlli demək idi.

2.21. Məktəb şəbəkəsinin rasionallaşdırılması

Bütün bu illər ərzində məktəb şəbəkəsinin rasionallaşdırılması da diqqət mərkəzində olan məsələlərdən idi. Qeyd edilməlidir ki, Təhsil Sektorunun İnkişafı Layihəsi (2003–2008-ci illər) çərçivəsində məktəb şəbəkəsinin rasionallaşdırılmasına 2005-ci ildən 3 pilot rayonunda başlanmışdı. Bununla əlaqədar beynəlxalq məsləhətçi şirkətinin və milli məsləhətçilərin dəstəyi ilə hər bir pilot rayonu üçün rasionallaşdırma planı hazırlanmış və təsdiq olunmuşdu. Rasionallaşdırma planları həmin rayonlarda aparılmış təhlillərə, monitorinq və qiymətləndirmələrə əsaslanaraq kiçik və səmərəsiz məktəblərin bağlanmasını, bağlanacaq məktəblərin şagirdlərinin digər böyük məktəblərə avtobuslarla daşınmasını, təmirə ehtiyacı olan məktəblərin təmirini, bir sıra kadr resurslarının ixtisarı nəticəsində müəllim-şagird nisbətinin yüksəldilməsini və nəticədə məktəb şəbəkəsinin səmərələşdirilməsini əhatə edirdi. Lakin qeyd olunan bu planlar bir sıra obyektiv səbəblərə görə tam şəkildə deyil, məhdud şəkildə həyata keçirildi. Bunun əsas səbəblərindən biri bağlanacaq kiçik məktəblərin şagirdlərinin digər böyük məktəblərə daşınması üçün nəqliyyat vasitələrinin (avtobusların) alınmasının qeyri-mümkünlüyü, yol infrastrukturunun əlverişli olmaması ilə bağlı idi. Bununla yanaşı, 3 pilot rayonunda rasionallaşdırma planlarına əsasən aşağıdakı tədbirlər həyata keçirildi:

- məktəblərdə əlavə paralel siniflərin açılmasına dair sinifdə şagirdlərin sayının minimum həddi müəyyən edildi;

– pensiya yaşına çatmış müəllimlərin fəaliyyəti öyrənildi və vəzifə funksiyalarını yerinə yetirə bilməyən müəllimlərin pensiyaya göndərilməsi məsələləri həll edildi;
– məktəblərdə fəaliyyət göstərən orta təhsilli müəllimlər işdən azad edildi;
– iş stajı az olan qeyri-pedaqoji təhsilli müəllimlərin tədricən müvafiq yenidənhazırlanma kurslarına yönəldilməsi (treninqlərin keçirilməsi) məsələləri həll edildi;
– məktəblərdə müəllimlərin, xüsusilə ibtidai sinif müəllimlərinin sayının dərs yükünə (siniflərin sayına) müvafiq qaydada tənzimlənməsi sahəsində tədbirlər görüldü;
– məktəblərə zərurət olmadan yeni müəllimlərin işə qəbulu dayandırıldı;
– müəllimlərin minimum dərs yükünün 12 saat (1 stavka) müəyyənləşdirilməsi məsələsi həll edildi.

Qeyd olunan tədbirlər nəticəsində pilot rayonların ümumtəhsil məktəblərində müəllim-şagird nisbəti ümumilikdə 12-yə çatdırıldı. Bundan əlavə, rasionallaşdırma planlarına əsasən 3 rayon üzrə seçilmiş 41 məktəb əsaslı təmir olundu, müvafiq mebel və İKT avadanlıqları ilə təchiz edildi. Lakin təhlillər göstərirdi ki, nəinki pilot rayonlarında, ümumilikdə ölkə ərazisində məktəb şəbəkəsinin rasionallaşdırılmasına ciddi ehtiyac vardır.

2010/11-ci tədris ilində Azərbaycanda 4522 dövlət ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Onlardan 365-i ibtidai (I–IV siniflər), 869-u ümumi orta (I–IX siniflər), 3288-i tam orta (I–XI siniflər) məktəb idi. Təhsil Nazirliyi tərəfindən aparılmış təhlillər göstərirdi ki, 1336 (29,5%) məktəbdə şagirdlərin sayı 100 nəfərdən aşağıdır. 316 ibtidai məktəbdə şagirdlərin sayı 30-dək, 37 məktəbdə 50-dək, 12 məktəbdə isə 100-dəkdir. 96 ümumi orta məktəbdə şagirdlərin sayı 30-dək, 172 məktəbdə 50-dək, 299 məktəbdə 100-dür. Eyni zamanda 20 tam orta məktəbdə şagirdlərin sayı 30-dək, 84 məktəbdə 50-dək, 325 məktəbdə 100-dəkdir. Aşağıdakı cədvəldə şagird kontingenti az olan məktəblər haqqında məlumat verilmişdir.

Şagirdlərinin sayı 30 nəfərdən 100 nəfərədək olan ümumtəhsil məktəbləri (2010-cu ilin məlumatı)

Şagirdlərin sayı	İbtidai	Ümumi orta	Tam orta	Cəmi
30 nəfərədək	316	96	20	**432**
50 nəfərədək	37	172	84	**293**
100 nəfərədək	12	299	325	**636**
Cəmi:	**365**	**567**	**429**	**1361**

Bölgələr üzrə problemi araşdırarkən məlum oldu ki, Laçın rayonunda 103, Kəlbəcər rayonunda 81, Ağdam və Lerik rayonlarında 70, Quba rayonunda 68, Xaçmaz rayonunda 52, Cəlilabad, İsmayıllı, Ağsu, Qusar rayonlarında 41–45, Daşkəsən, Şamaxı, Yardımlı, Gədəbəy, Füzuli rayonlarında 31–38, Goranboy, Qax, Şəki, Şabran, Tovuz, Göygöl, Neftçala rayonlarında 20–29 belə məktəb mövcuddur ki, onlarda şagirdlərin sayı kifayət qədər deyildir. Ölkə üzrə 77 ibtidai məktəbdə şagirdlərin

sayı 10 nəfərdən aşağıdır, 21 məktəbdə isə hətta 5-dən azdır. Təhlil göstərirdi ki, 18 ümumi orta məktəbin şagirdlərinin sayı 20 nəfərdən, onlardan 7-də isə təhsilalanların sayı 10 nəfərdən azdır. Eyni zamanda 9 tam orta məktəbdə şagirdlərin sayı 30 nəfərdən aşağıdır. Hətta onların içərisində 19–25 nəfər şagirdi olan məktəblər də mövcuddur. 84 tam orta məktəbdə isə şagirdlərin sayı 50 nəfərədəkdir.

Aparılan təhlillər bununla bağlı olan daha bir problemi aşkara çıxardı. Məlum oldu ki, şəhərlər və məcburi köçkün rayonları istisna olmaqla, ölkənin 222 yaşayış məntəqəsində iki və daha çox məktəb fəaliyyət göstərir. Bir sıra yaşayış məntəqələrində buna ehtiyac olsa da, bəzi kəndlərdə müxtəlif vaxtlarda ehtiyac olmadan sayca ikinci, üçüncü, dördüncü məktəblər yaradılmışdı və bu məktəblər azsaylı şagird kontingenti ilə fəaliyyət göstərirdi.

Azsaylı şagird kontingenti olan məktəblərin ən böyük problemi pedaqoji kadr təminatı ilə bağlı idi. Belə məktəblərdə sinif komplektləri və bununla əlaqədar dərs saatları xeyli az olduğundan onları ixtisaslı müəllimlərlə təmin etmək qeyri-mümkün idi və əksər hallarda ayrı-ayrı fənlər qeyri-ixtisaslı müəllimlər tərəfindən tədris edilirdi. Bu səbəbdən də həmin məktəblərdə keyfiyyəti təmin etmək həllolunmaz bir problemə çevrilmişdi.

Hələ sovet dövründən yaranmış bu problemin aradan qaldırılması məqsədilə həm bir sıra postsovet ölkələrində, həm də inkişaf etmiş ölkələrdə bu sahədə təcrübə öyrənildi.

Mövcud problemlərin həlli məqsədilə Təhsil Nazirliyi tərəfindən beynəlxalq təcrübə əsasında pilot olaraq Ucar rayonu üçün rasionallaşdırma planı hazırlandı və 2010/11-ci tədris ilindən həyata keçirilməsi qərara alındı. Rasionallaşdırma planı həmin rayonda aparılmış təhlillərə, monitorinq və qiymətləndirmələrə əsaslanaraq 4 ümumi orta məktəbin bağlanmasını, bağlanacaq məktəblərin şagirdlərinin digər böyük məktəblərə daşınmasını, bir sıra kadr resurslarının ixtisarı nəticəsində müəllim-şagird nisbətinin yüksəldilməsini və nəticədə məktəb şəbəkəsinin səmərələşdirilməsini əhatə etmişdi. Bununla əlaqədar Maliyyə və Iqtisadi Inkişaf nazirlikləri ilə məsləhətləşmələr aparıldı, ölkə səviyyəsində məktəb şəbəkəsinin rasionallaşdırılması üzrə Dövlət Proqramının hazırlanması qərara alındı.

Müstəqillik illərində ümumi təhsilin inkişafı sahəsində son dərəcə əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Ümumi təhsilin məzmunu tam yeniləşdirilmiş, istifadə edilən bütün dərsliklər milli-mənəvi dəyərlər əsasında yenidən hazırlanmış, şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində tamamilə yeni konsepsiya tətbiq edilmiş, müəllim hazırlığı, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, ümumi təhsil müəssisələrinin kadr təminatı, İKT-nin ümumi təhsil sistemində tətbiqi sahəsində əsaslı islahatlar həyata keçirilmişdir. Məhz müstəqillik illərində Azərbaycanda ümumi təhsilin müasir modeli qurulmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin 20 ili ərzində ölkənin dinamik sosial-iqtisadi inkişafı, dünya birliyinə uğurlu inteqrasiyası bütün sahələrdə, o cümlədən təhsil sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunması, yeni prioritetlərin müəyyənləşdirilməsi zərurətini yaratdı. Ölkəmizdə informasiya cəmiyyətinin qurulması və biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını nəzərə

alaraq Azərbaycan Respublikası Prezidentinin «2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın hazırlanması haqqında» 11 iyul 2011-ci il tarixli Sərəncamına əsasən Milli Strategiya sənədi hazırlandı.

Milli Strategiya layihəsində ümumi təhsilin inkişafında əhəmiyyətli islahatlara xidmət edəcək bəzi vacib məqamlar öz əksini tapdı:

1. Onillik icbari ümumi orta təhsil və ikiillik tam orta təhsil modelinə keçidi təmin etməklə onikiillik ümumi təhsil sisteminin yaradılması. Tam orta təhsil səviyyəsində təhsilin profillər üzrə qurulması.
2. Təhsil müəssisələrinin (proqramlarının) akkreditasiyası üzrə müstəqil sistemin yaradılması.
3. Təhsil müəssisələrinə idarəetmə, akademik, maliyyə və təşkilati muxtariyyətin verilməsi.
4. Qabaqcıl beynəlxalq təcrübə əsasında ümumi təhsil üzrə pedaqoji və idarəetmə heyətinin müstəqil sertifikatlaşdırma (lisenziyalaşdırma) sisteminin yaradılması.
5. Müəllim hazırlığı sistemində İnternatura modelinin tətbiq edilməsi.
6. Ümumi təhsil müəssisələrinin şəbəkəsinin rasionallaşdırılması.
7. Təhsilə adekvat maliyyə resurslarının cəlb edilməsi, nəticəyönümlü büdcə planlaşdırılması və maliyyələşdirmə mexanizmlərinin yaradılması.
8. Kompetensiya və nəticə əsaslı, diferensiallaşdırılmış əmək haqqı sisteminin yaradılması.

2.22. Uşaq evləri və internat məktəblər

Uşaq evləri, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəblərin tarixi çox qədimdir. İlk uşaq qayğı müəssisəsi e.ə. III əsrdə Konstantinopol şəhərində yaradılmışdır. Orta əsrlərdə İtaliyada katolik kilsəsi, atılmış uşaqlar üçün xüsusi evlər ayırmış və bu təcrübə sonradan bütün Avropaya yayılmışdır.[1]

Azərbaycanda uşaqlar üçün ilk belə qayğı mərkəzi XX əsrin əvvəllərində Birinci Dünya müharibəsində valideynlərini itirmiş uşaqların qayğısına qalmaq üçün Azərbaycan neft milyonçuları tərəfindən yaradılmışdır. Azərbaycanda kütləvi qayğı göstərən mərkəzlərin böyük hissəsi İkinci Dünya müharibəsi ilə əlaqədar olaraq yaranmışdır. İkinci Dünya müharibəsindən sonra keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycanda sağlamlıq imkanları məhdud, əlil, valideyn himayəsindən məhrum olmuş və sosial cəhətdən müdafiəyə ehtiyacı olan ailələrin uşaqları üçün dövlətin qayğı sistemi yaradılmış və inkişaf etdirilmişdir. Bu sistem bütövlükdə dövlətin nəzarətində olmuş və yalnız dövlət büdcəsindən ayrılan vəsait hesabına maliyyələşdirilmişdir.

Sovet hakimiyyətinin süqutundan sonra Azərbaycanda mövcud olan 63 dövlət uşaq müəssisəsində 20 mindən artıq uşaq yaşayır, təlim və tərbiyə alırdı. Digər keçmiş sovet respublikaları ilə müqayisədə bu, o qədər də böyük rəqəm deyildi. Amma müstəqilliyin ilk

[1] Kareter R. Ailə Məsələləri: Mərkəzi və Şərqi Avropa və Keçmiş Sovet İttifaqı İnstitusional Uşaq Qayğı Sisteminin Araşdırılması. London Every Child. (2005)

illərində Ermənistanın Azərbaycana təcavüzü nəticəsində xeyli uşaq valideynlərindən birini, yaxud hər ikisini itirdi, qaçqın və məcburi köçkün ailələri maddi məhrumiyyətlərlə üzləşdi. Çoxuşaqlı ailələrin vəziyyəti yoxsulluq həddinə çatdı. Bu da dövlət uşaq müəssisələrində uşaqların sayının artmasına səbəb oldu. Ölkədə yaranmış vəziyyətlə bağlı aztəminatlı ailələrin uşaqlarının sosial xidmətlərdən istifadə imkanları azaldı. Bu sahədə vəziyyətin yaxşılaşdırılması üçün dövlət və beynəlxalq təşkilatlar tərəfindən bir çox tədbirlər görüldü.

90-cı illərin sonundan başlayaraq UNICEF və digər beynəlxalq təşkilatlar tərəfindən dövlət uşaq müəssisələrinin və orada təlim-tərbiyə alan uşaqların vəziyyəti araşdırılmağa başlandı, uşaq evləri və internat məktəblər haqqında məlumatlar toplandı və bu məlumatların təhlili əsasında «Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» adlı 5 illik proqram hazırlandı. Proqram çərçivəsində görülən tədbirlər nəticəsində bu tip müəssisələrin bir çoxu yenidən quruldu, əsaslı təmir edildi, yeni inventar və avadanlıqlarla təchiz olundu. Bu tip müəssisələrdə ailə ocağından məhrum olmuş uşaqlar üçün ev şəraitinə maksimum yaxın olan mühit yaradıldı.

SSRİ dövlətindən miras qalmış uşaq evləri ilə yanaşı, Bakının Suraxanı rayonunda, Gəncə şəhərində uşaq evləri, Quba rayonunda isə valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəb təşkil edildi. Hazırda həmin kateqoriyadan olan uşaqlar üçün Təhsil Nazirliyi sistemində 6 uşaq evi, 3 internat məktəb, həmçinin Səhiyyə Nazirliyinin tabeliyində 1 uşaq evi fəaliyyət göstərir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı müəssisələrin keçmiş sovet dövründən miras qalmış adları məni daim narahat edən problemlərdən biri idi. Belə təhsil müəssisələrinə valideynini itirmiş və valideyn himayəsindən məhrum, əqli cəhətdən qüsurlu, nitqi qüsurlu, beyin iflici və poliomielit keçirmiş, vərəmin ilkin və sönmüş formasında olan, kar, zəifeşidən və sonradan karlaşmış, kor uşaqlar üçün təhsil müəssisəsi kimi insanda mənfi emosiyalar yaradan adlar verilmişdi. Etiraf edim ki, hər dəfə bu təhsil müəssisələrinə gedəndə lövhələrdəki yazıları gördükdən sonra uzun müddət özümə gələ bilmirdim. Çünki oradakı yazılar həm uşaqlara, həm onların valideynlərinə mənfi təsir göstərirdi. Bu adlar cəmiyyətdə də belə təhsil müəssisələri barədə düzgün olmayan təsəvvür yaradırdı və mənfi imic formalaşdırırdı. Beynəlxalq təşkilatlar da bununla əlaqədar öz iradlarını bildirirdilər. Hətta narahatlığım o yerə çatdı ki, Nazirlər Kabinetinə bu adların dəyişdirilməsi barədə təkliflər də təqdim etdik. Lakin bu, bilavasitə qanunvericiliklə bağlı olduğu üçün onların dəyişdirilməsinə nail ola bilmədik. Nəhayət, belə bir imkan yarandı. 2009-cu ildə «Təhsil haqqında» Qanun qəbul edildikdən sonra bu məsələ müasir yanaşmalar əsasında öz həllini tapdı və internat məktəblərindən bir çoxunun adı dəyişdirildi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15.07.2011-ci il tarixli qərarı ilə internat məktəblərinin yeni adları təsdiq edildi.

1. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li internat məktəb –

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li tam orta internat məktəb;

2. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li internat məktəb – Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li ümumi orta internat məktəb;

3. Kar uşaqlar üçün 1№-li xüsusi internat məktəbi – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1№-li xüsusi internat məktəbi;

4. Zəifeşidən və sonradan karlaşmış uşaqlar üçün xüsusi ümumtəhsil Respublika internat məktəbi – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2№-li xüsusi internat məktəbi;

5. Kar uşaqlar üçün 3№-li Respublika internat məktəb – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3№-li Respublika xüsusi internat məktəb;

6. Yetim və valideyn himayəsi olmayan uşaqlar üçün Respublika yardımçı internat məktəbi – Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4№-li Respublika xüsusi internat məktəbi;

7. Gözdən əlil uşaqlar üçün Respublika internat orta məktəbi – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi;

8. E.Mirzəyev adına Nitqi qüsurlu uşaqlar üçün Respublika xüsusi internat məktəbi – E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6№-li Respublika xüsusi internat məktəbi;

9. Əqli cəhətdən qüsurlu uşaqlar üçün 7№-li internat məktəb – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 7№-li xüsusi internat məktəb;

10. Sanatoriya tipli 13 saylı vərəmin müxtəlif ilkin və sönmüş formasında olan xəstə uşaqlar üçün internat məktəb – 8№-li sanatoriya tipli internat məktəb;

11. E.Quliyev adına Nitqi qüsurlu uşaqlar üçün 14№-li internat məktəb – E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9№-li xüsusi internat məktəb;

12. Yel xəstəlikli uşaqlar üçün 10№-li sanatoriya tipli internat məktəb – 10№-li sanatoriya tipli internat məktəb;

13. 11№-li xüsusi tipli internat məktəb – 11№-li xüsusi internat məktəb;

14. Beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün 16№-li xüsusi internat məktəb – Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12№-li xüsusi internat məktəb;

15. Lənkəran şəhər Əqli və ya fiziki inkişafında qüsurlar olan uşaq və yeniyetmələr üçün təşkil edilmiş xüsusi internat məktəbi – Lənkəran şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi;

16. Sumqayıt şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi tipli internat məktəbi – Sumqayıt şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi;

17. Gəncə şəhər 4 saylı sanatoriya tipli internat əsas məktəbi – Gəncə şəhər Sanatoriya tipli internat məktəbi;

18. Quba şəhər xüsusi internat orta ümumtəhsil məktəbi – Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbi;

19. Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi – Oğlanlar üçün açıq tipli xüsusi məktəb.

Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələrinin işçi heyəti haqqında məlumat (2010/11-ci tədris ili üzrə)

№	Müəssisənin adı	Pedaqoji heyət (ümumi)	Həkim	Tibb bacısı	Texniki işçilər	Cəmi
1.	Bakı şəhər 1№-li uşaq evi	18	1	3	23	**45**
2.	Bakı şəhər 2№-li uşaq evi	23	2	6	32	**63**
3.	Bakı şəhər 3№-li uşaq evi	15	—	5	29	**49**
4.	Gəncə şəhər uşaq evi	27	1	4	27	**59**
5.	Şəki şəhər qarışıq tipli uşaq evi	14	1	4	18	**37**
6.	Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evi	15	3	3	31	**52**
7.	Qusar şəhər internat məktəbi	48	1	1	30	**80**
8.	Mingəçevir şəhər internat məktəbi	39	2	1	25	**67**
9.	Lerik rayon V.İbrahimov adına internat məktəbi	25	—	—	32	**57**
10.	Siyəzən şəhər internat məktəbi	30	—	1	33	**64**
11.	Balakən şəhər internat məktəbi	32	1	1	31	**65**
12.	Goranboy şəhər R.Ağakişiyev adına internat məktəbi	50	1	1	39	**91**
13.	Şəki şəhər qarışıq tipli internat məktəbi	57	2	3	42	**104**
14.	Tovuz rayonu Qovlar qəsəbə ümumtəhsil internat məktəbi	150	—	3	55	**208**
15.	Göyçay şəhər S.Vurğun adına internat məktəbi	124	1	2	43	**170**
16.	Salyan şəhər A.Səfərov adına internat məktəbi	78	1	2	36	**117**
17.	Sumqayıt şəhər fars-ingilis dili təmayüllü internat məktəbi	89	—	2	46	**137**
18.	Neftçala şəhər M.Səfərov adına internat məktəbi	80	2	3	45	**130**
19.	Zaqatala şəhər internat məktəbi	72	—	—	2	**74**

20.	Sumqayıt şəhər General M.Əsədov adına orta ümumtəhsil internat məktəbi	83	—	2	31	**116**
21.	M.Füzuli adına Ordubad internat məktəbi	53	1	1	63	**118**
22.	Bakı şəhər 8№-li sanatoriya tipli internat məktəb	94	2	5	49	**150**
23.	Bakı şəhər 10№-li sanatoriya tipli internat məktəb	86	4	6	50	**146**
24.	Gəncə şəhər 4№-li sanatoriya tipli internat məktəbi	41	3	2	30	**76**
25.	Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəb	29	1	2	21	**53**
26.	Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li tam orta internat məktəb	35	1	1	46	**83**
27.	Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li ümumi orta internat məktəb	51	1	1	43	**96**
28.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1№-li xüsusi internat məktəbi	164	2	2	35	**203**
29.	Lənkəran şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi	49	1	1	25	**76**
30.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2№-li xüsusi internat məktəbi	66	2	1	29	**98**
31.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3№-li Respublika xüsusi internat məktəbi	215	1	4	39	**259**
32.	Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4№-li Respublika xüsusi internat məktəbi	48	1	3	30	**82**
33.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi	92	2	—	35	**129**
34.	E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6№-li Respublika xüsusi internat məktəbi	62	1	1	41	**105**
35.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 7№-li xüsusi internat məktəbi	90	1	1	35	**127**
36.	E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9№-li xüsusi internat məktəbi	107	—	1	35	**143**
37.	Bakı şəhər 11№-li xüsusi internat məktəbi	75	—	1	45	**121**
38.	Sumqayıt şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi	98	—	1	25	**124**
39.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12№-li xüsusi internat məktəbi	52	1	2	31	**86**
Cəmi:		**2576**	**44**	**83**	**1357**	**4060**

Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqların illər üzrə sayı

№	Müəssisənin adı	Maliyyələşmə mənbəyi	2008–2009	2009–2010	2010–2011
1.	Bakı şəhər 1№-li uşaq evi	mərkəzi büdcə	115	115	123
2.	Bakı şəhər 2№-li uşaq evi	mərkəzi büdcə	165	120	100
3.	Bakı şəhər 3№-li uşaq evi	mərkəzi büdcə	102	100	102
4.	Gəncə şəhər uşaq evi	yerli büdcə	83	71	70
5.	Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evi	yerli büdcə	69	47	49
6.	Şəki şəhər qarışıq tipli uşaq evi	yerli büdcə	40	39	36
7.	Neftçala şəhər M.Səfərov adına internat məktəbi	yerli büdcə	304	258	279
8.	Balakən şəhər internat məktəbi	yerli büdcə	113	101	101
9.	Goranboy şəhər R.Ağakişiyev adına internat məktəbi	yerli büdcə	182	174	178
10.	Göyçay şəhər S.Vurğun adına internat məktəbi	yerli büdcə	357	222	340
11.	Lerik şəhər V.İbrahimov adına internat məktəbi	yerli büdcə	168	164	166
12	Mingəçevir şəhər internat məktəbi	yerli büdcə	184	146	145
13.	Ordubad şəhər M.Füzuli adına internat məktəbi	yerli büdcə	386	382	397
14.	Tovuz rayonu Qovlar qəsəbə ümumtəhsil internat məktəbi	yerli büdcə	996	867	764
15.	Qusar şəhər internat məktəbi	yerli büdcə	148	121	119
16.	Salyan şəhər A.Səfərov adına internat məktəbi	yerli büdcə	376	391	387
17.	Şəki şəhər qarışıq tipli internat məktəbi	yerli büdcə	122	83	77
18.	Siyəzən şəhər internat məktəbi	yerli büdcə	122	119	131
19.	Sumqayıt şəhər fars-ingilis dili təmayüllü internat məktəbi	yerli büdcə	514	537	587
20.	Sumqayıt şəhər General M.Əsədov adına orta ümumtəhsil internat məktəbi	yerli büdcə	311	279	281
21.	Zaqatala şəhər internat məktəbi	yerli büdcə	177	243	316
22.	Bakı şəhər 8№-li sanatoriya tipli internat məktəb	mərkəzi büdcə	250	249	243
23.	Bakı şəhər 10№-li sanatoriya tipli internat məktəb	mərkəzi büdcə	548	585	598
24.	Gəncə şəhər 4№-li sanatoriya tipli internat məktəbi	yerli büdcə	221	197	187
25.	Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəbi	yerli büdcə	78	67	65
26.	Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li tam orta internat məktəb	mərkəzi büdcə	149	142	158
27.	Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li ümumi orta internat məktəb	mərkəzi büdcə	250	238	219

28.	Lənkəran şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi	yerli büdcə	97	102	113
29.	Sumqayıt şəhər, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi	yerli büdcə	288	230	279
30.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1№-li xüsusi internat məktəbi	mərkəzi büdcə	375	383	386
31.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2№-li xüsusi internat məktəbi	mərkəzi büdcə	128	128	134
32.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3№-li Respublika xüsusi internat məktəbi	mərkəzi büdcə	327	339	327
33.	Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4№-li Respublika xüsusi internat məktəbi	mərkəzi büdcə	126	110	103
34.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi	mərkəzi büdcə	300	293	281
35.	E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6№-li Respublika xüsusi internat məktəbi	mərkəzi büdcə	175	174	186
36.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 7№-li xüsusi internat məktəbi	mərkəzi büdcə	233	184	195
37.	E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9№-li xüsusi internat məktəbi	mərkəzi büdcə	333	364	369
38.	Bakı şəhər 11№-li xüsusi internat məktəbi (sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi siniflər üzrə gecələyən)	mərkəzi büdcə	230	191	179
	Bakı şəhər 11№-li xüsusi internat məktəbi (ümumtəhsil siniflər üzrə gecələməyən)	mərkəzi büdcə	264	404	481
39.	Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 №-li xüsusi internat məktəbi	mərkəzi büdcə	147	131	114
Cəmi:			**9553**	**9090**	**9365**

TƏHSİL NAZİRLİYİ SİSTEMİNDƏ OLAN UŞAQ EVLƏRİ

Azərbaycanda fəaliyyət göstərən 6 uşaq evində tərbiyə olunan və yaşayan uşaqların sayı ayrı-ayrı illərdə müxtəlif olmuşdur.

İl	1990	1995	1996	1997	1998	1999	2000	2001	2002
Say	397	395	435	461	548	608	684	705	749
İl	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011
Say	750	719	734	648	564	550	520	515	480

Cədvəldən göründüyü kimi, 1990-cı ildən 2005-ci ilə qədər uşaq evlərinə yerləşdirilən uşaqların sayı artmış, 2006-cı ildən başlayaraq isə azalmağa başlamışdır. Hazırda Təhsil Nazirliyi sistemində olan uşaq evlərində 480 nəfər uşaq tərbiyə alır və yaşayır. Bu müəssisələrdə 107 nəfər pedaqoji işçi fəaliyyət göstərir.

Bakı şəhər 1№-li uşaq evi

Nizami rayonundakı 1№-li uşaq evi 1970-ci ildən fəaliyyət göstərir. Yarandığı



Bakı şəhər 1№-li uşaq evi

ilk dövrlərdə uşaq evi məktəbəqədər yaşda valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuşdu. Hazırda burada 123 məktəbəqədər və məktəb yaşlı uşaq məskunlaşmışdır. Onlar Nizami rayonundakı 220№-li məktəb-liseydə ümumtəhsil proqramı əsasında təhsillə əhatə olunmuşlar. Müəssisədə 17 nəfər pedaqoji işçi fəaliyyət göstərir.

Uşaq evi 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur.

Bakı şəhər 2№-li uşaq evi

Suraxanı rayonundakı 2№-li uşaq evi 2000-ci ildə yaradılmışdır. Hazırda uşaq evində 3–16 yaşlı 100 nəfər uşaq yaşayır. Bu müəssisədə 22 nəfər pedaqoji işçi fəaliyyət göstərir. Burada yaşayan uşaqlar həmin müəssisəyə yaxın 282№-li məktəbdə təhsillə əhatə olunmuşlar. 2009-cu ildə uşaq evinin yetirmələrindən 1 nəfər orta ixtisas məktəbinə daxil olmuşdur.

Uşaq evində müxtəlif dərnəklər fəaliyyət göstərir. Uşaqların dərnəklərə cəlb edilməsi zamanı hər birinin meyil və maraqları nəzərə alınır.

Uşaq evi 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur.

Bakı şəhər 3№-li uşaq evi

Xətai rayonundakı 3№-li uşaq evi 1937-ci ildən fəaliyyət göstərir. Bu uşaq evində yaşayan məktəb yaşlı uşaqlar yaxın ərazidə olan Xətai rayonundakı 25№-li (rus bölməsi), 29№-li (Azərbaycan bölməsi) məktəblərdə təhsillə əhatə olunmuşlar. Onlar məktəbdə orta təhsillərini başa vurduqdan sonra ümumi qaydalar əsasında ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində təhsillərini davam etdirirlər. Hazırda burada 102 uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisədə 14 nəfərdən ibarət pedaqoji işçi fəaliyyət göstərir.

Uşaq evi «Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» çərçivəsində əsaslı təmir edilmişdir.

Gəncə şəhər uşaq evi

Gəncə şəhər uşaq evi 1998-ci ildə yaradılmışdır. Hazırda burada 70 uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. 2005-ci ildə Heydər Əliyev Fondu uşaqlar üçün 130 nəfərlik yeni yeməkxana binasını tikdirib uşaq evinin istifadəsinə vermişdir. Burada yaşayan uşaqlar uşaq evinə yaxın 18, 34№-li məktəblərdə təhsillərini davam etdirirlər. Müəssisədə 27 nəfər pedaqoji işçi fəaliyyət göstərir.

2008–2010-cu illərdə uşaq evində əsaslı təmir və bərpa işləri aparılmışdır. 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən Daşkəsən rayonunda Qarabağ əlilləri üçün inşa edilmiş binada uşaq evinin 2 nəfər yetirməsinə mənzil verilmişdir.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün uşaq evində kompyuter və ərəb dili kursları təşkil olunmuşdur.

Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evi

Lənkəran şəhər O.Mirzəyev adına qarışıq tipli uşaq evi 1941-ci ildən fəaliyyət göstərir. Hazırda burada 49 uşaq təlim-tərbiyə alır və yaşayır. Həmin uşaqlar 9-cu sinfə

qədər ümumtəhsil proqramı əsasında təhsil alır, sonra isə 5№-li ümumtəhsil məktəbində təhsillərini davam etdirirlər. Müəssisədə 14 nəfərdən ibarət pedaqoji işçi heyəti fəaliyyət göstərir.

Uşaq evi 2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuşdur.

Şəki şəhər qarışıq tipli uşaq evi

Şəki şəhər qarışıq tipli uşaq evi 1941-ci ildən fəaliyyət göstərir. Hazırda burada 36 uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisədə 15 nəfər pedaqoji işçi fəaliyyət göstərir. Uşaq evində uşaqlar ümumi orta təhsillə əhatə olunurlar. Təhsillərini başa vurduqdan sonra peşə liseylərində təhsil alaraq, müxtəlif ixtisaslar üzrə çalışırlar. Uşaq evinin yetirmələri arasında məktəb direktoru, hərbi həkim, polis, idmançılar da vardır.

Səhiyyə Nazirliyinin tabeliyində olan Psixo-nevroloji uşaq evi

Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Psixo-nevroloji uşaq evi 1988-ci ildən fəaliyyət göstərir. Hazırda müəssisədə 91 nəfər uşaq var. Onlardan 58 nəfəri müəssisədə



Psixo-nevroloji uşaq evi



Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li ümumtəhsil internat məktəbi

gecələyir. Uşaqların təlim-tərbiyəsi ilə 50 nəfərlik pedaqoji heyət, 20 nəfərlik tibbi heyət və 35 nəfərlik kiçik tibbi heyət məşğul olur.

2009-cu ildə «Uşaq evləri və internat məktəblərinin İnkişafı Proqramı» çərçivəsində uşaq evi üçün yeni bina inşa edilmişdir. Həmin tarixdən də uşaq evində sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidməti də göstərilir. Xidmət fəaliyyətə başladığı vaxtdan müəssisəyə gecələməmək şərtilə sağlamlıq imkanları məhdud uşaqlar cəlb edilir.

Beləliklə, hazırda ölkədə 7 uşaq evi fəaliyyət göstərir və orada 571 nəfər uşaq tərbiyə alır və yaşayır.

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLAR ÜÇÜN İNTERNAT MƏKTƏBLƏR

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li tam orta internat məktəb*

Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li internat məktəb 1963-cü ildə tikilib istifadəyə verilmişdir. İnternat məktəbdə hazırda 158 şagird təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisədəki uşaqların təlim tərbiyəsi ilə 34 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

* İnternat məktəblərə cəlb olunmuş uşaqların, onların təlim-tərbiyəsi ilə məşğul olan müəllim və tərbiyəçilərin sayını göstərən statistika 2010/11-ci tədris ilinə aiddir – *red.*



Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün
2№-li ümumi orta internat məktəb

«Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» çərçivəsində Heydər Əliyev Fondu tərəfindən internat məktəbdə təmir-bərpa işləri aparılmışdır.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li ümumi orta internat məktəb

Xəzər rayonundakı Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2№-li internat məktəb 1937-ci ildən 6№-li uşaq evi kimi fəaliyyət göstərmiş, 1985/86-cı tədris ilindən internat məktəbə çevrilmişdir.

Burada yaşayan uşaqlar ümumi orta təhsillərini həmin müəssisədə alır, peşə liseylərində təhsillərini davam etdirirlər. Məktəbi bitirən şagirdlər arasında Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil olan məzunlar da vardır.

Hazırda burada 253 uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisədə 46 nəfər pedaqoji işçi çalışır. İnternat məktəbin Uşaq nəfəs alətləri orkestri məktəb yarandığı gündən fəaliyyət göstərir. Orkestr bir sıra respublika əhəmiyyətli uşaq yaradıcılıq festivallarının laureatı adına layiq görülmüşdür.

Quba şəhər Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün tam orta internat məktəb

Quba rayonu Zərdabi qəsəbəsində yerləşən Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəb 1997/98-ci tədris ilində fəaliyyətə başlamışdır. Hazırda burada 56 şagird tam orta təhsillə əhatə olunmuşdur. Müəssisədə 28 nəfər pedaqoji işçi fəaliyyət göstərir.

Beləliklə, hazırda ölkədə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 3 internat məktəb fəaliyyət göstərir və orada 442 nəfər uşaq tərbiyə alır və yaşayır.

İllər ərzində bu tip internat məktəblərdə təlim-tərbiyə alan uşaqların sayı barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir:

İl	1990	1995	1996	1997	1998	1999	2000	2001	2002
Say	505	548	633	616	575	659	554	540	516
İl	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011
Say	500	494	480	450	449	469	450	447	442

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLAR ÜÇÜN İNTERNAT MƏKTƏBLƏR

Təhsil Nazirliyi sistemində sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 xüsusi internat məktəb fəaliyyət göstərir ki, burada uşaqlar xüsusi proqramla təhsilə cəlb olunmuşlar.

Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4№-li Respublika xüsusi internat məktəbi

Valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəbi 1967-ci ildən fəaliyyət göstərir. Sonuncu sinifdə (10-cu sinif) onların müxtəlif peşələrə yönəldilməsi və cəmiyyətə adaptasiyası ilə bağlı müvafiq tədbirlər görülür. Hazırda burada 103 uşağın təlim-tərbiyəsi ilə 48 nəfərdən ibarət pedaqoji işçi məşğul olur.

2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən internat məktəbdə yeni idman zalı tikilib istifadəyə verilmişdir.

İnternat məktəb 2009/10-cu tədris ilində Təhsil Nazirliyi tərəfindən əsaslı təmir edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1№-li xüsusi internat məktəbi

Nizami rayonu ərazisində yerləşən bu internat məktəb 1932-ci ildən fəaliyyət göstərir. Hazırda burada 386 şagird təlim-tərbiyə ilə əhatə olunmuşdur. Məktəbdə təhsil alan uşaqlar 11 il müddətinə ümumi orta təhsili başa vururlar. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 163 nəfər işçi heyəti məşğul olur. Məktəbdə təlim-tərbiyə alan şagirdlər XI sinfi bitirdikdən sonra kar uşaqlar üçün axşam və qiyabi məktəbdə təhsillərini davam etdirirlər. Məktəbin şagirdləri üçün tətbiqi sənətin müxtəlif növləri üzrə dərnəklər təşkil olunmuşdur. Şagirdlər maraq və bacarıqlarına uyğun olaraq bu dərnəklərə cəlb olunurlar.



Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 3№-li Respublika xüsusi internat məktəbi

Bu internat məktəb də Nizami rayonunda yerləşir. Məktəb ümumi təhsil proqramı əsasında on il müddətinə ümumi orta təhsil verir.

İnternat məktəb 1969-cu ildən fəaliyyətə başlamışdır. Hazırda burada 327 şagird təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisənin pedaqoji heyəti 214 nəfərdən ibarətdir. Məktəbdə respublikanın müxtəlif regionlarından və qonşu respublikalardan olan kar uşaqlar da təhsil alırlar.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5№-li Respublika xüsusi internat məktəbi

Nərimanov rayonu ərazisində yerləşən gözdən əlil uşaqlar üçün ümumtəhsil internat məktəb 1936-cı ildən fəaliyyət göstərir. Hazırda burada 293 şagird təlim-tərbiyə ilə əhatə olunmuşdur. Müəssisənin pedaqoji heyəti 97 nəfərdən ibarətdir.

İnternat məktəbi «Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» çərçivəsində Heydər Əliyev Fondu tərəfindən yenidən bərpa edilmiş, müasir avadanlıqlarla təmin edilmişdir. İnternat məktəbin nəzdində



E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6№-li Respublika xüsusi internat məktəbi

mətbəə yaradılmışdır ki, burada Brayl əlifbasında dərslik və dərs vəsaitləri çap olunur. İnternat məktəbi Almaniyadan gətirilmiş xüsusi kompyuter dəsti ilə təchiz edilmişdir. İnternat məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Məktəbin Azərbaycan və rus dillərində bədii ədəbiyyatla zəngin kitabxanası vardır. Müəssisənin nəzdində Gözdən əlil uşaqlar üçün musiqi məktəbi fəaliyyət göstərir. İstedadına və potensialına uyğun olaraq internat məktəbinin şagirdləri içərisindən musiqi təhsilini başa vurmuş şagirdlərə müvafiq şəhadətnamə də verilir.

Məktəbi bitirdikdən sonra şagirdlər təhsillərini peşə liseylərində, ali və orta ixtisas məktəblərində davam etdirirlər. 2010-cu ildə internat məktəbi bitirmiş məzunlar içərisində 11 nəfər ali, 11 nəfər isə orta ixtisas məktəbində təhsilini davam etdirir.

E.Mirzəyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 6№-li Respublika xüsusi internat məktəbi

Bu internat məktəbinin əsası 1979-cu ildə qoyulmuşdur. İnternat məktəb Xəzər rayonu ərazisində Türkan qəsəbəsində yerləşir. İnternat məktəbin binası 2005-ci ildə

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş və lazımi avadanlıqlarla təchiz edilmişdir. Hazırda burada 186 uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. Onların təlim-tərbiyəsi ilə 61 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2№-li xüsusi internat məktəbi

Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2№-li xüsusi internat məktəb 1962-ci ildən fəaliyyət göstərir. Burada 134 şagird ümumtəhsil proqramı əsasında ümumi orta təhsillə əhatə olunmuşdur. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 65 nəfər pedaqoji işçi məşğul olur. 2005-ci ildə internat məktəbdə Heydər Əliyev Fondu tərəfindən təmir-bərpa işləri aparılmışdır.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 7№-li xüsusi internat məktəbi

Suraxanı rayonundakı 7№-li xüsusi internat məktəb 1959-cu ildən fəaliyyət göstərir. Bu məktəbdə əqli cəhətdən qüsurlu uşaqlar təhsil alır və müxtəlif peşələrə yiyələnirlər. Hazırda məktəbdə 195 şagird xüsusi proqram əsasında ümumi orta təhsil alaraq ikinci dərəcəli dülgər, çilingər, tikişçi ixtisaslarına yiyələnir. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 102 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbin məzunları müxtəlif peşə kurslarında təhsilini davam etdirməklə istehsalatın müxtəlif sahələrində çalışırlar.

İnternat məktəbdə «Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» çərçivəsində Heydər Əliyev Fondu tərəfindən bərpa işləri aparılmışdır.

Bakı şəhər 11№-li xüsusi internat məktəbi

11№-li internat məktəb 1961-ci ildən fəaliyyət göstərir. Uşaqlar burada onillik təhsil müddətini başa vurduqdan sonra xüsusi şəhadətnamə alır və uyğun peşə məktəblərində təhsillərini davam etdirirlər. Hazırda burada 660 şagird təhsil alır və onlardan 179 nəfəri xüsusi təhsilə cəlb olunmuşdur. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 74 nəfərdən ibarət müəllim və tərbiyəçi heyəti məşğul olur.

2005-ci ildən internatın nəzdində ümumtəhsil sinifləri açılmış və sağlamlıq imkanları məhdud uşaqlarla yanaşı, çətin həyat şəraitində yaşayan və risk qrupuna daxil olan ailələrin uşaqları da təhsilə cəlb olunmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə məktəbin yataq və tədris korpusu əsaslı təmir edilərək müasir avadanlıqlarla təchiz olunmuşdur.

E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9№-li xüsusi internat məktəbi

Nitqi qüsurlu uşaqlar üçün bu internat məktəb 1980-ci ildən fəaliyyət göstərir. Burada 369 şagird ümumi təhsil proqramı əsasında təhsillə əhatə olunur. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 106 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12№-li xüsusi internat məktəbi

Bu müəssisə beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün xüsusi internat məktəbdir.



Bakı şəhər 11№-li xüsusi internat məktəbi



Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12№-li xüsusi internat məktəbi

1969-cu ildən Xəzər rayonunun Mərdəkan qəsəbəsində fəaliyyət göstərir. Burada 114 şagird xüsusi proqramla ümumi orta təhsili başa vurur və xüsusi şəhadətnamə alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 51 nəfər işçi məşğul olur.

Ölkənin birinci xanımı, UNESCO və ICESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə internat məktəbi 1999–2000-ci illərdə əsaslı təmir edilərək şagirdlərin istifadəsinə verilmişdir.

Sumqayıt şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi

Əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün Sumqayıt şəhər xüsusi internat məktəbi müstəqillik dövründə, 1996-cı ildə təşkil olunmuşdur. Burada hazırda 279 şagird xüsusi proqramla ümumi orta təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 97 nəfər pedaqoji işçi məşğul olur.

Lənkəran şəhər Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbi

Lənkəran şəhər xüsusi internat məktəbi 1978-ci ildən fəaliyyət göstərir. Burada hazırda əqli və fiziki inkişafında qüsurlar olan 113 şagird xüsusi proqramla ümumi orta təhsillə əhatə olunmuşdur. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 48 nəfər pedaqoji işçi məşğul olur.

İllər üzrə bu tip internat məktəblər haqqında məlumat aşağıdakı cədvəldə göstərilmişdir:

İl	1990	1995	2000	2001	2002	2003	2004
Say	2811	1607	2679	2731	2860	2933	3324
İl	2005	2006	2007	2008	2009	2010	2011
Say	2915	2751	3984	3023	3023	3033	3147

Beləliklə, hazırda ölkədə 12 sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbi fəaliyyət göstərir və orada 3147 nəfər uşaq tərbiyə alır və yaşayır. Onlardan 2055 nəfəri müəssisədə yalnız təhsil alır, qalan 1092 nəfəri həm təhsil alır, həm də yaşayır. Bu tip müəssisələrdə hazırda 1120 nəfər pedaqoji işçi fəaliyyət göstərir.

ÜMUMTƏHSİL İNTERNAT MƏKTƏBLƏRİ


Hazırda Təhsil Nazirliyi sistemində 18 ümumtəhsil internat məktəbi fəaliyyət göstərir. Bu internat məktəblərdə 5355 nəfər uşaq təlim-tərbiyə və təhsillə əhatə olunmuşdur. Bu müəssisələrdə 1214 nəfər pedaqoji işçi çalışır.

M.Füzuli adına Ordubad internat məktəbi

M.Füzuli adına Ordubad internat məktəbi 1957-ci ildə I–IV siniflər olmaqla 120 nəfərlik şagird kontingenti ilə fəaliyyətə başlamışdır. Məktəbdə işə cəlb olunmuş yüksək ixtisaslı pedaqoji kadrlardan ibarət işçi heyətinin səyləri nəticəsində internat məktəb təhsil sahəsində bir çox nailiyyətlər əldə etmişdir.



M.Füzuli adına Ordubad internat məktəbinin yenidən qurulmuş binasının açılışı. 2006-cı il



Ordubad internat məktəbi

1964-cü ildə internat məktəb üçün yeni 420 yerlik tədris binası, 300 yerlik yataqxana korpusu inşa edilmiş və həmin ilin sentyabrından internat məktəb 340 nəfər şagird kollektivi ilə fəaliyyətini davam etdirmişdir.

1964–1970-ci illərdə məktəbdə 340, 1970–1974-cü illərdə 360, 1974–1978-ci illərdə 410, 1978–2001-ci illərdə 380, 2001–2006-cı illərdə isə 400 şagird təlim-tərbiyə almışdır.

Hazırda internat məktəbdə 397 nəfər uşaq təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 52 nəfər pedaqoji işçi məşğul olur.

2006-cı ildə Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun dəstəyi ilə Ordubad internat məktəbi yenidən qurulmuş, fizika, kimya laboratoriyaları kompyuterlərlə təmin olunmuşdur.

İnternat məktəbdə 17 mindən artıq bədii kitab və dərs ləvazimatı ilə təchiz olunmuş kitabxana vardır. 2006-cı ildə 22 məzundan 13-ü, 2007-ci ildə 18 məzundan 11-i, 2008-ci ildə 21 məzundan 11-i, 2009-cu ildə 10 məzundan 5-i ali məktəblərə daxil olmuşdur. Son 2 ildə məktəb şagirdlərindən ikisi Respublika yekun turunda informatika fənni üzrə IV yerə layiq görülmüşdür.

Məktəbin məzunlarından əksəriyyəti ali təhsil almışdır, hazırda respublikada və onun hüdudlarından kənarda müxtəlif peşələrdə çalışırlar.

Sumqayıt şəhər General M.Əsədov adına orta ümumtəhsil internat məktəbi

Sumqayıt şəhər General M.Əsədov adına orta ümumtəhsil internat məktəbi 2005-ci ildə fəaliyyətə başlamışdır. 2005–2010-cu illər ərzində internat məktəb bir çox nailiyyətlər əldə etmişdir. Məktəbin şagirdləri şəhər üzrə keçirilmiş inşa müsabiqəsində, fənn olimpiadalarında, rəsm müsabiqələrində və s. tədbirlərdə iştirak etmiş və uğurlar qazanmışlar.

Hazırda internat məktəbdə 281 nəfər uşaq təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 82 nəfərdən ibarət pedaqoji işçi məşğul olur.

2005–2010-cu illərdə məktəbi bitirmiş 112 nəfər məzundan 23 nəfəri müxtəlif ali məktəblərə, 32 nəfəri isə orta ixtisas məktəblərinə daxil olmuşdur.

Zaqatala şəhər internat məktəbi

Zaqatala şəhər internat məktəbi 1991-ci ildə Zaqatala şəhər 1 və 2№-li internat məktəblərinin bazasında yaradılmışdır. İnternat məktəbin binası 2009-cu ildə əsaslı təmir olunmuş və müasir tələblərə cavab verən avadanlıqla təchiz edilmişdir. Hazırda məktəbin Azərbaycan və rus bölmələrində 316 şagird təhsil alır. Müəssisədə təhsil alan şagirdlərin təlim-tərbiyəsi ilə 72 nəfər pedaqoji işçi məşğul olur.

Neftçala şəhər M.Səfərov adına internat məktəbi

Neftçala şəhər M.Səfərov adına ümumi orta internat məktəbi 1960-cı ildən fəaliyyət göstərir. Məktəb 1976-cı ildən 1981-ci ilə kimi orta məktəb kimi fəaliyyət göstərmişdir. Hazırda məktəbdə 279 nəfər şagirdin təlim-tərbiyəsi ilə 79 nəfərdən ibarət müəllim-tərbiyəçi heyəti məşğul olur.

Salyan şəhər A.Səfərov adına internat məktəbi

Salyan şəhər A.Səfərov adına ümumi orta internat məktəbi 1959-cu ildən fəaliyyətə başlamışdır. 1994-cü ildən məktəbin məzunu, şəhid Azər Səfərovun adını daşıyır. İnternat məktəb 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş və müasir avadanlıqlarla təchiz edilmişdir.

Məktəbin məzunlarının böyük əksəriyyəti təhsilini orta məktəblərdə davam etdirərək ali məktəblərə daxil olmuşlar. Hazırda məktəbdə 387 şagirdin təlim-tərbiyəsi ilə 77 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Göyçay şəhər S.Vurğun adına internat məktəbi

Göyçay şəhər Səməd Vurğun adına internat məktəbi 1959-cu ildən fəaliyyət göstərir. Hazırda məktəbdə 201 nəfər şagirdlə yanaşı, 133 nəfər sağlamlıq imkanları məhdud olan uşaq müəssisədə, 6 nəfər uşaq isə evdə təhsilə cəlb olunmuşdur. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 123 nəfərdən ibarət müəllim və tərbiyəçi heyəti məşğul olur.

Məktəb 2007/08-ci tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir tələblər səviyyəsində əsaslı təmir edilmiş və avadanlıqlarla təmin olunmuşdur.

Tovuz rayonu Qovlar qəsəbə ümumtəhsil internat məktəbi

Qovlar qəsəbə ümumtəhsil internat məktəbi 1961-ci ildə səkkizillik internat məktəb kimi fəaliyyətə başlamışdır. 1974/75-ci tədris ilindən əqli cəhətdən zəif inkişaf etmiş şagirdlərin qəbuluna başlanmış və məktəb adı dəyişdirilərək Qovlar qəsəbə yardımçı internat məktəbi kimi fəaliyyət göstərmişdir.

1994/95-ci tədris ilindən məktəbin tipi dəyişdirilmiş, Qovlar qəsəbə ümumtəhsil internat məktəbi kimi fəaliyyətini davam etdirmişdir. Məktəb həmin vaxtdan başlayaraq iki tipdə fəaliyyət göstərir: ümumtəhsil və xüsusi təhsil. Həmin dövrdən başlayaraq məktəbin şagird kontingenti artmışdır. Hazırda məktəbdə ümumi təhsil bölməsində 772 nəfər, xüsusi təhsil bölməsində isə 42 nəfər şagird təhsil alır. Məktəbin respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunan məzunlarının sayı ilbəil artır. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 149 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Şəki şəhər qarışıq tipli internat məktəbi

Şəki şəhər qarışıq tipli internat məktəbi 1956-cı ildə yeddiillik təhsil bazası əsasında 12№-li internat məktəbi kimi fəaliyyətə başlamış, 1963-cü ildən isə 2№-li internat məktəbi kimi fəaliyyətini davam etdirmişdir. Hazırda məktəbdə 86 nəfər şagird təhsil alır, onlardan 31 nəfəri xüsusi, 55 nəfəri isə ümumi təhsilə cəlb edilmişdir. Şagirdlərin təlim-tərbiyəsi ilə 56 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Goranboy şəhər R.Ağakişiyev adına internat məktəbi

Goranboy şəhər R.Ağakişiyev adına ümumi orta internat məktəbi 1960-cı ildən fəaliyyət göstərir.

2004-cü ildə internat məktəb əsaslı təmir edilmişdir. Hazırda məktəbdə 178 nəfər şagirdin təlim-tərbiyəsi ilə 50 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Balakən şəhər internat məktəbi

1966-cı ildə istifadəyə verilən Balakən şəhər ümumi orta internat məktəbi 33 nəfərdən ibarət müəllim-tərbiyəçi heyəti və 450 nəfər şagirdlə fəaliyyətə başlamışdır. İndiyədək məktəbi 1312 nəfər bitirib, onların 530 nəfəri orta ixtisas, 230 nəfəri ali təhsil almışdır. Hazırda məktəbdə 101 nəfər şagirdin təlim-tərbiyəsi ilə 31 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Siyəzən şəhər internat məktəbi

1961-ci ildə əsası qoyulan Siyəzən şəhər internat məktəbi, çox az şagird kontingenti ilə fəaliyyətə başlasa da, sonrakı illərdə məktəbə şagird axını artmışdır. Hazırda məktəbdə 131 nəfər şagirdin təlim-tərbiyəsi ilə 29 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Lerik rayon V.İbrahimov adına internat məktəbi

Lerik rayon V.İbrahimov adına tam orta internat məktəbi, 1960-cı ildən fəaliyyət göstərir. 2005-ci ildə Lerik şəhər tam orta internat məktəbi Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə əsaslı təmir olunmuşdur. İnternat məktəbdə 166 şagird təhsil alır. Məktəbdə 24 nəfərdən ibarət müəllim-tərbiyəçi heyəti fəaliyyət göstərir. 2007/08-ci tədris ilində internat məktəbin 4, 2008/09-cu tədris ilində isə 5 nəfər məzunu müxtəlif ali təhsil müəssisələrinə daxil olmuşdur.

Mingəçevir şəhər internat məktəbi

Mingəçevir şəhər internat tam orta məktəbi, 1961-ci ildən fəaliyyət göstərir. İnternat məktəbin məzunları içərisindən ali və orta ixtisas məktəblərinə qəbul olunanların sayı ilbəil artır.

Hazırda məktəbdə 149 nəfər şagirdin təlim-tərbiyəsi ilə 38 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Sumqayıt şəhər fars-ingilis dili təmayüllü internat məktəbi

Sumqayıt şəhər fars-ingilis dili təmayüllü tam orta internat məktəbi 1961-ci ildə fəaliyyətə başlamışdır. Hazırda internat məktəbdə 587 nəfər uşaq təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 88 nəfər pedaqoji işçi məşğul olur.

Qusar şəhər internat məktəbi

1896-cı ildə Pobedonostsevin xüsusi progimnaziyası əsasında yaranmış III Aleksandr adına Bakı oğlan klassik gimnaziyası müdavimlərinin yay mövsümündə istirahətinin təşkili və onların kənd təsərrüfatı işləri üzrə təcrübə keçmələri üçün dayaq məntəqəsi hesab edilən koloniya yaradılmışdır.

1931-ci ildən əmək koloniyası yerləşmiş binada Qusar Aqrotexpedtexnikum açılmışdır. Bu da savadsızlığın ləğv edilməsi, müəllim kadrlarının hazırlanması sahəsində respublika hökumətinin mühüm tədbirlərindən biri idi.

1932-ci ildən sonra Aqropedtexnikum Qusar Dövlət Pedaqoji məktəbi kimi fəaliyyət göstərmişdir.

1941-ci ildə Qusar Dövlət Pedaqoji məktəbi Quba şəhərinə köçürülmüşdür.

1941-ci ildə pedaqoji məktəbin ərazisində hərbi polk yerləşdirildi. 1942-ci ildə polkun heyəti bütünlüklə cəbhəyə gedəndən sonra həmin binalarda uşaq evi yaradıldı. Sov.İKP-nin XX qurultayında yeni tipli politexnik təhsil verən qapalı internat məktəblərin yaradılması haqqında qərar qəbul edilməsi ilə əlaqədar 1956-cı ildə uşaq evi öz fəaliyyətini dayandırdı.

1956-cı ildə aparılmış əsaslı təmirdən sonra 1957/58-ci tədris ilində uşaq evinin binasında 5№-li Qusar şəhər internat məktəbi yaradıldı.

60-cı illərin əvvəllərində internat məktəbi iki korpusdan ibarət yeni binaya köçürüldü.

Qarabağ uğrunda gedən müharibədə internat məktəbin məzunlarından şəhid olmuş Cəfər Əskərzadə, Zakir Sultanov və Rasim Ağamaliyevin xatirəsini məktəb kollektivi daim əziz tutur.

Qusar şəhər tam orta internat məktəbində ayrı-ayrı tədris illərində şagird kontingenti müxtəlif olmuşdur. Hazırda məktəbdə 119 nəfər şagirdin təlim-tərbiyəsi ilə 47 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

Bakı şəhər 10№-li sanatoriya tipli internat məktəb

Bu müəssisə yel xəstəlikli uşaqlar üçün sanatoriya tipli internat məktəbdir. 1961-ci ildən fəaliyyət göstərir. Məktəb Sabunçu



Bakı şəhər 10№-li sanatoriya tipli internat məktəb

rayonu Pirşağı qəsəbəsində yerləşir. Burada 598 şagird ümumi təhsil proqramı əsasında ümumi orta təhsillə əhatə olunur. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 85 nəfər pedaqoji heyət məşğul olur.

«Uşaq evləri və internat məktəblərin İnkişafı Proqramı» çərçivəsində 2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən internat məktəbdə əsaslı təmir işləri aparılmışdır.

Bakı şəhər 8№-li sanatoriya tipli internat məktəb

Bu müəssisə vərəmin müxtəlif ilkin və sönmüş formasında xəstə uşaqlar üçün internat məktəbidir. 1963-cü ildən ümumi orta təhsil verən müəssisə kimi fəaliyyət göstərir. Burada 243 şagird təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 93 nəfərdən ibarət pedaqoji heyət məşğul olur.

2005-ci ildə Heydər Əliyev Fondu tərəfindən internat məktəbində təmir və bərpa işləri aparılmışdır.

Gəncə şəhər 4№-li sanatoriya tipli internat məktəbi

Gəncə şəhər 4№-li sanatoriya tipli ümumi orta internat məktəbi 1961-ci ildən fəaliyyət göstərir. İnternat məktəbdə 187 şagird təhsil alır. Müəssisədəki uşaqların təlim-tərbiyəsi ilə 40 nəfərdən ibarət işçi məşğul olur.

İnternat məktəbində təlim-tərbiyə olunan şagirdlər əsasən vərəmin ilkin, kiçik və sönməkdə olan formalarına tutulmuş aztəminatlı ailələrin uşaqlarıdır. Onların müalicə-profilaktika işi ilə 3 nəfər mütəxəssis həkim və 2 tibb bacısı məşğul olur.

Beləliklə, Azərbaycanda Təhsil Nazirliyi sistemində mövcud olan dövlət uşaq müəssisələrində (uşaq evləri, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəblər, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəblər, ümumtəhsil internat məktəbləri) ümumilikdə 9424 nəfər uşaq təlim-tərbiyə ilə əhatə olunmuşdur. İllər üzrə bu tip internat məktəblərində təlim-tərbiyə alan uşaqların sayı barədə məlumat aşağıdakı cədvəldə göstərilmişdir:

İl	1990	1995	2000	2001	2002	2003	2004
Say	19840	15239	17638	17781	18859	18832	18060
İl	2005	2006	2007	2008	2009	2010	2011
Say	18664	12625	11309	9934	5571	5416	5355

«Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)». Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra insan hüquqları ilə bağlı bir sıra beynəlxalq konvensiyaları ratifikasiya etmişdir. Bunlardan biri də 1992-ci ildə ratifikasiya edilmiş Uşaq Hüquqları Konvensiyasıdır. Konvensiyadan irəli gələn vəzifələri həyata keçirmək məqsədilə uşaq hüquqları ilə bağlı müxtəlif qanunlar, Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir. Bütün bu sənədlərə əsasən ailədə böyümək hər bir uşağın hüququdur, ailə isə uşağın sağlam inkişafı və cəmiyyətə inteqrasiyası üçün ən uyğun mühitdir. Həmin Kon-

vensiyanın tələblərinə əsasən dövlət uşaq müəssisələrindən uşaqların bioloji və ya digər alternativ ailələrə verilməsi, bu uşaqların hüquqlarının qorunması daim diqqət mərkəzində olmalı, uşaqları qəbul edən ailələrə sosial yardım edilməlidir. Respublikada iqtisadiyyatın sürətli inkişafı, sosial sahələrə diqqətin artırılması, regionların inkişafı məqsədilə həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin açılması, adambaşına düşən gəlirin ilbəil artması əhalinin, o cümlədən hər bir ailənin sosial vəziyyətinin yaxşılaşması üçün zəmin yaratmışdır.

Bütün bunları nəzərə alaraq **«Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)» hazırlandı və 2006-cı il martın 29-da ölkə Prezidentinin Sərəncamı ilə təsdiq olundu.** Proqram De-institusionalizasiya ilə bağlı işlərin genişləndirilməsi, səmərəli tədbirlərin həyata keçirilməsi və konkret müsbət nəticələrin əldə edilməsinə yönəldilmişdir. Təhsil Nazirliyi üzərinə düşən vəzifələrin həlli ilə yanaşı, Tədbirlər Planının 19-cu bəndinə əsasən Proqramın koordinasiyasına cavabdehdir. Proqramın kordinatoru Təhsil Nazirliyinin De-institutlaşdırma və uşaq müdafiə sistemi idarəsinin müdiri Məlahət Hacıyevadır.

2006-cı ildən başlayaraq dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqların mümkün vasitələrdən istifadə edilərək ailələrə verilməsinin nə dərəcədə mühüm məsələ olduğu təsdiqləndi.

Dövlət Proqramının məqsədi uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxtlik, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyi nəzərə alınaraq, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsinin təmin edilməsidir. De-institusionalizasiyanın yerinə yetirilməsi üçün aşağıdakı prioritet istiqamətlərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- ölkədə yoxsulluğun azaldılması və sosial-iqtisadi vəziyyətin yaxşılaşması zəminində uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması üçün preventiv tədbirlərin görülməsi və belə müəssisələrdə olan uşaqların sayının tədricən azaldılması;
- uşaq evləri və internat tipli dövlət uşaq müəssisələrinin sayının azaldılması, dövlət uşaq müəssisələrinin uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzlərinə çevrilməsi, alternativ sosial xidmətlər sisteminin (icma və ailə əsaslı xidmətlər, qəyyumluq, himayədarlıq, tərbiyə edilmək üçün himayədar ailəyə verilmə və s.) yaradılması;
- uşaqların ailələrə (bioloji və ya alternativ) verilməsi imkanlarının genişləndirilməsi və stimullaşdırılma mexanizmlərinin tətbiqi;
- dövlət uşaq müəssisələri işçilərinin peşə yönümünün dəyişdirilməsi və sosial işçilərin hazırlanması sisteminin yaradılması;
- ailələrə verilmiş uşaqların vəziyyətinin monitorinqinin aparılması və onlara sosial xidmətlər (təhsil, səhiyyə, reabilitasiya) mexanizmlərinin yaradılması.

Proqramın məqsədlərinin icra edilməsi, eləcə də problemin səmərəli həlli məqsədilə

aşağıdakı məsələlərin kompleks yerinə yetirilməsi vacibdir:

- Qanunvericilik bazasını təkmilləşdirmək;
- Ailələrə qaytarılmış (verilmiş) uşaqların ailələrinə məqsədyönlü maliyyə dəstəyi göstərmək;
- Dövlət uşaq müəssisələrini icma və ailə əsaslı müəssisələrə çevirmək;
- Uşaqların dövlət uşaq müəssisələrinə yerləşdirilməsinin nəzarət mexanizmlərini (Gate-keeping) yaratmaq;
- Müəssisələrdə uşaqların sayının artmasının qarşısını almaq məqsədilə sistemli olaraq risk qrupuna daxil olan uşaq və ailələr arasında preventiv tədbirlər həyata keçirmək;
- Kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyətin məlumatlandırılması istiqamətində işlər görmək;
- Ailələrə verilmiş uşaqları təhsilə cəlb etməklə bərabər, onlar üçün tibbi və reabilitasiya xidmətlərini yaratmaq;
- Dövlət Proqramı qarşısında duran məsələlərin yerinə yetirilməsi üçün dövlət strukturları və QHT-lər arasında sıx əməkdaşlığın yaradılmasına kömək etmək.

2006-cı ilin oktyabr–noyabr aylarında Təhsil, Maliyyə, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə dövlət uşaq müəssisələrində monitorinq aparılmışdır. Monitorinqin nəticələri Təhsil Nazirliyində 31 oktyabr 2007-ci il tarixində Kollegiya iclasında müzakirə edilmişdir. İclasa əlaqədar qurumların məsul şəxsləri dəvət olunmuşdur. Monitorinqdən sonra Anton Makarenko adına humanitar fənlər təmayüllü internat məktəbin bazasında humanitar fənlər təmayüllü gimnaziya, Gəncə şəhər 2№-li internat məktəbinin bazasında xarici dillər təmayüllü gimnaziya, Ağdaş və Şamaxı rayonları internat məktəblərinin bazasında müvafiq olaraq texniki, təbiət və humanitar fənlər təmayüllü gimnaziya və lisey, Naxçıvan MR Culfa rayon internat məktəbinin bazasında isə orta ümumtəhsil məktəbi yaradılmışdır. Bununla da Təhsil Nazirliyinin tabeliyində olan dövlət uşaq müəssisələrinin sayı 50-yə enmişdir.

Adı çəkilən Dövlət Proqramının səmərəli həyata keçirilməsi və idarəolunması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 iyun 2007-ci il tarixli Sərəncamı ilə 5 nəfərdən ibarət İşçi Qrupu yaradılmışdır.

Proqramın icrasında uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, habelə uşaq evləri, internat tipli dövlət uşaq müəssisələrinin transformasiyası qarşıya qoyulan ən mühüm vəzifələrdir. Qarşıda duran ilkin vəzifələrdən biri dövlət uşaq müəssisələrində qiymətləndirmənin keçirilməsi idi. Bu qiymətləndirmənin ilkin məqsədi müəssisə, onun infrastrukturu, orada yaşayan uşaqlar, müəssisələrdə çalışan işçilər barədə hərtərəfli məlumatların yığılması və məlumat bazasının yaradılması idi. Bu məqsədlə Dövlət Proqramının həyata keçirilməsi və idarəolunması üzrə İşçi Qrup və UNICEF-in ekspertləri tərəfindən səkkiz adda sorğu anketi tərtib edildi. Sorğu anketləri Təhsil Nazirliyinin və Dövlət Proqramının icrasına məsul olan digər əlaqədar nazirliklərin məsul əməkdaşlarının iştirakı ilə keçirilən müşavirədə müzakirə edildi. Sorğuların

keçirilməsi üçün təlimat hazırlanaraq, qiymətləndirməni aparan İşçi Qrupu ilə treninqlər keçirildi. Hər bir sorğu vərəqi sınaqdan çıxarıldı. Qiymətləndirmə əvvəlcədən müəyyən olunmuş cədvəl üzrə 55 müəssisənin hər birinə səfər edilərək həyata keçirildi. Qiymətləndirmə aparılan 55 dövlət uşaq müəssisəsinin 53-ü Təhsil, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin tabeliyində fəaliyyət göstərən uşaq evi və internat tipli müəssisələr idi. Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Oğlanlar üçün açıq tipli xüsusi məktəb və Quba xüsusi peşə məktəbində təlim-tərbiyə alıb yaşayan uşaqların əksəriyyətinin valideyn himayəsindən məhrum olması səbəbindən hər iki müəssisə qiymətləndirilən müəssisələrin siyahısına əlavə edilmişdir.

Dövlət Proqramının qarşısında duran əsas məqsədlərdən biri də uşaqların öz bioloji ailələrinə qaytarılmasıdır. Bu səbəbdən qiymətləndirmə zamanı uşaqların ailələri ilə olan əlaqələri də araşdırılırdı. Uşaqların ailəsi ilə olan əlaqələrini müəyyənləşdirmək məqsədilə, uşaqlar qiymətləndirmə aparan mütəxəssislər tərəfindən 3 qrupa bölündülər:

1. Hər şənbə və bazar evə gedənlər – 1329 nəfər;
2. Hərdənbir evə gedənlər – 2030 nəfər;
3. Ümumiyyətlə evə getməyən uşaqlar – 696 nəfər.

Təhsil Nazirliyi UNICEF-in ekspertləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səhiyyə Nazirliyinin əməkdaşları ilə birlikdə 55 dövlət uşaq müəssisəsində keçirilmiş qiymətləndirmə nəticəsində dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Plan hazırlandı. Digər əlaqədar qurumlardan müsbət rəy alındıqdan sonra 2009-cu ilin aprel ayında plan hökumət tərəfindən təsdiq edildi və icra üçün Təhsil, Səhiyyə, Maliyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə göndərildi.

2009-cu ilin 12–14 may tarixlərində Qırğızıstanın Bişkek şəhərində keçirilən «Uşaqların müdafiəsi sisteminin islahatları üzrə II Beynəlxalq forum»da Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim olunan Transformasiya üzrə Baş Plan forum iştirakçıları və beynəlxalq ekspertlər tərəfindən maraqla qarşılandı və digər iştirakçı dövlətlərə bir model və müsbət təcrübə nümunəsi kimi tövsiyə edildi.

Baş Plana görə uşaqların daimi olaraq yaşamadığı müəssisələrin qısa müddət ərzində ümumtəhsil məktəblərinə transformasiya olunması planlaşdırılır.

Transformasiya üzrə Baş Plan hökumət tərəfindən qəbul edildikdən sonra 30 dövlət uşaq müəssisəsinin 3 il ərzində transformasiya olunması nəzərdə tutulmuşdur.

Baş Plana əsasən 9 ümumtəhsil internat məktəbi ümumtəhsil məktəbinə çevrilmiş və Təhsil Nazirliyinin tabeliyində olan dövlət uşaq müəssisələrinin sayı 48-dən 39-a enmişdir. Eyni zamanda hər üç aydan bir uşaqların hərəkəti barədə müəssisələrdən məlumatlar toplanır və məlumat bazasına daxil edilir.

Dövlət uşaq müəssisələri

№	Müəssisələr	Sayı
1.	SN tabeliyində	3
2.	ƏƏSMN tabeliyində	2
3.	TN tabeliyində	39
Cəmi:		**44**

Uşaqlar verilən ailələrin stimullaşdırılması, onlara maliyyə dəstəyinin verilməsi, ailədə belə uşaqlara ayrılmış müavinətin xərclənməsinin monitorinqi mexanizmlərinin hazırlanması məqsədilə Təhsil Nazirliyinə beynəlxalq ekspert cəlb edilmişdi. Dövlət uşaq müəssisəsində bir uşağa düşən xərclərlə alternativ xidmətdə bir uşağa düşən xərcin müqayisəli təhlilini və birbaşa uşağa yönələn xərclərlə müəssisənin saxlanması xərcləri və digər müqayisəli təhlillər aparılmış, İşçi Qrupu tərəfindən toplanmış və ekspertlərə təqdim olunmuş müvafiq məlumatlar əsasında yekun hesabat hazırlanmışdı. İnternat məktəblər, uşaq evləri, günərzi və reabilitasiya-inkişaf mərkəzlərinin nümunəvi nizamnamə layihələri hazırlanaraq hökumətə təqdim olunmuşdu.

Hazırda övladlarına sərbəst şəkildə qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması məqsədilə Təhsil Nazirliyi sağlamlıq imkanları məhdud və sosial cəhətdən çətin vəziyyətdə olan ailələrin uşaqlarının rifahının yaxşılaşdırılmasına, onların cəmiyyətə inteqrasiyasına, təhsilə cəlb edilməsinə və asudə vaxtlarının səmərəli təşkilinə yönəldilmiş tədbirlər həyata keçirir. «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı»nın Tədbirlər Planına və dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Plana əsasən 4 günərzi qayğı və reabilitasiya-inkişaf mərkəzi yaradılmışdır. Mərkəzlərin binaları Təhsil Nazirliyi tərəfindən yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Eyni zamanda mərkəzlərə inkişafetdirici təlim materialları, reabilitasiya yönümlü avadanlıqlar verilmişdir. Müəssisədə çalışan işçilərə de-institusionalizasiya prosesi, sosial iş, uşaqlara fərdi yanaşma və hər bir uşaq üçün fərdi qayğı, fərdi təlim planlarının hazırlanması üzrə treninqlər təşkil edilmişdir.

İlk yaradılan günərzi qayğı mərkəzi 2№-li uşaq evinin nəzdində təşkil edilmişdir. Günərzi qayğı mərkəzi risk qrupuna daxil olan, valideynləri işləyən, aztəminatlı ailələrin məktəbyaşlı uşaqları üçün gün ərzində təmin edilən qayğı növüdür. Mərkəzin yaradılmasında məqsəd uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasıdır. Belə ki, mərkəzin fəaliyyətə başlaması ilə uşaq evinə ölkənin digər bölgələrindən olan uşaqların qəbulu dayandırılmışdır. Günərzi qayğı mərkəzinə Suraxanı rayonu ərazisində yaşayan və risk qrupuna daxil olan, aztəminatlı, çətin yaşayış şəraitində olan ailələrin uşaqları yerli icra hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqları üzrə komissiya tərəfindən yönəldilir. Baş Plana əsasən tədricən uşaq evi bütövlükdə «Günərzi Qayğı Mərkəzi»nə çevriləcək.

Mərkəzdə psixoloq və loqoped xidmətləri göstərilir. Mərkəz aşağıdakı xidmətləri həyata keçirir:

- Uşaqların müasir tələblərə uyğun yeni bilik və bacarıqlara yiyələnmələrini təmin etmək;
- Uşaqların ev tapşırıqlarının hazırlanmasını təmin etmək;
- Uşaqların tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirmək;

- Uşaqların fiziki inkişafını təmin etmək;
- Valideynlər və uşaqlara psixoloji xidmət göstərmək.

Günərzi qayğı mərkəzi gün ərzində 10–12 saat fəaliyyət göstərir və uşağın mərkəzdə olma müddəti onun ehtiyaclarından asılıdır. Burada hər bir uşaq üçün ayrıca fərdi qayğı planı hazırlanır və plana uyğun olaraq uşaqla iş aparılır.

Əsas məqsəd isə günərzi qayğı mərkəzində hər bir uşağa göstərilən qayğı nəticəsində onun cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasını təmin etməkdir.

Maraq və bacarıqlarına əsasən uşaqlar mərkəzdə yaradılmış müxtəlif dərnəklərə (güləş, bacarıqlı əllər, rəqs, rəsm, kompyuter) cəlb olunurlar. Mərkəzin işçiləri uşağı dərsdən sonra təhsil aldığı məktəbdən mərkəzə gətirir. Uşaqların axşam evlərinə nəqliyyat vasitəsilə aparılması mərkəz tərəfindən təmin edilir. Bu məqsədlə mərkəzə proqram çərçivəsində Təhsil Nazirliyi tərəfindən mini sərnişin avtobusu verilmişdir.

Bakı şəhərində yerləşən 11№-li və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəbinin,



Bakı şəhəri 2№-li uşaq evinin nəzdindəki «Günərzi qayğı mərkəzi»ndə

Bərdə şəhər inklüziv komponentli məktəbin nəzdində reabilitasiya – inkişaf mərkəzləri yaradılmışdır. Mərkəzlər risk qrupuna daxil olan, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulub. Mərkəzlərdə, həmçinin psixoloq, loqoped, inkişaf terapiyası (yəni uşaqlara özünəxidmət bacarıqlarının aşılanmasını öyrədən xüsusi pedaqoq) xidmətlərinin göstərilməsi nəzərdə tutulmuşdur. Psixoloq uşaq və onun ailəsi ilə kompleks şəkildə iş aparır. Mərkəzlər, eyni zamanda aşağıdakı xidmətləri həyata keçirir;

- Sağlamlıq imkanları məhdud uşaqların həyati bilik və bacarıqlara yiyələnmələrini təmin etmək (yəni müstəqil olaraq özünəxidmət bacarıqlarının inkişaf etdirilməsi);
- Oyunlar vasitəsilə sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki cəhətdən inkişafına yardım etmək;
- Valideynlərə və uşaqlara psixoloji xidmət göstərmək;
- Sağlamlıq imkanları məhdud uşaqlara günərzi qayğı xidmətləri göstərmək;
- Mərkəzlərdə keçirilən reabilitasiya proqramlarına valideynləri cəlb etmək;
- Uşaqlara ev tapşırıqlarının hazırlanmasında kömək etmək;
- Valideynlərə uşaqların hüquqları ilə bağlı hüquqi müvəkkillik xidmətləri göstərmək (yəni uşaqlara düşən sosial müavinətlərin, güzəştli dərman preparatlarının alınmasında kömək etmək, təhsilə cəlb etmək və s.);
- Sağlamlıq imkanları məhdud uşaqların ailə üzvlərini onların gündəlik həyatında aktiv rol oynamağa cəlb etmək.

Bərdə internat orta məktəbi uşaq gecələməyən 6 müəssisədən biri idi ki, hazırda inklüziv komponentli ümumtəhsil məktəbinə transformasiya olunmuşdur.


Mərkəzlərin binası Təhsil Nazirliyi tərəfindən yeni tikilmiş, Dövlət Proqramına ayrılmış vəsait hesabına inkişafetdirici təlim materialları və müvafiq inventar, avadanlıqla təchiz edilmişdir. 11№-li və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəblərinə mərkəzlərə cəlb edilmiş uşaqların daşınması üçün mini avtobus verilmişdir.

«Uşaqların xilası» təşkilatı tərəfindən yaradılmış «Mingəçevir uşaq və ailələrə dəstək mərkəzi» Nazirlər Kabinetinin 5 fevral tarixli Sərəncamına əsasən Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Mərkəz sağlamlıq imkanları məhdud uşaqlara günərzi və reabilitasiya xidmətləri göstərməklə yanaşı, risk qrupuna daxil olan, müəssisəyə düşmək riski qarşısında olan uşaqlar və onların ailələri ilə profilaktik iş aparır. Onlara psixoloji dəstək, valideyn bacarıqlarının artırılması və hüquqi müvəkkillik kimi xidmətlər göstərir. Bu mərkəzin göstərdiyi xidmətlərin nəticəsidir ki, Mingəçevirdən 1 il ərzində yalnız 1 uşaq çətin tərbiyə olunan uşaqlar üçün müəssisəyə yerləşdirilmişdir. Mərkəzlərdə daimi limit yerin olması nəzərdə tutulur ki, ehtiyac yarandıqda çətin vəziyyətdə qalan uşaqların bu xidmətə yönəldilməsi mümkün olsun.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 mart 2011-ci il tarixli Sərəncamı ilə



Mingəçevir uşaq və ailələrə dəstək mərkəzində



«Məslək» sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzində

«Məsləkə» sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzi Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Mərkəzdə reabilitasiya xidmətlərində çalışan mütəxəssislər Təhsil Nazirliyi ilə UNICEF-in birgə keçirdiyi təlimlərə cəlb edilmişlər. Mərkəzdə alternativ xidmətlərə cəlb edilmiş hər bir uşağın qiymətləndirilməsi və onlara fərdi təlim planının tərtib olunmasında tövsiyələrin verilməsi, uşaqlarla aparılan reabilitasiya işinin keyfiyyətinin monitorinqi həyata keçirilir. Mərkəzin xidmətlərindən 40 nəfər uşaq istifadə edir.

Evdə təhsilə cəlb olunmuş məktəb yaşlı uşaqlar mərkəzin xidmətlərindən istifadə etdiyinə görə evdə təhsilə təhkim olunmuş müəllimlərin mərkəzə gəlməsi və tədris prosesinin təşkil edilməsi üçün müvafiq şərait yaradılmışdır. Yay tətilində mərkəzə yaxın ərazidə yaşayan aztəminatlı ailələrin əlilliyi olan uşaqlarının asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə mərkəzdə yay düşərgəsi də təşkil edilir. Valideynlər içərisindən tərbiyəçi köməkçisi qismində könüllülər işə cəlb edilir.

Mərkəzlərin yaradılması ilə 268 nəfər uşağın dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır.

Dövlət Proqramından irəli gələn bir sıra mühüm vəzifələrin kompleks şəkildə yerinə yetirilməsinin zəruriliyini, müəssisələrin fəaliyyətinin Proqramın vəzifələrinə uyğun qurulmasının, uşaqların müdafiəsi ilə bağlı qurumlararası koordinasiyanın effektiv şəkildə təmin edilməsinin vacibliyini nəzərə alaraq, **Nazirlər Kabinetinin 5№-li 13 yanvar 2010-cu il tarixli qərarına əsasən «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006–2015-ci illər)»nın səmərəli idarə olunmasının təmin edilməsi məqsədi ilə Təhsil Nazirliyinin nəzdindəki İşçi Qrupunun bazasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdində De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi yaradıldı.**

İdarənin qarşısında duran əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı əlaqədar dövlət və qeyri-dövlət təşkilatları arasında koordinasiyanı təmin etmək;
- Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələri və alternativ qayğı müəssisələrinə təşkilati-pedaqoji, tədris-metodiki rəhbərliyi həyata keçirmək, bu tipdən olan müəssisələrin fəaliyyətinin Dövlət Proqramının tələblərinə uyğun qurulmasını təmin etmək;
- Dövlət uşaq müəssisələrindən uşaqların bioloji və ya alternativ ailələrə verilməsini təmin etmək və onların vəziyyətinin dövrü monitorinqini keçirmək;
- Dövlət uşaq müəssisələrində olan uşaqların sayının artmasının qarşısını almaq məqsədilə risk qrupundan olan (uşaqların ailələrdən belə müəssisələrə verilməsi baxımından) uşaqlar və ailələr arasında sistemli şəkildə preventiv tədbirlər həyata keçirmək;
- Övladlıq, qəyyumluq (himayə), himayədarlığa verilmə prosesində birbaşa iştirak etmək;

– Valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud və müdafiəyə ehtiyacı olan uşaqların rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək.

De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi Təhsil Nazirliyi sistemində olan dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan və yerləşdirilən valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların vaxtında aşkar edilməsi, yerləşdirilməsi, övladlığa, qəyyumluğa (himayəyə) və himayədarlığa verilməsi və rəsmi statistik hesabatların alınması ilə bağlı işlərin Rayon və Şəhər İcra hakimiyyətləri nəzdində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Bundan əlavə, İdarə risk qrupuna daxil olan, sağlamlıq imkanları məhdud uşaqların vaxtında aşkar olunması və onların müdafiəsi ilə bağlı preventiv tədbirlərin görülməsi üçün təhsil şöbələrinin uşaq mühafizəsi üzrə məsləhətçiləri, ümumtəhsil məktəblərində uşaq birliyinin rəhbərləri, psixoloq və təşkilatçı vəzifəsində çalışan, məktəbəqədər təhsil müəssisələrində isə metodist vəzifəsində çalışan işçiləri ilə sıx əməkdaşlıq edir.

Təhsil Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə üzrə ümumilikdə 465 nəfər uşağın dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır.

Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyi bir çox beynəlxalq və qeyri-dövlət təşkilatları ilə birgə pilot layihələr həyata keçirir.

«Hər kəs üçün icma təşəbbüsü: Azərbaycan» pilot layihəsi Təhsil Nazirliyinin həyata keçirdiyi ilk layihələrdəndir. Layihənin icrası ilə bağlı Təhsil Nazirliyi və Açıq Cəmiyyət Əqli Sağlamlıq Təşəbbüsü Təşkilatı arasında 24 sentyabr 2007-ci ildə Anlaşma Memorandumu imzalanmışdır. Uşaqların internat tipli uşaq müəssisələrindən tədricən bioloji və alternativ ailələrə verilməsi və ailə mühitinə yaxın icma əsaslı xidmətlərin yaradılması 2008–2012-ci illəri əhatə edən layihənin əsas məqsədidir. Suraxanı rayonu ərazisində yerləşən əqli cəhətdən geriliyi olan uşaqlar üçün 7№-li xüsusi internat məktəb pilot müəssisə seçilmişdir. Layihə çərçivəsində müəssisədəki şagird kontingenti və onların ailələrinin vəziyyətinin qiymətləndirilməsi həyata keçirilmişdir. Şagirdlərin ilkin qiymətləndirilməsi zamanı onların psixi statusu və sosial-psixoloji inkişafının qiymətləndirilməsi də həyata keçirilmişdir. Qiymətləndirmə zamanı bəzi uşaqların diaqnozuna yenidən baxılmasına zərurət yaranmışdır. Bu məqsədlə Təhsil Nazirliyinin 13 oktyabr 2009-cu il tarixli əmrinə əsasən layihənin koordinatoru, Səhiyyə və Təhsil nazirliklərinin müvafiq mütəxəssisləri cəlb edilməklə komissiya yaradılmışdır.

Əvvəlcədən tərtib olunmuş qiymətləndirmə formaları əsasında müəssisədə gecələyən hər bir uşağın yenidən qiymətləndirilməsi aparılmışdır. Komissiya işini başa çatdırmış və Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən 75 nəfər uşağın diaqnozunda müvafiq dəyişikliklər aparılmışdır. Pilot layihənin Təhsil Nazirliyi ilə razılaşdırılmış Fəaliyyət Planına əsasən 7№-li xüsusi internat məktəbin nəzdində reabilitasiya mərkəzinin və sosial işçilərdən

ibarət «Gate-keeping» komandasının yaradılması da nəzərdə tutulmuşdur.

Dövlət uşaq müəssisələrindən uşaqların bioloji və ya digər alternativ ailələrə verilməsi, sağlamlıq imkanları məhdud, əlil, valideyn himayəsindən məhrum və sosial cəhətdən müdafiəyə ehtiyacı olan ailələrin uşaqlarının hüquqlarının qorunması, uşaqların ehtiyaclarına uyğun xidmətlərə yönəldilməsi, erkən nikahların qarşısının alınması kimi həlli vacib tədbirlərin səmərəli icrasını təmin etmək məqsədilə «Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi» pilot layihəsi hazırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 10 fevral 2010-cu il tarixində imzalanmış Sərəncama əsasən layihənin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərlərinə səlahiyyət verilmişdir. 9 mart 2010-cu il tarixində Təhsil Nazirliyində qurumlar arasında Anlaşma Memorandumu imzalanmışdır.

Layihənin məqsədi seçilmiş pilot rayonda uşaqların bioloji və ya alternativ ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi, risk qrupuna daxil olan uşaqların müəssisəyə düşməsinin qarşısının alınması üçün uşaqların müdafiəsinin təmin edilməsidir.

Pilot layihədən gözlənilən nəticələr aşağıdakılardan ibarət olacaqdır:

1. Uşaqların müəssisələrə düşməsinin qarşısı alınacaq (Gate-keeping) və müdafiə sistemi yaradılacaq;

2. Alternativ ailə qayğı sistemi və icma əsaslı sosial xidmətlər yaradılacaq;

3. Övladlığa, qəyyumluğa və himayəyə veriləcək uşaqlar və namizəd ailələr üzrə məlumat bankı yaradılacaq;

Pilot layihə çərçivəsində:

- Təhsil Nazirliyi tərəfindən pilot layihənin əlaqələndirilməsi, uşaqların müəssisəyə düşməsinin qarşısının alınması, müəssisələrdə yaşayan uşaqlar üçün alternativ qayğının təşkili, ailələrə verilmiş uşaqların vəziyyətinə nəzarət edən sistemin yaradılması, təhsildən kənarda qalan və sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlb edilməsi həyata keçiriləcəkdir.
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial yönümlü icma əsaslı xidmətlərin yaradılması, sosial işçilərin hazırlanması, aztəminatlı ailələr üçün sosial reabilitasiya proqramı, alternativ ailələr üçün sosial müavinətlərin və maddi yardımın məbləği barədə təkliflərin verilməsi həyata keçiriləcəkdir.
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən rayonlar səviyyəsində təbliğat və maarifləndirmə işinin aparılması, uşaq hüquqları konvensiyası barədə əhalinin məlumatlandırılması (müşavirələr, plakatlar, buklet-lər və s.), pilot seçilmiş rayonlarda uşaqların hüquqlarının qorunmasının təmin edilməsi məqsədi ilə əlaqədar qurumların nümayəndələri ilə dəyirmi masaların keçirilməsi, rayonlar səviyyəsində uşaqların müəssisələrə düşməsinin

qarşısının alınması məqsədi ilə risk qrupuna daxil olan uşaqların valideynlərinin maarifləndirilməsi, kütləvi informasiya vasitələrinin nümayəndələri üçün alternativ qayğı və uşaq müdafiə sistemi barədə treninqlərin təşkili həyata keçiriləcəkdir.

– UNICEF uşağın ailə mühitində böyümək hüququ barədə ictimai maarifləndirmənin aparılmasını, uşaqların müdafiə və qayğı xidmətlərinin yaradılması istiqamətində təlimatların, standartların, pilot seçilmiş müəssisələrdə yaşayan uşaqların fərdi qayğı planının tərtib edilməsi metodologiyasının hazırlanmasında texniki yardım göstərəcək və layihənin qiymətləndirilməsi barədə yekun hesabatı hazırlayacaqdır.

Layihənin icrası istiqamətində qarşıda duran ilkin fəaliyyət pilot seçilmiş Xəzər və Suraxanı rayonlarında uşaqların müdafiəsi ilə bağlı vəziyyətin araşdırılması, rayonun sosial xəritəsinin hazırlanması idi. Bu məqsədlə 2009-cu ilin iyul–avqust aylarında sorğular keçirilmiş, uşaq müdafiəsi ilə məşğul olan dövlət strukturları və qeyri-hökumət təşkilatlarına səfərlər edilmiş və məlumatlar toplanmışdır.

Pilot seçilmiş Xəzər və Suraxanı rayonlarında 2009-cu ilin iyun–avqust aylarında Təhsil Nazirliyi və UNICEF tərəfindən birgə sorğular keçirilmişdir. Eyni zamanda pilot rayon ərazisində yerləşən müvafiq dövlət qurumunun rəhbəri ilə aparılmış fərdi müsahibələrdə uşaqların müdafiəsi sahəsində digər dövlət qurumları ilə əməkdaşlıq əlaqələrinin vəziyyəti araşdırılmışdır.

Ümumilikdə sorğular, pilot rayonların icra hakimiyyətləri nəzdindəki yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının qorunması üzrə komissiyalar ilə qəsəbə nümayəndəliklərində, bələdiyyələrdə, mənzil istismar sahələrində, rayon polis idarələri və bölmələrində, sosial müdafiə fondunun rayon şöbələri və sosial müdafiə mərkəzlərində, uşaq poliklinikalarında, məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrində, mədəniyyət evlərində, rayonun idman və gənclər idarəsində, idman klublarında, istehsal, sənaye müəssisələrində, biznes və ictimai iaşə obyektlərində, poçt və rabitə idarələrində keçirilmişdir.

Sorğular zamanı ünvanlı sosial yardım alan və himayəsində azyaşlı uşaqlar olan ailələrin adlı siyahısı, ailə başçısını itirmiş və himayəsində azyaşlı uşaqlar olan ailələrin siyahısı, uşaq poliklinikalarından 0-18 yaş arası əlilliyi olan uşaq və yeniyetmələrin siyahısı, sosial müdafiə mərkəzindən 0-18 yaş arasında əlilliyi olan və buna görə müavinət alan uşaqların siyahısı, ərazidə yaşayan və himayəsində azyaşlı olan və Qarabağ, 20 Yanvar şəhid ailələri, ailə başçısı Çernobıl qəzasında zərərçəkmiş və əlil olmuş ailələrin adlı siyahısı kompyuter bazasına daxil edilmişdir. Məktəbəqədər tərbiyə müəssisələri və məktəblərdən sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan, qanunla ziddiyyətdə olan, məktəbdən yayınan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sayı, eləcə də risk qrupuna daxil olan, çoxuşaqlı, bu və ya digər səbəbdən tək valideynli, uğursuz (nikahı ləğv edilmiş), bir və ya hər iki valideynində əlillik olan, fövqəladə hal və ya müharibə

vəziyyəti ilə bağlı məcburi köçkün ailələrin sayı barədə məlumatlar toplanmışdır. Bu məlumatlar xüsusi kompyuter proqramına yığılmış və təhlil olunmuşdur.

«Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi» pilot layihəsinin həyata keçirilməsi üçün rayondakı mövcud vəziyyət barədə ətraflı məlumat əldə olunmuş, UNICEF və Təhsil Nazirliyinin əməkdaşları tərəfindən məlumatların təhlili nəticəsində rayonun sosial xəritəsi hazırlanmışdır.

«Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi» pilot layihəsinin icrası istiqamətində Dövlət Proqramının Tədbirlər Planının 7-ci maddəsinə əsasən Təhsil Nazirliyi ilə UNICEF-in beynəlxalq eksperti və De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin əməkdaşları tərəfindən 3 ay müddətində ölkədə uşaqların müdafiəsinə dair mövcud qanunvericilik ətraflı təhlil olunmuş, bir sıra normativ-hüquqi sənəd layihələri hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. («Uşaqların ailələrə və alternativ qayğı müəssisələrinə yerləşdirilməsi Qaydaları», «Dövlət uşaq müəssisələrində yaşayan uşaqların öz bioloji ailələrinə reinteqrasiyası və digər formalarda yerləşdirmə Qaydaları», «Uşaq inkişaf və dəstək mərkəzinin nümunəvi əsasnaməsi», «Müvəqqəti sığınacağın nümunəvi əsasnaməsi», «Ailə və uşaqlarla sosial işin təşkili üzrə Qaydalar», «Himayədar (foster) qayğı xidmətlərinin standart və Qaydaları», «Ailə tipli kiçik qrup evlərinin standart və Qaydaları», «Kiçik qrup evi haqqında Nümunəvi Nizamnamə» və «Himayədar (foster) ailə haqqında Nümunəvi Nizamnamə»). Hal-hazırda «Müəssisədə yaşayan uşaqların ailələrə verilməsi və alternativ qayğıya cəlb edilməsi» layihəsinin icrası istiqamətində «Uşaqların ailələrə və alternativ qayğı müəssisələrinə yerləşdirilməsi Qaydaları», «Dövlət uşaq müəssisələrində yaşayan uşaqların öz bioloji ailələrinə reinteqrasiyası və digər formalarda yerləşdirmə Qaydaları», «Ailə və uşaqlarla sosial işin təşkili üzrə Qaydalar» pilot seçilmiş Xəzər və Suraxanı rayonlarında yerləşən dövlət uşaq müəssisələrində sınaqdan keçirilir. Qeyd olunan sənədlər beynəlxalq norma və standartlara uyğunlaşdırılmış monitorinq mexanizmini özündə tam əks etdirir.

Eyni zamanda valideyn himayəsindən məhrum uşaqların ailədə yaşamaq hüququnu təmin etmək məqsədilə onlar üçün ailəni əvəz edən alternativ xidmətlərin yaradılması işinə də başlanmışdır. Nazirlər Kabinetinin 15 mart 2010-cu il tarixli Sərəncamına əsasən, 16 mart 2010-cu il tarixində Təhsil Nazirliyi ilə Avstriyanın «Hilfsverk Avstriya» beynəlxalq təşkilatı arasında «Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması» layihəsinin həyata keçirilməsi məqsədilə birgə əməkdaşlıq çərçivəsində Qrant Sazişi imzalanmışdır.

Layihənin məqsədi Azərbaycanda alternativ qayğı növü olan himayədar (foster) ailə sisteminin yaradılmasıdır. Layihə Avropa Komissiyası və Avstriyanın Hilfsverk beynəlxalq təşkilatının maliyyə dəstəyi ilə həyata keçirilir. Layihə çərçivəsində Xəzər rayonu ərazisindəki internat məktəblərdə yaşayan və

övladlığa verilməsi mümkün olmayan, himayədar ailələrə veriləcək 50 nəfər uşaq və 50 himayədar ailə seçiləcəkdir. Hazırda müəssisələrdə yaşayan uşaqların qiymətləndirilməsi zamanı himayəyə veriləcək uşaqların təxmini siyahısı müəyyənləşdirilmişdir. Layihə çərçivəsində Təhsil Nazirliyi tərəfindən daim müəssisədə yaşayan 10 uşağın yaşayacağı ailə əsaslı kiçik qrup evinin binası tikilmişdir. Evin saxlanma xərcləri layihəyə ayrılmış vəsait hesabına həyata keçiriləcəkdir.

Hər iki layihənin icrası ilə bağlı Tədbirlər Planı hazırlanmış, digər icraçı qurumların rəy və təklifləri nəzərə alınaraq təsdiq edilmiş, icra üçün digər tərəfdaş qurumlara göndərilmişdir. Layihənin Tədbirlər Planına uyğun olaraq fəaliyyətlərin əlaqələndirilməsini təmin etmək məqsədilə Xəzər və Suraxanı Rayon İcra hakimiyyətləri başçılarının müvafiq sərəncamları ilə hər iki rayonda Koordinasiya Komitələri yaradılmışdır. Koordinasiya Komitəsinin tərkibinə Sosial Müdafiə Mərkəzinin müdiri, Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin müdiri, birləşmiş şəhər xəstəxanasının baş həkimi, Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı şöbəsinin müdiri, rayon məhkəməsindən bir nəfər hakim, bələdiyyə sədri, Rayon İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın katibi, Rayon İcra Hakimiyyətinin Təhsil, Səhiyyə və Mədəniyyət şöbəsinin müdiri cəlb edilmişdir.

Koordinasiya Komitəsi aşağıdakı vəzifələri həyata keçirir:

- Pilot seçilmiş rayonlarda risk qrupuna daxil olan uşaqlar haqqında əldə olunmuş məlumatları De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinə yönəldir.
- Pilot seçilmiş rayonlarda uşaqların rifahının yaxşılaşdırılması məqsədilə zəruri xidmətləri müəyyənləşdirərək onların təşkili ilə bağlı aidiyyəti üzrə müvafiq orqanlar qarşısında vəsatət qaldırır.
- Risk qrupuna daxil olan uşaq və ailələri böhrana məruz qoyan əsas səbəbləri araşdırır və onların aradan qaldırılması istiqamətində aidiyyəti üzrə yerli dövlət qurumları qarşısında vəsatət qaldırır.
- Mütəmadi olaraq ayda bir dəfə iclas keçirir, zəruri hallarda isə növbədənkənar iclas keçirir.
- Görülən işlər barəsində Təhsil Nazirliyinə və müvafiq Rayon İcra Hakimiyyəti rəhbərliyinə rüblük hesabat verir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı»nın icrası istiqamətində Təhsil Nazirliyi tərəfindən hər iki rayon üzrə işə cəlb edilmiş 6 nəfər uşaq müdafiəsi üzrə mütəxəssis tərəfindən Xəzər və Suraxanı rayonlarında layihənin icrası ilə bağlı vəzifələr yerinə yetirilir. Hər iki rayonda uşaqların müdafiəsi ilə əlaqədar müraciətlərə Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi Komissiyaları ilə birgə baxılır və müvafiq tədbirlər görülür. Eyni zamanda onlar görülən işlər barədə ayda bir dəfə Koordinasiya Komitəsinə və Təhsil Nazirliyinə hesabat verirlər. Layihə çərçivəsində rayon ərazilərində uşaqların müəssisələrə düşməsinin qarşısı alınır, alternativ ailə qayğı sistemi

və icma əsaslı sosial xidmətlər təşkil edilir, övladlığa, qəyyumluğa və himayədarlığa veriləcək uşaqlar, namizəd ailələr üzrə məlumat bankının yaradılması üçün məlumatlar toplanılır.

Dövlət Proqramının Tədbirlər Planına əsasən qarşıda duran vəzifələrdən biri də dövlət uşaq müəssisələrində çalışan işçi heyətinin peşə yönümünü dəyişməklə onların sosial işçi kimi hazırlanması, onlara müvafiq təlimlərin keçirilməsidir. Bu məqsədlə 2010–2011-ci tədris ilində Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda «Sosial iş» ixtisası üzrə 9 aylıq kurs təşkil edilmişdir. Dövlət uşaq müəssisələrində tərbiyəçi vəzifəsində çalışanlar içərisindən 16 nəfər seçilərək kursa cəlb olunmuşdur. Kursun 2010–2011-ci il tədris ili üçün maliyyə xərcləri Əqli Sağlamlıq Təşəbbüsü Təşkilatı tərəfindən ödənilmişdir. 2011–2012-ci tədris ilində də 16 nəfər kursa qəbul olunmuşdur.

2011-ci ilin avqust ayında kursu fərqlənmə ilə bitirmiş müdavimlər üçün Türkiyə Cümhuriyyəti Ankara il Sosyal Hizmetler ve Çocuk Esirgeme Kurumunda sosial iş üzrə təcrübə, Hacettepe Universitetində isə seminar və ustad dərslərinin keçirilməsi də təşkil edilmişdir. Sosial iş üzrə təcrübə zamanı müdavimlərə uşaqlar üçün sosial xidmət göstərən müəssisələrin fəaliyyəti ilə tanış olmaqla yanaşı, ailələrə dəstək işi üzrə Türkiyə təcrübəsi də birbaşa iş prosesində onlara öyrədilmişdir. Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyinin təşəbbüsü ilə 2007-ci ildə Bakı Dövlət Universitetində «Sosial iş» ixtisası üzrə bakalavr səviyyəsində mütəxəssis hazırlığına başlanılmışdır. «Sosial iş» ixtisası üzrə təhsil alanlar içərisindən 4-cü kurs tələbələri 2011–2012-ci tədris ilində ilk məzunlar olaraq ali təhsillərini başa vuracaqlar.

«Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı» uşaqların müdafiəsi ilə bağlı səmərəli tədbirlərin həyata keçirilməsi və konkret müsbət nəticələrin əldə edilməsinə yönəldilmişdir. Uşaqların müdafiəsi ilə bağlı fəaliyyətlərin əlaqələndirilməsi, uşaqların problemlərinə kompleks yanaşmanın təmin olunması ilə bağlı Təhsil Nazirliyi Əmək, Səhiyyə, Maliyyə nazirlikləri və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri ilə qarşıya çıxan aidiyyəti məsələlər üzrə sıx əməkdaşlıq edir.

Rayon və Şəhər İcra hakimiyyətlərinin sərəncamına əsasən müəssisələrdən bioloji ailələrinin və yaxın qohumlarının himayəsinə 107 nəfər uşaq qaytarılmışdır. Uşaqların ailələrə qaytarılması üçün icra hakimiyyətlərinin müvafiq komissiyası və Təhsil Nazirliyinin əməkdaşları tərəfindən ailələrin mənzil şəraitinə baxış keçirilmiş və ailənin gəliri araşdırılmışdır.

Ötən müddət ərzində övladlığa uşaq götürmək arzusunda olan vətəndaşların və övladlığa verilməsi mümkün olan uşaqların siyahısı dəqiqləşdirilmiş və Təhsil Nazirliyində məlumat bazası yaradılmışdır. 2010–2011-ci illərdə Təhsil Nazirliyinin övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş siyahısında olan 12–17 yaş arası 12 uşaq övladlığa verilmişdir, 14 nəfər uşağın övladlığa verilməsi ilə bağlı işlərə isə hazırda rayon məhkəmələrində baxılır.

Təhsil Nazirliyinin məlumat bazasında olan göstəricilərə əsasən 2010-cu il üzrə 44 dövlət uşaq müəssisəsində 9827 nəfər uşaq təhsil alır. Onlardan 3747 nəfəri müəssisədə gecələyən uşaqlardır, qalan 6080 nəfər uşaq müəssisənin yalnız təhsil və günərzi xidmətlərindən istifadə edir, gecəni isə ailəsi ilə birgə keçirir. Təhsil Nazirliyi tərəfindən görülən tədbirlər nəticəsində dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqların sayı ilbəil azalır. 2008-ci ildə 14389 nəfər, 2009-cu ildə 10055 nəfər, 2010-cu ildə isə 9827 nəfər olmuşdur.

2010/11-ci tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən 33 internat məktəb və 6 uşaq evindən 788 nəfər məzun olmuşdur. Onlardan 561 nəfəri 9-cu sinif, 227 nəfəri isə 11-ci sinif üzrə məzun olmuşlar.

9-cu sinfi bitirən məzunlardan 214 nəfəri peşə liseyinə, 7 nəfəri C.Naxçıvanski adına hərbi məktəbə, 26 nəfər orta ixtisas təhsili müəssisələrinə daxil olmuş, 314 nəfəri isə təhsilini ümumtəhsil məktəblərinin 11-ci sinfində davam etdirmişdir. 11-ci sinif məzunlarından 44 nəfər respublikanın müxtəlif ali təhsil müəssisələrində, 13 nəfər orta ixtisas təhsili müəssisələrində və kolleclərdə təhsillərini davam etdirir.16 nəfər məzun iş yeri ilə təmin olunmuş, 25 nəfər məzun isə hərbi xidmətə çağrılmışdır. Müəssisədə gecələyən 4 nəfər kimsəsiz uşaq hazırda da təlim-tərbiyə aldıqları müəssisələrdə yaşayır. Məzunlardan internat məktəblərində təhsil alıb gecələməyən 125 nəfər uşaq isə təhsillərini başa vurub öz bioloji ailələrinin himayəsində yaşayır.

De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi fəaliyyətini beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində qurur.

2009-cu ildən De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi Avropa Birliyi və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən Avropa Sosial Şəbəkəsinin üzvüdür. Avropa Sosial Şəbəkəsi Avropada sosial xidmətlərin keyfiyyətinin artırılması məqsədilə maraqlı tərəflərin birgə fəaliyyətini təmin edən müstəqil təşkilatdır.

Azərbaycan Avropa Birliyinə daxil olmasa da, ölkədə keçirilən bu islahatlar Avropa Sosial Şəbəkəsi tərəfindən xüsusilə qiymətləndirilmiş və istisna hal kimi De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsi təşkilata üzv kimi daxil edilmişdir. Eyni zamanda İdarə Türkiyənin Ankara il Sosyal Hizmetler ve Çocuk Esirgeme Kurumu, Şimali Kipr Sosial Hizmetler Kurumu ilə sıx əməkdaşlıq edir.

2010-cu il 18 fevral tarixindən «Uşaq Qaynar Xətt» xidməti fəaliyyət göstərir. Uşaqlara psixoloji yardım üçün yaradılmış xidmət 24 saat fəaliyyət göstərir. «Uşaq Qaynar Xətt»inə uşaqlar ehtiyacları olduğu zaman müraciət edərək, onları narahat edən mövzu haqqında danışa bilirlər.

«Uşaq Qaynar Xətt»inin əməkdaşları uşağın zənginin anonimliyini qoruyur və yalnız uşağın özünün arzusu əsasında probleminin həlli ilə bağlı müvafiq qurumlar qarşısında vəsatət qaldırır.

«Uşaq Qaynar Xətt» xidmətində çalışan üç nəfər psixoloq, sosial işçi və bir nəfər komanda rəhbəri uşağa ilkin psixoloji yardım, dəstək, reabilitasiya və bərpa mərkəzlərinə və digər xidmətlərə yönləndirmə, habelə təxirəsalınmaz köməklik göstərir.

Uşağın köməksiz qaldığı hallarda onun vaxtında aşkarlanması, zərərli hallardan qorunması və müdafiə ilə təmin edilməsi üçün «Qaynar xətt» xidməti mini avtobus ilə təmin edilmişdir. Beləliklə, zərurət yarandıqda psixoloq və sosial işçilərdən ibarət mobil qrup uşağın yanına gedərək, yerindəcə ona birbaşa kömək etmək imkanına malikdir.

Dövlət Proqramı qarşısında duran əsas vəzifələrdən biri də de-institusionalizasiya prosesi ilə bağlı əhalinin məlumatlandırılmasıdır. Bu istiqamətdə vəsaitlər, bukletlər çap edilərək dövlət uşaq müəssisələrinə, əlaqədar dövlət strukturlarına, beynəlxalq təşkilatlara, QHT-lərə çatdırılmış, televiziya kanallarında xüsusi verilişlər təşkil olunmuş, diskussiyalar aparılmışdır. Təhsil Nazirliyi və UNICEF tərəfindən transformasiyası yaxın müddətdə nəzərdə tutulan müəssisə rəhbərləri, tərbiyə işləri üzrə direktor müavinləri, psixoloqlar və Dövlət Proqramının idarəolunması üzrə İşçi Qrupu üçün təlimlər təşkil edilib. Sosial iş onun ümumi nəzəriyyələri, layihələrin yazılması, strateji planlaşdırma, idarəetmə bacarıqlarının aşılanması, ilkin tədqiqat bacarıqları və s. mövzuları əhatə edən təlimlərin mütəmadi olaraq təşkil edilməsi nəzərdə tutulur.

Dövlət Proqramının icrası istiqamətində görülən işlər barədə mütəmadi olaraq televiziya, radio, mətbuata məlumatlar verilir, eyni zamanda məlumatlandırmanı daha səmərəli həyata keçirmək üçün «Uşaqlar üçün keyfiyyət Standartları» adlı vəsait çap edilmişdir. «Düşüncələrin, prinsiplərin və həyat tərzinin dəyişdirilməsi (3 cilddə)» adlı kitablar tərcümə və nəşr olunmuşdur. Adları qeyd olunan kitablar Şərqi Avropa və Mərkəzi Asiyada keçid dövrünü yaşayan ölkələrdə ailə və uşaqların sosial müdafiəsi sahəsində yaranan problemlərin aradan qaldırılması ilə məşğul olan məsul şəxslərə və mütəxəssislərə vacib məlumatların çatdırılmasına xidmət edir. Uşaqların müdafiəsinin gücləndirilməsi sahəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar və ailələr üçün «Gate-keeping» xidmətləri, uşaqların müdafiəsi xidmətləri üzrə standartların təkmilləşdirilməsi və De-institutlaşma, uşaqlar üçün xidmətlərin transformasiyası məqsədilə qabaqcıl təcrübənin öyrənilməsi üzrə təlimatlar da kitabda yer almışdır.

Dövlət Proqramı çərçivəsində hər ilin sonunda hesabat konfransı təşkil olunur. 23 dekabr 2010-cu il tarixində «2010-cu ilin yekunları və qarşıda duran vəzifələr» mövzusunda beynəlxalq konfrans təşkil olunmuşdur. Tədbirdə Dövlət Proqramı çərçivəsində cari ilin yekunları və 2011-ci ildə görüləcək işlər barədə yekun hesabat verilmişdir. Konfransa Türkiyə Cümhuriyyəti Başbakanlık Sosyal Hizmetler ve Çocuk Esirgeme Kurumu, Ankara il Sosyal Hizmetler Müdürlüyündən, Hacettepe Universitesinin Sosyal Hizmet Bölümündən, Birləşmiş Krallıq Avropa Sosial Şəbəkəsindən və UNICEF-in Azərbaycandakı nümayəndəliyindən sosial xidmətlər üzrə ekspertlər dəvət olunmuş və onların de-institusionalizasiya prosesi ilə bağlı təqdimatları olmuşdur. Bakı Dövlət Universitetində konfransa dəvət olunan xarici ekspertlərin və sosial elmlər və psixologiya fakültəsinin sosial iş ixtisası üzrə təhsil alan tələbələrin birgə iştirakı ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə ekspertlər tərəfindən sosial xidmətlərlə bağlı təqdimatlar edilmiş, tələbələrin sualları cavablandırılmışdır.

İnklüziv təhsil

Dünyada xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin tarixinə nəzər salsaq görərik ki, bu sahədə üçmərhələli inkişaf yolu keçilmişdir. Birinci mərhələ XX əsrin əvvəllərindən 1960-cı ilədək olan dövrü əhatə edir. Bu mərhələdə «tibbi model» tətbiq edilir ki, bu da seqreqasiya (məcburi ayırma, təcridetmə siyasəti, hüquqların məhdudlaşdırılması) adlandırılır. «Tibbi model»in əsasını xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün ayrıca təhsil müəssisələrinin yaradılması və həmin müəssisələrdə uşaqlara müntəzəm tibbi xidmətlərin göstərilməsi, uzunmüddətli müalicə təşkil edirdi. İnkişaf, sosial adaptasiya amilləri müəyyən mənada arxa plana keçirdi. Azərbaycanda da məhz bu mərhələdə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün kütləvi şəkildə internat tipli təhsil müəssisələri, uşaq evləri və xüsusi məktəblər təşkil edilmişdir.

İkinci mərhələ 60–80-ci illəri əhatə edir və bu mərhələdə «normallaşdırma modeli» tətbiq edilir. Bu proses inteqrasiya adlanır. «Normallaşdırma modeli» 1970-ci ildə Skandinaviyada ilk dəfə yaradılmış, sonradan ABŞ və Kanadada daha da inkişaf etdirilmişdir. Bu modelin əsasını aşağıdakı amillər təşkil edirdi: xüsusi qayğıya ehtiyacı olan uşaqlar bütün uşaqlarla eyni tələbatlara malikdirlər, onlar maksimum normal həyata yaxın bir mühitdə yaşamalıdırlar, onlar üçün ən yaxşı mühit öz evləridir və hakimiyyət orqanları səy göstərməlidir ki, həmin uşaqlar evdə tərbiyə olunsunlar. Bütün uşaqlar təhsil ala bilərlər, buna görə də onlara xəstəliklərinin ağırlıq dərəcəsindən asılı olmayaraq, təhsil almaq üçün şərait yaratmaq lazımdır. Bu mərhələdə bir sıra ölkələrdə, o cümlədən ABŞ, Böyük Britaniya, İsveçrə və İtaliyada bütün təhsil sistemi yenidən formalaşdırılır, daha humanist modellərə üstünlük verilirdi. İnternat məktəblər və uşaq evləri ləğv edilir, uşaqlar övladlığa, yaxud patronat ailələrə verilirdi. Azərbaycanda bu mərhələdə irəliləyiş ondan ibarət oldu ki, bir sıra kütləvi təhsil müəssisələrində – uşaq bağçalarında və ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud uşaqların təhsil aldığı korreksiya (dayaq) qrupları və sinifləri yaradılırdı, yəni təhsil müəssisəsi səviyyəsində inteqrasiya həyata keçirilirdi.

Üçüncü mərhələ 80-ci illərdən indiyədək olan dövrü əhatə edir. Bu mərhələdə «sosial model» tətbiq olunur və bu proses inklüzivlik adlanır.

İnklüzivlik sağlamlıq imkanlarından, bacarıqlarından, ailə vəziyyətindən, irqindən, dinindən, dərisinin rəngindən asılı olmayaraq, bütün uşaqların təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakıdır. İnklüziv təhsil dedikdə xüsusi qayğıya ehtiyacı olan uşaqların öz həmyaşıdları ilə birlikdə kütləvi təhsil müəssisələrində təhsilinin təşkili nəzərdə tutulur. İnklüziv təhsil aşağıdakı səkkiz prinsipə əsaslanır:

1. İnsanın dəyəri onun bacarıqları və nailiyyətləri ilə ölçülmür.
2. Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir.
3. Hər bir insan ünsiyyət hüququna malikdir.
4. Bütün insanların bir-birinə ehtiyacı vardır.
5. Əsl təhsil yalnız real qarşılıqlı münasibətlər zəminində həyata keçirilə bilər.
6. Bütün insanlar öz həmyaşıdlarının köməyinə və dostluğuna ehtiyac duyurlar.

7. Bütün təhsilalanların nailiyyətlərinin inkişafı onların nəyi etməyi bacarmaması ilə deyil, nəyi etməyi bacarması ilə ölçülür.
8. Rəngarənglik insanın bütün cəhətlərini inkişaf etdirir.

«İnklüziv təhsil» modeli xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili ilə yanaşı, onların həyata transformasiyasını və inkişafını nəzərdə tutur. Eyni zamanda bu model daha geniş kateqoriyadan olan uşaqları əhatə edir. Yəni bura yalnız sağlamlıq imkanları məhdud olan uşaqlar deyil, həm də kimsəsiz, valideyn himayəsindən məhrum, çətin tərbiyə olunan, davranışında problemlər olan, zərərli vərdişlərə meyil edən, təhsildən kənarda qalan, hüquqları pozulan, zorakılığa məruz qalan uşaqlar da aid edilir.

Bu mərhələ ölkələrdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və həyata adaptasiyası üzrə qanunvericilik bazasının yaradılması ilə xarakterizə olunur.

Xüsusi vurğulamaq lazımdır ki, «sosial model» insan inkişafı konsepsiyasına da uyğundur. Bu konsepsiyaya görə hər bir şəxsə onun fərdi qabiliyyətlərini, potensial imkanlarını davamlı şəkildə inkişaf etdirmək üçün iqtisadi, sosial, mədəni, siyasi sahələrdə əlverişli mühit yaradılmalıdır. Bu konsepsiya nəzərdə tutur ki, insanların layiqli həyat sürməsi, sağlam olması, təhsil və bilikdən bəhrələnməsi davamlı olmalıdır. Cəmiyyətin inkişaf prosesində həm çağdaş, həm də gələcək nəsillərin layiqli həyat sürmək imkanları təmin edilməli, hər bir fərd üçün bərabər təhsil alma və inkişaf imkanları yaradılmalıdır.

Maraqlıdır ki, inklüziv təhsil sahəsində ən radikal və sürətli dəyişikliklər dünyanın ən kasıb ölkələri olan Uqanda, Lesoto, Vyetnam, Laos, Mərakeş, Yəmən və digər ölkələrdə baş vermişdir. Bu amil həmin ölkələrdə UNESCO proqramlarının səmərəli reallaşdırılmasının nəticəsi kimi izah edilir.

Keçmiş sosialist düşərgəsinə aid olan Sloveniya, Xorvatiya, Makedoniya, Rumıniya, Bolqarıstanda UNESCO tərəfindən reallaşdırılan layihələr nəticəsində bir sıra uğurlu nəticələr əldə olunmuşdur. Postsovet ölkələrindən Pribaltika, Rusiya, Belarus və Gürcüstanda inklüziv təhsil sahəsində layihələr həyata keçirilməkdədir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda da inklüziv təhsilin həyata keçirilməsi sahəsində müvafiq qanunvericilik bazasının yaradılması təşəbbüsləri olmuşdur. 2001-ci ildə «Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda xüsusi təhsil sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmiş, sağlamlıq imkanları məhdud şəxslərin, onların valideynlərinin və ya digər qanuni nümayəndələrin xüsusi təhsil sahəsində hüquq və vəzifələri öz əksini tapmış, xüsusi təhsilin təşkili və idarə edilməsi təsbit olunmuşdur. Qanunun icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müxtəlif təyinatlı 9 qərar, o cümlədən inteqrasiyalı təhsilin təşkili məsələsi də təsbit olunmuşdur. Bununla əlaqədar, «İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydalarının təsdiq edilməsi haqqında» 29 may 2002-ci il tarixli qərar qəbul edilmişdir.

Eyni zamanda **Təhsil Nazirliyi tərəfindən «Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq**

imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar İnkişaf Proqramı (2005–2009-cu illər)» hazırlanmış və Azərbaycan hökumətinin 3 fevral 2005-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Proqramda xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnun yerinə yetirilməsi, belə kateqoriyadan olan uşaqların hamısı üçün bərabər təhsilalma şəraitinin yaradılması; inteqrasiyalı (inklüziv) təlimə keçidin reallaşdırılması; təhsil müəssisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması; dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi; müvafiq klassifikasiyaya uyğun olaraq bütün kateqoriyadan olan xüsusi qayğıya ehtiyacı olan uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi; xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılması və digər məsələlər öz əksini tapmışdır.

Proqramın reallaşdırılması xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsini, bütün kateqoriyadan olan xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsini və onların təlim-tərbiyəsi üçün əlverişli şəraitin yaradılmasını, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsini, inteqrasiyalı (inklüziv) təlimin həyata keçirilməsini, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin səmərə və keyfiyyətinin yüksəldilməsini, pedaqoji kadr hazırlığının təkmilləşdirilməsini, xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığının mühafizəsi və reabilitasiyasının həyata keçirilməsini, təhsil müəssisələrində müasir monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiq edilməsini nəzərdə tuturdu.

Proqramın icrası istiqamətində Heydər Əliyev Fondunun müstəsna xidmətləri olmuşdur. Fond tərəfindən xüsusi qayğıya ehtiyacı olan, kimsəsiz, valideyn himayəsindən məhrum, müəyyən mənada cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində də məqsədyönlü işlər görülmüş, 39 internat məktəb və uşaq evi tam təmir və bərpa edilmiş, müasir avadanlıqla təmin olunmuşdur.

Maddi-texniki bazanın möhkəmləndirilməsi ilə yanaşı, internat tipli təhsil müəssisələri və xüsusi məktəblər İKT avadanlığı, texniki təlim vasitələri, əyani vəsaitlər, nəqliyyat vasitələri ilə təmin edilmişdir ki, bu da gələcəkdə həmin müəssisələrin transformasiya imkanlarını artırmışdır.

Azərbaycanda «Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: mövqelər, təcrübələr və siyasət» mövzusunda ilk inklüziv təhsil layihəsi Təhsil Nazirliyi, «Dünyaya baxış», ACİ-YF, «Müasir təhsil və tədrisə yardım Mərkəzi» tərəfindən 2004-cü ildən həyata keçirilməyə başlanmışdır. Layihə «Dünyaya baxış» təşkilatının maliyyə dəstəyi ilə Yasamal rayonundakı 153, 199, Binəqədi rayonundakı 246, Xətai rayonundakı 191, Qaradağ rayonundakı 222, Sumqayıt şəhərindəki 11, Mingəçevir şəhərindəki 6, 15№-li məktəbləri, Yasamal rayonundakı 11, Xətai rayonundakı 257, Qaradağ rayonundakı 20, Sumqayıt şəhərindəki 40, Mingəçevir şəhərindəki 10, 16№-li uşaq bağçalarını əhatə etmişdir.

Bu Layihənin reallaşdırılmasında, ümumilikdə ölkəmizə inklüziv təhsil təcrübəsinin gətirilməsində ABŞ-ın «Dünyaya baxış» təşkilatının təhsil proqramlarının rəhbəri Lesli Harnişin xüsusi xidmətləri olmuşdur. Məhz onun ciddi səyləri, Nazirlər Kabinetində, Maliyyə Nazirliyində müzakirələri sayəsində və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq əlaqələri nəticəsində bu layihəni başlamaq və uğurla davam etdirmək mümkün olmuşdur. İlk illərdə Layihənin maliyyələşdirilməsi, müəllim və tərbiyəçilər üçün treninqlərin təşkili, Layihənin əhatə etdiyi təhsil müəssisələrinə xüsusi xidmətlərin cəlb edilməsi «Dünyaya baxış» təşkilatı tərəfindən həyata keçirilmişdir və bu xidmətlərinə görə Lesli Harnişə təhsil ictimaiyyətinin minnətdarlığını ifadə etməyi özümə borc bilirəm.

Təhsil Nazirliyi ilə UNESCO-nun birgə layihəsi Bakı şəhərinin Nərimanov rayonundakı Bağça–Məktəb–Lisey Kompleksi nəzdindəki məktəbi və uşaq bağçasını, Sumqayıt şəhərindəki 4№-li məktəbi və 66№-li uşaq bağçasını əhatə etmişdir. İcrasına 2005-ci ildən başlanmış Layihə Təhsildə İslahatlara Yardım Mərkəzinin və UAFA qeyri-hökumət təşkilatlarının yaxından iştirakı ilə həyata keçirilir. Layihənin əhatə etdiyi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühiti yaradılmış, təhsil müəssisələrinə zəruri avadanlıqlar, o cümlədən uşaqların problemlərinə müvafiq xüsusi vasitələr (aparatlar, cihazlar) alınmışdır. Bu layihə çərçivəsində ilk dəfə olaraq inklüziv təhsilə həsr olunmuş xüsusi veb-sayt yaradılmışdır.

UNESCO ilə birgə layihənin ən əhəmiyyətli cəhətlərindən biri ondan ibarət oldu ki, Azərbaycanda ilk dəfə olaraq müəllimlər, tərbiyəçilər və psixoloqlar üçün «İnklüziv təhsil», valideynlər üçün «İnklüziv təhsil sistemində ailə–məktəb, valideyn–müəllim münasibətləri» adlı vəsaitlər hazırlanıb çap edildi.

İlkin mərhələdə 3 inklüziv təhsil layihəsi 24 məktəb və uşaq bağçasını, 100-dən artıq məktəbəqədər və məktəbyaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə edirdi. Layihənin əhatə etdiyi müəssisələrə Nazirlər Kabinetinin qərarı ilə 28 müəllim köməkçisi və 28 tərbiyəçi köməkçisi olmaqla 56 əlavə ştat ayrılmışdı. Sonrakı illərdə layihələrin əhatə dairəsi genişləndirildi.

İlk dövrlərdə inklüziv təhsil layihəsinə başlayarkən bir sıra çətinliklərlə üzləşəcəyimizi düşünürdük. Əlbəttə, ilk çətinlik ondan ibarət idi ki, həm məktəb rəhbərləri, həm müəllimlər, həm də valideynlərin bu barədə məlumatı və təcrübəsi yox idi. İlk addımlarımızdan biri kütləvi məktəblərdə və uşaq bağçalarında inklüziv təhsilə cəlb ediləcək uşaqların seçilməsi oldu. Mütəxəssislər vasitəsilə seçim aparıldı. Seçilmiş məktəblərdə inklüziv təhsil tətbiq ediləcək siniflər müəyyənləşdirildi. Həmin siniflərdə lazımi təmir işləri aparıldı, avadanlıqlarla təminat məsələləri həll edildi. Hər bir uşağın problemi ilə əlaqədar xüsusi avadanlıqlar, eşitmə aparatları, əlil arabaları alındı. Məktəblərdə inklüziv təhsilə cəlb edilmiş uşaqların maneəsiz hərəkəti üçün əlverişli şərait və infrastruktur yaradıldı.

Növbəti addımlardan biri inklüziv təhsil təşkil edilən siniflərdə işləyəcək müəllimlər, tərbiyəçilər, müəllim və tərbiyəçi köməkçiləri,

məktəb rəhbərləri və valideynlər üçün beynəlxalq məsləhətçilər cəlb edilməklə treninqlərin təşkili oldu.

Layihələrin həyata keçirildiyi qısa müddət ərzində müəllimlər inklüziv təhsil sahəsində bacarıqlar əldə etdilər, uşaqlara fərdi yanaşmanı öyrəndilər, fərdi inkişaf planları tərtib etməyə başladılar. Valideynlər müəllimlərə kömək etməklə təlim prosesinin daha səmərəli qurulmasına yardım göstərdilər. Ən əhəmiyyətli dəyişikliklər isə şagirdlərdə oldu. Belə ki, şagirdlər öz xəstə həmyaşıdlarına qarşı tolerant münasibət göstərməyə, onlarla ünsiyyət qurmağa və bütün hallarda kömək etməyə başladılar. Xəstə uşaqlarda isə inkişaf əlamətləri, həyatsevərlik, ünsiyyət fəallığı, birgə iştirak formalaşmağa başladı.

İnklüziv təhsilin xüsusiyyətlərindən biri budur ki, ümumtəhsil məktəbləri və uşaq bağçalarının müvafiq siniflərində və qruplarında müəllim və tərbiyəçi ilə yanaşı, müəllim və tərbiyəçi köməkçisi də fəaliyyət göstərməlidir. Lakin mövcud ştat cədvəllərində belə ştatlar nəzərdə tutulmamışdır. Bu səbəbdən hər dəfə layihələrin tətbiq edildiyi təhsil müəssisələri üçün əlavə ştatların alınması zərurəti yaranır. Əlavə ştatlar isə Nazirlər Kabinetinin sərəncamı ilə verilir. Etiraf edim ki, bu problemi indi də həll edə bilməmişik və bir çox hallarda bu prosedur həddən artıq vaxt tələb etdiyindən layihələrin ləngiməsinə gətirib çıxarır. Beynəlxalq təcrübədə isə hər hansı bir təhsil müəssisəsində inklüziv təhsil tətbiq edilirsə, təhsil müəssisəsi əlavə ştatı dərhal ayırmaq səlahiyyətinə malikdir və bu məsələlər planlaşdırma prosesində nəzərə alınır. Hesab edirəm ki, ölkəmizdə də inklüziv təhsil imkanlarının genişləndirilməsi məqsədilə təhsil qanunvericiliyində müvafiq dəyişikliklərin edilməsi vacibdir. İlkin addım kimi, qeyd edim ki, yeni qəbul edilmiş «Təhsil haqqında» Qanunda müəllim və tərbiyəçi köməkçisi pedaqoji işçilər kateqoriyasına daxil edilmişdir.

Digər bir problem müəllim hazırlığı ilə bağlıdır. Pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələri elə müəllimlər hazırlamalıdırlar ki, onlar məktəbə gələrkən artıq inklüziv təhsil sahəsində müəyyən bacarıqlara malik olsunlar və sonradan onları öyrətmək lazım gəlməsin. Hesab edirəm ki, hazırda müəllim hazırlığı üzrə Dünya Bankının xətti ilə islahatlar çərçivəsində hazırlanan yeni kurikulumlarda bu məsələ hökmən öz əksini tapmalıdır.

Ən ciddi problem xüsusi qayğıya ehtiyacı olan uşaqlara zəruri xidmətlərin təşkili ilə bağlıdır. Belə xidmətlərin olmaması, yaxud əlçatan olmaması, bir sıra hallarda mütəxəssis çatışmazlığı inklüziv təhsil layihələrinin daha səmərəli həyata keçirilməsinə və əhatə dairəsinin genişləndirilməsinə mane olur. Düşünürəm ki, gələcəkdə de-institutlaşdırma proqramı çərçivəsində yaradılan alternativ qayğı və reabilitasiya mərkəzləri tərəfindən bu xidmətlər göstərilə bilər.

Azərbaycanda inklüziv təhsil məktəbəqədər və ümumi təhsil pillələrində tətbiq olunur. Lakin ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil pillələrində belə təhsilin təşkili sahəsində layihələr həyata keçirilmir. Şübhəsiz, gələcəkdə həll edəcəyimiz problemlərdən biri də məhz təhsilin bütün pillələrində inklüziv təhsil təcrübəsinin tətbiq edilməsi, bununla əlaqədar təşkilati və normativ-hüquqi bazanın yaradılmasıdır.



De-institutlaşma ilə bağlı konfrans. 2009-cu il



De-institutlaşma ilə bağlı konfrans. Soldan: UNICEF-in Azərbaycandakı nümayəndəsi Mark Herevard, Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli, Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin müdir müavini Qurban Əmirov, millət vəkili Qənirə Paşayeva və Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Halis Koyuncuoğlu. 2010-cu il



«İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr» mövzusunda beynəlxalq konfrans. Soldan sağa: Hans Velling – Avropa Gözdən Əlil Şəxslərin Təhsili və Reabilitasiyası üzrə Beynəlxalq Şuranın sədri (ICEVI-Europe), Aqiyə Naxçıvanlı – Azərbaycan Müəllimlər İnstitutunun rektoru, Qurban Əmirov – Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin müdir müavini, Mark Herevard – UNICEF-in Azərbaycandakı nümayəndəsi, Natiq Məmmədov – Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, Aynur Sofiyeva – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini. Oktyabr, 2011-ci il




Soldan sağa: Liliya Plastunova – Avropa Gözdən Əlil Şəxslərin Təhsili və Reabilitasiyası üzrə Beynəlxalq Şuranın Şərqi və Mərkəzi Avropa ölkələri üzrə əlaqələndiricisi, Svetlana Alyoxina – Moskva şəhər Psixoloji-Pedaqoji Universitetinin İnteqrativ (inklüziv) Təhsil İnstitutunun direktoru, professor, Hans Şuman – Hollandiyanın Fontys Universitetinin professoru, Lyudmila Rostomaşvili – Rusiya Federasiyasının Sankt-Peterburq şəhəri Xüsusi Pedaqogika və Psixologiya İnstitutunun dekanı, Lyudmila Şipitsina – Rusiya Federasiyasının Sankt-Peterburq şəhəri Xüsusi Pedaqogika və Psixologiya İnstitutunun rektoru, Məlahət Hacıyeva – Təhsil Nazirliyinin De-institutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin rəisi

Bütün qeyd olunanlar məsələyə kompleks yanaşmanı və sağlamlıq imkanları məhdud uşaqların bütün təhsil pillələri üzrə digər uşaqlarla birgə keyfiyyətli təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün yeni layihələrin və proqramların həyata keçirilməsini zəruri etmişdir. Bu məqsədlə UNICEF-in texniki dəstəyi ilə inklüziv təhsilinin inkişafına dair Dövlət Proqramı hazırlanmış və Nazirlər Kabinetinə təqdim olunmuşdur. Proqramın məqsədi bütün təhsil pillələri üzrə sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunmasını və onların təhsil ala bilmələri üçün maneəsiz mühitin yaradılmasını təmin etməkdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:


- Bütün təhsil pillələri üzrə inklüziv təhsilin təşkil edilməsi üçün qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi;
- Təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud uşaqların ehtiyaclarına uyğunlaşdırılması üçün müvafiq tədbirlərin görülməsi;
- İnklüziv təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və təkmilləşdirilməsi;
- Sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;



Bərdə şəhər inklüziv komponentli tam orta məktəbin nəzdində «Reabilitasiya – inkişaf mərkəzi»



Soldan sağa: UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard, «Hilfsverk Avstriya beynəlxalq» təşkilatının prezidenti Franz Çeşka



1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə keçirilən tədbir. 31 may, 2010-cu il

- Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə maarifləndirmə işinin aparılması;
- Sağlamlıq imkanları məhdud şəxslərin təhsil prosesinə uyğunlaşması və cəmiyyətə inteqrasiyası ilə bağlı müvafiq xidmətlərin yaradılması;
- Şəhər, rayon infrastrukturunun və nəqliyyatın sağlamlıq imkanları məhdud şəxslərin maneəsiz hərəkət etməsi üçün onların ehtiyaclarına uyğunlaşdırılması.

Dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Plana əsasən sağlamlıq imkanları məhdud uşaqlar üçün 7 internat məktəbin gələcəkdə inklüziv təhsil komponentli ümumtəhsil məktəblərinə çevrilməsi nəzərdə tutulmuşdur. Bunların içərisindən Bərdə şəhər internat tam orta məktəbi inklüziv komponentli ümumtəhsil məktəbinə çevrilmişdir.

Kütləvi informasiya vasitələrindən istifadə etməklə və digər yollarla de-institutlaşma ilə bağlı əhalinin məlumatlandırılması və bu barədə təbliğatın aparılması Dövlət Proqramı qarşısında duran əsas vəzifələrdən biridir. «Uşaqlar ailədə böyüməlidir!» devizi altında təbliğat kampaniyası keçirilərək müxtəlif vəsaitlər, bukletlər çap edilmiş, dövlət uşaq müəssisələrinə, əlaqədar dövlət strukturlarına, beynəlxalq təşkilatlara, QHT-lərə çatdırılmışdır. Mütəmadi olaraq televiziya kanallarında xüsusi verilişlər təşkil olunur və de-institutlaşma prosesi barədə diskussiyalar aparılır. Uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədi ilə risk qrupuna daxil olan uşaqların valideynləri və müəssisədə yaşayan uşaqların valideynləri ilə maarifləndirmə işi aparılır. Bununla yanaşı, KİV nümayəndələri üçün alternativ qayğı və uşaq müdafiə sistemi barədə 2 günlük treninqlər keçirilmişdir. Ölkəmizdə de-institutlaşma və uşaqların müdafiəsi sahəsində həyata keçirilən islahatlar Avropa Sosial Şəbəkəsi tərəfindən yüksək qiymətləndirilmiş və 2010-cu ildə Avropa Sosial Şəbəkəsinin internet saytında yerləşdirilən «Azərbaycanda De-institusionalizasiya səylərinə dəstək» adlı məqalə təşkilatın 28 üzv dövlətinə təbliğat məqsədilə göndərilmişdir. Bununla yanaşı, ölkənin birinci xanımı Mehriban Əliyevanın «De-institutlaşma və alternativ qayğı Dövlət Proqramı»na xüsusi diqqət və qayğısını əks etdirən və Heydər Əliyev Fondunun dəstəyi ilə uşaqların müdafiəsi sahəsində görülən işlər barədə hazırlanmış sənədli filmin diktor mətni ilə ingilis dilində səsləndirilən versiyası təbliğat məqsədilə Avropa Sosial Şəbəkəsi təşkilatının saytında yerləşdirilmişdir.

2.23. Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı

Ermənistanın Azərbaycana hərbi təcavüzü, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Naxçıvan Muxtar Respublikası 1991-ci ildən tam blokada vəziyyətinə düşmüş, Muxtar Respublika ilə hava əlaqəsi istisna olmaqla, digər kommunikasiya əlaqələri tam kəsilmişdir. Eyni zamanda Ermənistanla ümumi sərhədlərin olması da Naxçıvan üçün müəyyən çətinliklər yaratmışdır. Müstəqillik ərəfəsində Heydər Əliyevin Naxçıvan Ali Məclisinə sədr seçilməsi Muxtar Respublika üçün xilas yolu olmuşdur.

Hələ sovetlər birliyinin rəsmi şəkildə süqut etməsindən əvvəl Heydər Əliyevin sədrliyi ilə keçirilən Muxtar Respublika Parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyasında Muxtar Respublikanın adından «Sovet Sosialist» sözləri çıxarılmış, qanunverici hakimiyyət orqanının adı dəyişdirilərək Ali Məclis qoyulmuş, ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul edilmişdir. Sonralar Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına diqqət və qayğısı ardıcıl şəkildə davam etmiş, Muxtar Respublikanın inkişafı ilə əlaqədar çoxsaylı qərarlar qəbul edilmişdir.

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də bu siyasət uğurla davam etdirilir, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyat, elm, mədəniyyət və təhsilin inkişafı sahəsində dövlət proqramları uğurla həyata keçirilir.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında, digər sahələrdə olduğu kimi, təhsilin inkişafı sahəsində də əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. Muxtar Respublikada ən müasir standartlara cavab verən məktəb binaları tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Yeni tikilən və əsaslı təmir olunan ümumtəhsil məktəbləri ən müasir avadanlıqlar, kompyuter dəstləri, elektron lövhələrlə təchiz olunmuşdur.

1997–2011-ci illərdə Muxtar Respublikada 127 yeni məktəb inşa olunmuş və əsaslı təmir edilmişdir. 2011-ci ildə də yeni məktəblərin tikintisi davam etdirilmişdir. Naxçıvan şəhərində 1242 şagird yerlik 12№-li, Şərur rayonunda 468 şagird yerlik Çomaxtur, 288 şagird yerlik Yuxarı Daşarx, 216 şagird yerlik Siyaqut, Babək rayonunda 522 şagird yerlik Didivar, Ordubad rayonunda 306 şagird yerlik Gənzə, Culfa rayonunda 132 şagird yerlik Nəhəcir, Şahbuz rayonunda 272 şagird yerlik Aşağı Qışlaq, Kəngərli rayonunda 234 şagird yerlik Qabıllı kənd tam orta məktəbləri tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq şagirdlərin istifadəsinə verilmişdir. Hazırda Naxçıvan şəhərində Naxçıvan Qızlar Liseyi, 17№-li, Culfa rayonunda Yaycı kənd 1№-li, Şahbuz rayonunda Ağbulaq kənd tam orta məktəblərinin tikintisi və əsaslı yenidənqurulması davam etdirilir.

Şərur rayonunda 464 şagird yerlik Düdəngə, Babək rayonunda 252 şagird yerlik Hacıvar, Ordubad rayonunda 126 şagird yerlik Kotam, Culfa rayonunda 288 şagird yerlik Milax, Şahbuz rayonunda 504 şagird yerlik Keçili, 318 şagird yerlik Külüs və 156 şagird yerlik Yuxarı Qışlaq kənd məktəblərində isə əsaslı təmir işləri aparılmışdır.



Naxçıvan şəhəri Akademik Zərifə Əliyeva adına məktəb



Naxçıvan Qızlar Liseyi



Naxçıvan şəhəri 1№-li orta məktəb



Naxçıvan şəhəri 5№-li orta məktəb

Yeni tikilmiş və əsaslı təmir olunmuş ümumtəhsil məktəbləri haqqında məlumat

№	Məktəbin adı	İstifadəyə verildiyi il	Neçə yerlik
1	2	3	4
Naxçıvan şəhəri üzrə			
1.	1№-li tam orta məktəb	2005	930
2.	2№-li tam orta məktəb	2009	414
3.	4№-li tam orta məktəb	2009	828
4.	5№-li tam orta məktəb	2004	820
5.	6№-li tam orta məktəb (Qaraxanbəyli)	2002	420
6.	7№-li tam orta məktəb	2006	792
7.	8№-li tam orta məktəb	2009	1008
8.	9№-li tam orta məktəb (Qaraçuq)	1996	700
9.	11№-li tam orta məktəb	1997	1350
10.	12№-li tam orta məktəb	2011	1242
11.	14№-li tam orta məktəb	2007	1404
12.	15№-li tam orta məktəb	2010	954
Şərur rayonu üzrə			
1.	Şərur şəhər 1№-li tam orta məktəb	2010	738
2.	Şərur şəhər 2№-li tam orta məktəb	2002	1350
3.	Düdəngə kənd tam orta məktəb	2004	558
4.	Zeyvə kənd tam orta məktəb	2010	612
5.	Cəlilkənd tam orta məktəb	2006	342
6.	Mahmudkənd tam orta məktəb	2007	522
7.	Həmzəli kənd tam orta məktəb	2005	192
8.	Axura kənd tam orta məktəb	1998	320
9.	A.Yaycı kənd tam orta məktəb	2008	224
10.	Y.Yaycı kənd tam orta məktəb	2005	144
11.	Gümüşlü kənd tam orta məktəb	2005	156
12.	Havuş kənd tam orta məktəb	2009	60
13.	Sərxanlı kənd tam orta məktəb	1998	320
14.	Aralıq kənd tam orta məktəb	2000	624

1	2	3	4
15.	Siyaqut kənd tam orta məktəb	2011	216
16.	A.Daşarx kənd tam orta məktəb	2009	252
17.	Y.Daşarx kənd tam orta məktəb	2011	288
18.	Tənənəm kənd tam orta məktəb	2006	216
19.	Vərməziyar kənd tam orta məktəb	2004	306
20.	Tumaslı kənd tam orta məktəb	2009	360
21.	Qarahəsənli kənd tam orta məktəb	2005	216
22.	Dərvişlər kənd tam orta məktəb	2001	216
23.	Çomaxtur kənd tam orta məktəbi	2011	468
24.	Yengicə kənd tam orta məktəb	2010	612
25.	Alışar kənd tam orta məktəb	2004	396
26.	Qorçulu kənd tam orta məktəb	2000	216
27.	Kürçülü kənd tam orta məktəb	2002	320
28.	Şəhriyar kənd tam orta məktəb	2003	432
29.	Maxta kənd tam orta məktəb	2010	540
30.	Dəmirçi kənd 1№-li tam orta məktəb	2001	624
Babək rayonu üzrə			
1.	Babək qəsəbə tam orta məktəb	2007	756
2.	Nehrəm kənd 3№-li tam orta məktəb	2005	600
3.	Cəhri kənd 2№-li tam orta məktəb	2007	504
4.	Didivar kənd tam orta məktəb	2011	522
5.	Şıxmahmud kənd tam orta məktəb	2008	686
6.	Sirab kənd tam orta məktəb	2008	624
7.	Zeynəddin kənd tam orta məktəb	2009	612
8.	Qaraqala kənd tam orta məktəb	2006	324
9.	Çeşməbasar kənd tam orta məktəb	2005	252
10.	Güznüt kənd tam orta məktəb	2004	360
11.	Yarımca kənd tam orta məktəb	2004	378
12.	Kültəpə kənd tam orta məktəb	1999	360
13.	Vayxır kənd tam orta məktəb	2005	324
14.	Qoşadizə kənd tam orta məktəb	2000	320
15.	Şəkərabad kənd tam orta məktəb	2002	320

1	2	3	4
16.	Y.Buzqov kənd tam orta məktəb	2001	60
17.	A.Buzqov kənd tam orta məktəb	2001	274
18.	Gərməçataq kənd tam orta məktəb	2000	120
19.	M.Rza Dizə kənd tam orta məktəb	2008	196
20.	Hacıvar kənd tam orta məktəbi	2005	252
21.	Uzunoba kənd tam orta məktəb	2010	324
22.	N.Dizə kənd tam orta məktəb	2001	120
23.	Araz kənd ümumi orta məktəb	2003	60
Ordubad rayonu üzrə			
1.	Şəhər internat məktəb	2006	430
2.	Gənzə kənd tam orta məktəb	2011	306
3.	Kotam kənd tam orta məktəb	2005	110
4.	Yuxarı Əylis kənd tam orta məktəb	1999	320
5.	Xanağa kənd tam orta məktəb	2004	270
6.	Dırnıs kənd tam orta məktəb	2003	458
7.	Kələki kənd tam orta məktəb	2003	176
8.	Unus kənd tam orta məktəb	2008	168
9.	Düylün kənd tam orta məktəb	2007	234
10.	Çənnəb kənd tam orta məktəb	2003	198
11.	Üstüpü kənd tam orta məktəb	1999	320
12.	Azadkənd kənd tam orta məktəb	2000	504
13.	Aza kənd tam orta məktəb	2005	216
14.	Biləv kənd tam orta məktəb	2006	216
15.	Tivi kənd tam orta məktəb	2004	306
16.	Bist kənd tam orta məktəb	2006	156
17.	Nürgüt kənd tam orta məktəb	2002	110
Culfa rayonu üzrə			
1.	Culfa şəhər 2№-li tam orta məktəb	2010	540
2.	Culfa şəhər 3№-li tam orta məktəb	2010	918
3.	Yaycı kənd 2№-li tam orta məktəb	2002	504
4.	Ərəzin kənd tam orta məktəb	2009	504
5.	Kırna kənd tam orta məktəb	1997	320

1	2	3	4
6.	Əbrəqunus kənd tam orta məktəb	2008	432
7.	Saltaq kənd tam orta məktəb	2006	318
8.	Göydərə kənd tam orta məktəb	2006	306
9.	Əlincə kənd tam orta məktəb	2003	252
10.	Xoşkeşin kənd tam orta məktəb	2005	144
11.	Xanəgah kənd tam orta məktəb	2004	270
12.	Milax kənd tam orta məktəb	2005	234
13.	Ərəfsə kənd tam orta məktəb	2001	320
14.	Nəhəcir kənd tam orta məktəb	2011	132
15.	Göynük kənd tam orta məktəb	2004	110
16.	Şurut kənd tam orta məktəb	2000	90
17.	Boyəhməd kənd tam orta məktəb	2003	120
Şahbuz rayonu üzrə			
1.	Şahbuz şəhər tam orta məktəb	2007	630
2.	Mahmudoba kənd tam orta məktəb	2006	144
3.	Aşağı Qışlaq kənd tam orta məktəb	2011	272
4.	Yuxarı Qışlaq kənd tam orta məktəb	2005	156
5.	Biçənək kənd tam orta məktəb	2000	320
6.	Gömür kənd tam orta məktəb	2005	144
7.	Ayrınc kənd tam orta məktəb	2005	144
8.	Güney Qışlaq kənd tam orta məktəb	2004	110
9.	Şahbuz kənd tam orta məktəb	2008	224
10.	Külüs kənd tam orta məktəb	2003	318
11.	Keçili kənd tam orta məktəb	2001	504
12.	Sələsüz kənd tam orta məktəb	2004	234
13.	Türkeş kənd tam orta məktəb	1998	110
14.	Badamlı qəsəbə tam orta məktəb	2004	174
15.	Badamlı kənd tam orta məktəb	2009	216
16.	Şada kənd tam orta məktəb	2008	88
Kəngərli rayonu üzrə			
1.	Qıvraq qəsəbə tam orta məktəb	2008	1026
2.	Qarabağlar kənd 2№-li tam orta məktəb	2009	522

1	2	3	4
3.	Şahtaxtı kənd tam orta məktəb	2005	594
4.	Qabıllı kənd tam orta məktəb	2011	234
5.	Təzəkənd kənd tam orta məktəb	2010	110
6.	Xıncab kənd tam orta məktəb	2005	144
7.	Böyükdüz kənd tam orta məktəb	2006	288
8.	Yeni Kərki kənd tam orta məktəb	2010	88
Sədərək rayonu üzrə			
1.	Heydərabad qəsəbə məktəbi	2006	200
2.	Sədərək kənd 1№-li tam orta məktəb	2000	1176
3.	Sədərək kənd 2№-li tam orta məktəb	2010	594
4.	Qaraağac kənd tam orta məktəb	2006	160

2010/2011-ci dərs ilində 129 ümumtəhsil məktəbi istilik sistemi ilə təmin edilmişdisə, 2011/2012-ci dərs ilində 144 müəssisədə istilik sistemi müasir tələblər səviyyəsinə gətirilmişdir. İnfrastrukturun müasirləşdirilməsi sahəsində həyata keçirilmiş tədbirlərin nəticəsində 187 ümumtəhsil məktəbi (bütün məktəblərin 83,8%-i) beşgünlük iş həftəsi ilə işləyir.

Təhlil göstərir ki, ümumtəhsil məktəblərində müstəqilliyin ilk illərindən başlayaraq müəllimlərin sayında artma tendensiyası üstünlük təşkil etmiş və bu tendensiya 2003/04-cü tədris ilinədək davam etmişdir. 1991/92-ci tədris ilində müəllimlərin sayı 7159 nəfər olmuşdusa, 2003/04-cü tədris ilində onların sayı 8687 nəfər təşkil etmişdir. Sonrakı illərdə müəllimlərin sayı azalmış və 2011/12-ci tədris ilində 8330 nəfər təşkil etmişdir.

«2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinə 2896 dəst ən müasir kompyuterlər verilmiş, məktəblərin 82%-i İnternet şəbəkəsinə qoşulmuş, hər 18 şagirdə 1 kompyuter nisbəti təmin edilmişdir.

Bununla yanaşı, Muxtar Respublikanın ümumtəhsil məktəblərində 361 ədəd elektron lövhə quraşdırılmışdır. Eyni zamanda 405 nəfər əlaçı şagirdə kompyuter dəsti hədiyyə edilmişdir. Yaradılmış əlverişli təlim şəraiti nəticəsində təhsilin keyfiyyəti yüksəlmiş, şagirdlərin texniki elmlər sahəsinə marağı artmışdır.

Təhlil göstərir ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında ümumi təhsil müəssisələrinin sayında artma və azalma tendensiyası müşahidə edilmişdir. 1990/91-ci dərs ilində müəssisələrin sayı 223 olmuşdusa, 2001/02-ci tədris ilində onların sayı 235-ə yüksəlmiş, sonrakı illərdə isə azalaraq yenidən 223-ə enmişdir. Şagirdlərin sayı da müstəqilliyin ilk ilindən başlayaraq artmış, 2003/04-cü tədris ilində 75532 nəfərə yüksəlmiş, sonrakı illərdə şagirdlərin sayında azalma tendensiyası

müşahidə olunmuş, 2011/12-ci tədris ilində 49912 nəfər təşkil etmişdir.

Ümumtəhsil məktəbləri haqqında məlumat

İllər	Ümumtəhsil məktəblərinin sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı (məktəb rəhbərliyi daxil olmaqla)
1990/91	223	65644	7009
1991/92	227	67454	7159
1992/93	230	69012	7212
1993/94	226	69351	8116
1994/95	228	71366	8011
1995/96	228	73059	8145
1996/97	230	74937	8030
1997/98	232	76037	8047
1998/99	233	77170	8098
1999/2000	233	77897	8106
2000/01	234	78931	8121
2001/02	235	76911	8547
2002/03	234	75532	8636
2003/04	233	72585	8687
2004/05	228	67793	8436
2005/06	228	63569	8382
2006/07	228	63569	8382
2007/08	224	59854	8410
2008/09	223	57319	8315
2009/10	221	54185	8159
2010/11	221	51846	8286
2011/12	223	49912	8330

2011/12-ci tədris ilində Naxçıvan Muxtar Respublikasında 223 ümumtəhsil məktəbi fəaliyyət göstərir və həmin təhsil müəssisələrində 49912 şagird təhsil alır.

2011/12-ci dərs ilində ümumi təhsil müəssisələri haqqında məlumat

№	Rayon (şəhər)	Ümumtəhsil məktəblərinin sayı	Şagirdlərin sayı
1.	Naxçıvan şəhər ə/d	25	12573
2.	Sədərək rayonu	4	1389
3.	Şərur rayonu	59	10639
4.	Babək rayonu	34	8368
5.	Şahbuz rayonu	23	2428
6.	Culfa rayonu	28	5444
7.	Ordubad rayonu	38	5592
8.	Kəngərli rayonu	12	3479
Cəmi:		**223**	**49912**

Muxtar Respublikada kitabxana şəbəkəsinin genişləndirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, kitab fondunun zənginləşdirilməsi və şagirdlərin dərsliklə təminatı diqqətdə saxlanılan məsələlərdəndir. 2003–2011-ci illərdə 1,5 milyon nüsxədən artıq dərslik ümumtəhsil məktəblərinə verilmişdir. Dərslərdə əyaniliyin təşkili, müasir təlim texnologiyalarının tətbiqi məqsədilə məktəblərə 200 adda 86750 ədəd müxtəlif fənləri əhatə edən plakat, 19 adda 16720 ədəd xəritə, 2140 ədəd elektron tədris vəsaitləri, şahmatın tədrisi üçün 325 ədəd audiovizual vəsait, həmçinin 517 adda 620117 ədəd latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat təhsil müəssisələrinin kitabxanalarına verilmişdir.

Ucqar dağ kəndlərində təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı sahəsində həyata

keçirilən tədbirlər təhsilin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 4 sentyabr tarixli Sərəncamı ilə təsis edilmiş «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» müsabiqələri Muxtar Respublikada məktəblər və müəllimlər arasında sağlam rəqabəti gücləndirmiş, 2008–2011-ci illərdə 12 məktəb və 20 müəllim mükafata layiq görülmüşdür.

Muxtar Respublikada təhsil sahəsində çalışan işçilərin fəaliyyəti yüksək qiymətləndirilmiş, yalnız 2005–2011-ci illərdə 46 nəfər Azərbaycan Respublikasının «Əməkdar müəllimi», 51 nəfər Naxçıvan Muxtar Respublikasının «Əməkdar müəllimi» fəxri adlarına layiq görülmüş, 44 müəllim isə «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

İstedadlı şagirdlərin aşkar edilməsi və onlarla aparılan iş sahəsində Muxtar Respublikada mühüm tədbirlər həyata keçirilmişdir. Olimpiada hazırlıq mərkəzlərinin fəaliyyəti genişləndirilmiş, 2010/11-ci tədris ilində fənn olimpiadalarının I turunda 2351 nəfər şagirdin iştirakı təmin olunmuşdur. Həmin şagirdlərdən 884 nəfəri turun qalibi olmuşdur ki, onlar II turda iştirak etmişlər. Həmin turun nəticələrinə görə 174 nəfər şagird fənn olimpiadalarının Muxtar Respublika turunda iştirak etmək hüququ qazanmışdır. 18 mart 2011-ci il tarixdə keçirilən fənn olimpiadalarının Respublika turunda iştirak edən şagirdlərdən 55 nəfəri olimpiadanın qalibi olmuşdur ki, onlardan 6 nəfəri I, 8 nəfəri II, 11 nəfəri III və 30 nəfəri IV yerə layiq görülmüşdür.

Bununla yanaşı, son illərdə Muxtar Respublikada fəaliyyət göstərən türk liseylərinin beynəlxalq yarış və olimpiadalarda iştirak etmiş şagirdlərindən 8 nəfəri qızıl, 15 nəfəri gümüş və 16 nəfəri bürünc medal qazanmışdır. Qeyd etmək lazımdır ki, Naxçıvan Türk Liseyi 1991-ci ildən, Ordubad Qız Liseyi 1993-cü ildən, Akademik Əhməd Mahmudov adına Şərur Türk Liseyi 1994-cü ildən fəaliyyət göstərir və bu liseylərin şagirdləri yüksək təhsil göstəriciləri ilə fərqlənirlər.

Muxtar Respublikada ümumi və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanlarının təşkili, keçirilməsi və məzunlara təhsil sənədlərinin verilməsi kimi mühüm məsələlər diqqət mərkəzində saxlanılmışdır. 2010/11-ci tədris ilində ümumi orta təhsil üzrə buraxılış imtahanları 09 iyun 2011-ci il tarixdə test üsulu ilə keçirilmişdir. İmtahana buraxılan 5261 nəfər şagirddən hamısı müvəffəq qiyməti almış və həmin şagirdlərdən 211 nəfəri fərqlənmə şəhadətnaməsinə layiq görülmüşdür.

Tam orta təhsil üzrə buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada keçirilmişdir. Bu məqsədlə Muxtar Respublikada 14 imtahan mərkəzi yaradılmışdır. 07 iyun 2011-ci il tarixdə test üsulu ilə mərkəzləşdirilmiş qaydada keçirilən buraxılış imtahanlarında iştirak edən şagirdlərin nəticələri həmin gün elan edilmişdir. İmtahanda iştirak edən 4256 nəfər şagirdin hamısı müvəffəq qiymət almışdır. Məzunlardan 15 nəfəri qızıl, 12 nəfəri isə gümüş medallara layiq görülmüşdür.

Muxtar Respublikada təhsilin keyfiyyətcə yüksəlməsinin nəticəsidir ki, 2010-cu ildə 4131 şagird məktəbi bitirmiş, onlardan 3106 nəfəri (məzunların 75%-i) ali məktəblərə sənəd vermiş, 1435 nəfər (sənəd verənlərin 46,2%-i) tələbə adını qazanmışdır. 2011-ci ildə ümumtəhsil məktəblərini 4256 məzun bitirmiş və onlardan 3258 nəfəri (məzunların 76,55%-i) ali məktəblərə

sənəd vermişdir. İmtahanda iştirak edən abituriyentlərdən 1551 nəfəri ali məktəblərə qəbul olmuşdur ki, bu da sənəd verənlərin 47,60%-ni təşkil edir. Ali məktəblərə qəbul olanlardan 296 nəfəri 500–700 intervalında bal toplamışdır. 2010-cu ildə 95 ümumtəhsil məktəbinin şagirdləri yüksək nəticə göstərmişlərsə, 2011-ci ildə 106 ümumtəhsil məktəbinin şagirdləri yüksək nəticə əldə etmişlər.

2011-ci ildə yüksək bal toplamış 8 məzun Prezident təqaüdünə layiq görülmüşdür.

Orta ixtisas məktəblərinə qəbulda da irəliləyiş əldə olunmuşdur. 2010-cu ildə 906 nəfər ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə sənəd vermişdirsə, 2011-ci ildə 1071 nəfər sənəd vermişdir. 2011-ci ildə tam orta təhsil bazasından 184 nəfər, ümumi orta təhsil bazasından isə 174 nəfər olmaqla cəmi 358 nəfər məzun orta ixtisas məktəblərinə qəbul olmuşdur.

Son illər Muxtar Respublikada hərbi təhsilə maraq xeyli artmışdır. 2010-cu ildə Heydər Əliyev adına Hərbi Liseyə 936 nəfər sənəd vermişdirsə, 2011-ci ildə sənəd verənlərin sayı 964 nəfər olmuş, onlardan 258 nəfər qəbul olunmuşdur. 2010/11-ci tədris ilində Heydər Əliyev adına Hərbi Liseyi 216 nəfər məzun bitirmiş, onların 213 nəfəri ali hərbi məktəbə daxil olmuşdur.

Muxtar Respublikada məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də əhəmiyyətli işlər görülmüşdür. 2006–2010-cu illərdə 1456 yerlik 10 yeni məktəbəqədər təhsil müəssisəsi tikilmiş və ya əsaslı təmir edilmişdir. Hazırda Naxçıvan şəhərində 280 yerlik 3№-li və 240 yerlik 1№-li uşaq bağçalarının tikintisi davam etdirilir. Məktəbəqədər tərbiyə müəssisələri 5194 ədəd təlim vəsaiti ilə təmin edilmişdir.

Yeni tikilmiş və əsaslı təmir olunmuş məktəbəqədər təhsil müəssisələri haqqında məlumat

№	Müəssisənin adı	İstifadəyə verildiyi tarix	Neçə yerlik
Naxçıvan şəhəri üzrə			
1.	4№-li uşaq bağçası	2008	120
2.	6№-li uşaq bağçası	2007	108
3.	7№-li uşaq bağçası	2006	108
4.	11№-li uşaq bağçası	2010	240
5.	12№-li uşaq bağçası	2009	192
6.	15№-li uşaq bağçası	2009	100
Şərur rayonu üzrə			
1.	Şərur şəhər uşaq bağçası	2010	250
Ordubad rayonu üzrə			
1.	Ordubad şəhər uşaq bağçası	2008	48
Culfa rayonu üzrə			
1.	Culfa şəhər uşaq bağçası	2010	240
Şahbuz rayonu üzrə			
1.	Şahbuz şəhər uşaq bağçası	2006	50

Hazırda Naxçıvan Muxtar Respublikasında 14 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir ki, həmin müəssisələrdə 2033 uşaq tərbiyə və təlimlə əhatə olunmuşdur.

Məktəbəqədər təhsil müəssisələri haqqında məlumat

№	Rayon/şəhər	Məktəbəqədər təhsil müəssisələrinin sayı	Uşaqların sayı
1.	Naxçıvan şəhər ə/d[1]	9	1385
2.	Sədərək rayonu	1	60
3.	Şərur rayonu	1	250
4.	Babək rayonu	–	–
5.	Şahbuz rayonu	1	50
6.	Culfa rayonu	1	240
7.	Ordubad rayonu	1	48
8.	Kəngərli rayonu	–	–
Cəmi:		**14**	**2033**

Qeyd: Naxçıvan şəhər ərazi dairəsinə Naxçıvan şəhəri, Əliabad qəsəbəsi və 3 kənd inzibati ərazi dairələri daxildir

Uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə Muxtar Respublikada 7 Ekoloji tərbiyə və təcrübəçilik mərkəzi, 8 Uşaq gənclər idman məktəbi, 8 Uşaq gənclər şahmat məktəbi, 7 Texniki yaradıcılıq mərkəzi, 7 Uşaq yaradıcılıq mərkəzi olmaqla 37 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir.

Müstəqillik illərində məktəbdənkənar təhsil müəssisələrinin infrastrukturunun yeniləşdirilməsi istiqamətində də əsaslı tədbirlər həyata keçirilmiş, 2004–2011-ci illərdə 15 yeni məktəbdənkənar təhsil müəssisəsi inşa edilmiş və əsaslı təmir olunmuşdur.

Yeni tikilmiş və əsaslı təmir edilmiş məktəbdənkənar təhsil müəssisələri haqqında məlumat

№	Müəssisələrin adı	Tikilmə və ya təmir olunma tarixi
Naxçıvan şəhəri üzrə		
1.	H.Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi	2009
2.	Ekoloji Tərbiyə Mərkəzi	2007
3.	Turist Diyarşünaslıq Mərkəzi	2007
4.	Texniki Yaradıcılıq Mərkəzi	2007
5.	Estetik Tərbiyə Mərkəzi	2004
6.	Şahmat Mərkəzi	2009
Şərur rayonu üzrə		
1.	Şahmat Məktəbi	2006
Ordubad rayonu üzrə		
1.	Şahmat Məktəbi	2011
Culfa rayonu üzrə		
1.	Uşaq Gənclər Yaradıcılıq Mərkəzi	2010
2.	Ekoloji Tərbiyə mərkəzi	2010
3.	Turist Diyarşünaslıq Mərkəzi	2010
4.	Texniki Yaradıcılıq Mərkəzi	2010
5.	Şahmat Məktəbi	2006
Şahbuz rayonu üzrə		
1.	Uşaq Gənclər Yaradıcılıq Mərkəzi	2006
2.	Şahmat Məktəbi	2006

Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafında Muxtar Respublika Ali Məclisinin xüsusi xidmətləri olmuşdur. Muxtar Respublika Təhsil Nazirliyi və onun Aparatının səyləri nəticəsində təhsil göstəriciləri ildən-ilə yaxşılaşmışdır. Muxtar Respublikada 1991–1994-cü illərdə Əkbərov Nazim Fərrux oğlu, 1994–1995-ci illərdə Qasımov Abutalıb Ağa oğlu, 1996–2002-ci illərdə Quliyev Ələkbər Nuru oğlu, 2002–2005-ci illərdə Cəfərov Həmzə Rza oğlu təhsil naziri vəzifəsində çalışmışdır. 2005-ci ildən Muxtar Respublikanın təhsil naziri Nağıyev Piri Abbas oğludur.

2.24. Respublikadan kənarda təlim Azərbaycan dilində olan məktəblər

Müstəqilliyin ilk illərində Gürcüstanda təlim Azərbaycan dilində olan 183 məktəb fəaliyyət göstərir, bu məktəblərdə 49857 şagirdin təlim-tərbiyəsi ilə 6922 müəllim məşğul olurdu. 1999-cu ildə məktəblərin sayı 163, şagirdlərin sayı 39168, müəllimlərin sayı 3257 nəfər idi. 2009-cu ildə isə məktəblərin sayı azalaraq 124, şagirdlərin sayı 34159, müəllimlərin sayı 3332 nəfər təşkil etmişdir.

Gürcüstanda təlim Azərbaycan dilində olan məktəblər haqqında məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	61	60	56
2.	Bolnisi	44	39	19
3.	Dmanisi	34	29	17
4.	Qardabani	22	15	14
5.	Laqodexi	5	5	5
6.	Saqareco	7	5	4
7.	Telavi	1	1	1
8.	Zalqa	3	3	2
9.	Tetri-skaro	2	2	2
10.	Rustavi	2	2	2
11.	Tbilisi	2	2	2
Cəmi:		**183**	**163**	**124**

Gürcüstanda təlim Azərbaycan dilində olan ibtidai məktəblər haqqında məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	8	8	–
2.	Bolnisi	12	8	–
3.	Dmanisi	3	–	–
4.	Qardabani	1	–	–
5.	Laqodexi	–	–	–
6.	Saqareco	2	1	–
7.	Telavi	–	–	–
8.	Zalqa	1	–	–
9.	Tetri-skaro	1	–	–
10.	Rustavi	1	1	–
11.	Tbilisi	–	–	–
Cəmi:		**29**	**18**	–

Gürcüstanda təlim Azərbaycan dilində olan ümumi orta məktəblər haqqında məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	18	18	8
2.	Bolnisi	13	10	–
3.	Dmanisi	8	22	1
4.	Qardabani	2	3	–
5.	Laqodexi	3	2	3
6.	Saqareco	2	1	1
7.	Telavi	–	–	–
8.	Zalqa	–	1	–
9.	Tetri-skaro	–	1	–
10.	Rustavi	–	–	–
11.	Tbilisi	1	–	–
Cəmi:		**47**	**58**	**13**

Gürcüstanda təlim Azərbaycan dilində olan tam orta məktəblər haqqında məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	35	34	48
2.	Bolnisi	19	21	19
3.	Dmanisi	23	7	16
4.	Qardabani	19	12	14
5.	Laqodexi	2	3	2
6.	Saqareco	3	5	4
7.	Telavi	1	1	1
8.	Zalqa	2	1	2
9.	Tetri-skaro	1	1	2
10.	Rustavi	1	1	2
11.	Tbilisi	1	2	2
Cəmi:		**107**	**88**	**112**

Gürcüstanda təlim Azərbaycan dilində olan məktəblərdə işləyən müəllimlər barədə məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	2655	1493	1550
2.	Bolnisi	1420	701	700
3.	Dmanisi	1016	206	257
4.	Qardabani	1200	362	360
5.	Laqodexi	185	220	217
6.	Saqareco	140	110	106
7.	Telavi	70	40	35
8.	Zalqa	75	27	25
9.	Tetri-skaro	68	25	21
10.	Rustavi	35	34	32
11.	Tbilisi	49	39	29
Cəmi:		**6913**	**3257**	**3332**

Gürcüstanda təlim Azərbaycan dilində olan məktəblərdə şagirdlər barədə məlumat

№	Şəhər və rayonlar	İllər		
		1989	1999	2009
1.	Marneuli	15763	15292	14098
2.	Bolnisi	10061	7390	7018
3.	Dmanisi	6309	2245	2225
4.	Qardabani	7823	7500	5502
5.	Laqodexi	2978	1950	1427
6.	Saqareco	3256	2543	2505
7.	Telavi	1149	1002	484
8.	Zalqa	918	186	134
9.	Tetri-skaro	459	198	138
10.	Rustavi	814	552	320
11.	Tbilisi	327	310	308
Cəmi:		**49857**	**39168**	**34159**

Son 20 ildə Gürcüstanda təlim Azərbaycan dilində olan 59 məktəb bağlanmış, müəllimlərin sayı 3430 nəfər, şagirdlərin sayı 22363 nəfər azalmışdır.

Azərbaycanlı əhalinin kompakt yaşadığı bir sıra yaşayış məntəqələrində təlim Azərbaycan dilində olan məktəblər ya bağlanmış, ya da digər məktəblərlə birləşdirilmişdir.

20 minə yaxın azərbaycanlı yaşayan Rustavi şəhərində 12№-li orta məktəbdə Azərbaycan bölməsi ilə yanaşı, rus və gürcü bölmələri fəaliyyət göstərmişdir. Həmin məktəbin Azərbaycan bölməsində oxuyan şagirdlər bütövlükdə şəhər 18№-li orta məktəbə köçürülmüş, Rustavi şəhərində həmin məktəbin nəzdində yeganə Azərbaycan bölməsi fəaliyyət göstərməyə başlamışdır. Rustavi şəhərində ayrıca Azərbaycan məktəbinin açılmasına ciddi ehtiyac yaranmışdır.

Marneuli rayonundakı Xocomu kəndində yaşayan 350 ailədən 50-si azərbaycanlı ailələrdir. Həmin kənddə təlim həm Azərbaycan, həm də erməni dilində aparılır. Məktəbin direktoru milliyyətcə ermənidir. Azərbaycanlı ailələrdən 20 şagird həmin məktəbdə təhsil alır. Şagirdlər üçün 2 sinif otağı ayrılmışdır və onların təhsili ilə 5 müəllim məşğul olur. Əvvəllər bu məktəbdə 70 nəfər azərbaycanlı şagird təhsil almışdır. Lakin lazımi şərait olmadığından valideynlər övladlarını qonşu Sadaxlı kəndindəki orta məktəblərdə oxudurlar.

Marneuli rayonundakı Tsope kəndindəki təlim Azərbaycan dilində olan orta məktəbdə erməni uşaqları da təhsil alır. Həmin məktəbin direktoru azərbaycanlıdır.

Gürcüstan azərbaycanlılarının bölgələr üzrə yerləşməsi haqqında məlumat

№	Bölgələr	İllər		
		1989	1999	2009
1.	Tbilisi şəhəri	17968	19000	33751
2.	Rustavi şəhəri	11576	14900	15000
3.	Marneuli şəhəri	91923	97150	98245
4.	Bolnisi şəhəri	53808	49026	51600
5.	Dmanisi şəhəri	33107	18716	20032
6.	Qardabani şəhəri	48781	49993	51000
7.	Tetri-skaro şəhəri	1600	1530	1641
8.	Zalqa rayonu	2281	2000	1992
9.	Saqareco rayonu	15804	18907	18000
10.	Laqodexi rayonu	10000	90000	11392
11.	Telavi rayonu	7094	8225	8373
12.	Kaspi rayonu	2815	3200	4000
13.	Msxeta rayonu	2872	2300	2236
14.	Kareli rayonu	1426	1200	1183
15.	Qori rayonu	656	600	607
Cəmi:		**301711**	**376747**	**319052**

2010–2011-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Dmanisi şəhər 2№-li, Tbilisi şəhər 73№-li, Qardabani şəhər 3 №-li, Dmanisi rayonundakı Kirovisi kənd orta məktəbi əsaslı təmir edilmişdir. Qardabani rayonundakı Qaracalar kəndində 640 yerlik yeni məktəb binası tikilmişdir.

Gürcüstanın Təhsil və Elm Nazirliyi 2009-cu ildə müraciət edərək 2006-cı ildən etibarən Gürcüstan orta məktəb dərsliklərinin Azərbaycan dilinə tərcüməsinə başlanıldığını və I–III, VII–XII sinif dərslikləri ilə Azərbaycan məktəblərini təmin etdiklərini bildirmiş, yalnız tərcüməsi baş tutmayan IV, V və VI sinif dərsliklərinin göndərilməsini xahiş etmişdir.

Əldə olunmuş razılığa əsasən Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin, eləcə də Azərbaycandakı təlim gürcü dilində olan məktəblərin dərsliklərlə pulsuz təminatı hər il tərəflərin sifarişi əsasında həyata keçirilir. 1998–2011-ci illər ərzində Gürcüstanın təlim Azərbaycan dilində olan məktəblərinin I–XI sinif şagirdləri üçün 500 min nüsxədən çox dərslik və dərs vəsaitləri göndərilmişdir. O cümlədən 2008/09-cu tədris ilində Azərbaycandan Gürcüstana 16 adda 20025 nüsxə dərslik, Gürcüstandan isə Qax, Zaqatala, Balakən rayonlarının təlim gürcü dilində olan məktəblərində təhsil alan şagirdlər üçün 4954 nüsxə dərslik və 652 ədəd digər tədris vəsaiti göndərilmişdir.

2009/10-cu tədris ilində də Gürcüstandakı təlim Azərbaycan dilində olan 124 məktəbin şagirdləri üçün 34 adda 32770 nüsxə dərslik və Heydər Əliyev Fondu hesabına çap olunmuş 80 adda 125 komplekt əyani vəsait və plakatlar göndərilmişdir. Həmçinin Qax, Zaqatala,

Balakən rayonlarının təlim gürcü dilində olan məktəblərinin 1666 şagirdi 16 adda 7476 nüsxə dərsliklərlə təmin edilmişdir.

Dərslik sahəsində həll olunmayan problem Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərdə Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, Azərbaycandakı təlim gürcü dilində olan məktəblərdə isə Gürcü tarixi, Gürcü coğrafiyası fənlərinin tədris olunmamasıdır.

Azərbaycanda təlim gürcü dilində olan məktəblər haqqında məlumat

№	Rayonlar	İllər		
		1989	1999	2009
1.	Balakən	1	1	1
2.	Zaqatala	4	4	4
3.	Qax	7	7	7
Cəmi:		**12**	**12**	**12**

Azərbaycanda təlim gürcü dilində olan məktəblərdə işləyən müəllimlər barədə məlumat

№	Rayonlar	İllər		
		1989	1999	2009
1.	Balakən	22	25	30
2.	Zaqatala	90	118	111
3.	Qax	335	277	221
Cəmi:		**447**	**420**	**362**

Azərbaycanda təlim gürcü dilində olan məktəblərdə təhsil alan şagirdlər barədə məlumat

№	Rayonlar	İllər		
		1989	1999	2009
1.	Balakən	209	222	143
2.	Zaqatala	618	1018	520
3.	Qax	1313	1250	970
Cəmi:		**2140**	**2490**	**1633**

Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin 800 nəfərədək pedaqoji kadra ehtiyacı vardır. Bu problemin aradan qaldırılması və müəllimlərin ixtisasartırma sahəsindəki tələbatlarının ödənilməsi üçün Gürcüstanın Elm və Təhsil Nazirliyinin 18.11.2008-ci il tarixli əmri ilə Marneuli şəhərində Heydər Əliyev adına Gürcüstan–Azərbaycan Humanitar Universiteti açılmışdır.

Heydər Əliyev adına Gürcüstan–Azərbaycan Humanitar Universitetində təlim Azərbaycan dilində olan məktəblər üçün «Gürcü dili və ədəbiyyatı» ixtisası üzrə müəllim kadrlarının hazırlanmasına artıq başlanmış, eyni zamanda universitetin əməkdaşları tərəfindən gürcü dilini öyrənmək üçün hazırlanmış xüsusi proqram və metodik vəsaitlər geniş əhali kütləsinin istifadəsinə verilmiş, həmçinin azərbaycanlı gənclərin gürcü ictimaiyyətinə inteqrasiyası məqsədilə əlavə hazırlıq kursları təşkil olunmuşdur.

Həmin Universitetin bazasında Azərbaycan Müəllimlər İnstitutunun, xüsusilə onun Qazax filialının mütəxəssislərini cəlb etməklə Gürcüstanın təlim Azərbaycan dilində olan məktəblərinin müəllimləri üçün ixtisasartırma kurslarının təşkilinə başlanmışdır.

Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin, eləcə də Azərbaycandakı təlim gürcü dilində olan məktəblərin müəllimlərinin ixtisaslarının artırılmasına diqqət artırılmış, Gürcüstanın Təhsil və Elm Nazirliyi ilə razılaşma əsasında Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin müəllimləri üçün ixtisasartırma kurslarının Azərbaycan Müəllimlər İnstitutunun Qazax filialında təşkili istiqamətində tədbirlər həyata keçirilmişdir.



Gürcüstan Respublikası Qardabani şəhəri 3№-li ümumtəhsil məktəbinin açılışında. 2010-cu il

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının 28 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Gürcüstanda yaşayan azərbaycanlılarla aparılan işin təkmilləşdirilməsinə dair Tədbirlər Planı»na uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Gürcüstanın Elm və Təhsil Nazirliyi arasında 2004-cü ildə bağlanmış «Təhsil sahəsində əməkdaşlıq haqqında» müqavilənin vaxtının uzadılması qərara alınmışdır.

Bununla yanaşı, Gürcüstanda yaşayan azərbaycanlı soydaşlarımızın təhsili sahəsində bir sıra ciddi problemlər də mövcuddur:

1. Gürcüstanda ali məktəblərə qəbul test üsulu ilə yalnız gürcü dilində həyata keçirilir. Bu cür vəziyyət isə orta məktəbi Azərbaycan dilində bitirmiş məzunların ali məktəblərə qəbulunda böyük maneəyə çevrilmişdir. Təsadüfi deyil ki, hər il Azərbaycan məktəblərini bitirən 1700-dən çox məzundan ali məktəblərə 2006-cı ildə 27, 2007-ci ildə 22, 2008-ci ildə 25 nəfəri qəbul ola bilmişdir. Ona görə də Gürcüstandakı Azərbaycan dilində olan məktəblərin şagirdlərinə gürcü dilinin öyrədilməsi metodologiyasının dəyişdirilməsi ciddi problem kimi qarşıda durur.

2. Gürcüstandakı Azərbaycan məktəblərinin bəzilərinə milliyyətcə gürcü olan şəxslərin direktor təyin olunması məktəblərin fəaliyyətinə mənfi təsir göstərir, pedaqoji kollektivlər və valideynlər tərəfindən narazılıqla qarşılanır. Aşağı Saral, Ağqulu, Candar (Marneuli rayonu), Naxıduri (Arıxlı), Çapala (Qoçulu) (Bolnisi rayonu), Ağtəhlə, Təzəkənd, Muğanlı, Vaxtangisi (Qardabani rayonu) kənd məktəblərinin direktorları milliyyətcə gürcüdür.

3. Gürcüstanın bir sıra Azərbaycan kəndlərindəki məktəblərdə tədrisin gürcü dilində aparılması ciddi problemlərdən biridir (Kaspi rayonundakı Xidiskuri, Sakadaqialo, Çanqilavi, Ferma, Mikelçxaro, Həsənallı, Msxeti rayonundakı Daça, Çxaldidi, Çixisciri). Bundan əlavə, 2000 nəfərdən artıq azərbaycanlı ailəsi yaşayan Muxqani və Kaqeli rayonlarında təlim Azərbaycan dilində olan məktəb yoxdur.

4. Hazırda Gürcüstanda təlim Azərbaycan dilində olan 124 məktəb fəaliyyət göstərdiyi halda, Marneuli Rayon Təhsil Resursları Mərkəzi istisna olmaqla, istər Gürcüstanın Elm və Təhsil Nazirliyinin mərkəzi aparatında, istərsə də əhalisinin 70%-ni azərbaycanlılar təşkil edən Bolnisi, Qardabani, Dmanisi və Saqareco kimi rayonların yerli təhsili idarəetmə orqanlarında azərbaycanlı mütəxəssis işləmir. Halbuki təlim gürcü dilində aparılan cəmi 7 məktəb olan Qax rayonunun təhsil şöbəsində həmin məktəblərə kuratorluq edən gürcü mütəxəssis işləyir.

Azərbaycan Hökuməti Gürcüstanda yaşayan azərbaycanlıların təhsili ilə bağlı problemlərin həlli istiqamətində təkliflər hazırlamışdır. Təkliflər aşağıdakı məsələləri əhatə etmişdir:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Gürcüstanın Elm və Təhsil Nazirliyi arasında 2004-cü ildə bağlanmış «Təhsil sahəsində əməkdaşlıq haqqında» müqavilənin vaxtının uzadılması.

2. Gürcüstanın Elm və Təhsil Nazirliyində təlim Azərbaycan dilində olan məktəblərə kuratorluq edən azərbaycanlı mütəxəssis üçün ştatın ayrılması.

3. Gürcüstanda 2005-ci ildə qəbul olunmuş «Umumtəhsil haqqında Qanun»un 5-ci maddəsində müvafiq dəyişikliklər aparılmaqla təlim Azərbaycan dilində olan məktəblərdə soydaşlarımızın öz ana dili və ədəbiyyatı, tarix və coğrafiyasının öyrənilməsinə status verilməsi barədə danışıqların aparılması.

4. Azərbaycan dilində təhsil alan məktəblilərin gürcü dilini intensiv şəkildə öyrənmələri üçün tədris planında bu fənnə ayrılan saatların miqdarının artırılması, dərsdənkənar vaxtlarda pulsuz əlavə məşğələlərin keçirilməsi.

5. Məktəblərin vauçer sistemi ilə maliyyələşdirilməsi mexanizminin keçidlə əlaqədar təlim Azərbaycan dilində olan azkomplektli məktəblərin saxlanılması üçün güzəştlərin tətbiq edilməsi.

6. Gürcüstanda fəaliyyət göstərən təlim Azərbaycan dilində olan məktəblərin və Gürcüstan–Azərbaycan Humanitar Universitetinin maddi-texniki təchizatının yaxşılaşdırılması, Universitetin nəzdində təlim Azərbaycan dilində olan məktəblər üçün pedaqoji kadrlar hazırlayan fakültənin açılması, müəllimlər üçün ixtisasartırma kurslarının təşkil olunması.

7. Gürcüstanda məktəb yaşına çatmamış azərbaycanlı uşaqların gürcü dilini öyrənmələri üçün məktəbəqədər təhsil müəssisələrində



Moskva şəhər 157№-li etnomədəni Azərbaycan komponentli ümumi orta təhsil məktəbində

məşğələlərin keçirilməsi. hazırlıq kurslarının təşkil olunması.

8. Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin direktorlarına attestasiya üzrə materialların ana dilində təqdim edilməsi və bu məktəblərə həmin vəzifələrə yalnız azərbaycanlıların təyin edilməsinin həlli.

9. Gürcüstanın ali məktəblərinə azərbaycanlıların qəbul olunması imkanlarının yaxşılaşdırılması üçün qəbul imtahanlarının azərbaycan dilində verilməsi və bir illik gürcü dili hazırlıq kursu keçdikdən sonra ali məktəblərə qəbul olunması məsələsinin həlli.

10. Gürcüstanın təlim Azərbaycan dilində olan məktəbləri ilə Azərbaycanın məktəbləri arasında «Qardaşlaşmış məktəblər» layihəsinin həyata keçirilməsi.

Moskva Təhsil Departamentinin 29 avqust 1997-ci il tarixli əmrinə əsasən Moskvada 157№-li etnomədəni Azərbaycan komponentli ümumi orta təhsil məktəbi yaradılmışdır. 2011-ci ildə məktəbə general Kərim Kərimovun adı verilmişdir. Hazırda məktəbdə 550 şagird təhsil alır ki, onlardan 250 nəfəri azərbaycanlı, qalanları isə digər millətlərin nümayəndələridir. Məktəbin açılmasında məqsəd Moskva şəhərində yaşayan azərbaycanlı uşaqların Azərbaycan dilini, tarixini, mədəniyyətini və ənənələrini öyrənməsidir. Məktəbi fərqləndirən xüsusiyyətlərdən biri də odur ki, burada müxtəlif millətlərdən olan uşaqlar təhsil alırlar: ruslar, ukraynalılar, tatarlar, gürcülər, ermənilər, koreyalılar və s. Həmin uşaqlar da təhsil alarkən Azərbaycan mədəniyyəti ilə yaxından tanış olurlar. Məktəbin bazasında «Azərbaycan mədəniyyət-təhsil mərkəzi» fəaliyyət göstərir. Məktəbdə yaradılmış «Azərbaycan bülbülləri» ansamblı yalnız Moskvada deyil, Rusiyanın digər şəhərlərində də çıxışlar edirlər.

Məktəb Bauman adına Moskva Dövlət Texniki Universiteti, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universiteti, Moskva Sosial-Humanitar İnstitutu, Bakı Slavyan Universiteti ilə əməkdaşlıq edir. Hər il Təhsil Nazirliyi tərəfindən məktəb dərsliklər və digər tədris resursları ilə təmin edilir.

Yaranandan məktəbə Quliyeva Aidə Şahvələd qızı rəhbərlik edir. Təhsilin inkişafında xidmətlərinə görə A.Quliyeva Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

III FƏSİL

ÜMUMİ TƏHSİL SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIQ

Təhsil sahəsində səmərəli beynəlxalq əlaqələr digər ölkələrlə təcrübə mübadiləsinə, dünya təcrübəsində istifadə olunan yeni texnologiyaların, təlim strategiyalarının, innovasiyaların tətbiqinə şərait yaradır və təhsil sektoruna investisiya cəlbinə imkan verir. Bu da öz növbəsində insan potensialının inkişafına, kadrların davamlı təkmilləşdirilməsinə, beynəlxalq təlim təcrübələrinin tətbiqinə geniş imkanlar açır. Beynəlxalq əlaqələr, həmçinin tələbə və müəllim mübadiləsinə şərait yaradır, ölkədə təhsilin keyfiyyət səviyyəsinin digər inkişaf etmiş ölkələrlə müqayisəsinə, beynəlxalq təhsil məkanına uğurlu inteqrasiyaya, rəqabətqabiliyyətli təhsil sisteminin formalaşmasına, son nəticədə təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi vasitəsilə ölkənin tərəqqisinə, onun beynəlxalq aləmdə daha yaxşı tanınmasına və müsbət imicinin formalaşmasına kömək edir. Ona görə də biz Azərbaycan təhsilini beynəlxalq proqram və layihələr üçün açıq elan etdik. Bu cür yanaşmanın nəticəsidir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dünyanın bir çox ölkələri ilə təhsil sahəsində yaradılmış səmərəli əməkdaşlıq əlaqələri xeyli genişlənmişdir.

Təhsil sahəsində beynəlxalq əməkdaşlıq, əsasən, aşağıdakı istiqamətləri əhatə edir:

– ölkələrarası müqavilələrə əsasən təhsillə bağlı birgə tədbirlərin həyata keçirilməsi;
– təhsil sahəsində beynəlxalq proqram və layihələrin reallaşdırılması prosesində beynəlxalq təşkilatlarla əməkdaşlıq;
– təhsil müəssisələri arasında birbaşa əlaqələr, şagird, tələbə mübadiləsi, müəllimlərin ixtisasının artırılması, stajkeçməsi;
– müxtəlif təhsil mübadilə proqramlarını həyata keçirən təşkilat və digər donor qurumların təqaüdləri hesabına xaricdə təhsil;
– dövlət xətti ilə, yəni təhsil sahəsində əməkdaşlıq haqqında ikitərəfli razılaşmalar əsasında Azərbaycan vətəndaşları üçün ayrılan təqaüdlər hesabına həyata keçirilən xaricdə təhsil;
– təsdiq olunmuş Dövlət Proqramına əsasən azərbaycanlı tələbələrin xaricdə təhsili;
– əcnəbi tələbələrin Azərbaycanın ali məktəblərində təhsili.

Hazırda dünyanın 30-dək dövləti ilə təhsil əlaqələri yaradılmışdır. ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Rusiya, Çin, Yaponiya, İsrail, Cənubi Koreya, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Misir, Pakistan, Ukrayna, Gürcüstan, Çexiya, Slovakiya, Avstriya, Qazaxıstan, Özbəkistan, Rumıniya, Latviya,

Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Tacikistan və s. kimi ölkələrlə birbaşa təhsil əlaqələri qurulmuşdur.

Azərbaycanla Türkiyə Respublikası arasında təhsil sahəsində çoxtərəfli və inkişaf etmiş əlaqələr mövcuddur. Türkiyə ilə Azərbaycanın bu sahədəki əməkdaşlığı məzmun və miqyasına görə digər ölkələrlə müqayisədə çox geniş spektri əhatə edir.

Ötən illər ərzində iki qardaş ölkə arasında təhsil sahəsində çoxtərəfli əməkdaşlığı həyata keçirmək üçün lazımi hüquqi baza yaradılmışdır. 1992-ci ildə Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq barədə Müqavilə, 1994-cü ilin fevralında Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında elm, texnika, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq Müqaviləsi, 1997-ci ilin martında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil və elm sahələrində əməkdaşlıq Protokolu imzalanmışdır. Bu sənədlərdə təhsilin müxtəlif sahələri üzrə əməkdaşlığı, o cümlədən qarşılıqlı tələbə mübadiləsini təmin edən müddəalar öz əksini tapmışdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyətinin Türkiyə Respublikasına 1999-cu il 22 iyuldan 4 avqustadək davam edən növbəti səfərinin məqsədi Türkiyədə aparılan təhsil islahatlarının gedişi ilə tanış olmaq, bu ölkənin təcrübəsini yaxından öyrənmək idi. Həmin il Dünya Bankının texniki dəstəyi ilə Azərbaycanda orta təhsil sistemində islahatlara başlanmışdı. Bununla əlaqədar Qərb təhsil sisteminə inteqrasiya yolunda böyük uğurlar əldə etmiş Türkiyə təcrübəsinin öyrənilməsi mühüm əhəmiyyət daşıyırdı.



Türkiyə Respublikası Milli Təhsil Nazirliyi nümayəndə heyətinin Azərbaycana səfəri. Dekabr, 2000-ci il

Artıq Türkiyə ilə təhsil əlaqələri qurulmuş, fəaliyyət üçün hüquqi əsas yaradılmışdı, ölkələrimiz arasında əməkdaşlıq daha da genişlənirdi. Türkiyə ilə təhsil sahəsində əməkdaşlıq tarixində xüsusi səhifələrdən biri də 2000-ci ilin dekabrında Türkiyə Respublikası Milli Təhsil Nazirliyi nümayəndə heyətinin Azərbaycana səfəri ilə bağlı idi. Səfər zamanı həmin ildə Bakıda baş vermiş zəlzələ nəticəsində ziyan çəkmiş iki məktəbin təmirini Türkiyə Respublikası Milli Təhsil Nazirliyi öz üzərinə götürdü və sonradan Bakı şəhərindəki İncəsənət Gimnaziyası və Səbail rayonundakı 7№-li orta məktəbin təmiri həyata keçirildi. Səfər zamanı Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil və elm sahələrində əməkdaşlıq haqqında növbəti Protokol imzalandı.

Azərbaycanda dərslik siyasətinə uyğun olaraq yaradılmış Dərslikləri Qiymətləndirmə Şurasının işinin təşkili, Şura tərəfindən yeni dərslik komplektlərinin qiymətləndirilməsi sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi bu sahədə işlərin daha səmərəli qurulmasına imkan verdi. Təcrübə mübadiləsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Dərslikləri Qiymətləndirmə Şurasının nümayəndə heyəti bir neçə dəfə Türkiyə Milli Təhsil Nazirliyinin Təlim Tərbiyə Kurulunda olmuşdu.

1997–1998-ci illərdə Azərbaycanda kağız qıtlığı yarandığından dərslik çapı üçün ciddi təhlükə yaranmışdı. Türkiyənin köməyi olmasaydı, faktiki olaraq, şagirdlərin dərsliklə təminatı mümkün olmayacaqdı. Türkiyə tərəfi bu problemin həlli üçün Azərbaycana 247 ton kağızı humanitar yardım kimi ayırdı, nəticədə dərsliklərin, dərs vəsaitlərinin və məktəb sənədlərinin çapı həyata keçirildi.

Türkiyə ilə təhsil əlaqələrinin qurulmasında **«Çağ» Öyrətim İşlətmələri Şirkətinin** liseylərinin Azərbaycanda fəaliyyətinin xüsusi rolunu da qeyd etmək yerinə düşər.

1991-ci il Azərbaycan tarixində ağrılı-acılı səhifələrlə yanaşı, həm də çox mühüm hadisələrlə zəngin idi. Həmin ilin payızında Azərbaycan öz müstəqilliyini bərpa etmək haqqında tarixi Bəyannaməsini dövlət səviyyəsində elan etdikdən sonra Azərbaycanla Türkiyəni bir-birinə bağlayacaq maarif və əməkdaşlıq körpüsünün təməli qoyulmuşdu. Ümummilli lider Heydər Əliyevin 1991-ci il noyabrın 1-də Naxçıvanda imzaladığı tarixi sənədlə Azərbaycanda fəaliyyətə başlayan türk liseyləri ölkəmizin pedaqoji həyatında, eyni zamanda onun ictimai həyatında xüsusi yer tuturdu. Heydər Əliyevin həmin tarixdə atdığı imza son onilliklər ərzində Türkiyədə formalaşmış yeni, milli və ümumbəşəri pedaqoji dəyərlərə malik təhsil təcrübəsinin Azərbaycanda yayılmasına səbəb oldu. İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək, gələcək nəsillər müştərək tariximizin bu şanlı səhifələrini vərəqlədikcə, onun müəllifini həmişə xatırlayacaq, bu işdə iştirak edənləri, onu inkişaf etdirənləri minnətdarlıqla yad edəcəklər.

Müstəqilliyin ilk illərində Azərbaycanla geniş təhsil əlaqələri olan ölkələrdən biri də **Rusiya Federasiyası** idi. Rusiyanın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə hər il 40–50 rus dili və ədəbiyyatı müəllimi Rusiyada ixtisasartırma təhsilinə cəlb olunurdu.



Azərbaycan Respublikası Təhsil Nazirliyi və Rusiya Federasiyası Təhsil və Elm Nazirliyi arasında əməkdaşlıq haqqında sənədin imzalanması. Oktyabr, 2000-ci il

Moskva hökumətinin dəvəti ilə Azərbaycan məktəblilərinin Rusiyaya səfərlərinin təşkili sahəsində artıq ənənə yaranmışdı. Hər il 50-dək azərbaycanlı məktəblinin Moskvaya səfəri təşkil edilirdi ki, bu da ölkələrarası əlaqələrin inkişafına xidmət edirdi.

Rusiya ilə təhsil əlaqələrinin qurulmasında Moskva şəhərində fəaliyyət göstərən Kərim Kərimov adına 157№-li Azərbaycan etnomədəni komponentli orta məktəbin xüsusi yeri var. Bu təhsil müəssisəsi müxtəlif millətlərə məxsus şagirdlərin təhsilini təşkil etməklə yanaşı, Azərbaycanın milli dəyərləri və ənənələrinin təbliği sahəsində də səmərəli fəaliyyət göstərir, iki ölkə arasında təhsil əlaqələrinin inkişafında körpü rolunu oynayır.

1995-ci ilin fevralında Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rusiya Federasiyası Təhsil və Elm Nazirliyi arasında «Təhsil sahəsində əməkdaşlıq haqqında Saziş» imzalandı. 5 il müddətinə bağlanan bu saziş iki dövlət arasında təhsil sahəsində yaranmış sıx və səmərəli əlaqələr və ənənələr əsasında əməkdaşlığı daha da genişləndirməyi nəzərdə tuturdu.

2009/10-cu tədris ilindən Rusiyanın Təhsil və Elm Nazirliyi, Rusiyanın Azərbaycandakı səfirliyi ilə birlikdə Azərbaycanın 50 məktəbində

rus dilinin intensiv tədrisi layihəsinə başlandı. Təhsil Nazirliyi və Rusiyanın Azərbaycandakı səfirliyinin birgə tədbirlər planı hazırlandı. Layihənin əhatə etdiyi məktəblərin müəllimləri və şagirdləri arasında müxtəlif müsabiqələr, olimpiadalar təşkil edilirdi və qaliblər Moskva şəhərində keçirilən yekun mərhələyə dəvət edilirdilər.

Təhsil sahəsində **Azərbaycan Respublikasının Fransa** ilə əlaqələri 1993-cü ildən başlanmışdır. Fransa hökuməti Bakıda diplomatik missiyasına başlayan vaxtdan ilk əməkdaşlığı da təhsil sahəsində olmuşdu. Çünki Fransa dövləti üçün təhsil ən prioritet sahələrdən biridir. Fransa hər il təhsilin inkişafına 77 milyard avro vəsait ayırır ki, bu da dövlət budcəsinin 28%-ni təşkil edir. Fransada uşaqların 99%-i 3 yaşından 6 yaşınadək ana məktəb adlanan və ibtidai təhsilin birinci pilləsi olan təhsil müəssisəsinə gedirlər.

1998-ci ilin dekabrında Fransa Xarici İşlər Nazirliyi iki ölkə arasında təhsil əməkdaşlığını inkişaf etdirmək və gücləndirmək məqsədi ilə təhsil işçilərindən ibarət nümayəndə heyətini Fransaya rəsmi dəvət etdi. Bu dəvətlə bağlı Fransada səfərdə olmuş nümayəndə heyətinin tərkibində mənimlə birlikdə Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəyli, Pedaqoji Universitetin rektoru Bəhlul Ağayev, Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi işlər üzrə səfiri Ramiz Abutalıbov, Bakı şəhəri 134№-li orta məktəbin direktoru Sara Xanlarova və Bakı Dövlət Universitetinin baş müəllimi Azelma Həsənova da var idi.

Səfərin məqsədi Fransa Təhsil sistemi ilə yaxından tanış olmaq və iki ölkə arasında əməkdaşlıq əlaqələri yaratmaq idi. Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşlıq üzrə müşaviri Jerar Nero nümayəndə heyətini müşayiət edirdi. Səfər çərçivəsində biz Fransa Xarici İşlər Nazirliyində, Fransa Təhsil Nazirliyində, Paris Təhsil Akademiyasında (Sorbonnada), UNESCO-da, Versal Müəllimlər İnstitutunda, Paris şəhərindəki bir Ana məktəbində (uşaq bağçasında), bir texniki peşə liseyində və s. yerlərdə olduq.

Fransa ilə əməkdaşlığın ilk istiqaməti Azərbaycanda fransız dilinin tədrisinin təkmilləşdirilməsi və genişləndirilməsi ilə bağlı idi. Fransız dilinin tədrisinin müasirləşdirilməsi layihəsi üç istiqamətdə həyata keçirilirdi:

- Fransız dili müəllimlərinin ilkin təhsili üçün filyerlərin yaradılması;
- İstinad məktəbləri şəbəkəsi vasitəsi ilə fransız dili müəllimlərinin təkmilləşdirilməsi;
- Orta məktəblər üçün yeni Fransız dili dərsliklərinin hazırlanması.

Təhsil Nazirliyi ilə əldə olunmuş razılığa əsasən fransız dili müəllimlərinin təkmilləşdirilməsi məqsədilə fransız dili üzrə istinad məktəbləri müəyyənləşdirilmişdir. Fransa səfirliyi tərəfindən həmin məktəblərdə fransız dili kabinetləri yaradılmış və müasir aidio-vizual avadanlıqlarla təchiz edilmişdir. Həmin istinad məktəbləri regionun fransız dili müəllimləri üçün həm təkmilləşmə, həm də qabaqcıl təcrübə mübadiləsi mərkəzləri kimi fəaliyyət göstərmişdir. Bu mərkəzlərin məsul müəllimləri üçün Fransa səfirliyi tərəfindən Azərbaycan Müəllimlər İnstitutunda müntəzəm olaraq seminarlar təşkil edilirdi. Həmin seminarlara Fransadan mütəxəssislər də dəvət olunurdu.

Mövcud olan orta məktəblər üçün dərsliklərin əsaslı şəkildə dəyişilməsi prioritet təşkil

edən məsələlərdən biri idi. Azərbaycanlı dərslik müəllifləri, Fransadan gəlmiş ekspertlərin iştirakı ilə yeni Fransız dili dərsliyi hazırlamışdı. Fransız mütəxəssisləri Azərbaycanın ümumi təhsil məktəbləri üçün hazırlanmış proqram və dərsliklərin ekspertizasında yaxından iştirak etmişlər.

2004-cü ildə fransız modeli üzrə Bakıda ilk Ana məktəbi – uşaq bağçası yaranmışdır. Həmin təhsil müəssisəsinin yaranmasının təşəbbüskarı Sara xanım Xanlarovadır.

«Le Français en Azerbaidjan» – «Azərbaycanda Fransız dili» jurnalı onun baş direktoru Gülbəniz Məzahim qızı tərəfindən artıq on ilə yaxındır ki, çap olunur və fransız dili müəllimləri üçün vacib kommunikasiya vasitəsidir.

2011-ci il oktyabrın 7-də Fransa Prezidenti Nikola Sarkozinin Azərbaycana rəsmi səfəri zamanı Bakıda Fransız liseyinin təməlqoyma mərasimi keçirildi. Mərasim vaxtı «Azərbaycan Respublikasının hökuməti və Fransa Respublikası hökuməti arasında Bakı–Fransız liseyinin yaradılması haqqında» saziş imzalandı.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq liseydə ölkəmizdə daimi və müvəqqəti yaşayan fransızdilli əcnəbi vətəndaşların və Azərbaycan vətəndaşlarının təhsil alması nəzərdə tutulur. Təhsil müəssisəsi uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil verən klassik fransız liseyi olacaq. Tədris fransız dilində aparılacaq, şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına



Bakıda Fransız liseyinin təməlqoyma mərasimi. Oktyabr, 2011-ci il



Çinin təhsil naziri ilə görüş. 2002-ci il

cavab verəcək və həmin Nazirlik tərəfindən tanınacaq. Liseyin məzunları təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirə biləcəklər.

Çin Xalq Respublikası ilə əməkdaşlıq çərçivəsində 2001-ci ildə Çin hökuməti tərəfindən Azərbaycan hökumətinə qrant kimi 300 kompyuter dəsti ayrılmış, Azərbaycanın müxtəlif regionlarındakı orta məktəblərdə 35 kompyuter sinfi yaradılmışdı.

Azərbaycanla **Yaponiya** arasında siyasi və iqtisadi münasibətlərin inkişafında əsas dönüş 1998-ci ilin fevralında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfərindən sonra başlanmışdır.

2002-ci ildən başlayaraq Yaponiya Fondu tərəfindən maliyyələşdirilən «Orta məktəb müəllimləri üçün tədris səfəri proqramı» çərçivəsində hər il bir neçə müəllim Yaponiyaya getmək imkanı qazanırdı. Proqramın əsas məqsədi orta məktəb müəllimlərinin Yaponiyanın təhsil sistemi, mədəniyyəti və cəmiyyəti ilə yaxından tanış olmaq üçün şərait yaratmaqdan ibarət idi. Proqramda orta məktəblərin sosial elmlər, tarix, coğrafiya, iqtisadiyyat fənləri üzrə dərs deyən və ingilis dilini bilən, ən azı üç il iş təcrübəsi olan müəllimləri iştirak edirdilər.

2006-cı ildə Azərbaycan tərəfinə «Yaponiya–Qafqaz gənclərinin dostluq proqramı» çərçivəsində təhsilin idarə olunması üzrə mübadilə proqramı təklif olundu. Bu proqram Yaponiya hökumətinin tapşırığı ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (JICA) tərəfindən Cənubi-Qafqaz ölkələrində insan re-



Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Toşiyuki Fucivaranın «Şöhrət» ordeni ilə təltif edilməsi. Aprel, 2004-cü il

surslarının inkişafına dəstək və Yaponiya ilə bu region ölkələri arasında dostluq əlaqələrini möhkəmləndirmək məqsədilə texniki yardım çərçivəsində həyata keçirilirdi. Proqram çərçivəsində iştirakçı ölkələrin gələcəkdə məsul vəzifələr tuta biləcək gəncləri öz peşə bacarıqlarını artırmaq, Yaponiya və yaponlarla əlaqələr qurmaq imkanlarını qazanmaq üçün 23 gün müddətinə bu ölkəyə dəvət olunurdular.

Yaponiyanın Azərbaycanda təhsillə bağlı həyata keçirdiyi layihələr əsasən bu ölkənin Azərbaycandakı səfirliyi tərəfindən idarə olunurdu. Burada Yaponiya səfirliyinin xüsusi təşəbbüskarlığı, Təhsil Nazirliyi ilə çox səmərəli və faydalı əməkdaşlığa həmişə hazır olduğunu nümayiş etdirməsi xüsusi qeyd olunmalıdır. Təsadüfi deyildi ki, 2002–2005-ci illərdə Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri kimi çalışmış Toşiyuki Fucivara «maarifçi səfir» kimi tanınmışdı. Bu, Fucivaranın digər sahələrlə müqayisədə təhsilə daha çox diqqət yetirməsi və qısa müddət ərzində təhsillə bağlı çoxsaylı layihələrin, xüsusilə də «Ot kökləri və insan təhlükəsizliyi» qrant layihəsi əsasında məktəb tikintisi və təmiri ilə bağlı layihələrin yüksək səviyyədə yerinə yetirilməsi ilə əlaqədar idi. Həmin Layihə çərçivəsində Azərbaycanın regionlarında ümumilikdə 65-dək məktəb tikilmiş və əsaslı təmir olunmuşdu. Hər il Yaponiya hökumətinin

qrantları hesabına Azərbaycanın regionlarında ən azı 3 məktəbin əsaslı təmir və bərpa edilməsi ənənə halını almışdı.

Toşiyuki Fucivaranın Azərbaycandakı fəaliyyəti təkcə Təhsil Nazirliyi və təhsil ictimaiyyəti tərəfindən deyil, Azərbaycan dövləti tərəfindən də yüksək qiymətləndirilmiş və Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Toşiyuki Fucivara Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004-cü ildə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

3.1. UNICEF və UNESCO ilə birgə layihələr

Təhsil Nazirliyi təhsilin məzmununun yeniləşdirilməsi, yeni nəsil dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, müəllimlərin ixtisasının artırılması, müasir təlim texnologiyalarının tətbiqi, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemin tətbiqi, məktəbəqədər təhsilin inkişafı və digər sahələrdə dünyanın 20-dən artıq beynəlxalq təşkilatı ilə ümumilikdə 70-dən çox birgə layihə və proqramlar həyata keçirmişdir və bu istiqamətdə işlər davam etdirilir.

Təhsil sahəsində daha sıx və səmərəli əməkdaşlıq əlaqələri yaradılan beynəlxalq təşkilatlardan biri **UNICEF**-dir (**BMT-nin Uşaq Fondu**). Bu təşkilat Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir. Ötən illər ərzində UNICEF-lə Təhsil Nazirliyi arasında əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf etmiş, 1998-ci ildən isə daha dinamik xarakter almışdır. Səmərəli əməkdaşlıq Azərbaycanda təhsil sahəsində həyata keçirilən layihələrin də kəmiyyət və keyfiyyət baxımından artmasına gətirib çıxarmışdır.

UNICEF-lə Təhsil Nazirliyinin birgə layihələri Azərbaycan hökuməti ilə həmin təşkilat arasında imzalanmış beşillik fəaliyyət planları əsasında həyata keçirilir. Əməkdaşlığın ümumi prinsiplərini və strateji istiqamətlərini əks etdirən həmin plana əsasən hər il üçün Təhsil Nazirliyi və UNICEF-in birgə fəaliyyət planı təsdiq olunur və həyata keçirilir. İllik fəaliyyət planları təsdiq edilməmişdən əvvəl geniş bir konfrans təşkil edilir, bütün maraqlı tərəflərin, o cümlədən QHT-lərin iştirakı ilə fəaliyyət planına daxil ediləcək məsələlər müzakirə olunur, rəy və təkliflər nəzərə alınmaqla növbəti il üçün plan hazırlanır. Belə yanaşma əməkdaşlığın daha sistemli şəkildə qurulmasına, həyata keçirilən birgə layihələrin çevik idarə olunmasına və səmərəli həyata keçirilməsinə zəmin yaradır.

Bütün fəaliyyəti uşaqlarla bağlı olan, uşaqların kədəri və sevinci ilə yaşayan, ən çətin anlarda uşaqlarla birgə olan UNICEF təşkilatı Azərbaycanda öz missiyasını uğurla yerinə yetirir, uşaqların hüquqlarının qorunması, sağlamlığı və inkişafı sahəsində son dərəcə böyük əhəmiyyət kəsb edən birgə layihələr həyata keçirir. Belə uğurlu əməkdaşlığın yaranmasında həmin təşkilatın Azərbaycan nümayəndəliyinə rəhbərlik etmiş Akif Saatçıoğlu, Hanaa Singer, Məhəmməd Bendris, Mark Herevard, eləcə də təhsil proqramları üzrə rəhbər işləmiş Gülanə Hüseynovanın xüsusi xidmətləri olmuşdur.

Azərbaycanda UNICEF-lə birgə həyata keçirilən layihələrin əsas məqsədi məktəblərdə şəxsiyyətyönümlü təlim mühitinin yaradılması, şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi və həyati bacarıqlara malik olan şəxsiyyət kimi formalaşmasıdır.

Təsadüfi deyildir ki, təhsilin məzmununun yeniləşdirilməsi, yeni nəsil dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, müəllimlərin ixtisasının artırılması, müasir təlim texnologiyalarının tətbiqi, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemin tətbiqi, məktəbəqədər təhsilin inkişafı və digər sahələrdə Təhsil Nazirliyinin həyata keçirdiyi bir çox islahatyönümlü tədbirlərdə UNICEF fəal tərəfdaş kimi iştirak edir.

UNICEF-lə birgə həyata keçirilən layihələr ümumilikdə 300-ə qədər məktəbəqədər, ümumi təhsil, ilkin müəllim hazırlığı, ixtisasartırma və yenidənhazırlanma müəssisəsini, 25000-ə qədər uşaq və şagirdi, 8500-ə qədər valideyni, 3500-ə qədər müəllim və tərbiyəçini, 1000-ə qədər mütəxəssisi əhatə etmişdir. Ümumilikdə 300-dək təlim kursu və treninq keçirilmişdir. 100 minədək nüsxədə müxtəlif məzmunlu təlim materialı, milyonlarla nüsxədə bukletlər hazırlanmış və məktəblərə paylanmışdır. UNICEF-lə birgə həyata keçirilən layihələr çərçivəsində ölkə təhsilində yeni təcrübənin, müasir təhsil texnologiyalarının, innovasiyaların tətbiqi imkanlarının genişlənməsi ilə yanaşı, bu təşkilat tərəfindən təhsilin inkişafına maddi dəstək də göstərilmiş, ötən müddət ərzində həmin təşkilat tərəfindən reallaşdırılan layihələrə 5 milyon ABŞ dolları həcmində maliyyə vəsaiti sərf edilmişdir.

UNICEF-lə birgə həyata keçirilən **«Fəal təlim və məktəb rəhbərliyi»** layihəsinin məqsədi fəal/interaktiv təlim texnologiyasının pedaqoji prosesdə tətbiqi, bu sahədə müəllimlərə lazımi bacarıqların aşılanması, mövcud təcrübənin monitorinqi və gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi idi. Azərbaycanda ilk dəfə olaraq fəal/interaktiv təlim texnologiyasının müəllimlərin təcrübəsinə gətirilməsi UNICEF-in fəaliyyəti ilə bağlıdır.

Layihənin həyata keçirilməsi məqsədilə Bakı Avropa Liseyi, Şəki şəhər 10№-li, Qəbələ rayonu Vəndam kənd 1№-li, Quba rayon 2№-li, Masallı rayonu Köhnə Alvadı kənd məktəbi olmaqla 5 pilot müəssisə müəyyənləşdirilmişdi. Pilot məktəbləri İKT və digər avadanlıqlarla təmin olunmuş, layihə çərçivəsində fəal təlim üzrə 30 müxtəlif təlim kursları təşkil edilmişdi. Layihə 567 müəllimi, 6100 şagirdi, 224 valideyni, 107 mütəxəssisi əhatə edirdi. 25 min nüsxədə müxtəlif növ təlim və tədris materialları çap olunmuş və məktəblərə paylanmışdı.

Pilot məktəblərində fəal/interaktiv təlim texnologiyasının tətbiqi şagirdlərin təlim prosesinə daha fəal cəlb olunmasına, onların tənqidi və məntiqi təfəkkürünün inkişafına, şagirdlərdə zəruri kompetensiyaların formalaşmasına və nəticədə təhsilin keyfiyyətinin yüksəlməsinə zəmin yaratmışdı. Fəal/interaktiv təlim texnologiyasının pilot məktəblərində tətbiqi təcrübəsi, sonradan qeyri-pilot məktəblərdə də bu texnologiyanın uğurla tətbiqinə zəmin yaratdı.

Birgə layihə çərçivəsində ümumtəhsil məktəblərində, ixtisasartırma və yenidənhazırlanma, ilkin müəllim hazırlığı müəssisələrində fəal təlimin tətbiqi üzrə müəyyən təcrübə toplanmışdı. Lakin bu sahədə aparılan işlərin daha da genişləndirilməsi zərurəti nəzərə alınaraq, 2004-cü ilin noyabrında Təhsil Nazirliyi ilə UNICEF-in Azərbaycandakı nümayəndəliyi tərəfindən «Fəal/interaktiv təlimin Azərbaycanda tətbiqinə dair milli

siyasətin hazırlanması» mövzusunda 2 günlük konfrans keçirildi. Konfransda fəal təlim üzrə gələcək istiqamətlərin müəyyənləşdirilməsi üçün 30 nəfərdən ibarət işçi qrupu yaradıldı. Həmin qrup tərəfindən konfransın materialları təhlil edildi. «Fəal/interaktiv təlim texnologiyasının Azərbaycanda tətbiqi ilə bağlı fəaliyyət istiqamətləri» hazırlandı və Təhsil Nazirliyinin əmri ilə təsdiq edildi. Sənəddə fəal/interaktiv təlim texnologiyasının tətbiqi üzrə idarəetmə, təhsil üzrə tədqiqatlar, müəllim hazırlığı və ixtisasartırma sahələrində həyata keçiriləcək konkret vəzifələr müəyyənləşdirilmiş, eyni zamanda fəal/interaktiv təlim texnologiyasının tətbiqi üzrə layihənin əhatə dairəsinin genişləndirilməsi, layihəyə daha çox regionların və ümumtəhsil məktəblərinin cəlb edilməsi qərara alınmışdı.

2006–2009-cu illərdə Bakı şəhərinin, Şəki, Qəbələ, Quba, Masallı, Füzuli, Şirvan, Ucar, İsmayıllı, Lənkəran rayonlarının müəyyənləşdirilmiş pilot məktəblərinin, Azərbaycan Müəllimlər İnstitutu və onun filiallarının, pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrinin müəllimləri, pilot rayon təhsil şöbələri və məktəb rəhbərləri üçün təlimlər keçirilmişdi. UNICEF-in təşəbbüsü ilə ilk dəfə olaraq ölkəmizdə fəal təlimlə bağlı tədris vəsaitləri hazırlanıb çap edilmiş və müəllimlərlə keçirilən treninqlərdə həmin vəsaitlərdən səmərəli istifadə olunmuşdu.

UNICEF-in müəyyənləşdirdiyi üç (Lənkəran, Quba, Füzuli) və Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində müəyyənləşdirilmiş üç pilot rayonlarının (Ucar, İsmayıllı, Şirvan) ibtidai sinif müəllimləri üçün təşkil edilmiş seminarlarda fəal təlim metodları haqqında müəllimlərə nəzəri və praktiki bacarıqlar aşılanmışdır.

UNICEF-in həyata keçirdiyi **«Valideyn–Müəllim Assosiasiyası (VMA)»** layihəsinin məqsədi şagirdlərin inkişafı sahəsində bütün maraqlı tərəflərin səylərinin birləşdirilməsi, təlim-tərbiyə prosesinə valideynlərin daha fəal cəlb olunması, ümumtəhsil məktəblərindəki mövcud problemlərin həlli istiqamətində layihə və proqramların həyata keçirilməsi, təhsilə ictimai dəstəyin göstərilməsi idi.

Azərbaycan Milli Valideyn–Müəllim Assosiasiyası UNICEF və Təhsil Nazirliyinin «Ümidli gələcək» Gənclər Təşkilatı ilə birgə həyata keçirdikləri proqram çərçivəsində 2003-cü ildə ictimai qurum kimi yaradılmışdı. Layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq Bakı, Qəbələ, Şəki, Masallı və Qubada 5 pilot məktəbində VMA yaradılmışdı. Pilot məktəblərin 6000-dək müəllim, şagird və valideynləri üçün təlimlər keçirilmiş, maarifləndirmə işləri aparılmışdı. Müsbət təcrübə nəzərə alınaraq, 2003-cü ilin sonuna artıq 20 məktəbdə VMA yaranmışdı.

2004-cü ildə VMA-nın I Milli konfransı və təsis konfransı keçirildi. Konfransda təşkilatın strukturu, səlahiyyətləri müəyyənləşdirildi. 2005-ci ilin aprelində VMA Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alındı. 2011-ci ildə artıq 1000-dən çox məktəbdə valideyn–müəllim assosiasiyaları yaradılmışdı.

Uşaqlara aid qərarları qəbul edən təşkilatlar qarşısında, icmalarda, məktəblərdə uşaqların dəstəklənməsi, valideynlərə öz uşaqlarını müdafiə və inkişaf vərdişlərinin əldə edilməsində kömək göstərilməsi, valideyn və ictimaiyyətin məktəblərə cəlb olunması,

onların məktəbə köməyinin gücləndirilməsi, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, şagirdlərin məktəb həyatının daha səmərəli təşkilinə kömək edə biləcək layihələrin dəstəklənməsi üçün fondların və resursların yaradılması və digər bu kimi sahələr VMA-nın əsas fəaliyyət istiqamətlərini təşkil edirdi.

Azərbaycanın müxtəlif bölgələrində VMA-ların fəaliyyəti nəticəsində bir sıra əhəmiyyətli layihələr həyata keçirilmişdi.

«Məktəb uşağın dostudur» layihəsinin əsas məqsədi 5 strateji istiqamət üzrə tədbirlərin həyata keçirilməsidir:

1. Bütün şagirdlərə bərabər imkanların yaradılması: Məktəb sağlamlıq imkanından, ailənin sosial statusundan, gender və s. amillərdən asılı olmayaraq, bütün uşaqlar üçün xoş rəftar edilən bir məkan olmaqla yanaşı, onlara öz imkanları daxilində zəruri biliklərə yiyələnmək üçün əlverişli mühitə çevrilməli, burada hər bir fərdə təhsil alması üçün şərait yaradılmalıdır.

2. Səmərəlilik: Bu strategiya məktəblərdə səmərəli idarəetmənin, fəal/interaktiv təlim texnologiyalarının tətbiqini, təlim nəticələrinin düzgün qiymətləndirilməsini təmin etməklə keyfiyyətli təhsil, keyfiyyətli tədris prosesi, keyfiyyətli məzmun, keyfiyyətli mühit, keyfiyyətli müəllimlər, keyfiyyətli nəticələr kimi məqsədləri əhatə edir.

3. Sağlamlığın qorunması: Məktəb tibbi və sanitariya xidmətini təmin etməklə, yoluxucu xəstəliklərin qarşısını almaqla, istilik sisteminin işlək şəkildə olmasını təmin etməklə məktəbdə sağlam tədris mühitinin yaradılmasına nail olur, bu da son nəticədə şagird nailiyyətlərinə müsbət təsir edir.

4. Uşaqların müdafiəsi: Məktəb təhlükəsiz və etibarlı yer olmaqla yanaşı, şagirdləri hər cür zorakılıqdan və hüquq pozuntularından müdafiə edən bir məkandır. Burada fiziki cəza və hədə-qorxu tətbiq olunmur və məktəb hüquqi məkana çevrilir.

5. Ailələrin cəlb edilməsi: Məktəbdə valideynlərlə, digər ailə üzvləri ilə, təhsil prosesinin digər iştirakçıları ilə, cəmiyyətin nümayəndələri ilə məsləhətləşmələr aparılır və sıx əməkdaşlıq edilir. Dialoq aparılması üçün əlverişli imkanlar yaradılır. Məktəb öz fəaliyyətində ailəyə və cəmiyyətə əsaslanır.

«Məktəb uşağın dostudur» layihəsi məktəblərdə əlverişli, cəlbedici, maraqlı tədris mühitinin yaradılmasını nəzərdə tutur. Layihə ilkin mərhələdə Quba rayonunun 2, 3, 4, Qırmızı qəsəbə 1№-li və Rustov kənd məktəblərini, Füzuli rayonu Böyük Bəhmənli, Kərimbəyli, Aşağı Kürdmahmudlu kənd, Horadiz, Qayıdış–3 qəsəbə məktəblərini və Lənkəran şəhər 3, 4, 5, 8 №-li və Haftoni qəsəbə məktəblərini əhatə etmişdir.

2008-ci ildə müstəqil beynəlxalq ekspert tərəfindən Layihənin monitorinqi aparılmış və müəyyənləşdirilmişdi ki, məktəblərdə şagirdlərin inkişafı sahəsində ciddi nailiyyətlər əldə edilmiş, müəllimlərin yaradıcılıq və təşəbbüskarlıqları, tədris prosesinə və şagirdlərə yanaşması müsbət istiqamətdə dəyişmiş, valideynlər məktəbə daha fəal cəlb olunmuş, təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühiti yaradılmışdır.

Layihə çərçivəsində ümumtəhsil məktəblərinin keyfiyyət standartlarının hazırlanması istiqamətində beynəlxalq məsləhətçinin dəstəyi ilə mütəxəssislər üçün seminarlar



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev UNICEF-in təşkil etdiyi tədbirdə. Aprel, 1994-cü il

keçirilmiş, Təhsil Nazirliyində «Ümumtəhsil məktəbləri üçün keyfiyyət standartları»nın işlənib hazırlanması məqsədilə işçi və ekspert qrupları yaradılmış, keyfiyyət standartları hazırlanmışdır.

İşçi qrupunun üzvləri UNICEF tərəfindən 2009-cu ilin aprel ayında İsveçrənin Cenevrə şəhərində təşkil edilən Şərqi Avropa və MDB ölkələri üçün «Məktəb uşağın dostudur» mövzusunda seminarda iştirak etmişdilər. Onlar bu sahədə mövcud təcrübə və yenilikləri öyrənmiş, Azərbaycanın keyfiyyət standartlarını həmin seminarda təqdim etmişdilər. Hazırlanmış keyfiyyət standartları seçilmiş on məktəbdə sınaqdan keçirilmiş, nəticələr təhlil edilmiş və sənəd təsdiq edilmişdir. 2009/10-cu tədris ilindən keyfiyyət standartlarının ölkənin 100 məktəbində tətbiqinə başlanmışdır. Hazırda bu iş uğurla davam etdirilir.

UNICEF-lə birgə həyata keçirilən «**Təhsil sistemində məlumatların və təhlillərin təkmilləşdirilməsi**», «**İnkişaf üçün təhsil və Uşaq Hüquqları Konvensiyası**», «**Gənclərin sağlamlığı və inkişafı**», «**Mina təhlükəsinə dair maarifləndirmə**» layihələri çərçivəsində də bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

UNICEF-in əsas fəaliyyət istiqamətlərindən biri də təhsil sahəsində həyata keçirilən birgə layihə və proqramlarla bağlı Azərbaycanda respublika və beynəlxalq səviyyəli konfransların təşkili, eyni zamanda müxtəlif aktual məsələlərlə bağlı Təhsil Nazirliyinin və təhsil müəssisələri mütəxəssislərinin beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə xarici ölkələrə səfərlərinin təşkili idi. Ötən illər ərzində UNICEF Təhsil Nazirliyi ilə birlikdə 50-dək konfrans təşkil etmiş, 100-dək mütəxəssisin dünyanın müxtəlif ölkələrinə öyrədici, təlim və təcrübə mübadiləsi səfərlərini təşkil etmişdir.

UNICEF-in təhsil sahəsində fəaliyyətinin daha bir istiqaməti təhsilin ayrı-ayrı problemləri ilə əlaqədar sorğu və tədqiqatların aparılmasıdır. Aparılan tədqiqatların nəticələrinə əsasən hazırlanmış hesabatlar və beynəlxalq təcrübəyə uyğun işlənmiş tövsiyələr gələcək fəaliyyət planlarının hazırlanmasında istifadə edilir.

Təhsil Nazirliyi **Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)** ilə səmərəli əməkdaşlıq əlaqələri yaratmışdır. Bu təşkilatla əməkdaşlıq razılaşdırılmış ikitərəfli proqramlar və birgə layihələr vasitəsilə həyata keçirilir. Bu isə o deməkdir ki, UNESCO ilə əməkdaşlıq həm bu təşkilatın dünyada həyata keçirdiyi universal proqramları, həm də Azərbaycanda təhsilin bu və ya digər sahələri ilə bağlı layihələri əhatə edir.



Soldan: Azərbaycanın UNESCO-dakı daimi nümayəndəliyinin əməkdaşı Gülnarə Musabəyli, UNESCO-nun Baş Katibi Federiko Mayor və Azərbaycanın UNESCO-dakı daimi nümayəndəliyinin rəhbəri Eleonora Hüseynova ilə birlikdə. Paris, dekabr, 1998-ci il

UNESCO ilə əməkdaşlığın istiqamətlərindən biri «**Təhsil hamı üçün**» Proqramı ilə bağlıdır. UNESCO-nun 1998-ci ildə Daşkənddə keçirilən tədbirindən sonra Azərbaycan da bu proqrama cəlb olunmuşdur. Təhsil Nazirliyi ilə UNESCO arasında əməkdaşlığın daha işgüzar və səmərəli xarakter almasında Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyətinin 7–13 dekabr 1998-ci il tarixlərində Fransaya səfəri zamanı UNESCO-nun Baş Katibi Federiko Mayor ilə görüşünün və təhsil sahəsində əməkdaşlığın perspektivləri barədə aparılmış müzakirələrin xüsusi rolu olmuşdu.

1999-cu ilin mayında Nazirlər Kabineti «Təhsil hamı üçün» (THÜ) Proqramı üzrə Milli qiymətləndirmənin həyata keçirilməsi qaydalarını təsdiq etmiş, Proqramın həyata keçirilməsi üçün Təhsil, İqtisadi İnkişaf, Maliyyə, Gənclər və İdman, Mədəniyyət, Daxili İşlər, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə və Müdafiə nazirlikləri, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası, Dövlət Statistika Komitəsinin nümayəndələrindən ibarət işçi qrupu yaradılmış, milli koordinator təyin edilmişdi. İşçi qrupu Təhsil Nazirliyinin təşkilati rəhbərliyi altında fəaliyyət göstərirdi.

1999-cu ilin Payızında UNESCO-nun baş konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibində Parisə səfərimiz oldu. Həmin səfərdə Azərbaycan Dövlət Tibb



Soldan Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Məmmədtağı Cəfərov, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanovla birlikdə UNESCO-nun baş konfransında. 1999-cu il

Universitetinin rektoru Əhliman Əmiraslanov və Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Məmmədtağı Cəfərov da iştirak edirdi.

Proqram çərçivəsində 18 göstəriciyə əsasən qiymətləndirmə aparılmış, Azərbaycan üzrə Milli hesabat Azərbaycan və ingilis dillərində hazırlanmış, 2000-ci ilin yanvarında Tailandın paytaxtı Banqkokda UNESCO-nun regional təhsil forumunda təqdim edilmişdi. Həmin ilin mayında isə Azərbaycan Təhsil Nazirliyinin nümayəndə heyəti UNESCO tərəfindən «Təhsil hamı üçün» (THÜ) Proqramı ilə əlaqədar Dakar şəhərində keçirilən Dünya Təhsil Forumunda iştirak etmişdi. Forumda «Təhsil hamı üçün–2015» Proqramı qəbul edilmiş, dövlətlərin təhsil sistemləri qarşısında konkret hədəflər müəyyənləşdirilmişdi.

UNESCO-nun beynəlxalq səviyyədə həyata keçirdiyi layihələrdən biri də **İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT)** layihəsidir. İKT-nin sürətlə inkişafı, onun təhsildə rolu və əhəmiyyəti, qabaqcıl ölkələrin bu sahədə əldə etdiyi nailiyyətlərin bütün regionlarda və ölkələrdə yayılması və tətbiqi zərurəti UNESCO-nun diqqət yetirdiyi məsələlərdəndir. 2000-ci ilin aprelində Dakarda keçirilmiş Dünya Təhsil Forumunda təmsil olunan dövlətlər, o cümlədən Azərbaycan digər öhdəliklərlə yanaşı, informasiya və kommunikasiya texnologiyalarından istifadə, ən geci 2002-ci ilə qədər bu sahədə Milli tədbirlər planının hazırlanması sahəsində öhdəliklər götürmüşdü. İKT-nin təhsildə tətbiqi həmin planların tərkib hissəsi olmalı idi.

Bu məqsədlə, 2001-ci ildə UNESCO tərəfindən «UNESCO-nun yeni informasiya və kommunikasiya texnologiyaları və təhsil proqramı» adlı strategiya hazırlandı. Həmin strategiyada 2002–2003-cü illər üçün təşkilatın fəaliyyətinin iki prioritetindən birinin təhsilin, elmin və mədəniyyətin inkişafında yeni informasiya və kommunikasiya texnologiyalarının rolu ilə bağlı olduğu bəyan edildi. UNESCO-nun Təhsildə İnformasiya Texnologiyaları İnstitutu üzv ölkələrdə informasiya və kommunikasiya texnologiyalarının təhsilin bütün pillələrində tətbiqinə kömək göstərmək məqsədilə 26–28 aprel və 29–30 iyun 2002-ci il tarixlərində Moskva şəhərində seminarlar təşkil etmişdi. Bu seminarlarda Azərbaycan Təhsil Nazirliyinin nümayəndə heyəti də iştirak etmişdi.

Götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində Azərbaycanda İKT üzrə Milli Strategiya qəbul olundu və 2004-cü ildə ölkə Prezidenti tərəfindən Dövlət Proqramı təsdiq edildi. 2008-ci ildən başlayaraq bütün səviyyələrdə və pillələrdə təhsilin informasiyalaşdırılması istiqamətində əhəmiyyətli addımlar atıldı.

UNESCO ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən uğurlu layihələrdən biri də **Assosiativ Məktəblər Layihəsidir (AML)**. Bu layihə UNESCO-nun nizamnaməsində qeyd olunan təhsil, elm və mədəniyyət vasitəsilə millətlər arasında əməkdaşlığın gücləndirilməsinə, sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım məqsədi daşıyır.

Assosiativ Məktəblər şəbəkəsinin başlıca məqsədi pilot layihələr vasitəsilə dünyanın hər yerində sülh mədəniyyəti və tolerantlığın təbliğ edilməsində məktəblərin rolunun gücləndirilməsidir. İştirakçı məktəblər arasında əməkdaşlıq əlaqələrinin yaradılması, tədris materialları, müəllim və tələbə mübadiləsi məsələləri də bu şəbəkənin tərkib hissəsidir.



UNESCO-nun regional təhsil forumunun iclası. Tailand, Banqkok. Yanvar, 2000-ci il



Təhsil forumunun iştirakçıları.
Tailand, Banqkok. Yanvar, 2000-ci il

Azərbaycan məktəbləri UNESCO-nun bu layihəsinə 2000-ci ildən fəal surətdə qoşulmuşlar. Azərbaycanın 18 təhsil müəssisəsi AML şəbəkəsinə daxildir. Bu tədris müəssisələrində layihə ilə işləmək üçün xüsusi əlaqələndiricilər təyin olunmuşdur ki, onlar da şəbəkə çərçivəsində işlədikləri təhsil müəssisəsində bu işə rəhbərlik etməklə yanaşı, müəllim və şagirdləri UNESCO-dan alınmış materiallarla tanış edirlər. 2000-ci ilin sentyabrında UNESCO-nun nümayəndəsinin iştirakı ilə Bakıda AML-ə daxil olan məktəblər üçün seminar təşkil edilmişdir.

Azərbaycanda AML şəbəkəsinə qoşulmuş məktəblərin şagird və müəllimləri regional və beynəlxalq tədbirlərdə respublikanı layiqincə təmsil edirlər. 2004-cü il mayın 12-dən 14-dək Bakı şəhərində UNESCO-nun maliyyə dəstəyi ilə AML şəbəkəsinə qoşulmuş təhsil müəssisələrinin koordinatorlarının «Təhsilin keyfiyyəti təcrübədə» mövzusunda beynəlxalq seminar keçirilmişdir. Tədbirdə Avstriya, Almaniya, Fransa, Rusiya və Gürcüstandan, eləcə də UNESCO Katibliyindən nümayəndələr iştirak etmişlər.

2003-cü ilin oktyabrından başlayaraq respublikamızın AML şəbəkəsinə qoşulmuş ümumtəhsil məktəbləri UNESCO-nun təşkil etdiyi «Mondialoq» layihəsində iştirak edir. 2004-cü il sentyabrın 17-dən 20-dək İspaniyanın Barselona şəhərində «Mondialoq» üzrə keçirilmiş simpoziumda Bakı şəhəri 220№-li məktəbin «Dream» komandası və Nigeriyanın Laqos Kankom Kollecinin «Lasmok» komandasının birlikdə təqdim etdikləri «kontinental oyun» layihəsi münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilmiş, hər iki komandaya birinci dərəcəli diplom və pul mükafatı verilmişdir.

2004-cü ildə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi və həmin ilin sentyabrında bu fəxri adın verilməsi ilə bağlı UNESCO-nun Qərargahında xüsusi mərasimin keçirilməsi, ölkəmizin UNESCO ilə əməkdaşlığı sahəsində yeni mərhələnin başlanğıcı oldu. Məhz bundan sonrakı illərdə həmin təşkilatla Azərbaycan arasında əməkdaşlıq əlaqələri, xüsusilə təhsil sahəsində əməkdaşlıq daha intensiv xarakter aldı.

2005-ci ilin 15 sentyabrında Azərbaycan Respublikasının Prezidenti «UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında» xüsusi Sərəncam imzaladı. Sərəncamla UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyən edildi və mən, respublikanın təhsil naziri kimi müxtəlif nazirlik, komitə və digər dövlət qurumlarının rəhbərlərindən ibarət 17 nəfərin daxil olduğu Milli Komissiyanın sədr müavini təyin olundum. Bu sərəncam Təhsil Nazirliyinin UNESCO ilə əməkdaşlığının daha da genişlənməsi üçün əlavə imkanlar yaratdı.

UNESCO ilə əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin də xüsusi rolu olmuşdur. 5–9 iyul 2005-ci il tarixlərində UNESCO rəhbərliyinin dəvəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti Parisdə səfərdə oldu. Nümayəndə heyətinə mən başçılıq edirdim. Səfərin məqsədi



UNESCO-nun Baş Direktoru Koiçiro Matsuura Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya «UNESCO-nun xoşməramlı səfiri» diplomunu təqdim edir. Sentyabr, 2004-cü il

UNESCO-da keçirilən «Davamlı gələcək üçün Azərbaycanda təhsil islahatları» mövzusunda Azərbaycana həsr olunmuş konfransda iştirak etmək, UNESCO-nun Baş Direktoru Koiçiro Matsuuranın Azərbaycana səfəri zamanı imzalanacaq Memoranduma daxil ediləcək prioritetləri müzakirə etmək olmuşdur. UNESCO-nun tarixində ayrıca bir ölkəyə həsr olunmuş belə bir konfrans ilk dəfə məhz Azərbaycanla bağlı keçirilmişdir. Səfər zamanı UNESCO-nun Baş Direktoru Koiçiro Matsuura bizi qəbul etdi. O, Azərbaycanla əlaqələrin son illərdə xeyli inkişaf etdiyini vurğuladı, ölkə Prezidenti İlham Əliyevin bu əməkdaşlığın inkişafında xidmətini xüsusi qeyd etdi. Xoşməramlı səfir Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin, milli dəyərlərinin təbliği istiqamətində uğurlu fəaliyyətini diqqətə çatdırdı, rəhbərlik etdiyi təşkilat tərəfindən gələcəkdə də Azərbaycanla bağlı layihələrin həyata keçiriləcəyini bildirdi.

İyulun 6-da Azərbaycana həsr olunmuş konfrans öz işinə başladı. Konfransda UNESCO Baş Direktorunun müavini Piter Smit, təşkilatın

təhsil sektorunun, onun şöbələrinin rəhbərləri və bütün əməkdaşları, üzv ölkələrin təşkilatdakı nümayəndələri, təhsil üzrə beynəlxalq ekspertlər, Azərbaycanın Fransadakı səfirliyinin və Azərbaycan diasporunun nümayəndələri iştirak edirdilər.

Konfransda mən «Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri» mövzusunda geniş məruzə etdim. Məruzəm Azərbaycanın təhsil tarixi, keçid dövrünün problemləri, təhsil pillələri, Təhsil Nazirliyinin beynəlxalq əlaqələri, xüsusilə UNESCO ilə əməkdaşlığı, Azərbaycanda aparılan təhsil islahatları üzrə həyata keçirilən tədbirlər və sair məsələlər olmaqla ölkə təhsilinin bütün məqamlarını əhatə edirdi. Nümayəndə heyətinin üzvləri də «Azərbaycanda ümumi orta təhsilin inkişafı: əsas xüsusiyyətlər və perspektivlər», «Azərbaycanın ali təhsil sistemində islahatlar» mövzusunda çıxışlar etdilər. Bütün çıxışlar konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılandı.

İyulun 7-də və 8-də biz UNESCO-nun təhsil sektoruna daxil olan orta və texniki peşə, ali təhsil, təhsilin keyfiyyəti, erkən yaş dövründə uşaqların inkişafı, inklüziv və xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili, təhsil siyasəti və strategiyası departamentlərində görüşlər keçirdik. Görüşlərdə UNESCO ilə əməkdaşlıq Memorandumuna daxil ediləcək prioritetlər müzakirə olundu, konkret təkliflər irəli sürüldü.


UNESCO-nun Baş Direktoru Koiçiro Matsuuranın 23–26 avqust 2005-ci il tarixlərində Azərbaycana səfəri ölkəmizlə UNESCO arasında təhsillə bağlı əməkdaşlığın daha da dərinləşməsində xüsusi mərhələ təşkil etdi. Belə ki, bu səfər zamanı Heydər Əliyev Fondunun dəstəyi və yaxından iştirakı ilə Azərbaycanda təhsilin inkişafına həsr olunmuş «UNESCO – Azərbaycan: gələcəyə körpü» adlı ikinci beynəlxalq konfrans keçirildi.

Konfrans zamanı Azərbaycan Respublikası Təhsil Nazirliyi və UNESCO arasında təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalandı. Memoranduma əsasən aşağıdakı prioritet sahələr üzrə əməkdaşlıq nəzərdə tutulmuşdu:

- keyfiyyətli təhsilə bərabər imkanların yaradılması;
- təhsilin strateji planlaşdırılması və idarə olunması;
- təhsilin bütün pillələrində müəllimlərin ixtisasının artırılması və kurikulumun inkişafı vasitəsilə keyfiyyətin təmin olunması;
- texniki peşə təhsilinin təkmilləşdirilməsi;
- təhsildə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi.

Anlaşma Memorandumuna əsasən təhsil siyasətinin hazırlanması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi və UNESCO-nun nümayəndələrindən ibarət İşçi qrupu yaradıldı. Bununla yanaşı, əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumunda nəzərdə tutulan müddəaların həyata keçirilməsi məqsədilə birgə tədbirlər planı da hazırlandı. Beynəlxalq konfransın materialları əsasında Təhsil Nazirliyi tərəfindən xüsusi kitab hazırlanıb, Azərbaycan və ingilis dillərində nəşr olundu.

Müasir dövrdə savadlı olmaq dedikdə təkcə yazmaq, oxumaq və xarici dil bilmək



UNESCO-nun Baş Direktoru Koiçiro Matsuuranın qəbulunda. İyul, 2005-ci il



UNESCO-da keçirilən «Davamlı gələcək üçün Azərbaycanda təhsil islahatları» mövzusunda konfrans çərçivəsində görüş zamanı. Paris, iyul, 2005-ci il



UNESCO rəhbərliyinin dəvəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti Parisdə səfərdə. İyul, 2005-ci il

deyil, həm də informasiya texnologiyalarından yararlana bilmək nəzərdə tutulur. Hazırda dünyada «Hamı üçün təhsil» konsepsiyasının 6 məqsədindən biri olan savadlılıq problemi geniş müzakirə olunur. Savadlılıq anlayışına yanaşma zaman keçdikcə öz mahiyyətini dəyişir və ayrı-ayrı kontekstlərdə müxtəlif cür şərh edilir.

Ənənəvi olaraq savadlılıq dedikdə oxu və yazı, dinləyib anlamaq bacarığı nəzərdə tutulur. Hazırkı dövrdə savadlılıq dedikdə isə qeyd edilənlərdən başqa, oxu və yazıdan müasir ünsiyyət modelləri çərçivəsində istifadə edə bilmək bacarığı düşünülür. Başqa sözlə, savadlılıq insanların cəmiyyətdə əldə etdiyi informasiyanı dərk etmək və ötürmək qabiliyyəti, öz funksiyalarını tam şəkildə yerinə yetirmək potensialı deməkdir. Bu isə təbii ki, özündə həm ənənəvi anlamda oxu və yazı bacarığını, həm də müasir anlamda həmin bacarıqlardan istifadə edərək cəmiyyətdə öz yaşayışını maksimum tənzimləmə qabiliyyətini ehtiva edir. Ona görə də, insanın bütün həyatı boyu fasiləsiz təhsil almasına şəraitin yaradılması, onun biliyinin, bacarıq və qabiliyyətlərinin daim təkmilləşdirilməsi təhsilin mühüm vəzifələrindən biri kimi qarşıya qoyulur. Təhsil ekspertləri fasiləsiz təhsili Avropanın gələcək inkişafında həyati məsələ səviyyəsində qiymətləndirirlər. Artıq belə bir fikir formalaşmışdır ki, universitetlərin və digər ali təhsil müəssisələrinin statusu yüksəldilməklə onlar tədricən elmi-tədqiqat, peşə hazırlığı üzrə fasiləsiz təhsil mərkəzlərinə çevrilməlidir. Burada əsas məqsəd ali məktəbləri əmək bazarında yaranan tendensiyaların, eləcə də elm, texnika

və iqtisadiyyat sahələri üzrə yeniliklərin öyrənilməsi, tədqiq edilməsi yolu ilə mütəxəssis hazırlığının yeniləşdirilməsi prosesinə, bu sahədə təkmil formaların və innovasiyaların tətbiqinə, gələcəkdə cəmiyyətin rastlaşa biləcəyi problemlərin həllinə daha geniş cəlb etməkdən ibarətdir.

UNESCO ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş ən mühüm tədbirlərdən biri 14–16 may 2008-ci il tarixlərində Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə Bakıda keçirilmiş UNESCO-nun «Dünyada Savadlılığın dəstəklənməsi» üzrə regional konfrans oldu. Bakıda keçirilən bu regional konfrans qlobal savadlılığın dəstəklənməsi məqsədilə dünyanın ayrı-ayrı regionlarında keçirilməsi nəzərdə tutulan altı silsilə konfransdan sayca beşincisi idi. Konfransda dünyanın 30-dan çox ölkəsinin 200-dək təhsil eksperti və nümayəndəsi iştirak edirdi.

Konfransın əsas məqsədləri aşağıdakılardan ibarət idi:

- ölkələrin savadlılıq və yaşlıların təhsilinə dair problemlər haqqında məlumatlandırılması;
- savadlılığın və yaşlıların təhsili ilə bağlı maarifləndirmənin aparılması;
- savadlılıq və yaşlıların təhsili sahəsində əsas problemlərin və nailiyyətlərin müəyyənləşdirilməsi və müzakirəsi;
- savadlılıq və yaşlıların təhsili üzrə səmərəli təcrübənin təqdimatı və tətbiqi;
- ölkələr arasında əməkdaşlığın inkişafı;
- savadlılıq və yaşlıların təhsili sahəsində problemlərin həllinə yönəldilmiş milli strategiyanın müəyyənləşdirilməsi məqsədilə tövsiyələrin hazırlanması.


Mehriban xanım Əliyevanın da qatıldığı «Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək» mövzusunda keçirilmiş konfransda UNESCO-nun Baş Direktoru Koiçiro Matsuura, Hollandiya şahzadəsi xanım Laurentien, UNESCO-nun xoşməramlı səfirləri – İordaniya şahzadəsi xanım Firyal və İslandiyanın sabiq prezidenti xanım Viqdos Finboqadottir, Latviyanın təhsil naziri Koke Tatyana, o cümlədən Almaniya, Avstriya, Belorus, Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Albaniya, Kipr, Çexiya, Estoniya, Gürcüstan, Yunanıstan, Macarıstan, Latviya, Lixtenşteyn, Litva, Moldova, Monteneqro, Polşa, Rumıniya, Rusiya Federasiyası, Serbiya, Slovakiya, Sloveniya, İsveçrə, Makedoniya, Türkiyə və Ukraynadan təhsil məsələləri üzrə ekspertlər iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konfransa ünvanlanmış müraciətində deyilirdi: «Konfrans Avropada savadlılıq səviyyəsinin artırılması istiqamətində atılmış ciddi addım olacaq və UNESCO-nun təhsillə əlaqədar strateji sənədlərində bəyan etdiyi məqsədlərə çatmaq istiqamətində yeni mərhələ təşkil edəcəkdir».

Konfransın təşəbbüskarı Mehriban xanım Əliyeva bu nüfuzlu tədbirdə çıxış edərək demişdir: «Ümidvaram ki, dünya üzrə qlobal savadlanmaya dəstək məqsədilə keçirilən digər regional konfranslar kimi, bugünkü



«UNESCO–Azərbaycan: gələcəyə körpü» mövzusunda beynəlxalq konfrans. Avqust, 2005-ci il



«Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək» mövzusunda beynəlxalq konfrans. May, 2008-ci il

konfrans da təhsil sahəsində strateji əhəmiyyəti olan proqram və layihələrin həyata keçirilməsinə öz layiqli töhfəsini verəcək, konfransda iştirak edən bütün dövlətlər arasında tərəfdaşlığın bərqərar olmasına, təhsil sahəsində yeni metodların tətbiqinə yardım göstərəcək. Bu konfrans 2005-ci ildə keçirilmiş «Azərbaycan–UNESCO: gələcəyə körpü» mövzusunda keçirilən konfransda müzakirə olunmuş ideyaların daha da inkişaf etdirilməsinə, o cümlədən qaçqın və məcburi köçkünlərin təhsili kimi mühüm problemlərin həllinə kömək edəcəkdir».

UNESCO-nun Baş Direktoru Koiçiro Matsuura öz çıxışında demişdir: «Savadlılıq dünyanın gündəliyində duran və 2015-ci ilədək hamı üçün təhsili təmin etməyi qarşısına məqsəd kimi qoyan beynəlxalq layihənin əsasını təşkil edir. Lissabon strategiyasında qeyd edildiyi kimi, əgər Avropa 2010-cu ilədək dünyanın ən dinamik və rəqabətədavamlı, biliyə əsaslanan iqtisadiyyata malik bir qitəsi olmaq istəyirsə, onda bu məqsədə çatmaq üçün öz əhalisinin lazım olan savad və bacarıqlara yiyələnməsini təmin etməlidir».

2009-cu ilin 6–10 oktyabr tarixlərində UNESCO-nun Baş Direktoru Koiçiro Matsuuranın dəvəti ilə UNESCO Baş Konfransının 35-ci sessiyasında iştirak etmək məqsədi ilə Azərbaycan Respublikasının nümayəndə heyəti Fransada rəsmi səfərdə oldu. Nümayəndə heyətinin tərkibinə Təhsil, Mədəniyyət və Turizm, Xarici İşlər nazirliklərinin nümayəndələri, o cümlədən UNESCO üzrə Milli Komissiyanın rəhbəri daxil idi.

Konfransın əsas məqsədi UNESCO-nun gələcək fəaliyyətinin müzakirəsi və əməkdaşlıq istiqamətləri üzrə tövsiyələrin hazırlanması, o cümlədən son iki il ərzində əməkdaşlıq haqqında hesabatların təqdimatı, UNESCO-nun Baş Direktorunun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar təşkilatın yeni Baş Direktorunun seçilməsi idi. UNESCO-nun Baş Direktoru vəzifəsinə Bolqarıstanın UNESCO-dakı keçmiş nümayəndəsi İrina Bokova seçildi.

Konfrans plenar iclaslar, eləcə də nazirlər və nümayəndə heyətlərinin başçıları üçün təşkil olunmuş dəyirmi masalar şəklində keçirildi. Plenar iclasların gedişində Azərbaycan nümayəndə heyəti tərəfindən konfrans iştirakçılarına aşağıdakı istiqamətlər üzrə üç məruzə təqdim olundu:

1. Dünya maliyyə böhranı şəraitində təhsilin əsas vəzifələri, problemləri və inkişaf istiqamətləri.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə UNESCO arasında təhsil sahəsində əməkdaşlığın əsas istiqamətləri.

3. Azərbaycan ilə UNESCO arasında təhsil, elm, mədəniyyət, informasiya texnologiyaları, idman və digər sahələrdə əməkdaşlığın strateji istiqamətlərinin inkişafı.

Konfransda Azərbaycanla UNESCO arasında müxtəlif sahələrdə əməkdaşlığın strateji istiqamətləri, o cümlədən yaşlıların təhsili, İKT-nin təhsil sistemində tətbiqi və ixtisasartırma təhsili sahəsində layihələr, Avropa regionunda savadsızlığın aradan qaldırılması ilə əlaqədar 2008-ci ildə Bakıda keçirilmiş regional konfrans, 2009–2015-ci illərdə Azərbaycanda elmin inkişafı üzrə milli strategiya və digər məsələlərlə bağlı təqdimatlar oldu.





UNESCO Baş Konfransının 35-ci sessiyasının iclasında. Oktyabr, 2009-cu il

3.2. Britaniya Şurası ilə birgə layihələr

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında yaranmış elmi-mədəni sahələrdə münasibətlərin möhkəmlənməsi və inkişafında **British Council**-in **(Britaniya Şurası)** xüsusi rolu vardır. British Council Azərbaycanda 1993-cü ildə «Bp/STATOIL» alyansının maliyyə dəstəyi ilə ingilis dili, biznes administrasiyası və idarəetmə sahələrində təlimlərlə fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Con Meycor tərəfindən 23 fevral 1994-cü ildə imzalanmış «Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığa dair saziş» Britaniya ilə Azərbaycan arasında mədəni əməkdaşlığın hüquqi əsasını qoydu. Azərbaycan və Britaniya xalqları arasında dostluq münasibətlərinin, eləcə də, təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişafında tarixi əhəmiyyət daşıyan bu saziş imzalandığı gündən iki ölkə arasında qarşılıqlı anlaşmaya geniş zəmin yaratdı. Bundan sonra British Council Azərbaycanda fəaliyyətini genişləndirdi. Sazişin 14-cü maddəsinə əsasən British Council iki ölkə arasında təhsil,



Prezident Heydər Əliyevin Böyük Britaniyanın Baş naziri Con Meycorla görüşü. Fevral, 1994-cü il



Təhsil Nazirliyinin nümayəndə heyəti Böyük Britaniyada səfərdə. Soldan: Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr idarəsinin rəisi Mahir Əliyev, Azərbaycanın Böyük Britaniyadakı səfiri Mahmud Məmmədquliyev, Azərbaycan Dövlət Neft Akademiyasının rektoru Siyavuş Qarayev (sağdan ikinci) və Britaniya Şurasının Büro rəhbərləri. May, 1998-ci il

elm və mədəniyyət sahəsində əməkdaşlıqda Böyük Britaniya hökumətinin əsas vasitəçisi kimi çıxış edirdi.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə British Council-in səmərəli fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Birləşmiş Krallığın Baş naziri Toni Bleyerin 1998-ci il iyulun 21-də imzaladıqları birgə bəyannamədə də qiymətləndirilmişdi. Bəyannamənin 10-cu maddəsində qeyd olunmuşdu: «Hər iki lider British Council-in Azərbaycanda ingilis dilinin tədrisi, təhsil, elm, texnika və mədəniyyət sahələrini əhatə edən genişlənmiş fəaliyyətini xüsusilə bəyəndilər».

1998-ci ilin mayında British Council-in rəsmi dəvəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti Böyük Britaniyaya səfər etmişdi. Səfər nəticəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə British Council arasında əməkdaşlıq haqqında Saziş və Niyyət Memorandumu imzalandı. Bu Memorandum Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyətinin Böyük Britaniyanın Təhsil Sahəsində Mübadilələr üzrə Mərkəzi Bürosu arasında keçirilmiş görüşün və fikir mübadilələrinin nəticəsində imzalanmışdı. Memoranduma əsasən tərəflər 1998-ci ilin may–dekabr ayları ərzində

aşağıdakı tədbirlərin həyata keçirilməsi haqqında razılığa gəlmişdilər:

1. Təhsil sahəsində mübadilə üzrə Mərkəzi Büro Azərbaycanın məktəb və kolleclərı üçün Böyük Britaniyada tərəfdaş məktəblərin axtarılmasına kömək göstərəcəkdir. Əsas diqqət ümumtəhsil sektoruna yönəldiləcəkdir.

2. Məktəblər arasında stabil və qarşılıqlı faydalı əlaqələr yaradılandan sonra Mərkəzi Büro tərəfdaş tədris müəssisələri arasında eksperimental məktəb rəhbərləri mübadiləsi layihəsinə yardım məsələsinə baxacaqdır.

3. Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycanda fəaliyyət göstərən Böyük Britaniya şirkətlərinin Beynəlxalq təhsil layihələrinə cəlb edilməsi imkanları barədə məlumat hazırlayacaqdır.

4. Müvafiq fondlar mövcud olduğu təqdirdə, ingilis dili sahəsində birtərəfli konsultativ yardım proqramlarının həyata keçirilməsi məsələsinə Mərkəzi Büro tərəfindən baxılacaqdır. Həmin proqramda iştirak etmək niyyətini bildirən Müəllim Təşkilatları haqqında məlumat Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyinə təqdim ediləcəkdir.

5. Avropa Komissiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı və ya digər maliyyə mənbələri tərəfindən Azərbaycanda təhsilin inkişafına müəyyən fondlar ayrıldığı təqdirdə, Böyük Britaniyada ikitərəfli və çoxtərəfli layihələrdə iştirak etmək məqsədilə mümkün tərəfdaşların müəyyən edilməsində Mərkəzi Büro öz yardımını göstərəcəkdir.

British Council Azərbaycanda aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

- Müəllimlərin təkmilləşdirilməsi üzrə seminarların keçirilməsi;
- İngilis dili müəllimlərinin Britaniyada yay məktəblərində təkmilləşmə kursları keçməsinin maliyyələşdirilməsi;
- Şirkətlər və qeyri-hökumət təşkilatları üçün idarəetmə-menecment üzrə təlimlər;
- İncəsənət və elm sahələrində görüşlər və informasiya mübadiləsi;
- Britaniyada təhsil, incəsənət və mədəniyyət haqqında seminarların təşkil olunması;
- Təhsilin maliyyələşdirilməsi, ingilis dilinin tədrisi mərkəzlərində keyfiyyətə nəzarət sahəsində mütəxəssislərin başqa ölkələrə səfərlərinin maliyyələşdirilməsi;
- Təhsil Nazirliyi ilə birlikdə ali və orta məktəblərdə müəllimlər üçün «ingilis dilinin tədrisi metodikası», «Böyük Britaniyada təhsil və mədəniyyət tarixi» mövzusunda seminarların keçirilməsi;
- British Council ekspertləri tərəfindən ali təhsil müəssisələrinin ingilis dili müəllimləri üçün «İngilis dilinin tədrisinin müasir metodikası» üzrə seminarların keçirilməsi;
- İngilis dilinin tədrisi üçün dərsliklərin və vəsaitlərin hazırlanması;
- İngilis dilinin tədrisi ilə məşğul olan dövlət və qeyri-dövlət təşkilatlarına tədris metodları haqqında kitabların və müəllimlər üçün ingilis dili kursları, lüğətləri və məlumat kitabçalarının hədiyyə edilməsi;

– İncəsənət sahəsində tədbirlərin maliyyələşdirilməsi.

Azərbaycan İngilis Dili Müəllimləri Assosiasiyasına dəstək (AzETA) layihəsi British Council-in Azərbaycanda həyata keçirdiyi əhəmiyyətli layihələrdən biridir. Bu Layihə 2003-cü ildən başlanmışdır. Layihənin məqsədi Azərbaycan İngilis Dili Müəllimləri Assosiasiyasının geniş tanınması və davamlı infrastrukturunun qurulmasına kömək etməkdir. Layihə çərçivəsində İcra Şurası yaradılmış, Bakıda Baş ofis və 4 regionda: Şəki, Xaçmaz, Mingəçevir, Gəncədə yerləşən filiallardan ibarət infrastruktur yaradılmışdır. Hazırda AzETA-nın 600-dən çox üzvü var.

«Gənc ingilis dili müəllimləri» layihəsi AzETA tərəfindən həyata keçirilir. Eyni zamanda bu təşkilat ingilis dili müəllimləri üçün seminarlar, təlimlər, konfranslar təşkil edir, ingilis dilinin tədrisi metodikasının təkmilləşdirilməsi istiqamətində səylər göstərir.

İngilis dilinin tədrisi sahəsində layihələr. British Council Azərbaycanda ingilis dilinin tədrisi sahəsində layihələr həyata keçirir. Bu layihələr vasitəsilə British Council Azərbaycanda ingilis dili müəllimlərinin peşəkar inkişafını dəstəkləyir. Layihələr müasir təlimin aspektləri, dərsliklərin qiymətləndirilməsi, şagird nailiyyətlərinin qiymətləndirilməsi, yeni ingilis dili kurikulumunun nəzərdən keçirilməsi, innovativ layihə modulu, tədrisin təkmilləşdirilməsi, dərsin səmərəli planlaşdırılması və müşahidə, müəllimlərin ixtisasının artırılması və digər sahələri əhatə edir.

Müəllimləri təkmilləşdirmə layihəsi (INSETT). I mərhələ. Layihə 2003–2005-ci illəri əhatə etmişdir. Həmin müddət ərzində ümumilikdə 100 kaskad təlim sessiyası keçirilmişdir. 19 təlimçi müəllim kaskad təlim seminarlarını aparmış, 500 nəfər ingilis dili müəllimi kaskad təlimlərindən keçmişdir. Layihə çərçivəsində 12000 nəfər şagird yeni metodologiya və təlim materiallarının istifadəsi ilə keçirilən dərslərdən faydalanmışdır.

Müəllimləri təkmilləşdirmə layihəsi (INSETT) II mərhələ. Bu mərhələ 2005–2006-cı illəri əhatə etmiş, Layihə çərçivəsində Ucar, İsmayıllı və Şirvan şəhərlərindən olan 22 ingilis dili müəllimi 5 birhəftəlik intensiv seminarda iştirak etmişdir. 20 kaskad təlim sessiyası keçirilmişdir. 19 təlimçi müəllim kaskad təlim seminarlarını aparmışdır. 240 nəfər ingilis dili müəllimi kaskad təlimlərindən keçmişdir. Layihə çərçivəsində 5000 nəfər şagird yeni metodologiya və təlim materiallarının istifadəsi ilə keçilən dərslərdən faydalanmışdır.

Müəllimləri təkmilləşdirmə üzrə Milli layihə (NTT) III mərhələ. Bu mərhələ 2007–2008-ci illəri əhatə etmişdir. Layihə çərçivəsində Azərbaycan Müəllimlər İnstitutunun 11 filialından 25 müəllim və metodist 5 birhəftəlik intensiv seminarda iştirak etmişdir. 100 kaskad təlim sessiyası keçirilmişdir. 20 nəfər təlimçi müəllim kaskad təlim seminarlarını aparmışdır. 425 nəfər ingilis dili müəllimi kaskad təlimlərindən keçmişdir. 35000 nəfər şagird yeni metodologiya və təlim materiallarının istifadəsi ilə keçilən dərslərdən faydalanmışdır. AMİ və onun filiallarından 22 təlimçi müəllim təlimlərdən keçmişdir.

Layihə Təhsil Nazirliyi, Azərbaycan Müəllimlər İnstitutu və British Council

əməkdaşlarından yaradılmış xüsusi heyət tərəfindən idarə olunurdu. Müəllimləri təkmilləşdirmə layihələri aşağıdakı nəticələrin əldə edilməsinə zəmin yaratmışdır:

- INSETT komandası uzunmüddətli ingilis dili təlimi proqramını hazırlamış və AzETA, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu, Azərbaycan Müəllimlər İnstitutu və Azərbaycan Dillər Universiteti tərəfindən həyata keçirilməsi üçün təqdim etmişdir;
- təlim proqramı üçün yeni materiallar toplanmışdır;
- ayrı-ayrı müəllimlər tərəfindən 2 illik proqram zamanı bütün müəllimlər tərəfindən istifadə oluna biləcək layihələr tərtib edilmişdir;
- gələcək trenerlərin hazırlanması üçün təlimlər apara biləcək INSETT sertifikatı olan 42 nəfərdən ibarət peşəkar və təcrübəli trenerlər komandası yaradılmışdır;
- Azərbaycanda müasir ingilis dili tədrisinin hərtərəfli hesabatını özündə əks etdirən tədqiqat aparılmışdır;
- layihə çərçivəsində işlənib hazırlanmış materiallar İnternetdə yerləşdirilməklə bütün müəllimlərin istifadəsinə verilmişdir.

Gənc ingilis dili müəllimləri layihəsi (NQT). Bu regional layihə gənc ingilis dili müəllimləri üçün təlimləri nəzərdə tuturdu. Layihə 50 nəfər Gəncə, 40 nəfər Sumqayıt, həmçinin 60 nəfər Bakı məktəb və liseylərindən olan gənc ingilis dili müəllimini əhatə edirdi. Təlimlər Rumıniya və Bolqarıstanda təlim keçmiş 6 yerli mütəxəssis tərəfindən uğurla həyata keçirilmişdi. Seminarlar 2007-ci ilin yanvar və aprel aylarında Gəncə, Sumqayıt və Bakıda keçirilmişdi.

İngilis dilinin tədrisi sahəsində INSETT heyətinin işləyib sınaqdan keçirdiyi uzunmüddətli ixtisasartırma proqramı milli səviyyədə yayılaraq AMİ tərəfindən mənimsənilmişdir. AMİ bu təcrübədən yararlanaraq yalnız ingilis dili müəllimlərinin deyil, digər fənn müəllimlərinin ixtisasının artırılması sahəsində də yeni sistemi tətbiq etmişdir.

British Council-in Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi müəllimlərin təkmilləşdirilməsi layihələri uğurlu olmuşdur. Həmin layihələrin məqsədi Azərbaycanda təhsil islahatlarına uyğun olaraq ingilis dili müəllimləri üçün ingilis dilinin tədrisi sahəsində ən son nailiyyətləri əks etdirən müasir və effektiv ixtisasartırma/təkmilləşdirmə sisteminin yaradılması, ingilis dilinin tədrisində fəal/interaktiv təlim metodlarının və yeni pedaqoji texnologiyaların tətbiqidir. Həmin layihələrdən ümumilikdə 2000-dək müəllim, 54000 şagird faydalanmışdır. Layihələr çərçivəsində 250 kaskad təlimləri keçirilmiş, 77 nəfər təlimçi hazırlanmış, 23 nəfər «öyrədənlərin öyrədəni» təcrübə mübadiləsi məqsədilə xarici ölkələrdə, o cümlədən Böyük Britaniyada səfərdə olmuşdur. Layihələrə cəlb olunmuş müəllimlər tərəfindən təlim materialları və tədris vəsaitləri hazırlanmışdır. İngilis dilinin tədrisi sahəsində layihələr üzrə nailiyyətlərin əldə edilməsində, ingilis dili müəllimlərinin ixtisasının artırılması üzrə səmərəli sistemin yaradılmasında British Council-in Azərbaycan üzrə nümayəndələri Əndi Uilyams, Marqaret Cək, Nikol de Laluvye, Pol Dabldey, Pol Klementsonun və British Council-in

proqramlar üzrə rəhbəri Gülşən Hüseynovanın xüsusi xidmətləri olmuşdur.


İngilis dilinin intensiv tədrisi layihəsi. Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyillərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha zəruri etmişdi. Bu amil isə xarici dillərin tədrisinin təkmilləşdirilməsini, beynəlxalq təcrübədə uğurla istifadə olunan metodikaların ölkəmizdə də tətbiqini xeyli aktuallaşdırmışdı. Bir və ya bir neçə xarici dil bilmək artıq həyati tələbat hesab olunurdu.

Aparılan təhlillər göstərirdi ki, ölkəmizin ümumtəhsil məktəblərində xarici dillərin tədrisi sahəsində mövcud olan problemlər, əsasən, proqram və dərsliklərin, tədris metodikasının müasir tələbləri ödəməməsi və şagirdyönümlü olmaması, bir çox müəllimlərin peşəkarlıq səviyyəsinin, mövcud ixtisasartırma sisteminin müasir tələblərə cavab verməməsi ilə bağlıdır. Mövcud problemlərin aradan qaldırılması üçün xarici dillər intensiv tədris edilməli, bunun üçün ünsiyyət əsaslı (kommunikativ) yanaşma metodikasına üstünlük verilməli, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması sahəsində müasir və effektiv ixtisasartırma/təkmilləşdirmə sistemi tətbiq edilməli idi. Bununla əlaqədar British Council-lə birgə layihənin reallaşdırılması barədə qərar qəbul edildi.

2008/09-cu tədris ilindən layihənin həyata keçirilməsi üçün ilkin olaraq Bakı şəhərində 7 pilot məktəbi müəyyənləşdirildi: Bakı şəhərindəki 6, 7, 23, 27№-li məktəblər, «Ankara məktəbi» Məktəb-liseyi, 132–134№-li təhsil kompleksi və Seyid Cəfər Pişəvəri adına Humanitar Fənlər Gimnaziyası.

İngilis dilinin intensiv tədrisi layihəsində iştirak edən ümumtəhsil məktəbləri

№	Məktəb	I sinif	Şagirdlərin sayı	II sinif	Şagirdlərin sayı	III sinif	Şagirdlərin sayı	V sinif	Şagirdlərin sayı	VI sinif	Şagirdlərin sayı	VII sinif	Şagirdlərin sayı	Müəllimlərin sayı
1.	Bakı şəhəri 7№-li məktəb	3	63	4	87	4	79	4	77	3	65	3	80	14
2.	Bakı şəhəri 23№-li məktəb	5	165	5	164	6	172	5	157	5	124	5	155	18
3.	Bakı şəhəri 27№-li məktəb	6	183	6	192	5	159	5	188	6	145	4	127	17
4.	Bakı şəhəri 6№-li məktəb	3	85	3	96	3	102	–	–	3	115	5	155	11
5.	Bakı şəhəri «Ankara məktəbi» məktəb-liseyi	8	233	7	210	7	190	5	151	6	155	5	139	17
6.	Bakı şəhəri 132-134 №-li təhsil kompleksi	4	138	3	94	4	135	4	129	4	113	4	103	27
7.	Humanitar fənlər gimnaziyası	5	146	4	130	4	130	5	172	4	113	5	141	16
Cəmi:		**34**	**1013**	**32**	**973**	**33**	**967**	**28**	**874**	**31**	**830**	**31**	**900**	**120**



İngilis dilinin intensiv tədrisi layihəsi tətbiq olunmuş məktəblərdə istifadə olunan Kembric Universiteti dərslikləri





İngilis dilinin intensiv tədrisi layihəsi



Müəllimlərə British Council və Təhsil Nazirliyinin sertifikatlarının təqdim edilməsi

Həmin məktəblərdə uzun müddət xarici dillər, o cümlədən ingilis dili dərindən öyrədilmişdi və lazımi kadr potensialı var idi.

Layihə ilkin mərhələdə 7 məktəb üzrə 41 sinifdə 1085 birinci sinif, 37 sinifdə 1077 beşinci sinif şagirdi olmaqla ümumilikdə 78 sinfi, 2162 şagirdi əhatə etmişdi.

British Council ilə birlikdə məktəblərin I və V siniflərində ingilis dilinin intensiv tədrisinə başlanılması üçün yeni tədris planları tərtib edildi, proqramlar hazırlandı və təsdiq edildi, dərsliklər müəyyənləşdirildi. Qabaqcıl ingilis dili müəllimləri və British Council ilə müzakirələrdən sonra həmin siniflərdə tədris prosesində istifadə ediləcək milli dərsliklərlə yanaşı, Kembric Universitetinin nəşr etdiyi və Böyük Britaniyada uğurla tətbiq edilən, Azərbaycan üçün məqbul olan dərslik komplektləri müəyyənləşdirildi, müəllimlər və şagirdlər həmin dərslik komplektləri ilə təmin olundu.

Bu mərhələdə ən əhəmiyyətli məsələlərdən biri də pilot siniflərində dərs deyəcək müəllimlərin seçilməsi idi. Məktəb rəhbərləri ilə birlikdə ingilis dilini intensiv tədris edəcək 55 müəllim seçildi. British Council-in təcrübəli və səriştəli təlimçiləri tərəfindən təlim seminarlarının proqramı hazırlandı. Böyük Britaniyadan mütəxəssis dəvət edilməklə həmin müəllimlər üçün üç təlim seminarı keçirildi və onlara British Council və Təhsil Nazirliyinin müvafiq sertifikatları təqdim olundu.

Onu da qeyd etmək lazımdır ki, ingilis dilinin intensiv tədrisi layihəsi British Council-in mütəxəssisləri tərəfindən daim müşahidə olunur. Daha geniş monitorinq isə 2009-cu ilin noyabrında aparılmışdır. Monitorinq prosesində pilot məktəblərin ingilis dilini tədris edən bütün müəllimlərinin dərsləri dinlənilmiş və geniş təhlil edilmişdir. Monitorinqin nəticələrinə əsasən hər bir müəllimin fəaliyyətinin təhlilini və müvafiq tövsiyələri özündə əks etdirən geniş hesabat hazırlanıb Təhsil Nazirliyinə təqdim edilmişdir. Bu hesabatlar pilot məktəblərin rəhbərləri və müəllimlərlə birlikdə müzakirə edilmiş və fəaliyyətdə nəzərə alınması üçün müvafiq məktəblərə təqdim edilmişdir. Eyni zamanda monitorinqin nəticələri ingilis dilini intensiv tədris edən müəllimlər üçün daha bir təlim seminarının keçirilməsi üçün də əsas olmuşdur.

2009/10 və 2010/11-ci tədris illərində layihənin əhatə dairəsi daha da genişləndirildi, 7 pilot məktəbinin I, II, III və V, VI, VII siniflərində ingilis dili intensiv tədris edilməyə başlandı. Pilot məktəblərin 34 I sinfində 1013 şagird, 32 II sinfində 972 şagird, 33 III sinfində 876 şagird, 28 V sinfində 874 şagird, 31 VI sinfində 717 şagird, 31 VII sinfində 900 şagird ingilis dilini intensiv proqramla öyrənməkdədir. Həmin siniflərdə 120 müəllim ingilis dilini tədris edir.

2011/12-ci tədris ilindən ingilis dili intensiv tədris edilən məktəblərin sayı 20-yə çatdırıldı, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təklifinə əsasən 18, 31, 46, 49, 60, 80, 82, 138, 164, 189, 220, 267 və 304№-li məktəblər də layihəyə cəlb olundu.

British Council ingilis dili tədrisi ilə bağlı bütün bilik səviyyələri üçün ingilis dili üzrə təlim kursları, ingilis dilini Böyük Britaniyada öyrənməyi arzulayanlar üçün yerləşdirmə xidmətləri, ingilis dilinin öyrənilməsi və tədrisini dəstəkləməklə Böyük Britaniyada təhsil almaq imkanları haqqında məlumatın verilməsi və bu yönümdə imtahanların təşkil edilməsi kimi digər xidmətləri də həyata keçirir.

İngilis dilinin onlayn tədrisi (ETTO). İbtidai siniflərdə ingilis dilinin onlayn tədrisi layihəsinə 2010-cu il yanvarın 15-dən başlanmışdır. Bu 50 saatlıq innovativ kurs onlayn tapşırıqlardan, iştirakçılarla aparılan müxtəlif mövzularda müzakirələrdən və müstəqil öyrənmədən ibarətdir. Kursu 58 nəfər müəllim bitirmişdir (Gəncə, Zaqatala, İsmayıllı, Sumqayıt və Bakı).

İngilis dili müəllimlərinin ixtisasının artırılması üzrə yaradılmış səmərəli sistem və toplanmış təcrübə BP və British Council tərəfindən Azərbaycanda yeni bir əhəmiyyətli layihənin – **Təbiət fənləri üzrə müəllimlərin təlimləri sahəsində layihənin** başlanması üçün əsas oldu. Layihə 2007–2010-cu illəri əhatə edirdi. Layihənin əsas məqsədi fizika, kimya, biologiya fənləri üzrə interaktiv təlim metodlarının tətbiqini inkişaf etdirərək Azərbaycan məktəblərində tədris və öyrənmə təcrübəsində müsbət dəyişikliklərə dəstək vermək idi. Perspektivdə bu layihənin məqsədi hər bir müəllimi interaktiv təlim metodları ilə tanış edərək bütün ölkə üzrə orta məktəblərdə təbiət fənlərinin tədrisi səviyyəsini yüksəltməkdir.

Layihə British Council və onun tərəfdaşları – Təhsil Nazirliyi, AMİ, Böyük

Britaniyanın Təbiət Elmlərinin Öyrənilməsi üzrə Milli Mərkəzi və BP Azərbaycan tərəfindən icra olunur. Layihə çərçivəsində üç il ərzində 3000-dən artıq müəllim və 250 təlimçi interaktiv təlim metodları ilə yaxından tanış olmuş və əldə edilən təcrübəni bütün ölkə üzrə müəllimlər arasında yaymışdır.

Məktəblər arasında əlaqələr – robotlar missiyası Layihəsi yerli və Britaniya məktəbləri arasında əlaqələr yaratmaq üçün nəzərdə tutulmuşdu. Layihə Azərbaycanda 2007–2009-cu illərdə uğurla həyata keçirilmişdir.

Əsas tərəfdaşlar «ÇAĞ» Öyrətim İşlətmələri Şirkəti, British Airways, BP-nin Xəzər Enerji Mərkəzi olmuşdu. Təhsil sahəsində qabaqcıl və texnoloji cəhətdən mütərəqqi olan bu layihə Azərbaycanda ilk dəfə LEGO robotlarından istifadə edərək riyaziyyat, xarici dillər, dəqiq elmlər və dizayn texnologiyası fənlərini inteqrasiya etməklə təhsil prosesinə kompleks yanaşmanı təqdim etmişdi.

Birinci il Lənkəran və Sumqayıt liseylərindən olan 32 şagirddən ibarət 4 komanda I Milli robotlar yarışında qüvvəsini sınadı. Qalib komandadan 4 şagird və 2 müəllim İngiltərəyə səfər etdi (12 mart 2005-ci il). İkinci il Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Şəki, Ağdaş, Quba və Şirvandan 8 lisey və Britaniyadan 4 məktəb olmaqla ümumilikdə 96 şagird və 12 müəllim yarışa qatıldı. II Milli robotlar yarışında 8 komanda arasında qalib çıxmış Ağdaş məktəbindən 4 şagird və 1 müəllim finalda yarışmaq üçün Birləşmiş Krallığa səfər etdi. Üçüncü il layihədə Azərbaycandan və Böyük Britaniyadan 14 məktəb, 112 şagird və 14 müəllim iştirak etmişdir. III Milli robotlar yarışında qalib gəlmiş Bakı şəhər məktəbinin komandası finalda yarışmaq üçün Birləşmiş Krallığa səfər etmişdir. Bu üç il ərzində İngiltərədən dəvət olunmuş mütəxəssis 1200-ə yaxın şagirdə texnologiya sahəsində interaktiv məşğələlər keçmişdir.

«Birlikdə yaşayaq» layihəsi də 2007–2009-cu illəri əhatə etmişdi. Məqsəd Cənub-Şərqi Avropanın 27 ölkəsi və Birləşmiş Krallıqda keçirilən regional layihə çərçivəsində milli azlıqlar, miqrantlar və fiziki qüsuru olanların ictimai həyatda iştirakına dair təlimlərin keçirilməsi idi. Layihə çərçivəsində orta məktəblərdə vətəndaşlıq bacarıqları sahəsində tədris materialları paylanmış, müəllimlər üçün təlimlər keçirilmiş, milli azlıqlar üçün ingilis dili kursları təşkil edilmiş, ingilis və Azərbaycan dili üzrə sorğu kitabçası çap olunmuşdu.

«Dostlar dəryası» layihəsi 2007-ci ilin aprel–avqust aylarını əhatə etmişdi. Layihənin məqsədi Azərbaycan, İsrail və Böyük Britaniya gənclərini bir araya gətirərək onlar arasında mədəniyyətlərarası dialoqun əldə edilməsinə yardım göstərmək, su idman növləri vasitəsilə dil, din və mədəniyyətlərarası sərhədləri aşmaq, bu idman növlərindən istifadə edərək ətraf mühit problemlərini qaldırmaq, olimpiya ideyaları üzərində qurulan layihələri idarə və icra etmək sahəsində gənclərə dəstək göstərmək idi.

Layihə çərçivəsində gənclər arasında əlaqə yaratmaq, mədəniyyət və idman vasitəsilə gənclərin hərtərəfli inkişafına nail olmaq məqsədilə Azərbaycan və digər Avropa ölkələrindən 200 gənc Makedoniyanın Ohrid şəhərində bir yerə toplaşmışdı (10–14 aprel

2007-ci il). Azərbaycan, İsrail və Böyük Britaniyadan olan 28 gənc arasında ilk görüş İsraildə keçirilmişdi (1–8 iyul 2007-ci il). İsrail və Böyük Britaniya gəncləri öz tərəf-müqabilləri ilə görüşmək üçün Azərbaycana səfər etmişdilər (12–19 avqust 2007-ci il). Böyük Britaniyanın Bolton şəhərində 28 gəncin iştirakı ilə görüş keçirilmişdi (26 avqust – 1 sentyabr 2007-ci il). Böyük Britaniyanın Mançester şəhərində 200 gəncin iştirakı ilə Layihənin son tədbiri keçirilmişdi (30 avqust 2007-ci il).

«Avropa bacarıqları» layihəsi üç illik bir dövrü (2009–2011-ci illər) əhatə edirdi. Bu layihə Britaniya hökumətinin Strateji Proqram Fondu tərəfindən maliyyələşdirilir və British Council tərəfindən həyata keçirilirdi. Proqram davamlı inkişafı və yoxsulluğun azaldılmasını təbliğ edən, insan hüquqları, demokratiya, idarəetmənin inkişafi və ətraf mühitin müdafiəsinə əsaslanan strateji beynəlxalq təşəbbüsləri dəstəkləyir. 2009-cu ildə layihə çərçivəsində 4 təlim keçirilmiş və 23 dövlət təşkilatından 35 nəfər təlimlərə cəlb olunmuşdur. Təhsil Nazirliyinin iki əməkdaşı da həmin təlimlərdə iştirak etmişdir.

«Beynəlxalq idman həyəcanı» proqramı 2007–2010-cu illəri əhatə etmişdi. Məqsəd idmanın inkişafı və təbliği vasitəsilə məktəb və icmalarda uşaq və gənclərin sağlam həyat tərzini inkişaf etdirmək idi. Fiziki tərbiyə və məktəblərarası əlaqə komponenti British Council və Britaniyanın Gənclər İdman Fondu tərəfindən Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilirdi. Layihə çərçivəsində 6 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə Britaniyada səfərdə olmuşdu (4–10 noyabr 2007-ci il). Bir qrup mütəxəssis üçün Britaniyada fiziki tərbiyənin tədrisi üzrə qabaqcıl proqram üzrə tanışlıq seminarı keçirilmişdi (26–28 noyabr 2007-ci il). Fiziki tərbiyə üzrə kurikulumun təkmilləşdirilməsinə texniki dəstəklə bağlı müzakirələr aparılmışdı. AMİ və onun 6 filialını təmsil edən müəllimlərdən ibarət 11 nəfərlik qrupa ilkin təlimçi kursları keçirilmişdi (23–25 yanvar 2008-ci il). AMİ və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını təmsil edən müəllimlərdən ibarət 9 nəfərlik qrupa növbəti təlimçi kursları keçirilmişdi (27–29 fevral 2008-ci il).

Proqram çərçivəsində 120 nəfər fiziki tərbiyə müəllimi fənnin təhlükəsiz və inklüziv tədrisi metodikası üzrə kaskad təlimlərindən keçmiş və müvafiq sertifikatlar almışlar. Kaskad təlimləri British Council-un dəstəyi ilə Azərbaycan Müəllimlər İnstitutu tərəfindən keçirilmişdi. Bakı şəhərinin 23, Gəncə şəhərinin 39 və Lənkəran şəhərinin 10№-li məktəbləri tərəfindən həyata keçirilən mini idman festivallarında 300-ə yaxın 7–9 yaşlı uşaq iştirak etmişdi.

2009-cu ilin avqustunda Lənkəran şəhər 10 və Bakı şəhər 23№-li məktəblərin gənc liderləri arasından nümayəndələr seçilərək Britaniya Məktəblərarası Oyunlarında iştirak etdilər. 3 Azərbaycan məktəbi ilə Birləşmiş Krallığın aparıcı idman kollecləri arasında əməkdaşlıq əlaqələri qurulmuşdu və həmin məktəblərdə fiziki tərbiyə və idmanla bağlı birgə tədbirlər həyata keçirilirdi. Layihə çərçivəsində 20 təlimçi pedaqoji və

ixtisasartırma təhsili müəssisələrində təlim almış, 500 müəllim təlimdən keçmiş, 25000 şagird bu təlimlərdən faydalanmışdı.

British Council-in bilavasitə dəstəyi ilə **Təhsil Nazirliyi ilə UK Sport arasında əməkdaşlıq** 2007-ci ildən başlanmışdı. Bu əməkdaşlıq 1 dekabr 2007-ci ildə Azərbaycan və Britaniya hökumətləri arasında idman sahəsində imzalanmış Anlaşma Memorandumu nəticəsində həyata keçirilən «Beynəlxalq idman həyəcanı» proqramı çərçivəsində rəsmiləşdirilmişdi. Anlaşma Memorandumu Azərbaycan Respublikası Prezidentinin 10 mart 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdi.

UK Sport və Təhsil Nazirliyi arasında əməkdaşlığı fəaliyyət istiqamətindən asılı olaraq aşağıdakı kimi təsnif etmək olar:

1. Bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən islahatların dəstəklənməsi.
2. Uşaq futbolunun inkişafı.
3. Atletikanın ümumtəhsil məktəblərində tədrisi.
4. Sağlamlıq imkanları məhdud uşaq və gənclər üçün əlil voleybolu və futbolu üzrə silsilə turnirlər.

1-ci istiqamətdə Bədən tərbiyəsi və İdmanın İnkişafı üzrə Milli Strategiya hazırlandı.

2-ci istiqamət üzrə Təhsil Nazirliyi ilə yanaşı, AFFA və Gənclər və İdman Nazirliyi, Uşaq və Gənclər Futbol Federasiyası nümayəndələrindən ibarət işçi qrupu cəlb olunmaqla «Uşaq futbolunun inkişafına texniki dəstək» layihəsi hazırlandı. UK Sportun vasitəçiliyi ilə layihənin hazırlanmasına İngiltərə Premyer Liqasının mütəxəssisləri də cəlb edilmişdilər. Layihənin «Beynəlxalq idman həyəcanı» proqramı çərçivəsində icrasına 2008-ci ildən start verildi.

İlk və əlamətdar fəaliyyətlərdən biri Təhsil Nazirliyi tabeliyində olan *«Vətən»* Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbinin nümayəndəsinin qatıldığı heyətin İngiltərə Premyer Liqasının uşaq futbol akademiyalarına təcrübə səfəri oldu. Nümayəndə heyəti bir həftə ərzində Manchester United, Everton, Blackburn Rovers və Liverpool kimi dünya şöhrətli futbol klublarına, həmçinin idman akademiyalarına səfər etmişdi. Bununla yanaşı, İngiltərədə uşaq futbolunun inkişaf tarixi və strukturu haqqında geniş təqdimat edilmişdi.

Futbolun inkişafına dair Dövlət Proqramına, həmçinin İngiltərə Premyer Liqasının tövsiyələrinə uyğun olaraq növbəti mərhələdə İngiltərə Premyer Liqasının məşqçi-eksperti Azərbaycana dəvət olunmuş, 15–17 sentyabr 2009-cu il tarixlərində Lənkəran Olimpiya Kompleksində uşaq futbol məktəblərinin məşqçi-müəllimləri üçün regional təlim-məşq toplantısı keçirilmişdi. Təlimdən 30 nəfərə yaxın uşaq və 25 nəfər məşqçi-müəllim faydalanmışdı.

3-cü istiqamət üzrə atletikanın inkişafına dair strateji planın (2009–2012) dəstəklənməsi və atletika idman növünün məktəblilər arasında kütləviliyinin təbliğ edilməsi sahəsində tədbirlər, o cümlədən 25 oktyabr 2009-cu il tarixdə ümumşəhər qaçış günü keçirilmişdi. Bu tədbirdə Bakının 11 rayonundan 80-dən artıq ümumtəhsil məktəbinin 14–16 yaşlı 1000-dən artıq şagirdi iştirak etmişdi.

4-cü istiqamət üzrə sağlamlıq imkanları məhdud uşaq və gənclərin təhsil aldığı internat məktəblərdən olan həvəskar və peşəkar idmançıların qatıldığı əlil voleybolu və futbolu üzrə silsilə turnirlər keçirilmişdi. Bu istiqamətdə Sumqayıt Paralimpiya Kompleksində 4 turnir və 2 tədbir keçirilmişdi ki, nəticə etibarilə 3000 nəfərdən artıq insan (əsasən uşaqlar) əlil idmanı və onun faydası haqqında məlumatlanmışdı.

Təhsil Nazirliyinin tabeliyində olan futbol məktəblərinin heyətinin İngiltərənin idman sahəsində mütəxəssis hazırlığı aparan ali məktəbləri ilə tanışlığı məqsədilə Londona səfər təşkil edildi.

Təlim modulları vasitəsilə ingilis dilinin öyrənilməsinə yardım layihəsi. British Council-in həyata keçirdiyi əhəmiyyətli layihələrdən biri də xarici dilin öyrənilməsində tam yeni və orijinal metodologiyanın tətbiqini özündə əks etdirən təlim modulları vasitəsilə ingilis dilinin öyrənilməsinə yardım edilməsi idi. Təlim modulları Böyük Britaniya mütəxəssisləri tərəfindən hazırlanmışdı. Bu modullar ingilis dilini öyrənmək istəyən hər bir müəllim və şagird üçün nəzərdə tutulmuşdu. Eyni zamanda müəllimlər bu modullardan ingilis dilinin tədrisində istifadə edə bilirdilər. 2009–2010-cu illər ərzində «Azərbaycan müəllimi» qəzetində 34 təlim modulu dərc edilmişdi.

British Council-lə Təhsil Nazirliyinin əməkdaşlıq istiqamətlərindən biri də təşkilatın maliyyə və təşkilati dəstəyi ilə Təhsil Nazirliyinin nümayəndə heyətinin müxtəlif beynəlxalq konfrans və seminarlarda iştirakına şəraitin yaradılması idi. 2005-ci ilin 7–10 noyabr tarixlərində Belqrad şəhərində keçirilən «Təcrübə mübadiləsi üçün inteqrasiya» adlı regional konfransda Təhsil Nazirliyinin nümayəndəsinin iştirakı maliyyələşdirilmişdi. Konfransda British Council və digər təşkilatların birgə əməkdaşlığı nəticəsində Cənub–Şərqi Avropa regionunda həyata keçirilən təhsil islahatları müzakirə olunmuşdu.

British Council və İngilis Dilinin Xarici Dil kimi Tədrisi üzrə Beynəlxalq Assosiasiyasının (IATEFL) təşəbbüsü ilə 3–7 yanvar 2008-ci il tarixlərdə Hindistanın Banqalor şəhərində «Aşağı siniflərdə ingilis dilinin tədrisi üzrə beynəlxalq təcrübədən öyrənək» mövzusunda beynəlxalq konfrans keçirilmişdi və Təhsil Nazirliyinin nümayəndəsi həmin konfransda iştirak etmişdi.

British Council və Təhsil Nazirliyinin həyata keçirdiyi birgə layihələr çərçivəsində 103814 nəfər şagird yeni metodologiya və təlim materiallarının istifadəsi ilə keçilən dərslərdən, layihələrdə iştirakdan, inkişafetdirici müsabiqə və yarışlardan faydalanmışdı, 4102 müəllim yeni ixtisasartırma sistemi vasitəsilə bacarıqlarını artırmış, müxtəlif layihələrin iştirakçısı olmuş, müsbət təcrübə əldə etmişdi, 520 nəfər müəllim müxtəlif təlim seminarlarından keçmiş, «öyrədənlərin öyrədəni» statusu qazanmış, kaskad təlimlərinə cəlb olunmuş, müsabiqə və yarışlara rəhbərlik etmişdi. 120-dən çox müəllim və təhsil işçisi təcrübə mübadiləsi məqsədilə xarici ölkələrdə səfərlərdə olmuşdu. Təhsil Nazirliyi ilə British Council arasında səmərəli əməkdaşlığın yaradılmasında, birgə layihələrin uğurla həyata keçirilməsində həmin təşkilatın Azərbaycan nümayəndəliyinə rəhbərlik edən şəxslərin də əhəmiyyətli rolu olmuşdu.

3.3. ABŞ təşkilatları ilə birgə layihələr

1993-cü ildən başlayaraq hər il Təhsil Nazirliyi ilə razılaşdırma əsasında ABŞ-ın «Dünyanı öyrənirəm» təşkilatı Amerika məktəblərində birillik təhsil almaq üçün Azərbaycan məktəbliləri arasında müsabiqə keçirirdi. Həmin ildə müsabiqə yolu ilə 28 nəfər məktəbli Amerika məktəblərində təhsil almışdı. Amerika tərəfi həmin məktəblilərin bütün xərclərini öz üzərinə götürmüş və şagirdlər bir il ərzində Amerika ailələrində yaşamışdılar. 1994-cü ildə Amerika məktəblərində təhsil almaq üçün 35 nəfər şagird seçilmişdi.

Gələcək Liderlərin Mübadiləsi Proqramı (FLEX) ABŞ Dövlət Departamentinin təşəbbüsü ilə fəaliyyətə başlamışdır. Bu proqram çərçivəsində MDB ölkələrindən hər il yüzlərlə X–XI sinif şagirdi ABŞ-a gedir və bir il müddətində bu ölkədə məktəblərdə təhsil alır. Seçim prosesi ingilis dilini bilmə, şəxsi keyfiyyətlər, akademik nailiyyətlər və rəhbərlik potensialı kimi xüsusiyyətlərə əsaslanır. Seçilmiş şagirdlər Amerika haqqında kurslar keçir və bir il müddətində Amerikanın məktəblərində tam kursu bitirirlər.

1998-ci ildən başlayaraq FLEX proqramı üzrə hər il 55 azərbaycanlı şagird ABŞ-da təhsil alır. İndiyədək 1000-dən artıq şagird bu proqramda iştirak etmişdir. FLEX Proqramı çərçivəsində ABŞ-da bir il təhsil almaq hüququ qazanan məktəblilər arasında təkcə Bakı şəhərinin deyil, Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir, Quba, Şəki, Lənkəran məktəblərinin də şagirdləri vardır.

Gənc Müəllimlərin İnkişafı Proqramı (JFDP) gənc ali təhsil müəssisələri müəllimləri üçün nəzərdə tutulur. Bu layihə tədris proqramlarının hazırlanması və tədris metodikasının təkmilləşdirilməsi sahələrini əhatə edir. Həmin proqram çərçivəsində müəllimlər ABŞ və Azərbaycanın ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri yaradırlar. Belə akademik proqram bir il müddəti əhatə edir və bu müddət ərzində 2 aylıq stajkeçmə də nəzərdə tutulur. 1999–2007-ci illərdə 35 nəfər proqramda iştirak etmişdir. Bu proqram artıq başa çatmışdır.

İxtisaslı müəllimlər üçün mükafat proqramı (TEA) 3 mərhələdən ibarətdir. Birinci mərhələdə Azərbaycanın bütün regionlarından, orta məktəblərin ən yaxşı ingilis dili müəllimlərindən müvafiq müraciətlər qəbul olunur. İkinci mərhələdə namizədlərin sənədlərinə ABŞ-da baxılır və seçim komissiyası 35 qalibi müəyyən edir. Qaliblər 200 ABŞ dolları məbləğində tədris materialları ilə təmin olunur, onların işlədikləri məktəb isə tədris avadanlığı və materialları əldə etmək üçün 2000 ABŞ dolları məbləğində vəsait alır. Üçüncü mərhələdə seçilmiş 6 qalib müxtəlif seminar, görüş və digər tədbirlərdə iştirak etmək üçün 7 həftə müddətində ABŞ-a səfər edir. 2002-ci ildən etibarən bu proqramda 30-dək müəllim iştirak etmişdir.

Təhsildə partnyorlar proqramı (PIE) 2001–2004-cü illəri əhatə etmişdir. Proqram vətəndaşşünaslıq və sosial elmlər üzrə orta məktəb müəllimləri və məktəb direktorları üçün nəzərdə tutulmuşdur. Proqram çərçivəsində seçilmiş orta məktəb direktorları və müəllimləri müvafiq olaraq 4 ay müddətində ABŞ-da olmuşlar. Səfər zamanı onlar tədris proqramlarının hazırlanması ilə bağlı tədbirlərdə iştirak

etmiş. eyni zamanda məktəblərdə dərs prosesini öyrənmişlər. Proqrama əsasən ABŞ-dan da müəllimlər eyni məqsədlə Azərbaycanda olmuşlar. 2002–2004-cü illərdə 24 məktəb direktoru ABŞ-da təcrübə mübadiləsində iştirak etmişdir.

Qardaşlaşmış Məktəblər Proqramı 1998–2003-cü illərdə həyata keçirilmişdir. Proqrama uyğun olaraq hər il Bakı şəhərindəki ümumtəhsil məktəblərinin bir qrup şagird və müəllimi ABŞ-ın Florida ştatına gedərək, bir ay ərzində ailələrdə yaşamaqla həmin ştatdakı ümumtəhsil məktəblərində dərs məşğələlərində iştirak etmiş, amerikalıların həyat tərzi, təhsil sistemi ilə tanış olmuşlar. Bu proqramın məqsədləri, həmçinin iştirakçıların kompyuter vərdişləri və ingilis dili sahəsində biliklərini təkmilləşdirmək, sağlam həyat tərzinə dair bukletlər hazırlamaq, Azərbaycanda dövlət quruculuğu, təhsil sistemi, ölkəmizin reallıqları barədə həqiqətləri amerikalı dostları arasında və yaşadıqları ailələrdə yaymaq kimi fəaliyyətləri əhatə etmişdir.

Layihənin şərtlərinə görə, eyni zamanda amerikalı şagird və müəllimlər də qarşılıqlı olaraq Azərbaycana gəlib, ailələrdə yaşamaqla Bakı şəhərindəki ümumtəhsil məktəblərində dərs məşğələlərində və müvafiq tədbirlərdə iştirak etmişlər. Mübadilə proqramında Bakı məktəblərinin aşağıdakı sayda müəllim və şagirdləri iştirak etmişlər:

- 1998-ci ildə 27№-li orta məktəbdən 4 şagird, 1 müəllim;
- 1999-cu ildə 7, 20, 27, 134№-li orta məktəblərdən 21 şagird, 4 müəllim;
- 2000-ci ildə 7, 20, 27, 134№-li orta məktəblərdən 20 şagird, 4 müəllim;
- 2001-ci ildə 7, 16, 20, 23, 134№-li orta məktəblərdən 24 şagird, 10 müəllim;
- 2003-cü ildə 6, 16, 23, 41, 214, 283, 291№-li orta məktəblər və Avropa liseyindən 40 şagird, 8 müəllim.

Proqram çərçivəsində Azərbaycandan 100-dən artıq şagird və 30 müəllim ABŞ-da partnyor məktəblərdə olmuş, təqribən bir o qədər də şagird və müəllim həmin məktəblərdən Azərbaycana gəlmişlər.

Yaxşı xatırlayıram, 1999-cu ilin yazında ABŞ səfirliyinin maliyyə dəstəyi ilə ilk dəfə həmin ölkədə rəsmi səfərdə oldum. Bu səfəri ABŞ-ın ölkəmizdəki səfirinin müavini Kreyk Dikker təşkil etmişdi. Mənimlə birlikdə həmin dövrdə Azərbaycan Dillər Universitetinin prorektoru işləyən professor Səməd Seyidov və Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı professor Yaqub Mahmudov da səfərdə iştirak edirdilər. Səfər çox maraqlı keçdi. 15 gün ərzində əvvəlcədən tərtib olunmuş proqrama əsasən Nyu-York, Vaşinqton, Atlanta, İndiana və Mayami şəhərlərində, Dünya Bankının ofisində, Kolumbiya, Corciya və İndiana universitetlərində olduq. Mayamidə bizi həmin proqramın təşkilatçısı Fren xanım həyat yoldaşı ilə qarşıladı. Hətta bizi məşhur Kivest adalarına da apardılar.

Azərbaycan Əlaqələr və Mübadilə Proqramı (AzƏM). Proqram İnternet texnologiyalarından istifadə vasitəsilə tələbə və müəllimlərin vətəndaş təhsili və qarşılıqlı mədəniyyətlərarası dialoq təcrübəsini zənginləşdirir. Proqram məktəblərin kompyuter avadanlığı ilə təchizinə, məktəblərarası əməkdaşlığın yaradılmasına, İnternet resurslarının təlim prosesinə inteqrasiyasına kömək edir.

Proqram ölkənin 18 regionu üzrə 71 məktəbi əhatə etmişdir. Həmin məktəblərdə yaradılmış kompyuter mərkəzləri ümumilikdə 700-dək kompyuterlə və digər İKT avadanlığı ilə təmin olunmuşdur.

Amerika Birləşmiş Ştatlarının Azərbaycanda təhsil sahəsində fəaliyyət göstərən daha bir təşkilatı **Sülh Korpusudur**. Hazırda Sülh Korpusunun 7 min könüllüsü Azərbaycan da daxil olmaqla 80-ə yaxın ölkədə fəaliyyət göstərir.

Bu təşkilat «ABŞ və Azərbaycan hökumətləri arasında Azərbaycan Respublikasında Sülh Korpusunun proqramı» haqqında imzalanmış 8 oktyabr 2003-cü il tarixli Sazişə əsasən fəaliyyətə başlamışdır. 8 dekabr 2003-cü il tarixində Azərbaycan Respublikasının təhsil naziri kimi mən və təşkilatın Azərbaycan üzrə rəhbəri Uilyam Levayn tərəfindən əməkdaşlıq haqqında Memorandum imzalandı.

Sülh Korpusunun missiyası fərdlər və təşkilatlara bilik və təcrübənin səmərəli mübadiləsinə kömək göstərməkdən ibarətdir. Təşkilatın fəaliyyətinə cəlb olunan könüllülər digər ölkələrə, yaxud onların vətəndaşlarına mal, avadanlıq və ya pul şəklində yardım göstərmirlər. Təşkilatın məqsədi ölkələr və mədəniyyətlər arasında sülh və dostluq əlaqələri yaratmaqdır. Bu şərəfli missiyanı həyata keçirmək üçün Amerika könüllüləri digər ölkələrə gedib orada yaşayırlar. Həmin ölkələrin dil və mədəniyyətlərini öyrənir və yerli icmalara texniki yardım göstərirlər. Təşkilatın Azərbaycandakı fəaliyyəti də məhz bu istiqamətləri əhatə edir.

Lakin Sülh Korpusunun Azərbaycandakı fəaliyyətinin ən uğurlu sahəsi məhz təhsillə bağlıdır. ABŞ-dan gələn könüllülər Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə də ingilis dilinin tədrisində daha böyük tələbat olan ümumtəhsil, orta ixtisas məktəblərində müəllim kimi çalışırlar. Proqramın məqsədi Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasına yardım göstərmək üçün respublikamızda ingilis dilinin tədrisini yaxşılaşdırmaq və Azərbaycanın bütün bölgələrində ingilis dilinin tədrisi imkanlarını genişləndirməkdir. Təhsil Nazirliyi ilə Sülh Korpusu arasında imzalanmış Memorandum çərçivəsində 2003-cü ildə təşkilatın 25 könüllüsü Biləsuvar, Cəlilabad, Lənkəran, Şəki, Oğuz, Masallı, İsmayıllı, Qəbələ, Ağdaş rayonlarındakı, habelə Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində 24 orta məktəbdə fəaliyyətə başlamış və onların fəaliyyəti 2005-ci ilə kimi davam etmişdir. 2004-cü ilin oktyabrında isə daha 27 könüllü and içərək 2006-cı ilin payızına qədər Azərbaycanın 14 rayonunun 22 ümumtəhsil məktəbində çalışmışdır. 2006-cı ilin senytabrında isə daha 42 Sülh Korpusu könüllüsünün andiçmə mərasimi keçirilmiş, onlar növbəti iki il müddətində Azərbaycanın 19 rayonunun 24 tədris müəssisəsində ingilis dilinin tədrisinə başlamışlar. Bütövlükdə Proqram Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə Azərbaycanın 45 rayonunda 130 məktəbdə 170-dən artıq Sülh Korpusu könüllüsü fəaliyyət göstərmişlər.

Bu Proqramın maraqlı cəhətlərindən biri odur ki, ingilis dilini tədris etməyə gəlmiş könüllü çalışdığı yerlərdə ailələrdən birində yaşayır. Sülh Korpusu könüllülərinin təhsil müəssisəsindəki fəaliyyətini, əsasən, üç istiqamətdə qruplaşdırmaq olar:

– Şagirdlərlə iş;
– İngilis dili müəllimləri ilə iş;
– Tədris resurslarının inkişafı ilə əlaqədar iş.



ABŞ-dan gəlmiş müəllim və şagird qrupu Azərbaycanın Milli Məclisində. 1998-ci il



Dünya Bankının ofisində görüş. Vaşinqton, may, 1999-cu il

Məktəblərdə ingilis dilinin tədrisi layihəsi üzrə çalışan könüllülərin hər biri 7–16 yaş arasında olan şagirdlərə orta hesabla həftəlik 15–18 saat dərs deyir. Layihə şagirdlərin ingilis dili daşıyıcılarından faydalanaraq oxu, yazı, danışıq və dinləmə qabiliyyətlərinin təkmilləşməsinə yardım edir. Könüllülər, eyni zamanda dərslərdən sonra ingilis dili kursları təşkil edirlər. Bu kurslar şagirdlərin ingilis dili danışıq və dinləmə bacarıqlarının, dünyaya baxışlarının, yaradıcı təfəkkürünün və qərarvermə bacarıqlarının inkişafına xidmət edir. Bu müəllimlərin fəaliyyəti məktəblərdə ingilis dili kitabxanalarının yaradılması, inşa müsabiqələrinin təşkili, şagirdlərin respublikamızda həyata keçirilən təqaüd proqramlarının müsabiqələrinə hazırlanması kimi işlərlə də bağlıdır.

Təhsil Nazirliyinin ABŞ-la təhsil sahəsində həyata keçirdiyi uğurlu layihələrdən biri də ABŞ-ın Montana Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində icra olunan **«Demokratik vətəndaşlıq üzrə təhsil»** qrant layihəsidir.

Layihənin əsas məqsədi orta məktəblərin VIII–XI sinifləri üçün «İnsan və cəmiyyət» fənni üzrə beynəlxalq standartlara cavab verən və müasir interaktiv metodlara əsaslanan müəllimlər üçün dərs vəsaitinin hazırlanmasıdır. Layihə 2006-cı ildən həyata keçirilməyə başlanmışdır.

Azərbaycan tərəfindən layihədə iştirak etmək üçün müsabiqə əsasında dörd orta məktəb müəllimi seçilmiş və Təhsil Nazirliyindən layihə koordinatoru daxil olmaqla işçi qrupu yaradılmışdır. Amerika tərəfindən bu layihədə ABŞ-ın Harvard, İndiana, Montana Universitetlərinin qabaqcıl professor və müəllimləri, məsləhətçi və akademik koordinator iştirak etmişlər.

Layihənin birinci mərhələsində işçi qrupunun üzvləri ABŞ-ın Montana Universitetində intensiv treninqlərdən keçmiş, demokratiya, konstitusiya, insan hüquqları, vətəndaşlıq üzrə tədris proqramları, eksperimental dərs və dərs vəsaiti hazırlamışlar.

2003-cü ilin mayında amerikalı ekspertlər layihə çərçivəsində görülən işlərin qiymətləndirilməsi məqsədilə Bakıya gəlmiş, İşçi qrupunun fəaliyyətinə yüksək qiymət verilmiş, ABŞ Dövlət Departamentinə layihənin davam etdirilməsi tövsiyə edilmişdir. Dövlət Departamenti «İnsan və cəmiyyət» fənninin tədris proqramı və dərsliyinin tamamlanması, həmçinin onların nəşri üçün növbəti qrant ayırmışdır.

Həmin layihədə yalnız tədris proqramı və dərs vəsaitinin hazırlanması deyil, eyni zamanda Bakı şəhəri və respublikanın rayonlarının orta məktəb müəllimləri üçün təkmilləşdirmə kurslarının keçirilməsi də nəzərdə tutulmuşdu. Kurslar həm yerli müəllimlər, həm də ABŞ-ın ekspertləri tərəfindən aparılmışdır. 2002–2004-cü illərdə Bakı şəhəri və 4 rayonun orta məktəblərinin 250-dən artıq müəllimi «İnsan və cəmiyyət» fənni üzrə kurslarda iştirak etmişdir. Kurslarda müəllimlər vətəndaşsünaslıq üzrə interaktiv tədris metodları, eyni zamanda yeni proqram və dərs vəsaiti ilə tanış olmuşlar.

Layihənin nəticəsi kimi 2005-ci ildə ümumtəhsil məktəblərinin VIII–XI sinifləri üçün «İnsan və cəmiyyət» fənni üzrə beynəlxalq tələblərə cavab verən dərs vəsaiti hazırlanıb nəşr olunmuşdur.

ABŞ-ın Açıq Cəmiyyət İnstitutu dünyanın əksər ölkələrində proqram və layihələr həyata keçirir. Bu qeyri-hökumət təşkilatı Amerika maliyyəçisi və investoru Corc Soros

tərəfindən 1979-cu ildə yaradılmışdır. Təşkilat hər il qeyri-kommersiya layihələrinə 300 milyon ABŞ dolları məbləğində vəsait sərf edir. Açıq Cəmiyyət İnstitutu tərəfindən 1993–2003-cü illərdə Azərbaycanda da təhsil sahəsində bir sıra layihələr həyata keçirilmişdir. Həmin layihələr çərçivəsində həyata keçirilmiş tədbirləri diqqətə çatdırmaq istəyirəm.

«Addım-addım» texnologiyasının tətbiqi layihəsi. 1999/2000-ci tədris ilində Təhsil Nazirliyinin razılığına əsasən «Addım-addım» texnologiyası ümumtəhsil məktəblərinin I siniflərində tətbiq edilməyə başlanmışdı. Bunun üçün Bakı şəhəri 10, 74, 153, 269 və Sumqayıt şəhəri 11№-li məktəb pilot məktəbləri kimi müəyyənləşdirilmişdi.

2000/01-ci tədris ilində layihə Bakı şəhər 246, 272, 83, Gəncə şəhər 22, Mingəçevir şəhər 15, 6, Şamaxı şəhər 2, Ağdaş şəhər 2, Şəki şəhər 12, Qusar şəhər 6№-li, Lənkəran rayonu Gərmətük qəsəbə məktəblərində tətbiq edilməklə onun əhatə dairəsi daha da genişləndirilmişdi.

2001/02-ci tədris ilində layihəyə Naxçıvan şəhər 7 və 8, Astara şəhər 5, Balakən şəhər 1, Lənkəran şəhər 4№-li, Gərmətük qəsəbə məktəbi, Masallı şəhər 3, Cəlilabad şəhər 8, Zaqatala şəhər 3, Xaçmaz şəhər 7, Quba şəhər 1№-li, Qırmızı qəsəbə məktəbi, Qax şəhər 5№-li, Qaxingiloy qəsəbə məktəbi, Şəki şəhər Fizika-riyaziyyat və humanitar təmayüllü lisey, Şamaxı şəhər 2 və 5, Xızı şəhər məktəbi, Bakı şəhər 245, 189, 199, 175, 190, 191, 214№-li məktəblər, 2№-li internat məktəbi cəlb olunmuş, eləcə də «Addım-addım» texnologiyası əvvəlki illərdə layihəyə qoşulmuş məktəblərin hər birində daha 2 sinfi də əhatə etmişdi.

Beləliklə, layihə ölkənin 17 regionunda 47 ümümtəhsil məktəbinin 79 ibtidai sinfində tətbiq olunmuşdu.

Seçilmiş məktəblərin direktor və müəllimləri üçün layihə çərçivəsində 12 treninq keçirilmişdi. ABŞ-dan olan ekspetlərin iştirakı ilə 1999-cu ilin avqustunda Şəkidə, 2000-ci ilin avqustunda Şamaxıda, Ukraynadan olan ekspertlərin iştirakı ilə 2000-ci ilin fevralında Bakıda, 2001-ci ilin avqustunda Şamaxıda belə treninqlər təşkil edilmişdi. 1998–2003-cü illərdə 600-dən artıq ibtidai sinif müəllimi, məktəb direktoru, məsləhətçi və metodist yeni təlim üsulları üzrə müxtəlif treninqlərdə iştirak etmişdi.

Təcrübə mübadiləsi məqsədilə layihənin tətbiq edildiyi məktəblərin müəllimləri bir sıra xarici ölkələrdə olmuşlar. Belə ki, Bakı şəhər 153№-li məktəbin müəllimləri Tbilisi şəhərində (noyabr 1999-cu il), Bakı şəhər 269№-li məktəbin müəllimləri Budapeşt şəhərində (1999-cu il), Sumqayıt şəhər 11№-li məktəbin və BPKİYH İnstitutunun nümayəndələri Vaşinqtonda (aprel–may 2000-ci il), Bakı şəhər 153, Lənkəran şəhər 4, Sumqayıt şəhər 11№-li məktəblərin nümayəndələri Kiyevdə (oktyabr, 2001-ci il) təcrübə ilə tanış olmuşlar. Layihə çərçivəsində ibtidai sinif müəllimləri üçün «Uşaqlara istiqamətləndirilmiş sinif otaqlarının yaradılması», «Riyaziyyat, savad və yazı üzrə müxtəlif çətinlik səviyyəsi olan testlər» adlı metodik vəsaitlər Azərbaycan dilinə tərcümə olunmuş və nəşr edilmişdir.

«Addım-addım» texnologiyasının tətbiqi layihəsinin ən mühüm istiqamətlərindən biri də ölkə üzrə treninq mərkəzləri şəbəkəsinin yaradılması olmuşdur. Layihə çərçivəsində

tərbiyəçilərin və müəllimlərin davamlı təkmilləşdirilməsi məqsədilə ölkənin 9 regionunda (Mingəçevir şəhəri 16№-li uşaq bağçası, Şamaxı şəhər 5№-li orta məktəb, Şəki şəhər 12№-li orta məktəb, Naxçıvan şəhər 10№-li uşaq bağçası, Quba şəhər 13№-li uşaq bağçası, Lənkəran şəhər 4№-li orta məktəb, Sumqayıt şəhər 11№-li orta məktəb, Gəncə şəhər 22№-li orta məktəb, Qax şəhər 5№-li orta məktəb, Bakı şəhər 153№-li orta məktəb) məktəbəqədər və ümumi təhsil müəssisələrində treninq mərkəzləri yaradılmış və fəaliyyəti təşkil edilmişdir.

Treninq mərkəzlərinin yaradılması zamanı bir sıra amillər nəzərə alınmışdır:

- Layihənin ölkədə daha geniş yayılması üçün ən yaxşı uşaq bağçaları və məktəblərdə yerləşdirilməsi;
- pedaqoji profilli ali və orta ixtisas təhsili müəssisələrinə, müəllimləri təkmilləşdirmə institutlarına yaxın olması;
- treninq mərkəzlərində Layihə üzrə çalışan ən təcrübəli tərbiyəçi və müəllimlər cəlb edilməklə trenerlərin, metodistlərin hazırlanması və komandaların formalaşdırılması;
- Layihəni tətbiq etmək istəyən tərbiyəçi və müəllimlər üçün mərkəzlərdə treninqlərin keçirilməsi imkanları;
- gələcəkdə yeni texnologiyanı tətbiq etmək istəyən tərbiyəçi və müəllimlər üçün Layihəni müşahidə etmək, metodologiyalar əldə etmək, treninqlərdə iştirak etmək imkanı yaradılması;
- treninq mərkəzlərinin təmiri, ofis və treninq avadanlığı ilə, eləcə də iki il müddətinə treninq mərkəzinin koordinatorunun əmək haqqı ilə təmin edilməsi.

Treninq mərkəzlərinin fəaliyyətinin daha səmərəli təşkil edilməsi məqsədilə ən qabaqcıl və yaradıcı tərbiyəçi, müəllim, metodist və direktorlar sırasından seçilmiş trenerlər üçün beynəlxalq məsləhətçilər cəlb edilməklə 2000–2002-ci illərdə 3 xüsusi treninq keçirilmişdi.

«Addım-addım» texnologiyasının ümumi təhsil müəssisələrində tətbiqi ilə yanaşı, bu texnologiyanın müəllim hazırlığı kurikulumlarına daxil edilməsi və ali məktəb müəllimlərinin bu sahədə bacarıqlarının artırılması sahəsində də bir sıra tədbirlər həyata keçirilmişdi. Belə ki, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və bir sıra orta ixtisas məktəblərinin müəllimləri üçün ABŞ mütəxəssislərinin iştirakı ilə 1999–2002-ci illərdə müvafiq treninqlər keçirilmişdi.

Layihənin inkişaf strategiyasının ən mühüm istiqamətlərindən biri də resurs mərkəzləri şəbəkəsinin yaradılması olmuşdu. Ölkənin 5 regionunda resurs mərkəzləri yaradılmış və 2002-ci ildən fəaliyyətə başlamışdı (Azərbaycan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Şəki Pedaqoji Texnikumu, Azərbaycan Dövlət Pedaqoji Kolleci).

Bu resurs mərkəzləri Layihəyə cəlb olunmuş ümumtəhsil məktəblərinin təcrübəsini öyrənmək və təcrübə mübadiləsi aparmaq funksiyasını yerinə yetirirdi. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Pedaqoji Kolleci, Azərbaycan Müəllimlər İnstitutu, BPKİYH İnstitutunun əməkdaşları, resurs mərkəzlərinin koordinatorları 2000–2001-ci

illərdə təcrübə mübadiləsi məqsədilə Bişkek, Kiyev və Riqa şəhərlərində təlim seminarlarında iştirak etmişdilər.

Ali və orta ixtisas təhsili müəssisələri üçün «Fərdiləşdirilmiş təhsil», «Oyun vasitəsilə təlim», «Ailə ilə məktəbin əməkdaşlığı», «Müşahidələr vasitəsilə uşaqların öyrənilməsi», «Uşağa istiqamətləndirilmiş təlim», «Kiçik yaşlı uşaqların təhsili sahəsində tətbiqi tədqiqatlar» adlı vəsaitlər Azərbaycan dilinə tərcümə olunmuş və nəşr edilmişdir.

«Addım-Addım» texnologiyasının tətbiqi layihəsinin 1998–2003-ci illərdə həyata keçirilməsinə Açıq Cəmiyyət İnstitutu tərəfindən ümumilikdə 2,3 milyon ABŞ dolları məbləğində vəsait sərf edilmişdir.

Məktəb liderliyinin inkişafı layihəsi 2008-ci ildən həyata keçirilir. Layihənin əsas məqsədi məktəb liderliyini inkişaf etdirməklə təhsildə hesabatverməni və şəffaflığı təmin etmək idi. Layihə çərçivəsində bir sıra fəaliyyətlər – məktəb liderliyinin inkişafı mövzusunda təlimlər, mübadilə proqramı, məktəb səfərləri və s. həyata keçirilmişdi. Prosesdə həm yerli, həm də beynəlxalq ekspertlərlə əməkdaşlıq edilirdi. Belə ki, təlim proqramları, əsasən, ABŞ-ın Cənubi Konnektikut Universitetinin Məktəb liderliyi fakültəsinin professoru Ketrin Magno tərəfindən aparılırdı. Eyni zamanda təlimlər zamanı uğurlu fəaliyyətləri ilə seçilən məktəb direktorları təqdimatlarla çıxış edirdilər. Amerika Birləşmiş Ştatları və Avropada təhsilin idarə edilməsi və liderlik, ictimai siyasət üzrə magistr dərəcəsi almış 4 gənc azərbaycanlı mütəxəssis də təlim proqramlarına cəlb edilmişdi.

Layihə iştirakçıları Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonundan 28 məktəb direktoru və direktor müavinlərindən ibarət olmuşdur. Layihə çərçivəsində «Məktəb direktorları üçün peşəkar standartlar»a dair çərçivə sənədi, eyni zamanda «Məktəb liderliyi»nə dair təlim vəsaiti hazırlanmışdır.

Məktəb idarəetməsi və maliyyələşməsi: təcrübə və siyasət layihəsinin məqsədi məktəbin səmərəli maliyyələşməsi və demokratik idarə edilməsi prosesini gücləndirmək məqsədilə Azərbaycanda məktəb idarəetməsi və maliyyələşməsinə dair modellərin tədqiqi, bu sahədə tövsiyələrin hazırlanması və ictimaiyyətin maarifləndirilməsi kampaniyasının təşkili idi.

Layihə çərçivəsində «Azərbaycanda məktəb maliyyələşməsinin yeni modeli» mövzusunda tədqiqat aparılmışdı. Məqsəd Təhsil Sektorunun İnkişafı Layihəsi (TSİL) çərçivəsində adambaşına maliyyələşmə pilot layihəsinə cəlb olunmuş rayonların məktəblərində maliyyələşdirmə və idarəetmənin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatların icra vəziyyətinin araşdırılması, təsirlərinin (nəticələrinin) qiymətləndirilməsi idi. Sorğuda Ucar, İsmayıllı rayonları və Şirvan şəhərinin 59 pilot məktəbinin direktoru, məktəb şurasının üzvü olan müəllimlər (150 nəfər), valideynlər (150 nəfər), şagirdlər (150 nəfər) iştirak etmişdilər. Bundan əlavə, məktəb şurasının sədri (40 nəfər), mühasib (40 nəfər), rayon təhsil şöbəsinin müdirləri (3 nəfər), rayon maliyyə şöbəsinin müdirləri (3 nəfər), yerli icra hakimiyyətinin nümayəndələri (3 nəfər), yerli bələdiyyə orqanının üzvləri (3 nəfər), digər maraqlı

tərəflərdən (5 nəfər) dərinləşdirilmiş müsahibələr götürülmüşdü. Tədqiqata dair sorğu və dərinləşdirilmiş müsahibələr «SİQMA» İnkişaf və Beynəlxalq Əməkdaşlıq Tədqiqatları Mərkəzi tərəfindən aparılmışdı. Həmçinin layihənin ekspert qrupu tərəfindən mövcud maliyyə modelinin təhlili aparılmışdı. Təhlil ümumi təhsil sisteminin mövcud maliyyələşmə sisteminin ümumi prinsiplərini, mexanizmlərini, eləcə də maliyyənin idarəedilməsində müxtəlif tərəflərin iştirak imkanlarını əhatə etmişdi.

Pilot layihəsinə cəlb edilmiş rayon məktəblərində çalışan mühasiblər (59 nəfər) üçün adambaşına maliyyələşdirmə düsturunun tətbiqinə dair Milli Büdcə Qrupu ilə əməkdaşlıq çərçivəsində təlimlər keçirilmişdi. Mühasiblərin ehtiyacları nəzərə alınaraq «Məktəb büdcə bələdçisi» adlı təlimat kitabı hazırlanmışdı. Layihə çərçivəsində «Məktəb ehtiyaclarına əsaslanmış maliyyə formulası» kitabı nəşr olunmuş, layihənin tərəfdaşları arasında yayılmışdı.

İctimai maarifləndirmə komponenti layihənin əsas istiqamətlərindən biri olmuş və layihə müddətində media vasitəsilə mütəmadi olaraq ictimaiyyətin məlumatlandırılması həyata keçirilmişdir. Bu məqsədlə İTV-nin «Açıq dərs» proqramında, eləcə də radiolarda «Məktəb maliyyəsi və idarə olunması» mövzusunda xüsusi proqram təşkil olunmuşdu.

Təhsil Siyasəti Forumu layihəsi 2004-cü ildən həyata keçirilməyə başlanmışdı. Layihənin məqsədi maraqlı tərəflərin, xüsusilə icma, media şəbəkəsi vasitəsilə təhsil məsələlərinə dair ictimaiyyəti məlumatlandırmaq, təhsilə dair qərarların qəbul edilməsinə vətəndaş cəmiyyətini cəlb etmək idi. Layihə çərçivəsində «Fərdi müəllimlik» (2005 və 2009-cu illər), «Valideynlərin məktəbə qeyri-formal ödənişləri», «Ali təhsildə korrupsiya: səbəb və nəticə», «Müəllim peşəsinin tədqiqi» mövzularında genişmiqyaslı tədqiqatlar və monitorinqlər aparılmışdı.

Layihə çərçivəsində beynəlxalq əməkdaşlıq istiqamətində ciddi təşəbbüslər həyata keçirilmiş, UNESCO-nun Beynəlxalq Təhsil Planlaşdırılması İnstitutu ilə birgə tədqiqatı Azərbaycan dilində nəşr edilmişdi. Həmçinin layihə çərçivəsində təhsil sahəsində ixtisaslaşmış beynəlxalq, regional və yerli QHT şəbəkələri ilə fəal əməkdaşlıq edilmiş, o cümlədən QHT-lərin anti-korrupsiya fəaliyyətinə dair yerli şəbəkə, AzPAC (Avropa Şurası) layihəsi, Təhsil siyasəti mərkəzləri şəbəkəsi (NEPC), UNESCO-nun Beynəlxalq Təhsil Planlaşdırılması İnstitutu ilə birgə tədbirlər həyata keçirilmişdi.

Layihə üzrə mütəmadi şəkildə mətbuat konfransları, dəyirmi masalar, seminarlar keçirilmiş, «Təhsil və media» adlı jurnalist qrupu yaradılmış və onlarla əməkdaşlıq təmin edilmişdi. Həmçinin jurnalistlərin təhsil sahəsində ixtisaslaşması üçün təlim və seminarlar təşkil olunmuşdu. Təlimlərdə Bakı və regionlar da daxil olmaqla 20 media təmsilçisi iştirak etmişdi. Layihənin icrası müddətində 24 mətbuat konfransı keçirilmiş və bununla da təhsil prosesində iştirak etməkdə maraqlı olan auditoriya (mətbuat nümayəndələri, qərarqəbuledicilər, QHT təmsilçiləri, icma üzvləri, təhsil ictimaiyyəti, beynəlxalq təşkilatların təmsilçiləri) formalaşmışdı.

Bundan əlavə, hər il İctimai Televiziyanın «Açıq dərs» verilişi 2 proqramını layihənin nəticələrinin əsasında qurmuşdu. Eyni zamanda layihə çərçivəsində 2008-ci ilin yayında «Məktəb maliyyələşməsi: şəffaflıq və cavabdehlik», 2009-cu ildə isə «Təhsildə qiymətləndirmə strategiyasının inkişafı» mövzularında «yay məktəb»i təşkil edilmişdi.

Təhsil Nazirliyinin **Amerika Birləşmiş Ştatları təşkilatları** ilə təhsil sahəsində həyata keçirdiyi birgə layihə və proqramlar çərçivəsində də bir sıra uğurlu nəticələr əldə edilmişdi.

Amerika Hüquqşünaslar Assosiasiyası (**ABA/CEELI**) 1999-cu ildən Azərbaycanda ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə fəaliyyət göstərirdi. Təşkilatın əsas məqsədi hüquqi islahatlar prosesinə yardım göstərmək olmuşdur. Azərbaycan da daxil olmaqla 40-dan çox ölkədə nümayəndəliyi fəaliyyət göstərən ABA, məhkəmə, vəkillik fəaliyyəti, hüquq müdafiəsi, gender məsələləri və hüquqi maarifləndirmə ilə bağlı islahatlar sahəsində dövlət və qeyri-hökumət təşkilatları üçün hüquq təcrübəsi və texniki yardım xidmətləri göstərirdi.

«Canlı hüquq» Proqramı hüquqi təhsil layihələri arasında həyata keçirilən unikal proqramdır. Proqram çərçivəsində hüquqşünas tələbələr qeyri-hüquqşünasları maarifləndirir. Bu, o deməkdir ki, «Canlı hüquq» Proqramı vasitəsilə, bir tərəfdən hüquq və beynəlxalq hüquq fakültələri tələbələrinin professional inkişafına şərait yaradılır, digər tərəfdən isə qeyri-hüquqşünasların hüquqi cəhətdən maarifləndirilməsinə istiqamətləndirilmiş fəal vətəndaş mövqeyi təbliğ edilirdi.

Azərbaycanda «Canlı hüquq» Proqramı Amerika Hüquqşünaslar Assosiasiyasının Hüquqi Təhsil İslahatları Proqramı tərəfindən 2004/05-ci tədris ilindən başlayaraq həyata keçirilir. Proqramın ilk ilində hüquq və beynəlxalq hüquq fakültəsinin 18 tələbəsi Bakı və Sumqayıtın doqquz məktəbində 150 nəfər səkkizinci sinif şagirdinə «Canlı hüquq» dərslərini tədris etməyə başlamışdı.

Proqramın ikinci ilində «Canlı hüquq» Proqramının əhatə dairəsi genişlənmişdi. 2005/06-cı tədris ilində Proqramda hüquq və beynəlxalq hüquq ixtisası üzrə təhsil alan 46 tələbə iştirak etmişdi. Onlar altı və yeddinci sinif şagirdlərinə «Canlı hüquq» dərslərini tədris etmişdilər. Qeyd olunan tədris ilində proqramda ümumilikdə 18 məktəbin 455 şagirdi iştirak etmişdi. 2005/06-cı tədris ilində «Canlı hüquq» Proqramı onlayn olaraq Gəncə və Mingəçevir məktəblərində də tədris edilməyə başlanmışdı.

Proqram 2006/07-ci tədris ilində də davam etdirilmiş, üçüncü sinif şagirdləri üçün «Canlı hüquq» dərsləri hazırlanmış və Bakı şəhərinin daha 5 məktəbində tədris edilməyə başlanmışdı. Bundan əlavə, tələbələr altı, yeddi və səkkizinci sinif şagirdlərinə «Canlı hüquq» dərslərini auditoriya şəraitində, doqquz və onuncu sinif şagirdlərinə isə İnternet vasitəsilə tədris etmişlər. Beləliklə, həmin ildə Proqramda hüquq və beynəlxalq hüquq fakültəsinin 45 tələbəsi iştirak etmişdi. Həmin tədris ilində Proqramda 22 orta məktəb iştirak etmiş (12-si Bakı, 3-ü Sumqayıt, 3-ü Gəncə, 2-si Mingəçevir və 2-si

Lənkəran məktəbi olmaqla), 654 şagird «Canlı hüquq» dərslərini dinləmiş və məzun olmuşdu.

2007/08-ci tədris ilində «Canlı hüquq» Proqramında 33 məktəb iştirak etmişdi. Onlardan 18-i Bakı, 3-ü Sumqayıt, 5-i Lənkəran, 4-ü Gəncə, 1-i Mingəçevir və 2-si Xaçmaz məktəbləri idi. Həmin məktəblərin 1295 şagirdi «Canlı hüquq» dərslərində iştirak etmiş və məzun olmuşdu. Bu tədris ilində Proqramın davamlılığının təmin edilməsi məqsədi ilə Bakı şəhəri 177 və 16№-li məktəblər seçilmiş və burada altıncı və yeddinci siniflərdə «Canlı hüquq» dərsləri bir məktəb müəllimi və bir tələbə komandası tərəfindən tədris edilmişdi. 177№-li məktəbdən bu prosesə üç, 16№-li məktəbdən isə bir müəllim cəlb olunmuşdu. Təlimçilər üçün təlim başlayandan sonra 63№-li məktəbin bir müəllimi də təlimlərdə iştirak etmişdi. Beləliklə, proqramın ikinci fazasında 3 Bakı məktəbində «Canlı hüquq» dərsləri müəllim və tələbə komandaları şəklində tədris edilmişdi.

«Canlı hüquq» Proqramı beynəlxalq ictimaiyyətin də diqqətini cəlb etmişdir. Məhz bu marağın nəticəsi olaraq Proqramın sonunda ABŞ-ın Azərbaycandakı səfiri Ənn Dersi 177№-li məktəbin üçüncü siniflərinin «Canlı hüquq» Proqramından məzun olma mərasimində iştirak etmişdi.

Layihə çərçivəsində «Canlı hüquq» Onlayn Proqramı da uğurla həyata keçirilmişdi. Belə ki, layihədə 4 regiondan – Lənkəran, Gəncə, Mingəçevir və Xaçmazdan 12 məktəb iştirak etmişdi. Lənkəran şəhər 10№-li məktəb əlaqələndirici qismində çıxış edərək uğurlu göstəricilər əldə etmişdi.

Aparılan işlərin nəticəsində, 2007/08-ci tədris ilində «Canlı hüquq» Proqramının statistik göstəriciləri, ötən üç ilin göstəricilərinə bərabər olmuşdu. Proqramda 81 tələbə 6 regionda 33 məktəbin 1295 şagirdinə «Canlı hüquq» dərsləri keçmişdi.

2008/09-cu tədris ilində «Canlı hüquq» Məzunlar Birliyi yaradılmışdı. Həmin dərs ilində «Canlı hüquq» Proqramı Bakı şəhərinin 177 və 250№-li məktəblərinin III, VI və VII siniflərində davam etdirilmişdi. 177№-li məktəbdən beş, 250№-li məktəbdən bir müəllim layihənin bu hissəsinə cəlb edilmişdi. Eyni zamanda «Canlı hüquq» Onlayn Proqramına Zaqatalanın Humanitar Fənlər Gimnaziyası da qoşulmuş və Proqram Gəncə, Mingəçevir şəhərləri, Lənkəran və Zaqatala rayonları olmaqla daha 4 regionu əhatə etmişdi.

Ümumilikdə, 2008/09-cu tədris ilində hüquq fakültəsinin 20 tələbəsi və 6 müəllim Bakı, Gəncə, Mingəçevir, Lənkəran və Zaqatalanın 20 məktəbində 462 şagirdə «Canlı hüquq» dərslərini tədris etmişdi.

Layihə çərçivəsində 2008-ci il avqust ayının 3–8-də Qubada «Canlı hüquq» Yay məktəbi təşkil edilmişdi. Yay məktəbində 30 məktəbli iştirak edirdi. Məktəbin təşkili hüquqşünas tələbələrin hüquqi biliklərini təkmilləşdirir, onlara hüquqi qaydaları müxtəlif yaşda uşaqlara interaktiv üsullarla tədris etmək bacarıqları aşılayırdı. Yay məktəbləri, eyni zamanda regionda uşaqlara yeni hüquqi anlayışları və onları gündəlik həyatda necə tətbiq etməyi də öyrədirdi.

Qeyd etmək lazımdır ki, fəaliyyətə başladığı vaxtdan Proqram davamlı olaraq inkişaf

etmişdi. Ümumilikdə 2004–2009-cu illərdə «Canlı hüquq» Proqramı vasitəsilə 8 universitetin hüquq və beynəlxalq hüquq fakültələrindən 235 tələbə Azərbaycanın 8 regionu üzrə 100 məktəbində həm siniflərdə, həm də internet vasitəsilə 3054 şagirdə hüquq dərsləri keçmişdi. «Canlı hüquq» Proqramı hazırda da uğurla davam etdirilir.

Gənclərin Nailiyyəti (Junior Achievement) təşkilatı 1998-ci ildən Azərbaycanda fəaliyyət göstərir, məktəblərdə iqtisadiyyat və biznes təhsilinin inkişafı ilə bağlı layihələr həyata keçirir. 2003-cü ildən etibarən təşkilat ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə məktəblərdə İqtisadiyyatın tədrisi proqramını həyata keçirir.

Proqram iqtisadiyyat fənninin inkişaf etmiş ölkələrdə qəbul edilmiş metodlarla tədrisi, qlobal biznes etikası, biznesin idarəolunması və təşkili, iqtisadi problemlərin həlli yollarının yuxarı sinif şagirdlərinə aşılanması məqsədini daşıyır. Təşkilatın əsas məqsədlərindən biri iqtisadiyyatın tədrisi üçün iş adamlarını təhsil prosesinə cəlb etməkdir. Statoil, Exxon Mobil, Chevron, Pricewaterhouse Coopers, Baker & McKenzie, McDermott Caspian, Garadagh Cement, KCA Deutag, Bank Nikoil kimi şirkətlər təşkilatın layihələrini maliyyələşdirir və könüllü trenerlər qismində iştirak edirlər.

Gənclərin Nailiyyəti təşkilatının müraciəti əsasında, 2000/01-ci tədris ilindən etibarən eksperiment qaydasında Bakı şəhərinin 10 ümumtəhsil məktəbinin X siniflərində «İqtisadiyyata giriş» fənninin tədrisinə başlanmışdı. Sonradan bu məktəblərin X və XI siniflərində «İqtisadiyyata giriş» fənninin tədrisi davam etdirilməklə yanaşı, eksperimentlə əhatə olunmuş məktəblərin sayı ilbəil artırıldı. Təşkilat bu məktəblərə tədris-metodiki və texniki kömək göstərmiş, müəllimlər üçün treninqlər keçirmiş, fənnin tədris olunduğu məktəblərdə kompyuterlər quraşdırmışdı.

2005-ci ildə Azərbaycan məktəblərində «İqtisadiyyata giriş» fənninin tədrisi proqramına 14 bölgədən 130 məktəb cəlb olunmuş, 50 məktəbdən 100 müəllim təlimlərdə iştirak etmişdi. Həmçinin məktəblərə 7000 nüsxə «İqtisadiyyat» dərsliyi paylanmışdı. 2006-cı ildə proqram 20 bölgədən 180 məktəbi əhatə etmiş, proqrama yeni 45 orta məktəb və 5 kollec cəlb edilmişdi. Həmin məktəblərdən 100 müəllim üçün təlimlər keçirilmiş, məktəblərə 6000 nüsxə «İqtisadiyyat» dərsliyi paylanmışdı.

Təhsil Nazirliyi tərəfindən aparılan müşahidələr, müzakirələr və qazanılmış müsbət təcrübə onun əhatə dairəsinin genişləndirilməsinə əsas vermiş, 2007/08-ci tədris ilində həmin fənnin respublikanın daha 50 təhsil müəssisəsində tədrisinə başlanması qərarlaşdırılmışdı. 2008/09-cu tədris ilində «İqtisadiyyata giriş» fənninin respublikanın daha 15 təhsil müəssisəsində tədrisinə başlanılmışdı.

Həmin dərs ilində Gənclərin Nailiyyəti təşkilatı öz fəaliyyətini respublikanın 20 bölgəsinin 175 orta məktəbində və 5 kollecində davam etdirmişdi. Həyata keçirilən proqramlara yeni qoşulmuş 50 orta məktəbin X–XI sinif şagirdləri təşkilat tərəfindən çap olunmuş «İqtisadiyyat» dərslikləri ilə təmin olunmuş, hər bir məktəbə ən azı 1 kompyuter verilmişdi.

Təşkilat 2009-cu ildə yüzə yaxın müəllim üçün yay tətili zamanı iqtisadiyyatın tədrisi kursları, 14 müəllim və 660 şagird üçün qlobal biznes etikası kursları təşkil etmiş, 170 şagird təşkilatla əməkdaşlıq edən iş adamlarının təlimatı ilə biznesin idarəolunmasını öyrənmiş, 200 amerikalı və azərbaycanlı şagird İnternet vasitəsilə reklam strategiyalarına yiyələnmişdi.

Gənclərin Nailiyyəti təşkilatı ildən-ilə proqramın əhatə dairəsini genişləndirir. 2010-cu ildə İqtisadiyyat fənninin tədrisi ölkə üzrə 26 rayonun 245 məktəbini, o cümlədən 4 peşə liseyi və 1 kolleci təmsil edən 94500 şagirdi, 360 müəllimi əhatə etmişdi.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan şagirdləri hər il Hewlett-Packard korporasiyasının və Junior Achievement təşkilatının keçirdiyi beynəlxalq iqtisadiyyat və biznes yarışında böyük uğurlar qazanmışdılar. Proqram çərçivəsində ölkəmizin şagirdlərindən ibarət 30 komanda biznes və iqtisadiyyat yarışına qoşulmuş, beş ay ərzində davam edən bu bilik mübarizəsi nəticəsində 21 komanda yarımfinala, bunlardan biri – «Zəngi» Liseyinin komandası finala vəsiqə qazanmışdı. 2008-ci ilin yayında ABŞ-da keçirilən final mərhələsində «Zəngi» Liseyinin komandası 1000-dən artıq komandanı arxada qoyaraq, III yeri tutmuşdu.

Gənclərin Nailiyyəti təşkilatı 2008-ci ilin may–avqust aylarında orta məktəblərdə «İqtisadiyyatın tədrisi proqramı» çərçivəsində fərqlənmiş 9 fəal şagirdə peşə təcrübəsi proqramında iştirak etmək imkanı yaratmışdı. Hər il təşkilatın həyata keçirdiyi layihələrin 20 qalibi əməkdaşlıq edilən şirkətlərdə peşə təcrübəsi keçmək imkanı əldə edirdi. Təcrübə proqramı hər şagirdi qəbul edildiyi şirkətin əməkdaşı olan karyera məsləhətçisi ilə təmin edirdi. Həmin il Gənclərin Nailiyyəti təşkilatı Exxon Mobil, Statoil Azərbaycan, McDermott Caspian Contractors, KCA Deutag və Bank Nikoil ilə səmərəli əməkdaşlıq qurmuş, bu şirkətlərin təmsilçiləri 20 şagirddən 9-nu müsahibə vasitəsilə peşəkar təcrübə proqramına seçmiş, həmin şagirdlər bir həftədən iki aya qədər bu şirkətlərdə çalışmışdılar.

«İqtisadiyyata giriş» layihəsi uğurla davam etdirilir. Fənnin tədrisində Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş eksperimental tədris proqramı və Gənclərin Nailiyyəti təşkilatı tərəfindən Azərbaycan və rus dillərində nəşr edilmiş «Tətbiqi iqtisadiyyat» adlı tədris vəsaitindən istifadə edilir.

2007-ci ilin oktyabr ayından start götürmüş iqtisadiyyata dair milli yarışa Bakı, Sumqayıt, Bərdə, Gəncə, Yevlax, Mingəçevir və Lənkərandan 36 məktəbdən 58 komanda cəlb edilmişdi. Final mərhələsində səkkiz komanda iştirak etmiş, Bakı şəhərindən olan komanda qalib elan olunmuşdu.

2005-ci ildən məktəblərdə **Qlobal Biznes Etikası (GBE) Proqramı** həyata keçirilir. Proqram Bakı və digər on rayondan 17702 şagirdi və 60 müəllimi əhatə etmişdi. Kurs 12 həftə ərzində konkret situasiyalara əsaslanan proqram əsasında aparılaraq dünyada məktəbliləri bir-biri ilə əlaqələndirir, onlara etik məsələlərlə bağlı debat və müzakirələr aparmaq, biznes etikası məsələlərini araşdırmaq imkanı verirdi. Proqram çərçivəsində həm müəllimlər, həm də məktəblilər

bir sıra təlim sessiyalarında iştirak edirdilər. Bu proqramda iştirak edən məktəblilərdən iki nəfəri 2006-cı ildə keçirilən Beynəlxalq esse yarışının qalibi olmuş və esseləri ilə bağlı təqdimatlar aparmaq üçün Qırğızıstana səfər etmişdi.

Hər il İqtisadiyyatın tədrisi proqramının ən uğurlu iştirakçıları Gənclərin Nailiyyəti Təşkilatının tərəfdaş şirkətlərində internatura proqramlarında iştirak edirdilər. 2007-ci ilin iyul–sentyabr aylarında 13 məktəbli karyera məsləhətçiləri ilə birgə biznes dünyasında hansı imkanların olduğunu ilk mənbədən müşahidə etmək üçün Statoil Azərbaycan, McDermott, Caspian Contractors, Exxon Azərbaycan, AİG və KCA Deutag şirkətlərində işləmişdi. Yay təcrübəsi proqramı bir həftəlik və iki aylıq geniş internatura proqramlarından ibarət idi. 2005-ci ildən Məktəblərdə iqtisadiyyatın tədrisi proqramı 23 məktəbliyə yerli və beynəlxalq biznes strukturlarında peşəkar təcrübə qazanmaq imkanı vermişdi. Bu təşəbbüs məktəblilərə karyera məqsədlərini aydınlaşdırmağa və onlara iqtisadiyyatın əlifbasını bilən məktəblidən biznes peşəkarına doğru addım atmağa yardım edirdi. Layihə hazırda uğurla davam etdirilir.

ABŞ-ın təhsil və mübadilə proqramları əsasən nüfuzlu qeyri-hökumət təşkilatları – ACTR/ACCELS (Təhsil və Dillər Öyrənilməsi üzrə Amerika Əməkdaşlıq Şurası/ Beynəlxalq Təhsil üzrə Amerika Şuraları), İREX (Beynəlxalq Tədqiqatlar və Mübadilələr üzrə Şura), Project Harmony və Beynəlxalq Sülh Korpusu tərəfindən idarə olunur. Hazırda əməkdaşlıq davam etdirilir.

3.4. Avropa Şurası ilə əməkdaşlıq əlaqələri

Təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində qanunvericilik layihəsi. Layihənin məqsədi üzv ölkələrin təhsil sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, bu sahədə fəaliyyət göstərən mütəxəssislərin səriştəsinin artırılmasıdır. Azərbaycan bu layihəyə 1996-cı ildə qoşulmuşdu. Layihə çərçivəsində seminarlar, konfranslar və digər təlim xarakterli tədbirlər keçirilmişdir. Təlim seminarlarında 60 nəfər təhsil işçisi iştirak etmişdir.

Tbilisi təşəbbüsü layihəsinə Təhsil Nazirliyi 1998-ci ildə qoşulmuşdu. Layihə Avropa ümumtəhsil məktəblərinin 15–16 yaşlı şagirdləri üşün «Qafqaz xalqlarının tarixi» dərs vəsaitinin hazırlanmasını nəzərdə tuturdu. Avropa Şurası tərəfindən təqdim olunmuş və region ölkələri tərəfindən qəbul edilmiş prinsiplərə əsaslanan bu vəsaitin yazılmasında regionun 4 dövlətindən (Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya Federasiyası) müəlliflər qrupu və Avropa Şurasının Böyük Britaniya, Polşa, Almaniya və Hollandiyadan dəvət edilmiş ekspertləri və naşirləri iştirak edirdilər.

Layihənin əsas məqsədi Qərbi Avropa ölkələrinin orta məktəb şagirdlərini Azərbaycan və digər Qafqaz ölkələri xalqlarının tarixi, ənənələri və mədəniyyəti ilə tanış etmək idi. Vəsaitin ingilis və həmin ölkələrin dilində çap olunması nəzərdə tutulurdu.

2004-cü ildə dərs vəsaitinin son variantı Avropa Şurasına təqdim olunmuş, siqnal nəşri 2005-ci ildə çap edilib təsdiq üçün layihədə iştirak edən ölkələrə göndərilmişdi.

Vəsaitin nəşri 2007-ci ilə planlaşdırılmışdı. Lakin nəzərdə tutulan vəsaitin nəşri Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyinə görə mümkün olmadı. Bununla belə, layihə çərçivəsində Azərbaycanın dərslik hazırlığı sahəsində mütəxəssisləri və naşirləri Avropa təcrübəsi ilə yaxından tanış olmuş, bu sahədə müvafiq bacarıqlara yiyələnmişdilər. Layihə 2007-ci ildə başa çatmış, Azərbaycandan 540 nəfər tarix müəllimi təlim seminarlarında öz bacarıqlarını inkişaf etdirmişdi.

Azərbaycanda, Gürcüstanda və Ermənistanda təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində qanunvericilik layihəsi. Təhsil Nazirliyi Avropa Şurasının bu regional layihəsinə 2000-ci ildə qoşulmuşdu. Həmin layihə Azərbaycana təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində beynəlxalq standartlara uyğun mexanizmlərin (akkreditasiya, lisenziya verilməsi, diplomların tanınması) yaradılmasına yardım göstərməyi nəzərdə tuturdu. Eyni zamanda bu layihə göstərilən sahələrdə beynəlxalq əməkdaşlıq üçün geniş imkanlar da açmışdı.

Layihə çərçivəsində 2000–2003-cü illərdə Azərbaycanda işçi qrupları yaradılmış, Avropa Şurası ekspertləri ilə birgə işçi qruplarının iclasları keçirilmiş, Azərbaycanda akkreditasiya, lisenziya verilməsi və təhsilin keyfiyyətinə nəzarət sahəsində effektiv hüquqi-normativ sənədlərin işlənməsi və təsdiq olunması məsələləri ilə bağlı müzakirələr və fikir mübadiləsi aparılmışdır. Layihə çərçivəsində 2001-ci ilin may ayında Bakıda üç Qafqaz ölkəsi təhsil nazirlərinin regional konfransı keçirilmişdi. Tədbirdə Avropa Şurası Baş Katibinin Siyasi məsələlər üzrə müşaviri Klaus Şuman, Avropa Şurasının digər nümayəndələri və Avropanın bir sıra nüfuzlu ekspertləri iştirak etmişdilər.

Konfrans zamanı Azərbaycan, Gürcüstan və Ermənistanın təhsil nazirləri tərəfindən imzalanmış birgə Bəyannamə qəbul edilmişdi. Bu layihə çərçivəsində əldə olunmuş səmərəli təcrübədən ali təhsil müəssisələrinin akkreditasiyası (2003-cü il) və ali təhsil sahəsində xarici diplomların tanınması (2004-cü il) üzrə yeni normativ sənədlərin hazırlanmasında geniş istifadə olunmuş-du. Layihənin uğurla həyata keçirilməsi Cənubi Qafqaz ölkələri təhsil nazirlərinin 2004-cü ildə Strasburq şəhərində keçirilmiş konfransında vurğulanmış və birgə Bəyannamə qəbul edilmişdi.

Azərbaycana səfər zamanı Klaus Şuman Azərbaycan Respublikası Təhsil Nazirliyində rəsmi görüş keçirdi. Görüş zamanı Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu. Qəbul olunmuş qərarlara əsasən Avropa Şurası ilə Təhsil Nazirliyi arasında aşağıdakı istiqamətlər üzrə əməkdaşlığın əsası qoyuldu və sonrakı illərdə müvəffəqiyətlə həyata keçirildi:

- xarici diplomların və kvalifikasiyaların qarşılıqlı tanınması üzrə milli informasiya mərkəzlərinin yaradılması;
- təhsilin keyfiyyətinin təmin edilməsi üzrə mexanizmlərin yaradılması;
- orta məktəblərdə tarix fənninin tədrisi üzrə yeni standartların və tədris proqramlarının hazırlanması;
- orta məktəblərdə tarixin tədrisi üzrə yeni metodik vəsaitlərin hazırlanması;



Bakıda keçirilmiş üç Qafqaz ölkəsi təhsil nazirlərinin regional konfransının iştirakçıları. May, 2001-ci il



Cənubi Qafqaz ölkələrinin təhsil nazirlərinin Bakı şəhərində keçirilmiş konfransında birgə Bəyannamənin qəbul edilməsi. May, 2001-ci il

– tarixin tədrisi metodikası vəsaitinin hazırlanması üzrə regional şəbəkələrin yaradılması;
– Avropa dillərinin tədrisi üzrə proqramların hazırlanması;
– Qafqaz ölkələrində ümumi təhsil, texniki-peşə və ali təhsil üzrə qanunvericilik sənədlərinin qəbul edilməsi;
– Avropada ibtidai və orta ümumi təhsil sahəsində siyasətin və islahatların əsas istiqamətləri;
– vətəndaşlıq və demokratiyanın tədrisi sahəsində milli standartların işlənməsi və tədris proqramlarının hazırlanması;
– təhsilin keyfiyyətinin təmin edilməsi üzrə regional əməkdaşlıq əlaqələrinin yaradılması;
– vətəndaşlıq və demokratiyanın tədrisi sahəsində müəllimlərin ixtisasının artırılması proqramlarının, tədris vəsaitlərinin və metodik ədəbiyyatın hazırlanması;
– Avropada ali təhsil sahəsində siyasətin və islahatların əsas istiqamətləri mövzusunda seminarların keçirilməsi;
– ali təhsil sahəsində elmi dərəcələrin strukturunda islahatlar;
– milli azlıqların təhsili sahəsində siyasət.

Layihə çərçivəsində Azərbaycanda «Təhsil haqqında» yeni Qanun layihəsinin Avropa Şurasında müzakirəsindən sonra bu təşkilatın ekspertləri ilə layihənin hazırlanmasında iştirak etmiş mütəxəssislər və Milli Məclisin müvafiq Komitəsinin üzvləri ilə məsləhətləşmələr aparılmış, Avropa Şurasının ekspertləri müzakirələrin nəticələrinə dair təkliflərini 2001-ci ilin yanvar ayında Milli Məclisə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim etmişdilər. Qeyd etmək lazımdır ki, 2009-cu ildə qəbul olunmuş «Təhsil haqqında» Qanunda həmin təkliflər nəzərə alınmışdır. Layihə çərçivəsində 600-dən çox müəllim və təhsil işçisi seminarlarda iştirak etmişdi. «Avropa ölkələrinin ali təhsil şəbəkəsində keyfiyyət qaydaları», «Avropada kredit transferi və kredit toplanması sistemi», Avropada Ali Təhsil Sahəsində İxtisas Dərəcələrinin Strukturu», «Avropa təhsil məkanında keyfiyyətə nəzarət üzrə standartlar və əsas prinsiplər» kitabları Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

Demokratik vətəndaşlıq üzrə təhsil layihəsi 2002-ci ildən həyata keçirilməyə başlanmışdır. Layihənin məqsədi Avropa Şurası tərəfindən vətəndaşlıq təhsili sahəsində beynəlxalq standartlara cavab verən yeni tədris proqramlarının, dərslik, dərs vəsaitləri və digər materialların hazırlanmasında ölkələrə, o cümlədən Azərbaycana yardım göstərmək, Azərbaycanda vətəndaşlıq və demokratiyanın tədrisi sahəsində ümumi vəziyyətlə tanış olmaq, mövcud problemlərin həllini, həmçinin bu sahədə Avropa Şurası ilə əməkdaşlığın konkret istiqamətlərini müəyyənləşdirmək idi. Layihə çərçivəsində Bakıda Avropa Şurasının ekspertlərinin iştirakı ilə seminar və iclaslar keçirilmiş, təklif olunan tövsiyələr və təcrübə nəzərə alınmaqla Azərbaycanın ümumtəhsil məktəbləri üçün İnsan və cəmiyyət fənni üzrə yeni tədris proqramının, müəllimlər üçün müasir təlim texnologiyalarına əsaslanan vəsaitin hazırlanmasında istifadə olunmuşdur.

Avropa Şurası 2005-ci ili «Təhsil vasitəsilə demokratik vətəndaşlıq» ili elan etmişdi. Bununla bağlı Təhsil Nazirliyi ümumi və ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlarla birlikdə insan hüquqları və demokratik vətəndaşlıq mövzuları üzrə konfranslar, seminarlar, «dəyirmi masa»lar və digər tədbirlər həyata keçirmişdi. Layihə çərçivəsində 240 nəfər müəllim müxtəlif mövzularda təlimlərə cəlb olunmuş, «Demokratik vətəndaşlıq üçün təhsil: həyat boyu öyrənmə perspektivi», «Demokratik vətəndaşlıq üzrə təhsil üçün əsas konsepsiyalar və biliklər» adlı kitablar, «Məktəblərdə demokratik vətəndaşlıq üçün təhsilin keyfiyyəti üzrə vəsait», «Demokratik vətəndaşlıq və insan hüquqları təhsili üzrə müəllimlər üçün tədris vəsaiti» Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

Təhsil siyasəti və milli azlıqlar layihəsi 2003-cü ildən həyata keçirilirdi. Layihənin əsas məqsədi iştirakçı ölkələrə milli azlıqların təhsili ilə bağlı qanunvericilik sənədlərinin hazırlanmasında yardım göstərilməsi və milli azlıqların təhsil siyasəti sahəsində təvsiyələrin təqdim edilməsi idi.

Bu layihənin səmərəli həyata keçirilməsi məqsədilə Azərbaycan – Avropa Şurası birgə işçi qrupu yaradılmışdı. Layihə çərçivəsində 2003-cü ilin may ayında Bakıda «Təhsil siyasəti və milli azlıqlar» mövzusunda milli seminar keçirilmişdi. Seminarda Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri, o cümlədən məktəb direktorları, rus, yəhudi, gürcü və digər milli azlıqların icma rəhbərləri iştirak etmişdilər. Seminarda Azərbaycanda milli azlıqlar üçün təhsil siyasətinin istiqamətlərini müəyyənləşdirmək, eyni zamanda ölkəmizdə milli azlıqlar üçün səmərəli və bərabər imkanlar prinsiplərinə əsaslanan təhsil siyasətinin işlənib hazırlanması məsələləri müzakirə olunmuşdu.

2003-cü ilin 9–13 noyabr tarixlərində Afinada Avropa ölkələri təhsil nazirləri konfransının 21-ci sessiyası keçirilmişdi. Təhsil Nazirliyinin nümayəndə heyəti Yunanıstanda olmuş və Sessiyanın işində iştirak etmişdi. Sessiyada müzakirələrin əsas mövzusu mədəniyyətlərarası təhsil, fərqlərin aradan qaldırılması və demokratiyanın möhkəmləndirilməsi idi. Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti Azərbaycanda bu istiqamətdə görülən işlər haqqında məlumat vermişdi.

Avropa Şurasının Baş direktoru Bendik Ruqas görüş zamanı Avropa Şurasının Azərbaycanla təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu və mədəniyyətlərarası təhsil və demokratiyanın tədrisi mövzusunda Azərbaycana xüsusi layihənin təqdim olunacağını qeyd etmişdi.

Sessiyada Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyəti işçi qruplarla «Tədris proqramları (kurikulum)», «Təhsil müəssisələrinin idarə olunması», «Müəllimlərin təkmilləşdirilməsi» mövzuları üzrə müzakirələr aparmışdı.

Sessiyanın sonunda iştirakçılar Avropa ölkələrinin təhsil sistemlərindəki informasiya və kommunikasiya texnologiyalarının daha geniş tətbiqi ilə bağlı məsələləri də müzakirə etmişdilər. Keçirilən müzakirələrin nəticəsi kimi nümayəndə heyətləri tərəfindən

iki bəyannamə qəbul olunmuşdur: 1.Yeni Avropa kontekstində mədəniyyətlərarası təhsil. 2. Avropa ölkələrinin təhsil sistemlərində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması.

Sessiya zamanı Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyətinin bir sıra ölkələrin təhsil nazirləri və nümayəndə heyətlərinin başçıları ilə (o cümlədən Türkiyə, Rusiya Federasiyası, Polşa, Estoniya, Ukrayna, Belarus, Gürcüstan, Bolqarıstan və Moldova) qeyri-rəsmi görüşləri də olmuşdu. Danışıqlar zamanı Azərbaycanla bu ölkələr arasında təhsil sahəsində ikitərəli əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdi. UNESCO-nun MDB üzrə koordinatoru Aleksandr Sannikovla görüşdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin UNESCO-nun layihələrinə daha geniş cəlb olunması məsələləri də müzakirə edilmişdi.

2005-ci ildə «Azərbaycanda milli azlıqlar üzrə təhsil siyasəti» mövzusunda Avropa Şurası və Azərbaycanın birgə yekun hesabatı dərc olunmuşdu. Hesabatda Azərbaycanda milli azlıqlara öz dillərində təhsil almaları üçün bütün lazımi şəraitin yaradılması xüsusi qeyd edilmişdi. Eyni zamanda milli azlıqların təhsili sahəsində siyasətin təkmilləşdirilməsi məqsədilə hesabata konkret tövsiyələr daxil idi. Layihə 2007-ci ildə başa çatmışdır. Layihə çərçivəsində 150 nəfər müəllim və təhsil işçisi təlim seminarlarında iştirak etmişdir.

Cənubi Qafqaz ölkələrində mədəniyyətlərarası və dinlərarası dialoq üzrə tədris layihəsi Avropa Şurası ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında 2007–2009-cu illər üzrə əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilirdi. Layihənin əsas məqsədi Azərbaycanın təhsil müəssisələrində mədəniyyətlərarası və dinlərarası dialoqun tədrisi prosesinin təkmilləşdirilməsi, bu sahə üzrə kurikulumların və müəllimlər üçün tədris vəsaitinin hazırlanması idi.

Layihə çərçivəsində Təhsil Nazirliyinin nümayəndə heyəti 2008-ci ilin 18–19 fevral tarixlərində Strasburqda keçirilmiş Regional konfransda iştirak etmişdi. Konfransda layihənin İş Proqramı qəbul edilmiş, eyni zamanda qərara alınmışdı ki, ilkin mərhələdə layihənin mahiyyətinin təhsil işçilərinə və ictimaiyyətə çatdırılması məqsədilə region ölkələrində Avropa Şurası ekspertlərinin iştirakı ilə milli konfranslar keçirilsin və müəllimlər üçün treninqlər təşkil edilsin. İş Proqramına uyğun olaraq, Azərbaycanda milli konfrans 2008-ci ilin 24–25 aprel tarixlərində Bakıda keçirilmişdi. Konfransda Avropa Şurasının 5 eksperti, Azərbaycanın dövlət qurumlarının, Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən elmi-tədqiqat və müəllimləri təkmilləşdirmə institutlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişdilər.

Bu layihə çərçivəsində 2008-ci ilin 19–20 iyun tarixlərində Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda ümumtəhsil məktəblərinin müəllimləri üçün mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı mövzuların tədrisinə həsr olunmuş treninqlər keçirilmişdi. Layihənin növbəti mərhələsində müəllimlər üçün seminarlar keçirilmiş və mədəniyyətlərarası təhsil üzrə – «Tarixin tədrisində çoxtərəfli



Avropa Şurasının Baş katibi Valter Şvimmerlə görüş zamanı.
Strasburq, aprel, 2003-cü il

yanaşma» adlı dərs vəsaiti hazırlanmış və nəşr edilmişdi. Layihə çərçivəsində 240 nəfər müəllim, metodist, məktəb rəhbəri treninqlərdə iştirak etmişdi.

Avropa Şurası ilə əməkdaşlıq əlaqələrinin inkişafında qarşılıqlı səfərlərin və müzakirələrin böyük əhəmiyyəti olmuşdu. Belə ki, Avropa Şurasının Baş katibi Valter Şvimmerin dəvəti ilə Təhsil Nazirliyinin nümayəndə heyəti 14–15 aprel 2003-cü il tarixlərində Strasburq şəhərində rəsmi səfərdə olmuşdu. Səfərin əsas məqsədi ikitərəfli əməkdaşlığın vəziyyəti haqqında fikir mübadiləsi aparmaq, gələcək əməkdaşlığın prioritetlərini müəyyənləşdirmək, Avropa Şurasının rəhbərliyini Azərbaycanda son illər təhsil sahəsində aparılan islahatlarla tanış etmək və Avropa Şurasının rəhbərliyinə ikitərəfli əməkdaşlığın daha səmərəli qurulması məqsədilə Azərbaycan tərəfinin təklif və tövsiyələrini təqdim etmək idi. Səfər çərçivəsində Avropa Şurasının Baş katibi Valter Şvimmer ilə görüş keçirilmiş və təhsil sahəsində həyata keçirilən islahatlar haqqında qısa məlumat

verilmişdi. Əsas diqqət ikitərəfli əməkdaşlığın inkişafına və 2000–2002-ci illərdə həyata keçirilmiş layihələrin nəticələrinin müzakirəsinə yönəldilmişdi.

Azərbaycanın milli azlıqların təhsili sahəsində yeni layihəyə qoşulması ilə əlaqədar müzakirələrdə Təhsil Nazirliyinin nümayəndə heyəti qeyd etmişdi ki, ölkəmizdə bu sahədə heç bir problem olmasa da, Azərbaycan tərəfi milli azlıqların təhsilinin keyfiyyətini daha da yaxşılaşdırmaq üçün Avropa Şurası ilə bu istiqamətdə əməkdaşlığı inkişaf etdirməyə hazırdır.

Bu səfərdə başlıca məqsədlərdən biri də ölkəmizin Ermənistanın iştirak etdiyi regional layihələrdə iştirakda maraqlı olmadığını Avropa Şurası rəhbərliyinə çatdırmaq olmuşdur. Bu məsələ ilə bağlı Valter Şvimmerin diqqətinə çatdırılmışdı ki, Azərbaycan təhsil sahəsində bütün ölkələrlə əməkdaşlığa hazırdır, lakin Ermənistanın Azərbaycana təcavüzünə son qoyulanadək bu ölkə ilə Azərbaycanın əməkdaşlığı mümkün hesab edilmir. Bunu nəzərə alaraq, gələcək əməkdaşlıq proqramlarının bəzi aspektlərinə yenidən baxılması və təhsilin konkret sahələrində Azərbaycana yardım göstərilməsinə yönəlmiş ikitərəfli əməkdaşlığa daha çox diqqət yetirilməsinin zəruriliyi vurğulanmışdı.

Valter Şvimmer Avropa Şurası ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında əməkdaşlığı yüksək qiymətləndirmiş, eyni zamanda Avropa Şurasının əməkdaşlıq və yardım proqramlarının davam etdirilməsinin vacibliyini bildirmişdi.

Səfər çərçivəsində Təhsil Nazirliyi nümayəndə heyətinin Avropa Şurasının siyasi məsələlər üzrə direktoru Klaus Şumanla görüşü keçirilmişdi. Görüş zamanı Azərbaycan Respublikası ilə Avropa Şurası arasında münasibətlərin dərinləşməsinin siyasi əhəmiyyəti vurğulanmış, Avropa Şurasının təhsil sahəsində həyata keçirilən bir sıra layihələri vasitəsilə bu təşkilatın dəyərlərinin Cənubi Qafqaz bölgəsində tətbiq edilməsinin və bu istiqamətdə Avropa təcrübəsinin öyrənilməsinin zəruriliyi qeyd olunmuşdu. Təhsil Nazirliyinin nümayəndə heyəti Klaus Şumana məcburi köçkünlərin təhsili ilə əlaqədar mövcud çətinliklər, çadır şəhərciklərində fəaliyyət göstərən məktəblərin problemləri və Azərbaycan Respublikasının Prezidenti və hökumətinin bu problemin həlli istiqamətində atdığı konkret addımlar haqqında ətraflı məlumat vermişdi.

Avropa Şurasının orta təhsil üzrə Departamentinin direktoru Qabriel Mazza ilə keçirilən görüşdə 2003-cü il üçün əməkdaşlıq proqramı ətraflı müzakirə olunmuş, eyni zamanda Avropa Şurası tərəfindən idarə olunan müxtəlif təhsil layihələrini (Demokratik vətəndaşlıq üzrə təhsil, Milli azlıqlar üzrə təhsil siyasəti, Qafqaz xalqlarının tarixi, Orta məktəblər üçün yeni tarix dərsliklərinin hazırlanması layihələri) əlaqələndirən departamentlərin rəhbərləri ilə görüşlər keçirilmişdi.

Avropa Şurasının Parlament Assambleyasının məsul əməkdaşları ilə sonrakı görüşlər zamanı əməkdaşlıq və yardım proqramlarına dair konkret təkliflər və Avropa Şurasının ekspertləri tərəfindən təqdim edilən müxtəlif təşəbbüslər ətraflı müzakirə olunmuşdu.

Avropa Şurasının Baş katibi Valter Şvimmerin təşəbbüsü ilə 7–18 may 2005-ci il tarixlərində Strasburqda Cənubi Qafqaz ölkələrinin təhsil nazirlərinin konfransı keçirilmişdi. Konfransda Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti də iştirak etmişdi. Konfransın əsas məqsədi iştirakçıları və Avropa Şurası ekspertlərini Cənubi Qafqaz ölkələrində ali təhsil sahəsində keçirilən islahatların gedişi və təhsilin inkişafının prioritet istiqamətləri ilə tanış etmək, eyni zamanda Avropa Şurası ilə birgə həyata keçirilmiş layihə və proqramların nəticələrini və 2004–2006-cı illər üçün əməkdaşlıq proqramlarını müzakirə etmək idi. Nazirliyin nümayəndə heyəti konfrans iştirakçılarını Azərbaycanda həyata keçirilən islahatlar haqqında, o cümlədən təhsilin keyfiyyətinin təmin edilməsi, ali təhsil sahəsində xaricdə qazanılmış ixtisasların tanınması, ali təhsil müəssisələrinin attestasiyası və akkreditasiya proseduru haqqında ətraflı məlumatlarla tanış etmişdi.

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK). 1992-ci ildən Azərbaycanda fəaliyyətə başlamış bu təşkilat 1995-ci ildən təhsil layihələri həyata keçirir. BQXK Azərbaycan hökumətinə beynəlxalq humanitar hüquqda nəzərdə tutulmuş öhdəliklərini yerinə yetirməkdə yardım göstərirdi. Təşkilat tərəfindən həyata keçirilən **«Beynəlxalq humanitar hüququn (BHH) əsasları barədə biliklərin yayılması»** layihəsi çərçivəsində 5-ci siniflər üçün «Hamımız bir günəşin zərrəsiyik» adlı vəsait nəşr olunmuş, 190 min nüsxədə şagirdlərə, 12 min nüsxədə müəllimlərə paylanmış və bütün ümumtəhsil məktəblərinin 5-ci siniflərində tədris olunmuşdur. Müəllim və şagirdlər üçün «Dünya mənim, dünya sənin» adlı vəsait hazırlanmış və ümumtəhsil məktəblərinin 6-cı siniflərində tədris olunmuşdur. 2003-cü ildən ötən müddətdə 123 treninq keçirilmiş, bunlarda məktəblərin 5–6-cı siniflərində işləyən 2060 nəfər müəllim iştirak etmişdir.

Təhsil Nazirliyi və BQXK arasındakı əməkdaşlıq çərçivəsində 2005-ci ildə beynəlxalq humanitar hüquqa həsr olunmuş mövzular İnsan və cəmiyyət fənninin proqramlarına daxil edilmişdir. Eyni zamanda «Beynəlxalq humanitar hüququn əsaslarının tədrisi» adlı elektron tədris vəsaiti hazırlanmışdır.

Norveç Qaçqınlar Şurası (NQŞ). 1995-ci ildən Azərbaycanda fəaliyyətə başlayan bu təşkilat ilkin mərhələdə məcburi köçkünlər üçün çadır düşərgələrində təhsil prosesinə yardım göstərmişdi. 1998-ci ildən NQŞ tərəfindən «İnsan hüquqlarının tədrisi» layihəsi həyata keçirilməyə başlandı. Layihə uşaqların öz hüquq və vəzifələrini öyrənməsi, onlarda tolerantlıq, tənqidi təfəkkür və analitik bacarıqların formalaşdırılması məqsədi daşıyırdı. Layihə aşağıdakı sahələri əhatə edirdi:

- müəllimlərin təlimatlandırılması;
- təlim materiallarının hazırlanması;
- məcburi köçkünlərin sıx məskunlaşdıqları ərazilərdə resurs mərkəzlərinin yaradılması;
- QİÇS və gender məsələləri üzrə təlimlərin təşkili;
- QHT-lər və yerli təhsil institutları ilə əməkdaşlıq;

– qaçqın və sığınacaq axtaranların təhsillə təmin edilməsi üçün xüsusi cəhdlər.

2001-ci ildə Bakı şəhəri 18№-li məktəbdə İnsan Hüquqlarının Tədrisi üzrə ilk mərkəz yaradıldı. 2002-ci ildə belə mərkəzlər Gəncə şəhərində, Ağcabədi, Göyçay və Füzuli rayonlarında da açıldı. Sonrakı illərdə daha 9 mərkəz yaradıldı.

Birgə layihə çərçivəsində müəllim və şagirdlər üçün insan hüquqlarına dair 7 vəsait hazırlanıb nəşr edilmişdir:

1. Kiçikyaşlı məktəblilərə insan hüquqlarının öyrədilməsi (müəllimlər üçün vəsait).
2. İnsan hüquqlarının tədrisi (ümumtəhsil məktəblərinin IX–XI sinifləri üçün insan hüquqlarının tədrisi üzrə fakültativ məşğələnin proqramı).
3. İnsan hüquqlarının tədrisi (müəllimlər üçün dərs vəsaiti).
4. Hüquqlara aparan yol (müəllimlər üçün metodik vəsait).
5. Hüquqlara aparan yol (şagirdlər üçün tədris vəsaiti).
6. Hüquqlara aparan yol (valideynlər üçün vəsait).
7. Bu da mən (ibtidai sinif şagirdləri üçün vəsait).

«İnsan hüquqlarının tədrisi» layihəsi çərçivəsində ümumilikdə 100-dən çox təlim seminarı keçirilmiş, 2950 müəllim təlimlərə cəlb olunmuş, 42 min nüsxədə vəsaitlər nəşr edilərək məktəblərə verilmişdir. Layihənin həyata keçirilməsi nəticəsində şagirdlər hüquq və vəzifələrin öyrənilməsi və həyatda tətbiqi sahəsində bacarıqlar əldə etdilər.

3.5. BMT-nin proqramları ilə bağlı Azərbaycan təhsilində reallaşdırılan layihələr

BMT İnkişaf Proqramının «Davamlı insan inkişafı» layihəsi. Qloballaşan dünyada müstəsna əhəmiyyət kəsb edən və xüsusi aktuallığı ilə seçilən, BMT tərəfindən minilliyin məqsədlərindən biri kimi müəyyənləşdirilən davamlı insan inkişafı konsepsiyası XX əsrin son onilliyində irəli sürülmüşdür və dünyada ən mühüm prioritetə çevrilmişdir. Davamlı insan inkişafı qlobal məqsədlərdən biri kimi BMT tərəfindən Minilliyin Bəyannaməsinə daxil edilmiş, 2005–2014-cü illər Davamlı insan inkişafı sahəsində tədris onilliyi elan edilmişdir.

Müstəqillik bərpa olunduqdan sonra Azərbaycan Respublikasında da davamlı insan inkişafına dair monitorinq aparılmasına başlanmışdır. Bu sahədə vəziyyəti qiymətləndirən ilk Milli hesabat 1995-ci ildə dərc edilmişdir. Milli səviyyədə aparılmış monitorinqin nəticələri göstərmişdir ki, Azərbaycanda müstəqillik bərpa olunandan sonrakı dövr davamlı insan inkişafı baxımından iki mərhələyə bölünür. 1990-cı illərin əvvəllərindən 1993-cü ilə qədər ölkədə davamlı insan inkişafı üzrə göstəricilər kəskin surətdə aşağı düşmüşdü. Bu, əsasən, iqtisadiyyatda müşahidə edilən böhranın nəticəsi idi. Lakin 1993-cü ildən sonra ölkədə həyata keçirilən uğurlu iqtisadi və sosial siyasət nəticəsində 1996-cı ildən başlayaraq davamlı insan inkişafı göstəriciləri yüksəldi. Ölkənin sürətli inkişafı, müxtəlif islahatların həyata keçirilməsi və bununla bağlı beynəlxalq

əməkdaşlığın güclənməsi bu prosesin daha geniş vüsət almasına səbəb oldu.

Davamlı insan inkişafı sahəsində bilik və bacarıqlar təbii sərvətlərlə zəngin olan ölkələr üçün xüsusi əhəmiyyət daşıyır. Müvafiq fənnin tədrisi Azərbaycan Respublikası üçün də olduqca əhəmiyyətlidir. Ölkənin təbii ehtiyatlarının, o cümlədən neft və qaz kimi sərvətlərin zənginliyi, davamlı insan inkişafı sahəsində bilik və bacarığın olmasının xüsusi əhəmiyyətindən xəbər verir. Bununla əlaqədar ölkə Prezidenti İlham Əliyev qeyri-neft sektorunun inkişafına hər zaman xüsusi diqqət yetirir. Bunun üçün ilk növbədə insan potensialının inkişafını və bu yolla biliyə əsaslanan davamlı inkişafın təmin edilməsinin vacibliyini göstərir. Ölkədə neft strategiyası çərçivəsində uğurla həyata keçirilən islahatlar buna yönəlmişdir. Prezident İlham Əliyevin irəli sürdüyü «Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək, bilik və bacarıq isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. İnkişaf etmiş ölkələrin təcrübəsinə istinad etsək görərik ki, o ölkənin inkişafında aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır» kimi konseptual müddəaların əsasında da məhz həmin yanaşma dayanır. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir» fikrini bəyan etməklə, əslində, ölkəmizdə təhsilin prioritet inkişaf istiqamətini müəyyənləşdirmişdir.

Ölkəmizdə insan inkişafının təmin edilməsi dövlət siyasətində prioritet təşkil etməklə, təhsil strategiyasında da geniş nəzərə alınır və təhsilin bütün pillələrində beynəlxalq təşkilatlarla birlikdə davamlı inkişafa xidmət edən proqram və layihələr həyata keçirilir.


Təhsil indikatorları ilə yanaşı, insan inkişafının qiymətləndirilməsində iqtisadi indikatorlar da xüsusi əhəmiyyət kəsb edir. Bu indikatorlar adambaşına düşən ümumi daxili məhsul və yoxsulluğun səviyyəsi ilə müəyyənləşdirilir. Xüsusi qeyd etmək lazımdır ki, son illərdə Azərbaycanda iqtisadi inkişaf tempi dünya iqtisadçılarının, nüfuzlu beynəlxalq təşkilatların, müsbət mənada, marağına səbəb olmuşdur. Nazirlər Kabinetinin 2009-cu ilin yekunlarına həsr olunmuş iclasında ölkə Prezidenti tərəfindən bəyan edilmiş iqtisadi inkişaf göstəriciləri bunu bir daha sübut edirdi: «2009-cu ilin yekunlarına görə, Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında olmuşdur. Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan rəqabət qabiliyyətliliyinə görə dünyada 51-ci, MDB məkanında 1-ci yerdədir. Bütün dünyanın güclü maliyyə böhranı ilə üzləşdiyi 2009-cu ildə Azərbaycanda ümumi daxili məhsul 9,3%, sənaye istehsalı 8,6%, kənd təsərrüfatı istehsalı isə 3,5% artmışdı. 2003-cü ildə Azərbaycan vətəndaşlarının təxminən 50%-ə yaxını yoxsulluq səviyyəsində yaşayırdısa, bu gün bu göstərici 11%-dir».

BMT ekspertlərinin insan inkişafı üzrə apardığı tədqiqatın nəticələrinə əsasən hazırlanmış 2010-cu il İnsan İnkişafı Hesabatı da sübut edir ki, 1990-cı illərin ortalarından etibarən Azərbaycan iqtisadi inkişaf tempini sürətləndirərək


yoxsulluğun azaldılması, ömür uzunluğu və təhsil səviyyəsinin artması kimi sahələrdə böyük nailiyyətlər əldə etmişdir. 1995-ci ildən 2010-cu ilə kimi Azərbaycanın İnsan İnkişafı İndeksi 27% artaraq 0,563-dən bugünkü səviyyəyə (0,713) qalxmışdır. 2005–2010-cu illər ərzində Azərbaycan insan inkişafı sahəsində ən böyük irəliləyişə nail olmuşdur. 2010-cu il üçün göstəricilərə görə 169 ölkə arasında 67-ci yerdə duran Azərbaycan «orta insan inkişafı» ölkələri qrupunu tərk edərək «yüksək insan inkişafı» qrupuna daxil olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın insan potensialının səviyyəsinin yüksəlməsində təhsil sahəsində əldə edilən nailiyyətlər mühüm rol oynamışdır. BMT-nin İnsan İnkişafı Hesabatında göstərilir ki, Azərbaycanda savadlılıq səviyyəsi 99,5%, ibtidai təhsillə əhatə əmsalı 116,2%, orta təhsillə əhatə əmsalı 96% təşkil edir. Bu göstəricilərə görə Azərbaycan hətta bir sıra ən yüksək inkişaf etmiş ölkələrdən də irəlidədir.

1995–2010-cu illərdə Azərbaycanın İnsan İnkişafı İndeksi dinamikası




1995–2010-cu illərdə Azərbaycanın İnsan İnkişafı İndeksi komponentlərinin dinamikası




Təhsil Nazirliyinin səyləri nəticəsində Azərbaycan, insan inkişafının tədrisi sahəsində ən qabaqcıl ölkələr sırasına çıxmışdır. BMT-nin İnkişaf Proqramı çərçivəsində «Davamlı insan inkişafı» layihəsi Azərbaycanda 1997-ci ildən başlanmışdır. İlk olaraq bu fənn Qərb Universitetində tədris proqramlarına daxil edilmiş, sonra bu təcrübə digər universitetlərə də yayılmışdır.

Davamlı insan inkişafının orta məktəblərdə tədrisi 1998-ci ildən başlanmışdır. 2001-ci ildə Təhsil Nazirliyi ilə BMT İnkişaf Proqramının pilot layihəsi çərçivəsində bu fənnin tədrisi Bakının 25 orta məktəbində həyata keçirilməyə başlanmışdı. 2002-ci ildə layihənin uğurlu nəticələri nəzərə alınaraq, əhatə dairəsi genişlənmiş, 2003-cü ildə fakültativ məşğələ kimi bütün orta məktəblərin proqramına daxil edilmiş, müvafiq proqram və dərs vəsaiti hazırlanmışdır.









Təhsil Nazirliyi və Qlobal Fondun birgə layihəsi çərçivəsində hazırlanmış və çap edilmiş tədris vəsaitləri

Hazırda bu kurs ölkənin bütün ümumtəhsil məktəblərinin X siniflərində tədris olunur. Bu proqram və dərs vəsaiti dünyada ümumtəhsil məktəbləri üçün hazırlanmış ilk vəsaitlərdir.

Davamlı insan inkişafının tədrisinə dünyada 2005-ci ildə başlandığı halda, Azərbaycanda bu proses 1998-ci ildən başlanmışdır.

Azərbaycan Respublikasında davamlı insan inkişafının tədrisi sahəsində qəbul edilmiş konsepsiya ondan ibarət idi ki, bu fənnin tədrisi yalnız seçilmiş mütəxəssislər üçün olmayıb, ümumi təhsilin vacib elementi kimi qəbul edilirdi. Bu konsepsiyaya görə ixtisasından, təhsilin istiqamətindən və səviyyəsindən asılı olmayaraq, cəmiyyətin hər bir üzvü insanı və onun maraqlarını mərkəzə qoyan fəaliyyəti həyata keçirməyə qadir olmalı və bunun üçün müvafiq bilik və bacarıqlara yiyələnməlidir. Konsepsiyaya görə insan inkişafı sahəsində biliklər, eyni zamanda fərdi həyat tərzi, davranış üçün də vacibdir. Müasir dövrdə davamlı insan inkişafı sahəsində bilik və bacarıqlar ümumi mədəniyyətin ayrılmaz hissəsidir. Bu sahədə biliklər, eyni zamanda ümumi təhsil və tərbiyənin ən müasir istiqamətlərindən olan sosial məsuliyyətli fəaliyyət və həyat tərzi barəsində biliklərə yiyələnmək üçün də olduqca vacibdir. Bununla əlaqədar, davamlı insan inkişafı haqqında bilik və bacarığın tədrisi ümumi təhsilin tərkib hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikasında «Davamlı insan inkişafı» kursunun tədrisi dövlət siyasətinin bir hissəsi olmaqla, bu istiqamətdə həyata keçirilən proqressiv təşəbbüslər BMT tərəfindən «innovativ ideya və təsirlər» kimi qiymətləndirilmiş və müvafiq məlumat bu təşkilatın Baş Qərargahı tərəfindən üzv olan ölkələr arasında 2004, 2005 və 2006-cı illərdə dəfələrlə yayılmışdı. Azərbaycan və ABŞ tərəfindən müştərək proqram çərçivəsində dərc edilən davamlı insan inkişafına həsr olunmuş kurikulum və kursların məzmununun ingilis versiyası dünya üçün yeni olduğundan 2005-ci ildən Nyu-Yorkda BMT-nin xüsusi saytında yerləşdirilmiş və üzv ölkələrin istifadəsinə verilmişdir.

Layihə çərçivəsində «Davamlı insan inkişafı»nın ali təhsil müəssisələrində tədrisi üçün də müvafiq proqram və tədris vəsaiti hazırlanmış, 2007/08-ci tədris ilindən bu kurs ali təhsil müəssisələrinin bütün ixtisasları üzrə tədris planlarına seçmə fənn kimi daxil edilmişdir. Layihənin səmərəli həyata keçirilməsi və uğurlu nəticələrin əldə edilməsində akademik Urxan Ələkbərovun müstəsna xidmətləri olmuşdur.

BMT-nin Qlobal Fondunun «Həyati bacarıqlara əsaslanan təhsil» layihəsi. Layihə Təhsil Nazirliyi və BMT-nin Qlobal Fondu tərəfindən UNICEF-in iştirakı ilə həyata keçirilən «Azərbaycanda İİV/QİÇS-ə qarşı cavab tədbirlərinin gücləndirilməsi» layihəsi çərçivəsində reallaşdırılır. Dünya təcrübəsində geniş tətbiq olunan bu layihə Azərbaycanda 2006-cı ilin yanvarından reallaşdırılmağa başlamışdır. Ümumilikdə layihənin 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu (2006-cı il – I mərhələ, 2007–2009-cu illər – II mərhələ, 2010-cu ildən sonrakı dövr – III mərhələ).

Layihənin həyata keçirilməsi məqsədilə Təhsil Nazirliyində Milli əlaqələndirici təyin

edilmiş, Layihəni Əlaqələndirmə Qrupu yaradılmışdır. Bu işə Nazirliyin şöbə müdiri Fərzəli Qədirov rəhbərlik edir. Bu layihənin əsas məqsədlərindən biri ümumtəhsil məktəblərində «Həyati bacarıqlara əsaslanan təhsil» fakültativ kursunun tədrisidir. Müvafiq sənədlərin hazırlanması məqsədilə qabaqcıl müəllimlərdən, metodistlərdən, alimlərdən ibarət işçi qrupu yaradılmış, beynəlxalq məsləhətçi cəlb edilməklə onlar üçün 4 təlim seminarı keçirilmiş, 16 nəfər təlimçi hazırlanmışdır. Layihə çərçivəsində işçi qrupu tərəfindən beynəlxalq məsləhətçilərin iştirakı ilə «Həyati bacarıqlara əsaslanan təhsil üzrə Milli Konsepsiya» hazırlanmış, Təhsil Nazirliyinin 22.05.2006-cı il tarixli əmri ilə təsdiq edilmişdir. Konsepsiya 1000 nüsxədə çap edilərək aidiyyəti qurumlara, təhsili idarəetmə oqranlarına və məktəblərə çatdırılmışdı. Konsepsiyada həyati bacarıqlara əsaslanan təhsilə konseptual yanaşma və bu sahədə təhsil strategiyası müəyyənləşdirilmiş, şagirdlərə psixoloji, fiziologi, hüquqi, iqtisadi, sosial və ekoloji biliklərin, ünsiyyət mədəniyyəti, münaqişələri həll etmək, riskli davranışlara yol verməmək, özünü və başqalarını qiymətləndirmək, məsuliyyətli, inamlı olmaq, peşə seçə bilmək, sağlam həyat tərzi sürmək, gender və reproduktiv sağlamlıq sahələrində lazımi bilik və bacarıqların aşılanması məsələləri öz əksini tapmışdır.

Konsepsiya əsasında işçi qrupu tərəfindən I–IV, V–IX və X–XI siniflər üçün «Həyati bacarıqlara əsaslanan təhsil» kursunun Proqramları hazırlanmış, Təhsil Nazirliyinin 17.07.2006-cı il tarixli əmri ilə təsdiq edilmişdir. Proqramların hər biri ilkin mərhələdə 1000 nüsxədə çap edilərək məktəblərə paylanmışdır. Proqramda hər bir sinifdə fərdi, fərdlərarası, sosial inkişaf və sağlamlıq kateqoriyaları əhatə edilməklə konkret mövzular müəyyənləşdirilmişdir. Proqramda kursun dərs ili ərzində hər sinifdə 33 saat olmaqla tədris olunması nəzərdə tutulmuşdur.

«Həyati bacarıqlara əsaslanan təhsil» kursu məzmunu və mahiyyətinə görə unikal bir kursdur. Heç bir zaman hər hansı bir kurs ümumi təhsil pilləsinin bütün səviyyələrini və bütün siniflərini əhatə etməmişdir. Digər tərəfdən heç bir kurs məzmununa görə «Həyati bacarıqlara əsaslanan təhsil» kursu kimi inteqrativ olmamışdır. Bu cəhətlərinə görə «Həyati bacarıqlara əsaslanan təhsil» kursu xüsusi əhəmiyyət daşıyır və təhsil tariximizdə ilk təcrübə kimi dəyərləndirilir.

Layihə çərçivəsində nəzərdə tutulan kursun tədrisinə başlanmasında ən çətin iş müəllimlər üçün vəsaitlərin hazırlanması idi. Bununla əlaqədar işçi qrupunda çoxsaylı müzakirələr aparılmış, beynəlxalq məsləhətçilərlə aparılan diskussiyalardan, beynəlxalq təcrübə ilə tanışlıqdan sonra vəsaitlərin işlənməsinə başlanmışdı. Qısa bir müddət ərzində ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə müəllimlər üçün «Həyati bacarıqlara əsaslanan təhsil» adlı tədris vəsaiti hazırlanmış və Təhsil Nazirliyinin 03.10.2006-cı il tarixli əmri ilə təsdiq olunmuşdur. Vəsait I–IV siniflər üçün 495, V–IX siniflər üçün 607, X–XI siniflər üçün 303 səhifə həcmində olmaqla müəllim və şagirdlərin zəngin öyrənmə mənbəyinə çevrilmişdi. Tədris vəsaitlərinin hər biri Qlobal Fondun maliyyəsi və UNICEF-in texniki dəstəyi ilə 2009-cu ildə 78 min tirajla



«Həyati bacarıqlara əsaslanan təhsil» kursunun tədrisi zamanı. 2011-ci il



«Həyati bacarıqlara əsaslanan təhsil» kursu üzrə təlim zamanı. 2011-ci il

çap edilərək ölkənin bütün ümumi təhsil müəssisələrinə paylanmışdır.

Məzmununa görə inteqrativ olan bu kursun məqsədi şagirdlərə sağlam həyat tərzi və yaşamaq bacarıqlarının aşılanması, bu sahədə onlarda müvafiq bilik, bacarıq və vərdişlərin, effektiv davranış strategiyalarının formalaşdırılmasıdır. Kursun məzmununa sağlamlığın qorunması ilə yanaşı, insan hüquqları, vətəndaşlıq və digər qlobal sosial məsələlər də daxil edilmişdir. Kursun tədrisində təlimin fəal/interaktiv üsullarından istifadə edilməklə şagirdlərin qazandıqları zəruri bilik, bacarıq və vərdişləri həyatda tətbiq edə bilmək bacarıqlarının formalaşdırılması əsas məqsəd kimi müəyyənləşdirilmişdir.

Qeyd olunmalıdır ki, tədris vəsaitləri bir sıra əhəmiyyətli cəhətləri ilə fərqlənir. İlk növbədə vəsaitlərdə müasir təlim strategiyaları öz əksini tapmışdı ki, bu da müəllimlərə metodik kömək sahəsində xüsusi əhəmiyyət daşıyırdı. Digər üstünlük ondan ibarət idi ki, ilk dəfə olaraq bu vəsaitlərdə proqram üzrə tədris ediləcək hər bir mövzunun məqsədləri, dərsin mərhələləri üzrə həyata keçiriləcək tədbirlər, təlim üsulları, qiymətləndirmə mexanizmi və təlim materialının məzmunu barədə məlumatlar verilmişdi.



«Həyati bacarıqlara əsaslanan təhsil» kursu üzrə təlim zamanı. 2011-ci il

Layihə çərçivəsində Bakı şəhəri 5, 151, 191№-li məktəblər, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Heydər Əliyev adına lisey, Sumqayıt şəhəri 1, 3, 5, 8, 10, 12, 14, 15, 16, 18, 21, 23, 27, 29, 30, 31, 33, 37, 38, 39№-li məktəblər «Həyati bacarıqlara əsaslanan təhsil» kursunun tədrisi üzrə pilot məktəblər kimi müəyyənləşdirilmiş, 2006/07-ci tədris ilindən həmin təhsil müəssisələrinin I–XI siniflərində kursun eksperiment şəklində tədrisinə başlanmışdı.

2007/08-ci tədris ilində bu məktəblərin sayı 400-ə çatdırılmış, 2008/09-cu tədris ilində isə ölkənin bütün ümumtəhsil məktəblərini əhatə etmişdir.

«Həyati bacarıqlara əsaslanan təhsil» kursunun tədrisi sahəsində həll edilməli əhəmiyyətli məsələlərdən biri də bu kursu tədris edəcək müəllimlərin hazırlanması idi. Ümumilikdə layihə çərçivəsində on mindən çox müəllim treninqlərdən keçirilmiş, müvafiq sertifikatlar alaraq kursun tədrisinə başlamışdır.

BMT-nin Ümumdünya Ərzaq Proqramı (ÜƏP). Proqramın məqsədi məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə ibtidai məktəb şagirdlərinin qeydiyyatı və davamiyyətinin artırılması idi. «Təhsilə görə ərzaq proqramı» 2003-cü ilin yanvar ayında başlanmışdı. İlk illərdə Proqram çərçivəsində Azərbaycanın 10 rayonunun 98 məktəbində təhsil alan 5300 şagird ərzaq səbətinin «evə aparma» rasionu ilə təmin olunmuşdu. ÜƏP-in bu təşəbbüsünün uğurlu nəticələri nəzərə alınaraq təhsil müəssisələrində şagirdlərin davamiyyətinin yaxşılaşdırılması ilə əlaqədar proqram 2006-cı ilin iyul ayında daha 2 il müddətinə uzadılmışdı. 2006–2008-ci illərdə 13 min məcburi köçkün şagirdə ərzaq yardımının davam etdirilməsi, «Təhsilə görə ərzaq proqramı»nın genişləndirilərək məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə təxminən 500 məktəbi və 60 min ibtidai sinif şagirdini əhatə etməsi nəzərdə tutulmuşdu. Proqram 10 rayon üzrə 167 məktəbdə 12 min şagirdi əhatə etdi. Sonrakı illərdə Azərbaycanın iqtisadi imkanları artdığından məcburi köçkünlərin sosial problemlərinin həlli Azərbaycan hökuməti tərəfindən həll edilməyə başlandı. Bu səbəbdən də ÜƏP çərçivəsində məcburi köçkün şagirdlərin ərzaq təminatına ehtiyac qalmadı.

Proqram çərçivəsində müəyyənləşdirilmiş məktəblərdə məktəb direktorları, ibtidai sinif müəllimləri və VMA (Valideyn-Müəllim Assosiasiyası) üzvləri üçün 2006-cı ilin oktyabr–noyabr aylarında təlimlər də keçirilmişdi.

Təhsil sahəsində beynəlxalq əlaqələr dünyada mövcud olan qabaqcıl təlim təcrübələrinin tətbiqinə geniş imkanlar açmaqla yanaşı, ölkədə təhsilin keyfiyyət səviyyəsinin digər inkişaf etmiş ölkələrlə müqayisəsinə, beynəlxalq təhsil məkanına uğurlu inteqrasiyaya, rəqabətqabiliyyətli təhsil sisteminin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Təhsil sahəsində beynəlxalq əlaqələr sahəsində həyata keçirilən tədbirlərə Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, 2011-ci ilin sentyabr ayından nazir müavini vəzifəsinə təyin edilmiş Qulu Novruzov rəhbərlik edir.

IV FƏSİL

MƏKTƏBDƏNKƏNAR TƏHSİL

Məktəbdənkənar təhsil müəssisələri dövlətin təhsil sisteminin tərkib hissələrindən biridir. Məktəbdənkənar təhsil müəssisələrinin əsas vəzifəsi uşaq və gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməklə yanaşı, onların maraq, meyil və bacarıqlarını, intellektual səviyyələrini, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir. Buna görə də məktəbdənkənar müəssisələrdə uşaqların yaradıcılıq tələbatlarının təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili üçün əlverişli şəraitin olması vacibdir.

4.1. Məktəbdənkənar təhsilin vəziyyəti

Müstəqillik ərəfəsində ölkəmizdəki qeyri-sabitlik bütün sahələrdə olduğu kimi, məktəbdənkənar müəssisələrin də fəaliyyətinə öz mənfi təsirini göstərdi. Bu illər ərzində məktəbdənkənar müəssisələrin iş ritmi pozulmağa başladı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 1991-ci il tarixli qərarı ilə Yuri Qaqarin adına Bakı şəhər Uşaq-Gənclər Yaradıcılıq Sarayının adı dəyişdirilərək Tofiq İsmayılov adına Bakı şəhər Uşaq-Gənclər Yaradıcılıq Sarayı adlandırıldı. Sarayın nəzdində Uşaq Dünyası Rəsm Qalereyası və Uşaq Yaradıcılıq Evi fəaliyyət göstərməyə başladı.

Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində işğal olunmuş ərazilərdə təqribən 35 məktəbdənkənar müəssisə məhv edildi.

Ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin zəngin maddi-texniki bazası, təcrübəçilik sahələri, canlı guşə, sərgi salonları işğalçılar tərəfindən dağıdıldı.

İşğal nəticəsində Şuşa, Ağdam, Xankəndi, Xocavənd, Xocalı, Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan, Laçın rayonlarında fəaliyyət göstərən idman məktəblərinə böyük ziyan dəydi. İşğal olunmuş ərazilərdə məktəbdənkənar müəssisələrə aid 1 yeni tipli idman kompleksi, 4 yeni tipli ikimərtəbəli inzibati bina, 7 yeni tipli birmərtəbəli inzibati bina, 6 uyğunlaşdırılmış inzibati bina, 1 stolüstü tennis zalı, 1 üzgüçülük hovuzu, 1 güləş zalı, 2 oyun zalı, 3 idman zalı, 1 futbol meydançası, 2 voleybol meydançası, 1 basketbol meydançası erməni işğalı altında qaldı.

Bu illər ərzində Cəbrayıl, Kəlbəcər, Beyləqan, İmişli, Biləsuvar, Ağdərə, Xocavənd, Xankəndi və Şuşa rayonlarının texniki yaradıcılıq mərkəzləri bağlandı. İşğal olunmuş şəhər və rayonlarımızda fəaliyyət göstərən bir sıra məktəbdənkənar müəssisələr isə məcburi köçkün düşərək respublikanın şəhər və rayonlarında məskunlaşmağa məcbur oldu.

Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışından sonra məktəbdənkənar təhsil sahəsində

də islahatlar həyata keçirilməyə başlandı. 1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə «Məktəbdənkənar təhsil müəssisələrinin nümunəvi Əsasnaməsi» təsdiq olundu. Bu Əsasnaməyə uyğun olaraq, məktəbdənkənar müəssisələr aşağıdakı adlarla fəaliyyət göstərməyə başladı:

1) məktəbdənkənar tərbiyə işi mərkəzi, 2) uşaq yaradıcılıq mərkəzi, 3) şagirdlərin ekoloji tərbiyə və təcrübəçilik mərkəzi, 4) texniki yaradıcılıq mərkəzi, 5) gənc turistlər və diyarşünaslıq mərkəzi, 6) uşaq-gənclər idman məktəbi, 7) uşaq-gənclərin fiziki hazırlıq klubu, 8) estetik tərbiyə mərkəzi, 9) bədii yaradıcılıq evi, 10) uşaq-rəsm qalereyası, 11) uşaq-gənclər şahmat məktəbi.

Əsasnaməyə görə, bu müəssisələrdə uşaq, yeniyetmə və gənclərin yüksək biliyə malik, dövlətçiliyə sədaqətli, vətənpərvər, milli-mənəvi dəyərlərimizə dərin hörmət və ehtiram ruhunda tərbiyə olunmaları, onların mənəvi, fiziki, ekoloji, hüquqi, estetik tərbiyəsinin, bədii və texniki yaradıcılıq qabiliyyətlərinin istiqamətləndirilməsi və inkişaf etdirilməsi ilə əlaqədar məqsədyönlü işlər görüldü.

Uşaq Parkının bazasında Bakı Şəhər Məktəbdənkənar Tərbiyə İşi Mərkəzi yaradıldı.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 oktyabr 1994-cü il tarixli əmri ilə Gənc Texniklər Stansiyasının Texniki Yaradıcılıq Mərkəzi, 21 may 1997-ci il tarixli əmri ilə «Ehtiyat Əmək Qüvvələri» Könüllü İdman Cəmiyyəti bazasında «Təhsil» Respublika İdman Mərkəzi yaradıldı.

4.2. Ekoloji tərbiyə və təcrübəçilik mərkəzləri

42.	İsmayıllı	105	1575	32	105	1575	32	105	1575	32	105	1575	32	91	1365	60
43.	Şirvan	100	1297	29	100	1297	40	100	1297	40	100	1280	64	72	824	61
44.	Göyçay	66	990	36	69	1020	37	74	1110	37	74	1110	34	74	1110	30
45.	Yardımlı	25	380	15	30	450	15	25	377	14	25	386	15	25	378	14
46.	Qəbələ	21	1214	33	80	1135	35	62	900	27	62	927	34	62	930	14
47.	Salyan	148	2220	50	148	2220	48	148	2220	46	148	2220	55	123	1845	48
48.	Bakı	349	4083	109	495	6248	169	582	7112	207	618	8041	237	573	7268	192
49.	Yevlax	18	240	12	17	238	18	37	524	21	48	552	17	51	542	17
50.	Cəlilabad	64	923	38	104	1372	60	214	2620	89	214	2633	87	200	2671	72
51.	Lənkəran	84	1240	47	71	1074	55	85	1310	59	85	1317	60	85	1300	75
52.	Respublika Texniki Yaradıcılıq Mərkəzi	44	610	22	60	815	24	65	850	32	68	816	34	114	1405	51
Cəmi:		**3463**	**47455**	**1366**	**4077**	**54440**	**1642**	**4570**	**57332**	**1899**	**4737**	**59003**	**1989**	**4166**	**56000**	**1958**

Qeyd: Naftalan Şəhər Texniki Yaradıcılıq Mərkəzi 2008/09-cu tədris ilindən fəaliyyətini dayandırmışdır. Sədərək Rayon Texniki Yaradıcılıq Mərkəzi 1997/98-ci tədris ilindən fəaliyyətə başlamışdır.

Respublika Texniki Yaradıcılıq Mərkəzində fəaliyyət göztərən Radiorabitə klubunun bu sahədəki fəaliyyəti xüsusi təqdir olunmalıdır. Klubun üzvləri dünyanın 120-dən çox ölkəsi ilə radiorabitə əlaqəsi qurmuş, Avropa və Asiya ölkələrinin təşkil etdikləri bir çox yarışlarda müvəffəqiyyətlə iştirak etmişlər.

Belə yarışların nəticələrinə görə 2000-ci ildə dünya üzrə 10000-dən çox iştirakçı arasında keçirilən yarışlarda klubun komandası VIII yerə, 2001-ci ildə Asiya ölkələri arasında IV yerə, 2002-ci ildə isə III yerə çıxmışlar.

2001–2002-ci illərdə «Dünyaya sülh» devizi ilə keçirilən yarışda mərkəzin «Viktoriya» radioekspedisiyası diploma layiq görülmüşdür.

ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Rusiya, Ukrayna, Hollandiya və Türkiyədən Azərbaycana qonaq gəlmiş – həvəskar radiorabitəçilər mərkəzin radiorabitə klubunda olmuş, klubun işini yüksək qiymətləndirmişlər.

2002-ci ildə Yaponiyanın «Radiohəvəskarlar cəmiyyəti» jurnalının 18 yaşa qədər olan 20000 üzvü arasında keçirdiyi yarışlarda mərkəzin radiorabitə klubunun 13 yaşlı üzvləri iştirak etmiş və diplomla təltif edilmişlər.

İkinci Dünya müharibəsində qələbənin 65-ci ildönümünə həsr edilmiş «Qələbə-65» radioekspedisiyasında mərkəzin Həzi Aslanov adına radioklubunun üzvləri beynəlxalq estafetə qoşularaq dünyanın 85 ölkəsi ilə 1200 radiorabitə əlaqəsi yaratmış, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov haqqında məlumatları dünyaya yaymışlar.

2009-cu ildə mərkəzin binası əsaslı təmir edilmiş, elektron vasitələrlə və digər avadanlıqlarla təchiz edilmişdir.

12 aprel 2010-cu il tarixdə Bakı şəhərində Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin və Azərbaycan Həmkarlar Konfederasiyasının birgə qərarı ilə uşaq və yeniyetmələrin elmi-texniki yaradıcılıq müsabiqəsi keçirilmişdir. Müsabiqənin keçirilməsində əsas məqsəd uşaqlarda texniki ixtisas sahələrinə marağın artırılması, yaradıcılıq və ixtiraçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi idi.

Müsabiqə texniki yaradıcılığın 5 növü üzrə 15 nominasiyada keçirilmiş, qaliblər Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının diplom və hədiyyələri ilə mükafatlandırılmışlar. Texniki yaradıcılıq mərkəzlərində avtomodel, gəmi, təyyarə və raket modelçiliyi, radiorabitə və dizayn dərnəkləri fəaliyyət göstərir.

Texniki yaradıcılıq mərkəzlərinə kömək məqsədilə gənc dizayner, texniki ekologiya, cizgi filmləri, kimya-texnologiya dərnəkləri üçün tematik planlar, kimya-texnologiyaya aid əyani vəsaitlər, kiçikyaşlı məktəblilər üçün avia, gəmi modellərinin hazırlanma texnologiyası, radio həvəskarlara kömək, gənc texniklərin oyunları, məktəblilərlə elektrotexnikaya dair məşğələlər üzrə tematik plan və tövsiyələr hazırlanmışdır.

Respublika Texniki Yaradıcılıq Mərkəzi tərəfindən aşağıdakı metodiki tövsiyələr hazırlanıb çap edilmişdir:

1. İbtidai sinif şagirdlərinə texniki konstruktorluq elementlərinin öyrədilməsi. Bakı, 2001-ci il;
2. WINDOWS-95-in xüsusiyyətləri. Bakı, 2003-cü il;
3. Alt proqramlar. Bakı, 2003-cü il;
4. Fayl sistemi. Bakı, 2003-cü il;
5. Təyyarə modellərinin hazırlanması. Bakı, 2003-cü il;
6. Radio ilə idarə olunan avtomodellərin hazırlanması. Bakı, 2003-cü il;
7. Yumşaq oyuncaqların hazırlanması. Bakı, 2007-ci il;
8. Kiçikyaşlı məktəblilər tərəfindən sadə uçan modellərin hazırlanması. Bakı, 2007-ci il.

4.6. Gənc turistlər və diyarşünaslıq mərkəzləri

Ölkəmizin tarixinin və təbiətinin öyrənilməsində, respublikamızda turizmin inkişafı sahəsində görülən işlərdə Gənc turistlər və diyarşünaslıq mərkəzlərinin də öz payı vardır. Gənc turistlər və diyarşünaslıq mərkəzlərində diyarşünaslıq, idman-turizm, tədqiqatçılıq profilli dərnəklər mövcuddur.

Azərbaycan – Türkiyə Müştərək Iqtisadi Komissiyasının qərarı və «Azərbaycan Respublikasının 2002–2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı» çərçivəsində «Babaların tarixi zəfər və şəhadət yolu» layihəsinin hazırlanması və həyata keçirilməsində mərkəzlər yaxından iştirak edir.

Təhsil Nazirliyinin tabeliyində olan Gənc Turistlər və Diyarşünaslıq Mərkəzlərində qruplar, şagirdlər və müəllimlər haqqında məlumat

№	Rayonlar	1991–1992			1993–1997			1998–2004			2005–2008			2009–2010		
		Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
1.	Respublika Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi	20	300	12	40	600	28	80	1200	40	119	1785	40	152	2280	74
2.	Mingəçevir Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi	23	320	8	23	320	8	23	345	8	23	345	8	23	345	8

Son illərdə gənc turistlər və diyarşünaslıq mərkəzlərinə kömək məqsədilə aşağıdakı metodiki tövsiyələr hazırlanmışdır:

1. Doğma diyara ekskursiya (soraq kitabçası). Bakı, 2002;
2. Məktəbdənkənar tərbiyə və təhsil müəssisələrinin turizm və diyarşünaslıq profilli dərnəklərinin nümunəvi tematik planları. Bakı, 2003;
3. Məktəblilərə çoxgünlük yürüşlərin təşkili. Bakı, 2003;
4. Məktəblilərin yay-sağlamlıq düşərgələrində turizm – diyarşünaslıq və ekskursiya işinin təşkili və keçirilməsi üçün metodik tövsiyə. Bakı, 2003;
5. Ümumtəhsil məktəblərində turizm-diyarşünaslıq işinin planlaşdırılması. Metodik tövsiyə. Bakı, 2003;
6. Məktəb düşərgələrində turizm-diyarşünaslıq və ekskursiya işlərinin şəhərtipli təşkili və keçirilməsi haqqında metodik məsləhətlər. Bakı, 2003;
7. Məktəbdənkənar müəssisələrdə turizm və diyarşünaslıq üzrə dərnək rəhbərləri üçün metodik tövsiyə. Bakı, 2003;
8. Atəşgah məbədinə ekskursiya. Bakı, 2003;
9. Məktəb diyarşünaslıq müzeyi təşkilatçılarına kömək (məktəb diyarşünaslıq muzeyinin təşkili üçün metodik göstərişlər). Bakı, 2003;
10. Azərbaycan şifahi xalq nümunələrinin gənc diyarşünaslıq üçün əhəmiyyəti. Bakı, 2003;
11. «Azərbaycanı sev və öyrən» turist-diyarşünaslıq ekspedisiyası. Qobustan – tarixin canlı yaddaşı. Bakı, 2003;
12. Turist-diyarşünaslıq dəstəsinin gündəliyi və yol jurnalı necə olmalıdır. Bakı, 2003;
13. Turist avadanlığından istifadə metodikası. Bakı, 2003;
14. Azərbaycan Respublikası ərazisində olan dövlət təbiət qoruq və yasaqlıqları, onların eko-turizmdə əhəmiyyəti. Bakı, 2006;
15. Qədim mədəniyyətin izi ilə. Bakı, 2007;
16. «Ekoloji tərbiyənin vəziyyəti və onu daha da genişləndirmək yolları» (metodik tövsiyə) Bakı, 2007;
17. «Turizmin tarixini öyrənirik» (metodik tövsiyə) Bakı, 2007.

4.7. Uşaq yaradıcılıq və tərbiyə işi mərkəzləri

Uşaq yaradıcılıq mərkəzləri çoxprofillidir. Bu mərkəzlərdə təsviri sənət, biçmə-tikmə, kulinariya dərnəkləri ilə yanaşı ekoloji, idman, texniki yaradıcılıq, turizm, incəsənət yönümlü dərnəklər də fəaliyyət göstərir.

Bakı şəhər 46№-li Məktəbdənkənar Tərbiyə İşi Mərkəzi davamlı olaraq «Vətənpərvərlik və hərbi vətənpərvərlik», «Debat vətəndaş cəmiyyətində», «Demokratiyanın tədrisi», «İnsan hüquqlarının tədrisi», «Sağlam həyat tərzi», «Bakı məktəblilərinin parlamenti», «Bakı məktəblilərinin debat klubu» «Bakı məktəblilərinin intellekt klubu», «Bakı məktəblilərinin şən və hazırcavablar klubu», «Bakı məktəblilərinin debat və nağıl klubu», «Yol hərəkəti qaydaları», «Uşaq təhlükəsizliyi» proqramlarını və layihələrini həyata keçirir.

Təhsil Nazirliyinin tabeliyində olan uşaq yaradıcılıq mərkəzlərində qruplar, şagirdlər və müəllimlər haqqında məlumat

№	Rayonlar	1991–1992			1993–1997			1998–2004			2005–2008			2009–2010		
		Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
1.	Tovuz	56	840	30	56	840	32	56	840	38	56	840	41	56	850	26
2.	Ucar	26	460	17	37	470	17	51	765	24	51	765	31	51	761	29
3.	Bərdə	68	1048	26	65	961	30	61	864	29	61	1020	29	61	1020	30
4.	Ağcabədi	36	555	19	36	398	15	36	449	15	36	537	18	36	544	19
5.	Gədəbəy	54	825	18	87	1290	29	116	1740	39	119	1785	43	119	1785	46
6.	Tərtər	28	336	13	30	360	15	33	396	18	36	396	25	33	396	25
7.	Şəki	69	1035	66	147	2205	78	128	1920	77	128	1920	63	128	1920	70
8.	Astara	40	600	19	40	600	19	120	180	50	250	3750	82	85	1275	55
9.	Qax	58	860	30	61	890	39	61	890	29	61	911	30	61	908	29
10.	Kürdəmir	62	930	22	65	935	23	65	975	23	65	975	23	68	1010	25
11.	Naxçıvan	203	2500	64	203	2500	64	203	2500	6	192	2085	70	192	2085	70
12.	Şahbuz	48	678	21	48	674	21	48	671	20	36	520	17	36	510	17
13.	Ordubad	30	361	11	27	345	10	33	375	13	33	375	12	30	361	13
14.	Sədərək	40	4630	24	40	426	22	40	430	25	25	262	17	25	262	16
15.	Babək	29	439	23	49	735	20	64	960	28	35	525	14	35	525	14
16.	Kəngərli	–	–	–	–	–	–	–	–	–	25	375	14	25	375	14
17.	Culfa	48	624	26	48	611	29	48	614	24	40	553	18	40	558	20
18.	Xaçmaz	70	1061	36	70	1133	46	70	1107	47	70	1160	50	70	1075	51

№	Rayonlar	1991–1992			1993–1997			1998–2004			2005–2008			2009–2010		
		Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllimlərin sayı
19.	Gəncə	200	3200	78	200	3200	77	197	2925	77	195	2925	84	190	2850	81
20.	Balakən	48	959	27	62	889	27	62	992	22	62	992	25	62	992	27
21.	Saatlı	34	505	20	60	900	26	62	930	30	62	930	33	45	668	24
22.	Goranboy	24	340	14	36	548	15	36	613	18	42	632	21	41	690	21
23.	Qazax	250	3750	90	250	3750	90	250	3750	54	150	2250	54	93	1377	52
24.	Sabirabad	46	599	16	56	840	23	56	844	20	56	705	52	56	326	22
25.	Şabran	80	1200	50	88	1332	41	61	927	34	61	927	37	61	927	37
26.	Naftalan	27	405	18	24	360	22	24	360	11	24	360	11	42	582	23
27.	Xızı	–	–	–	–	–	–	45	675	11	45	675	11	45	675	11
28.	Samux	30	450	19	60	450	21	30	450	25	360	450	25	30	450	27
29.	Beyləqan	120	1800	45	159	2385	53	159	2380	57	159	2381	62	159	238	75
30.	Zaqatala	38	420	20	68	884	35	10	1400	42	100	1400	42	100	140	45
31.	Göygöl	27	420	14	30	451	16	21	326	12	41	615	19	41	615	16
32.	Quba	50	750	22	187	2563	56	32	1530	32	2	1505	41	102	1507	45
33.	Hacıqabul	101	1470	32	114	1710	37	1232	1750	36	123	1755	34	108	1477	29
34.	Oğuz	29	420	11	35	420	18	42	513	19	42	615	23	37	535	21
35.	Füzuli	159	2385	43	156	2340	53	192	2880	62	219	2720	72	184	1980	80
36.	Zərdab	19	384	16	40	617	26	25	375	24	29	435	24	32	480	28
37.	Ağdaş	68	1020	24	34	495	25	31	465	17	31	465	19	59	885	35
38.	Qubadlı	24	360	20	40	360	26	40	360	21	40	600	27	70	1050	42
39.	Abşeron	36	657	22	34	510	17	34	657	17	34	606	17	34	608	19
40.	Şəmkir	60	900	36	68	1020	66	99	1440	40	96	1440	40	90	1350	40
41.	Ağstafa	155	2325	48	155	2325	58	168	2520	62	171	2368	61	171	2485	85
42.	Neftçala	99	1300	60	99	1350	62	99	1460	53	99	1473	55	99	1469	65

№	Rayonlar	1991–1992			1993–1997			1998–2004			2005–2008			2009–2010		
		Qrupların sayı	Şagirdlərin sayı	Müəllim-lərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllim-lərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllim-lərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllim-lərin sayı	Qrupların sayı	Şagirdlərin sayı	Müəllim-lərin sayı
43.	Ağsu	22	330	18	68	950	39	89	1335	56	59	841	42	105	1490	69
44.	Qusar	101	991	45	169	1015	51	175	1127	59	175	1360	71	176	1171	80
45.	İmişli	222	1519	23	184	2114	45	104	1422	31	104	1192	37	94	41080	32
46.	Daşkəsən	41	615	17	41	615	14	41	615	12	41	615	13	41	615	13
47.	Siyəzən	24	360	2	52	750	3	52	764	3	52	780	3	52	765	3
48.	Masallı	34	476	16	34	478	16	54	556	16	63	886	18	63	914	18
49.	Mingəçevir	79	846	21	79	1034	79	920	24	79	1071	23	79	79	1109	27
50.	İsmayıllı	60	902	35	60	907	32	60	902	30	60	903	32	70	1050	39
51.	Göyçay	800	1200	32	80	1200	33	80	1200	36	80	1200	38	80	1200	38
52.	Yardımlı	30	450	13	30	450	17	30	450	17	30	450	18	30	450	18
53.	Qəbələ	63	945	15	63	945	33	63	945	34	63	945	33	63	945	35
54.	Şirvan Estetik Tərbiyə Mərkəzi	–	–	–	59	770	27	95	1099	48	95	1234	62	85	1384	64
55.	Salyan	109	1635	38	109	1635	43	109	1635	45	109	1635	56	104	1560	54
56.	Bakı	1063	12671	399	1939	25410	820	1258	16309	347	1182	13446	397	1235	16101	414
57.	Yevlax	94	965	35	96	989	36	98	1003	39	119	1415	43	126	1891	43
58.	Cəlilabad	54	825	25	65	1124	30	65	1124	30	69	1124	43	54	1009	46
59.	Təhsil Alan Gənclərin Respublika Bədii Yaradıcılıq Evi	10	100	10	10	100	10	10	100	10	20	200	20	40	2700	20
60.	Lənkəran	88	1360	68	99	1330	78	90	1350	68	90	1356	69	90	1365	69
Cəmi:		**5583**	**69991**	**2022**	**6401**	**86888**	**2805**	**7633**	**78158**	**2261**	**7044**	**77583**	**2560**	**5689**	**117375**	**2601**

Qeyd: Şirvan Şəhər Estetik Tərbiyə Mərkəzi 1993/94-cü tədris ilindən, Xızı Rayon Uşaq Yaradıcılıq Mərkəzi 2000/01-ci tədris ilindən, Kəngərli Rayon Uşaq Yaradıcılıq Mərkəzi 2004/05-ci tədris ilindən fəaliyyətə başlamışdır.

Mərkəzdə 1998-ci ildən başlayaraq Dövlət Yol Polisi ilə birgə «Yol hərəkəti qaydaları» proqramı, «Uşaqlar və yol təhlükəsizliyi layihə»sinə uyğun məşğələlər, yol-nəqliyyat hadisələrinin profilaktikası üzrə məktəb və məktəbəqədər təhsil müəssisələrinin pedaqoji heyəti üçün maarifləndirici tədbirlər həyata keçirilir.

Uşaq yaradıcılıq mərkəzlərinin Türkiyə Cümhuriyyətində keçirilən Beynəlxalq Bahar Bayramı və Çocuq Festivalı tədbirlərində iştirakları ənənə halını almışdır.

Estetik Tərbiyə üzrə Respublika Tədris-Metodik Mərkəzində rəngkarlıq, rəqs, xor, xalçaçılıq, keramika, dəmir üzərində döymə və ağac üzərində oyma studiyaları, xalq çalğı alətləri, vokal-instrumental, nağaraçalanlar ansamblları, uşaq sirki və uşaq filarmoniyası fəaliyyət göstərir. Mərkəz tərəfindən bir sıra metodik tövsiyələr hazırlanmışdır:

1. Məktəbəqədər müəssisələr üçün mahnı toplusu. Bakı, 2005;
2. Ümumtəhsil məktəb şagirdləri üçün mahnı toplusu. Bakı, 2004;
3. Məktəbəqədər və ibtidai məktəb şagirdləri üçün rəqs toplusu. Bakı, 2005;
4. Məktəbəqədər müəssisələr üçün aplikasiya albomu. Bakı, 2005;
5. Səhnələşdirilmiş nağıllar. Bakı, 2005.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli Sərəncamı ilə «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramının (2006–2010-cu illər)» icrası istiqamətində hər il aşağıdakı tədbirlər keçirilir:

– Ümumtəhsil məktəblərinin şagirdləri arasında əl işlərindən ibarət sərgi-müsabiqə;
– «Milli-mənəvi irsimiz bizim tariximizdir» olimpiadası;
– «Gənc istedadlar» viktorinası;
– «1 iyun – Uşaqların Beynəlxalq Müdafiə Günüdür»;
– «Heç həs kənarda qalmamalı»;
– «Keçmişi qoru – gələcəyi qur»;
– «Biz hamı kimiyik».

Hazırda Təhsil Nazirliyinin tabeliyində 380 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir: 83 uşaq yaradıcılıq mərkəzi, 63 texniki yaradıcılıq mərkəzi, 5 məktəbdənkənar tərbiyə işi mərkəzi, 10 gənc turistlər və diyarşünaslıq mərkəzi, 55 ekoloji tərbiyə və təcrübəçilik mərkəzi, 3 estetik tərbiyə mərkəzi, 1 bədii yaradıcılıq evi, 92 uşaq-gənclər idman məktəbi (onlardan 9-u ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbidir), 66 uşaq-gənclər şahmat məktəbi (onlardan 3-ü ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər şahmat məktəbidir), «Təhsil» Respubika İdman Mərkəzi, Respublika Bədən Tərbiyəsi Mərkəzi. Bu müəssisələrdən əlavə, Tofiq İsmayılov adına Bakı Şəhər Uşaq Gənclər Yaradıcılıq Sarayının Bakı filialı, sarayın nəzdindəki «Uşaq Dünyası» Rəsm Qalereyası, «Təhsil» Respublika İdman Mərkəzinin Bakı, Naxçıvan, Gəncə və Lənkəran filialları fəaliyyət göstərir.

Bu müəssisələrdə 12390 pedaqoji işçi, dərnək rəhbəri, məşqçi-müəllim çalışır. Dərnəklərdə 346383 şagird və tələbə məşğul olur. Uşaqlar burada ümumtəhsil məktəblərində tədris olunan fənləri daha dərindən öyrənirlər, musiqi, rəqs, estetika, bədii yaradıcılıq, ekoloji problemlər, texniki yaradıcılıq, idmanın müxtəlif növləri ilə məşğul olurlar,

sərgilər, konsertlər, festivallar təşkil edirlər, müxtəlif idman və turizm yarışları keçirirlər. Uşaq və gənclərin asudə vaxtlarının düzgün təşkili, yaradıcılıq işlərinə cəlb edilməsi onları zərərli vərdişlərdən qoruyur, cəmiyyətin sağlamlaşmasına xidmət edir.

Məktəbdənkənar təhsil müəssisələri haqqında məlumat


№	Mərkəzlərin adı	İllər üzrə			
		1991–1993	1994–1999	2000–2008	2009
1.	Məktəbdənkənar tərbiyə işi mərkəzi	10	7	6	5
2.	Uşaq yaradıcılıq mərkəzi	90	90	81	83
3.	Ekoloji tərbiyə və təcrübəçilik mərkəzi	65	59	60	55
4.	Texniki yaradıcılıq mərkəzi	69	64	66	63
5.	Gənc turistlər və diyarşünaslıq mərkəzi	10	12	11	10
6.	«Təhsil» Respubika İdman Mərkəzi	1	1	1	1
7.	Respublika Bədən Tərbiyəsi Mərkəzi	1	1	1	1
8.	Uşaq-gənclər idman məktəbi	83	87	92	91
9.	Uşaq-gənclərin fiziki hazırlıq klubu	2	2	2	1
10.	Estetik tərbiyə mərkəzi	2	2	3	3
11.	Bədii yaradıcılıq evi	1	1	1	1
12.	Uşaq-Gənclər Şahmat məktəbi	58	60	64	66

Məktəbdənkənar təhsil müəssisələri, qrupları, şagirdləri və pedaqoji heyəti haqqında məlumat

№	Müəssisələr	Sayı	Pedaqoji işçilər	Qruplar	Uşaqlar
1.	Uşaq yaradıcılıq, estetik tərbiyə, məktəbdənkənar tərbiyə işi mərkəzləri	92	3255	7409	107318
2.	Gənc turistlər və diyarşünaslıq mərkəzləri	10	307	795	11626
3.	Ekoloji tərbiyə və təcrübəçilik mərkəzləri	55	1539	3358	50370
4.	Texniki yaradıcılıq mərkəzləri	63	2142	4644	69440
5.	Uşaq-gənclər idman və şahmat məktəbləri	160	5147	8938	101629
Cəmi:		**380**	**12390**	**25144**	**340383**

Məktəbdənkənar müəssisələrdə fəaliyyət göstərən dərnək və klublar uşaqlar arasında ünsiyyətin yaranmasına, onların sağlam mənəviyyatlı vətəndaş kimi böyümələrinə kömək edir. Məktəbdənkənar təhsil müəssisələri məhz bu baxımdan ümumtəhsilin tərkib hissəsi olmaqla məktəblinin şəxsiyyət kimi formalaşmasında, onların istedad və yaradıcılıq qabiliyyətlərinin məqsədyönlü inkişaf etməsində mühüm yer tutur. Hər il ekoloji maarifləndirmə üzrə 2, texniki yaradıcılıq üzrə 9, turizm və diyarşünaslıq üzrə 2 və idmanın müxtəlif növlərini əhatə edən





İsmayıllı Rayon Uşaq Yaradıcılıq Mərkəzi əsaslı təmirdən sonra. 2010-cu il

10 nominasiya üzrə respublika yarışları və müsabiqələri, Respublika Bədən Tərbiyəsi Mərkəzi tərəfindən şagird və tələbələr arasında respublika səviyyəli turnirlər, birinciliklər, spartakiadalar keçirilir. Məktəbdənkənar təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində Təhsil Nazirliyi tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Ölkəmizdə məktəbdənkənar müəssisələrdə çalışan içşilərin əməyi layiqincə qiymətləndirilir. Hazırda Azərbaycanda 21 beynəlxalq qrossmeyster, 12 beynəlxalq dərəcəli idman ustası var. Azərbaycan dünyanın qabaqcıl şahmat ölkələrindən biridir.

Azərbaycan Respublikası Prezidentinin yeni və yeniləşən məktəbdənkənar müəssisələrin açılışında iştirakı ənənə halını almışdır. Ölkə Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin üzvü Mehriban Əliyeva Naxçıvan şəhərində, Samux, Xızı rayonunda yeni tikilən şahmat məktəblərinin, Yevlax, Şamaxı rayon şahmat məktəblərinin və İsmayıllı Rayon Uşaq Yaradıcılıq Mərkəzinin əsaslı təmirdən sonra açılışında, Ağsu şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişlər. Ağsu rayonunda Heydər Əliyev Muzey-Məktəbində Texniki Yaradıcılıq Mərkəzinin dərnək üzvlərinin əl işlərinin nümunələrinə baxış zamanı cənab Prezidentin tapşırığına əsasən muzey-məktəbin bir otağı daimi istifadə edilməsi məqsədilə Ağsu Rayon Texniki Yaradıcılıq Mərkəzinə verilmişdir.

Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən müəssisələrlə yanaşı, respublikamızda uşaqların dərsdənkənar vaxtlarının səmərəli təşkili ilə Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən 234 musiqi məktəbində 70540 şagirdlə 15574 müəllim, Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən 28 uşaq-gənclər idman məktəbində 11130 uşaq və gənclə 499 məşqçi-müəllim, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzvü olan AHİTA-nın 20 uşaq-gənclər idman məktəbində 5961 uşaq və gənclə 262 məşqçi-müəllim məşğul olur. Eyni zamanda uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bir sıra idman cəmiyyətləri, idman klubları, idman-sağlamlıq mərkəzləri, mədəniyyət sarayları məşğul olur.

VFƏSİL

İLK PEŞƏ-İXTİSAS TƏHSİLİNİN İNKİŞAFI

Sovetlər birliyinin dağılması, Ermənistanın Azərbaycana təcavüzü digər sahələrdə olduğu kimi, texniki peşə təhsili sahəsində də bir sıra ciddi problemlər yaratdı. Müstəqilliyin ilk illərində Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində torpaqlarımızın 20%-nin işğal edilməsi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, ölkədə siyasi sabitliyin pozulması, iqtisadiyyatın bütün sahələrini bürümüş böhran, maliyyə çətinlikləri, bazar iqtisadiyyatına keçidlə bağlı problemlər, dövlət müəssisələrinin fəaliyyətinin dayandırılması texniki peşə təhsili sistemini dağılmaq təhlükəsi qarşısında qoymuşdu.

1990–1995-ci illərdə Azərbaycanda texniki peşə təhsili sisteminin vəziyyəti

İllər	Müəssisələrin sayı	Təhsilalanların sayı	Şagird qəbulu	Şagird buraxılışı	Ümumi işçilərin sayı	O cümlədən müəllimlər	İstehsalat təlimi ustaları
1990	176	82188	54200	54700	13900	3465	4503
1991	167	75300	45200	49100	13971	3300	4220
1992	169	64700	37000	43800	13243	3178	4238
1993	167	53800	26300	34100	14086	3380	4507
1994	162	42300	21600	28600	11747	2819	3759
1995	160	27700	13300	25900	10902	1994	2488

Cədvəldən göründüyü kimi, müstəqilliyin ilk illərində məktəblərin sayı 176-dan 160-a enmiş, şagirdlərin sayı 4 dəfəyə, öyrədilən peşələrin sayı isə 2 dəfəyə qədər azalmışdır.

İqtisadiyyatda gedən struktur dəyişikliyi, dövlət müəssisələrinin özəlləşdirilməsi və fəaliyyətini dayandırması, fəhlə kadrlarına olan tələbatın kəskin şəkildə azalması, emalatxana, tədris kabinetləri və laboratoriya avadanlıqlarının köhnəlməsi və sıradan çıxması, mövcud təhsil müəssisələrinin şəbəkəsi ilə bazar münasibətləri şəraitində fəhlə kadrları hazırlığının səviyyəsi arasında uyğunsuzluq texniki peşə təhsilinin nüfuzuna ciddi təsir etmiş, cəmiyyət tərəfindən bu təhsil pilləsinə olan marağı xeyli azaltmışdı.

Təhsil sisteminin vacib tərkib hissəsi olan texniki peşə təhsili sisteminin də milli ənənələr və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması baxımından «Azərbaycan Republikasında peşə təhsili sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 1996-cı il tarixli qərarının mühüm əhəmiyyəti oldu.

Həmin qərarla texniki peşə təhsili sisteminin əsas istiqamətləri müəyyənləşdirildi, peşə tədris müəssisələrinə **«peşə məktəbi»**

(peşə məktəbində təhsil müddəti əsas təhsil bazasından 2 il, orta təhsil bazasından isə 1 ildir. Peşə məktəbində orta təhsil verilmir) və **«peşə liseyi» (peşə liseyində təhsil müddəti əsas təhsil bazasından 3–4 il ərzində nisbətən mürəkkəb peşələr öyrədilməklə yanaşı, onlara orta təhsil də verilir)** statusu verildi, kadr hazırlığı aparılan peşələrin siyahısı təsdiq edildi, maddi-texniki bazası zəif olan təhsil müəssisələrinin fəaliyyəti dayandırıldı və ya digər peşə məktəbləri ilə birləşdirildi. Qərarda göstərilirdi: «Bazar münasibətlərinə keçid, iqtisadiyyatda gedən struktur dəyişiklikləri, özəlləşdirmə, müəssisələrin fəhlə kadrlarına olan tələbatının azalması, maliyyə çətinlikləri və bəzi fəhlə peşələrinin öz əhəmiyyətini itirməsi nəticəsində son illərdə respublikanın peşə məktəblərində şagirdlərin sayı təxminən 4 dəfə, peşələrin sayı isə 2 dəfə azalmışdır. Bir sıra peşə təhsili müəssisələrinin emalatxana, tədris kabinetləri və laboratoriyaları dağıdılmış, mövcud olan avadanlıqlar və texnika isə yararsız vəziyyətə düşmüşdür. Respublikanın bir sıra şəhər və kənd rayonlarında müasir tələblərə cavab verməyən, maddi-texniki bazası zəif olan, ehtiyac nəzərə alınmadan kadr hazırlayan peşə məktəbləri fəaliyyət göstərməkdə davam edir. Peşə tədris müəssisələrinin şəbəkəsi və fəhlə kadrları hazırlığı ilə respublika iqtisadiyyatının bazar münasibətləri şəraitində inkişaf etdirilməsi arasında uyğunsuzluq yaranmışdır».

Peşə təhsili sisteminin Təhsil Qanununa müvafiq olaraq yenidən qurulması və təkmilləşdirilməsi, ixtisaslı fəhlə kadrları hazırlığının bazar iqtisadiyyatının inkişafı ilə uyğunlaşdırılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin verdiyi qərarda aşağıdakı məsələlər öz əksini tapmışdı:

– Peşə məktəbi və peşə liseyinin nümunəvi əsasnaməsinə uyğun olaraq, Təhsil Nazirliyinin təqdim etdiyi «Peşə məktəbi və peşə liseyi statusu verilən tədris müəssisələrinin siyahısı», «Ləğv edilən peşə məktəblərinin siyahısı», «Birləşdirilən peşə məktəblərinin siyahısı», «Peşə məktəbi və peşə liseylərində ixtisaslı fəhlə kadrlarının hazırlanması üçün peşələrin siyahısı»nın təsdiq edilməsi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən ləğv edilən və birləşdirilən peşə məktəbləri şagirdlərinin təhsillərini başa çatdırması və sərbəst qalan işçilərin ixtisaslarına uyğun işlə təmin edilməsi üçün tədbirlər görülməsi;

– Azərbaycan Respublikası Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, sahə nazirlikləri tərəfindən konsern və baş idarələrlə birlikdə iqtisadiyyatın inkişaf istiqamətlərinə, özəlləşdirmə ilə əlaqədar yaranacaq tələbata, əmək bazarında fəhlə kadrlara olan ehtiyacın strukturuna və onun proqnozuna uyğun olaraq, peşə təhsili sisteminin təkmilləşdirilməsinin təmin edilməsi.

– Azərbaycan Respublikası Təhsil Nazirliyinə tapşırılmışdı ki:

– peşə tədris müəssisələrində dövlət sifarişi ilə yanaşı, təsərrüfat hesablı kadr hazırlığını genişləndirsin və tədricən ayrı-ayrı peşə məktəblərinin qismən özünümaliyyələşdirməyə keçməsini təmin etsin;

– peşə məktəbi və peşə liseylərinin imkanlarından istifadə etməklə tədris-istehsalat emalatxanalarında və təlim təsərrüfatlarında məhsul istehsalını və satışını artırsın.

Maliyyə Nazirliyi ilə birlikdə peşə məktəbi və peşə liseylərinin digər hüquqi şəxslərlə ortaq istehsal müəssisələri yaratmaq mexanizmini hazırlasın, həmin istiqamətdə əldə edilən vəsaitin bu müəssisələrin maddi-texniki bazasının genişləndirilməsinə, işçilərin və şagirdlərin sosial müdafiəsinin möhkəmləndirilməsinə sərf edilməsi ilə bağlı təlimatlar hazırlasın.

– Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən peşə məktəblərinin Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə keçməsi barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Maliyyə Nazirliyi tərəfindən razılaşdırılmış təklif verilməsi;

– 1997– 2000-ci illərdə peşə məktəbləri və peşə liseylərini ixtisas, ümumtexniki və sosial-humanitar fənlər üzrə dərslik və dərs vəsaitləri ilə təmin etmək üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi tərəfindən lazımi konkret tədbirlər görülməsi;

– İslah-əmək müəssisələri nəzdində olan peşə məktəblərinin tədris-maddi bazasının möhkəmləndirilməsi və kadr hazırlığının keyfiyyətcə yaxşılaşdırılması üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Təhsil Nazirliyi tərəfindən lazımi tədbirlər həyata keçirilməsi;

– Abşeron, Astara, Babək, Quba, Qusar, Dəvəçi (Şabran–red.), Zaqatala, Gədəbəy, Lerik, Ucar və Şahbuz rayonlarında inşası dayandırılmış peşə məktəbi obyektləri haqqında Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyinin birlikdə təklif verməsi.

Qərarda, həmçinin yerli icra hakimiyyəti orqanlarının təlim təsərrüfatı olmayan kənd təsərrüfatı profilli peşə məktəbi və peşə liseylərinə mövcud qaydada torpaq sahəsinin ayrılması məsələsini həll etmək də tapşırılmışdı.

Peşə liseyi statusu verilən tədris müəssisələri

№	Peşə liseyləri	Məktəbin əvvəlki №-si
Naxçıvan Muxtar Respublikası üzrə		
1.	Naxçıvan Peşə Liseyi	163
2.	Şərur Peşə Liseyi	121
Bakı şəhəri üzrə		
3.	Bakı Kompyuter Liseyi	
4.	Azərbaycan Dövlət Dəmir Yolu Liseyi	
5.	1№-li Bakı Peşə Liseyi	29
6.	2№-li Bakı Peşə Liseyi	22
7.	3№-li Bakı Peşə Liseyi	3
8.	4№-li Bakı Peşə Liseyi	19
9.	5№-li Bakı Peşə Liseyi	31
10.	6№-li Bakı Peşə Liseyi	54
11.	7№-li Bakı Peşə Liseyi	56
12.	8№-li Bakı Peşə Liseyi	61
13.	9№-li Bakı Peşə Liseyi	67
14.	10№-li Bakı Peşə Liseyi	11
15.	11№-li Bakı Peşə Liseyi	68
16.	12№-li Bakı Peşə Liseyi	74
17.	13№-li Bakı Peşə Liseyi	79
18.	14№-li Bakı Peşə Liseyi	80
19.	15№-li Bakı Peşə Liseyi	82
20.	16№-li Bakı Peşə Liseyi	190
Gəncə şəhəri üzrə		
21.	1№-li Gəncə Peşə Liseyi	9
22.	2№-li Gəncə Peşə Liseyi	27
23.	3№-li Gəncə Peşə Liseyi	77

Sumqayıt şəhəri üzrə		
24.	1№-li Sumqayıt Peşə Liseyi	7
25.	3№-li Sumqayıt Peşə Liseyi	45
26.	10№-li Sumqayıt Peşə Liseyi	2 və 4
Respublikanın rayonları üzrə		
27.	Salyan Peşə Liseyi	104
28.	Xaçmaz Peşə Liseyi	92
29.	Abşeron Binə Peşə Liseyi	101
30.	Abşeron Ceyranbatan Peşə Liseyi	147
31.	Quba Peşə Liseyi	103
32.	Bərdə Peşə Liseyi	105
33.	Göyçay Peşə Liseyi	106
34.	Şəmkir Peşə Liseyi	107
35.	Cəlilabad Peşə Liseyi	108
36.	Saatlı Peşə Liseyi	184
37.	Lənkəran Peşə Liseyi	113
38.	Kürdəmir Peşə Liseyi	115
39.	Qazax Peşə Liseyi	117
40.	Şamaxı Peşə Liseyi	119
41.	Zərdab Peşə Liseyi	124
42.	Biləsuvar Peşə Liseyi	146
43.	Əli-Bayramlı (Şirvan – *red.*) Peşə Liseyi	152
44.	Tovuz Peşə Liseyi	155
45.	Qax Peşə Liseyi	111
46.	Gədəbəy Peşə Liseyi	148
47.	Sabirabad Peşə Liseyi	135

Peşə məktəbi statusu verilən tədris müəssisələri

№	Peşə məktəbləri	Məktəbin əvvəlki №-si
Naxçıvan Muxtar Respublikası üzrə		
1.	Ordubad Peşə Məktəbi	166
2.	Babək Peşə Məktəbi*	145
3.	Şahbuz Peşə Məktəbi	167
4.	Culfa Peşə Məktəbi	129
5.	Sədərək Peşə Məktəbi	23
Bakı şəhəri üzrə		
6.	1№-li Bakı Peşə Məktəbi	1
7.	2№-li Bakı Peşə Məktəbi	12
8.	3№-li Bakı Peşə Məktəbi	18
9.	4№-li Bakı Peşə Məktəbi	42
10.	5№-li Bakı Peşə Məktəbi	55
11.	6№-li Bakı Peşə Məktəbi	65
12.	7№-li Bakı Peşə Məktəbi	76
13.	8№-li Bakı Peşə Məktəbi	10
14.	9№-li Bakı Peşə Məktəbi	88
15.	10№-li Bakı Qız Peşə Məktəbi	93
16.	11№-li Bakı Peşə Məktəbi	94
17.	12№-li Bakı Peşə Məktəbi	90
18.	13№-li Bakı Qız Peşə Məktəbi	20
19.	14№-li Bakı Peşə Məktəbi	177
20.	15№-li Bakı Peşə Məktəbi	83
İslah-əmək müəssisələri nəzdində olan peşə məktəbləri		
21.	16№-li Bakı Peşə Məktəbi	13
22.	17№-li Bakı Peşə Məktəbi	20
23.	18№-li Bakı Peşə Məktəbi	46

* Naxçıvan MR Nazirlər Kabinetinin 7 mart 2008-ci il tarixli Sərəncamı ilə ləğv edilmişdir – red.

24.	19№-li Bakı Peşə Məktəbi	48
25.	20№-li Bakı Peşə Məktəbi	51
26.	21№-li Bakı Peşə Məktəbi	52
Gəncə şəhəri üzrə		
27.	1№-li Gəncə Peşə Məktəbi	38
28.	2№-li Gəncə Peşə Məktəbi	78
29.	3№-li Gəncə Peşə Məktəbi	89
Respublikanın rayonları üzrə		
30.	Quba Xüsusi Peşə Məktəbi	1
31.	Cəlilabad Peşə Məktəbi	36
32.	Lənkəran Peşə Məktəbi	34
33.	Xızı Peşə Məktəbi	8
34.	Samux Peşə Məktəbi	16
35.	Siyəzən Peşə Məktəbi	17
36.	Mingəçevir 1№-li Peşə Məktəbi	39
37.	Mingəçevir 2№-li Peşə Məktəbi	69
38.	Şəmkir Peşə Məktəbi	5
39.	Şəki 1№-li Peşə Məktəbi	43
40.	Şəki 2№-li Peşə Məktəbi	134
41.	Lerik Peşə Məktəbi	63
42.	Daşkəsən Peşə Məktəbi	64
43.	Tərtər Peşə Məktəbi	96
44.	Xanlar (Göygöl – *red.*) Peşə Məktəbi	99
45.	Goranboy Peşə Məktəbi	102
46.	Dəvəçi (Şabran – *red.*) Peşə Məktəbi	110
47.	Ağsu Peşə Məktəbi	118
48.	Ucar Peşə Məktəbi	122
49.	İmişli 1№-li Peşə Məktəbi	123
50.	İmişli 2№-li Peşə Məktəbi	171
51.	Ağdam Peşə Məktəbi	130
52.	Ağdaş Peşə Məktəbi	132
53.	Masallı Peşə Məktəbi	137
54.	İsmayıllı Peşə Məktəbi	138
55.	Astara Peşə Məktəbi	139
56.	Balakən 1№-li Peşə Məktəbi	140
57.	Balakən 2№-li Peşə Məktəbi	158
58.	Qəbələ Peşə Məktəbi	141
59.	Oğuz Peşə Məktəbi	143
60.	Neftçala Peşə Məktəbi	151
61.	Yevlax Peşə Məktəbi	154
62.	Ağstafa Peşə Məktəbi	156
63.	Zaqatala Peşə Məktəbi	172
64.	Naftalan Peşə Məktəbi	180
65.	Beyləqan Peşə Məktəbi	181
66.	Qobustan Peşə Məktəbi	185
67.	Yardımlı Peşə Məktəbi	186
68.	Ağcabədi Peşə Məktəbi	150
69.	Xaçmaz Peşə Məktəbi	97

Ləğv edilən peşə məktəbləri

№	Peşə təhsili müəssisəsinin adı	Nazirlər Kabinetinin qərarı
1.	Babək 188№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
2.	Şərur 165№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
3.	Şərur 187№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
4.	Bakı 53№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
5.	Bakı 59№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
6.	Bakı 60№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
7.	Bakı 66№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
8.	Bakı 86№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
9.	Bakı 112№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
10.	Bakı 149№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
11.	Gəncə 15№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
12.	Gəncə 37№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
13.	Gəncə 160№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
14.	Sumqayıt 85№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
15.	Əli-Bayramlı (Şirvan) 28№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
16.	Lənkəran 169№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
17.	Ağcabədi 170№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
18.	Bərdə 47№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
19.	Beyləqan 133№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
20.	Biləsuvar 175№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
21.	Qazax 40№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
22.	Qazax 71№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
23.	Quba 157№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
24.	Yevlax 142№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
25.	Şəki 91№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
26.	Tərtər 183№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
27.	Tovuz 98№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
28.	Göyçay 58№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
29.	Göyçay 179№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
30.	Goranboy 128№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
31.	Zaqatala 153№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li

№	Peşə təhsili müəssisəsinin adı	Nazirlər Kabinetinin qərarı
32.	Şəmkir 164№-li Peşə Məktəbi	23 avqust 1996-cı il 116№-li
33.	Şəmkir (Dəllər) 100№-li Peşə Məktəbi	6 yanvar 1997-ci il 2№-li
34.	Sədərək Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
35.	Bakı 4№-li Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
36.	Bakı 11№-li Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
37.	Samux Peşə Məktəbi	24 iyun 1999-cu il 105 №-li
38.	Mingəçevir 2№-li Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
39.	Ağsu Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
40.	Ucar Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
41.	İmişli 2№-li Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
42.	Qobustan Peşə Məktəbi	24 iyun 1999-cu il 105№-li
43.	Astara Peşə Məktəbi	24 iyun 1999-cu il 105 №-li
44.	Bakı Kompyuter Liseyi	30 iyun 2001-ci il 118№-li
45.	Naxçıvan Peşə Liseyi	Naxçıvan MR-nın 24 sentyabr 2002-ci il 107№-li
46.	Şahbuz Peşə Məktəbi	Naxçıvan MR-nın 14 iyun 2004-cü il 56№-li

Birləşdirilən peşə məktəbləri

№	Peşə təhsili müəssisəsinin adı və birləşdiyi məktəb	Nazirlər Kabinetinin qərarının tarixi və nömrəsi	Hazırkı nömrəsi
1.	Bakı 192№-li Peşə Məktəbi Bakı 10№-li Peşə Məktəbinə	19 sentyabr 1994-cü il 338№-li	**18№-li BPL**
2.	Bakı 81№-li Peşə Məktəbi Bakı 79№-li Peşə Məktəbinə	4 yanvar 1995-ci il 3№-li	**13№-li BPL**
3.	Naxçıvan 32№-li Peşə Məktəbi Naxçıvan 163№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**163№-li Naxçıvan PM**
4.	Bakı 4№-li Peşə Məktəbi Bakı 54№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**6№-li BPL**
5.	Bakı 14№-li Peşə Məktəbi Bakı 29№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**1№-li BPL**
6.	Bakı 84№-li Peşə Məktəbi Bakı 74№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**12№-li BPL**
7.	Bakı 178№-li Peşə Məktəbi Bakı 67№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**9№-li BPL**
8.	Ağcabədi 114№-li Peşə Məktəbi Ağcabədi 150№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**Ağcabədi PM**
9.	Saatlı 109№-li Peşə Məktəbi Saatlı 184№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**Saatlı PL**
10.	Salyan 76 №-li Peşə Məktəbi Salyan 104№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**Salyan PL**

11.	Sabirabad 174№-li Peşə Məktəbi Sabirabad 135№-li Peşə Məktəbinə	23 avqust 1996-cı il 116№-li	**Sabirabad PL**
12.	Bakı 7№-li Peşə Məktəbi Bakı 11№-li Peşə Məktəbinə, Bakı 15№-li Peşə Məktəbi Bakı 11№-li Peşə Liseyinə	29 may 1998-ci il 118№-li və 18 avqust 2003-cü il 107№-li	**11№-li BPL**
13.	Lənkəran 34№-li Peşə Məktəbi Lənkəran Peşə Liseyinə	22 iyun 1998-ci il 141№-li	**Lənkəran PL**

Qərara əsasən Abşeron, Astara, Babək, Quba, Qusar, Dəvəçi (Şabran – *red.*), Zaqatala, Gədəbəy, Lerik, Ucar və Şahbuz rayonlarında inşası dayandırılmış peşə məktəbi obyektləri haqqında təkliflərin verilməsi, təlim təsərrüfatı olmayan kənd təsərrüfatı profilli peşə məktəbi və peşə liseylərinə yerli icra hakimiyyəti strukturları tərəfindən mövcud qaydada torpaq sahəsinin ayrılması planlaşdırılsa da, bu məsələlərin həll edilməsi mümkün olmadı. Əksinə, bu qərardan sonra bir sıra peşə təhsili müəssisələrinin bağlanması, birləşdirilməsi və ya tipinin dəyişdirilməsi prosesi davam etdi, peşə təhsili müəssisələrinin balansında olan bəzi təlim təsərrüfatları və torpaq sahələri sahiblərini dəyişdi. Peşə təhsili müəssisələrində qeyri-qanuni olaraq məcburi köçkün adı ilə vətəndaşların məskunlaşması prosesi davam etdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 yanvar 1997-ci il tarixli Sərəncamı ilə Şəmkir Peşə Məktəbinin tədris binaları Sərhəd Qoşunları Baş İdarəsinə, 6 may 1998-ci il tarixli Sərəncamı ilə 13№-li Bakı Peşə Liseyinin tədris kompleksi Milli Təhlükəsizlik Nazirliyinə, 26 dekabr 2000-ci il tarixli Sərəncamı ilə Quba Peşə Liseyinin tədris binası DİN-in Daxili Qoşunlarının Baş İdarəsinə verildi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı ildə qəbul edilmiş qərara dəyişikliklərin edilməsi haqqında 24 iyun 1999-cu il tarixli növbəti qərarında isə daha bir neçə peşə təhsili müəssisəsinin fəaliyyətinin dayandırılması barədə məsələ öz əksini tapdı. Bu və digər qərarlar nəzərdə tutulmuş tədbirlərin bir qisminin həyata keçirilməsini mümkünsüz etdi. Həmin qərara əsasən 4, 11№-li Bakı Peşə məktəbləri, Ağsu, Astara, Qobustan, Samux, Sədərək, Ucar Peşə məktəbləri, İmişli 2№-li və Mingəçevir 2№-li Peşə məktəbləri ləğv edildi.

Beləliklə, texniki peşə təhsilinin təkmilləşdirilməsi ilə bağlı qəbul edilən qərarda dəyişikliklərin edilməsi daha bir neçə peşə təhsili müəssisəsinin ləğv edilməsinə səbəb oldu, bu isə xüsusən regionlarda vətəndaşların peşə təhsili almaq imkanlarını məhdudlaşdırdı və bir sıra ixtisaslar üzrə kadr çatışmazlığına şərait yaratdı. Şübhəsiz, bir sıra peşə təhsili müəssisələrinin fəaliyyətinin dayandırılması zərurətdən irəli gəlirdi, belə ki, iqtisadi çətinliklər, məcburi köçkünlər problemi ilə bağlı peşə təhsili müəssisələrinin saxlanılmasına ayrılan vəsaitlərin azlığı bu tip müəssisələrin səmərəli fəaliyyət göstərməsinə imkan vermirdi. Lakin bu da həqiqətdir ki, bu dövrdə bəzi qüvvələr hələ də bu təhsil pilləsinin vətəndaş cəmiyyətinin formalaşmasında oynadığı rolu düzgün qiymətləndirə bilmirdi və ya peşə təhsilinin

ölkənin inkişafı üçün nə qədər əhəmiyyətli olduğunu qəbul etmirdilər.

Təcrübə göstərir ki, texniki peşə təhsili bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla, cəmiyyətin sosial-mədəni və iqtisadi inkişafında fərdlərin iştirakını təmin edir, onların ətraf mühitə təsir etmək imkanlarını artırır, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir, peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmaqda real kömək göstərir. Müasir dövrdə inkişaf etmiş ölkələrdə texniki peşə məktəbləri yalnız ənənəvi «sənətkarlar və ustalar» hazırlamır, bu məktəblər həm də daha yüksək bilik və bacarığa malik ixtisaslı mütəxəssis hazırlığını həyata keçirir.

Problemlərin çoxluğuna baxmayaraq, 90-cı illərin sonunda Azərbaycan Respublikası Təhsil Nazirliyi texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, texniki peşə təhsili sistemində məzmunun təkmilləşdirilməsi, təlim metodları və texnologiyalarının yeniləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra layihələr və tədbirlər həyata keçirmişdi. Belə tədbirlərdən biri UNESCO-nun himayəsi ilə 1997-ci ildə Bakı şəhərində keçirilmiş «Texniki peşə təhsili–97» beynəlxalq konfransı idi. Həmin konfransda 30 ölkənin nümayəndəsi iştirak etmişdi.

1998-ci ilin iyun-iyul aylarında isə Avropa Təhsil Fondunun dəstəyi ilə Azərbaycanda, sonra Fransa və İtaliyada texniki peşə təhsili sisteminin maliyyələşdirilməsi, dövlət təhsil standartlarının hazırlanması, yaşlı əhaliyə peşə öyrədilməsi və onların ixtisasının artırılması ilə bağlı beynəlxalq seminarlar və treninqlər keçirilmişdi.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birlikdə 1998-ci ilin avqust ayında Bakıda texniki peşə təhsilinin müasir problemlərinə həsr olunmuş Beynəlxalq seminar keçirmişdi. Bundan əlavə, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin himayəsi altında 1999-cu ilin 13–18 noyabr tarixlərində Tehran şəhərində keçirilən «Texniki peşə təhsilinin idarə olunması» mövzusunda beynəlxalq seminarda Azərbaycan nümayəndələri də iştirak etmiş, ölkəmizdə texniki peşə təhsilinin mövcud vəziyyəti və problemlərinə dair məruzə etmişdilər. Lakin həyata keçirilən tədbirlərə baxmayaraq, peşə təhsili müəssisələrinin və orada təhsil alanların sayı azalmaqda davam edirdi. Bunları aşağıdakı cədvəldən də görmək olar.

1996–2000-ci illərdə Azərbaycanda peşə təhsili sisteminin vəziyyəti

İllər	Müəssisələrin sayı	Təhsil alanların sayı	Şagird qəbulu	Şagird buraxılışı	Ümumi işçilərin sayı	O cümlədən müəllimlər	İstehsalat təlimi ustaları
1996	119	25000	12200	13500	9689	1996	3100
1997	118	24000	13300	13200	8626	2070	2760
1998	118	23500	13900	13300	6136	1472	1963
1999	108	22700	12900	12100	6153	1476	1968
2000	110	22900	12900	12100	6057	1453	1938

O zaman mövcud olan problemlərdən biri də, müxtəlif təhsil müəssisələrinin vahid mərkəzdən idarə olunmaması, onlar arasında səmərəli əlaqələrin zəifliyi, bəzən isə ümumiyyətlə, yoxluğu idi ki, bu da kadr hazırlığı prosesinə mənfi təsir göstərirdi. Bu vəziyyətin aradan qaldırılması üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli Fərmanı ilə Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin tabeliyində fəaliyyət göstərən Dövlət Dəmir Yolu Liseyi Təhsil Nazirliyinin tabeliyinə verildi.


Mövcud olan texniki peşə təhsili müəssisələrinin ləğv edilməsi, birləşdirilməsi və yaxud tipinin dəyişdirilməsi prosesi 2000-ci ildən sonra da davam etdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyun 2001-ci il tarixli qərarı ilə Bakı Kompyuter Liseyinin bazasında tərkibində ümumtəhsil məktəbi olmaqla Bakı Kompyuter Kollecinin yaradılmasına qərar verildi.

Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 avqust 2003-cü il tarixli Sərəncamı ilə 15№-li Peşə Məktəbi və 11№-li Bakı Peşə liseyləri birləşdirildi və bu təhsil müəssisələrinin bazasında 11№-li Bakı Peşə Liseyi yaradıldı. 30 iyul 2005-ci il tarixli qərarla isə 10№-li Bakı Peşə Liseyi Azərbaycan Dövlət Neft Şirkəti Heydər Əliyev adına Neft Emalı Zavodunun tabeliyinə verildi.

Naxçıvan MR Nazirlər Kabinetinin 24 sentyabr 2002-ci il tarixli və 14 iyun 2004-cü il tarixli qərarları ilə Naxçıvan Peşə Liseyi və Şahbuz Peşə Məktəbinin fəaliyyəti dayandırıldı.

2005-ci ildən başlayaraq peşə təhsilinin maliyyələşdirilməsinə ayrılan vəsaitin həcmində nəzərəçarpan artım müşahidə olunmağa başladı.

Azərbaycan Respublikasında 2005–2011-ci illərdə peşə təhsilinin maliyyələşdirilməsi (milyon manat ilə)



Son illərdə Azərbaycan bir sıra inkişaf etmiş Avropa və Asiya ölkələri ilə texniki peşə təhsilinin inkişafına yönəlmiş səmərəli əlaqələr yaratmışdır. Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti Azərbaycan da daxil olmaqla 7 ölkədə (Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri) texniki peşə təhsili müəssisələrinin ixtisas fənn müəllimi və istehsalat təlimi ustalarının ixtisaslarının artırılması üzrə regionlararası layihə (Azərbaycan bu layihəyə 2003-cü ildə qoşulmuşdur) həyata keçirmişdi. 2004–2006-cı illərdə Cəmiyyətin xətti ilə keçirilən seminar–treninqlərdə 1093 nəfər, o cümlədən 383 ixtisas fənn müəllimi və 70 istehsalat təlimi ustası öz ixtisasını artırmışdı.

Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə birgə fəaliyyətə 2005-ci ilin martından

başlanmışdı. Təhsil Nazirliyi ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı arasında peşə təhsilinin inkişafı layihəsinin hazırlanması üçün 12 avqust 2005-ci il tarixində pilot tədqiqatının icra protokolu imzalandı.

İcra protokoluna əsasən 5 nəfərdən ibarət tədqiqat qrupu 2005-ci ilin oktyabr ayından başlayaraq və 2006-cı ilin ilk yarısına qədər 93 texniki peşə təhsili müəssisəsinin fəaliyyətini tədqiq etmiş, müxtəlif ixtisaslar və kurslar üzrə təhsil alan 2681 şagirdlə sorğu keçirilmişdi.

Tədqiqat qrupu tərəfindən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Təhsil Nazirliyinə təqdim edilmiş ilkin yekun hesabatda texniki peşə təhsilinin həmin dövrə olan vəziyyəti təhlil edilmiş, bu sahədə mövcud olan problemlər öz əksini tapmış, sahənin inkişafı üçün təkliflər verilmişdi.

Hesabatda texniki peşə təhsili sahəsində ən ciddi problemlər kimi maddi-texniki və tədris bazasının müasir tələblərə cavab verməməsi, tədris avadanlığının, texnika, maşın və mexanizmlərin, demək olar ki, tam yararsızlığı, mühəndis-pedaqoji heyətin elmi-nəzəri və təcrübi bacarıqlarının aşağı səviyyədə olması, maliyyə vəsaitinin çatışmazlığı, mühəndis-pedaqoji işçilərin əmək haqqının həddən artıq aşağı olması, məzunların müasir zəruri bilik və bacarıqlara malik olmaması və digər problemlər öz əksini tapmışdı.

2005-ci ildə UNESCO ilə birgə Azərbaycanda təhsilin inkişafına həsr olunmuş iki konfrans (Parisdə və Bakıda) keçirildi. UNESCO-nun Baş Direktorunun iştirakı ilə UNESCO və Təhsil Nazirliyi arasında Memorandum imzalandı. Həmin Memorandumda nəzərdə tutulan məsələlərdən biri də texniki peşə təhsili ilə bağlı idi.

2006-cı ilin 19–20 dekabr tarixlərində UNESCO-nun maliyyə dəstəyi ilə Təhsil Nazirliyi «Azərbaycanda texniki peşə təhsilinin mövcud vəziyyəti və bu sahənin inkişaf perspektivləri» mövzusunda beynəlxalq seminar keçirdi. Seminarda Rusiya Federasiyası, Belarus və Gürcüstandan da nümayəndələr iştirak etdi. Bütün bu beynəlxalq və regional konfranslar texniki peşə təhsili sahəsində mövcud olan problemləri aşkar etməyə imkan verdi.

2001–2007-ci illərdə Azərbaycanda peşə təhsili sisteminin vəziyyəti

İllər	Müəssisələrin sayı	Təhsil alanların sayı	Şagird qəbulu	Şagird buraxılışı	Ümumi işçilərin sayı	O cümlədən müəllimlər	İstehsalat təlimi ustaları
2001	110	22944	12946	152050	6788	1972	2172
2002	109	20700	12647	12647	6432	1827	2058
2003	109	20753	12535	12213	6474	1939	2071
2004	110	21677	12741	10654	6251	1853	2000
2005	110	21563	12560	11091	6099	1853	1951
2006	107	22189	12935	11095	6375	1906	2040
2007	107	23813	14590	12862	6375	1971	2040



UNESCO, Heydər Əliyev Fondu və Təhsil Nazirliyi arasında texniki peşə təhsili sahəsində əməkdaşlıq sazişinin imzalanması. 18 iyun, 2007-ci il

Təhsil Nazirliyinin UNESCO ilə sıx əməkdaşlığının nəticəsi olaraq Azərbaycan Respublikası Hökuməti, Heydər Əliyev Fondu və UNESCO arasında 18.06.2007-ci il tarixində Azərbaycanda peşə təhsilinin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsi haqqında Saziş imzalandı. Layihənin əsas məqsədi peşə təhsili sahəsində mehmanxana xidməti, turizm, informasiya və kommunikasiya texnologiyası üzrə müasir tələblərə cavab verən yeni kurikulumların və dərs vəsaitlərinin hazırlanması, texniki peşə təhsili üzrə kadrların ixtisasartırma və təlim resurs mərkəzinin yaradılması idi. Layihənin ümumi maliyyə dəyəri 489290 ABŞ dolları idi və Yaponiya hökuməti bu məqsədlə 203400 ABŞ dolları məbləğində qrant ayırmışdı. Qalan məbləğ isə Azərbaycan hökuməti tərəfindən ödənildi.

UNESCO-nun ekspertləri və yerli mütəxəssislərin səyi nəticəsində «İKT və mehmanxana xidmətləri üzrə kurikulumlar» hazırlandı və bu kurikulumlar əsasında dərsliklər çap edildi, 7 və 11№-li Bakı Peşə liseylərində kompyuter və linqofon kabinetləri yaradıldı, 11№-li Peşə Liseyinin kitabxanası müasir ədəbiyyat və ixtisas dərslikləri ilə təchiz edildi.

Beləliklə, həyata keçirilən çoxsaylı tədbirlər nəticəsində texniki-peşə təhsili sistemində müəyyən stabillik yarandı, məktəblərin sayında ciddi bir dəyişiklik baş vermədi, şagird, müəllim və istehsalat ustalarının sayında az da olsa artım oldu.

Bununla belə, peşə təhsili sisteminin inkişaf tempi, onun statusu ölkə rəhbərliyini və şübhəsiz, Təhsil Nazirliyini qane edə bilməzdi. Artıq Azərbaycan dünyada iqtisadi inkişaf tempinə görə lider ölkələr sırasına daxil olmuşdur. Yalnız paytaxt Bakı şəhərində deyil, regionlarda da yeni iş yerləri açılmış, müasir texnologiyalarla təchiz olunmuş yeni fabrik və zavodlar işə başlamışdır. Bütün bunlar texniki peşə təhsilinə tamamilə yeni prizmadan baxmağı zəruri etmişdi.

Cəmiyyət inkişaf etdikcə, yeni texnologiyaların tətbiqi genişləndikcə mütəxəssislərə olan tələblər də dəyişir. Təsadüfi deyil ki, yaşadığımız informasiya cəmiyyəti ondan əvvəl mövcud olmuş sənaye cəmiyyətinə nisbətən ixtisaslı kadrlara daha fərqli tələblər diktə edir. Bu gün işəgötürənlər işçinin peşəkarlıq xüsusiyyətləri ilə yanaşı, onun ünsiyyət mədəniyyətini, xarici dil və İKT sahəsində bacarıqlarını, yaradıcılıq imkanlarını da nəzərə alırlar. Digər tərəfdən hazırda dünya iqtisadiyyatında baş verən texnoloji inkişaf insan əməyinə olan ehtiyacı azaldır. Bu gün istehsal və emal prosesinin daha çox texnologiya, avtomatlaşdırılmış maşınlar tərəfindən idarə edildiyini nəzərə alsaq, insan resurslarından daha səmərəli istifadə olunması ehtiyacı yaranır. Beynəlxalq təşkilatların hesablamalarına görə, 2020-ci ilə qədər inkişaf etməkdə olan bir sıra ölkələrdə sənaye məhsuldarlığının ən azı iki dəfə artacağı, bu sahədə çalışan işçilərin sayının təqribən 10–15% azalacağı gözlənilir. Belə bir şəraitdə dəyişən tələbata və texnoloji yeniliklərə hazır olan ixtisaslı kadrların hazırlanması texniki peşə təhsilinin əsas missiyasına çevrilməlidir. Eyni zamanda bu prosesdə geniş profilli kadrların hazırlanması vacib şərtə çevrilir ki, belə kadrlar mürəkkəb məhsul istehsalını həyata keçirməklə yanaşı, əvvəllər bir neçə işçinin gördüyü işi yerinə yetirmək bacarığına malik olmalıdırlar. Bu isə məhsulun maya dəyərinin azalmasına və gəlirin artmasına imkan yaradır. Geniş profilli kadr hazırlığı isə yüksək maddi-texniki bazaya və müasir texniki avadanlıqlara malik peşə təhsili müəssisələri şəbəkəsinin inkişafından asılıdır.

Məhz bu səbəbdən ölkə rəhbərliyinin tapşırığı ilə peşə təhsili sisteminin əsaslı monitorinqi keçirildi. Monitorinq nəticəsində məlum oldu ki, peşə təhsili sistemində ciddi problemlər mövcuddur. Aşkar edildi ki, 1991-ci ildən keçən müddət ərzində peşə məktəbi və peşə liseylərinin tədris və yardımçı binalarında əsaslı təmir işləri aparılmamışdır. İxtisas fənləri üzrə müasir tələblərə cavab verən dərslik və dərs vəsaitləri hazırlanmamışdır. Texniki peşə təhsilinin maliyyələşdirilməsi mexanizmi kifayət qədər səmərəli deyil. Son illərdə dövlət büdcəsindən ayrılan vəsait artsa da, bu vəsait tədris-maddi bazanın inkişafı və möhkəmləndirilməsi, xammal, yanacaq və sürtgü materiallarının alınması, şagirdlərin sosial müdafiəsi, bina, qurğu və digər tikililərin əsaslı təmiri, mühəndis-pedaqoji işçilərin ixtisasının artırılması üçün tələb olunan xərcləri tam ödəmir. Müəssisələrin 69%-nin tədris və yataqxana binalarında

14 minədək məcburi köçkün məskunlaşmışdır. Texniki peşə təhsili müəssisələrinin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üzrə yeni mexanizmlər tam tətbiq edilmir, şəxsiyyətin və cəmiyyətin sifarişlərinə uyğun olaraq xidmət bazarının tələbatlarının uzunmüddətli elmi əsaslandırılmış proqnozlaşdırılması sistemi hazırlanmamışdır və s. Üstəlik mövcud kurikulum kifayət qədər səmərəli deyildi və latın qrafikası ilə çap edilmiş dərsliklər çatışmırdı. Bundan əlavə, kadr hazırlığının əmək bazarının tələbləri ilə uzlaşmaması, kadr çatışmazlığı, peşə tədris müəssisələrinin İKT ilə təmin edilməməsi, maddi-tədris bazanın müasir tələblərə cavab verməməsi, müasir texniki avadanlıqlarla təchizatın zəif aparılması da texniki peşə təhsilinin inkişafına mənfi təsir göstərən amillərdən idi.


Bu baxımdan Təhsil Nazirliyi tərəfindən texniki peşə təhsili sahəsində mövcud olan problemlərin sistemli şəkildə həll edilməsi, beynəlxalq təcrübə nəzərə alınmaqla inkişaf istiqamətlərinin müəyyən edilməsi və ixtisaslı kadr hazırlığı sisteminin əmək bazarının tələblərinə müvafiq olaraq qurulması məqsədilə Dövlət Proqramının layihəsinin hazırlanması tarixi bir zərurətə çevrilmişdi.

Bütün tələblər nəzərə alınmaqla texniki peşə təhsilinin inkişaf perspektivlərini özündə əks etdirən dövlət proqramı hazırlandı və 2006-cı ilin sonunda Nazirlər Kabinetinə təqdim edildi. Uzun sürən müzakirələrdən sonra bu sənəd – «Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)» ölkə Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edildi.

Dövlət Proqramının əsas məqsədi iqtisadi və sosial baxımdan səmərəli olmaqla **ölkə iqtisadiyyatının peşə-ixtisas kadrlarına yaranan tələbatının ödənilməsi** və **əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi** kimi əsas iki şərti ödəyən texniki peşə təhsili sistemini formalaşdırmaqdır.

Bu proqram texniki peşə təhsilinin qarşısında duran əsas problemlərin həllini və beynəlxalq təcrübənin öyrənilməsi vasitəsilə onun dünya təhsil sisteminə inteqrasiyasını sürətləndirməli idi. Dövlət Proqramının əsas istiqamətlərinə peşə təhsili sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, bu sahədə yeni iqtisadi münasibətlərin formalaşdırılması və idarəetmənin təkmilləşdirilməsi, kadr hazırlığı işinin səmərəsinin artırılması, məzmunca müasir tələblər səviyyəsində yeniləşdirilməsi və ən əsası ictimai statusunun yüksəldilməsi daxil idi.

Proqramın səmərəli həyata keçirilməsini təmin etmək məqsədilə ölkənin iqtisadi rayonlarının hər birində peşə təhsilinə olan tələbatın öyrənilməsi, müasir tələblərə cavab verən peşə təhsili mərkəzlərinin yaradılması, emalatxanalarda və təlim təsərrüfatlarında məhsul istehsalı və satışını çoxaltmaqla büdcədənkənar gəlirlərin artırılması nəzərdə tutulmuşdu. Eyni zamanda bu istiqamətdə peşə təhsili sahəsində ixtisas və ixtisaslaşma təsnifatının (klassifikatoru) yeniləşdirilməsi, yəni dövlət standartları və buna uyğun tədris plan və proqramlarının (kurikulumun), dərslik və dərs vəsaitlərinin hazırlanması,




16№-li Bakı Peşə Liseyi



7№-li Bakı Peşə Liseyi



Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi



İsmayıllı Peşə Tədris Mərkəzi

məlumat bazasının yaradılması və s. tədbirlərin həyata keçirilməsi planlaşdırılmışdı.

Dövlət Proqramının 2007-ci ildə qəbul edilməsinə baxmayaraq, onun icrası ilə əlaqədar əsas tədbirlər 2008-ci ildən həyata keçirilməyə başlandı. Onu da qeyd edək ki, 2008-ci ildə Proqramın həyata keçirilməsi üçün 4 milyon manata yaxın vəsait nəzərdə tutulmuşdu. Həmin vəsait hesabına 12 və 7№-li Bakı, 3№-li Gəncə Peşə liseyləri əsaslı təmir edildi. Bundan əlavə, Təhsil Nazirliyinə ayrılan vəsait hesabına 4 və 5№-li Bakı Peşə liseylərində, 50№-li Ağdam və 13№-li Bakı Qız Peşə məktəblərində cari təmir işləri aparıldı, müasir avadanlıqlarla təchiz olundu. Bütün peşə təhsili müəssisələri müasir tələbləri ödəyən əyani vəsaitlərlə təmin edildi, 4 müəssisədə İKT sinifləri yaradıldı.

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə inkişaf etmiş ölkələrə bir neçə təlim səfəri təşkil edildi, bu sahənin problemlərinə dair seminar və treninqlər keçirildi. Son 20 ildə ilk dəfə olaraq Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi yaradıldı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 oktyabr 2008-ci il tarixli qərarı, Təhsil Nazirliyinin 07.11.2008-ci il tarixli əmri), Avropa Komissiyası ilə birgə layihə çərçivəsində İsmayıllı Turizm və Otelçilik üzrə Peşə Məktəbinin tikintisinə başlandı.

Qəbələdə istifadəyə verilmiş Peşə Tədris Mərkəzində müasir standartlar səviyyəsində yeməkxana, laboratoriyalar, emalatxana, yataqxana və tibb kabineti yaradıldı. Burada 1–2 illik kurslarla yanaşı, qısamüddətli kursların da təşkil edilməsi planlaşdırılmışdır. Fasiləsiz təhsil konsepsiyasına uyğun olaraq, istənilən yaş həddində olan vətəndaşların bu kurslarda müxtəlif peşələrə yiyələnməsi nəzərdə tutulur.

Mərkəz regionda əmək bazarının araşdırılmasını, digər məktəblərin mühəndis-pedaqoji heyəti üçün ixtisasartırma kurslarının təşkilini, regionda əmək bazarının tələblərinə uyğun peşələrin müəyyənləşdirilməsini təmin edəcək. Dövlət Proqramına əsasən ölkənin bir neçə regionunda belə mərkəzlərin yaradılması planlaşdırılır.

Bununla yanaşı, işə götürən təşkilatlarla səmərəli əlaqələrin qurulması və peşə təhsili sahəsində həyata keçirilən islahatların səmərəliliyini təmin etmək məqsədilə 2008-ci ildə müxtəlif dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndələrindən ibarət Əlaqələndirmə Şurası yaradılmışdır. Əlaqələndirmə Şurasına Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan İşəgötürənlər Assosiasiyası, Qeyri-Hökumət Təşkilatları Forumu, Sənaye və Energetika Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Gənclər və İdman Nazirliyinin nümayəndələri daxil edilmişdir.

Dövlət Proqramının təsdiq edilməsi texniki peşə təhsili sahəsində normativ-hüquqi bazanın da yeniləşdirilməsini zəruri etdi və ilk olaraq 2008-ci ildə baza təhsili və tədris müddətindən asılı olaraq Təhsil Nazirliyi «Peşə məktəbi və peşə liseylərinin 5 günlük iş həftəsinə keçməsi, imtahanların təşkili və keçirilməsi qaydaları haqqında təlimatı və nümunəvi tədris planları»nı təsdiq etdi.

2008-ci ildə texniki peşə təhsili müəssisələrində ümumtəhsil fənlərinin tədrisinin

keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra addımlar atıldı. 2007/08-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində orta təhsil üzrə buraxılış imtahanlarının mərkəzləşdirilmiş qaydada keçirilməsi peşə təhsili müəssisələrində ümumtəhsil fənlərinin tədrisinə yanaşmanı dəyişdi. Mərkəzləşdirilmiş imtahan sistemi ilk zamanlar peşə təhsili müəssisələri, valideynlər və şagirdlər tərəfindən birmənalı qarşılanmasa da, sonrakı illərdə peşə liseylərində ümumtəhsil fənlərinin tədrisində xeyli müsbət dəyişikliklər yaratdı, tədris prosesi iştirakçılarının məsuliyyətini artırmaqla kadr hazırlığı səviyyəsinin yüksəldilməsinə səbəb oldu.

Proqramın reallaşdırılması istiqamətində beynəlxalq təşkilatlar və maliyyə institutları ilə birgə müxtəlif layihələr həyata keçirilirdi. 2007-ci ildə Azərbaycan Hökuməti ilə Avropa Komissiyası arasında «Peşə təhsili və təlimi islahatı və Azərbaycanın seçilmiş regionunda tətbiqi» layihəsinə dair Saziş imzalandı və 2008-ci ildən layihənin icrasına başlanıldı. Layihənin həyata keçirilməsində məqsəd Azərbaycanda peşə təhsilinin Avropa ixtisas çərçivəsinə uyğun formalaşdırılması, turizm və otelçilik sahəsi üzrə kadr hazırlığı sisteminin yeni modelinin yaradılması idi. Layihəyə texniki dəstəyi Britaniya Şurası (British Council) həyata keçirirdi.

Avropa Komissiyası layihənin həyata keçirilməsinə texniki dəstək üçün 2,5 milyon avro məbləğində, layihə çərçivəsində istifadəyə verilməsi nəzərdə tutulan İsmayıllı peşə məktəbinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün isə 500 min avro məbləğində qrant ayırmışdı.

Layihə çərçivəsində Britaniya Şurasının ekspertləri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları və İsmayıllı peşə məktəbinin mühəndis-pedaqoji heyəti tərəfindən Dağlıq Şirvan iqtisadi rayonunun əmək bazarının turizm və otelçilik sahəsi üzrə tələbatları öyrənildi. Müvafiq ixtisaslar üzrə peşə kurikulumları hazırlandı, dərsliklər və dərs vəsaitləri çap edildi. İsmayıllı peşə məktəbinin yenidən qurulması üçün Azərbaycan hökuməti tərəfindən vəsait ayrıldı və 2008-ci ildən başlayaraq kompleksin inşasına başlanıldı. Kompleksin tədris binası, laboratoriya, emalatxana, yeməkxana, yataqxana, kompyuter otaqları, kitabxana, konfrans zalı və kiçik oteldən ibarət olması nəzərdə tutulmuşdu. Bu kompleks Qafqaz regionunda ən müasir peşə təhsili müəssisələrindən biri olmaqla yanaşı, regionun turizm potensialının inkişafına böyük töhfə verəcəkdir.

Layihənin icrasına Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və işəgötürən təşkilatların nümayəndələri cəlb edildi, onun səmərəli idarəedilməsi üçün Koordinasiya Şurası yaradıldı. Beynəlxalq və yerli ekspertlərin səyi nəticəsində hazırlanmış kurikulumlar, standartlar Təhsil Nazirliyi tərəfindən təsdiq edilməmişdən öncə turizm sahəsində ixtisaslaşmış təşkilatlara, mütəxəssislərə göndərilmiş, onların təklif və iradları nəzərə alınmışdı. Belə yanaşma kadr hazırlığının tələbyönümlü olmasına şərait yaradır. Sifarişçinin (işəgötürənin) tələbləri nəzərə alınmaqla qurulan tədris prosesi gələcəkdə məzunların asanlıqla iş tapmaq imkanlarını genişləndirir.

2007-ci il avqustun 16-da Təhsil Nazirliyi ilə Cənubi Koreyanın «Daewoo» beynəlxalq şirkəti arasında müasir standartlara cavab verəcək «Ali Texniki Peşə Təhsil Mərkəzi»nin inşası Layihəsinə dair Memorandum imzalandı. Layihənin ümumi maliyyə dəyəri 32 milyon dollar idi. Layihə çərçivəsində yalnız Azərbaycanda deyil, regionda ən böyük və müasir standartlara cavab verən peşə təhsili mərkəzinin yaradılması nəzərdə tutulmuşdu. Bu kompleksdə iqtisadiyyatın müxtəlif sahələri: avtomatlaşdırma, mühərrik, elektron, elektrik, avtomobil istehsalı, İKT, sənaye avadanlıqları sahələri üzrə ixtisaslı kadrlar hazırlanacaqdır. Memorandum əsasən Bakı şəhərində fəaliyyət göstərən 4№-li Peşə Liseyinin bazasında Qabaqcıl Texnologiya üzrə Peşə Təhsili Mərkəzi inşa edilməsi nəzərdə tutulmuşdur. Əsas məqsəd Azərbaycan iqtisadiyyatının inkişafına, yüksək gəlirli yeni iş yerlərinin açılmasına, ölkə sənayesində baş verən dəyişikliklərə çevik reaksiya verən kadr hazırlığı sisteminin qurulmasına, xarici sərmayə üçün ilkin zəminin formalaşdırılmasına, sənayə işçilərinin bilik və bacarığının artırılmasına yönəlmiş texniki peşə təhsili sisteminin qurulmasına və peşə təhsili sahəsində işləyən müəllimlərin bilik və bacarıqlarının artırılmasına yardım etməkdir. Aparılan çoxsaylı müzakirələr nəticəsində 2010-cu ilin sonunda kredit sazişinin imzalanması, 2011-ci ildən layihənin icrasına başlanılması üçün ilkin razılıq əldə edildi.

Haşiyə çıxaraq qeyd edim ki, II Dünya müharibəsindən sonra dağılmış iqtisadiyyatını bərpa etmək üçün Cənubi Koreyada qəbul edilən ilk qərarlardan biri müasirtipli peşə təhsili komplekslərinin təşkil edilməsi olmuşdur. Məqsəd yeni yaradılan müəssisələrin ixtisaslı kadrlara tələbatının ödənilməsi və müasir təfəkkürlü işçi qüvvəsinin yetişdirilməsi idi. 50-ci illərdə 10-a yaxın peşə təhsili müəssisəsinin tikintisi üçün Koreya hökumətinin kifayət qədər vəsaiti yox idi. Bununla əlaqədar beynəlxalq maliyyə institutlarına müraciət edildi və alınmış kreditlər hesabına peşə təhsili kompleksləri istifadəyə verildi. Təbii resurslar baxımından zəngin olmayan bir ölkə qısa müddət ərzində məhz insan kapitalı hesabına yüksək inkişaf yolu keçdi. Müqayisə üçün qeyd edim ki, əgər Cənubi Koreyada 1950-ci ildə adambaşına düşən milli gəlir 100 ABŞ dolları təşkil edirdisə, 2008-ci ildə bu rəqəm 20 min dollara qədər yüksəlmişdir. Bir neçə il bundan əvvəl Azərbaycanda rəsmi səfərdə olan Cənubi Koreyanın Baş nazirinin müavini, təhsil və insan ehtiyatları naziri Kim Şen El Təhsil Nazirliyində görüş zamanı qeyd etdi ki, bugünkü inkişafına görə ölkəmiz texniki peşə təhsilinə borcludur.

Hazırda Cənubi Koreya texniki peşə təhsili sahəsində təcrübəsini digər ölkələrdə də tətbiq edir və dünyanın bir sıra ölkələrində «Koreya modeli» əsasında yaradılmış peşə təhsili müəssisələri uğurla fəaliyyət göstərir. Ümid edirəm ki, Cənubi Koreyanın «Daewoo» beynəlxalq şirkəti ilə əməkdaşlıq çərçivəsində Bakıda yaradılacaq Qabaqcıl Texnologiyalar üzrə Peşə Tədris Mərkəzi ixtisaslı kadrlara olan tələbatın ödənilməsində, peşə təhsilinin ictimai statusunun yüksəlməsində və xarici sərmayənin ölkəmizə cəlb edilməsində mühüm rol oynayacaqdır.



Təhsil Nazirliyi ilə Cənubi Koreyanın «Daewoo» beynəlxalq şirkəti arasında Ali Texniki Peşə Təhsil Mərkəzinin inşası Layihəsinə dair Memorandum imzalanması. 16 avqust 2007-ci il

Bundan başqa, Avstriyanın «Hilsferk» təşkilatı və Azərbaycanın «ADRA» qeyri-hökumət təşkilatı ilə birlikdə layihə həyata keçirildi. Layihənin məqsədi məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə gəncləri peşə təhsilinə cəlb etmək idi. Bununla əlaqədar Biləsuvar rayonunda məcburi köçkünlər üçün tikilib istifadəyə verilən 8№-li şəhərcikdə yerləşən 14№-li orta məktəbin tədris binasında 2008-ci ildən Cəbrayıl rayonu 131№-li peşə məktəbinin fəaliyyəti bərpa edildi. Peşə məktəbində tədris prosesinin səmərəli qurulması üçün «Hilsferk» və «ADRA» təşkilatlarının müəssisələri cəlb edildi. Kənd təsərrüfatı ixtisasları üzrə tədris vəsaitləri hazırlandı və mühəndis-pedaqoji heyət üçün təlimlər keçirildi.

2009-cu ildə dövlət proqramının icrası üçün 1 milyon, dövlət investisiya xərclərində isə texniki peşə təhsili müəssisələrinin əsaslı təmir edilməsi üçün 3 milyon manat vəsait ayrılmışdı. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2009-cu il tarixli Sərəncamı ilə «Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007–2012-ci illər)»nda nəzərdə tutulmuş tədbirlərin icrasının sürət-



«Daewoo» şirkətinin rəhbərini qəbul edərkən. 12 noyabr 2007-ci il



4№-li Bakı Peşə Liseyində yaradılmış KNAUF təlim mərkəzi

ləndirilməsi, habelə texniki peşə təhsili müəssisələrinin tikintisi və yenidən qurulması işlərinin davam etdirilməsi məqsədi ilə 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 milyon manat məbləğində vəsait ayrılmışdı. Ayrılmış vəsaitlər hesabına İsmayıllı peşə məktəbində tikinti işləri davam etdirildi. 4, 11 və 17№-li Bakı Peşə liseylərində əsaslı təmir işləri aparıldı.

2009-cu ilin yanvarında Təhsil Problemləri İnstitutunun tərkibində İlkin Peşə Təhsilinin İnkişaf Mərkəzi yaradıldı. Mərkəzin tərkibində «Monitorinq və qiymətləndirmə» və «İlkin peşə təhsilinin kurikulumu» şöbələri təşkil edildi. Mərkəzin əsas funksiyası yeni standartların, kurikulumların və dərsliklərin hazırlanması, rəhbər və mühəndis-pedaqoji heyətin yeni təlim texnologiyaları barədə məlumatlandırılması, peşə təhsili müəssisələrinin strukturu və idarəedilməsi mexanizminin təkmilləşdirilməsi, şəbəkənin optimallaşdırılması, regionlarda sosial-iqtisadi potensial nəzərə alınmaqla yeni tip təhsil müəssisələrinin yaradılması üzrə tədqiqatların aparılması və təkliflərin hazırlanması idi.

Peşə təhsili sahəsində kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi təhsil müəssisələrinin müvafiq tədris və əyani vəsaitlərlə təchiz edilməsindən çox asılıdır.

2009-cu ildə həyata keçirilən əhəmiyyətli işlərdən biri də 8 adda yeni dərsliyin hazırlanması oldu. Qeyd edim ki, hətta sovet dövründə Azərbaycan dilində çap edilmiş dərsliklərin sayı çox deyildi və təhsil müəssisələrində rus dilində nəşr edilmiş dərsliklərin tərcümə variantından istifadə edilirdi. Milli dərsliklərin hazırlanması prosesi sonrakı illərdə də davam etdirildi və bu prosesə yerli mütəxəssislərlə yanaşı, beynəlxalq mütəxəssislər də cəlb edildi.

2008–2009-cu illərdə son 20 ildə ilk dəfə olaraq Təhsil Nazirliyi 32 adda 1222 nüsxə əyani vəsait hazırlayaraq peşə təhsili müəssisələrinə verilməsini təmin etdi.

Dövlət Proqramının icrası peşə təhsili müəssisələrinə şagird qəbulunu sürətləndirdi. Proqramın icrasından sonra daha çox gənc peşə təhsili müəssisələrinə müraciət etməyə başladı. Bununla əlaqədar 2009-cu ildə Təhsil Nazirliyi «İlk peşə-ixtisas təhsili müəssisələrinə şagird qəbulu qaydaları»nı təsdiq etdi.

Dövlət Proqramının reallaşdırılması istiqamətində qeyri-hökumət təşkilatları ilə əlaqələr möhkəmləndirildi. Təhsil Nazirliyi ilə «Azərsun Holdinq» arasında yaranmış münasibətlər nəticəsində «Peşə məktəblərinin inkişafı» layihəsi üzrə 26 dekabr 2009-cu il tarixində Anlaşma Memorandumu imzalandı.

Memoranduma əsasən Biləsuvar peşə liseyində «Azərsun Holdinq» şirkətlər qrupunun sifarişi əsasında birgə kadr hazırlığının həyata keçirilməsi, peşə liseyində tədris edilən ixtisasların sayının şirkətin və regionun əmək bazarının tələblərinə uyğunlaşdırılması, məzunların işlə təmin olunması, mühəndis-pedaqoji heyətin ixtisasartırma imkanlarının və yeni texnologiya ilə işləmək bacarıqlarının genişləndirilməsi, regionda məşğulluq imkanlarını artırmaqla gənclərin miqrasiyasının qarşısının alınması, şirkətin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi,





Təhsil Nazirliyi ilə «Azərsun Holding» arasında Anlaşma Memorandumunun imzalanması. Dekabr, 2009-cu il


peşə təhsili müəssisəsində kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi və s. məsələlərin birgə həll edilməsi nəzərdə tutulmuşdu. Bu əməkdaşlıq digər işəgötürən təşkilatların da bu sahəyə marağını xeyli artırdı və nəticədə «Büllur», «Titan Group», «Kür» və s. şirkətlərin peşə təhsili müəssisələri ilə əməkdaşlıq əlaqələri yaradıldı.


2009-cu ildə Təhsil Nazirliyi ilə World Vision təşkilatı arasında əldə olunmuş razılaşmaya əsasən 2 pilot məktəbdə (16№-li Bakı Peşə Liseyi və 14№-li Bakı Peşə Məktəbi) müasir tədris siniflərinin yaradılması və bu təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, «Elektrik qaz qaynaqçısı» və «Təmirçi-çilingər» ixtisasları üzrə yeni kurikulumların və dərsliklərin hazırlanması, mühəndis-pedaqoji heyətin ixtisasının artırılması nəzərdə tutuldu. Layihəyə cəlb edilmiş yerli mütəxəssislər Almaniyada 1 həftəlik təlim səfərində olub kadr hazırlığı barədə məlumat əldə etdilər.

Oxucuların diqqətinə onu da çatdırım ki, təbii sərvətlər baxımından o qədər də zəngin













2009-cu ildə nəşr olunmuş yeni dərsliklər









2009-cu ildə nəşr olunmuş yeni dərsliklər

olmayan Yaponiya, Cənubi Koreya, Sinqapur, Malayziya kimi ölkələr məhz yüksək texnologiyalar, peşə təhsili sistemi vasitəsilə hazırlanmış kadrlar sayəsində yüksək inkişaf səviyyəsinə çatmışlar. Türkiyə, Yunanıstan kimi ölkələr isə əsasən turizm infrastrukturunun inkişafı və xidmətin səviyyəsinə görə hər il milyardlarla dollar məbləğində gəlir əldə etmək imkanı qazanmışlar. Məhz bu amilləri nəzərə alaraq Təhsil Nazirliyi texniki peşə təhsili sisteminin inkişafını sürətləndirmək məqsədilə xarici ölkələrlə əlaqələri daha da genişləndirdi. Nazirliyin və peşə təhsili müəssisələrinin nümayəndələri beynəlxalq təcrübəni öyrənmək, bu ölkələrin texniki peşə təhsili sistemi ilə yaxından tanış olmaq məqsədilə Cənubi Koreya, Avstriya, Almaniya, Türkiyə, Böyük Britaniya, Polşa, İtaliya, Rusiya, Ukrayna və s. kimi ölkələrə səfərlər etdilər. Ölkəmizin texniki peşə müəssisələrində çalışan 20 nəfər mühəndis-pedaqoji heyət Türkiyəyə təlim səfərinə göndərildi.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikasında texniki peşə təhsili müəssisələrinin sayının azalması burada peşə təhsili almaq istəyən vətəndaşlar üçün müəyyən çətinliklər yaratmışdı. Bu problemi həll etmək və yeni yaradılan istehsal sahələri üçün ixtisaslı kadr hazırlığı məqsədilə Naxçıvan MR Nazirlər Kabinetinin 09.12.2009-cu il tarixli qərarı ilə Naxçıvan Peşə Liseyi yaradıldı, müasir tədris binası və lazımi avadanlıqlarla təchiz oludu.

2009-cu ildə qəbul edilmiş «Təhsil haqqında» Qanuna əsasən texniki peşə təhsili «ilk peşə-ixtisas təhsili» adlandırıldı. Qanun ilk peşə-ixtisas təhsilinin normativ-hüquqi bazasının yenidən formalaşmasına səbəb oldu. Nazirlər Kabinetinin 23 aprel 2010-cu il tarixli qərarı ilə «İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulumu)» təsdiq edildi. Həmin standarta əsasən ilk peşə-ixtisas təhsili müəssisələrində şagird sıxlığı 15 nəfərdən 20 nəfərə yüksəldildi, peşə-ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının peşələrinə uyğun 3 ildən bir müəssisə və təşkilatlarda yeni texnika və texnologiyalar üzrə istehsalat təcrübəsi keçməsi, ilk peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki və tədris bazası, infrastrukturu, təhsilverənlərin keyfiyyət göstəriciləri, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi, təlim nəticələri və s. müəyyən edildi.

2010-cu ildə dövlət proqramının icrasına dövlət büdcəsindən 1,2 milyon manat, dövlət investisiya xərclərindən isə ilk peşə-ixtisas təhsili müəssisələrinin əsaslı təmir edilməsinə 3,4 milyon manat vəsait ayrılmışdı. Həmin ildə ilk peşə-ixtisas təhsili müəssisələrinin əsaslı təmiri üçün ayrılan vəsaitin böyük hissəsi İsmayıllı peşə məktəbinin tikintisinin davam etdirilməsi, 4 və 11№-li Bakı Peşə liseylərinin əsaslı təmir işlərinin başa çatdırılması üçün nəzərdə tutulmuşdu. Proqramın həyata keçirilməsi üçün ehtiyaca uyğun vəsaitin ayrılmaması fəaliyyət planında nəzərdə tutulmuş 5 təhsil müəssisəsinin əsaslı təmirinə imkan vermədi. Fəaliyyət planına əsasən nəzərdə tutulmuş peşə təhsili müəssisələrinin əsaslı təmir edilməsi və müasir avadanlıqlarla təchiz edilməsi qismən yerinə yetirildi.

2010-cu ildə Bakıda və ölkənin müxtəlif regionlarında ümumilikdə 12 ilk peşə-ixtisas təhsili müəssisəsinə İKT, turizm, tikinti, yüngül sənaye sahələri üzrə ixtisaslı kadrların hazırlanması üçün tələb olunan maşın və avadanlıqlar verildi, əyani və texniki vəsaitlər paylandı, yeni dərsliklər nəşr edildi, beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə bir neçə ölkəyə təlim səfərləri təşkil olundu. Dövlət Proqramında hədəf kimi müəyyənləşdirilən bir sıra məqsədlərə nail olunmasa da, 2008–2010-cu illər ərzində ilk peşə-ixtisas təhsilinin inkişafına təsir göstərən müəyyən işlər görüldü.

Ölkə vətəndaşlarının iş və təhsildən ayrılmamaq şərtilə peşə təhsili almaq imkanının genişləndirilməsi və peşə təhsilinin təbliğ edilməsi məqsədilə 2010-cu ildə Təhsil Nazirliyi «Elektron peşə təhsili» layihəsini həyata keçirməyə başladı və elektron peşə təhsili portalı (www.avel.edu.az) istifadəyə verildi.

Portalın yaradılmasında məqsəd ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird və mühəndis-pedaqoji heyətinin elektron təlim vasitələri ilə təmin edilməsi, işdən və təhsildən ayrılmamaq şərtilə hər hansı bir peşəni öyrənmək imkanının əldə edilməsi, virtual sinifdə müzakirələrdə, diskussiyalarda iştirak edərək peşə sahəsi üzrə bilik və bacarığın artırılması idi.

Portalın yaradılmasının əhəmiyyətli cəhətlərindən biri də ilk peşə-ixtisas təhsilinə marağı olan gənclərin bu elektron resurs vasitəsilə qabiliyyətlərinə uyğun peşələr seçmək imkanı əldə etmələridir. Bununla yanaşı, portal vasitəsilə işə götürənlər və istehlakçılar kadr hazırlığı üzrə sifariş vermək imkanı əldə etmişdilər.

2008–2011-ci illərdə Azərbaycanda peşə təhsili sisteminin vəziyyəti

İllər	Müəssisələrin sayı	Təhsilalanların sayı	Şagird qəbulu	Şagird buraxılışı	Ümumi işçilərin sayı	O cümlədən müəllimlər	İstehsalat təlimi ustaları
2008	107	25184	13761	11927	6911	2163	1809
2009	108	25604	13980	12557	6480	1995	1666
2010	108	27551	15869	13014	6435	1978	1537
2011	107	27803	16895	14250	6312	1968	1549

İlk peşə-ixtisas təhsili müəssisələrinin əsaslı təmir edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar 2011-ci ildə müvafiq işlər davam etdirildi. Dövlət Proqramı çərçivəsində üç peşə təhsili müəssisəsi əsaslı təmir edildi və bir yeni müəssisə – İsmayıllı Peşə Tədris Mərkəzi tikilib istifadəyə verildi. Bundan əlavə, Bakı kənd və qəsəbələrinin inkişafı üzrə Dövlət Proqramı çərçivəsində daha 3 peşə məktəbi əsaslı təmir edildi.


Təhsilin inkişafında xüsusi rolu olan Heydər Əliyev Fondu ilk peşə-ixtisas təhsilinin də inkişaf etdirilməsində fəal iştirak edir. Təhsil Nazirliyi və UNESCO ilə birlikdə «Peşə Təhsilinin Təkmilləşdirilməsi Layihə»sində fəal iştirak etməklə yanaşı, 2011-ci ildə Fondun maliyyə vəsaiti hesabına Xəzər rayonunun Buzovna qəsəbəsində fəaliyyət göstərən 5№-li Peşə Məktəbinin yenidən qurulmasına

başlanmışdır. Bundan başqa, Dövlət Proqramı çərçivəsində 2011-ci ildə ilk peşə-ixtisas təhsilinin inkişafına istiqamətlənmiş «Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili üzrə kurikulum və modul hazırlamaq üçün təlimat» sənədi, «Strateji planların hazırlanması üzrə təlimati sənəd», «İlk peşə-ixtisas təhsili müəssisələri üçün Nümunəvi Nizamnamə» kimi hüquqi-normativ sənədlər hazırlanıb təsdiq edildi.

Dövlət qurumlarının, özəl təşkilatların və işəgötürənlərin təklifləri əsasında ixtisas və ixtisaslaşma klasifikatoru hazırlanıb Nazirlər Kabinetinə təqdim edildi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli 178№-li Qərarı ilə «İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı» təsdiq edilmişdir.

«İlk peşə-ixtisas təhsili üzrə ixtisasların Təsnifatı» «Sənətşünaslıq, mədəniyyət və incəsənət», «İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə», «Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı», «Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları», «Metallurgiya, maşınqayırma və metal emalı», «Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri», «Kimyəvi və biokimyəvi texnologiya»,



18№-li Bakı Peşə Liseyi

«İlkin tələbat və ərzaq mallarının texnologiyası» və «İnşaat və arxitektura» kimi 9 peşə istiqamətindən, 220 ixtisas qrupundan və 720 ixtisasdan ibarətdir.

Qeyri-hökumət təşkilatları, inkişaf etmiş ölkələrin və transmilli şirkətlərin dəstəyi ilə ilk peşə-ixtisas təhsilinin inkişafına müsbət təsir göstərən səmərəli tədbirlər həyata keçirildi:

Milli Məhsuldarlıq və Rəqabətədavamlılıq Mərkəzi ilə birlikdə 3 iqtisadi rayonda əmək bazarının tələbatı öyrənildi. Tacirlər və İstehsalçılar Birliyinin dəstəyi ilə 18№-li Bakı Peşə Liseyində Təlim Mərkəzi yaradıldı. Bundan başqa, tikinti materiallarının hazırlanmasında dünya liderlərindən biri olan «KNAUF» şirkətinin dəstəyi ilə 4№-li Bakı Peşə Liseyində Təlim Mərkəzi yaradıldı.

Haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Yaponiyanın Azərbaycandakı səfirliyi və Azərbaycan Maarifçi Gənclər təşkilatının ilk peşə-ixtisas təhsili sahəsində birgə Qrant layihəsi ilk peşə-ixtisas təhsilinin inkişafı istiqamətində atılan addımlardan biridir. Yaponiya səfirliyinin ayırdığı maliyyə vəsaiti hesabına həyata keçirilən layihənin məqsədi aztəminatlı məcburi köçkün ailələrindən olan gənclərin peşə təhsilinə cəlb edilməsi vasitəsilə onların sosial müdafiəsinin gücləndirilməsinə yardım etməkdir. Layihə çərçivəsində 2№-li Bakı Peşə Liseyinin istehsalat emalatxanasının əsaslı təmir edilməsi, elektrik xətlərinin yenidən qurulması və s. işlərin görülməsi nəzərdə tutulmuşdur.


Təhsil Nazirliyi isə Dövlət Proqramı çərçivəsində peşə liseyinə 50 min manat dəyərində texnika və avadanlıq vermişdir. Yeri gəlmişkən qeyd edim ki, 2№-li Bakı Peşə Liseyi sovet dövründə respublikanın ən böyük peşə təhsili komplekslərindən idi. 1000-dən artıq şagirdə, eyni zamanda peşə təhsili verən bu məktəb tədris binası, emalatxana, laboratoriyalar və yataqxanadan ibarət olmaqla, dövrünün ən müasir peşə təhsili müəssisələrindən biri hesab edilirdi.

Hazırda peşə təhsili kompleksinin yataqxanasında, əksər emalatxana və laboratoriyalarda məcburi köçkünlər məskunlaşdığı üçün tədris prosesində müəyyən çətinliklər yaranmışdır. Şübhəsiz ki, Dövlət Proqramı çərçivəsində liseyin maddi-texniki bazasının qismən yenilənməsi və Qrant layihənin həyata keçirilməsi təhsil müəssisəsində şagirdlərin peşələrə yiyələnmələri üçün daha səmərəli mühit yaradacaqdır.

Təhsil Nazirliyi Azərbaycan iqtisadiyyatının inkişafında ilk peşə-ixtisas təhsilinin mühüm rol oynadığını nəzərə alaraq, bu sahənin inkişafı üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etməyə bilavasitə cavabdeh və marağı olan İqtisadi İnkişaf, Kənd Təsərrüfatı, Yanacaq və Energetika, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə müraciətlə, mütəxəssislərdən ibarət işçi qrupunun yaradılması, respublikada ilk peşə-ixtisas təhsilinin inkişaf strategiyasının hazırlanmasını təklif etmişdir.

İlk peşə ixtisas təhsili sisteminin inkişafına diqqət yetirilməsi nəticəsində təhsilin bu sahəsi üçün ayrılan vəsait 2008-ci illə müqayisədə 2011-ci ildə xeyli artdı, bir təhsilalana düşən vəsait 943 manatdan 1184 manata qədər yüksəldi.

İlk peşə-ixtisas təhsili müəssisəsində bir ildə orta hesabla bir təhsilalana düşən xərc



Hazırda respublikada 107 ilk peşə-ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Bunlardan 46-sı peşə liseyi, 59-u peşə məktəbi, 2-si peşə tədris mərkəzidir.

Respublikanın ilk peşə-ixtisas təhsili müəssisələri:

1. Azərbaycan Dövlət Dəmir Yol Liseyi
2. Şərur Peşə Liseyi
3. 1 №-li Bakı Peşə Liseyi
4. 2 №-li Bakı Peşə Liseyi
5. 3 №-li Bakı Peşə Liseyi
6. 4 №-li Bakı Peşə Liseyi
7. 5 №-li Bakı Peşə Liseyi
8. 6 №-li Bakı Peşə Liseyi
9. 7 №-li Bakı Peşə Liseyi
10. 8 №-li Bakı Peşə Liseyi
11. 9 №-li Bakı Peşə Liseyi
12. 11 №-li Bakı Peşə Liseyi
13. 12 №-li Bakı Peşə Liseyi
14. 13 №-li Bakı Peşə Liseyi
15. 14 №-li Bakı Peşə Liseyi
16. 15 №-li Bakı Peşə Liseyi
17. 16 №-li Bakı Peşə Liseyi
18. 17 №-li Bakı Peşə Liseyi
19. 18 №-li Bakı Peşə Liseyi
20. 1 №-li Gəncə Peşə Liseyi
21. 2 №-li Gəncə Peşə Liseyi
22. 3 №-li Gəncə Peşə Liseyi
23. 1 №-li Sumqayıt Peşə Liseyi
24. 3 №-li Sumqayıt Peşə Liseyi
25. 10 №-li Sumqayıt Peşə Liseyi
26. Abşeron-Binə Peşə Liseyi
27. Abşeron-Ceyranbatan Peşə Liseyi
28. Şirvan Peşə Liseyi
29. Sabirabad Peşə Liseyi
30. Salyan Peşə Liseyi
31. Saatlı Peşə Liseyi
32. Bərdə Peşə Liseyi
33. Kürdəmir Peşə Liseyi
34. Cəlilabad Peşə Liseyi
35. Lənkəran Peşə Liseyi
36. Biləsuvar Peşə Liseyi
37. Şamaxı Peşə Liseyi
38. Göyçay Peşə Liseyi
39. Zərdab Peşə Liseyi
40. Qax Peşə Liseyi
41. Şəmkir Peşə Liseyi
42. Qazax Peşə Liseyi
43. Gədəbəy Peşə Liseyi
44. Tovuz Peşə Liseyi
45. Xaçmaz Peşə Liseyi
46. Quba Peşə Liseyi
47. İsmayıllı Peşə Tədris Mərkəzi
48. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi
49. Culfa Peşə Məktəbi
50. Ordubad Peşə Məktəbi
51. 1 №-li Bakı Peşə Məktəbi
52. 2 №-li Bakı Peşə Məktəbi
53. 3 №-li Bakı Peşə Məktəbi
54. 5 №-li Bakı Peşə Məktəbi

55. 6 №-li Bakı Peşə Məktəbi
56. 7 №-li Bakı Peşə Məktəbi
57. 10 №-li Bakı Peşə Məktəbi
58. 12 №-li Bakı Peşə Məktəbi
59. 13 №-li Bakı Peşə Məktəbi
60. 14 №-li Bakı Peşə Məktəbi
61. 16 №-li Bakı Peşə Məktəbi
62. 17 №-li Bakı Peşə Məktəbi
63. 18 №-li Bakı Peşə Məktəbi
64. 19 №-li Bakı Peşə Məktəbi
65. 20 №-li Bakı Peşə Məktəbi
66. 21 №-li Bakı Peşə Məktəbi
67. 22 №-li Bakı Peşə Məktəbi
68. 1 №-li Gəncə Peşə Məktəbi
69. 2 №-li Gəncə Peşə Məktəbi
70. 3 №-li Gəncə Peşə Məktəbi
71. Salyan Peşə Məktəbi
72. Cəlilabad Peşə Məktəbi
73. Xaçmaz Peşə Məktəbi
74. Quba (xüsusi) Peşə Məktəbi
75. Mingəçevir Peşə Məktəbi
76. Neftçala Peşə Məktəbi
77. Beyləqan Peşə Məktəbi
78. İmişli Peşə Məktəbi
79. Ağcabədi Peşə Məktəbi
80. Yevlax Peşə Məktəbi
81. Masallı Peşə Məktəbi
82. Lerik Peşə Məktəbi.
83. Yardımlı Peşə Məktəbi
84. 1 №-li Şəki Peşə Məktəbi
85. 2 №-li Şəki Peşə Məktəbi
86. 1 №-li Balakən Peşə Məktəbi
87. 2№-li Balakən Peşə Məktəbi
88. Zaqatala Peşə Məktəbi
89. Daşkəsən Peşə Məktəbi
90. Göygöl Peşə Məktəbi
91. Goranboy Peşə Məktəbi
92. Naftalan Peşə Məktəbi
93. Ağstafa Peşə Məktəbi
94. Ağdaş Peşə Məktəbi
95. Qəbələ Peşə Məktəbi
96. Oğuz Peşə Məktəbi
97. Şabran Peşə Məktəbi
98. Xızı Peşə Məktəbi
99. Siyəzən Peşə Məktəbi
100. Şuşa Peşə Məktəbi (Keçmiş 72№-li)
101. Laçın Peşə Məktəbi (Keçmiş 127№-li)
102. 1№-li Füzuli Peşə Məktəbi (Keçmiş 116№-li)
103. 2№-li Füzuli Peşə Məktəbi (Keçmiş 162№-li)
104. Kəlbəcər Peşə Məktəbi (Keçmiş 189№-li)
105. Cəbrayıl Peşə Məktəbi (Keçmiş 131№-li)
106. Tərtər Peşə Məktəbi
107. Zəngilan Peşə Məktəbi (Keçmiş 144№-li)
108. Qubadlı Peşə Məktəbi (Keçmiş 126№-li)
109. 1№-li Ağdam Peşə Məktəbi (Keçmiş 24№-li)
110. 2 №-li Ağdam Peşə Məktəbi (Keçmiş 50№-li)
111. 3№-li Ağdam Peşə Məktəbi (Keçmiş 70№-li)
112. 4№-li Ağdam Peşə Məktəbi (Keçmiş 130№-li)
113. 5№-li Ağdam Peşə Məktəbi (Keçmiş 136№-li)

Qeyd: Şuşa, Zəngilan, Qubadlı peşə məktəbləri və Ağdam 3№-li, 4№-li, 5№-li peşə məktəbləri fəaliyyətini müvəqqəti dayandırmışdır – M.M.

İqtisadiyyatın ayrı-ayrı sahələri üçün kadr hazırlayan peşə təhsili müəssisələri


Sahələrin adı	Peşə təhsili müəssisələrinin sayı
Neft və neft-kimya sənayesi	4
Tikinti sahəsi	12
Poliqrafiya	1
Radiotexnika, elektronika və rabitə	4
Dəmir yolu və avtonəqliyyat	3
Ticarət, ictimai iaşə və xidmət	8
Maşınqayırma və cihazqayırma sənayesi	2
Metallurgiya sənayesi	2
Yüngül sənaye	6
Kənd təsərrüfatı sahəsi	54
İqtisadiyyatın digər sahələri	2
Cəzaçəkmə müəssisələri nəzdində qarışıq tipli	8
Xüsusi peşə məktəbi	1
Cəmi:	**107**

Dövlət Proqramının icrası işəgötürən təşkilatların bu sahəyə diqqətinin artmasına səbəb oldu. Bir sıra iri şirkətlərin və hüquqi şəxslərin sifarişləri əsasında ödənişli əsaslarla kadr hazırlığı prosesi genişlənməyə başladı. Bu isə işəgötürən təşkilatların kadr tələbatının ödənilməsi ilə yanaşı, həmçinin peşə təhsili müəssisələri üçün əlavə gəlirlərin əldə edilməsinə imkan yaratdı. 2006-cı ildə ilk peşə-ixtisas təhsili müəssisələrinin ödənişli təhsildən əldə etdiyi gəlir 78971 manat olmuşdusa, 2009-cu ildə bu rəqəm 338402 manata, 2010-cu ildə isə 396312 manata çatmışdı.

2011-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələri üçün dərsliklərin hazırlanması prosesi davam etdirildi. İlk peşə-ixtisas təhsili müəssisələri üçün dərsliklərin hazırlanması prosesinə qeyri-hökümət təşkilatları da cəlb edildi. Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və UNESCO ilə birgə həyata keçirilən «Peşə təhsilinin təkmilləşdirilməsi layihəsi» çərçivəsində «Otel nəzarətçisi» və «Kompyuter üzrə operator» ixtisasları üzrə, «Uşaqların Xilası» Təşkilatının dəstəyi ilə «İlkin iqtisadi biliklər və həyati bacarıqları» adlı, «Dünyaya Baxış» təşkilatının dəstəyi ilə isə «Elektrik qaz qaynaqçısı» və «Təmirçi çilingər» ixtisasları üzrə və s. dərsliklər hazırlandı. Ümumilikdə 2011-ci ildə 16 adda dərslik çap olunub ilk peşə-ixtisas təhsili müəssisələrinə paylanıldı.

Dövlət Proqramının həyata keçirilməsi nəticəsində peşə təhsili müəssisələrinin İKT ilə təminatı da xeyli yaxşılaşdı.

İlk peşə-ixtisas təhsili müəssisələrinin İKT ilə təchizatı vəziyyəti



Bütün deyilənlər göstərir ki, Dövlət Proqramının reallaşdırılması ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətində dönüş yarada bilmişdir. Peşə təhsili müəssisələri inkişaf etməyə başlamış, işəgötürən təşkilatlarla səmərəli əlaqələr yaradılmışdır. Dövlət Proqramının icrasının 3 ili ərzində görülən işlər qısa zaman ərzində peşə təhsili müəssisələrinin dinamik inkişafı üçün zəmin hazırlamışdır.

Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə ilk peşə-ixtisas təhsilinə ayrılan vəsaitin əsas hissəsi işçilərin əmək haqqının və şagirdlərin təqaüdünün verilməsinə, kommunal xidmətlərin ödənilməsinə sərf edilir, yalnız 15–20%-i peşə təhsili müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və təlim vəsaitlərinin alınmasına yönəldilir. İnkişaf etmiş ölkələrdə isə ilk peşə-ixtisas təhsili müəssisələrində bir təhsilalana düşən maliyyə vəsaiti Azərbaycanda olduğundan bir neçə dəfə artıqdır. Müqayisə üçün qeyd edək ki, Danimarkada bu məbləğ 10749 avro, Avstriyada 8773 avro, Finlandiyada 5833 avro, Litvada 2564 avro, Latviyada 2438 avro təşkil edir. Eyni zamanda ölkəmizdə dövlət büdcəsindən təhsil sektoruna ayrılan vəsaitin yalnız 2–3%-i ilk peşə-ixtisas təhsilinə yönəldilir. Halbuki Rumıniyada bu rəqəm 16%, Rusiyada 10%, Qazaxıstanda isə 6,2% təşkil edir. Göründüyü kimi, inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaq istiqamətində əlavə tədbirlərin müəyyənləşdirilməsinə zərurət vardır.

Bir vacib məsələni də qeyd edək ki, hər il ölkəmizdə yüz mindən çox gənc orta məktəbi bitirir. Onların təxminən 60%-i peşəsiz–sənətsiz əmək bazarında özünə yer axtarmağa məcburdur. Ölkədə əmək bazarında yaranmış güclü rəqabət şəraitində belə ixtisassız insanların öz məşğulluğunu təmin edə bilməsi müşkül bir məsələyə çevrilmişdir. Digər tərəfdən bu kimi insanların təhsil almaları üçün imkanlar da olduqca məhduddur. Düşünürəm ki, məhz peşə təhsili vasitəsilə həmin şəxslərə müvafiq peşə və ixtisaslar verilə bilər ki, onlar işlə təmin edilsinlər. Bunun üçün, ilk növbədə, ilk peşə-ixtisas təhsilinə cəmiyyətdə yaranmış münasibəti dəyişmək, bununla əlaqədar təbliğat və maarifləndirmə işlərini genişləndirmək lazımdır. İnsanlar peşə təhsili ocaqlarına orta məktəblərdə zəif oxuyan, dərslərdən yayınan, nizam-intizama riayət etməyən uşaqların cəlb olunduğu müəssisələr kimi baxmamalıdırlar. Çox təəssüf ki, bu gün elə məktəb direktorları, müəllimlər var ki, «ipə-sapa yatmayan» şagirdləri həmin müəssisələrə göndərəcəkləri ilə qorxudurlar. Bütün bunlar yerli təhsil orqanlarının, məktəb rəhbərlərinin ilk peşə-ixtisas təhsili müəssisələri ilə heç bir əlaqə yaratmaması, uşaqların peşəyönümü işinin təşkilində onların imkanlarından lazımınca yararlanmamasının nəticəsidir.

Etiraf edək ki, orta məktəb şagirdlərinin, valideynlərin əksəriyyəti həmin müəssisələrdə öyrədilən peşələrdən xəbərsizdirlər. Peşə təhsilinin vacibliyi, insanın gələcək həyatının qurulmasında istedadı və qabiliyyəti çatan peşələrə yiyələnmənin əhəmiyyəti barədə şagird və valideynlər arasında heç bir təbliğat-təşviqat işləri aparılmır.

Düşünürəm ki, ümumtəhsil məktəbləri məzunlarının potensial imkanları, bilik və bacarıqları çatdı-çatmadı bilavasitə ali məktəblərə istiqamətlənməsi də, əsasən, bu amillərlə bağlıdır.










2011-ci ildə nəşr olunmuş yeni dərsliklər









2011-ci ildə nəşr olunmuş yeni dərsliklər

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin nümunəsində texniki peşə təhsilinin cəmiyyətdə rolu və imkanları haqqında ictimaiyyəti geniş məlumatlandırmaq, həm də bu ölkələrdəki təcrübəni öyrənmək yaxın gələcək üçün əsas vəzifələrimizdəndir.

Beləliklə, Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində aşağıdakı işlər görüldü:

1. İki yeni peşə tədris mərkəzi (Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi və İsmayıllı Peşə Tədris Mərkəzi) yaradıldı, 11 peşə təhsili müəssisəsi isə əsaslı təmir edildi.

2. Peşə təhsili müəssisələrinin əksəriyyəti informasiya-kommunikasiya texnologiyaları ilə təmin edildi, bir sıra peşə təhsili müəssisələrinin emalatxanaları təmir edildi, müasir təlim sinifləri yaradıldı, avadanlıqlarla təchizat səviyyəsi yüksəldi.

3. Təhsilin məzmununun təkmilləşdirilməsi sahəsində tədbirlər həyata keçirildi, yeni tədris proqramları (kurikulumlar), dərslik və dərs vəsaitləri hazırlanaraq təhsil müəssisələrinin istifadəsinə verildi.

4. Peşə təhsili müəssisələrində çalışan mühəndis-pedaqoji işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi məqsədilə onların ölkə daxilində və xaricdə çoxlu sayda təlimlərdə iştirakı təmin edildi.

5. Peşə təhsili müəssisələri şəbəkəsinin optimallaşdırılması ilə əlaqədar tədbirlər həyata keçirildi.

6. İlk peşə-ixtisas təhsili müəssisələrinin büdcə təminatı normativlərinin hesablanması metodikası və tətbiqolunma qaydaları hazırlandı.

7. İlk peşə-ixtisas təhsilini əmək bazarının dəyişən tələbinə uyğunlaşdırmaq məqsədilə bu sahə üzrə yeni ixtisas və ixtisaslaşma klassifikatoru hazırlandı.

8. İlk peşə-ixtisas təhsili üzrə yeni dövlət standartları və proqramı hazırlandı.

9. İlk peşə-ixtisas təhsili müəssisələri ilə işəgötürən təşkilatlar arasında tərəfdaşlıq əlaqələri inkişaf etdirildi.

10. İlk peşə-ixtisas təhsili sahəsində beynəlxalq təşkilatlarla birlikdə 10-dan artıq birgə layihə həyata keçirildi.

11. Regional inkişaf istiqamətlərində və yeni yaranacaq istehsal və xidmət müəssisələrinin tələbatına uyğun peşə ixtisas kadrlarının hazırlanması proqnozu işlənib hazırlandı.

Ölkə Prezidentinin Sərəncamına əsasən hazırlanan «2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya»da kompetensiyalar əsaslı peşə-ixtisas təhsili standartları və kurikulumlarının hazırlanması, müasir təminatlı peşə-tədris müəssisələrinin və komplekslərinin yaradılması nəzərdə tutulmuşdur. Eyni zamanda Milli Strategiyada zəif kadr və resurs bazarı olan kolleclərin tədricən peşə-ixtisas təhsili müəssisələrinə çevrilməsi də öz əksini tapmışdır.

Ümid edirəm ki, həyata keçirmək istədiyimiz təşəbbüslər gələcəkdə Azərbaycan iqtisadiyyatının müasir inkişaf tələblərinə cavab verən ilk peşə-ixtisas təhsili sisteminin yaranmasına öz töhfəsini verəcəkdir.

VI FƏSİL

ORTA İXTİSAS TƏHSİLİNİN İNKİŞAFI

Müstəqilliyin ilk illərində (1991–1993) Azərbaycanın ictimai-siyasi həyatında yaranmış böhranlı vəziyyət respublikanın orta ixtisas təhsilinə də öz mənfi təsirini göstərmişdi.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Üzeyir Hacıbəyov adına Ağdam Musiqi Məktəbi (2006-cı ilə kimi Bərdədə fəaliyyət göstərmiş, sonra Ağdamın Quzanlı kəndinə qaytarılmışdır) Bərdədə, Ağdam Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi, Ağdam Kənd Təsərrüfatı Texnikumları (2002-ci ildə həmin texnikumların bazasında Ağdam Dövlət İqtisad Kolleci yaradılmışdır) Ağcabədidə, Şuşa Kənd Təsərrüfatı Texnikumu (sonra Gəncə Texniki Kollecinə birləşdirilmişdir) Gəncədə, Şuşa Musiqi Məktəbi Bakıda, Şuşa Mədəni-Maarif Texnikumu Ağcabədidə (1993–1995-ci illərdə Ağcabədidə olub sonra Bakıya köçürülmüşdür) fəaliy-yət göstərmişdir. Xankəndi Sovxoz Texnikumu, Xankəndi Musiqi Məktəbi, Xankəndi Tibb Məktəbi işğal olunmuş ərazilərdə qalmışdır.

1991/92-ci tədris ilində Azərbaycan Respublikasında 77 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrdə 60100 nəfər tələbə təhsil alırdı ki, bu da 1990/91-ci tədris ilindəki müvafiq göstəricidən 1300 nəfər çox idi. Lakin 1991-ci ildən başlayaraq ölkədə istehsalat müəssisələrinin (zavod, fabrik, sex və s.) fəaliyyətinin dayandırılması, kənd təsərrüfatının bərbad vəziyyətə düşməsi, kolxoz və sovxozların ləğv olunması və bütün bunların əvəzində yeni tipli müəssisələrin yaradılmaması nəticəsində orta ixtisas təhsilli mütəxəssislərə tələbat azaldı və bu da qəbul planının aşağı düşməsinə səbəb oldu. Ona görə də 1991–1997-ci illərdə orta ixtisas təhsili müəssisələrinin sayı 77-dən 73-ə, tələbələrin sayı 60100 nəfərdən 32600 nəfərə endi. Əhalinin hər min nəfərinə düşən tələbələrin sayı, demək olar ki, iki dəfə (83-dən 42-yə) azaldı.

Orta ixtisas təhsili müəssisələri
1991–1998-ci illərdə

Tədris illəri	Orta ixtisas təhsili müəssisələrinin sayı	Orta ixtisas məktəblərində tələbələrin sayı				Əhalinin hər min nəfərinə hesabı ilə tələbələrin sayı
		Cəmi (min nəfərlə)	Gündüz	Axşam	Qiyabi	
1991/92	77	60100	37900	5200	17000	83
1992/93	78	46900	26900	3700	16300	64
1993/94	78	33900	20200	1400	12300	46
1994/95	78	30400	22800	600	7000	40
1995/96	78	30500	24500	500	5500	40
1996/97	77	31400	26100	–	5300	41
1997/98	73	32600	26700	–	5900	42

1990-cı illərin əvvəllərində orta ixtisas təhsili müəssisələri hələ sovet dövrünün qaydaları ilə idarə olunurdu. Azərbaycanın özünün Təhsil qanunu, təhsillə, o cümlədən orta ixtisas təhsili ilə bağlı əsasnamə, təlimat və qaydaları, təhsil standartları yox idi.

1992-ci ildə qəbul olunan ilk «Təhsil Qanunu»nda orta ixtisas təhsili müəssisələrinin statusu və fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirildi. Qanunun 18-ci maddəsində qeyd olunurdu ki, «orta ixtisas məktəbləri (texnikumlar, kolleclər və s.) orta ixtisas təhsili proqramlarını həyata keçirən tədris müəssisələridir. Həmin təhsil müəssisələri əsas və ümumi orta təhsil, peşə məktəbləri və peşə liseyləri bazasında fəaliyyət göstərməklə orta pillədən olan ixtisaslı mütəxəssislər hazırlayır, onları təkmilləşdirir və ixtisaslarını artırır. Əsas təhsili başa vurduqdan sonra orta ixtisas məktəblərinə daxil olmuş vətəndaşlar orta ixtisas təhsili ilə yanaşı, ümumi orta təhsil də alırlar... Orta ixtisas məktəblərini bitirənlərə «kiçik mütəxəssis» dərəcəsi verilir».

Qanunda, həmçinin ali məktəblərin nəzdində müvafiq ixtisaslar üzrə orta ixtisas məktəblərinin, qabaqcıl texnikumların maddi-texniki və kadr potensialı əsasında müasir kolleclər şəbəkəsinin yaradılması təsbit olundu.

Hüquqi-normativ sənədlərin hazırlanması. Ötən əsrin 90-cı illərində orta ixtisas təhsili müəssisələrinin fəaliyyətini tənzimləmək məqsədilə aşağıdakı hüquqi-normativ sənədlər hazırlanıb təsdiq olundu:

- «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 yanvar 1995-ci il tarixli qərarı);
- «Orta ixtisas təhsili müəssisəsi haqqında Əsasnamə» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 mart 1995-ci il tarixli qərarı);
- «Ali (orta ixtisas) təhsili müəssisələrində eksternat haqqında Əsasnamə» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 noyabr 1995-ci il tarixli qərarı);
- «Əlavə ali (orta) ixtisas təhsili almaq haqqında Əsasnamə» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07 avqust 1996-cı il tarixli əmri);
- «Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi, tələbələr sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması və təkrar kursda saxlanılması haqqında Əsasnamə» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07 avqust 1996-cı il tarixli əmri);
- «Orta ixtisas təhsili müəssisəsinin Pedaqoji Şurası haqqında Əsasnamə» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 1997-ci il tarixli qərarı);
- «Dövlət orta ixtisas təhsili müəssisələri tələbələrinin semestr imtahanları və məqbulları haqqında Əsasnamə» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 fevral 1997-ci il tarixli əmri);
- «Dövlət orta ixtisas təhsili müəssisələrinin şöbələri haqqında Əsasnamə» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 1997-ci il tarixli qərarı);
- «Dövlət orta ixtisas təhsili müəssisələrində fənn və fənn birləşməsi komissiyaları haqqında Əsasnamə» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 fevral 1997-ci il tarixli, əmri);

- «Azərbaycan Respublikası orta ixtisas-peşə təhsili müəssisəsi tələbələrinin dövlət attestasiyası haqqında Əsasnamə» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 noyabr 1997-ci il tarixli əmri);
- «Orta ixtisas təhsili müəssisəsinin maddi-texniki təchizatına, kadr potensialına və strukturuna qoyulan minimum normalar» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 1998-ci il tarixli əmri);
- «Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinin, ixtisasartırma institutlarının və digər təhsil və təlim-tərbiyə müəssisələrinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi qaydaları» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 may 1998-ci il tarixli qərarı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 9 iyun 1998-ci il tarixli əmri).

Texnikumların maddi və tədris-texniki bazasını, müəllimlərin rifah halını yaxşılaşdırmaq məqsədilə Respublika Nazirlər Kabinetinin «Azərbaycan Respublikası tədris müəssisələrində ödənişli əsaslarla təhsil qruplarının yaradılması barədə» 23 dekabr 1993-cü il tarixli qərarı oldu. Həmin qərarla 1993/94-cü tədris ilinin qəbul imtahanlarında yüksək bal toplamış və müsabiqədən keçməmiş abiturientlərin humanitar və digər nüfuzlu ixtisaslara meyillərini nəzərə alaraq ödənişli əsaslarla təhsil qruplarının yaradılmasına icazə verildi. Qərardan sonra hər il orta ixtisas məktəblərinə ödənişli əsaslarla tələbə qəbulu aparıldı və tədricən ümumi qəbulun 40%-inə çatdırıldı.

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu 1994-cü ildən başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən aparılmağa başlandı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 mart 1995-ci il tarixli qərarı ilə təsdiq olunmuş «Orta ixtisas təhsili müəssisələrinin Əsasnaməsi»ndə orta ixtisas təhsili müəssisəsi (texnikum, orta ixtisas məktəbi, kollec), onun vəzifələri, həmin müəssisələrə qəbul, təhsil müəssisəsinin fəaliyyəti və buna nəzarət, orta ixtisas təhsili müəssisələrinin idarə olunması, onların standartları, tələbələr, dinləyicilər, işçilərin hüquq və vəzifələri, təhsil sisteminin iqtisadiyyatı, beynəlxalq fəaliyyəti və s. istiqamətlər müəyyən olundu.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 aprel 1997-ci il tarixli əmri ilə «Dövlət orta ixtisas təhsili müəssisələrində fənn (fənn birləşmə) komissiyaları haqqında Əsasnamə» təsdiq edildi. Bu sənədin təsdiqindən sonra fənn (fənn birləşmə) komissiyalarının işində canlanma yarandı, bir sıra məqsədyönlü tədbirlər (tədrisdə fəal/interaktiv metodlardan istifadə edilməsi, tədris plan və proqramlarının təkmilləşdirilməsi, metodik göstəriş və tövsiyələrin işlənib-hazırlanması və s.) həyata keçirildi.

1997-ci ildə istiqamət və ixtisasların klassifikatoru təsdiq olundu, sonra Nazirlər Kabinetinin qərarları ilə müvafiq siyahıya çoxlu sayda yeni ixtisaslar əlavə olundu. Digər tərəfdən müasir dövrün tələblərinə uyğun gəlmədiyinə görə bəzi ixtisaslar klassifikatordan çıxarıldı.

«Təhsil haqqında sənədlərin alınması, saxlanılması, doldurulması, verilməsi və uçotu haqqında təlimat» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02 fevral 2001-ci il tarixli əmri), «Ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin pedaqoji təcrübəsinin təşkili və

keçirilməsinə dair müvəqqəti qaydalar» (Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 may 2002-ci il tarixli əmri) təsdiq olundu.

Orta ixtisas təhsili məktəblərinin şəbəkəsinin təkmilləşdirilməsi. 2000-ci ildə orta ixtisas təhsili məktəblərinin şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirildi. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 13 iyun 2000-ci il tarixli Fərmanına uyğun olaraq, orta ixtisas təhsili müəssisələrinin filialları ləğv olundu. Həmin Fərmanla yeni təsis olunan Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun bazasında İncəsənət Kolleci, Azərbaycan Milli Konservatoriyasının nəzdində Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Musiqi Kolleci yaradıldı. Eyni zamanda müvafiq fərmanla məktəbəqədər tərbiyə müəssisələri və məktəblərin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlamaq, habelə müəllimlərin ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanmasını təmin etmək məqsədilə təsis olunan Azərbaycan Müəllimlər İnstitutunun bəzi filiallarının yaradılmasında bir sıra orta ixtisas məktəblərinin bazalarından istifadə olundu. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialı, Bakı Mədəni-Maarif Texnikumunun Ağcabədi şöbəsi və Ağdaş Pedaqoji Texnikumunun Ağcabədi filialının bazasında Ağcabədi, Cəlilabad Kənd Təsərrüfat Texnikumunun bazasında Cəlilabad, Gəncə Zona Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Gəncə şəhər Təsərrüfat Hesablı Məişət Kollecinin bazasında Gəncə, Mingəçevir Politexnik Texnikumunun və Azərbaycan Maliyyə-İqtisad Kollecinin Xocalı filialının bazasında Mingəçevir, Naxçıvan Politexnik Texnikumunun bazasında Naxçıvan, Salyan Kənd Təsərrüfatı Texnikumunun bazasında Salyan, Sumqayıt Politexnik Texnikumunun bazasında Sumqayıt, Zaqatala Politexnik Texnikumunun bazasında Zaqatala filialları açıldı. Beləliklə, orta ixtisas təhsili müəssisələrinin sayı 1999/2000-ci tədris ilindəki 73-dən 2001/02-ci tədris ilində 66-ya endi.

2000-ci ildə orta ixtisas təhsilinin məzmununda da əsaslı dəyişikliklər aparıldı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli qərarı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları»nın tərkib hissəsi olan «Ümumi təhsilin bazis tədris planı»nın tələblərinə uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən «Orta ixtisas təhsilinin nümunəvi baza təhsil proqramının strukturu» hazırlandı və 2000-ci il iyunun 28-də təsdiq edildi. Nümunəvi struktur təsdiq olunduqdan sonra respublikanın orta ixtisas məktəblərində kiçik mütəxəssis hazırlığı aparılan 132 ixtisas üzrə tədris plan və proqramlarında müvafiq dəyişikliklər edildi.

2001-ci ildə Azərbaycan əhalisinin 9,2%-i orta ixtisas təhsili ilə əhatə olunmuşdu. İqtisadiyyatın müxtəlif sahələrində təxminən 750 min nəfər orta ixtisas təhsilli mütəxəssis çalışırdı ki, bu da əmək qabiliyyəti olan əhalinin 13,7%-ni təşkil edirdi. Orta ixtisas məktəblərində 2000/01-ci tədris ilində tələbə qəbulu planının bir qədər azaldılmasına (1997-ci ildə 14565 nəfərdən, 2000-ci ildə 10862 nəfərə qədər) baxmayaraq, gənclərin orta ixtisas təhsilinə olan meyil və marağı artmışdı.

1992–2011-ci illərdə orta ixtisas məktəblərinə faktiki qəbul

İllər	Faktiki qəbul		
	Cəmi	Ödənişsiz	Ödənişli
1992	3500	–	–
1993	8800	–	–
1994	11700	–	–
1995	8980	5000	3980
1996	9500	5355	4145
1997	8800	5072	3728
1998	7937	5506	2431
1999	7984	5233	2751
2000	8212	4993	3219
2001	8758	5523	3235
2002	5951	3700	2251
2003	6823	4057	2766
2004	6915	3967	2948
2005	8742	4800	3942
2006	7851	3920	3931
2007	5697	3134	2563
2008	15681	8876	6805
2009	15249	8715	6534
2010	14955	8419	6536
2011	17187	8328	8859

Əgər 1997-ci ildə orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə verənlərin sayı 10829 nəfər olmuşdusa, bu rəqəm 2000-ci ildə 14987 nəfərə çatmışdı. Orta ixtisas təhsili müəssisələrində tələbə kontingenti də artırdı. 1995-ci ildə orta ixtisas məktəblərində təhsil alanların sayı 30400 nəfər olduğu halda, 2001-ci ildə bu rəqəm 38900 nəfərə qədər yüksəlmişdi.

1998/99–2010/11-ci tədris illərində dövlət orta ixtisas təhsili müəssisələri, onlarda təhsil alan tələbələrin sayı

Tədris illəri	Orta ixtisas təhsili müəssisələrinin sayı	Orta ixtisas məktəblərində tələbələrin sayı	O cümlədən		Əhalinin hər min nəfərinə hesabı ilə tələbələrin sayı
			Gündüz	Qiyabi	
1998/99	73	35700	28800	6900	46
1999/2000	73	38800	31500	7300	49
2000/01	67	38900	33100	8100	52
2001/02	66	47700	37500	10200	59
2002/03	55	50300	38900	11400	62
2003/04	55	52300	40700	11600	64
2004/05	55	54200	43100	11100	66
2005/06	56	55000	43300	11700	68
2006/07	56	53700	41300	12400	64
2007/08	59	53256	41150	12106	64
2008/09	57	51596	39268	12328	64
2009/10	57	51079	40514	10565	60
2010/11	57	51681	41478	10203	60

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 iyun 2001-ci il tarixli qərarı ilə Bakı Kompyuter Kolleci və 5 oktyabr 2001-ci il tarixli qərarı ilə Ağcabədi Pedaqoji Texnikumu təşkil olundu.

2001/02-ci tədris ilindən başlayaraq orta ixtisas təhsilinin məzmununda da müəyyən dəyişikliklər aparıldı. Lakin buna baxmayaraq, orta ixtisas təhsili məktəblərində tədris prosesinin təşkilinin, mütəxəssis hazırlığının strukturunun, iqtisadi fəaliyyət mexanizminin təkmilləşdirilməsinə, təhsil alanların və işləyənlərin sosial-iqtisadi müdafiəsinin gücləndirilməsinə, kadr potensialının inkişaf etdirilməsinə, tədris müəssisələrinin beynəlxalq təhsil xidməti bazarına daxil edilməsinə və s. ehtiyac duyulurdu.

Bütün bu və ya digər məsələlər Təhsil Nazirliyinin 06 iyul 2001-ci il tarixli Kollegiya iclasında ətraflı müzakirə olundu. Kollegiyanın «Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin və kadr hazırlığı strukturunun təkmilləşdirilməsi barədə» qərarında orta ixtisas məktəbləri tərəfindən təhsilin məzmununu təkmilləşdirmək məqsədilə mövcud baza təhsil proqramlarının və tədris planlarının təhlilinin aparılması, ixtisaslar üzrə tədris olunan fənlərin proqramlarının siyahısının müəyyənləşdirilməsi və onların hazırlanması üçün müvafiq tədbirlərin görülməsi, dövlət təhsil standartlarının tələblərinə uyğun olaraq, mütəxəssis hazırlığının səviyyəsini müəyyənləşdirmək məqsədilə 2001/02-ci tədris ilindən başlayaraq imtahan sessiyalarının monitorinqinin keçirilməsi üçün hazırlıq işlərinin aparılması, mütəxəssis hazırlığında respublika iqtisadiyyatının infrastrukturunu təmin etmək məqsədilə ixtisasların siyahısına dəyişiklik və əlavələr edilməsi ilə bağlı təkliflərin hazırlanması, «2001–2004-cü illər üçün Azərbaycan Respublikasında orta ixtisas təhsilinin İnkişaf Proqramı»nın layihəsinin hazırlanması və təsdiqə təqdim olunması, ayrı-ayrı ixtisaslar üzrə kiçik mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərini əks etdirən dövlət standartlarının hazırlanmasının başa çatdırılması, buna uyğun yeni tədris plan və proqramlarının hazırlanması, orta ixtisas təhsili müəssisələrinin akkreditasiyasının keçirilməsinə başlanılması və s. nəzərdə tutulmuşdu.

Müvafiq Kollegiya qərarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 sentyabr 2001-ci il tarixli əmri ilə «2001–2004-cü illər üçün Azərbaycan Respublikasında orta ixtisas təhsilinin İnkişaf Proqramı» təsdiq olundu. Proqramın məqsədi şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına cavab verən orta ixtisas təhsilinin inkişafını və fəaliyyətini təmin etmək üçün hüquqi, iqtisadi, təşkilati, tədris-metodiki şərait yaratmaqdan ibarət idi.

İnkişaf Proqramına uyğun olaraq, orta ixtisas təhsilində dövlət təhsil standartları ilə müəyyənləşdirilən keyfiyyətin əldə olunması, məzunların əmək bazarında rəqabətə davamlılığının və peşə çevikliyinin yüksəldilməsi, tələbələrin təhsilə və peşəyə olan marağının artırılması, əmək bazarının ehtiyacları və müxtəlif profilli mütəxəssis hazırlığı arasında uyğunluğun əldə olunması, kadr hazırlığı strukturunun təhsil müəssisəsinin yerləşdiyi regionun tələbatı ilə uyğunlaşdırılması, orta ixtisas məktəbinin şəbəkəsinin optimallaşdırılması, bu müəssisələrdə

çoxprofilliliyin və çoxfunksiyalılığın təmin edilməsi, istehsal və xidmət sahələri ilə əlaqənin möhkəmləndirilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi, maliyyələşmə imkanlarının genişləndirilməsi, kadrların hazırlanması və yenidən hazırlanması sisteminin formalaşdırılması, təhsilin məzmununun təkmilləşdirilməsi və s. istiqamətində müəyyən tədbirlər həyata keçirildi.

İnkişaf Proqramına müvafiq olaraq, orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi və orada aparılan mütəxəssis hazırlığının strukturu təhlil edildi. Məlum oldu ki, mövcud şəbəkə günün tələblərinə cavab vermir. Bəzi eyni profilli təhsil müəssisələrinin bir regionda yerləşməsi nəticəsində bir sıra ixtisaslar üzrə kadr hazırlığında paralelçiliyə yol verilir, bu da artıq maliyyə məsrəflərinə səbəb olur. Bununla yanaşı, bir sıra orta ixtisas təhsili müəssisələri birprofilli olduğundan regionun orta ixtisas təhsilli kadrlara olan tələbatı kifayət qədər təmin edilmir.

Yaranmış vəziyyət mütəxəssislərin iştirakı ilə geniş müzakirə olundu və şəbəkənin təkmilləşdirilməsinə dair Azərbaycan hökuməti qarşısında vəsatət qaldırıldı. Həmin vəsatətə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin təkmilləşdirilməsi haqqında» 26 avqust 2002-ci il tarixli qərarı ilə bir sıra orta ixtisas təhsili müəssisələrinin fəaliyyəti dayandırıldı, bir qismi birləşdirilərək bazalarında yeni tipli tədris müəssisələri (kolleclər) yaradıldı, bəzilərinin isə profilləri genişləndirildi. Həmin qərarın icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyinin 02 sentyabr 2002-ci il tarixli əmrinə əsasən Bakı Kommersiya, Bakı İnşaat, Əli-Bayramlı (Şirvan–*red.*) Sənaye, Ağdaş, Gəncə, Şamaxı, Lənkəran və Şuşa Kənd Təsərrüfatı texnikumları ləğv edildi.

Müvafiq əmrlə Bakı Plan-Uçot Texnikumunun bazasında Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Bakı Plan-İqtisad Texnikumunun bazasında Bakı Dövlət Sosial-İqtisad Kolleci, Bakı Rabitə Kolleci və Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumu birləşdirilərək onların bazasında Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci, Sumqayıt Texnologiya Texnikumunun bazasında Sumqayıt Dövlət Texniki Kolleci, Sabirabad Kənd Təsərrüfatı Texnikumunun bazasında Sabirabad Sosial-İqtisad Kolleci, Lənkəran Məktəbəqədər Pedaqoji və Lənkəran Musiqi texnikumları birləşdirilərək onların bazasında Lənkəran Dövlət Humanitar Kolleci, Quba Kənd Təsərrüfatı Texnikumunun bazasında Quba Dövlət Sosial-İqtisad Kolleci, Şamaxı Aqroiqtisadiyyat Texnikumunun bazasında Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci, Göyçay Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi Texnikumunun bazasında Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci, Ağdaş Pedaqoji Texnikumunun bazasında Ağdaş Dövlət Humanitar Kolleci, Ağdam Kənd Təsərrüfatı və Ağdam Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi texnikumları birləşdirilərək onların bazasında Ağdam Dövlət Sosial-İqtisad Kolleci, Bərdə Kənd Təsərrüfatı Texnikumunun bazasında Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Zaqatala Kənd Təsərrüfatı Texnikumunun bazasında Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Şəki Texnologiya və Şəki Kənd Təsərrüfatı Texnikumları birləşdirilərək onların bazasında Şəki Dövlət Texniki Kolleci,

Tovuz Kənd Təsərrüfatı Texnikumunun bazasında Tovuz Dövlət Sosial-İqtisad Kolleci, Qazax Kənd Təsərrüfatı Texnikumunun bazasında Qazax Dövlət Sosial-İqtisad Kolleci, Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazasında Naxçıvan Dövlət Texniki Kolleci yaradıldı.

2003-cü ildən başlayaraq, orta ixtisas təhsilinin məzmununun təkmilləşdirilməsi istiqamətində işlər daha da genişləndi. 45 istiqamət (129 ixtisas) üzrə kiçik mütəxəssis hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi minimum tələblər» (Orta ixtisas təhsilinin dövlət standartları) hazırlandı və təsdiq edildi.

İstiqamətlər üzrə standartlar və onların təsdiqolunma tarixi

№	İstiqamətlər (ixtisaslar)	Standartın təsdiq olunma tarixi
1	2	3
1.	TE10000-Tətbiqi riyaziyyat	Təhsil Nazirliyinin 22.07.2003-cü il tarixli əmri
2.	HS020000- Filologiya	
3.	HS130000- Hüquqşünaslıq	
4.	HS140000- Musiqişünaslıq	
5.	HS150000- İncəsənət	
6.	HS170000- Bədən tərbiyəsi	
7.	HS180000- Dinşünaslıq	
8.	HS190000- Səhiyyə	
9.	M000000- Maarif	
10.	İİ010000-Ümumi iqtisadiyyat	
11.	İİ020000- Mühəndis iqtisadiyyatı və idarəetmə	
12.	İİ030000- İnzibati idarəetmə	
13.	T010000-Faydalı qazıntı yataqlarının geologiyası və kəşfiyyatı	
14.	T020000- Faydalı qazıntı yataqlarının işlənməsi	
15.	T030000- Energetika və enerji maşınqayırması	
16.	T040000-İstilik energetikası, maşın və qurğuları	
17.	T080000- Dəniz texnikası və gəmiçilik	
18.	T090000-Dəmir yol nəqliyyatı və təsərrüfatı	
19.	T100000- Yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı	
20.	T120000-Elektrotexnika və elektromexanika	
21.	T130000- Cihazqayırma	
22.	T150000- Radiotexnika	
23.	T160000- Telekommunikasiya	
24.	T170000- Avtomatika və idarəetmə	
25.	T180000-İnformatika və hesablama texnikası	
26.	T240000- Tibbi biologiya	
27.	T250000- Kimya texnologiyası	
28.	T260000-Meşə təsərrüfatı və meşə ehtiyatlarının bərpası	
29.	T270000- Qida məhsullarının texnologiyası	
30.	T280000- Çoxişlənən malların texnologiyası	
31.	T290000- Texniki məişət xidmətində servis	
32.	T300000- Sosial-mədəni sahədə servis	

1	2	3
33.	T310000- Standartlaşdırma və sertifikasiya	Təhsil Nazirliyinin 22.07.2003-cü il tarixli əmri
34.	T330000- Kommersiya	
35.	AT040000- Baytarlıq	
36.	AT060000- Aqromühəndislik	
37.	AT070000- Balıqçılıq	
38.	T050000–Metallurgiya	Təhsil Nazirliyinin 23.06.2006-cı il tarixli əmri
39.	T200000–İnşaat	
40.	T210000 – Mühəndis sistemlərinin və qurğularının tikintisi	
41.	T340000 – Həyat fəaliyyətinin təhlükəsizliyi	
42.	ET000000 – Ekologiya və təbiətdən istifadə	
43.	TT160000 – İnformasiya sistemləri	Təhsil Nazirliyinin 27.07.2007-ci il tarixli əmri
44.	T220000 – Nəqliyyat tikintisi	
45.	AT050000 – Yer quruluşu və yer kadastrı	

Həmin standartlara uyğun olaraq, orta ixtisas təhsili müəssisələri tərəfindən ixtisasların tədris planları hazırlanıb təsdiq olundu.

Müşahidələr göstərirdi ki, orta ixtisas təhsili müəssisələrində qiyabi təhsil forması üzrə tədris planlarının hazırlanmasında bir sıra nöqsanlara yol verilir. Bu da öz növbəsində qiyabi təhsil forması üzrə tədris prosesinin təşkilində çətinliklər yaradırdı. Bunu nəzərə alaraq Nazirliyin 15 yanvar 2004-cü il tarixli əmri ilə «Orta ixtisas təhsili müəssisələrində qiyabi təhsil forması üzrə tədris planının hazırlanması qaydaları» təsdiq olundu.

1990/91–2010/11-ci tədris illərində orta ixtisas təhsili müəssisələrində çalışan professor-müəllim heyəti haqqında məlumat

Tədris illəri	Cəmi	Professor-müəllim heyəti	
		Elmi dərəcəsi olanlar	
		Elmlər doktoru	Fəlsəfə doktoru
1990/1991	4872	–	–
1991/1992	4836	–	–
1992/1993	4934	–	–
1993/1994	4546	–	–
1994/1995	4601	–	–
1995/1996	4580	–	–
1996/1997	4532	–	–
1997/1998	4294	–	–
1998/1999	4524	–	–
1999/2000	4923	–	–
2000/2001	5316	3	105
2001/2002	5942	2	123
2002/2003	6217	2	114
2003/2004	6353	2	112
2004/2005	6819	6	115
2005/2006	6706	4	112
2006/2007	6897	4	144
2007/2008	6883	4	132
2008/2009	6929	3	132
2009/2010	7013	5	134
2010/2011	7115	15	79

Qaydalar təsdiq olunduqdan sonra orta ixtisas təhsili müəssisələrində qiyabi formada kiçik mütəxəssis hazırlığı aparılan bütün istiqamətlər (ixtisaslar) üzrə tədris planlarında müvafiq dəyişikliklər edildi.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 aprel 2004-cü il tarixli əmri ilə «Orta ixtisas təhsili müəssisələrinin müəllim heyətinin

tədris işi üçün vaxt normaları» təsdiq olundu. Vaxt normalarının təsdiqi müəllimlərin dərs yükünün müəyyənləşdirilməsində mövcud olan çətinliklərin aradan qaldırılmasına şərait yaratdı.

2004-cü ildən başlayaraq yeni orta ixtisas təhsili müəssisələrinin yaradılması işi davam etdirildi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 dekabr 2004-cü il tarixli qərarı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci təşkil olundu. «Azərbaycan Respublikası regionlarının, o cümlədən Qəbələ, İsmayıllı, Oğuz və Şamaxı rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» Respublika Prezidentinin 25 avqust 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən turizm sektorunda kadr çatışmazlığını aradan qaldırmaq məqsədilə Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin Mingəçevir şöbəsinin bazasında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mingəçevir Turizm Kolleci yaradıldı. Bununla yanaşı, Nazirlər Kabinetinin 17 aprel 2006-cı il tarixli qərarı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbi də təsis olundu.

Aparılan struktur dəyişiklikləri nəticəsində dövlət orta ixtisas məktəblərinin sayının azalmasına baxmayaraq, tələbələrin sayı 1998-ci ildəki 35700-dən 2007-ci ildə 53700 nəfərə qədər artdı. Bu illərdə əhalinin hər 1000 nəfərinə düşən tələbələrin sayı 46-dan 64-ə qədər çoxalmışdı.

1997-ci ildə təsdiq olunmuş istiqamət və ixtisasların klassifikatorunda məzunlara verilən ixtisas dərəcələri müəyyənləşdirilməmişdi. Ona görə də orta ixtisas təhsili məktəblərinin məzunlarına verilən dövlət nümunəli sənədlərdə (diplom və ona əlavədə) konkret peşə-ixtisas dərəcələrini göstərmək mümkün olmurdu, bu da məzunların işlə təmin edilməsində müəyyən çətinliklər yaradırdı. Bütün bunları nəzərə alaraq, «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısına müvafiq olaraq məzunlara verilən akademik və ixtisas dərəcələri» hazırlandı və Nazirliyin 27 iyun 2007-ci il tarixli əmri ilə təsdiq olundu.

Orta ixtisas təhsili sahəsində əsas problemlərdən biri keyfiyyətin təmin olunması sisteminin yaradılması ilə bağlı idi. Ölkəmizdə orta ixtisas təhsilinin keyfiyyətinin qiymətləndirilməsini təmin etmək məqsədilə 2004-cü ildə Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş «Ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyası haqqında Əsasnamə»yə və buna müvafiq hazırlanmış tələb və meyarlara uyğun olaraq, 2008-ci ilədək 6 texnikum və kollec (Azərbaycan Dövlət Pedaqoji Kolleci, Bakı Məktəbəqədər Pedaqoji Texnikumu, Bakı İdarəetmə və Texnologiya Kolleci, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Sumqayıt Dövlət Texniki Kolleci) akkreditasiyadan keçirildi. Akkreditasiyanın nəticələrinə görə Bakı Dövlət İdarəetmə və Texnologiya Kollecində «Gömrük ekspertizası», «Dövlət yol polisinin inzibati-hüquq fəaliyyəti», «Reklam işi», Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində «Bələdiyyə təsərrüfatının təşkili və idarə edilməsi» ixtisasları attestasiyadan keçmədi və bu ixtisaslara tələbə qəbulu dayandırıldı.

Orta ixtisas təhsili sahəsində keyfiyyətin təmin olunmasında tələbələrin biliyinin obyektiv qiymətləndirilməsinin böyük əhəmiyyəti var. Ali məktəblərdən fərqli olaraq orta ixtisas

təhsili müəssisələrində 2008-ci ilə kimi tələbələrin biliyinin qiymətləndirilməsində 5 bal sistemi tətbiq olunurdu. Müşahidələr göstərirdi ki, bu sistem artıq özünü doğrultmur. Bunu nəzərə alaraq, tələbələrin tədris fəaliyyəti nəticəsində əldə etdikləri biliklərin qiymətləndirilməsinin mövcud sistemini təkmilləşdirmək, onun səmərəliliyini artırmaq, biliyin obyektiv qiymətləndirilməsini təmin etmək, bu sahədə yol verilə biləcək neqativ halların qarşısını almaq üçün 2008/09-cu tədris ilindən eksperiment qaydasında tələbələrin biliyinin qiymətləndirilməsində çoxballı sistemə keçilməsi nəzərdə tutuldu. Bu məqsədlə «Orta ixtisas təhsili müəssisələrində tələbələrin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında Əsasnamə» hazırlandı və Təhsil Nazirliyinin 20 fevral 2008-ci il tarixli əmri ilə təsdiq olundu. Bununla bağlı eksperiment keçiriləcək orta ixtisas məktəbləri, tədris qrupları müəyyənləşdirildi, eksperimentə cəlb olunacaq fənn müəllimləri üçün treninqlər keçirildi, tələbələr arasında izahat işləri aparıldı.

2008-ci ildə respublikamızda 59 dövlət və qeyri-dövlət orta ixtisas məktəbi (45-i Təhsil Nazirliyinin, 11-i digər nazirliklərin tabeliyində, 3-ü qeyri-dövlət təhsil müəssisəsidir) fəaliyyət göstərirdi. Bu təhsil müəssisələrində tələbələrin sayı 53497, müəllimlərin sayı 6867, 1 (bir) müəllimə düşən tələbələrin sayı orta hesabla 7,8 nəfər təşkil edirdi.



Azərbaycan Dövlət Pedaqoji Kollecinin binası





Astara Pedaqoji Kolleci

2007/08-ci tədris ilində Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət və özəl orta ixtisas təhsili müəssisələri

№	Təhsil müəssisələrinin adı	Tələbələrin sayı	Müəllim heyəti	Bir müəllimə düşən tələbələrin sayı
1	2	3	4	5
1.	Azərbaycan Maliyyə-İqtisad Kolleci	1473	118	12,5
2.	Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kolleci	340	72	4.7
3.	Bakı Texniki Kolleci	1002	105	9.5
4.	Bakı Neft Energetika Kolleci	896	87	10,3
5.	Bakı İdarəetmə və Texnologiya Kolleci	964	138	7,0
6.	Bakı Yeyinti Sənaye Texnikumu	563	125	4,5
7.	Bakı Dövlət Sosial-İqtisad Kolleci	1220	121	10,1
8.	Azərbaycan Dövlət Pedoqoji Kolleci	3411	257	13,3
9.	Bakı Məktəbəqədər Pedaqoji Texnikumu	1206	176	6.9
10.	Bakı Mədəni-Maarif Texnikumu	1146	191	6,0
11.	Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kolleci	1367	254	5.4
12.	Bakı Sənaye-Pedoqoji Texnikumu	2618	227	11,5
13.	Bakı Kompyuter Kolleci	505	61	8.3
14.	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	687	68	10,1
15.	Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	1633	175	9,3
16.	Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu	799	75	10,7
17.	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	362	26	13.9
18.	Naxçıvan Musiqi Kolleci	345	109	3,2
19.	Naxçıvan Dövlət Texniki Kolleci	340	34	10,0
20.	Sumqayıt Dövlət Texniki Kolleci	1124	141	8.0
21.	Sumqayıt Musiqi Texnikumu	673	227	3.0
22.	Gəncə Texniki Kolleci	382	92	4,2
23.	Gəncə Humanitar Kolleci	2558	407	6,3
24.	Gəncə Musiqi Texnikumu	676	216	3,1
25.	Lənkəran Dövlət Humanitar Kolleci	1337	125	10,7
26.	Şəki Pedaqoji Texnikumu	1231	79	15,6
27.	Şəki Dövlət Texniki Kolleci	388	70	5,5
28.	Şəki Musiqi Texnikumu	324	101	3,2
29.	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	218	40	5,5

1	2	3	4	5
30.	Əli-Bayramlı (Şirvan) Dövlət İqtisadiyyat və Humanitar Kolleci	1999	188	10,6
31.	Sabirabad Dövlət Sosial-İqtisad Kolleci	388	63	6,2
32.	Ağdaş Dövlət Humanitar Kolleci	1592	129	12,3
33.	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	1146	138	8,3
34.	Ağdam Musiqi Texnikumu	704	117	6,0
35.	Ağdam Dövlət Sosial-İqtisad Kolleci	454	24	18,9
36.	Şamaxı Mədəni-Maarif Texnikumu	980	87	11,3
37.	Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci	302	52	5,8
38.	Şuşa Mədəni-Maarif Texnikumu	780	99	7,9
39.	Şuşa Musiqi Texnikumu	507	80	6,3
40.	Astara Pedaqoji Texnikumu	1383	73	18,9
41.	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	238	31	7,7
42.	Ağcabədi Pedaqoji Texnikumu	1863	125	14,9
43.	Quba Dövlət Sosial-İqtisad Kolleci	603	52	11,6
44.	Qazax Dövlət Sosial-İqtisad Kolleci	400	93	4,3
45.	Tovuz Dövlət Sosial-İqtisad Kolleci	235	59	4,0
46.	Bakı Biznes və Kooperasiya Kolleci	1680	107	15,7
47.	Mingəçevir Turizm Kolleci	1350	150	9,0
48.	1№-li Bakı Tibb Məktəbi	897	344	2,6
49.	2№-li Bakı Tibb Məktəbi	1125	475	2,4
50.	Naxçıvan Tibb Məktəbi	330	21	15,7
51.	Gəncə Tibb Məktəbi	592	100	6
52.	Lənkəran Tibb Məktəbi	310	71	4,4
53.	Sumqayıt Tibb Məktəbi	1005	139	7,2
54.	Mingəçevir Tibb Məktəbi	531	31	17
55.	Şəki Tibb Məktəbi	315	25	12,6
56.	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbi*	–	–	–
57.	Odlar Yurdu Universitetinin nəzdində Orta İxtisas Kolleci	459	14	33
58.	Beynəlxalq Kollec	845	36	23
59.	Sumqayıt Özəl Orta İxtisas Kolleci	696	27	26
Cəmi:		**53497**	**6867**	**7,8**

* Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Orta İxtisas Hərbi Məktəbinin göstəriciləri cədvəldə nəzərə alınmamışdır.

2009-cu ildə qəbul olunan «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununun 21-ci maddəsində orta ixtisas təhsilinin əsasən kolleclərdə və ali təhsil müəssisələrinin tabeliyində yaradılan müvafiq strukturlarda həyata keçirilməsi və məzunlara subbakalavr dərəcəsinin verilməsi nəzərdə tutulmuşdur. Həmin Qanuna uyğun olaraq, orta ixtisas təhsili proqramlarının müvafiq ixtisaslar üzrə ali təhsil proqramlarına uyğunluğu da təmin olunmalıdır. Buna görə də Azərbaycan Respublikası Prezidentinin «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 5 sentyabr 2009-cu il tarixli Fərmanına və buna müvafiq Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli Sərəncamına əsasən müvafiq tədbirlər həyata keçirilmişdir.

Nazirlər Kabinetinin 112№-li 16 iyun 2010-cu il tarixli «Orta ixtisas təhsili müəssisələrinin adlarının dəyişdirilməsi haqqında» qərarı ilə bir sıra texnikumların adları dəyişdirilmiş və onlar kolleclərə çevrilmişlər.

Adları dəyişdirilən orta ixtisas təhsili müəssisələri haqqında məlumat

№	**Orta ixtisas təhsili müəssisəsinin əvvəlki adı**	**Orta ixtisas təhsili müəssisəsinin yeni adı**
1.	Bakı Mədəni-Maarif Texnikumu	Bakı Humanitar Kolleci
2.	Şamaxı Mədəni-Maarif Texnikumu	Şamaxı Humanitar Kolleci
3.	Şuşa Mədəni-Maarif Texnikumu	Şuşa Humanitar Kolleci
4.	Gəncə Musiqi Texnikumu	Gəncə Musiqi Kolleci
5.	Sumqayıt Musiqi Texnikumu	Sumqayıt Musiqi Kolleci
6.	Şəki Musiqi Texnikumu	Şəki Musiqi Kolleci
7.	Şuşa Musiqi Texnikumu	Şuşa Musiqi Kolleci
8.	Ağdam Musiqi Texnikumu	Ağdam Musiqi Kolleci
9.	Ağcabədi Pedaqoji Texnikumu	Ağcabədi Pedaqoji Kolleci
10.	Astara Pedaqoji Texnikumu	Astara Pedaqoji Kolleci
11.	Şəki Pedaqoji Texnikumu	Şəki Pedaqoji Kolleci
12.	Bakı Məktəbəqədər Pedaqoji Texnikumu	Bakı Sosial Pedaqoji Kolleci
13.	Bakı Sənaye Pedaqoji Texnikumu	Bakı Sənaye Pedaqoji Kolleci
14.	Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu	Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci
15.	Bakı Yeyinti Sənayesi Texnikumu	Bakı Qida Sənayesi Kolleci
16.	1№-li Bakı Tibb Məktəbi	1№-li Bakı Tibb Kolleci
17.	2№-li Bakı Baza Tibb Məktəbi	2№-li Bakı Baza Tibb Kolleci
18.	Ə.Əliyev adına Sumqayıt Tibb Məktəbi	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci
19.	Gəncə Tibb Məktəbi	Gəncə Tibb Kolleci
20.	Mingəçevir Tibb Məktəbi	Mingəçevir Tibb Kolleci
21.	Naxçıvan Tibb Məktəbi	Naxçıvan Tibb Kolleci
22.	Lənkəran Tibb Məktəbi	Lənkəran Tibb Kolleci
23.	Şəki Tibb Məktəbi	Şəki Tibb Kolleci
24.	Bakı Yanğın Texniki Məktəbi	Yanğın Texniki Kolleci

Eyni zamanda Təhsil Nazirliyi tərəfindən hazırlanmış «Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı»; «Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı»; «Orta ixtisas təhsili haqqında diplomun nümunəsi və onun verilməsi qaydaları»; «Orta ixtisas təhsilli pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydası»; «Orta ixtisas təhsili pilləsini yüksək nəticələrlə başa

vuran məzunların (subbakalavrların) qiymətlərinin müvafiq olaraq uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınması qaydası», «Orta ixtisas təhsili müəssisəsinin nümunəvi Nizamnaməsi» 2010 və 2011-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmişdir.

«Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı»na, habelə «Orta ixtisas təhsili üzrə ixtisasların təsnifatı»na uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən «Ixtisas üzrə təhsil proqramının strukturu» hazırlanıb təsdiq edilmişdir. Həmin struktura uyğun olaraq, 100 ixtisas üzrə təhsil proqramları hazırlanmış və Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq olunmuşdur. Bütün orta ixtisas təhsili müəssisələri tərəfindən bu struktura uyğun tədris planları hazırlanmış və tətbiq edilmişdir.

Təbiidir ki, «Təhsil haqqında» yeni Qanun təhsilin bütün sahələri kimi orta ixtisas təhsili sahəsində də islahatların aparılmasını tələb edir. Buna görə də, orta ixtisas təhsili sisteminin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə və əmək bazarının tələbatına uyğun olaraq, istehsal və xidmət sahələrinin yüksək keyfiyyətli orta ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə Nazirlər Kabinetinin 13 yanvar 2010-cu il tarixli qərarı ilə «2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı» təsdiq olunmuşdur.

Bu Proqram çərçivəsində orta ixtisas təhsilində aşağıdakı istiqamətlər üzrə islahatların aparılması nəzərdə tutulur:

- orta ixtisas təhsilinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi;
- orta ixtisas təhsilinin məzmununun və təlim texnologiyalarının yeniləşdirilməsi;
- orta ixtisas təhsili strukturunun və idarə olunması sisteminin modernləşdirilməsi;
- orta ixtisas təhsilində keyfiyyətin təmin olunması;
- orta ixtisas təhsilində kadr hazırlığı;
- orta ixtisas təhsilinin maddi-texniki bazasının müasir tələblərə uyğun qurulması;
- orta ixtisas təhsilinin maliyyələşdirilməsinin yeni mexanizmlərinin yaradılması.

Bu Proqramın reallaşması nəticəsində orta ixtisas təhsilində dövlət təhsil standartları ilə müəyyənləşdirilən keyfiyyətin əldə olunması; məzunların əmək bazarında rəqabət qabiliyyətinin və peşə çevikliyinin yüksəldilməsi; orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması; əmək bazarının ehtiyacları ilə mütəxəssis hazırlığının aparılmasında uyğunluğun əldə olunması; orta ixtisas təhsili müəssisələrində mütəxəssis hazırlığı strukturunun onun yerləşdiyi regionun tələbatı ilə uyğunlaşdırılması; orta ixtisas təhsili sisteminin istehsal və xidmət sahələri ilə əlaqəsinin möhkəmləndirilməsi; tədris müəssisələrinin maddi-texniki bazasının inkişafı üçün orta ixtisas təhsili müəssisələrinin maliyyələşdirmə imkanlarının genişləndirilməsi; orta ixtisas təhsili müəssisələri müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi; yeni nəsil dərsliklər, tədris-metodik ədəbiyyatın və təlim vasitələrinin yaradılması; tədris prosesində informasiya sistemlərindən və texnologiyalarından, telekommunikasiya şəbəkələrindən istifadənin inkişaf etdirilməsi gözlənilir.

Özəl orta ixtisas təhsili müəssisələri. Azərbaycan müstəqilliyə qovuşduğu ilk illərdə

orta ixtisas təhsilinin özəl sektoru yaradılmağa başlandı. Həmin illərdə özəl orta ixtisas məktəblərinin yaradılması üçün müvafiq qayda və dəqiq mexanizm işlənilməmişdi. Buna baxmayaraq, 1991-ci ildə Bakı şəhərində «Loğman» Səhmdar Cəmiyyətinin Respublika Təsərrüfat Hesablı Tibb Məktəbi, 1993-cü ildə Naxçıvanda «Tekis» Tibb Məktəbi açıldı. 1995-ci ilə qədər belə «orta ixtisas təhsili müəssisələri»nin sayı xeyli artdı. Lakin onların heç biri mövcud qanunvericiliyə uyğun status almamışdı. Yalnız 1996-cı ildə Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının (DAEK) rəyi əsasında özəl orta ixtisas təhsili müəssisələrinin Dövlət qeydiyyatına alınmasına başlanıldı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 fevral 1996-cı il tarixli qərarı ilə «Loğman» Səhmdar Cəmiyyətinin Respublika Təsərrüfat Hesablı Tibb Məktəbi, 04 iyul 1996-cı il tarixli Qərarla Naxçıvan «Tekis» Kolleci, Naxçıvan «İncəsənət» Kolleci, 11 oktyabr 1997-ci il tarixli Sərəncamla Sumqayıt Pedaqoji Seminariyası dövlət qeydiyyatına alındı. Eyni zamanda 1998-ci ildən başlayaraq, özəl orta ixtisas təhsili müəssisələrinin fəaliyyətinin nizama salınması istiqamətində görülmüş təsirli tədbirlər nəticəsində maddi-texniki bazası və professor-müəllim heyəti lazımi səviyyədə olmayan, tələbə qəbulunda və tədrisin təşkilində ciddi nöqsanlara yol verən bir sıra özəl orta ixtisas məktəblərinin fəaliyyəti dayandırıldı. Həmin ildə qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət qeydiyyatından keçmiş 4 orta ixtisas təhsili müəssisəsinə («Loğman» Səhmdar Cəmiyyətinin Respublika Təsərrüfat Hesablı Tibb Məktəbi, Naxçıvan «Tekis» Kolleci, Naxçıvan «İncəsənət» Kolleci, Sumqayıt Pedaqoji Seminariyası) orta təhsil bazasından TQDK tərəfindən ümumi qaydada tələbə qəbulu aparıldı. «Loğman» Tibb Kollecinə 445 plan yerinə qarşı 154, Sumqayıt Pedaqoji Seminariyasına 225 yerə qarşı 135 nəfər tələbə qəbul oldu. Naxçıvan «Tekis» və Naxçıvan «İncəsənət» Kolleclərinə uyğun olaraq 90 və 40 plan yerinə qarşı bir ərizə belə daxil olmamışdı.

1999-cu ildə özəl orta ixtisas təhsili məktəblərinə qəbul planının artırılmasına baxmayaraq, faktiki qəbul kəskin şəkildə azaldı. «Loğman» Tibb Kollecinə 505 plan yerinə 31, Naxçıvan «Tekis» Kollecinə 100 plan yerinə 2, Sumqayıt Pedaqoji Seminariyasına 240 yerə 152 tələbə qəbul olundu. Naxçıvan «İncəsənət» Kollecinə isə 40 plan yerinə qarşı heç bir ərizə daxil olmadı. 2000-ci ildə Naxçıvan «İncəsənət» Kollecinə qəbul dayandırıldı.

2001-ci ildə tələbə qəbulu aparılan özəl orta ixtisas təhsili müəssisələrinin siyahısına «Odlar Yurdu» Universitetinin nəzdində orta ixtisas kolleci, 2002-ci ildə Azərbaycan Beynəlxalq Universitetinin Beynəlxalq Kolleci də əlavə olundu. Beləliklə, 2002-ci ildə özəl orta ixtisas təhsili müəssisələrinin sayı 5 oldu. Lakin 2003-cü ildə Naxçıvan «Tekis» Kollecinə qəbul aparılmadı və 2004/05-ci tədris ilində onun da fəaliyyəti dayandırıldı. 2004-cü ildə Sumqayıt Pedaqoji Seminariyası, Sumqayıt Özəl orta ixtisas Kolleci adlandırıldı.

2003–2007-ci illərdə respublikada 4 özəl orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərirdi. Mövcud qanunvericiliyə zidd olaraq tələbə qəbulu apardığına görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2007-ci il tarixli qərarı ilə «Loğman» Səhmdar

Cəmiyyətinin Respublika Təsərrüfat Hesablı Tibb Məktəbinin də fəaliyyətinə xitam verildi. Beləliklə, 2007/08-ci tədris ilindən ölkəmizdə 4 özəl orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərirdi: Sumqayıt Özəl Orta İxtisas Kolleci, Beynəlxalq Kollec, «Odlar Yurdu» Kolleci və Biznes və Kooperasiya Kolleci.

2007/08-ci tədris ilindən özəl orta ixtisas müəssisələrinə qəbul dayandırıldı, lakin 2005-ci ildə qəbul olunanlarla bağlı kolleclər 2010-cu ilə kimi fəaliyyətini davam etdirdi.

Özəl orta ixtisas təhsili müəssisələri haqqında məlumat (1995–2010-cu illər)

İllər	Özəl orta ixtisas təhsili müəssisələrinin sayı	Tələbələrin sayı	Qəbul olan tələbələr (nəfərlə)	Buraxılmış mütəxəssislər (nəfərlə)	Professor-müəllim heyəti
1995/96	11	3000	800	1100	353
1996/97	13	3500	1000	1000	485
1997/98	4	1400	700	300	164
1998/99	4	1000	400	500	198
1999/2000	4	1000	300	200	192
2000/01	3	1400	500	500	216
2001/02	3	1500	500	500	202
2002/03	5	1100	200	500	208
2003/04	6	1400	600	500	279
2004/05	5	1500	600	300	209
2005/06	5	2800	1200	400	107
2006/07	5	3100	600	700	152
2007/08	4	2000	–	1000	77
2008/09	4	983	–	983	69
2009/10	4	1686	658	1290	152

Maddi-texniki və tədris bazaları, tədrisin keyfiyyəti müasir tələblərə cavab vermədiyinə görə 2007/08 və 2008/09-cu tədris illərində özəl orta ixtisas təhsili müəssisələrinə qəbul planlaşdırılmadı. Həmin tədris ilində həmin kolleclərdə yalnız sonuncu kurs tələbələri təhsil alırdı.

Orta ixtisas təhsili müəssisələrində tələbə mübadiləsi. Orta ixtisas təhsili müəssisələrinin fəaliyyətində xarici ölkələrlə əlaqələr əsasən tələbə mübadiləsi, xarici ölkə orta ixtisas kollecləri ilə ikitərəfli əməkdaşlıq, xarici ölkələrin Azərbaycandakı səfirlikləri və nümayəndələri ilə əməkdaşlıq, Beynəlxalq təhsil proqramlarında, sərgilərdə, konfranslarda, simpozium və seminarlarda iştirak etmək yolu ilə həyata keçirilir. 2000/01-ci tədris ilindən dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələri xarici ölkələrdən tələbə qəbul etməyə başladılar.

Dövlət və özəl orta ixtisas təhsili müəssisələrində təhsil alan xarici tələbələrin sayı (2000–2011-ci illər)

№	Ölkələr	2000/01	2002/03	2003/04	2004/05	2005/06	2007/08	2007/08	2009/10	2010/11
MDB ölkələri										
1.	Belarus	1	–	–	–	–	1	–	–	–
2.	Gürcüstan	19	102	83	116	95	73	17	13	2
3.	Qazaxıstan	–	1	–	4	2	–	–	–	–
4.	Qırğızıstan	–	–	–	1	4	–	–	–	–
5.	Moldova	–	–	–	–	–	–	–	1	–
6.	Özbəkistan	1	–	1	8	–	–	–	–	–
7.	Rusiya	20	7	5	12	17	6	9	14	9
8.	Türkmənistan	–	–	1	2	2	1	1	–	–
9.	Ukrayna	–	–	–	–	–	–	1	1	1
Cəmi:		**41**	**110**	**90**	**143**	**120**	**81**	**28**	**29**	**12**
Digər ölkələr										
10.	Albaniya	–	–	–	–	2	3	4	2	1
11.	İsrail	–	–	–	–	–	–	1	1	–
12.	İran	–	–	–	3	4	3	4	4	5
13.	Hindistan	–	–	1	–	–	–	–	–	–
14.	Almaniya	–	–	1	2	–	–	–	–	–
15.	Türkiyə	–	2	1	2	1	–	–	–	1
Cəmi:		**0**	**2**	**3**	**7**	**7**	**6**	**9**	**7**	**7**
Ümumi cəmi:		**41**	**112**	**93**	**150**	**127**	**87**	**37**	**36**	**19**

Azərbaycan dövlət və özəl orta ixtisas təhsili müəssisələrində təhsil alan xarici tələbələrin sayı 2000/01-ci tədris ilində 41 nəfər idisə, 2006/07-ci tədris ilində 110 nəfər təşkil etdi. Bu artım əsasən Rusiya Federasiyası və Gürcüstan Respublikasını təmsil edən tələbələrin hesabına olmuşdu.

Tələbə mübadiləsi ilə yanaşı, bəzi texnikum və kolleclər xarici ölkələrin müxtəlif cəmiyyətləri, təşkilatları ilə təhsil əlaqələri qurur, beynəlxalq proqramlarda iştirak edir. Bu baxımdan Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti ilə əlaqələr diqqəti cəlb edir. Respublikamızın bir sıra orta ixtisas təhsili müəssisələrinin (Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci, Ağdam Dövlət Sosial-İqtisad Kolleci, Sabirabad Dövlət Sosial-İqtisad Kolleci, Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci, Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci, Tovuz Dövlət Sosial-İqtisad Kolleci, Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci, Naxçıvan Dövlət Texniki Kolleci) müəllimləri Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin xətti ilə Gəncədə keçirilmiş seminar və kurslarda iştirak etmiş, müvafiq sertifikat almışlar.

2008-ci ilin yanvar ayında Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin «Regionlarda aqrar sahənin inkişafı» layihəsi çərçivəsində bir sıra orta ixtisas təhsili müəssisələrinin direktorları və direktor müavinləri Almaniyanın Trizdorf şəhərindəki Vayen Ştefan Dövlət Universitetində, Trizdorf Dövlət Kənd Təsərrüfatının İqtisadiyyatı Texnikumunda və Trizdorf Aqro-Texniki Mərkəzində seminarlarda iştirak etmişlər. Onlar həmin təhsil müəssisələrinin tədris təsərrüfatlarında olmuş, Almaniyanın təhsil sistemindəki aqrar menecmentə dair yenilikləri öyrənmiş, bioenerji mənbələri barədə məlumat almış, bağçılıq və üzümçülük təsərrüfatlarının inkişafına, bostan və tərəvəz bitkilərinin becərilməsinə dair tədris proqramlarını müzakirə etmiş, təcrübə mübadiləsi aparmışlar.

Bu tədbirin nəticəsi olaraq, Azərbaycanın orta ixtisas təhsili müəssisələrində «Aqrar sahibkarlıq fəaliyyəti» ixtisası üzrə kadr hazırlığı Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin təklifi nəzərə alınmaqla tərtib olunmuş tədris planı və təkmilləşdirilmiş tədris proqramı əsasında həyata keçirilir.

2010/11-ci tədris ilində Azərbaycan Respublikasında fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri haqqında məlumat

№	Orta ixtisas təhsili müəssisəsinin adı	Müəllimlərin sayı	Tələbələrin sayı	Müəllim-tələbə nisbəti
1	2	3	4	5
1.	Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kolleci	74	332	4,4
2.	Bakı Texniki Kolleci	87	1145	13,1
3.	Bakı Neft-Energetika Kolleci	64	1015	15,8

1	2	3	4	5
4.	Bakı İdarəetmə və Texnologiya Kolleci	119	1183	11,9
5.	Azərbaycan Maliyyə-İqtisad Kolleci	113	1562	13,8
6.	Bakı Qida Sənayesi Kolleci	106	736	6,9
7.	Bakı Dövlət Sosial-İqtisad Kolleci	128	1412	11,0
8.	Azərbaycan Dövlət Pedaqoji Kolleci	273	2853	10,4
9.	Bakı Sosial Pedaqoji Kolleci	184	1280	6,9
10.	Bakı Humanitar Kolleci	169	1187	7,0
11.	Bakı Kompyuter Kolleci	59	876	14,8
12.	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	253	1500	5,9
13.	Bakı Sənaye-Pedaqoji Kolleci	232	2506	10,8
14.	Sumqayıt Dövlət Texniki Kolleci	136	1263	9,2
15.	Sumqayıt Musiqi Kolleci	185	485	2,6
16.	Gəncə Texniki Kolleci	77	459	5,9
17.	Gəncə Humanitar Kolleci	444	2331	5,2
18.	Gəncə Musiqi Kolleci	251	691	2,7
19.	Lənkəran Dövlət Humanitar Kolleci	140	1003	7,1
20.	Naxçıvan Musiqi Kolleci	126	441	3,5
21.	Şəki Pedaqoji Kolleci	69	960	13,9
22.	Şəki Dövlət Texniki Kolleci	70	414	5,9
23.	Şəki Musiqi Kolleci	106	379	3,5
24.	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	168	2033	12,1

1	2	3	4	5
25.	Ağdaş Dövlət Humanitar Kolleci	129	1359	10,5
26.	Ağdam Musiqi Kolleci	120	819	6,8
27.	Şamaxı Humanitar Kolleci	85	787	9,2
28.	Şuşa Humanitar Kolleci	91	650	7,1
29.	Şuşa Musiqi Kolleci	76	561	7,3
30.	Astara Pedaqoji Kolleci	82	1325	16,1
31.	Ağdam Dövlət Sosial-İqtisad Kolleci	29	649	22,3
32.	Bakı Dövlət İqtisadi Humanitar Kolleci	62	590	9,5
33.	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	68	1269	18,6
34.	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	33	226	6,8
35.	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	34	334	9,8
36.	Qazax Dövlət Sosial-İqtisad Kolleci	77	437	5,6
37.	Tovuz Dövlət Sosial-İqtisad Kolleci	67	310	4,6
38.	Naxçıvan Dövlət Texniki Kolleci	38	361	9,5
39.	Sabirabad Dövlət Sosial-İqtisad Kolleci	60	495	8,2
40.	Şamaxı Dövlət Sənaye-İqtisad Kolleci	35	307	8,7
41.	Quba Dövlət Sosial-İqtisad Kolleci	52	661	12,7
42.	Bakı Rabitə və Nəqliyyat Kolleci	140	1663	11,8
43.	Azərbaycan Dəniz Balıq Sənayesi Kolleci	56	1003	17,9
44.	Ağcabədi Pedaqoji Kolleci	92	1455	15,8
45.	Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində İnşaat Kolleci	99	652	6,5
Cəmi:		**5158**	**44959**	**8,7**

2010-cu ilin sonu 2011-ci ilin əvvəllərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuş «2010–2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı»nda nəzərdə tutulan tədbirləri uğurla həyata keçirmək üçün mövcud vəziyyəti öyrənmək, təhlil etmək və qarşıda duran vəzifələri müəyyənləşdirmək məqsədilə mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən orta ixtisas təhsili müəssisələrində monitorinq keçirildi. Monitorinqin nəticələri Təhsil Nazirliyinin 28 fevral 2011-ci il tarixli Kollegiya iclasında geniş müzakirə olundu. Müzakirə prosesində Tədbirlər Proqramı çərçivəsində orta ixtisas təhsili müəssisələrində həyata keçirilmiş müsbət işlərlə yanaşı, yol verilmiş nöqsanlar da sadalandı.

Azərbaycan Respublikası Prezidentinin «2011–2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın hazırlanması haqqında» 11 iyul 2011-ci il tarixli Sərəncamına əsasən Milli Strategiya sənədi hazırlandı. Beynəlxalq təcrübəyə istinad edilərək həmin sənəddə ilk peşə-ixtisas və orta ixtisas təhsili pillələri bazasında peşə-ixtisas təhsili pilləsinin yaradılması, uğurlu fəaliyyət göstərən kolleclərin yaxın 5 ildə bakalavr təhsili verən ali kolleclərə, zəif kadr və resurs bazası olan kolleclərin isə peşə-ixtisas təhsili müəssisələrinə çevrilməsi nəzərdə tutuldu.

Milli Strategiyada nəzərdə tutulmuş bu tədbir ölkəmizdə müəllim hazırlığı sahəsində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, hazırda orta ixtisas təhsili verən kolleclərdə müəllim hazırlığı həyata keçirilir. Həmin kolleclərin əksəriyyətində kadr hazırlığının keyfiyyəti qənaətbəxş deyildir. Nəzərdə tutulan tədbir imkan verəcək ki, yüksək keyfiyyətli pedaqoji kadr hazırlığı ilə məşğul olan müəssisələr bu işi bakalavr səviyyəsində davam etdirsin, digərlərində isə pedaqoji kadr hazırlığı dayandırılsın. Bu da Azərbaycanda pedaqoji təhsilin dünyada gedən müasir tendensiyalara uyğunlaşdırılmasını təmin edəcək və müəllim hazırlığının bakalavr, tədricən isə magistr səviyyəsində cəmləşməsinə öz töhfəsini verəcəkdir.

Eyni zamanda zəif kadr və resurs bazası olan kolleclərin ilk peşə-ixtisas təhsili müəssisələrinə çevrilməsi ölkəmizdə peşə təhsili imkanlarının genişləndirilməsinə, bu pilləyə daha çox məzunların cəlb edilməsinə və iqtisadiyyatın müxtəlif sahələri üçün çevik, peşəkar, səriştəli, müvafiq kompetensiyalara malik mütəxəssis hazırlığına səbəb olacaqdır.

VII FƏSİL

PEDAQOJİ MƏTBUATIN İNKİŞAFI

Müstəqillik illərində təhsilin inkişafında, insanın formalaşmasında təhsilin aparıcı rolunun cəmiyyət tərəfindən dərindən dərk edilməsində, insanların maarifləndirilməsində pedaqoji mətbuatın müstəsna xidmətləri olmuşdur. Pedaqoji mətbuat qabaqcıl təcrübələrin yayılmasında, müasir təlim metodları və texnologiyalarının, innovasiyaların təcrübəyə gətirilməsində, dünyanın mütərəqqi təhsil təcrübələrinin mənimsənilməsində, neçə-neçə müəllim nəsillərinin yetişdirilməsində əvəzsiz rol oynamışdır. Təhsil sahəsində aparılan islahatların nəticələrinin və dövlətin təhsil siyasətinin cəmiyyətə çatdırılmasında üzərinə düşən tarixi missiyanı pedaqoji mətbuat bu gün də şərəflə yerinə yetirir.


7.1. «Azərbaycan məktəbi» jurnalı

2009-cu ildə 85 illiyi tamam olan «Azərbaycan məktəbi» pedaqoji mətbuat tariximizdə ən uzunömürlü jurnal sayılır. 1924-cü ildə «Yeni məktəb» adı ilə işıq üzü görən jurnal 1930-cu ildən «Müəllimə kömək», 1943-cü ildən isə «Azərbaycan məktəbi» adlanır. Bu müddətdə jurnal təhsil sisteminin yeniləşməsində, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində, mütərəqqi tədris metod və üsullarının təbliğində, gənc nəslin azərbaycançılıq, milli adət-ənənələr ruhunda tərbiyə olunmasında, qabaqcıl təcrübənin yayılmasında aparıcı rol oynamışdır. Məcmuə öz səhifələrində yeni tipli məktəblərin, ali və orta ixtisas təhsili ocaqlarının, yaradıcı müəllimlərin təcrübəsini ümumiləşdirən məqalələrə yer ayırmış, təhsil sahəsində inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsini və beynəlxalq əlaqələrə dair materialları oxuculara çatdırmışdır.

Ötən əsrin birinci yarısında respublikamızda maarif məsələlərinə, təhsilin metodikasına ciddi diqqət yetirilirdi. Həmin dövrdə akademiklərdən Məmməd Arif, Feyzulla Qasımzadə, Həmid Araslı, Məmməd Cəfər, Əşrəf Hüseynov, Məmmədağa Şirəliyev, müxbir üzvlərdən dil üzrə Əzəl Dəmirçizadə, fizika üzrə Abbasqulu Abbaszadə, riyaziyyat üzrə Maqsud Cavadov, kimya üzrə Cümşüd Zülfüqarlı, həmçinin metodika məsələlərilə əlaqədar SSRİ Pedaqoji EA-nın akademiki Mehdi Mehdizadə, pedaqoji elmlər doktoru Əhməd Seyidov, professor Ağəmməd Abdullayev kimi görkəmli alimlər jurnalla sıx əməkdaşlıq əlaqələri qurmuş, özlərinin bir sıra qiymətli fikirlərini məhz bu məcmuə vasitəsilə oxuculara çatdırmışlar. «Azərbaycan məktəbi» jurnalının keçmiş İttifaqda görkəmli alimlər,

elm kollektivləri, qabaqcıl müəllimlər tərəfindən işlənib hazırlanmış ideyaların və təcrübələrin respublika məktəblərində yayılmasında mühüm rolu olmuşdur.

Mirzə İbrahimov XX əsrin 40-cı illərini nəzərdə tutaraq yazırdı: «...O zaman məktəb və müəllimlərimiz həmişəkindən daha artıq təlim-tərbiyə barədə müntəzəm məlumat verən ədəbiyyata, xüsusən qəzet və jurnala böyük ehtiyac duyurdu... Müəllimlərimizin, bütün maarif işçilərinin mənəvi tələbləri, pedaqoji elmləri dərindən mənimsəmək həvəsi, təlim və tərbiyənin vacib məsələlərini, məktəb həyatını ətraflı işıqlandıran elmi yazılara ehtiyac xüsusi bir jurnalın çap olunmasını tələb edirdi. Beləliklə, «Azərbaycan məktəbi» də yenidən meydana çıxdı... Bu illər ərzində pedaqoji fikrimizin inkişafında, respublikamızda təlim-tərbiyə sisteminin kamilləşməsində, pedaqoji elmi kadrların yetişməsində, püxtələşməsində, məncə, onun xidmətləri çox böyükdür».



Müəllimə, məktəbə köməyin vacibliyini fəaliyyətinin ana xəttinə çevirən jurnalın sonralar müxtəlif fənlər üzrə metodik məcmuələri də ərsəyə gəlmişdir. Ötən əsrin 40-cı illərinin sonu, 50-ci illərinin əvvəllərindən başlayaraq jurnala bir sıra əlavələr nəşr olunmuşdur. Həmin metodik məcmuələr pedaqoji-metodik biliklərin ensiklopedik toplusu kimi daim diqqət mərkəzində dayanmışdır. Belə məcmuələrin bəziləri («İbtidai məktəb və məktəbəqədər tərbiyə», «Azərbaycan dili və ədəbiyyatı tədrisi», «İnformatika, riyaziyyat və fizikanın tədrisi») indi də öz fəaliyyətini müstəqil olaraq davam etdirir.

Müstəqilliyimizin ilk illərində «Azərbaycan məktəbi» jurnalı bir çox problemlərlə və bağlanmaq təhlükəsi ilə üzləşdi. Yalnız ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bərqərar olan sabitlik və davamlı inkişaf kursu sayəsində təhsilin bütün sahələrində olduğu kimi, pedaqoji mətbuat orqanlarının, o cümlədən «Azərbaycan məktəbi» jurnalının fəaliyyət göstərməsinə imkan və şərait yarandı.

Bu gün jurnal Azərbaycanın təhsil sistemində uğurla aparılan islahat prosesinə bacardığı qədər töhfə verir. Azərbaycan dövlətinin, hökumətin təhsilə göstərdiyi diqqət və qayğı jurnalda dərc olunan məqalələrin əsas qayəsini təşkil edir.

«Azərbaycan məktəbi»nin ildə 6 nömrəsi çapdan çıxır. Jurnalda ardıcıl olaraq təhsil islahatları, o cümlədən müasir inkişaf tendensiyaları

ilə bağlı məqalələr aparıcı yer tutur. Həmçinin Təhsil Nazirliyinin əməkdaşları, ali məktəb rektorları, tanınmış elm, təhsil adamları da jurnalda çıxışlar edir, vaxtaşırı dəyərli fikir və mülahizələrini oxucularla bölüşürlər.

«Azərbaycan məktəbi» jurnalında «Pedaqogika-psixologiya», «İdarəetmə məsələləri», «Kurikulum, innovasiyalar», «Metodika, qabaqcıl təcrübə», «Yeni nəsil dərsliklər, yeni nəşrlər» rubrikaları fəaliyyət göstərir.

Müxtəlif illərdə «Azərbaycan məktəbi» jurnalına Rüstəm Hüseynov, Əkbər Mirzəyev, Əjdər Ağayev və Zəhra Əliyeva kimi tanınmış ziyalılar başçılıq etmişlər. Hazırda jurnalın baş redaktoru Nəcəf Nəcəfovdur.

7.2. «Azərbaycan müəllimi» qəzeti

Ötən əsrin 30-cu illərinin ortalarında xalq maarifinin inkişafı, yeni elmi-pedaqoji kadrların, ziyalıların yetişməsi və informasiya məkanının genişlənməsi pedaqoji mətbuatın yaranması ehtiyacını doğurdu.

1934-cü il sentyabrın 2-də «Kommunist maarifi» qəzeti nəşrə başladı. Qəzet «mədəni inqilab»ın əsas təbliğat vasitələrindən olmaqla respublikada milli elmi-pedaqoji kadrların formalaşmasına yaxından kömək edir, xalq maarifinin, təhsilin inkişafında müstəsna rol oynayırdı. Bu mətbu orqan kommunist ideyalarının, bolşevik maarifinin ruporu kimi nəzərdə tutulub yaradılsa da, ilk gündən mövcud çərçivəyə sığmır və daha çox ümumxalq qəzeti kimi diqqəti cəlb edirdi. Sırf pedaqoji məsələlərə daha geniş yer ayırdığı üçün 1938-ci ildə qəzetin adı dəyişdirilərək «Müəllim qəzeti» adlandırıldı. Qəzet 1941-ci ilin iyununadək bu adla nəşr olundu. 1941-ci ilin iyunundan 1946-cı ilin aprelinədək qəzetin nəşri dayandırıldı və onun əməkdaşları döyüşən ordu sıralarına yollandılar.

Qeyd etmək lazımdır ki, qəzetin təşəkkül tarixindən 1946-cı ilə qədərki dövrü onun taleyinin ən ağrılı, ən çətin mərhələsini təşkil edir.

Qəzetin ilk müəlliflərindən bir çoxu amansız repressiyaların qurbanı olmuş, onlara «xalq düşməni» damğası vurulmuş, əməkdaşların bir qismi isə İkinci Dünya müharibəsində həlak olmuşdur.

1946-cı ilin aprelindən «Azərbaycan müəllimi» adı ilə yenidən nəşrə başlayan qəzet sonrakı illərdə də öz üslubuna, dəst-xəttinə, başlıcası isə məramına və amalına sadiq qalmışdır.


AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

Azərbaycan Prezidenti İlham Əliyev Argentinanın elm, texnologiya və produktiv innovasiya nazirini qəbul edib

Azərbaycan Respublikasının Qanunu

Prezident İlham Əliyev Ucar rayonuna səfəri çərçivəsində şəhmat məktəbinin açılışında iştirak edib

Ağsuda Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzi açıldı

Onu çoxminli oxucu auditoriyasına sevdirən də məhz bu keyfiyyətlərdir.

Şübhəsiz ki, ziyalı kimi tanınmaq və bu adı qoruyub saxlamaq o qədər də asan deyil. Sıravi müəllimindən tutmuş adlı-sanlı elm adamlarına, dövlət xadimlərinədək hamının yekdil fikrinə görə «Azərbaycan müəllimi» təhsilimizin, elmimizin, mədəniyyətimizin inkişafında əvəzsiz rol oynayır və bu ənənəni ölkə təhsilində gedən hərtərəfli islahatlar və qlobal yeniləşmə dövründə də uğurla davam etdirir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ildə qəzetin 60 illik yubileyi münasibətilə redaksiya kollektivinə göndərdiyi təbrik məktubunda «Azərbaycan müəllimi»nin fəaliyyətinə layiqli qiymət verilmiş, qəzetin ictimai-siyasi həyatımızdakı rolu yüksək dəyərləndirilmişdir. Həmin tarixi məktubda deyildiyi kimi: «Azərbaycan müəllimi» yalnız sahə qəzeti olmaqla kifayətlənməmiş, respublikanın həyatında baş verən ictimai-siyasi hadisələrə də nüfuz etmişdir. Qəzet respublikada jurnalistika sənətinin inkişafı işində əhəmiyyətli rol oynamışdır. Bu gün də öz ənənələrinə sadiq qalaraq pedaqoji maarif istiqamətində fəaliyyətini davam etdirir».

1992-ci ilin oktyabrından 1993-cü ilin martına qədər maliyyə çətinliklərinə görə qəzetin çapı dayandırıldı. 1993-cü ilin martında yenidən fəaliyyətə başlayan «Azərbaycan müəllimi» müstəqil respublikamızın təhsil sisteminin təkmilləşdirilməsi və müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində həyata keçirilən tədbirləri geniş ictimaiyyətə çatdırır, tarixi missiyasını uğurla yerinə yetirirdi.

Oxuculara doğmalaşan, öz sanbalı və nüfuzu ilə fərqlənən «Azərbaycan müəllimi» müstəqil dövlətimizin milli təhsil quruculuğuna, milli-mənəvi dəyərlərə söykənən yeni təhsil sisteminin formalaşması işinə xidmət edir.

Təhsil islahatlarının həyata keçirilməsinə başlandığı ilk gündən bu işə layiqli töhfələr verən «Azərbaycan müəllimi» faydalı təşəbbüsləri, qabaqcıl təcrübəni yaymaq, yenilikçi müəllimlərin iş metodlarını ümumiləşdirib pedaqoji ictimaiyyətə çatdırmaq, problemlərin aradan qaldırılmasına yardımçı olmaq baxımından az iş görməmişdir. Respublikanın adlı-sanlı alimləri, təhsil işçiləri, pedaqoqlar, müəllimlər, ziyalılar müntəzəm olaraq qəzetdə çıxış edərək islahatın gedişinə dair öz mülahizələrini söyləyir, müasir təhsil quruculuğunun müxtəlif aspektlərini şərh edirlər.

«Azərbaycan müəllimi» qəzeti müstəqillik illərində ümummilli lider Heydər Əliyevin milli təhsil quruculuğu sahəsində göstərdiyi misilsiz xidmətləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsilin inkişafına göstərdiyi böyük diqqət və qayğı, təsdiq etdiyi çoxsaylı islahat proqramları, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təhsilin inkişafı sahəsində həyata keçirdiyi layihələr barədə təhsil ictimaiyyətinə geniş məlumatların çatdırılmasında tarixi xidmətlər göstərmişdir.

«Azərbaycan müəllimi» həmişə əsl ziyalıların, elm və maarif xadimlərinin tribunası olmuşdur. Qəzetdə akademik Mehdi Mehdizadə, görkəmli alimlər Əhməd Seyidov, Mərdan Muradxanov, Şövqi Ağayev, Nurəddin Kazımov, Zahid Qaralov, Bəşir Əhmədov, Əliheydər Həşimov, Yəhya Kərimov, Əziz Əfəndizadə, Hüseyn Əhmədov, Əkbər Bayramov, Əbdül

Əlizadə, Əjdər Ağayev, xalq müəllimləri Zahid Şöyübov, İsrafil Şükürov, əmək qəhrəmanları Məsmə Atakişiyeva, Zərbəli Səmədov, Məhər Quliyev və başqaları çıxış etmişlər. Bu insanların müxtəlif məsələlər haqqında fikir və mülahizələrinin geniş ictimaiyyətə çatdırılmasında «Azərbaycan müəllimi» əhəmiyyətli rol oynamışdır.

Müxtəlif illərdə qəzetə rəhbərlik etmiş Rüstəm Hüseynovun, Ağəli Bədəlovun, Mirabbas Aslanovun, Şahin Səfərovun, Məhəmməd Baharlının, Valeh Mirzənin və hazırda qəzetin baş redaktoru olan Bayram Hüseynzadənin xidmətləri və zəhməti «Azərbaycan müəllimi»nin keçdiyi zəngin inkişaf yolunda və qazandığı uğurlarda öz təcəssümünü tapır. Bu gün inamla demək olar ki, qəzet müasir jurnalistikanın bütün zəruri tələblərinə cavab verir, öz fəaliyyətində obyektivlik, dəqiqlik, operativlik prinsiplərinə əsaslanır. «Azərbaycan müəllimi» məzmun zənginliyi, mövzu rəngarəngliyi, dizayn və tərtibat baxımından irəliləyişlərə nail olmuşdur. Qəzetin internet saytı (www.muallim.edu.az) oxucu auditoriyasının daha da genişlənməsinə, pedaqoji maarifçilik işinin səmərəliliyinin artırılmasına müsbət təsir göstərmişdir. Qəzetə olan yüksək ictimai marağın nəticəsidir ki, son illərdə «Azərbaycan müəllimi»nin tirajı nəzərəçarpacaq dərəcədə artmışdır.

Qazanılan uğurlardan arxayınlaşmayan «Azərbaycan müəllimi» qəzetinin kollektivi öz fəaliyyətini daha da genişləndirməkdə və inkişaf etdirməkdədir. Kollektivin hər bir üzvü tam məsuliyyətlə anlayır ki, müstəqil dövlətimizin təhsil siyasətinin təbliğatçısı funksiyasını layiqincə yerinə yetirmək olduqca şərəfli və çətin işdir. Heç şübhə yoxdur ki, «Azərbaycan müəllimi» qəzeti öhdəsinə düşən belə ümdə vəzifəni layiqincə yerinə yetirməklə yanaşı, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi işində də öz səylərini əsirgəməyəcəkdir.

7.3. «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı


«Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı 1954-cü ildən pedaqoji ictimaiyyətin xidmətindədir. Məcmuə uzun illər «Azərbaycan məktəbi» jurnalının metodik əlavəsi kimi nəşr olunmuşdur. Ötən əsrin 90-cı illərində müstəqil redaksiya yaradılaraq əvvəlcə «Ana sözü» adı ilə nəşr edilməyə başlamışdır, sonra isə yenidən jurnalın ilkin adı bərpa edilmişdir.

«Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı Azərbaycan dili və Ədəbiyyat fənlərinin tədrisi, təbliği və tədqiqi problemlərini araşdırır. Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olaraq, dilimizin təmizliyinin və saflığının qorunmasına xidmət edən «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq şəkildə təhsil islahatlarının istiqamətlərini işıqlandırır.

Jurnalda Azərbaycan dili və Ədəbiyyat fənlərinin tədrisinə dair müasir metodikanı, qabaqcıl müəllimlərin iş təcrübələrini ümumiləşdirilmiş formada əks etdirən yazılar dərc olunur. Məcmuənin səhifələrində Azərbaycan dili və ədəbiyyatının elmi-nəzəri məsələlərini yeni, müasir baxımdan şərh edən məqalələr verilir, metodikanın yeniləşməsi prosesində demokratik prinsiplərə əsaslanaraq plüralizmə, dialoq və müzakirələrə geniş meydan açılır,

müəllimlərin maraq dairəsini nəzərə alaraq faydalı elmi-metodik yazılar xarici ölkə jurnallarından tərcümə edilib işıqlandırılır, dünya ədəbiyyatının son nailiyyətləri barədə məlumatlar çatdırılır.

Jurnal təlim qeyri-Azərbaycan dilində aparılan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi metodikasına, qabaqcıl müəllimlərin iş təcrübələrinə, proqram və dərsliklərə dair yazılar dərc edir, respublikamızdan kənarda yaşayan həmvətənlərimizə ana dilimizin öyrədilməsi yolları barədə bilgilər verir. Jurnalda ədəbiyyatşünaslıq və dilçiliyə, dil və ədəbiyyatın tədrisi tarixinə, qloballaşan dünyada baş verən mühüm ədəbi proseslərə, yeniliklərə dair materiallar geniş yer tutur.



«Azərbaycan dili və ədəbiyyatı tədrisi»nin səhifələrində respublikamızın görkəmli elm və ədəbiyyat xadimləri, metodist alimlər, adlı-sanlı müəllimlər çıxış edir, fikir mübadiləsi aparırlar. Jurnal, demək olar ki, məktəb müəllimlərinin, ali məktəblərin dil və ədəbiyyat kafedralarında çalışan alimlərin, pedaqoqların əlaqə mərkəzidir. Məcmuədə tez-tez Təhsil Nazirliyi və Təhsil Problemləri İnstitutunun əməkdaşları çıxış edərək müəllimlərə tövsiyələrini verir, onları metodik cəhətdən istiqamətləndirirlər. Azərbaycan dili və ədəbiyyatı ilə bağlı sahə institutları rəhbərlərinin, respublikamızın tanınmış mütəxəssislərinin çıxışları da jurnal səhifələrində müntəzəm yer alır. Akademiklər Ağamusa Axundov, Bəkir Nəbiyev, İsa Həbibbəyli, AMEA-nın müxbir üzvləri Tofiq Hacıyev, Nizami Cəfərov, professorlar Yusif Seyidov, Şəmistan Mikayılov redaksiya heyətinin üzvləri kimi jurnalın fəaliyyətinin təkmilləşdirilməsində yaxından iştirak edir, maraqlı yazıları ilə oxucu auditoriyasını genişləndirirlər. Jurnalın zaman-zaman formalaşıb inkişaf etməsində mərhum professorlar Ağəmməd Abdullayevin, Əziz Əfəndizadənin xidmətlərini də xüsusi qeyd etmək lazımdır.

Baş redaktoru Məhəmməd Baharlı olan jurnal bu gün də ənənələrinə sadiq qalır və fəaliyyətini yeni məzmunda davam etdirir. Təhsildə baş verən yeniləşməyə, müasir inkişaf tendensiyalarına uyğun olaraq, məcmuə dəyişir və müəllimlərin stolüstü vəsaitinə çevrilir.

Pedaqoji mətbuat müəllimin ən yaxın köməkçisidir. Qabaqcıl müəllimlərin bir çoxu pedaqoji mətbuatdan bəhrələnərək daha da püxtələşmişdir. Bu həqiqəti yüksək qiymətləndirən Təhsil Nazirliyi digər müvafiq mətbu orqanlar

kimi, «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalına da yardımlarını əsirgəmir, onun inkişafı üçün bütün lazımi tədbirləri həyata keçirir.

Azərbaycan dilinə dövlətimizin, ölkə rəhbərliyinin xüsusi önəm verdiyi, böyük diqqət göstərdiyi indiki məqamda «Azərbaycan dili və ədəbiyyatı tədrisi»nin də dəyəri artır, məcmuənin üzərinə işini daha yüksək səviyyədə qurmaq məsuliyyəti düşür. Jurnalın yaradıcı heyəti bu məsuliyyəti duyur və daha səmərəli fəaliyyət üçün yeni-yeni yollar arayır.

7.4. «Fizika, riyaziyyat və informatika tədrisi» jurnalı

«Fizika və riyaziyyatın tədrisi» metodik məcmuə 1954-cü ildən nəşr olunmağa başlamışdır. Bu məcmuə «Azərbaycan məktəbi» jurnalına əlavə kimi ildə dörd dəfə buraxılırdı. Jurnalın əsas məqsədi ümumtəhsil məktəblərində fizika və riyaziyyat fənlərinin tədrisi keyfiyyətini yüksəltməkdə müəllimlərə metodik kömək göstərməkdən ibarət idi.

İlk nəşrindən başlayaraq jurnalda fizika və riyaziyyat fənlərinin tədrisində çətinliyi olan mövzuların öyrədilməsinə aid metodist-alimlərin məqalələri çap olunmuşdur. Məcmuədə qabaqcıl müəllimlərin də məqalələrinə yer ayrılmışdır. Fizika və riyaziyyat fənləri üzrə olimpiadaların nəticələri də jurnalın səhifələrində yer almışdır.

XX əsrin 70-ci illərindən məcmuəyə yeni bölmələr daxil edildi. «Metodika» bölməsində ümumi məsələlərə aid materiallar, «İş təcrübəsi» bölməsində qabaqcıl müəllimlərin məqalələri, «Sinifdənxaric işlər» bölməsində digər materiallar nəşr olunmuşdur. Bununla yanaşı, «Oxucuların məktubları»nda çoxsaylı fizika və riyaziyyat müəllimlərinin də yazılarından qeydlər verilirdi.

XX əsrin 80-ci illərindən məcmuənin səhifələrində informatika və hesablama texnikasına aid yazılar da verilməyə başlamış və jurnalın adı «Fizika, riyaziyyat və informatika tədrisi» adlandırılmışdır. Məcmuənin ilk redaktoru dosent Kəriş Köçərli olmuşdur. Sonralar məcmuənin redaktorları professorlar Abbasqulu Abbaszadə, Sadıx Sadıxov, Süleyman İmamzadə və Zahid Qaralov olmuşlar.

1990-cı ildən 2000-ci ilə qədər jurnal iqtisadi çətinliklər üzündən çap olunmamışdır. 2000-ci ildən başlayaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə professor



Həmzə Seyidlinin baş redaktorluğu ilə ildə 4 dəfə olmaqla çapdan çıxmağa başlamışdır.

«Fizika, riyaziyyat və informatika tədrisi» məcmuəsinin qarşısında duran başlıca vəzifə ümumtəhsil məktəblərində fizika və riyaziyyat fənlərinin tədrisinin yaxşılaşdırılmasında müəllimlərə kömək etməkdən ibarətdir.

Məcmuə oxucuları fizika, texnika və riyaziyyata aid yeni ədəbiyyatla tanış etmək, həmçinin fizika, astronomiya, riyaziyyat və rəsmxətə aid məsələlər haqqında məlumat vermək məqsədini də qarşıya qoymuşdur.

Jurnal istedadlı şagirdlərlə iş, riyaziyyatın tədrisi problemləri, həmin fənlərin tədrisi prosesində tərbiyə, Azərbaycanın və dünya ölkələrinin görkəmli alimlərinin həyat və yaradıcılığı ilə tanışlıq, şagirdlərin regional və dünya olimpiadalarına hazırlaşdırılması, fənn müəllimlərinin elmi-nəzəri, pedaqoji ustalıqlarının artırılması, təhsil islahatlarının istiqamətlərini də işıqlandırır.

Məcmuə bir tərəfdən fizika, riyaziyyat və informatika üzrə qabaqcıl məktəblərin, müəllimlərin təcrübəsini ümumiləşdirib yayır, digər tərəfdən tədris prosesindəki çatışmazlıqları müəyyən edərək çıxış yolları göstərən yazılar dərc edir. Jurnal, həmçinin dövlət orqanlarının, o cümlədən Təhsil Nazirliyinin qərar və göstərişlərini təbliğ edən müxtəlif səpkili yazıları oxucularına çatdırır. Oxucular jurnalda fizika, riyaziyyat və informatikanın elmi-nəzəri məsələlərini müasir baxımdan şərh edən, müəllim və şagirdlərin maraq dairəsinə uyğun olaraq onlar üçün faydalı, orjinal, nəzəri-metodik yazılarla, inkişaf etmiş ölkələrdə fizika, riyaziyyat və informatikanın tədrisinə dair qabaqcıl təcrübəyə aid materiallarla da tanış ola bilirlər.

7.5. «Məktəbəqədər və ibtidai təhsil» jurnalı

Respublikamızda təhsil sisteminin inkişafı çox mühüm təşkilati və idarəetmə amilləri ilə yanaşı, həm də onun pedaqoji təminatından asılıdır. Məlumdur ki, istər təlimin, istər inkişafın, istərsə də tərbiyənin mütəşəkkil təşkilinin ilk addımları məktəbəqədər müəssisələrdə, xüsusilə ibtidai siniflərdə atılır. Bunu nəzərə alaraq 1970-ci ildə – ibtidai təhsilin ilk dəfə ciddi eksperimental axtarışlara məruz qaldığı bir dövrdə «Azərbaycan məktəbi» jurnalının nəzdində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsinin yaradılması qərara alındı. İldə 6 dəfə çap olunan bu məcmuə təhsilin aşağı pilləsini elmi əsaslarla idarə edən, yeni uğurlara yönəldən yeganə mətbu orqan idi.

Məcmuənin 1-ci nömrəsində oxuculara belə müraciət edilmişdi: «Mövcud çətinlikləri aradan qaldırmaq üçün hər bir müəllim yorulmaq bilmədən oxumalı, yeni proqramların tələblərini həyata keçirmək üçün öz ixtisasını artırmalı, metodik ustalığını təkmilləşdirməlidir. Bu işdə məcmuə sizə yaxından kömək edəcəkdir. Onun səhifələrində sizi maraqlandıran metodik məsələlərə dair məqalələr oxuya biləcəksiniz. Məcmuədə sinif müəllimlərinin, uşaq bağçası tərbiyəçilərinin qabaqcıl iş təcrübəsini əks etdirən materiallar, proqramın çətin və mürəkkəb bölmələrinin tədrisinə kömək edəcək metodik göstərişlər, uşaqlarla aparılan tərbiyə işlərinə dair məqalələr dərc olunacaqdır».

Məcmuə yarandığı gündən başlıca olaraq iki istiqamətdə fəaliyyətə başladı: pedaqoji kadrların elmi-nəzəri səviyyələrinin yüksəldilməsi; məktəbəqədər tərbiyə və ibtidai təhsil

müəssisələrinin təcrübəsinin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması.

Məcmuənin fəaliyyətinin 20 ili sovet hakimiyyəti dövrünə təsadüf edir. Həmin illərdə SSRİ Pedaqoji Elmlər Akademiyası tərəfindən irəli sürülmüş təhsilin həyatla əlaqələndirilməsi, ikiilliksiz təlim, təlimin intensivləşdirilməsi, təlim prosesində fərdiləşdirmə, təlimin texniki vasitələrindən istifadə, proqramlaşdırılmış təlim, təlim prosesinin optimallaşdırılması, problemli təlim və s. məsələlərlə əlaqədar yazılar, pedaqoji eksperimentlər məktəblərimizə yeni nəfəs gətirmişdi.

Məcmuə sadalanan yenilikləri təsvir etmək deyil, onların mahiyyətini açmaq, yerli şəraitə uyğunlaşdırmaq, müəllimləri şüurlu fəaliyyətə cəlb etmək istiqamətində xeyli iş görmüş, böyük təşkilatçı rolunu oynamışdı. O zaman üçillik, sonradan dördillik ibtidai təhsil sisteminə keçilməsi, 6 yaşdan təlimə başlanması, beşgünlük tədris həftəsinə keçilməsi ilə əlaqədar eksperimental tədqiqatların mahiyyətinin müəllimlərə, təhsil işçilərinə çatdırılması məcmuənin ilk 20 ilinin əlamətdar hadisələridir.

Məcmuə 70-ci illərin əvvəllərindən başqa bir problem üzrə təbliğata və praktik köməyə başladı. Bu, azsaylı xalqların uşaqlarının məktəbdə, azərbaycanlıların isə uşaq bağçalarında məktəbə hazırlanmaları üçün proqramların, metodik göstərişlərin müəllimlərə təqdim olunması, müəllimlərin fəaliyyətinin düzgün istiqamətləndirilməsi idi.

Jurnal vasitəsilə 6 yaşdan təlimin sistemi, məzmunu, eksperimentin gedişi yolları işlənib müəllimlərə çatdırıldı. Beləliklə, məcmuə müəllimin bu işə hazırlığını təmin etdi. Uşaq bağçalarının hazırlıq qrupları və məktəblərdə təşkil olunmuş hazırlıq siniflərində alınan müsbət nəticələr məktəb təliminə bir il tez başlamaq fikrini reallaşdırdı. 1992-ci ildə 6 yaşdan kütləvi təhsilə keçildi.

Axtarışlarla dolu olan bu dövrdə (1981–1984-cü illər) beşgünlük tədris həftəsi üzrə işin təşkili 10 uşaq bağçası və 40 məktəbdə sınaqdan keçirildi, jurnal onun da gedişini şərh etdi və nəticəsi oxuculara çatdırıldı.

Bütün bunlar müəllimlərin ixtisasının artırılmasına, təhsil quruculuğuna faydalı xidmət olmaqla jurnalın təşkilatçılıq və təbliğatçılıq bacarığını göstərdi. Bu prosesdə məcmuənin özü də formalaşdı.

Jurnal dövlətin təhsil siyasətinə, məktəb quruculuğuna, Respublika Təhsil Nazirliyinin



həyata keçirdiyi tədbirlərin dəstəklənməsinə və təbliğinə sədaqətlə xidmət etmişdir. Bu gün jurnal müstəqil respublikamızın təhsil islahatlarından irəli gələn vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində yorulmadan fəaliyyət göstərir.

Məcmuənin ərsəyə gəlməsində və formalaşmasında onun redaksiya heyətinin üzvləri Muxtar Həmzəyev, Əfşan Qədimbəyova, Məcid İsmixanov, Nüsrət Sadıqov, Əliağa Şükürov, Ziyad Osmanov, Paşa Hacıyev, Məmmədhənifə Musayev, Məsmə Atakişiyevanın əməyi böyük olmuşdur. Nağı Günəşli, Əjdər Ağayev, Məhəmməd Baharlı baş redaktorun müavini kimi xüsusi xidmət göstərmişlər.


Yarandığı gündən «Məktəbəqədər və ibtidai təhsil» jurnalına professor Yəhya Kərimov rəhbərlik edir.

7.6. «Sənətkar» jurnalı

«Sənətkar» jurnalı 1969-cu ildən «Gənc fəhlə» adı ilə nəşrə başlamışdır və 2000-ci ildən «Sənətkar» adı ilə fəaliyyətini davam etdirir. Jurnal ildə 4 dəfə 4 çap vərəqi həcmində nəşr olunur.

Jurnalın ilk baş redaktoru Tofiq Allahverdiyev olmuş, sonralar isə jurnala Bəhman Əliyev, Tahir Cəfərov rəhbərlik etmişdir. «Sənətkar» adı ilə nəşr olunduğu ildən jurnalın baş redaktoru Şahbaz Balakişiyevdir.

Respublikamızda peşə təhsilini inkişaf etdirmək, onun informasiya təminatını yaxşılaşdırmaq, metodiki təminatını gücləndirmək, qabaqcıl ölkə və dünya təcrübəsini öyrənib yaymaq işini «Sənətkar» jurnalı həmişə özünün ümdə vəzifəsi hesab etmişdir.



Jurnalda müntəzəm olaraq Təhsil Nazirliyinin əməkdaşlarının, tanınmış pedaqoqların, Təhsil Problemləri İnstitutunun mütəxəssislərinin, ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərlərinin, müəllim və istehsalat təlimi ustalarının məqalələri, tövsiyələri, metodik işləri dərc olunur.

2010-cu ildə jurnalın 40 illik yubileyi qeyd edilmişdir.

7.7. «Təhsil xəbərləri» məlumat-informasiya məcmuəsi

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsis edilmiş «Təhsil xəbərləri» məlumat-informasiya məcmuəsi 2001-ci ildən mənim baş redaktorluğum altında nəşr olunur.



Məcmuədə Azərbaycan Respublikası Prezidentinin təhsil sahəsi ilə bağlı fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları, normativ-hüquqi sənədlər, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrləri və təhsilə dair informasiyalar dərc edilir.

Bu dövri nəşr ilk vaxtlar ildə 4 dəfə çıxırdı. Məlumatların operativ şəkildə oxuculara çatdırılmasını təmin etmək məqsədilə 2004-cü ildən etibarən məcmuə ildə 6 dəfə çap olunur.

7.8. «Təhsil problemləri» qəzeti

«Təhsil problemləri» qəzeti Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun orqanı kimi fəaliyyət göstərir. Qəzetin ilk nömrəsi 2002-ci ilin noyabrında işıq üzü görmüşdür. Baş redaktoru yazıçı-jurnalist Malik Rəcəbdir (Malik Rəcəb oğlu Qurbanov).

«Təhsil problemləri» qəzetinin məramı müstəqil Azərbaycan Respublikasının təhsil siyasətini geniş oxucu auditoriyasına çatdırmaqdır. TPİ-də aparılan elmi-pedaqoji tədqiqat işləri, pedaqoji ictimaiyyəti narahat edən hüquqi və sosial məsələlər, Avropa təhsil sisteminə inteqrasiya, qabaqcıl dünya təcrübəsi, qloballaşan dünyada sürətlə gedən elmi-texniki tərəqqi və digər məsələləri pedaqoji ictimaiyyətə çatdırmağa çalışan «Təhsil problemləri» qəzeti geniş oxucu auditoriyası qazanmışdır.

İnsanın bütöv bir şəxsiyyət kimi inkişafına istiqamətlənmiş şəxsiyyətyönümlü ümumi təhsilin mühüm əlamətlərini geniş oxucu kütləsinə çatdırmağı məqsəd kimi qarşısına qoyan «Təhsil problemləri» qəzetinin hər nömrəsində bu mövzuda əlaqəli məqalələr dərc edilir.

Təhsilalanların təlim prosesinin mərkəzinə gətirilməsini, inkişafetdiriciliyi, inteqrativliyi və fundamentallığı önə çəkən «Təhsil problemləri» qəzeti öz oxucularına bu prinsipləri çatdırmağa çalışır.

Qəzet səhifələrində tanınmış pedaqoq-alimlərin çıxışlarına, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi önəm verir. Milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı qəzetin hər nömrəsində müxtəlif səpkili materiallar dərc olunur.

İnkişaf etmiş ölkələrin təhsil modellərini pedaqoji ictimaiyyətə çatdıran «Təhsil problemləri» qəzeti respublikamızda aparılan təhsil


Təhsil millətin gələcəyidir

TƏHSİL PROBLEMLƏRİ

Heydər Əliyev və Azərbaycanın müstəqilliyi

7.9. «Təhsil və zaman» qəzeti

Azərbaycan Təhsil Şurasının mətbu orqanı olan «Təhsil və zaman» qəzeti 2002-ci ilin dekabr ayından nəşrə başlamışdır. Qəzet 2 il «Körpü» adı ilə oxucuların görüşünə gəlmiş, bu günə qədər ayda iki dəfə olmaqla 215 nömrəsi çapdan çıxmışdır. Ölkəmizdə təhsil quruculuğu, təhsil islahatları qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, digər ölkələrin təhsil təcrübəsi və bu kimi məsələlər qəzetin səhifələrində öz əksini tapır.

Qəzetin səhifələrində dərc olunun məqalələr, əsasən, «Qabaqcıl təcrübənin ünvanı», «Metodik tövsiyə», «Xarici pedaqoji mətbuat səhifələrində», «Sinifdənxaric oxu üçün»,


Təhsilin həyatından səhifəsinə Körpü

Təhsil və zaman

Azərbaycanın Dövlət Müstəqilliyi – 20

İğdır Universitetində panel təşkil olunub

VI BEYNƏLXALQ TÜRK DİLİ QURULTAYI

Məktəblərdə hərbi dərslərin keçirilməsi vətənpərvərlik ruhu formalaşdırır

islahatlarını geniş şəkildə şərh edir. Təkcə 2009–2010-cu illərdə «Təhsil problemləri» qəzetində kurikulumla bağlı 500-dən çox məqalə dərc edilmiş, ibtidai sinif müəllimlərinə kömək məqsədi ilə «xüsusi buraxılış»lar nəşr olunmuşdur.

«Təhsil problemləri» qəzetinin işıqlandırmağa çalışdığı çox vacib sahələrdən biri də təhsildə innovasiya texnologiyalarının tətbiqidir. Müəllimlərin çox ehtiyac duyduğu innovasiya texnologiyaları nümunələrinə qəzetin hər nömrəsində rast gəlmək olar.

«Məktəbdənkənar təlim-tərbiyə müəssisələri», «Qəhrəmanlıq salnaməsi», «Həyat dərsi», «İstedad sorağında», «Qəlbi geniş insanlar», «Psixo-pedaqoji məsələlər», «Poeziya», «Rəy», «Məktəblilərin musiqi klubu», «Tələbə tribunası», «Ziyalı ünsiyyəti», «Valideynlər üçün» «Vətənpərvərlik tərbiyəsi», «Milli-mənəvi dəyərlər», «Təhsil tariximizdən», «Mətbuat tariximizdən» və digər rubrikalar altında oxuculara təqdim olunur. Qeyd olunan mövzularda oxucuların da məqalələrinə geniş yer verilir. Göründüyü kimi, «Təhsil və zaman» qəzeti təhsilin bütün sahələrini əhatə etməklə oxucu tələbini ödəməyə, onları dövrün təlim-tərbiyə, pedaqoji ideyaları, təhsil yenilikləri ilə daha yaxından tanış etməyə çalışır.

Təhsil Şurasının və qəzetin kollektivi tez-tez oxucuların görüşünə gedir. Pedaqoji kollektivlərlə, tələbə və şagirdlərlə mütəmadi olaraq keçirilən görüşlərdə, diskussiyalarda, seminarlarda, dəyirmi masalarda, müzakirələrdə problemlərin aşkarlanmasına və konkret təkliflərin irəli sürülməsinə şərait yaranır.

Müəllimlərin pedaqoji və yaradıcılıq nümunələri, fəaliyyəti ilə həyatda iz qoymuş şəxsiyyətlər, görkəmli pedaqoq və ədəbi simalar haqqında xatirələr, yeni nəşr olunmuş əsərlər haqqında rəylər də oxucuların marağına səbəb olur.

Qəzetin səhifələrində məcburi köçkün məktəblərin, həmçinin döyüş bölgəsində, cəbhə xəttində yerləşən təhsil ocaqlarının fəaliyyətindən mütəmadi olaraq bəhs edilir, həmin məktəblərin nailiyyətləri, uğurları, eləcə də mövcud problemləri ölkə ictimaiyyətinə çatdırılır.

Yarandığı gündən qəzetin baş redaktoru professor Əjdər Ağayevdir.



7.10. «Təhsil» jurnalı

«Təhsil» jurnalının ilk nömrəsi 2007-ci ildə işıq üzü görmüşdür. Maliyyə çətinliyindən jurnalın çapı bir müddət dayandırılmışdır.

2010-cu ilin may ayından jurnal fəaliyyətini davam etdirir. Baş redaktoru Malik Novruzovdur. Ayda bir dəfə 92 səhifə həcmində çap olunur. Jurnalda «Ali məktəb və orta ixtisas təhsili», «Texniki-peşə, ümumi təhsil və məktəbəqədər tərbiyə» və «Reklam və elanlar» şöbələri fəaliyyət göstərir.

Jurnal qısa vaxtda geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

«Təhsil» jurnalının əsas məqsədi təhsil sahəsində dövlət siyasətini təbliğ etmək, ali, orta ixtisas, ilk peşə-ixtisas, ümumtəhsil və məktəbəqədər təhsil sahələrində ölkəmizdə aparılan islahatlardan, müəllimlərin, məktəb rəhbərlərinin qabaqcıl iş təcrübəsindən bəhs etmək, xarici ölkələrdə təhsil sahəsində qazanılan uğurlardan, kurikulumların məktəblərdə tətbiqindən və ibtidai sinif müəllimlərinin bu sahədəki fəaliyyətini işıqlandırmaqdan ibarətdir.

Məktəb–valideyn əlaqələrinin genişlənməsi, gənclərimizin düzgün tərbiyə olunması, ana dilimizin və mənəvi dəyərlərimizin qorunub saxlanması da jurnalın diqqət yetirdiyi sahələrdəndir.

7.11. «Bakı təhsili» qəzeti

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin həftəlik mətbu orqanı olan «Bakı təhsili» qəzeti 2007-ci il sentyabr ayının əvvəlindən nəşr olunur. Qəzetdə paytaxtın təhsil müəssisələrindəki yeniliklər işıqlandırılır, təhsil ocaqlarının uğurları, müvafiq hüquqi-normativ sənədlər barədə məlumat verilir, təhsil işçiləri, şagird və valideynlər arasında maarifləndirmə işləri aparılır.

Qəzetdə mütəmadi olaraq təhsil sahəsindəki yeniliklər, təhsil müəssisələrindəki mövcud vəziyyət, metodiki tövsiyələr, dünya təhsilindən qabaqcıl təcrübə nümunələri, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrində görülən işlər və başqa zəruri məlumatlar əksini tapır.

«Bakı təhsili» qəzetinin baş redaktoru Zəminə Əliqızıdır.


Təhsil millətin gələcəyidir

BAKI TƏHSİLİ

DEKABRDA MƏKTƏBLƏRDƏ FƏNN AYLIĞI KEÇİRİLƏCƏK

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iş həftəsi

MƏKTƏBLƏRDƏ BİLİK YARIŞI KEÇİRİLİB

BƏHMAN NƏBİYEV: "KEYFİYYƏTLİ KADR KEYFİYYƏTLİ TƏHSİL DEMƏKDİR"

BAĞÇALARDA NƏ VAR, NƏ YOX?

ƏMƏK HAQQI MÜƏLLİM ƏMƏYİNİN STİMULLAŞMASINDA ƏSAS FAKTORDUR?

7.12. «Kurikulum» elmi-metodik jurnalı


«Kurikulum» elmi-metodik jurnalı Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən 2007-ci ildə təsis olunmuşdur. Jurnalın təsis olunması yeni kurikulum sənədlərinin məzmunu və mahiyyəti, onlarla işin xüsusiyyətlərinin müəllimlərə, metodistlərə, məktəb rəhbərlərinə, təhsil orqanlarının əməkdaşlarına ətraflı izah olunması, onların bu prosesə elmi-metodik və psixoloji hazırlığının təmin edilməsi ilə bağlıdır. Eyni zamanda təhsil

işçilərinə elmi-metodik köməyi gücləndirmək, gələcəkdə kurikulumların təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi ilə bağlı elmi-tədqiqat işlərinin nəticələrini işıqlandırmaq, ölkəmizdə və xaricdəki qabaqcıl təcrübə nümunələrinin yayılmasını təmin etmək də bu jurnalın ümdə vəzifəsidir.

Jurnalın redaksiya heyətinə görkəmli alimlər, tanınmış təhsil mütəxəssisləri, kurikulum sahəsində böyük təcrübəyə malik xarici ölkə mütəxəssisləri daxildir. Jurnalın qarşısında duran məsələlərin əhəmiyyəti və miqyasını nəzərə alaraq baş redaktor vəzifəsini öz üzərimə götürmüşəm.

2008-ci ilin yanvar ayında jurnalın ilk nömrəsi çapdan çıxmışdır. Jurnal ildə 4 dəfə, 154 səhifə həcmində çap olunur. Jurnalda yeni kurikulumların tətbiqi sahəsində qabaqcıl iş təcrübələrinə, təhsilin məzmunu, təlim texnologiyaları və şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələlərinə həsr olunmuş yazılar, tərcümə materialları, fənn kurikulumları əsasında müasir dərslik və dərs vəsaitlərinin tərtibi texnologiyaları, qabaqcıl məktəb rəhbərləri və müəllimlərin iş təcrübələri, inkişaf etmiş ölkələrin mövcud ümumi təhsil modelləri, təlim üsulları, təhsildə İKT-nin tətbiqi ilə bağlı təbliğat, maarifləndirmə və tədqiqat xarakterli məqalələr dərc olunur. Bunlarla yanaşı, jurnal müəllim və şagirdlər üçün müxtəlif vəsaitlər, o cümlədən metodik vəsaitlər və didaktik materiallar işləyib hazırlayır, müvafiq təhsil resurslarının yaradılması işində fəal iştirak edir.

Jurnal ilk nömrəsindən başlayaraq müəllimlər arasında geniş populyarlıq qazanmış,



onların yaxın köməkçisinə çevrilmişdir, aktual və maraqlı elmi-metodik məqalələr, müəllimlərin təlim fəaliyyətinə aid rəngarəng praktik materiallar çap etməklə ölkə müəllimlərinin böyük bir hissəsini vahid auditoriyaya toplayır, onların islahatın tələbləri əsasında yenidənhazırlanması işində böyük xidmət göstərir. «Kurikulum» jurnalı qısa müddət ərzində bütün parametrlərinə – məzmunu, tərtibatı və tirajına görə təhsil və elm sahəsində ölkədə nəşr olunan jurnallar arasında lider mövqe qazanmış, ölkənin təhsil sistemində öz layiqli yerini tutmuşdur.

Misir Mardanov. The Azerbaijani Education History. Voluminous. Volume III

SUMMARY

The 3rd of the multivolume edition titled «History of education in Azerbaijan» is dedicated to development of elementary, general secondary, basic and intermediate vocational, as well as out-of-school education during the national independence of our country. During the first years of independence (1991-1993), Azerbaijan had quite difficult time in its sociopolitical life. The transition from socialist methods of husbandry to market relationships complemented by a multitude of problems took place exactly in these years. Infighting and power struggle were aggravating in a country involved in war. Confusion, chaos and danger of splitting swept the country. This situation reflected seriously in all branches of economy, including the system of education.

The successful economic policy conducted in the following years, implementation of purposeful oil strategy, strengthening of reforms in market relationships created conditions for enforcement of a turning point in socioeconomic development of Azerbaijan and gradual improvement of our nation's material welfare. Dynamic development of economy in these years, particularly during the first years of the 21st century were accompanied by increased governmental care for progress of social sphere, significant growth of attention towards it, as well as of resources allocated for this sphere. At this stage, Azerbaijan became one of the most stable governments in the political perspective not only in the region, but also in Europe, earned a great prestige in international community and joined the ranks of leading world countries for their economic growth rate. The growth of our country's economic power promoted the significant increase of investments in education. State budget spending for education in 2011 totaled 1.5 bn manats. The first stage of educational system in Azerbaijan is preschool education. This stage plays a special role in intellectual, physical and psychological development of a child, in formation of his/her personality and preparation to school. It is no mere chance that the basis of transforming material values into human capital is laid exactly in preschool educational institutions. Researches show that the means spent on development of a child of this age phase eventually pay off sevenfold. For this reason a significant part of educational budget in advanced countries is allocated to preschool education.

In the «Law on Education» adopted in 2009, preschool education is perpetuated as the first stage of Azerbaijani educational system.

The law says that preschool education, being the first stage of educational system, shapes the intellectual, physical and psychological development in small children in accordance with interests of family and society, as well as sensitive attitude to nature and humans, ensures transfer of elementary work skills to them, revelation of their talents and abilities, protection of health and esthetical education.

Preschool education can be provided in institutions of preschool education, in appropriate structural subdivisions of general education institutions or in family depending on the desire of parents or other lawful representatives of a child.

In recent years, concrete measures have been taken for elimination of problems in the field of preschool education and its improvement in cooperation with international organizations, a purposeful work has been carried out in implementation of modern education technologies. Projects of such organizations as UNICEF, UNESCO, Open Society Institute Fund – Azerbaijan, World Food Organization have been implemented in Azerbaijan. 51 preschool educational institutions of the country's 18 regions have gained certain experience in implementation of «Step by Step» education technology of the Open Society Institute Fund and training centers have been opened in 8 regions. Effective activity of 33 Centers of Child Development formed by the Ministry of Education in collaboration with UNICEF representative office in 14 regions of Azerbaijan have played a positive role in the psychological rehabilitation of children from the families of internally displaced people.

The Program of «Upgrading Preschool Education in the Azerbaijan Republic» (for 2007-2010) was approved by the decree of the President of Azerbaijan Republic on April 12, 2007. The Program defines such important tasks as availability of preschool education for the disadvantaged strata of population, improvement of the personnel potential, development of a new curriculum, increase of the public profile of preschool education in general, and makes provisions for preparation and adoption of the law on preschool education. Thus, the foundation of a new period in the history of preschool education was laid in the period of independence.

The years of independence in Azerbaijan are characterized as a period of implementation of significant reforms in the field of general education. Most importantly, refusal from Cyrillic alphabet, which was used in written communication for 70 years, brought about the transition into Latin alphabet.

The «Law on Education» adopted on 7th of October 1992, contained a number of progressive provisions, including the upholding of such important issues as creation of additional paid study groups in public education institutions, establishment of specialized education at the stage of secondary education, formation of non-governmental educational and fostering institutions and education establishments of new kind, conduction of elections for the leaders of education institutions, introduction of weekly 12-hour tariff rate in general education

schools, application of benefits for pedagogic employees, implementation of tax advantages for educational activity and so on.

In the first years of independence, since 1992, in accordance with the Constitution of Azerbaijan Republic, the «Law on Education», decision of the Cabinet of Ministers and based on agreements concluded between the education ministries of Azerbaijan Republic and Turkey, the Turkish Anatolian Lyceum (Türk Anadolu Lisesi) was established through cooperation with the Education Ministry of Turkey, Ataturk Lyceum (Türk Dünyası Atatürk Lisesi) through the Turkish World Research Agency, Baku Turkish Lyceum was established under the Faculty of Theology of Mammad Amin Rasulzadeh Baku State University through the Turkish Agency Dayanet, Baku Private Turkish Lyceum through the «Çağ» Öğretim İşletmeleri Anonymous Company with affiliates in Sumgayit and Mingachevir cities and Agdash, Guba and Lenkeran regions, as well as the Sumgayit Private Turkish Lyceum, Nakhchivan Turkish Lyceum in Nakhchivan city through mediation of the Turkish newspaper Zaman with affiliates in Sharur and Ordubad regions of the Nakhchivan Autonomous Republic of Azerbaijan.

In accordance with Presidential Decree, two ministries – the Ministry of Education and Ministry of Higher and Secondary Special Education were created on May 18, 1993 on the basis of the Ministry of People's Education. The two ministries lasted until September 1993, when they were merged into the Ministry of Education of Azerbaijan Republic.

Despite the fact that enough time has passed since the restoration of state independence and adoption of the «Law on Education», many of the matters underlined in this Act have not found a solution. There was not an appropriate regulatory and legal framework for this and schools continued referring to the regulations inherited from the Soviet educational system. Therefore, in 1993-1994, in accordance with the first «Law on Education» adopted after the national independence, the country began to create the legal framework of general education. Experts of the Ministry of Education developed many regulatory and legal documents governing the work of general educational institutions that were approved and sent to local education authorities.

The Constitution of Azerbaijan Republic – the first basic law of our independent country was adopted on November 12, 1995. The Article 42 of the Constitution titled «The Right to Education» had laid down the basic principles of educational policy of the government:

I. Every citizen is entitled to education;
II. Government guarantees the right for free and compulsory general secondary education;
III. The system of education is controlled by government;
IV. The government guarantees talented people continuation of their education irrespective of their material condition;

V. The government establishes minimal standards of education.

The conceptual idea expressed by national leader Heydar Aliyev: «One of the blessings independence has bestowed upon our nation is that we are already building our education system in accordance with the history of our nation, its moral principles and traditions. In this perspective, change of textbooks and development of new textbooks has a special importance...» played a certain role in the preparation of new textbooks and teaching aids.

The next congress of teachers of Azerbaijan took place on September 25, 1998 in Baku, at the «Republic Palace». It was the 9th Congress by count and the first one in the years of independence of our country. The congress was attended by 1995 delegates.

On June 15, 1999 the President of Azerbaijan Republic approved the Program of reforming the education system of our country. In preparation of the draft program we took the success and progressive traditions we have achieved in the field of education as the point of reference and used the experience of advanced countries, i.e. human values. The Program has defined the strategy of developing education in the country. The Program envisages the implementation of reforms in three stages.

The first stage was called preparatory and covered the year 1999. At this stage, organizational measures were planned aimed at establishment of a new regulatory-legal, economic, and informatory basis, which would ensure the right of citizens to education and be consistent with requirements of market economy.

The second phase covering a short period of time (2000-2003) was characterized by activities planned and aimed at socioeconomic stability in the sphere of education, as well as establishment of organizational, regulatory and legal, human resourcing, financial, logistical, scientific, instructional and methodological, as well as information support for wide-ranging reforms to create a new model of governance.

